**HACI FUAD NURULLAH**

# İMAM HÜSEYN (ə):
# ŞƏHİDLİK MƏKTƏBİNİN USTADI

**NURLAR**

BAKI – 2014

Bu kitabı Əhli-beyt aşiqlərinin
ruhuna ithaf edirik.

Bu kitab Azərbaycan Respublikası **Dini Qurumlarla İş Üzrə Dövlət Komitəsi**nin razılığı ilə çap olunmuşdur.
(Məktub № DK-307/M, 21 may 2014)

| | |
|---|---|
| ***Elmi redaktor:*** | **Hacı Vasim Məmmədəliyev**<br>*akademik* |
| ***Elmi məsləhətçilər:*** | **Şahlar Şərifov**<br>*ilahiyyat üzrə fəlsəfə doktoru, BİU-nun müəllimi*<br>**Dilavər Əzimli**<br>*tarix üzrə fəlsəfə doktoru, AMEA-nın Tarix İnstitutunun əməkdaşı*<br>**Hacı Qabil Məcidov**<br>*Əhli-beyt aşiqi* |
| ***İlahiyyat üzrə korrektor:*** | **Hacı İbrahim Quliyev**<br>*BİU-nun müəllimi, AMEA-nın Füzuli adına Əlyazmalar İnstitunun dissertantı* |
| ***Korrektor:*** | **Əhliman Rüstəmov**<br>*QMİ-nin ictimaiyyətlə əlaqələr və ailə məsələləri şöbəsinin aparıcı mütəxəssisi* |

**HACI FUAD NURULLAH**
**İMAM HÜSEYN *(ə)*: ŞƏHİDLİK MƏKTƏBİNİN USTADI.**
Bakı, "NURLAR" Nəşriyyat-Poliqrafiya Mərkəzi, 2014. 424 səh.

*Kitab geniş oxucu kütləsi üçün nəzərdə tutulmuşdur.*

ISBN - 978 - 9952 - 490 - 42 - 8

# MÜNDƏRİCAT


ÖN SÖZ ........ 5
GİRİŞ ........ 8
**I FƏSİL ........ 17**
İMAM HÜSEYNİN *(ə)* NƏSİL ŞƏCƏRƏSİ ........ 17
1. 1. HƏZRƏT MUHƏMMƏD PEYĞƏMBƏR *(s)* ........ 19
1. 2. İMAM ƏLİ İBN ƏBU TALİB *(ə)* ........ 37
1. 3. FATİMƏ BİNT MUHƏMMƏD *(ə)* ........ 107
1. 4. İMAM HƏSƏN İBN İMAM ƏLİ *(ə)* ........ 125

**II FƏSİL ........ 153**
ƏMƏVİLƏR XİLAFƏTİ VƏ İMAM HÜSEYNİN *(ə)* XİLAFƏTƏ QARŞI MÖVQEYİ ........ 153
2. 1. ƏMƏVİLƏRİN SÖY-KÖKÜ ........ 154
2. 2. MÜAVİYƏ İBN ƏBU SÜFYANIN ŞƏXSİYYƏTİ VƏ XİLAFƏTİ ........ 165
2. 3. YEZİD İBN MÜAVİYƏ VƏ ONUN CİNAYƏTLƏRİ ........ 178
2. 4. ƏMƏVİLƏR XİLAFƏTİNİN SİYASİ VƏ MƏDƏNİ TARİXİ ........ 186
2. 5. İMAM HÜSEYNİN *(ə)* ƏMƏVİLƏRƏ QARŞI MÜBARİZƏSİ ........ 213

**III FƏSİL ........ 221**
İMAM HÜSEYNİN *(ə)* HƏYATI VƏ FƏALİYYƏTİ ........ 221
3. 1. İMAM HÜSEYNİN *(ə)* HƏYATI ........ 223
3. 2. İMAM HÜSEYNİN *(ə)* QURANİ-KƏRİMDƏKİ FƏZİLƏTLƏRİ ........ 229
3. 3. İMAM HÜSEYNİN *(ə)* HƏDİSİ-ŞƏRİFLƏRDƏKİ FƏZİLƏTLƏRİ ........ 239

**IV FƏSİL ........................................................................................ 257**
KƏRBƏLA FACİƏSİ ........................................................................... 257
4. 1. KƏRBƏLA FACİƏSİNİ DOĞURAN SƏBƏBLƏR ............ 258
4. 2. MÜAVİYƏ İBN ƏBU SÜFYANIN YEZİDƏ VƏSİYYƏTİ VƏ İMAM HÜSEYNİN *(ə)* KUFƏYƏ SƏFƏRİ .................. 265
4. 3. İMAM HÜSEYNİN *(ə)* ÖNÜNDƏ ŞƏHİD OLAN ŞƏXSLƏR ...................................................................... 288
4. 4. KƏRBƏLA ŞƏHİDLƏRİNİN SAYI .................................... 296
4. 5. CƏSƏDLƏRİN DƏFNİ VƏ İMAM HÜSEYNİN *(ə)* BAŞI İBN ZİYADIN ÖNÜNDƏ .......................................... 297
4. 6. İMAM *(ə)* NƏ ÜÇÜN ŞƏHADƏT YOLUNU SEÇDİ? ........ 302
4. 7. AŞURANIN EHTİRAMINI SAXLAMAQ VƏ ƏZADARLIQ ................................................................ 305
4. 8. KƏRBƏLA HADİSƏSİNDƏN SONRA BAŞ VERMİŞ QİYAMLAR ............................................................... 324
4. 9. MUXTAR SƏQƏFİNİN QİYAMI ........................................ 330

**V FƏSİL ........................................................................................... 357**
İSLAMDA CİHAD ANLAYIŞI VƏ ŞƏHİDLİYİN FƏZİLƏTLƏRİ ........................................................................ 357
5. 1. İSLAMDA CİHAD ANLAYIŞI VƏ ONUN SƏBƏBLƏRİ ............................................................... 358
5. 2. ŞƏHİDLİK VƏ FƏZİLƏTİ ................................................. 381

NƏTİCƏ ............................................................................................ 417
İSTİFADƏ OLUNMUŞ ƏDƏBİYYAT .......................................... 419

# ÖN SÖZ

## Bağışlayan və Mehriban Allahın adı ilə

Uca Yaradan şəhidlik rütbəsini Qurani-Kərimdə belə bəyan edir:

**فَرِحِينَ بِمَا آتَاهُمُ اللَّهُ مِنْ فَضْلِهِ وَيَسْتَبْشِرُونَ بِالَّذِينَ لَمْ يَلْحَقُوا بِهِمْ مِنْ خَلْفِهِمْ أَلَّا خَوْفٌ عَلَيْهِمْ وَلَا هُمْ يَحْزَنُونَ**

**"Onlar Allahın Öz mərhəmətindən onlara bəxş etdiyi nemətə** (şəhidlik rütbəsinə) **sevinir, arxalarınca gəlib hələ özlərinə çatmamış** (şəhidlik səadətinə hələ nail olmamış) **kəslərin** (Axirətdə) **heç bir qorxusu olmayacağına və onların qəm-qüssə görməyəcəklərinə görə şadlıq edirlər"** *(Ali-İmran, 170)*.

Şəhid olan insanların bütün günahları bağışlanılar. Vətəninin, dövlətinin, torpağının, namusunun, bayrağının yolunda şəhid olmaq hər kəsə nəsib olmayan böyük bir şərəfdir və möminlər üçün mükəmməl bir nemətdir. Gözəl bir şəkildə yaşamaq, ondan sonra Allah yolunda Onun razılığı üçün şəhid olmaq hər möminin xəyal etdiyi bir xoşbəxtlikdir. İman sahibi olan insanın belə bir şüur və düşüncə ilə yaşaması Həzrət Muhəmməd *(s)* tərəfindən nə qədər gözəl bir şəkildə təriflənmişdir: "Şəhid olmağı uca Allahdan səmimi olaraq diləyən kimsəni Allah rahat yatağında vəfat etsə belə, şəhidlərin dərəcəsinə çatdırar".

Dini mənada Allah rizası üçün Onun yolunda canını fəda edən müsəlmana şəhid deyilir. Ona bu adın verilməsinin səbəbi cənnətlik olduğuna şahidlik etməsinə və ya onun uca Allahın hüzurunda yaşaması (diri olması), yaxud ölümü əsnasında mələklərin hazır olması yaxud da ruhunun birbaşa Cənnətdə olmasıdır.

Allah yolunda öldürülənlər əməllərin ən gözəlini etmişlər, hər şeydən əziz və şirin canlarını Allah yolunda fəda etmişlər. Yoluna can fəda edən bu insanları uca Allah saleh bəndələrin arasına qatacaq, mənəvi dərəcələrin ən yüksəklərinə çıxaracaq, cənnət bağçalarında yaşadacaq, hüzurunda, ağla və xəyala gəlməyəcək nemətlərə (cənnət ruzisinə) çatdıracaq.

وَلَا تَحْسَبَنَّ الَّذِينَ قُتِلُوا فِي سَبِيلِ اللَّهِ أَمْوَاتًا ۚ بَلْ أَحْيَاءٌ عِنْدَ رَبِّهِمْ يُرْزَقُونَ

**"Allah yolunda öldürülənləri** (şəhid olanları) **heç də ölü zənn etmə! Əsl həqiqətdə onlar diridirlər. Onlara Rəbbi yanında ruzi** (cənnət ruzisi) **əta olunur."** *(Al-İmran 169)*

İnsan dünyada nə qədər xoşbəxt yaşasa, yenə də ağrılardan, iztirablardan tamamilə uzaq dayana bilməz. Çünki dünyanın ləzzəti yanında qəmi və kədəri də vardır. Əsl əzabsız, kədərsiz, dərdsiz həyat ruhi həyatdır. Allah yolunda öldürülənlər bu ruhi həyatın ən ucasına çatdırılarlar. O əbədi zövq və dinclik içində yaşayan insanlara “ölü” demək doğru deyil. Onlar saf, ölümsüz həyata qovuşmuşlar. Onlar azadlıqsevər olduqlarından Allah yanında məqamları çox ali, çox ucadır.

Allah-Təala müqəddəs Quranda buyurduğu kimi:

وَلَا تَقُولُوا لِمَنْ يُقْتَلُ فِي سَبِيلِ اللَّهِ أَمْوَاتٌ ۚ بَلْ أَحْيَاءٌ وَلَٰكِنْ لَا تَشْعُرُونَ

**"Allah yolunda öldürülənlərə** (şəhid olanlara) **“ölü” deməyin. Əksinə, onlar** (Allah dərgahında) **diridirlər, lakin siz bunu dərk etmirsiniz."** *(Bəqərə 154)*

Hüseyn bin Əli *(ə)* də öz həyatı boyu zülm və haqsızlığa qarşı mübarizədə şücaət və azadlıqsevərliyi ilə məşhur olmuşdur. O, uşaqlıq dövrünün altı ilini babası Peyğəmbərin *(s)* yanında keçirmişdir. Peyğəmbərin *(s)* vəfatından sonra otuz il atası Həzrət Əli *(ə)* ilə birgə yaşamış və Həzrət Əlinin *(ə)* hakimiyyəti dövründə irəli çıxan çətinliklərdə fəal iştirak etmişdir. Həzrət Əlinin *(ə)* şəhadətindən sonra (Hicrətin qırxıncı ilindən) siyasi və ictimai səhnələrdə qardaşı Həsən bin Əli *(ə)* ilə çiyin-çiyinə çalışmışdır. Həzrət Həsənin *(ə)* şəhadətindən sonra (Hicrətin əllinci ilindən) on il müddətinə qədər Müaviyə bin Əbu

Süfyanın hakimiyyəti dövründəki İslami vəzifələr Həzrət Hüseynin *(ə)* boynuna düşmüşdür. Müaviyənin ölümündən sonra hakimiyyət başına gələn Yezidin dövründə inqilab etmiş və nəhayət, Hicri 61-ci ilin (Miladi 680) məhərrəm ayının 10-da İraqın Kərbəla çölündə şəhid edilmişdir.

Azərbaycan xalqının Kərbəla faciəsindən danışmağa haqqı daha çoxdur. Bunun ən ümdə səbəbi isə xalqımızın böyük və qəhrəman oğlu Müslim Azərbaycaninin bu faciədə iştirak etməsi və öz canını İmam Hüseynə *(ə)* fəda etməsidir. Görkəmli Azərbaycan mütəfəkkiri Məhəmməd Füzuli "Hədiqətüs-süəda" əsərində Müslimin və onun oğlunun şücaətini çox poetik və təsirli boyalarla ifadə etmişdir. Məhəmməd Füzuli kimi dahi bir şəxsin belə qənaətə gəlməsinin şübhəsiz ki, dini-tarixi kökləri və əhəmiyyəti vardır.

Müslim Azərbaycaninin bu faciədə qəhrəmancasına iştirakı Azərbaycan xalqının bu faciədə göstərdiyi əzmkarlıq və qəhrəmanlıqların nümunəsidir. Bütün bunları açıqlamaq ciddi elmi-nəzəri, siyasi və əməli əhəmiyyətə malikdir. Hal-hazırda Kərbəla faciəsinin tarixinə müraciət etmək xüsusilə ona görə aktualdır ki, müqəddəs torpaqlarımız işğal altındadır. Biz gərək cavanlarımıza Kərbəla faciəsini bütün təfərrüatı ilə tanıdaq. Çünki biz yalnız bunun vasitəsilə onların şüurunda vətənpərvərlik, azadlıq və müstəqillik şüurunu qurmuş olarıq.

İmam Hüseynin *(ə)* şəhid olmasından sonra onun haqqında əsrlərdir ki, əsərlər yazılmaqdadır. Ölkəmiz müstəqillik əldə etdikdən sonra Azərbaycan ilahiyyatçılarının da bu sahədə az işləri olmamışdır. Hacı Fuad Nurullahın yazdığı "İmam Hüseyn *(ə)*: şəhidlik məktəbinin ustadı" kitab bu silsilədə yazılmış ən yaxşı kitablardan olacaqdır. Müəllif haqlı olaraq və çoxsaylı mənbələrə istinad edərək qarşısına qoyduğu məqsədə nail ola bilmişdir.

Beləliklə kitabı yüksək qiymətləndirir və onun geniş oxucu kütləsinin rəğbətini qazanacağını güman edirik.

**Hacı Vasim Məmmədəliyev**
*akademik*

# GİRİŞ

## Bismillahir-rəhmanir-rəhim!

İslam Peyğəmbəri Həzrət Muhəmməd *(s)* buyurmuşdur:

***"Həsən və Hüseyn dünyada iylədiyim iki reyhanımdır"***;[1]

***"Həsən və Hüseyni sevən məni sevmiş, onlara kin bəsləyən mənə kin bəsləmişdir".***[2]

Rəsulullah *(s)* Həsən *(ə)* və Hüseynin *(ə)* könüllərini almaq üçün onlarla əylənər, sanki onlara yoldaşlıq edərdi. Hətta mötəbər rəvayətlərə görə, Həzrət Muhəmməd *(s)* bir uşaq kimi onlarla oynayardı. Belə ki, Hüseyn *(ə)* uşaqlara xas xüsusiyyətlə babasına şıltaqlıq edər, Peyğəmbərdən *(s)* dəvə olmasını istəyərdi. Bu zaman o Həzrət *(s)* dərhal yerə əyilər, əziz nəvələrini mübarək kürəyinə alar və buyurardı:

***"Bundan da gözəl dəvə ola bilərmi?"***

İmam Hüseynin *(ə)* uşaqlıq illəri Həzrət Peyğəmbərin *(s)* yanında keçmişdir. Rəsulullahın *(s)* verdiyi təhsil və mənəvi tərbiyə ilə yetişib böyüyən Hüseynin *(ə)* mübarək həyatının sonu da şəhidlik zirvəsi ilə başa çatmışdır. İnsan həyatında Allah və Rəsulunun *(s)* hökmündən başqa heç bir hökmün etibarlı ola bilməyəcəyini dərindən qavramış İmam Hüseyn *(ə)* bu həqiqətə kölgə salanlara zərrə qədər meyl etməmiş, əksinə cəsarətli rəftarı ilə onların önündə dayanmışdır.

Miladi 680-ci ildə Yezid ibn Müaviyənin iqtidara keçməsi İslama yad olan səltənət mühitini reallaşdırdı. O, xilafəti bu şəkildə ələ alarkən yaxşı bilirdi ki, başda İmam Hüseyn *(ə)* olmaqla bir çox səhabə onun qəsb yolu ilə qazandığı hakimiyyətlə ra-

---

[1] Əhməd ibn Hənbəl, "Musnəd", c. II, s. 288.
[2] Həmin mənbə.

zılaşmayacaq, hətta şiddətli reaksiyalarla qarşılaşacaq. Buna görə də Yezid iqtidarı əldən verməmək üçün çox sürətli davrandı və Mədinə valisi Vəlid ibn Ütbə ibn Əbu Süfyana bir məktub göndərdi. Yezidin göndərdiyi həmin məktubda yazılırdı:

"Məktubum sənə yetişdiyi zaman Hüseyn ibn Əli ilə Abdullah ibn Zübeyri tap və onlardan mənə beyət al! Əgər beyətdən imtina etsələr boyunlarını vur, başlarını mənə göndər. Xalqın da beyətini al. Beyətdən qaçanlar haqqında Hüseyn ibn Əli və Abdullah ibn Zübeyr barəsində olan hökmü eyni ilə yerinə yetir. Vəssalam!"

Tarixi mənbələr təsdiq edir ki, Yezidin Mədinə valisinə yazmış olduğu həmin məktubda validən İmam Hüseyn *(ə)* və böyük səhabələrdən beyətlərini alması yazılır, bu işdə zəif davranmağın böyük səhv olacağı göstərilir.

Yezidin iqtidarı ələ alması ilə barışa bilməyən və bu zalım hökmdarın hakimiyyətindən qurtulmaq istəyən kufəlilər İmam Hüseynə *(ə)* çoxlu məktub göndərdilər. Kufə əhli məktublarında İmamı *(ə)* öz şəhərlərinə dəvət edir, gəldiyi təqdirdə onu əmirəlmöminin elan edəcəklərini ifadə edirdilər. Ayrıca bu anda əmirləri olmadığından cümə namazına çıxmadıqlarını da bildirirdilər.

Bütün bunları nəzərə alan və baş verənlərə biganə qala bilməyən İmam Hüseyn *(ə)* Mədinədən Məkkəyə gedərək oradan kufəlilərlə xəbərləşməyə başladı. Hətta kufəlilərin vəziyyətini dəqiq bilmək üçün İmam *(ə)* əmisi oğulu Müslim ibn Əqili Kufə şəhərinə göndərdi. Müslim, Həzrət Hüseynə *(ə)* Kufədə vəziyyətin yaxşı və şəhər əhalisinin də o Həzrətə *(ə)* beyət üçün hazır olması barədə məktub yazdı. İmam Hüseyn *(ə)* bu xəbərdən sonra Kufə səfəri barədə qəti şəkildə qərar verdi və səfər hazırlıqlarına başladı.

İmam Hüseyn *(ə)* Kufəyə hazırlaşarkən Abdullah ibn Abbas, qardaşı Muhəmməd ibn Hənəfiyyə bu səfərdən imtina etməsini ondan israrla istədilər. Eyni şəkildə Abdullah ibn Ömər və tabeunun qabaqcıl alimlərindən olan imam Şəbi də o Həzrətin *(ə)* Kufəyə getməməsini xahiş etdilər, xüsusilə iraqlılara eti-

bar etməyin mənasız olması barədə İmama *(ə)* dönə-dönə vurğuladılar. Lakin İmam Hüseyn *(ə)* Kufəyə getməkdə qəti qərarlı idi. Bu böyük və sonu şəhadətlə bitəcək şərəfli səfərə mane olmaq istəyənlərin rəftarı isə görünür İmamın *(ə)* İlahi məqsədini lazımınca başa düşməməkdən irəli gəlirdi. Hətta vəziyyət o qədər gərgin idi ki, kufəlilər məktub göndərməsəydilər belə, yenə də İmam *(ə)* Yezidə qarşı qiyam qaldıracaqdı. Çünki İmam Hüseyn *(ə)* kimi bir şəxsiyyət Yezid kimi dinsiz bir xəlifənin rəhbərliyini qəbul edə bilməzdi. Bu həqiqət onun – ***"Yezid xəlifə olduğu zaman İslamla vidalaşmaq lazımdır"*** mübarək kəlamında da ehtiva edilib.

Yezid İmam Hüseynin *(ə)* Kufəyə doğru yol almasından xəbər tutduqda şəhər valisini dəyişdirdi, Bəsrə valisi Ubeydullah ibn Ziyada əlavə bir vəzifə kimi Kufə valiliyini də tapşırdı. Ubeydullah ibn Ziyad yeni valilik kürsüsünə əyləşəndən sonra ilk olaraq Müslim ibn Əqilin tapılıb öldürülməsi barədə əmr verdi. Çox keçmədi ki, üzdəniraq əmr icra olundu və Müslim faciəvi bir şəkildə şəhid edildi.

Müaviyənin ölümündən sonra xəlifəlik, yəni Peyğəmbərin *(s)* böyük əzab-əziyyətlə qurduğu islami hakimiyyət əslində əziz nəvəsi Hüseyn ibn Əliyə *(ə)* çatacaqdı. Buna görə də Yezid ibn Müaviyə hakimiyyətin qanuni varisi olan İmam Hüseynin *(ə)* Kufəyə doğru gəlməsindən və ümumiyyətlə, o Həzrətin *(ə)* varlığından bərk təlaşa düşdü, günlərini eyş-işrət içində keçirdiyi zəngin sarayı, rahat xəlifəlik kürsüsünü itirməkdən möhkəm qorxdu. İslam və şəriət ehkamlarına laqeyd yanaşan gənc Yezid bu üzdən hiyləgər Ubeydullah ibn Ziyadın vasitəsilə yaranmış "təhlükədən" xilas olmağa çalışırdı və ona İmam Hüseyn *(ə)* haqqında belə bir əmr verdi:

"İndi sən mənim istədiyim kimi olmaqda davam edirsən. Etdiyin ağıllı və bacarıqlı bir işdir ki, sənə yaraşan şəkildə yerinə yetirdin. Təmkinli, əzmli və qəhrəmancasına hücum etdin, başqalarının köməyinə ehtiyac duymayaraq bu işin öhdəsindən lazımınca gəldin. Mənə çatan xəbərə görə, Hüseyn ibn Əli Məkkə-

dən ayrılıb sənin tərəfinə doğru gəlməkdədir. Dərhal ona casusları qoş. Yollara gözətçilər qoy. Lazımi səviyyədə bunun üzərində dayan. Hər gün olan və bitənlərin xəbərini mənə yaz".

İmam Hüseyn *(ə)* Kufəyə yola çıxandan sonra oradan gələn xəbərlər, xüsusilə Müslim ibn Əqilin şəhid edilməsi xəbəri heç də yaxşı deyildi. Yol əsnasında İmamın *(ə)* dəstəsindən bir çox adam ona Kufəyə getməməyin və geri dönməyin lazım olduğunu söylədilər. Lakin geriyə yol yox idi, buna görə də İmam Hüseyn *(ə)* böyük bir cəsarətlə Kufəyə doğru yol almağa davam etdi. Bu vaxt o Həzrət *(ə)* üçün müxtəlif tələlər quruldu. Hadisələrin belə cərəyan etdiyini görən İmam *(ə)* dəstəsindəki şəxslərə buyurdu:

***"İstəyən geriyə dönə bilər, sizi yanımda zorla aparmaq istəmərəm".***[3]

Bəzi kənar şəxsləri çıxmaq şərti ilə İmamın *(ə)* əhli-beytindən heç bir kimsə o Həzrətdən *(ə)* ayrılmadı.

İmam Hüseyn *(ə)* Hürr ibn Yezid ər-Riyahinin əmri altındakı min nəfərlik şəxsi heyətdən ibarət Kufə süvari alayı ilə qarşılaşdı. Hürr ibn Yezid bir sərkərdə kimi Kufə valisi Ubeydullah ibn Ziyadın əmrinə uyğun hərəkət edirdi və bu əmrin əsasında da İmam Hüseyni *(ə)* Kərbəlaya doğru çəkdi.

Ubeydullah ibn Ziyad hadisənin ciddiliyini artıq başa düşmüşdü. Digər tərəfdən, Mərv valiliyinə təyin edilən Ömər ibn Səd də Kufədə müəyyən hazırlıqlar edirdi. Lakin hiyləgər İbn Ziyad Ömər ibn Səddən İmam Hüseynə *(ə)* qarşı istifadə etmək istədi və ordusu ilə birlikdə dərhal Kərbəlaya gəlmək barədə ona əmr verdi. Ömər ibn Səd isə İmam Hüseynin *(ə)* qarşısına çıxmaq istəmirdi. Yaranmış təhlükəli vəziyyəti anlayan Ubeydullah ibn Ziyad Ömər ibn Sədə belə dedi:

"Əgər onunla vuruşmağa getməsən, səni Mərv valiliyindən çıxarar, evini yıxar və boynunu vurduraram".[4]

---

[3] Zəhəbi, "Alamun-nubəla", c. III, s. 201-202.
[4] Həmin mənbə.

Vəziyyət isə getdikcə ağırlaşırdı. İmam Hüseyn *(ə)* mövcud gərginliyi aradan qaldırmaq və nahaq yerə qan axıdılmasına yol verməmək məqsədi ilə Ömər ibn Sədə belə bir təklif etdi:

***"Ey Ömər! Bu üç təklifimdən birini qəbul edin: Buraxın mən cihad etmək üçün sərhədlərə gedim, yaxud Yezidin yanına çatıb özü ilə görüşüm, yaxud da dönüb Mədinəyə qayıdım".***[5]

Lakin İbn Ziyad bu təklifləri əsla qəbul etmir, hətta İmam Hüseyni *(ə)* Mədinəyə geri buraxmaq belə, istəmirdi.

Ömər ibn Səd İmam Hüseynə *(ə)* qarşı hücum edib etməməkdə tərəddüd edirdi. Onun bu tərəddüdlərini görən İbn Ziyad nəhayət, son əmrini verdi, Ömər ibn Sədə yazdığı həmin əmrdə belə deyirdi:

"Mən səni Hüseyn ibn Əli ilə günlər keçirəsən, ona salamatlıq diləyəsən və mənim yanımda Hüseynin şəfaətçisi olasan deyə göndərmədim. Ona və adamlarına dərhal təklif et ki, hökmümə boyun əysinlər. Əgər sənə təslim olsalar, onu və ətrafındakıları mənə göndər. Əgər qəbul etməsələr, üzərilərinə get. Çünki o, üsyankar və bədbəxtdir".

Bu əmrdən sonra İmam Hüseynə *(ə)* hücumlar başladı. İmamın *(ə)* yanındakı bir qrup mücahid, o Həzrətin *(ə)* əhlibeytindən isə xanım və uşaqlar minlərlə əsgərdən ibarət orduya qarşı böyük bir müqavimət göstərir, bir-bir şəhidlik şərbətini içirdilər. Sonda isə İmam Hüseyn *(ə)* döyüşdü. Qəhrəmancasına vuruşan İmam *(ə)* aldığı otuz üç nizə və otuz dörd qılınc yarası ilə torpağa düşdü, müqəddəs ruhu şəhidlərin mübarək ruhuna qarışdı. Bundan əlavə, Kərbəlada baş verən həmin faciədə İmam Hüseynin *(ə)* qohumlarından olan yetmiş iki şəxs də şəhid oldu.

Kərbəla faciəsi göstərdi ki, əslində Əməvilərin iyrənc niyyəti Peyğəmbərin *(s)* Əhli-Beytini *(ə)* bütünlüklə məhv etmək idi. Buna görə də baş vermiş bu məlum hadisədən sonra Əməvi-

---

[5] Həmin mənbə, c. III, s. 208-209.

lərin iç üzü açıldı, həmin dövrdəki insanlarda bu mənfur sülaləyə qarşı böyük ikrah hissi oyandı. İmam Hüseyn *(ə)* isə illər, əsrlər keçməsinə baxmayaraq nəinki müsəlman aləmində, həmçinin bütün dünyada, bəşər övladının səsi və nəfəsi gələn hər yerdə Azadlıq Fədaisi kimi tanındı. O Həzrətin *(ə)* qiyamı Cahanda ilk Azadlıq Mübarizəsi kimi insanlıq tarixinə əbədi həkk oldu və sözsüz ki, Peyğəmbərin *(s)* əziz nəvəsi, böyük İslam qəhrəmanı Hüseyn ibn Əlini *(ə)* qətlə yetirənlərə qarşı müsəlmanların da nifrəti əbədi olacaqdır.

Mərhum Məvdudi Kərbəla hadisələrindən bəhs edən "Həzrət Hüseynin *(ə)* şəhidliyi üzərinə" əsərində islami rəhbərliyin əsas qanunları baxımından İmam Hüseynin *(ə)* qarşı çıxdığı və rədd etdiyi rəhbərliyin vəziyyətini belə təhlil edir:

"Yezidin atası Müaviyə ibn Əbu Süfyana xələf təyin edilməsi monarxiya növünün başlanğıcına işarədir. Bütün əvvəlki monarxlar kimi, müsəlman idarəçilər də tətbiqdə hakimiyyətin yeganə qaynağı imiş kimi davranmışlar, yəni hakimiyyət monarxın və qanuni xələflərinin olmuşdur. Bu səbəbdəndir ki, monarxın həyat, mülkiyyət, şərəf və təbəənin hər şeyinin mübahisəsiz sahibi olduğu sanılmışdır.

İslam dövlətinin ən əhəmiyyətli məqsədi Allahın sevmədiyi pislikləri rədd və yox etmək, razı olduğu yaxşılıq və fəzilətləri dəyərləndirmək və əmr etmək olduğu halda otokratik rəhbərliklərin məqsədi ərazi qəsb etmək, mal-mülk sahibi olmaq, xərac-vergi yığmaq və heyvani arzuları doyurmaqdan başqa bir şey deyildi. Bu dövrdə müsəlman idarəçilər, hökumət adamları cah-cəlal və dəbdəbəli həyat tərzini seçdilər, haqq və ədalətin yerinə zülm və şan-şöhrəti mənimsədilər. Dəbdəbəli həyat və israfçılıq baş alıb getdi. İdarəçilər qanuni olanla qeyri-qanuni olanı bir-birindən ayırmadılar. Siyasət artıq əxlaqdan məhrum hala gəlmişdi. Məmurlar xalqın içində Allah qorxusunu yerləşdirmək yerinə onları idarə altında tutdular, dünyagörüşlərini artırmaq yerinə təhrik və rüşvətlə onların beyinlərini qazanmağa çalışdılar. Yezidin xələf olaraq təyin edilməsi ilə islami rəhbərlik sistemi kökündən sarsıl-

mış və yerini atadan oğula keçən bir monarxizmə buraxmışdı. O andan etibarən xəlifənin seçkisini təyin edən qanun təxirə salınmış, ağıllı və zəngin olanlar ümmətin sərbəst səsləri ilə seçilmə yerinə rəhbərliyi bir-bir ələ keçirmişlər.

Krallığın suveren olması ilə birlikdə Şura sistemi də köklü bir dəyişməyə uğradı. Monarxik rəhbərlik fərdi və despotik üsullara söykəndi. Artıq Şura heyətinin üzvləri şahzadələr və yaltaqlar, saraylılar və əyalət valiləri, eləcə də hərbi sərkərdələr olmuşdu. Kralların suveren olması ilə birlikdə vicdanların səsi boğuldu və söz azadlığı kökündən inkar edildi. Bu dövrdə ağzını açan ancaq hökmdarın və hökumətin lehinə danışa bilirdi. Əks vəziyyətdə susması lazım idi. Vicdanların üzərindəki təzyiq o qədər ağır və dəhşətli idi ki, həqiqəti söyləməkdən özünü saxlaya bilməyən olsa, ya azadlığını itirib zindana atılır, ya da həyatından məhrum olaraq öldürülürdü. İmperatorluq rejimi məsul rəhbərlik anlayışından tamamilə məhrum idi. Onun üçün Allah qarşısında məsuliyyət sözdə qalan bir şey idi və çox az tətbiqdə özünü göstərə bilirdi.

Xalq qarşısında məsuliyyət duyğusuna gəlincə isə kimsənin imperatorlardan bir şey istəmək cəsarəti yox idi.

Xilafət otokratik rəhbərliyə çevrilincə cəmiyyət xəzinəsi İlahi və ya cəmiyyət malı olacağı yerdə tamamilə Kralın xüsusi mülkü halına gəldi. Həm qanuni, həm də qeyri-qanuni yollarla pullar alındı və təsadüfi yerlərə xərcləndi. Kimsədə ən kiçik bir hesab soruşmaq cəsarəti qalmadı. Dövlətin gəlirlərinin hamısı sıravi poçtalyondan dövlət idarəçisinə qədər hər kəsin xərcləyə bildiyi ölçüdə bir zövq və əyləncə vasitəsi halına gəldi. İdarəçilik səlahiyyətinin xalqın malını təsadüfi xərcləmək üçün bir sənəd olmadığı həqiqəti kimsənin heç vecinə belə deyildi. Onlar cəmiyyətə məxsus xəzinəni dilədikləri şəkildə istehlak edə biləcəklərinə və heç bir şəxsin hesab soruşmağa cəsarət edə bilməyəcəyinə yaxşıdan-yaxşıya inanmışdılar”[6].

---

[6] “Həzrət Hüseyn *(ə)* bir uyar, bir simvol”, İstanbul, 1985.

Haqq və həqiqət, İlahi qanunlar və ədalətin carçısı olan İmam Hüseynin *(ə)* Əməvilərə beyət edərək onların bidət və zülmünü təsdiqləməsi əlbəttə ki, mümkün bir iş deyildi. İmam Hüseynin *(ə)* bu arzuedilməz, ictimai qınağa və cəmiyyətin bəlasına çevrilən haqsızlıqlara etiraz etməsinin səbəbi onun məhz babası Həzrət Muhəmməd peyğəmbərin *(s)* yolu ilə getməsi idi. İmam *(ə)* ən pis nəticələri belə, qarşılamağı nəzərə alaraq böyük bir rəhbərliyə qarşı qiyam qaldırmaqla yüksələn şər güclər dalğasının önünə sədd çəkməyə qərar verdi. Bu cəsarətli duruşun nəticələrini isə hər kəs bilmirdi.

Həzrət Hüseynin *(ə)* özünü, yaxınlarını və əhli-beytini belə böyük bir təhlükəyə ataraq, eləcə də bu təhlükənin acı nəticələrindən biri kimi mübarək başının müqəddəs bədənindən ayrılmasına dinindən və milliyyətindən asılı olmayaraq istənilən hər bir şəxsin qəlbini dağlayacaq qədər qəhrəmancasına dözərək vurğulamaq istədiyi həqiqət İslam dövlətinin əsas qanunlarının İlahi qanunlar əsasında idarə olunmasını bildirmək idi. Bir möminin bu qanunları qorumaq üçün həyatını fəda etməsi və ailə üzvlərinin də qətl edilmələrinə səbəb olması heç bir zaman pis bir alış-veriş olmamışdı.

Hörmətli oxucu! Biz də kitabımızda mövzuları müvafiq fəsillərə bölərək hər bir fəsilə ad vermiş və mövzu ilə əlaqəli məsələləri həmin fəsil içində incələmişik.

Kitabda İmam Hüseynin *(ə)* nəsil şəcərəsi, Əhli-Beytin *(ə)* üstünlükləri, Kərbəla hadisəsini törədən səbəblər, Əməvilərin mənfur hakimiyyətinə dair və onların iç üzünü açan məqamlar, həmçinin Əməvilərin dövründə baş vermiş ictimai-siyasi hadisələr, Aşura dərsləri, Aşura mədəniyyətinin Vətənimiz Azərbaycanda təbliğ olunması ilə xalqımızın milli-mənəvi dəyərlərinə edilən müsbət təsirlər və s. mövzular öz əksini tapmışdır.

Ümidvarıq ki, bu əsər İslam irsinə sahib çıxan və sadiq qalan xalqımızın, həmçinin onun kitabsevər nümayəndələrinin dərin rəğbət və məhəbbətini qazanacaq, onların dini-mənəvi mühitinin yaxşılaşmasına, eləcə də Aşura mədəniyyəti haqqında bi-

liklərinin daha da zənginləşməsinə yardımçı olacaq. Çünki müdrik Azərbaycan xalqı İslamın ilkin dövrlərindən bəri bu müqəddəs dini olduğu kimi qavramış və onun qanunlarını gündəlik həyatında tətbiq etmişdir.[7] Şübhəsiz ki, Aşura mədəniyyəti xalqımızın milli-mənəvi dəyərləri sistemində özünə yer etmiş mənəvi sərvətimizdir.

[7] Bu haqda geniş məlumat üçün bax: Hacı Fuad Nurullah, "Azərbaycanda İslam və onun etiqad əsasları" (Bakı, Nurlar, 2013).

I FƏSİL

# İMAM HÜSEYNİN *(ə)* NƏSİL ŞƏCƏRƏSİ


محمد رسول الله

## 1.1. HƏZRƏT MUHƏMMƏD PEYĞƏMBƏR *(s)*

Muhəmməd peyğəmbərin *(s)* anadan olduğu il adətən fil ili hesab olunan Miladın 570-ci ili (müsəlman təqviminə görə, Rəbiül-əvvəl ayının 17-si) sayılır. Həzrət Muhəmmədin *(s)* uşaqlıq və gənclik illəri haqqında məlumatlar istər islami, istərsə də qeyri-islami mənbələrdə öz əksini tapmışdır. Rəsulullah *(s)* erkən yaşlarında yetim qalmış, atası Abdullah o Həzrət *(s)* anadan olmazdan əvvəl vəfat etmiş, anası Aminə Muhəmməd *(s)* altı yaşında olarkən dünyadan köçmüş, iki il sonra isə babası Əbdülmütəllib vəfat etmişdir. Anasının ölümündən sonra Muhəmmədə *(s)* babası baxmış, onun vəfatından sonra yetim qalmış uşağa əmisi Əbu Talib qayğı göstərməyə başlamışdır. Elə buna görə də Peyğəmbər *(s)* onu böyük məhəbbət və qayğı ilə saxlayan babası və əmisinə bütün ömrü boyu dərin minnətdarlıq hissi bəsləmişdir.

Həzrət Muhəmməd *(s)* İbrahim peyğəmbərin *(ə)* nəslindəndir. Onun nəsil şəcərəsi belədir:

**محمد بن عبد الله بن عبد المطلب بن هاشم بن عبد مناف بن قصي بن كلاب بن مرة بن كعب بن لؤي بن غالب بن فهر بن مالك بن النضر بن كنانة بن خزيمة بن مدركة بن إلياس بن مضر بن نزار بن معد بن عدنان.**

“Muhəmməd *(s)* ibn Abdullah ibn Əbdülmütəllib (əsil adı Şeybədir) ibn Haşim ibn Əbdu Mənaf ibn Qusey ibn Kilab ibn Mürrə ibn Kəb ibn Lüəyy ibn Qalib ibn Fihr ibn Malik ibn Nəzr ibn Kinanə ibn Xüzeymə ibn Müdrikə ibn İlyas ibn Muzar ibn Nizar ibn Məaz ibn Ədnan”.

Bu şəxslər Peyğəmbərin *(s)* ulu babalarıdır.

Əziz Peyğəmbərimiz Həzrət Muhəmməd *(s)* on iki yaşında ikən əmisi Əbu Talibin ticarət işləri ilə əlaqədar olaraq bir müddət onun uzaq Suriyaya davam edən səfərlərində iştirak etmişdi. Səyahəti zamanı balaca Muhəmməd *(s)* Ərəbistan yarımadasının hüdudlarından kənarda özü üçün yeni olan, bilavasitə doğulub

boya-başa çatdığı bütpərəst qəbilə-tayfa mühiti ilə böyük təzad təşkil edən xristian, yəhudi və digər dini icmaların dünyası ilə təmasda olmuşdur. Bir çox şərhçilər tamamilə və əsassız olaraq belə güman edirlər ki, "bu yeni aləmlə tanışlıq kiçik Muhəmmədə *(s)* silinməz təsir bağışlamış, onda mənəvi bir gərginlik yaratmışdı. Bu gərginlik Muhəmmədin *(s)* bütün sonrakı həyatı boyu zəifləməmiş və nəticə etibarı ilə onu yeni dinin yaradıcısı kimi böyük bir iş görməyə sövq etmişdir". Lakin sevimli Peyğəmbərimizin *(s)* Əbu Taliblə birgə etdiyi Suriya səfərinə nəzər saldıqda və bu haqda olan tarixi məlumatlar obyektiv şəkildə təhlil edildikdə belə məlum olur ki, Muhəmməd *(s)* Suriya yaxınlığında olarkən yalnız bir neçə saat müddətində xristian keşiş Bəriha ilə birlikdə olmuşdur. Buna görə də bu tanışlığın o Həzrətin *(s)* yeni dünyagörüşünə əhəmiyyətli təsir etməsi qeyri-mümkündür və cəfəngiyatdan başqa bir şey deyildir.

Həzrət Muhəmmədin *(s)* 21 yaşı tamam olarkən Məkkə cəmiyyətini təmsil edənlər, yəni məkkəlilər arasında ***"əmin"*** (sədaqətli, etibarlı adam) adını qazanmışdı. Buna görə də əmisi Əbu Talibin məsləhəti ilə gənc Muhəmməd *(s)* Xuvəylid ibn Əsədin qızı, məkkəlilərdən olan varlı dul qadın Xədicənin yanında pirkeşlik (ticarət işlərini idarə edən şəxs) vəzifəsi alır. Xədicənin ticarət işlərini aparan Muhəmməd *(s)* Suriyaya daha bir səfər edir, həm də yeniyetməlik dövründə getdiyi yolu demək olar ki, eynilə təkrar edir, Hələb və Dəməşqdə olur.

595-ci ildə Muhəmməd *(s)* Xədicə ilə evlənmişdir. O zaman Xədicənin yaşı qırxa yaxın idi və iki dəfə ərdə olmuşdu. Hətta əvvəlki izdivaclardan bu xanımın iki oğul və bir qız uşağı vardı. Buna baxmayaraq Muhəmmədlə *(s)* Xədicənin qarşılıqlı məhəbbəti dillərə düşmüşdür.

Həzrət Muhəmmədin *(s)* bütün yaxın adamları arasında birinci olaraq xanımı Xədicə ilə əmisi oğlu Əli *(ə)* onun peyğəmbərliyinə inanaraq iman gətirmiş, müqəddəs İslam uğrunda başlayan gərgin mübarizədə Peyğəmbərə *(s)* kömək etmək üçün öz kömək və qüvvələrini əsirgəməmişlər. Peyğəmbər *(s)* bunun müqabilində ilk həyat yoldaşı olan Xədicəyə, həmçinin əmisi oğlu

Həzrət Əliyə *(ə)* daim böyük məhəbbət, dərin minnətdarlıq və hörmət hissi bəsləmişdir.

Xədicə ilə ömür sürdüyü 25 il ərzində Muhəmməd *(s)* başqa heç bir qadınla evlənməmişdir. Həmçinin, Həzrət Muhəmmədin *(s)* Xədicə haqqında buyurduğu bir çox hədisi-şəriflər bu qadının İslamda necə bir üstünlüyə malik olduğunu isbat edir. Belə ki, Həzrət *(s)* hədislərinin birində belə buyurmuşdur:

***"Cənnət qadınları dörddür: Xədicə bint Xuveylid, Fatimə bint Muhəmməd, Məryəm bint İmran və Asiya bint Məzahim".***[8]

Bu mübarək kəlam xanım Xədicə haqqında yuxarıda dediyimizə əyani sübutdur.

Xədicənin İslamı ilk olaraq qəbul etməsini, eləcə də Peyğəmbərə *(s)* olan maddi və mənəvi yardımını yüksək qiymətləndirən Həzrət Muhəmməd *(s)* onun haqqında aşağıdakı hədisi-şərifi buyurmuşdur:

**قال (صلى الله عليه واله وسلم) عن زوجته خديجة: آمنت بي حين كفَر بي الناس، وصدقتني حين كذّبني الناس، وأشركتني في مالها حين حرَمَني الناس، ورزقني الله ولدها وحرمني ولد غيرها.**

***"İnsanlar mənə inanmadıqları vaxt o, mənə iman gətirdi, insanlar məni təkzib etdikləri vaxt o, məni təsdiq etdi, insanlar məni məhrum etdikləri vaxt o, məni malına şərik etdi. Allah başqalarının övladlarını mənə haram etdiyi vaxt onun vasitəsilə mənə övlad verdi".***[9]

Bütün bunlardan əlavə, aşağıda qeyd edəcəyimiz hədislər də Xədicənin İslamdakı yüksək mövqeyə malik olmasına sübutdur.

Əbu Hüreyrə rəvayət edir:

"Cəbrail *(ə)* Rəsulullahın *(s)* yanına gələrək dedi:

"Ey Allahın Rəsulu! Xədicə içində qatıq, yaxud yeyiləcək və ya içiləcək bir şey olan qabla gəlir. O, yanına çatanda ona Rəbbindən salam söylə, onu təmtəraqlı və yorğunluq olmayan, incidən hazırlanmış bir evlə müjdələ".

[8] Şeyx Səduq, "əl-Xisal", c. I, s. 24.
[9] Əhməd ibn Hənbəl, "əl-Musnəd", c. I, s. 56.

Qeyd edilən bu hədisə görə, bəzi alimlər Xədicənin Aişədən fəzilətli olması barədə hökm vermişlər. Çünki Aişəni Həzrət Cəbrail *(ə)* öz adından, Xədicəni isə Rəbbinin adından salamlamışdır.

Həzrət Peyğəmbərin *(s)* xanımı Aişə rəvayət edir:

"Allah Rəsulunu *(s)* onun xanımlarından Xədicə qədər heç birinə çox qısqanmadım. Halbuki Xədicəni dərk edəcək yaşımda heç görməmişdim də. Lakin Peyğəmbər *(s)* onu çox xatırlayırdı. Hər dəfə qoyun kəsəndə Xədicənin dostlarına göndərirdi. Bəzən deyirdim:

"Sanki Xədicədən başqa bu dünyada qadın yoxdur".

Rəsulullah *(s)* isə onu tərif edərək buyururdu:

***"Xədicə belə idi, Xədicə elə idi və ondan mənim övladlarım oldu"***.

Həzrət Əli *(ə)* buyurur:

***"Peyğəmbər buyurmuşdur: "Dövrünün ən xeyirli qadını İmranın qızı Məryəmdir, bu ümmətin ən xeyirli qadını isə Xuveylidin qızı Xədicədir"***.

Əbu Musa əl-Əşəri belə rəvayət edir:

"Peyğəmbər *(s)* buyurmuşdur: ***"Kişilərin çoxu kamala çatmışdır. Lakin qadınlardan İmranın qızı Məryəm, Fironun arvadı Asiya, Xuveylidin qızı Xədicə və bir də Muhəmmədin qızı Fatimədən başqa heç kim kamala çatmadı"***.[10]

Xədicənin Peyğəmbərdən *(s)* daha iki oğlu və dörd qızı doğulmuşdur. Allah Rəsulunun *(s)* iki yaşında ölən böyük oğlunun adı Qasim idi. Qədim ərəb adəti ilə bu hadisədən sonra Peyğəmbərə *(s)* hörmət əlaməti olaraq "Əbül-Qasim" (Qasımın atası) deyə müraciət etmişlər. İkinci oğlu Abdullah da körpə yaşında ikən ölmüş, Zeynəb, Ruqiyyə, Ümmü Gülsüm və Fatimə *(ə)*

---

[10] Xədicə Xuveylid ibn Əsədin qızı olub, Peyğəmbərlə *(s)* bir neçə nəsəb əvvəl eyni nəsildəndir. Peyğəmbərin *(s)* xanımları içərisində nəsəbi ən yaxın olan Xədicədir. İbrahimdən başqa Rəsulullahın *(s)* digər övladlarının (Qasim, Zeynəb, Ruqiyyə, Gülsüm, Fatimə *(ə)* və Abdullah) anası Xədicə olub. Xanım Xədicə Hicrətdən 3 il əvvəl (619-cu ildə), Ramazan ayında, Əbu Talibdən 3 gün sonra 65 yaşında olarkən vəfat etmişdir.

adlı qızlarından isə yalnız sonuncusu, "Cənnət qadınlarının seyyidəsi" Xanım Fatimə *(ə)* Peyğəmbərin *(s)* şərəfli və müqəddəs nəslini davam etdirmişdir.

Həzrət Muhəmməd *(s)* 40 yaşında ikən mübarək həyatında dini düşüncə və axtarışlar getdikcə daha çox yer tutmağa başladı. Bəzən Həzrət *(s)* bütün asudə vaxtını bunlara sərf edirdi. Hələ yeniyetməlik dövründə Rəsulullahın *(s)* daxilində baş qaldıran və cövlan edən ruhi həyəcan artıq misli görünməmiş dərəcədə şiddətlənmişdi. Həzrət Muhəmməd *(s)* tez-tez Məkkə yaxınlığındakı Hira mağarasına çəkilib (xüsusən gecələr) öz dini düşüncələrini və ibadətini edirdi. Belə məqamların birində o Həzrət *(s)* insanlara həqiqi sözü – Allahın sözünü oxumağı başlamaq haqqında ona əmr verən mələyi – vəhy mələyini qəflətən aydın şəkildə görmüşdür. Bu hadisə Həzrət Muhəmmədi *(s)* o qədər sarsıtmışdı ki, uzun müddət dərin ruhi düşkünlük vəziyyətində qalmış və o Həzrəti *(s)* belə vəziyyətdən çıxaran da həmin vəhy mələyi olmuşdur. Mələk Allahın sözünü insanlara çatdırmağı yenidən Həzrətə *(s)* əmr etmişdir.

Həzrət Muhəmmədi *(s)* birinci olaraq və danışıqsız Allahın Elçisi *(s)* kimi tanıyan Xədicə, eləcə də Əli ibn Əbu Talib *(ə)* və oğulluğa götürdüyü Zeyd olmuşdur. Tezliklə adlı-sanlı Məkkə taciri Əbu Bəkr, onun ardınca isə Osman, Təlhə və Əbdürrəhman da o Həzrətə *(s)* iman gətirmişlər. Peyğəmbərin *(s)* sayı əvvəlcə 50 nəfərdən artıq olmayan, əsasən qohum-əqrəbasından ibarət olan dəstəsi Məkkənin cahil cəmiyyətinin, ilk növbədə də nüfuzlu qureyşlilərin ədavətinə, demək olar ki, düşmən münasibətinə rast gəldi, tərəfdarlarından on bir nəfərin (ailəlikcə) Həbəşistana təcili köçməsi bunu kifayət qədər aydın sübut edir.

Mərdliyi və cəsarəti, ciddiliyi və səmimi fədakarlığı ilə ərəblər arasında şöhrət qazanmış əmisi Həmzənin Peyğəmbərin *(s)* yaratdığı yeni dini icmaya qoşulması həmin icmanın mövqeyini xeyli möhkəmləndirdi. Bununla yanaşı, qureyşlilərin də həmin icmaya və ilk növbədə onun rəhbəri Muhəmmədə *(s)* qarşı düşmənçiliyi daha da artdı. 610-cu ildən 620-ci ilədək olan dövrü əhatə edən onillik Məkkənin ənənəvi bütpərəst cəmiyyəti ilə yeni təkallahlı

dinin – Muhəmmədin *(s)* fəal şəkildə təbliğ etməyə başladığı İslam dininin tərəfdarları arasında ardı-arası kəsilməyən çəkişmə illəri olmuşdur. 620-ci ildə Xədicənin, bundan bir qədər, yəni iki ay sonra Əbu Talibin vəfatı mübarizənin kəskinliyini daha da artırmışdı. Bu cür sədaqətli köməkçilərini itirən və qəbiləsi tərəfindən demək olar ki, tamamilə tərk edilən Peyğəmbər *(s)* Məkkədən təqribən, yüz kilometr şərqdə yerləşən Taif şəhərində kömək axtarıb tapmağa çalışdı, lakin müvəffəqiyyətsizliyə uğradı.

Allahın Peyğəmbərinə *(s)* kömək əslində gözləmədiyi yerdən – əvvəlcə Yəsribdən, Yəsribin Xəzrəc və Ovs qəbilələrindən gəldi. Bu qəbilələrdən olan on iki nəfər nümayəndə hər il Məkkəyə ənənəvi ziyarətə gələn bütpərəstlərin illik zəvvarlıq mövsümlərinin birində Peyğəmbərlə *(s)* görüşmüşdü.

Yəsriblilər Muhəmmədin *(s)* təlimini qəbul edərək o Həzrətə *(s)* sadiq qalacaqlarına və yardım göstərəcəklərinə dair and içmiş, buna görə də sonralar fəxri ənsar rütbəsi almışdılar. Növbəti zəvvarlıq mövsümündə bu andiçmə təkrar edilmiş, lakin bu dəfə andiçmə mərasimində Peyğəmbərin *(s)* yetmiş yəsribli tərəfdarı iştirak etmişdi. Həmin andiçmədə onlar Peyğəmbərin *(s)* dininə riayət etməklə yanaşı, həm də bu müqəddəs dini həyatları bahasına qoruyacaqları barədə Allahın Rəsuluna *(s)* söz vermişdilər. Elə bu zaman Həzrət Muhəmmədə *(s)* tamamilə aydın olmuşdu ki, İslam ideyaları Yəsribdə olduqca əlverişli zəmin tapmışdır. Buna görə də Həzrət *(s)* Yəsribdə məskən salmağı qərara aldı. Belə bir qərarın qəbul edilməsi təkcə Peyğəmbərin *(s)* təbliğ etdiyi ideyalara yəsriblilərin bəslədikləri sədaqətlə deyil, həm də onunla bağlı idi ki, Rəsulullahı *(s)* tərəfdarları ilə birgə Məkkədə aşkar cismani cəza gözləyirdi.

İlk olaraq Həzrət Peyğəmbərin *(s)* təliminin sədaqətli tərəfdarları (onun səhabələri) ailələri ilə birlikdə və kiçik qruplarla, qureyşlilərdən xəlvəti olaraq Yəsribə köçdülər. Yəsribə köçən ilk müsəlmanlardan (mühacirlərdən) sonra Peyğəmbər *(s)* özü də ailəsi və ən yaxın adamları ilə birlikdə məşhur Hicrətini etdi. 622-ci ilin iyulun 26-da baş verən həmin hadisə müsəlman

erasının başlanğıc nöqtəsi, rəsmi müsəlman təqviminin başlanğıcı oldu.

53 yaşlı Peyğəmbərin *(s)* köçdüyü şəhər sonradan Mədinə (Peyğəmbərin *(s)* şəhəri) adlandırılacaq. Yəsribə köçməsi Rəsulullahın *(s)* ictimai statusunu kökündən dəyişdirdi. Həzrət Muhəmməd *(s)* yeni dinin mübəlliğindən, dini nəsihətçi və çəkindiricidən sözün əsl mənasında insanlara İlahi qanunları çatdıran Allah Elçisinə *(s)* – Allah Rəsuluna *(s)* çevrildi. Adamlar Yer üzündəki həyatlarında məhz Rəsulullahın *(s)* buyurduğu qanunlara riayət etməli idilər. Müsəlmanların həyat tərzi və yeni dinin başlıca ayinləri haqqında bütün əsas göstərişləri də Həzrət Muhəmməd *(s)* öz peyğəmbərliyinin Mədinə dövründə yaratmışdır.

Peyğəmbərin *(s)* ətrafında birləşmiş mühacir və ənsar Mədinədə öz icmalarını – ümməti yaratdılar. Ümmət Ərəbistan yarımadasında o vaxtadək ənənəvi olan qəbilə-tayfa birliklərindən fərqli olaraq qan qohumluğu əsasında deyil, eyni dini təlimə mənsub olmaq əsasında qurulmuşdu. Bu icma teokratik təşkilat idi. Peyğəmbər *(s)* icmanın həm dini, həm də dünyəvi başçısı olaraq fəaliyyət göstərir, çalışırdı. İcma əslində Həzrət Muhəmmədin *(s)* dinini qəbul edənlərin hamısı üçün açıq idi. Hicrətdən bir neçə il sonra Mədinənin bütün ərəb əhalisi (daha doğrusu, bütpərəst əhalisi) Rəsulullahın *(s)* icmasına daxil olmuşdu.

Hicrətin ikinci ili Peyğəmbər *(s)* Allahın əmri ilə qibləni dəyişdirdi, namaz qılarkən üzü Qüdsə tərəf deyil, Məkkədəki Kəbə məbədinə tərəf tutmağı əmr etdi. Bu tədbir təkcə Mədinənin yəhudilərdən ibarət sakinlərinə qarşı getdikcə şiddətlənən mübarizənin nəticəsi deyildi, həm də İslamın ən mühüm strateji məqsədini, bütün Qərbi Ərəbistanın baş dini mərkəzi olan Məkkənin qədim və müqəddəs bir ocaq olduğunu ifadə edirdi. Peyğəmbərin *(s)* məkkəlilərə qarşı təşkil etdiyi iqtisadi müharibə də həmin məqsədə xidmət edirdi.

624-cü ildə Bədr quyuları yaxınlığında bu zəmində əsl döyüş baş verdi və nəticədə məkkəlilər məğlubiyyətə uğradılar.

Lakin 625-ci ildə Ühüd dağı yanında Məkkə müşrikləri Mədinə qoşununu məğlub etdilər, 626-cı ildə isə öz karvan yollarını mədinəlilərin təhlükəsindən tamamilə xilas etmək məqsədilə onlara qəti zərbə endirməyə cəhd göstərdilər.

Məkkəlilər bu məqsədlə bədəvi ərəb tayfaları və Mədinədən sürgün edilib Xeybərdə sığınacaq tapmış yəhudilərlə ittifaq bağlayıb Mədinə icmasına qarşı böyük yürüşə başladılar. Peyğəmbər *(s)* diqqətli hərəkət edib açıq döyüşdən çəkinməyi, lakin Mədinəni uzunmüddətli müdafiəyə hazırlamağı qərara aldı. Bu məqsədlə şəhərin ətrafında xəndək qazıldı və oxatanlar həmin xəndəkdə oturaraq düşməni gözləməyə başladılar. Ərəbistan yarımadasında əvvəllər məlum olmayan, eləcə də məkkəlilərin başlıca qüvvəsini təşkil edən bədəvi süvarilərinin döyüş imkanlarını ciddi surətdə məhdudlaşdıran bu yeni döyüş taktikası müşrikləri çaş-baş saldı. Şəhərin bilavasitə hücumla alınması baş tutmadı. Çoxlu yağış yağan və soyuq şimal küləkləri əsən sərt qış şəraitində şəhərin mühasirəyə alınması uzun çəkdi və onu mühasirədə saxlayanlar üçün çox əziyyətli oldu.

Artıq məkkəlilərin düşərgəsində didişmələr başlamışdı. Bundan əlavə, məkkəlilərdən asılı vəziyyətdə olduqlarına görə adətən bədəvilər onlara nifrət bəsləyirdilər. Bundan məharətlə istifadə edən Peyğəmbərin *(s)* diplomatiyası düşmən cəbhəsində didişmələri daha da şiddətləndirdi. Həzrət Muhəmmədin *(s)* elçiləri güclü tayfa olan Qətəfan qəbiləsinə məxsus dəstələrin başçıları ilə gizli danışıqlar apardı və nəticə etibarı ilə bədəvilər düşmənin cəbhəsini tərk etdilər. Onların getməsi Mədinənin mühasirəsini perspektivsiz işə çevirdi və mühasirə ləğv edildi. Beləliklə, Peyğəmbər *(s)* çox mühüm qələbə qazandı. Bu qələbə onun Mədinədəki icmasının daha sıx birləşməsinə, eləcə də yeni bədəvi tayfaların bu icmaya qoşulmasına səbəb oldu.

Hicrətin altıncı (Miladi-627) ilində döyüşçülər baxımından Peyğəmbərin *(s)* qüvvələri ilə düşmən qüvvələrinin nisbəti elə idi ki, məkkəli qureyşlilərin hakim mövqe tutan başçıları mövcud problemləri qarşılıqlı güzəşt əsasında həll etmək üçün o Həzrətlə *(s)* bərabərhüquqlu danışıqlar aparmağa məcbur oldu-

lar. Məsələn, Hüdeybiyyədə yazılı surətdə çox vacib bir saziş təsbit edildi. Sazişə görə, məkkəlilər sonrakı il Mədinə müsəlmanlarının Kəbəni maneəsiz ziyarət etməsinə imkan verəcəklərini vəd etməklə yanaşı, həm də belə bir öhdəlik götürdülər ki, zəvvarlar Məkkədə olacaqları müddətdə (3 gün) şəhəri tərk edəcəklər. Mədinəlilər isə öz növbəsində söz verdilər ki, bundan sonra məkkəlilərin karvanlarına basqın etməyəcəklər.

628-ci ildə mühacir və ənsar Kəbəni ziyarət edəndə məkkəlilər bir daha yəqin etdilər ki, Peyğəmbər *(s)* bütün Qərbi Ərəbistanın dini mərkəzi kimi Məkkənin nüfuzuna qətiyyən xələl vurmur. Bununla yanaşı, məkkəlilərin Qərbi Ərəbistanda siyasi nüfuzu durmadan zəifləməkdə idi. Belə bir şəraitdə Məkkə rəhbərliyinin ən uzaqgörən nümayəndələri başa düşdülər ki, Peyğəmbərin *(s)* icması ilə əlaqələri daha da genişləndirib möhkəmləndirmək yaxşı olar. Hələ son vaxtlara qədər müsəlmanların Mədinədəki icmasına qarşı mübarizəyə başçılıq edən məkkəlilərdən birinin, çox nüfuzlu və İslamın qəddar düşməni olan Əbu Süfyanın Peyğəmbərin *(s)* tərəfinə keçməsi xüsusilə əlamətdar və vacib hadisə idi.

630-cu ildə Məkkə döyüşsüz Peyğəmbərə *(s)* təslim oldu. Rəsulullah *(s)* şəhərə zəfərlə daxil olsa da əvvəllər məkkəlilərə verdiyi başlıca vədləri yerinə yetirdi. Məkkə həqiqətən sürətlə yayılmaqda olan İslam dininin mərkəzinə çevrildi. Kəbə isə oradakı bütün çoxallahlılıq bütləri və rəmzləri (Qara daş istisna olmaqla) nümayişkaranə surətdə dağıdıldıqdan sonra yeni dinin baş ziyarətgahına çevrildi, həmçinin Kəbənin ziyarət edilməsi (Həcc) yeni dinin beş əsas dayağından biri kimi elan edildi. Məkkəlilərin özləri Peyğəmbərin *(s)* icmasına sadəcə olaraq müsəlmanlar kimi, yəni özlərini itaətkarcasına Allaha və Onun Rəsuluna *(s)* təslim edən adamlar kimi deyil, möminlər kimi, yəni Allaha və Rəsulullaha *(s)* ürəkdən, etibarlı surətdə iman gətirənlər kimi qəbul edildilər. Beləliklə də məkkəlilər dini hüquqlarına görə faktiki surətdə mühacir və ənsarla bərabər tutuldular. Bu, onlara müsəlman icmasının bütün işlərində tam ixtiyar sahibi kimi fəal iştirak etmək üçün geniş imkanlar açırdı.

Məkkəlilərin İslamı qəbul etməsi onun bədəvi ərəb tayfalarına təsirinin möhkəmlənməsində, eləcə də həmin tayfalar arasında daha da yayılmasında, şübhəsiz, mühüm rol oynadı.

Hicrətin doqquzuncu ili artıq müsəlman tarixinə “elçiliklər ili” kimi daxil olmuşdur. Rəvayətə görə, bütün Ərəbistanın bədəvi tayfaları məhz həmin ildə Peyğəmbərə *(s)* tabe və o Həzrətin *(s)* dinini qəbul etməyə hazır olduqlarını bildirmək üçün Mədinəyə özlərinin səlahiyyətli nümayəndələrini göndərməyə başlamışdılar. Lakin həmin rəvayətdən aydın olur ki, bu proses əslində heç də sadə və rəvan getmirdi. Taifdəki Səqif qəbiləsi Həvazin tayfası ilə ittifaqa girib hətta Peyğəmbərin *(s)* tərəfdarlarının birləşmiş Mədinə-Məkkə icmasına qarşı açıq şəkildə silahlı mübarizəyə qalxmağa cəhd göstərmiş, lakin Hüneyn vadisində müsəlmanlar və onlarla müttəfiq olan bədəvi tayfalar tərəfindən tamamilə darmadağın edilmişdi. Bu qələbədən sonra müsəlmanlar çətinlik çəkmədən Taifi ələ keçirdilər və ilk növbədə yerli ilahə əl-Latın ziyarətgahını dağıtdılar.

Hüneyn vuruşması və onun ardınca Taif üzərinə yürüş Peyğəmbərin *(s)* ömrünün axırıncı iki ilində baş vermiş ən iri hərbi əməliyyatlar olmuşdur. Əsasən Ərəbistanın şimalında bəzi digər ərazilərin itaət altına alınması daha kiçik yürüşlərin köməyi ilə təmin edilmişdi.

Hicrətin onuncu ili, Zilhiccə ayının 8-də (632-ci ilin martında) Peyğəmbər *(s)* bütün ailəsinin müşayiəti ilə Məkkənin müqəddəs yerlərinə özünün ilk və yeganə tam ziyarətinə yollandı. Bu “Böyük Həcc” (“əl-Həcc əl-Əkbər”) tarixə “Hiccət əl-Vida” (“Vida Həcci”) adı ilə daxil olmuşdur. Bu tədbir İslam dininin mərkəzi kimi Məkkənin rolunu qəti surətdə təsdiq etdi.

Həmin vaxtdan etibarən Məkkə qeyri-müsəlmanlar üçün haram sayılan müqəddəs şəhərə, müsəlmanların isə Həcc mərasimi yerinə çevrildi. Bütün sonrakı əsrlərdə Həcc mərasiminə sözsüz və ciddi əməl edilmişdir, indi də bu mərasim Zilhiccə ayının 8-dən 12-nə kimi vaxtı ilə Peyğəmbərin *(s)* öz Vida Həccinə yollandığı şəkildə təkrar edilir.

Vida Həccindən üç ay sonra, 632-ci ilin iyun ayında Peyğəmbər *(s)* vəfat etdi. Allahın Rəsulu *(s)* Mədinə şəhərində, vəfat etdiyi evində dəfn olundu.

İslam Peyğəmbəri *(s)* xarakteri, xüsusiyyətləri və davranışı baxımından insanların, hətta keçmiş peyğəmbərlərin *(ə)* ən üstünüdür. Bunu Qurani-Kərim və hədisi-şəriflər də təsdiq edir. Belə ki, Allah-taala buyurur:

**وإنك لعلى خلق عظيم**

***"Sən ən böyük əxlaq üzərindəsən".***[11]

Bu ayə Rəsulullahın *(s)* əxlaqi cəhətdən bütün bəşəriyyətdən üstün olmasına açıq-aydın dəlildir. Onun Allah tərəfindən insanların əməllərinə şahid olması digər bir fəzilətini ortaya qoymaqdadır. Üqbə ibn Amir belə nəql edir:

**عن عقبة بن عامر أن النبي صلى الله عليه وسلم خرج يوماً، فصلى على أهل أُحد صلاته على الميت، ثم انصرف إلى المنبر، فقال :إني فرط لكم - أي سابقكم-، وأنا شهيد عليكم، وإني والله لأنظر إلى حوضي الآن، وإني أُعطيت مفاتيح خزائن الأرض، أو مفاتيح الأرض، وإني والله ما أخاف عليكم أن تشركوا بعدي، ولكن أخاف عليكم أن تنافسوا فيها.**

"Peyğəmbər *(s)* bir gün Ühüd əhlindən bir meyitə namaz qıldı və sonra minbərə çıxıb buyurdu:

"Mən sizinlə görüşəcəyəm, sizə şahid olacağam. And olsun Allaha, mən indi Kövsər hovuzumu görürəm. Mənə Cənnətin və yerlərin açarları verilib. Mən sizin məndən sonra şirkə dönməyinizdən qorxuram..."

Rəsulullah *(s)* möminlərə öz canlarından daha yaxın və əzizdir. Quran bu fikri belə bəyan edir:

**النبي أولى بالمؤمنين من أنفسهم**

***"Peyğəmbər möminlərə canlarından daha üstündür".***[12]

Ayəyə təfsir verən əş-Şövkani "Fəthul-qədir" adlı əsərində yazırdı:

---

[11] "əl-Qələm", 4.

[12] "əl-Əhzab", 6.

“Əgər Peyğəmbər *(s)* insanları bir işə çağırsa, başqa birisi də eyni vaxtda onu digər iş üçün çağırsa, o şəxsə vacibdir ki, əvvəlcə Peyğəmbərə *(s)* cavab versin”.

Əbu Hüreyrə nəql edir:

“Allahın Rəsulu *(s)* belə buyurdu:

**قال رسول الله صلى الله عليه وسلم :أنا سيد ولد آدم يوم القيامة، وأول من ينشق عنه القبر، وأول شافع، وأول مشفع، وهو صاحب المقام المحمود.**

***“Mən qiyamət günü Adəm övladının ağası olacam. Mən ilk şəfaətçi və məqami-məhmudun sahibiyəm”***.

Peyğəmbər *(s)* öz mübarək sözləri ilə dünya elm və fəlsəfə xadimlərini heyrətə salacaq dərəcədə təəccüb içində buraxmış yeganə şəxsiyyətdir. Onun kəlamları insanların həm dünya, həm də Axirət həyatını tənzimləyəcək gücdədir. Əslində bu, belə də olmalıdır. Çünki Allah-taala məhz o Həzrətin *(s)* vasitəsilə insanları Axirət səadətinə qovuşduracaqdır. Bu, Qurani-Kərimin verdiyi vədədir və Allah öz vədinə əsla xilaf çıxmaz.

Burada İslam və Cahan Peyğəmbəri Həzrət Muhəmmədin *(s)* mübarək kəlamlarından qısa da olsa bəhs etməyimiz yuxarıda dediklərimizə əyani sübut olar:

Allahın Rəsulu *(s)* səhabələrindən soruşdu:

***“Qadın nədir?”***

Səhabələr cavab verdilər:

“Qadın namusdur”.

Rəsulullah *(s)* soruşdu:

***“Qadın nə vaxt Allaha daha çox yaxın olur?”***

Səhabələr cavab verə bilmədilər.

Sualı eşidən Xanım Fatimə *(ə)* buyurdu:

***“Qadının Allaha ən yaxın vaxtı evində olan vaxtıdır”***.

Cavabı eşidən Peyğəmbər *(s)* buyurdu:

***“Həqiqətən Fatimə bədənimin bir parçasıdır”***.

Xanım Zəhra *(ə)* buyurur:

***“Gecə istirahət etməyə hazırlaşdığım vaxt Rəsulullah yanıma gəlib buyurdu:***

*“Ya Fatimə, dörd şeyi yerinə yetirməzdən qabaq yatma:*

*1. Quran xətm etmək;*

*2. Peyğəmbərlərin şəfaətindən bəhrələnmək;*

*3. Möminləri özündən razı salmaq;*

*4. Həcc və Ümrə yerinə yetirmək”.*

*Rəsulullah bu sözlərdən sonra namaz qılmağa başladı. Namazını bitirdikdə yaxınlaşıb dedim:*

*Ey Allahın Rəsulu, mənə qüdrətimdən xaric olan dörd şeyi tövsiyə etdin.*

*Həzrət təbəssüm edərək buyurdu:*

*“Əgər “İxlas” surəsini üç dəfə oxusan Quranı xətm etmiş olarsan”.*

*Əgər mənə və məndən əvvəl gələn peyğəmbərlərə salavat göndərsən Qiyamət günündə sənin şəfaətçilərin olarıq.*

*Əgər möminlər üçün istiğfar etsən onlar səndən razı olacaqlar.*

*Əgər “subhanəllahi vəl həmdulillahi və la ilahə illəllah” desən Həcc və Ümrə ziyarətini yetirmiş olarsan”.*

Peyğəmbər *(s)* buyurmuşdur:

*“Bütün yaxşılıqlardan üstün bir yaxşılıq vardır. Lakin insan Allah yolunda öldürüldükdə daha bundan da üstün bir yaxşılıq yoxdur”*;

*“Heç bir damla Allah yolunda tökülən qan damlasından əziz deyil”*;

*“Əməllərinizi Allah üçün xalisliklə yerinə yetirin. Həqiqətən, Allah yalnız Onun üçün xalisliklə yerinə yetirilmiş əməlləri qəbul edir”*;

*“Öz ümmətim üçün hər şeydən çox danışmaqda mahir olan münafiqlərdən qorxuram”*;

*“Allah-taala sevdiyi bəndəsini çətinliyə salar ki, onun ahu-zarını eşitsin”*;

*“Bir şəxsi işlətmək üçün əcr tutduqda haqqını ona əvvəlcədən elan edin”*;

*“Elm öyrənənin (din tələbəsinin) əcəli çatdıqda şəhid kimi ölər”*;

***"Əgər öz yaxşı işindən sevinib pis işindən narahat olursansa, deməli möminsən"***;

***"Qəzəbləndiyin zaman sakit ol (dayan)"***.

Xanım Fatimə *(ə)* buyurur:

***"Allahın Peyğəmbəri buyurdu:***

***"Hər kəs mənim övladlarımdan biri üçün bir iş görsə və o işin müqabilində muzd almasa, onun əvəzini mən verərəm".***[13]

Allah-taala müqəddəs Qurani-Kərimdə Peyğəmbərə *(s)* boyun əyməyin vacib olduğu haqqında kifayət qədər ayələr göndərmişdir. Həmin ayələrdən bəzilərini aşağıdakı kimi sıralamaq olar:

قُلْ إِن كُنتُمْ تُحِبُّونَ اللّهَ فَاتَّبِعُونِي يُحْبِبْكُمُ اللّهُ وَيَغْفِرْ لَكُمْ ذُنُوبَكُمْ وَاللّهُ غَفُورٌ رَّحِيمٌ

***"De ki, "Əgər siz Allahı sevirsinizsə, mənim ardımca gəlin ki, Allah da sizi sevsin, günahlarınızı bağışlasın. Həqiqətən Allah bağışlayan və mərhəmətlidir!"***;[14]

قُلْ أَطِيعُواْ اللّهَ وَالرَّسُولَ فإِن تَوَلَّوْاْ فَإِنَّ اللّهَ لاَ يُحِبُّ الْكَافِرِينَ

***"Söylə ki, "Allaha və Onun Peyğəmbərinə itaət edin! Əgər üz döndərirsinizsə, şübhəsiz ki, Allah da kafirləri sevməz!"***;[15]

مَّا أَصَابَكَ مِنْ حَسَنَةٍ فَمِنَ اللّهِ وَمَا أَصَابَكَ مِن سَيِّئَةٍ فَمِن نَّفْسِكَ وَأَرْسَلْنَاكَ لِلنَّاسِ رَسُولاً وَكَفَى بِاللّهِ شَهِيدًا

مَّنْ يُطِعِ الرَّسُولَ فَقَدْ أَطَاعَ اللّهَ وَمَن تَوَلَّى فَمَا أَرْسَلْنَاكَ عَلَيْهِمْ حَفِيظًا

***"...Biz səni insanlara peyğəmbər olaraq göndərdik. Allahın buna şahid olması kifayət edər. Peyğəmbərə itaət edən şəxs, şübhəsiz ki, Allaha itaət etmiş olur. Kim üz döndərsə*** **(qoy döndərsin),** ***biz ki, səni onların üzərində gözətçi olmağa göndərməmişik"***;[16]

---

[13] Hədislər Əllamə Məclisinin "Biharul-ənvar" əsərinin müxtəlif cildlərindən götürülüb.
[14] "Ali-İmran", 31.
[15] "Ali-İmran", 32.
[16] "ən-Nisa", 79-80.

أَيُّهَا الَّذِينَ آمَنُواْ أَطِيعُواْ اللّهَ وَأَطِيعُواْ الرَّسُولَ وَأُوْلِي الأَمْرِ مِنكُمْ فَإِن تَنَازَعْتُمْ فِي شَيْءٍ فَرُدُّوهُ إِلَى اللّهِ وَالرَّسُولِ إِن كُنتُمْ تُؤْمِنُونَ بِاللّهِ وَالْيَوْمِ الآخِرِ ذَلِكَ خَيْرٌ وَأَحْسَنُ تَأْوِيلاً

*"Ey iman gətirənlər! Allaha, Peyğəmbərə və özünüzdən olan ixtiyar sahiblərinə itaət edin! Əgər bir iş barəsində mübahisə etsəniz, Allaha və qiyamət gününə inanırsınızsa, onu Allaha və Peyğəmbərə həvalə edin! Bu, daha xeyirli və nəticə etibarilə daha yaxşıdır"*;[17]

لَقَدْ كَانَ لَكُمْ فِي رَسُولِ اللَّهِ أُسْوَةٌ حَسَنَةٌ لِّمَن كَانَ يَرْجُو اللَّهَ وَالْيَوْمَ الآخِرَ وَذَكَرَ اللَّهَ كَثِيرًا

*"Həqiqətən Allahın Rəsulu Allaha, qiyamət gününə ümid bəsləyənlər və Allahı çox zikr edənlər üçün gözəl nümunədir"*;[18]

وَأَطِيعُواْ اللَّهَ وَرَسُولَهُ وَلاَ تَنَازَعُواْ فَتَفْشَلُواْ وَتَذْهَبَ رِيحُكُمْ وَاصْبِرُواْ إِنَّ اللَّهَ مَعَ الصَّابِرِينَ

*"Allaha və Onun Peyğəmbərinə itaət edin. Bir-birinizlə çəkişməyin, yoxsa qorxub zəifləyər və gücdən düşərsiniz. Səbir edin, çünki Allah səbir edənlərlədir"*;[19]

وَأَطِيعُواْ اللَّهَ وَأَطِيعُواْ الرَّسُولَ وَاحْذَرُواْ فَإِن تَوَلَّيْتُمْ فَاعْلَمُواْ أَنَّمَا عَلَى رَسُولِنَا الْبَلاغُ الْمُبِينُ

***"Allaha və Onun Peyğəmbərinə itaət edin,*** (onlara qarşı çıxmaqdan) ***çəkinin. Əgər*** (itaətdən) ***boyun qaçırsanız, bilin ki, Peyğəmbərimizin vəzifəsi yalnız açıq bir təbliğdir"***;[20]

لا تَجْعَلُوا دُعَاء الرَّسُولِ بَيْنَكُمْ كَدُعَاء بَعْضِكُم بَعْضًا قَدْ يَعْلَمُ اللَّهُ الَّذِينَ يَتَسَلَّلُونَ مِنكُمْ لِوَاذًا فَلْيَحْذَرِ الَّذِينَ يُخَالِفُونَ عَنْ أَمْرِهِ أَن تُصِيبَهُمْ فِتْنَةٌ أَوْ يُصِيبَهُمْ عَذَابٌ أَلِيمٌ

*"Peyğəmbəri çağırmağı öz aranızda bir-birinizi çağırmağınızla eyni tutmayın!.."*;[21]

---

[17] "ən-Nisa", 59.
[18] "əl-Əhzab", 21.
[19] "əl-Ənfal", 46.
[20] "əl-Maidə", 92.

يَا أَيُّهَا الَّذِينَ آمَنُواْ اسْتَجِيبُواْ لِلّهِ وَلِلرَّسُولِ إِذَا دَعَاكُم لِمَا يُحْيِيكُمْ وَاعْلَمُواْ أَنَّ اللّهَ يَحُولُ بَيْنَ الْمَرْءِ وَقَلْبِهِ وَأَنَّهُ إِلَيْهِ تُحْشَرُونَ

***"Ey iman gətirənlər! Peyğəmbər sizi, sizləri dirildərək*** (imana, haqqa) ***dəvət etdiyi zaman Allahın və Onun Peyğəmbərinin dəvətini qəbul edin..."***;[22]

تِلْكَ حُدُودُ اللّهِ وَمَن يُطِعِ اللّهَ وَرَسُولَهُ يُدْخِلْهُ جَنَّاتٍ تَجْرِي مِن تَحْتِهَا الأَنْهَارُ خَالِدِينَ فِيهَا وَذَلِكَ الْفَوْزُ الْعَظِيمُ

وَمَن يَعْصِ اللّهَ وَرَسُولَهُ وَيَتَعَدَّ حُدُودَهُ يُدْخِلْهُ نَارًا خَالِدًا فِيهَا وَلَهُ عَذَابٌ مُّهِينٌ

***"Bunlar Allahın sərhədləridir*** (hökmləridir). ***Hər kəs Allaha və Peyğəmbərinə itaət edərsə, Allah onu ağacları altından çaylar axan cənnətlərə əbədi olaraq daxil edər ki, bu da*** (möminlər üçün) ***böyük uğur və qurtuluşdur! Hər kəs Allaha və Peyğəmbərinə itaət etməyib Onun sərhədlərini aşarsa, Allah da onu Cəhənnəmə daxil edər. Onu rüsvayedici əzab gözləyir".***[23]

Yuxarıda göstərilən ayələr bir daha müsəlman ümmətinin Peyğəmbərə *(s)* və məsum Əhli-Beytinə *(ə)* tabe olmasının, onların ardınca getməsinin zəruriliyini sübut edir.

Bütün bu ayələrdən başqa, biz Peyğəmbərin *(s)* hədislərində də o Həzrətə *(s)* tabe olub onun sünnəsini yaşatmağın vacib olduğunu görməkdəyik. Belə ki, Peyğəmbər *(s)* buyurmuşdur:

***"Kim mənim sünnəmdən üz çevirərsə, məndən deyildir"***;[24]

***"Dinin əldən çıxması sünnənin tərk edilməsi ilə başlayar"***;[25]

***"Hər kəs mənə itaət edərsə, Cənnətə girəcəkdir. Hər kim də mənə asi olarsa, o da Cənnətə girə bilməz"***;[26]

---

21 "ən-Nur", 63.
22 "əl-Ənfal", 24.
23 "ən-Nisa", 13-14.
24 "Səhihi-Buxari", nigah-1.
25 "Sünəni-Darimi", müqəddimə-16.
26 "Səhihi-Buxari", kitabul-etisam fəsli.

***“Ümmətimdən hər kəs dini işlərində ehtiyac duyduğu qırx hədis əzbərləyərsə, qiyamət günü Allah onu alim və fəqih kimi dirildər”***;[27]

***“Həqiqətən bizim hədislərimiz qəlbləri cilalayır”***.[28]

Həmçinin, Əhli-Beytdən *(ə)* gələn hədislərdə də hədis və sünnənin öyrənilməsinin, həmçinin qorunub saxlanılmasının zəruri bir əməl olduğunu görməkdəyik. Bu haqda İmam Cəfər Sadiq *(ə)* buyurur:

***“Hər kəs halal və ya haram haqqında bizim hədislərimizdən qırx hədis əzbərləyərsə, qiyamət günü Allah onu alim və fəqih kimi dirildər və ona əzab verməz”***;[29]

***“Həqiqətən bizim hədislərimiz qəlbləri dirildir”***.[30]

Yuxarıda deyilən fikirlərdən aydın olur ki, Rəsulullahın *(s)* peyğəmbərliyi və sünnəsi qiyamətə qədər Yer üzündə baqi qalacaq, heç bir təhrif və təbdilə məruz qalmayacaqdır. Həmçinin, Həzrət Peyğəmbərin *(s)* gətirdiyi şəriət – İslam şəriəti əbədiyaşar olmaqla yanaşı, ondan əvvəl gələn peyğəmbərlərin *(ə)* şəriətlərindən də məhz bu xüsusiyyətinə görə fərqlənir.

---

[27] Şeyx Səduq, “əl-Xisal”, səh. 113.
[28] Kuleyni, “Usuli-kafi”, c. II, s. 190.
[29] Şeyx Səduq, “əl-Xisal”, s. 116.
[30] Əllamə Məclisi, “Biharul-ənvar”, c. XX, s. 213.


ولاية علي بن ابي طالب ولاية الله

## 1. 2. İMAM ƏLİ İBN ƏBU TALİB *(ə)*

Həzrət Əli *(ə)* İslam Peyğəmbərinin *(s)* əmisi oğlu, İmam Həsən *(ə)* və İmam Hüseynin *(ə)* atasıdır. Rəsulullahın *(s)* iyirminci babasına qədər uzanan və eyni kökdən gələn bu nəslin şəcərə silsiləsi belədir:

"Muhəmməd *(s)*, Abdullah, Əbdülmütəllib (əsil adı Şeybədir), Haşim, Əbdu Mənaf, Kusay, Kilab, Mürrə, Kab, Lüəyy, Calib, Fihr, Malik, Nadr, Kinanə, Hüzeymə, Müdrikə, İlyas, Mudar, Nizar, Maad, Adnan".

Bu şəxslər Peyğəmbərin *(s)* ulu babalarıdır. Hamısının zürriyyəti çoxalıb artmış, əşirətlər və qəbilələr halında Ərəbistan Yarımadasında yaşamışlar.

Peyğəmbərin *(s)* iyirminci babası Ədnandan sonrakı əsli-nəsəb xəttinə gəldikdə isə İslam alimləri onun İbrahim peyğəmbərin *(ə)* nəslindən olduğunu ittifaqla qəbul etmişlər. Ədnan ilə İbrahim *(ə)* arasında uzun zaman məsafəsi olmuşdur. Bəzi alimlər Rəsulullahın *(s)* nəsəbini yeddi, bəzisi də doqquz nəsil İsmail peyğəmbərə *(ə)* bağlayırlar.[31]

İslami mənbələrdə rəvayət edildiyinə görə, Həzrət Əli *(ə)* həm ata, həm də ana tərəfindən Haşimi nəslinə birləşir. Atası Əbu Talib ibn Mütəllib, anası isə Fatimə bint Əsəd ibn Haşimdir. Həzrət Əli *(ə)* fil ilindən otuz il sonra doğulmuşdur. Bunu görkəmli hədis alimi Muhəmməd ibn Yaqub əl-Kuleyni (ö. 941) məşhur "əl-Kafi" əsərində belə yazır:

**ولد عليه السلام بعد عام الفيل بثلاثين سنة، وأمه فاطمة بنت أسد بن هاشم بن عبد مناف، وهو أول هاشمي ولده هاشم مرتين.**

"Əli *(ə)* fil ilindən otuz il sonra doğulmuşdur. Onun anası Fatimə bint Əsəd ibn Haşim ibn Əbdu Mənafdır. O, ilk Haşimi şəxsdir ki, iki tərəfdən də Haşimidir".[32]

---

[31] Salih Suruç, "Kainatın Efendisi, Peyqamberimizin Hayatı", Yeni Asya Nəşriyatı, İstanbul 2001, I, 19-22.
[32] Kuleyni, "Usuli-kafi", c. I, s. 452.

Həzrət Əlinin *(ə)* özündən böyük üç qardaşı olmuş, lakin onun doğumu digərlərinə nisbətən çox maraqlı və mənəvi dəyişiklərlə müşayiət olunmuşdur. Anası Fatimə Həzrət İbrahimin *(ə)* Hənif dinində olmuşdur. Qaynaqlara görə, bu qadın daim Allaha dua edərək doğumunun asan olmasını istəyirdi. Fatimə hamilə ikən özünü sanki bir nur içində olduğunu hiss etmişdir.[33]

**الدقاق عن الأسدي، عن النخعي، عن النوفلي، عن محمد بن سنان، عن المفضل، عن ثابت بن دينار، عن سعيد بن جبير قال :قال يزيد بن قعنب:كنت جالسا مع العباس بن عبد المطلب وفريق من عبد العزى بإزاء بيت الله الحرام إذ أقبلت فاطمة بنت أسد أم أمير المؤمنين عليه السلام وكانت حاملة به لتسعة أشهر، وقد أخذها الطلق، فقالت :رب إني مؤمنة بك وبما جاء من عندك من رسل وكتب، وإني مصدقة بكلام جدي إبراهيم الخليل، وإنه بنى البيت العتيق، فبحق الذي بنى هذا البيت وبحق المولود الذي في بطني لما يسرت علي ولادتي .قال يزيد بن قعنب : فرأينا البيت وقد انفتح عن ظهره ودخلت فاطمة فيه وغابت عن أبصارنا، والتزق الحائط، فرمنا أن ينفتح لنا قفل الباب فلم ينفتح، فعلمنا أن ذلك أمر من أمر الله عز و جل ثم خرجت بعد الرابع وبيدها أمير المؤمنين عليه السلام ثم قالت :إني فضلت على من تقدمني من النساء لان آسية بنت مزاحم عبدت الله عز وجل سرا في موضع لا يحب أن يعبد الله فيه إلا اضطرارا، وإن مريم بنت عمران هزت النخلة اليابسة بيدها حتى أكلت منها رطبا جنيا، وإني دخلت بيت الله الحرام فأكلت من ثمار الجنة وأرواقها فلما أردت أن أخرج هتف بي هاتف، يا فاطمة سميه عليا فهو علي، والله العلي الاعلى يقول :إني شققت اسمه من اسمي، وأدبته بأدبي، ووقفته على غامض علمي وهو الذي يكسر الأصنام في بيتي، وهو الذي يؤذن فوق ظهربيتي، ويقدسني ويمجدني، فطوبى لمن أحبه وأطاعه، وويل لمن أبغضه وعصاه.**

Şeyx Səduq (ö. 995) və Qəttal Nişapuri nəql edir ki, Yezid ibn Qənəb demişdir:

“Mən Abbas ibn Əbdulmütəllib və Əbdülüzza tayfasından bir qrupla Allah evinin ətrafında əyləşmişdik. Həzrət Əlinin *(ə)* anası Fatimə bint Əsəd doqquz aylıq körpəyə hamilə vəziyyətdə və doğum sancısı çəkə-çəkə belə deyirdi:

“Pərvərdigara, Sənə, peyğəmbərlərindən *(ə)* gələnə, Sənin tərəfindən nazil olan Kitaba iman gətirmişəm. Babam İbrahimin *(ə)* sözlərini təsdiq edirəm. Bu qədim Evin bünövrəsini qoyan o, ol-

---

[33] Fəzlullah Kompani, “Əli *(ə)* kimdir?”, tərc: Muhəmməd Turan, s. 8.

muşdur. Səni and verirəm bu Evi tikənin və bətnimdə olanın haqqına, bu doğuşu mənim üçün asan et”.

Biz Kəbə evinin arxadan yarıldığını və Fatimənin Kəbəyə daxil olduğunu gördük. O, gözdən itdikdən sonra divar yenidən birləşdi. Kəbənin qapısını açmaq istəsək də bu mümkün olmadı. Başa düşdük ki, bu, Allahın işidir. Dörd gün sonra Fatimə əlində uşaqla – Həzrət Əli *(ə)* ilə bayıra çıxdı və dedi:

“Mən keçmişdəki bütün qadınlardan üstünəm. Çünki Asiya Allaha elə bir yerdə ibadət edirdi ki, orada yalnız xaçpərəstin ibadət etməsi mümkündür. İmranın qızı Məryəmi Beytül-Müqəddəsdə doğum sancısı tutdu, nida edildi ki, bayıra çıxsın, ibadətgahda doğmaq olmaz. Mən isə Allahın Evinə daxil oldum, Cənnət meyvələrindən yedim, bayıra çıxmaq istədikdə belə nida gəldi:

***“Ya Fatimə, onun adını Əli, Əliyyul-Əla qoy!”***.

Allah buyurdu:

***“Mən ona Öz adımdan götürdüyüm adı qoydum, onu Öz ədəbimlə tərbiyə etdim, ona gizli elmlərdən agahlıq verdim. Odur Mənim Evimdə bütləri qıran, odur Evimin damında azan oxuyan, Məni pak bilən. Xoş o kəsin halına ki, onu dost tutar, ona itaət edər. Vay o kəsin halına ki, onu düşmən tutar və ona müxalif olar”.***[34]

Həzrət Əlinin *(ə)* Kəbədə dünyaya göz açmaqla ona qazandırdığı iftixar heç kimə nəsib olmayan bir fəzilətdir. Bunu Allah yalnız Həzrət Əliyə *(ə)* nəsib edərək xalqa onun məqamını göstərmişdir.

Kuleyni İmam Sadiqdən *(ə)* səhih bir sənədlə belə nəql edir:

**الحسين بن محمد، عن محمد بن يحيى الفارسي، عن أبي حنيفة محمد بن يحيى، عن الوليد بن أبان، عن محمد بن عبد الله بن مسكان، عن أبيه قال :قال أبو عبد الله عليه السلام:إن فاطمة بنت أسد جاءت إلى أبي طالب لتبشره بمولد النبي صلى الله عليه وآله فقال أبو طالب:اصبري سبتا آتيك أبشرك بمثله إلا النبوة .وقال :السبت ثلاثون سنة، وكان بين. رسول الله صلى الله عليه وآله وأمير المؤمنين عليه السلام ثلاثون سنة.**

---

[34] Əllamə Məclisi, “Biharul-ənvar”, c. 35, s. 9.

“...Fatimə bint Əsəd Peyğəmbərin *(s)* Mövludunu Əbu Talibə xəbər vermək üçün gəldikdə Əbu Talib dedi:

“Səbir et, ona oxşar biri ilə sənin övladın olacağını sənə müjdə verirəm. Lakin o, peyğəmbər olmayacaqdır. Bu, otuz ildən sonra olacaq”.

Peyğəmbərlə *(s)* Əlinin *(ə)* doğumları arası otuz ildir”.[35]

İmam Sadiqdən *(ə)* belə nəql olunur:

**وفي رواية شعبة عن قتادة، عن أنس، عن العباس بن عبد المطلب، ورواية الحسن ابن محبوب عن الصادق عليه السلام - والحديث مختصر - أنه انفتح البيت من ظهره ودخلت فاطمة فيه ثم عادت الفتحة والتصقت، وبقيت فيه ثلاثة أيام، فأكلت من ثمار الجنة، فلما خرجت قال علي عليه السلام :السلام عليك يا أبه ورحمة الله وبركاته، ثم تنحنح وقال: بسم الله الرحمن الرحيم * قد أفلح المؤمنون . فقال رسول الله صلى الله عليه وآله :قد أفلحوا بك أنت والله أميرهم، تميرهم من علمك فيمتارون، وأنت والله دليلهم وبك والله يهتدون، ووضع رسول الله صلى الله عليه وآله لسانه في فيه، فانفجرت...**

***“...Kəbə yarıldı, Fatimə bint Əsəd ora daxil oldu. Kəbənin yarıldığı yer sonradan bağlandı. Fatimə Kəbənin içərisində üç gün qaldı və orada Cənnət meyvələrindən qidalandı. Elə ki, Fatimə oradan xaric oldu, Əli belə buyurdu:***

***“Allahın salamı və bərəkəti olsun ey ata sənə!”***

***Sonra o, boğazını arıtlayaraq buyurdu:***

***“Bismillahir-rəhmanir-rəhim! Möminlər artıq nicat tapmışlar”.***

***Bunu eşidən Peyğəmbər buyurdu:***

***“Möminlər səninlə nicat tapmışlar. Sən onların əmirisən. Öz elminlə onları qidalandırarsan. Sən onlar üzərində dəlilsən. Allah sənin vasitənlə onları hidayət edər”.***

***Sonra Peyğəmbər dilini onun ağzına saldı və o, qidalandı”.[36]***

Bəzi rəvayətlərdə nəql olunur ki, Fatimə bint Əsəd övladı Əli *(ə)* dünyaya gəldiyində adını Heydər qoymuşdur. Bunun üzə-

---

[35] Kuleyni, “Usuli-kafi”, c. I, s. 452.

[36] Əllamə Məclisi, “Biharul-ənvar”, c. 35, s. 18.

rinə Həzrət Əli *(ə)* məşhur Xeybər döyüşündə tanınmış yəhudi pəhləvan Mərhaba belə demişdir:

***"Anam "Heydər" qoymuş mənim adımı",***
***"Bu şirin önündə duran oldumu?!"***

Peyğəmbərin *(s)* kürəkəni, xəlifəsi və əmisi oğlu olan Həzrət Əlinin *(ə)* Əbül-Həsən, Əbu Turab, Mürtəza və Əsədullah kimi ləqəbləri olmuşdur. O, həmçinin Heydər, Mürtəza və Əmirəl-möminin ünvanı ilə də tanınmışdır.[37]

Mənbələrin verdiyi səhih rəvayətlərə görə, Məkkədə qıtlıq ili olan bir vaxt idi. Peyğəmbər *(s)* əmisi Abbasa dedi:

***"Əbu Talibin gəliri az, ailəsi isə çox böyükdür. Uşaqlarından birini götürək"***.

Rəsulullahla *(s)* əmisi Abbas ilə birlikdə Əbu Talibin yanına gedib fikirlərini ona bildirdilər. Əbu Talibin razılığı ilə Həzrət Əlini *(ə)* Peyğəmbər *(s)*, Cəfəri isə Abbas götürdü. Beləliklə, Həzrət Əli *(ə)* beş yaşından Peyğəmbərin *(s)* yanında qaldı, o Həzrətin *(s)* əxlaqı ilə kamala çatdı, tərbiyəsi ilə böyüdü və ona ilk iman edən şəxs oldu.[38]

Bir gün Əli *(ə)* Peyğəmbərlə *(s)* xanımı Xədicəni namaz qılarkən gördü, maraqlanıb nə etdiklərini soruşdu. Rəsulullah *(s)* ona belə cavab verdi:

***"Bu, Allahın Özünə xas etdiyi və əvvəlki peyğəmbərləri vasitəsilə Öz bəndələrinə təbliğ etdiyi dindir ya Əli! Səni bir olan və heç bir şəriki olmayan Allaha inanmağa, yalnız Ona iman etməyə, Lat və Uzza bütlərini tanımamağa dəvət edirəm"***.

Əli *(ə)* bu sözləri ilk dəfə eşidirdi, əvvəllər heç belə şey eşitməmişdi. Ona görə də buyurdu:

***"Atam Əbu Talibə danışmadan bir şey deyə bilmərəm"***.

Həzrət Peyğəmbər *(s)* buyurdu:

***"Yaxşı de, lakin bu məsələni ondan başqa heç kimə danışma"***.

---

[37] Fəzlullah Kompani, "Əli *(ə)* kimdir?", s. 7-9.

[38] Ethem Ruhi Fığlalı, Türkiyə Diyanət Vakfı İslam Ansiklopedisi, "Ali" maddəsi, c. II, s. 371.

Əli *(ə)* düşünə-düşünə yola çıxdı, bir müddət getdikdən sonra qəlbində dilləndi:

***"Allah məni yaradan zaman atamdan soruşdumu ki, mən Onun dininə girməkdən ötəri atamdan soruşum?"***.

Əli *(ə)* geri qayıdaraq fikrini Həzrət Peyğəmbərə *(s)* bildirdi və 8-10 yaşlarında ikən kəlmeyi-şəhadət gətirərək müsəlman oldu.[39]

Xatırladaq ki, Həzrət Əli *(ə)* heç vaxt bütə sitayiş etməmişdir ki, onun haqqında "müsəlman oldu" sözünü deyək. Bu sözün mənası – Əli *(ə)* İslamını (müsəlman olmağını) aşkar etdi deməkdir.

Həzrət Peyğəmbər *(s)* ilk vəhy gəldikdən üç il sonra İslamı açıq təbliğə başlamışdı. Bu müddət ərzində o Həzrət *(s)* yalnız etimad etdiyi kimsələrə yeni dini təbliğ edirdi. Besətin 4-cü ilində bu ayə endi:

***"Və ən yaxın qohumlarını qorxut!"***[40]

Artıq açıq dəvət başlanmışdı. Bunun üçün də insanları bir yerə toplamaq, İslamı təbliğ etmək lazım idi. Həzrət Peyğəmbər *(s)* bu iş üçün Səfa dağını seçmiş, ora toplananlara özünün Allahın Rəsulu *(s)* olduğunu və ona itaət etmələrini bəyan etmişdi. Lakin Qureyşin özündən razı böyükləri ona istehza etmiş, bütpərəstlikdə qalmağı İslamdan üstün tutmuşdular.

Həzrət Peyğəmbər *(s)* hər dəfə İslamı təbliğ etdikdən sonra Qureyşin həqarətinə məruz qalmışdır. Lakin buna baxmayaraq ikinci toplantını Həzrət Əliyə *(ə)* tapşırmışdı.

Həzrət Əli *(ə)* ziyafət hazırlayıb yaxın qohumlarını dəvət etdi. Dəvətlilərin sayı 40-dan çox idi. Bunların arasında Həmzə, Abbas, Əbu Ləhəb və Əbu Talib də vardı. Ziyafətin sonuna yaxın, hər kəs yeyib-içdikdən sonra Həzrət Peyğəmbər *(s)* ayağa qalxıb buyurdu:

***"Ey Əbdülmütəllib oğulları! Mən sizə və bütün insanlara peyğəmbər olaraq göndərilmişəm. İçərinizdən kimlər qardaşım və dostum olmağa mənə beyət edər?"***

---

[39] İbn Kəsir, "əl-Bidayə vən-nihayə", c. VIII, s. 230.

[40] "əş-Şuəra", 26/214.

Heç kəsdən səs çıxmadı. Ziyafətə gələnlərin içərisində yaş baxımından ən kiçiyi Əli *(ə)* idi. Buna baxmayaraq Əli *(ə)* ayağa qalxdı, lakin Peyğəmbər *(s)* onu oturtdu. Bu vəziyyət iki dəfə təkrarlandı. Üçüncü dəfə Rəsulullah *(s)* mübarək əlini Əliyə *(ə)* uzatdı. Həzrət Əli *(ə)* Peyğəmbərə *(s)* beyət edib onun qüvvətli qolu olacağını söylədi. Peyğəmbər *(s)* buyurdu:

***"Qardaşımsan, vəzirimsən".***[41]

Əli *(ə)* bu hadisəni belə izah edir:

***"Yaxın qohumlarını qorxut!"[42] ayəsi nazil olan zaman Peyğəmbər məni çağırıb boynumdan tutdu və buyurdu:***

***"Bu mənim qardaşım, vəsim və sizin içərinizdə olan xəlifəmdir. Onu eşidin və ona tabe olun".***

***Bu zaman camaat ayağa qalxıb Əbu Talibə dedilər:***

***"Oğluna tabe oldun, onu sənə əmir təyin etdilər".***[43]

Həzrət Əli *(ə)* Rəsulullahla *(s)* olan əlaqəsi barədə belə buyurur:

***"Kiçik bir dəvə balası necə anasının ardınca gedər və anasından heç ayrılmaz, mən də hər zaman Peyğəmbərin yanında idim. Ona uyar, onu təqib edərdim".***[44]

Həzrət Əli *(ə)* Peyğəmbərə *(s)* Məkkədə İslamı yaymaqda çox kömək etmişdir. Onun Hicrətdən əvvəlki həyatı barəsində qaynaqlarda kifayət qədər məlumatlar vardır.

Rəvayətə görə, Peyğəmbərə *(s)* Hicrət əmri "İsra" surəsinin bu ayəsi ilə verilmişdir:

***"De: "Ey Rəbbim! Məni daxil edəcəyin yerə (Mədinəyə) xoşluqla daxil et, məni çıxaracağın yerdən (Məkkədən) də xoşluqla çıxart. Öz dərgahından mənə kömək edə bilən bir dəlil ver!" (Mənə elə bir qüdrət ver ki, müşriklər və kafirlər həmişə onun qarşısında aciz qalsınlar!)".***[45]

---

[41] İbn Kəsir, "əl-Bidayə vən-nihayə", c. VII, s. 360.
[42] "əş-Şuəra", 26/214.
[43] Əllamə Muhəmməd ibn Muhəmməd əl-Hüseyni, "ət-Tibyan fi Ulumil-Quran", c. II; Muhəmməd ibn Cərir ət-Təbəri, "Tarixul-uməm vəl-muluk", mətbəətul-İstiqamə, Misir-1357 h. c. II, s. 321.
[44] "Nəhcul-bəlağə" əsərinə istinadən.
[45] "əl-İsra", 17/80.

Hicrət əmri gəldikdə bütün səhabələr tək-tək, cüt-cüt, qrup-qrup halında Mədinəyə doğru hərəkət etməyə başladılar. Qureyşin hiyləgər və fitnəkar başçıları "Darun-nədvə"yə toplanmış və Həzrət Muhəmmədi *(s)* öldürmək kimi qorxunc bir qərar vermişdilər. Peyğəmbəri *(s)* isə Rəbbi vəhy vasitəsilə hər şeydən xəbərdar edirdi. Elə ki, o Həzrətin *(s)* Hicrəti zamanı gəlib çatmışdı, Məkkədə Həzrət Əli *(ə)* və digər müsəlmanlar qalmışdı. Peyğəmbərin *(s)* nə vaxt Məkkədən çıxıb Mədinəyə gedəcəyini Həzrət Əlidən *(ə)* və bəzi yaxın səhabələrdən başqa heç kim bilmirdi. Həzrət Peyğəmbərə *(s)* Hicrət üçün izin verildikdən sonra Rəsulullah *(s)* Məkkədən Mədinəyə gedəcəyi barəsində əmisi oğlu Əliyə *(ə)* xəbər verdi. Peyğəmbər *(s)* Əliyə *(ə)* özündən geri qalan və məkkəlilərə aid olan əmanətləri sahiblərinə təslim etməsini, sonra da gəlib onlara çatmasını əmr etdi. Rəsulullah *(s)* o gecə Həzrət Əliyə *(ə)* ona aid yataqda yatmasını buyurdu:

***"Mənim yatağımda yat və dincəl! Bu gələn ölüm işi yaşıl əbamdadır, yaxşıca bürün ona! Onlardan xoşuna gəlməyən heç bir şey sənə toxunmayacaqdır!"***.

Həzrət Əli *(ə)* yatağa girib əbaya büründü və yuxuya getdi. Peyğəmbər *(s)* də bu əbanın içində yatardı. Rəsulullah *(s)* bu surəni oxuyub evdən çıxdıqda Qadir Allah müşriklərə elə bir yuxu verdi ki, kimsə onu görmədi. Allah-taala bu barədə Qurani-Kərimdə belə buyurur:

***"Biz onların ön və arxalarına sədd çəkib (gözlərini) bağlamışıq. Buna görə onlar (Allahın qüdrətinə dəlalət edən əlamətləri) görmürlər. (Kafirlərin qəlb gözü kor edilmiş və bütün iman yolları üzlərinə bağlanmışdır. Onlar zahirən görsələr də mənən kordurlar)"***.[46]

Nəhayət, səhərə yaxın Məkkə müşrikləri içəriyə baxıb Peyğəmbərin *(s)* yatağında onun əbasına bürünüb yatan Həzrət Əlini *(ə)* gördüklərində dedilər:

"Haradadır sahibin? Haradadır əmin oğlu?".

---

[46] "Yasin", 36/9.

Həzrət Əli *(ə)* buyurdu:

***"Bilmirəm! Mənim bu barədə heç bir xəbərim yoxdur! Mən onun üzərində gözətçi deyiləm! Siz ona çıxıb getməsini əmr etdiniz, "bizdən ayrılıb get" dediniz, o da çıxıb getdi"***.

Planlarının boşa çıxmasına görə hiddətlənən və qəzəblənən müşriklər Əlini *(ə)* incitdilər, bir müddət Kəbə məscidində həbs edib orada saxladılar, axırda isə çarəsiz qalıb o Həzrəti *(ə)* buraxdılar.

Həzrət Əli *(ə)* üç gün içərisində bütün işlərini bitirib Mədinəyə Hicrət etdi. O, kafirlərin basqınlarından qorunmaq üçün gündüzlər gizlənir, gecələr isə yol gedirdi. Beləliklə, Həzrət Əli *(ə)* təkbaşına alovlar saçan qızmar səhrada dörd yüz kilometrdən artıq yolu ağır zəhmətlə qət edib Mədinəyə çatdı. Peyğəmbər *(s)* Həzrət Əlinin *(ə)* gəlişini eşidəndə buyurdu:

***"Əlini (ə) mənim yanıma çağırın!"***

Peyğəmbərə *(s)* belə cavab verildi:

"Ey Allahın Rəsulu *(s)*! Əlinin *(ə)* ayaqları şişib, dərisi üzülmüş olduğu üçün yeriməyə qüvvəsi, taqəti yoxdur. Nə əmr edirsiniz?"

Rəsulullah *(s)* Həzrət Əlinin *(ə)* yanına gedərək onun iztirabını gördükdə müqəddəs əlləri ilə ayağındakı yaraları məsh etdi. Hətta Həzrət Əlinin *(ə)* belə bir fədakarlığı üzrə bu mübarək ayə nazil oldu:

***"İnsanların eləsi də vardır ki, Allahın razılığını qazanmaq yolunda (Allah rizası üçün) öz canını fəda edər. Allah öz bəndələrinə qarşı çox mehribandır!"***[47]

Yaralar, acılar dərhal getdi və Həzrət Əli *(ə)* şəhid olacağı günə qədər ayaqlarında bir daha ağrı hiss etmədi.

Hicrət Əlinin *(ə)* şəxsində hər mənada özünə yer tapmış əməllərdəndir. O, özünün məşhur xütbələrinin birində Allaha tərəf etdiyi Hicrətinə işarə edərək buyurur:

***"Xəbərdar olun! Məndən sonra kiçik boylu, yekə qarınlı, hər tapdığını yeyən, tapmadığını isə tələb edən birisi sizə hakimlik edəcəkdir.***[48]

---

[47] "əl-Bəqərə", 2/207.

***Onu öldürün! O, sizə məni söyməyinizi və məndən uzaq olmağınızı əmr edəcəkdir. Söyüşə gəldikdə (məcbur olduqda) məni söyməkdən utanmayın, çəkinməyin, çünki söyüşünüz mənim üçün zəkatdır. Lakin məndən uzaq olmağa gəldikdə isə bunu heç vaxt etməyin. Çünki mən fitrət üzrə doğulmuş, iman və Hicrətdə hər kəsi ötmüşəm".***[49]

İmamın *(ə)* bu sözləri bir çox mötəbər qaynaqlarda nəql olunmuş, səhihliyinə heç bir şübhə yaranmamışdır. Lakin bəzi alimlər Əlinin *(ə)* bir qrup müsəlmandan sonra Mədinəyə Hicrət etdiyini əsas götürərək buna şübhə ilə yanaşmışlar. Ancaq İmamın *(ə)* bu hədisi dərindən araşdırıldıqda onun əsas məğzi və mənası məlum olacaqdır.

Belə ki, yuxarıdakı mübarək ayədə göstərildiyi kimi, Hicrət daha geniş məna tutumuna malikdir. Burada İmamın *(ə)* məqsədi heç də Məkkədən Mədinəyə köçməkdə ilk şəxs olmaq deyil, bəlkə də Allaha xatir hər bir şeyi tərk etməkdir. Çünki Hicrətin mənalarından biri də "tərk etmək", "uzaqlaşmaq" və "dostluq əlaqələrini qırmaq"dır. Allah Hicrət edənləri hər mənası ilə öymüş, tərifləmişdir. Yoxsa bir şəxsin təkcə məkan dəyişməsi ilə onun Allah yanında bu qədər ali dərəcəyə malik olması mümkünsüzdür.

Bundan başqa, İmamın *(ə)* hədisində onun Məkkədən Mədinəyə ilk Hicrət etməsi həqiqi mənada da başa düşülə bilər. Çünki Əli *(ə)* Peyğəmbərlə *(s)* birlikdə Hicrətə hazırlaşmış, lakin Peyğəmbər *(s)* ona hələlik Məkkədə qalıb onun borclarını verməsini və digər işləri icra etməsini tapşırmışdı. Həmçinin, Əlinin *(ə)* Peyğəmbərin *(s)* yerində yatması da Rəsulullahın *(s)* ona olan əmrlərindən biridir. Deməli, Peyğəmbərlə *(s)* Əli *(ə)* arasında Hicrət haqqında söhbət olan zaman heç kimin bundan xəbəri olmamışdır. Əbu Bəkrin Əlidən *(ə)* Peyğəmbəri *(s)* soruşması və

---

[48] Müaviyə ibn Əbu Süfyana işarədir. Çünki o, İslamda Əlini *(ə)* söyən və bunu adət halına salan ilk xəlifədir. Nəsainin nəqlinə görə, Peyğəmbər *(s)* onun haqqında buyurmuşdur: ***"Allah onun qarnını doydurmasın"***. Bundan sonra o, nə yeyirmişsə doymazmış. Bədəncə kiçik boylu, yekə qarınlı adam olmuşdur.

[49] Seyyid Muhəmməd Kazim Qəzvini, "əl-İmam Əli minəl-məhdi iləl-ləhd", ikinci nəşri, Beyrut-1413/1993, səh-45, "Nəhcul-bəlağədən" nəqlən.

Əlinin *(ə)* Allah Rəsulunun *(s)* yerini ona deməsi isə buna əyani dəlildir. Bu mənada Əli *(ə)* İslamda ilk Hicrət niyyəti edən şəxs kimi başa düşülməlidir.[50]

Həzrət Əli *(ə)* Peyğəmbərin *(s)* sevimli qızı, xanımlar-xanımı Fatimə *(ə)* ilə evlənmişdir. Xanım Zəhra *(ə)* yetkinlik yaşına çatdıqda Qureyşin böyükləri hər tərəfdən Peyğəmbərin *(s)* evinə elçiliyə gəlirlər. Rəsulullah *(s)* işin belə olduğunu gördükdə buyurur:

***"Fatimənin ailə qurması Rəbbimin üzərindədir"***.

Mənbələrin yazdığına görə, Həzrət Əli *(ə)* Mədinənin kənarında xurma ağaclarını suvararkən Əbu Bəkr və Səd ibn Məad onun yanına gəlir və Əlidən *(ə)* soruşurlar:

"Sənə nə mane olur ki, Peyğəmbərin *(s)* qızı Fatimə *(ə)* ilə evlənmirsən?"

Əli *(ə)* buyurur:

***"Mənə həya və malımın azlığı mane olur"***.

Səd ibn Məad Həzrət Əliyə *(ə)* deyir:

"Get Peyğəmbərin *(s)* yanına və Fatiməni *(ə)* ondan istə. Çünki Allahın Rəsulu *(s)* Fatiməni *(ə)* sənə verəcək. And olsun Allaha, güman etmirəm ki, Peyğəmbər *(s)* Fatiməni *(ə)* səndən başqasına versin!"

Əli *(ə)* buyurur:

***"Mən Peyğəmbərin yanına gedib nə deyim?"***

Səd deyir:

"Deyərsən ki, Allahdan və Peyğəmbərdən *(s)* Fatiməyə *(ə)* nişanlanmaq istəyirsən".

Əli *(ə)* bu niyyətlə Peyğəmbərin *(s)* evinə gəlir. O zaman Rəsulullah *(s)* Ümmü Sələmənin evində idi. Bu zaman Cəbrail *(ə)* Peyğəmbərə *(s)* nazil olub onu Əlinin *(ə)* niyyəti və gəlişindən xəbərdar edir. Əli *(ə)* qapını döydükdə Ümmü Sələmə deyir:

"Kimdir?"

Əli *(ə)* dillənincə Peyğəmbər *(s)* buyurur:

***"Aç qapını ey Ümmü Sələmə! Onu içəri gətir. Onu Allah və Rəsulu sevir"***.

---

[50] İbrahim Quliyev, "Hədisi-şəriflərdə müqəddəs şəhərlərin tarixi", Bakı, Nurlar-2013, s. 219-220.

Ümmü Sələmə deyir:

“Ey Allahın Rəsulu *(s)*! O şəxs kimdir ki, onu görməmiş belə yad etdin?”

Peyğəmbər *(s)* buyurur:

***“O, yüngül və axmaq şəxs deyil. Mənim qardaşım, əmim oğlu və insanlar içində mənə ən sevimli olandır”***.

Ümmü Sələmə qalxıb qapını açır və Əlini *(ə)* gördükdə deyir:

“And olsun Allaha, hələ indiyədək olmamışdır ki, mən qapını açam, sonra da gələn kimsəni Peyğəmbərə *(s)* xəbər verməmiş içəri buraxam”.

Əli *(ə)* içəri daxil olur, Peyğəmbərlə *(s)* salamlaşdıqdan sonra Həzrət *(s)* ondan oturmasını istəyir. Əli *(ə)* oturub gözlərini yerə zilləyir. O, öz istəyini açıqlamaq istəyir, lakin utanır. Bunu görən Peyğəmbər *(s)* buyurur:

***“Sənin bir istək üçün gəldiyini görürəm. Nə istəyin var?”***

Həzrət Əli *(ə)* buyurur:

***“Atam-anam sənə qurban! Bilirsən ki, məni uşaqlıqdan götürüb saxlamısan, yediyindən yedirdib ədəbləndirmisən. Sən mənə atam Əbu Talibdən və anam Fatimə bint Əsəddən daha yaxşı və şəfqətli olmusan. Allah məni sənin əlinlə hidayətləndirmişdir. Sən mənim dünya və Axirət sığınacağımsan.***

***Ey Allahın Rəsulu! Mən bir evimin və ailəmin olmasını istəyirəm ki, orada yaşayım. Mən sənin yanına Fatimə üçün elçiliyə gəlmişəm.***

***Ey Allahın Rəsulu! Sən məni evləndirə bilərsənmi?”***

Peyğəmbərin *(s)* sevincdən üzü gülür və Əliyə *(ə)* təbəssümlə buyurur:

***“Bir şeyin varmı ki, onun vasitəsi ilə səni evləndirim?”***

Əli *(ə)* buyurur:

***“Mənim bir qılıncım və bir qalxanım var. Bunlardan başqa bir şeyim yoxdur”***.

Peyğəmbər *(s)* buyurur:

***“Qılıncını saxla, çünki sən onunla Allah yolunda cihad edirsən və Onun düşmənlərini öldürürsən. Amma qalxanını sat, onun puluna səni evləndirim”***.

Rəsulullah *(s)* buyurdu:

***"Ya Əli! Sənə xoş xəbər verimmi?"***

Əli *(ə)* cavab verdi:

***"Bəli, ya Rəsulullah!"***

Peyğəmbər *(s)* buyurdu:

***"Allah səni yerdə evlənməmişdən əvvəl göylərdə evləndirmişdi..."***.[51]

Beləliklə, Həzrət Əli *(ə)* ilk dəfə Peyğəmbərin *(s)* əziz qızı Fatimə *(ə)* ilə evlənmiş, o Xanımdan *(ə)* iki oğlu və iki qızı olmuşdur. Həzrət Əlinin *(ə)* oğlanları Həsən *(ə)* və Hüseyn *(ə)*, qızları isə Zeynəbi-Kubra və Zeynəbi-Suğra (Ümmü Gülsüm) olmuşdur. Möhsin adlı oğlan uşağı isə ana bətnindən vaxtından əvvəl düşmüşdür.

Xanım Fatimənin *(ə)* vaxtsız vəfatından sonra (632-ci il) Həzrət Əlinin *(ə)* bir neçə həyat yoldaşı olmuş, onlardan da çoxlu sayda oğlan və qız uşaqları dünyaya gəlmişdir. Lakin Fatimə *(ə)* həyatda ikən Əli *(ə)* heç bir qadınla evlənməmişdir. Onun Fatimədən *(ə)* sonra evləndiyi qadınlar və onlardan doğulan övladları aşağıdakılardır:

1. Xuveylə bint Cəfər (Muhəmməd ibn Hənəfiyyənin anası);
2. Səhba və ya Ümmü Həbibə Təğlibiyyə (Ömər və Ruqəyyənin anası);
3. Əsma bint Umeys əl-Xəsəmiyyə (Yəhya və Ovnun anası);
4. Fatimə bint Məzahim Ümmül-Bənin (Həzrət Əbulfəzl, Cəfər, Osman və Abdullahın anası. Onların dördü də Kərbəlada şəhid olublar);
5. Ümmü Vələd Cariyə (Xədicə, Ümmü Hani, Meymunə və Fatimənin anası);
6. Ümmü Şüeyb əd-Darimiyyə və ya Ümmü Səid əl-Məxzumiyyə (Ümmü Həsən və Rəmlənin anası).

---

[51] Seyyid Muhəmməd Kazim Qəzvini, "əl-İmam Əli minəl-məhdi iləl-ləhd", ikinci nəşri, Beyrut-1413/1993, səh-53-54. Bu hadisəni azacıq fərqlə Əllamə Hilli də rəvayət etmişdir: Əllamə Həsən ibn Mutəhhər əl-Hilli, "Kəşful-Yəqin fi fəzaili-Əmiril-muminin *(ə)*", birinci nəşri, Tehran-1411/1991, səh-195-196.

Həzrət Əlinin *(ə)* övladlarından yalnız beşi – Həsən *(ə)*, Hüseyn *(ə)*, Muhəmməd Hənəfiyyə, Abbas və Ömər onun nəslini davam etdirmişlər.[52]

Peyğəmbərin *(s)* Həzrət Fatiməyə *(ə)* verdiyi ev əşyaları aşağıdakılardır:

– Bir ədəd yorğan;

– Üzü dəri, içi lif dolu bir ədəd üz yastığı;

– İkisinin içi lif, ikisinin də içi yun dolu dörd ədəd yastıq;

– Birinin üzü kətən parça və içi lif, digərinin üzü isə kətən parça və içi ot dolu iki ədəd döşək;

– Tabaqlanmamış bir ədəd qoç dərisi: yatılan zaman bu dərinin yunlu tərəfi üstünə çevrilib döşək edilər, başlar da üzü dəridən və içi lif dolu yastığa qoyular;

– Xurma yarpağından bükülü iplə hörülmüş bir ədəd yataq;

– Göndən tikilmiş bir ədəd su qabı;

– Saxsıdan düzəldilmiş iki ədəd boş qab;

– Bir ədəd ələk;

– Bir ədəd dəsmal;

– İki ədəd əl dəyirmanı;

– Ənsar qadınlarından biri tərəfindən Həzrət Əli *(ə)* ilə Xanım Fatiməyə *(ə)* hədiyyə edilən qədim sənət nümunəsi, üzəri gümüşlə işlənmiş iki qat paltar.[53]

Zilhiccə ayının onuncu günü Həzrət Əli *(ə)* ilə Xanım Fatimənin *(ə)* toy günüdür. Həzrət Əli *(ə)* nəql edir:

***"Fatimə gəldi evin bir küncündə oturdu. Mən də uzaq bir küncdə oturdum və bu halda gözlədik. Allahın Rəsulu gəldi. Otağa girib bu ülvi mənzərəni seyr edərək Fatiməyə bir qab su gətirməsini istədi. Fatimə suyu gətirdi. Peyğəmbər dəstəmaz aldıqdan sonra əlini isladıb Fatimənin başına və köksünə səpdi, sonra buyurdu:***

***"Allah, sizi və zürriyyətinizi Şeytandan qorusun!"***

---

[52] Seyyid Muhəmməd Kazim Qəzvini, "əl-İmam Əli minəl-məhdi iləl-ləhd", ikinci nəşri, Beyrut-1413/1993, səh-235.

[53] Asim Köksal, "İslam Tarixi", c. IV, s. 53.

***Sonra məni də çağırıb eyni sudan üzərimə səpdi və buyurdu:***

***“Allahın adı və bərəkəti ilə zövcən sənindir”.***

***Sonra Allahın Rəsulu evdən ayrıldı”***.

O zamana qədər Xanım Fatimənin *(ə)* toy mərasiminə bənzər ikinci bir toy olmamışdı.

Həzrət Əli *(ə)* Bədr, Ühüd, Xəndək və Xeybər başda olmaqla bütün qəzvə və səriyyələrə qatılmış, Peyğəmbərin *(s)* bayraqdarı olmuşdur. Əlinin *(ə)* Bədrdə iştirak etməsini bütün tarixçilərlə yanaşı, Buxari də öz əsərində qeyd etmişdir. O, Əbu İshaqdan rəvayət edir:

“Bir kişi Bərradan soruşdu:

“Əli *(ə)* Bədrdə iştirak edibmi?”

Bərra dedi:

“O, vuruşub özünü göstərdi”.[54]

Hətta Buxari – ***“Rəbbi barəsində mübahisə aparan bu iki zümrə düşməndir”***[55] ayəsinin onun haqqında nazil olduğunu rəvayət etmişdir.[56]

Bədr savaşı İslam tarixində ən mühüm savaşlardan biridir. Bu savaşda müşriklərdən çəkinən müsəlmanlar eyni zamanda sınağa çəkilirdilər. Bu barədə Uca Allah Qurani-Kərimdə buyurur:

***“(Qənimətlərin bölüşdürülməsi üsulundan bəzilərinin narazı qalması) möminlərdən bir dəstənin (Bədr vuruşuna getmək) xoşuna gəlmədiyi halda Rəbbinin səni haqq (cihad) uğrunda öz evindən çıxartmasına bənzər!***

***(Bəzi möminlər müsəlmanların sayca az, qüvvətcə zəif olduqları üçün Bədr müharibəsinə getməyi Peyğəmbər əleyhissəlama məsləhət görməmiş, özləri də orada iştirak etmək istəməmişdilər. Lakin Peyğəmbər onların sözünə baxmayıb yaxın əshabələri ilə vuruşa yollanmış və düşməni məğlub edərək xeyli qənimət əldə etmişdi.***

---

[54] “Səhihi-Buxari”, hədis № 3970.

[55] “əl-Həcc”, 22/19.

[56] “Səhihi-Buxari”, hədis № 3965, 3966, 3967, 3969.

***Qənimətin bölünməsi haqqında cürbəcür təkliflər irəli sürülmüş, nəhayət Peyğəmbər bu barədə öz fikrini demişdi. Bu fikir əvvəlcə bəzilərinin xoşuna gəlməmiş, sonra onun düzgünlüyü başa düşülüb hamılıqla qəbul edilmişdi. Beləliklə, hər iki halda – həm müharibəyə getməkdə, həm də qənimətlərin bölünməsi üsulunda Peyğəmbər əleyhissəlamın haqlı olduğu sübuta yetmişdi)".***[57]

***"Rəbbi barəsində mübahisə aparan bu iki zümrə (möminlər və kafirlər bir-birinə) düşməndir. Onu inkar edənlər üçün atəşdən paltar biçilmişdir, başlarına da qaynar su töküləcəkdir".***[58]

Bu iki qrup Məkkə və Mədinə arasındakı Bədr adlanan yerdə üz-üzə gəldilər. Ərəblərin adəti üzrə ilk olaraq hər iki tərəfdən üç nəfər savaşmalı idi. Müşriklərdən Ütbə, oğlu Vəlid və Şeybə irəli çıxdı. Müsəlmanlardan isə əvvəlcə ənsardan üç nəfər çıxsa da müşriklər onları aşağı görüb özlərinə layiq bilmədilər və öz nəsillərindən istədilər. Həzrət Peyğəmbər *(s)* buyurdu:

***"Qalx ya Übeydə, qalx ya Həmzə, qalx ya Əli!"***

Üçü də qalxıb meydana getdilər. Übeydə Ütbə ilə, Həmzə Şeybə ilə, Əli *(ə)* isə Vəlid ilə qarşı-qarşıya çıxdı. O vaxt Übeydə 63, Həmzə 58, Əli *(ə)* isə 23 yaşında idi. Hər biri yaş baxımından rəqib idilər. Nəhayət, savaş başladı. Vəlid ilk həmləni etdi, bir şey alınmadı, sıra Həzrət Əliyə *(ə)* çatdı, elə ilk həmlədə o Həzrət *(ə)* Vəlidə elə bir zərbə vurdu ki, Vəlid daha tərpənə bilmədi və yerə sərildi. Həzrət Həmzə ilə Əli *(ə)* heç bir yara almadılar, Übeydə isə qıçından aldığı yara ilə sonradan şəhid oldu. Axşama doğru artıq ordular iç-içə girmişdi, savaş öz şiddəti ilə davam edirdi. Bu sırada Həzrət Peyğəmbər *(s)* müsəlmanları savaşa təşviq edir, özü də şiddətlə vuruşurdu.

Həzrət Əli *(ə)* buyurur:

***"Bədr günü hərb şiddətləndiyi zaman biz Rəsulullaha sığınmışdıq. O gün xalqın ən cəsarətlisi, ən qəhrəmanı o idi. Müşriklərin səflərinə ondan daha yaxın kimsə yox idi!"***

---

[57] "əl-Ənfal", 8/5.
[58] "əl-Həcc", 22/19.

Döyüşün şiddətli yerində Həzrət Peyğəmbər *(s)* yerdən bir ovuc torpaq götürüb müşriklərin üstünə ataraq belə dua etdi:

***"Üzləri qara olsun! Allahım, qəlblərinə qorxu sal, ayaqlarına titrəmə ver!"***

Bu duadan sonra müşriklər məğlub olmağa başladılar. Bu məqamı Allah Qurani-Kərimdə belə açıqlayır:[59]

***"(Ey mömінlər! Bədrdə) onları (kafirləri) siz öldürmədiniz, Allah öldürdü. (Ya Peyğəmbərim! Düşmənlərin gözünə bir ovuc torpaq) atdığın zaman sən atmadın, Allah atdı. Allah bununla mömінləri (qənimət əldə etmək və zəfər çalmaq üçün) yaxşı bir imtahandan keçirtdi. Allah (hər şeyi) eşidəndir, biləndir!"***[60]

Bədr savaşında döyüşən səhabələrin, xüsusilə də Həzrət Həmzə və Həzrət Əlinin *(ə)* qəhrəmanlıqları savaşın qazanılmasında böyük əhəmiyyət kəsb etdi. Həzrət Əli *(ə)* Bədr döyüşündə düşmən səflərini ildırım kimi yarır, düşmənin həmlələrini dağıdır, cəsurcasına savaşaraq misilsiz qəhrəmanlıq və fədakarlıq göstərirdi.

Həzrət Əli *(ə)* müşriklərdən biri olan Səd ibn Heysəməni şəhid edərkən ona yaxınlaşdı. Müşrik atından endi və o Həzrətlə *(ə)* savaşmağa başladı. Əli *(ə)* onun zərbəsini qalxanı ilə qarşıladı və qılınc qalxana batıb qaldı, sonra qılıncını elə vurdu ki, düşmənin zirehini eninə kəsdi. Müşrik titrədi və sarsıldı. Həzrət Əli *(ə)* bu zaman arxadan bir qılıncın parıldadığını görən kimi başını əydi, dönüb arxaya baxdığında gördü ki, Həzrət Həmzə düşmənin başını vurub heybətlə ayaq üstə dururdu.

Yenə də bu savaşda Həzrət Əli *(ə)* Növfəl ibn Xuveylid ilə qarşılaşdı. Həzrət Peyğəmbər *(s)* Əlinin *(ə)* bu güclü pəhləvana qalib gəlməsi üçün dua etmişdir. Əli *(ə)* qılıncı ilə Növfəlin birinci ayaqlarını, sonra da başını kəsdi. Bunu eşidən Peyğəmbər *(s)* sevinərək təkbirlər gətirmişdir.

İbn Əsirin rəvayətinə görə, Həzrət Əli *(ə)* Bədr savaşında müşriklərin başını ağacdan meyvə qoparan kimi qoparırdı.[61]

---

[59] Nuru Ünlü, "İslam Tarihi", İFAV Yayınları, İstanbul, 1997, c. I, s. 49-50.
[60] "əl-Ənfal", 8/17.
[61] İsmet Miroğlu, "Ali" maddəsi, İslam Tarihi Ansiklopedisi, c. I, s. 136-137.

Görkəmli İslam alimi Təbərisiyə görə, Əli *(ə)* Bədr döyüşündə Vəlid ibn Ütbəni, Şeybəni, As ibn Səd ibn Ası, Hənzələ ibn Əbu Süfyanı, Təimə ibn Ədini, Növfəl ibn Xuveylidi və digərlərini öldürmüşdür”.[62]

Ühüd müharibəsində də Əlinin *(ə)* qəhrəmanlıqları danılmazdır. Məşhur görüşə görə, Allah-taala Ühüd savaş ilə bağlı aşağıdakı ayəni nazil etmişdir:

***“(Ya Rəsulum!) Sən müharibədən ötrü möminlərə (əlverişli) mövqelər hazırlamaq üçün sübh vaxtı öz ailəndən ayrılıb (Mədinədən Ühüdə) getdiyin vaxtı (yadına sal)! Şübhəsiz ki, Allah (hər şeyi) eşidəndir, biləndir!”***;

***“(O müharibədə) sizin içərinizdən (Sələmə və Harisə oğullarından ibarət) iki dəstə məğlubiyyətdən (uğursuzluqdan) qorxaraq geri çəkilmək fikrinə düşmüşdü. Halbuki Allah onların yardımçısı idi. Gərək möminlər (hər işdə) Allaha təvəkkül etsinlər!”***[63]

Həzrət Peyğəmbərin *(s)* əmisi Abbas Məkkədə olan hər şeyi Mədinəyə xəbər verirdi. Əshabı ilə məsləhətləşəndən sonra Ühüd bölgəsini seçən Peyğəmbər *(s)* başda Həzrət Əli *(ə)* və Həzrət Həmzə olmaqla min nəfərlik bir ordu ilə yola çıxdı. Yolda münafiqlərin başçısı Abdullah ibn Übey 300 nəfərlik bir ordu ilə geri döndü. Artıq Ühüddə iki ordu qarşı-qarşıya gəldi. Yenə ilk olaraq üç nəfər – Həzrət Əli *(ə)*, Həzrət Həmzə və Səd ibn Əbu Vəqqas irəli çıxaraq rəqibləri ilə savaşdılar. Həzrət Əli *(ə)* Qureyşdən Təlhəni bir vuruşla yerə sərdi. Savaş öz şiddəti ilə davam edirdi.[64]

Bütün çətinliklərə baxmayaraq yenə də Həzrət Əli *(ə)* düşmənin tam ortasında yer alırdı, əlindəki qılıncı sanki şimşək kimi çaxır, qəhrəmancasına vuruşurdu. O Həzrət *(ə)* elə vuruşurdu ki, qarşısında durmaq heç cür mümkün deyildi. Həzrət Əli *(ə)* bu barədə buyurur:

***“Savaş anında bir ara Rəsulullahı görmədim. Şəhidlər arasına baxdım, orada da yox idi. Bu vaxt öz-özümə dedim:***

---

[62] Əbu Əli Fəzl ibn Həsən ət-Təbərisi, “Əlamul-Vəra”, s. 191.
[63] “Ali İmran”, 3/121-122.
[64] Mahmud Şakir, “İslam Tarixi”, s. 197.

***Vallahi, Rəsulullah savaşdan heç vaxt kənarda qalmazdı, onu şəhidlər arasında görmədim. Hər halda xətalarımızdan ötəri Allahın qəzəbi gəldi və onu Öz yanına apardı. Artıq mənə savaşmaqdan daha xeyirli bir şey yoxdur. Qılıncımın qınını sındırdım və düşmənin səflərinə doğru hücum etdim. Onlar məni görüb iki tərəfə ayrıldığı zaman gördüm ki, Həzrət Peyğəmbər orada savaşır”***.

Həzrət Əli *(ə)* bayraqdar Musəbin şəhid olduğunu görəndə bayrağı əlinə alıb ordunu yenidən toplayan yeganə şəxs olmuşdur. Bu arada özünə on altı öldürücü zərbə dəysə də yenidən mərdcəsinə savaşmışdır.[65]

Döyüşün şiddətli yerində Peyğəmbər *(s)* düşməndən bir qrupun ona yaxınlaşdığını gördükdə Əliyə *(ə)* buyurdu:

***“Ya Əli! Onlara hücum et”***.

Həzrət Əli *(ə)* onlara hücum edib Amr ibn Abdullahı öldürdü, digərlərini də pərən-pərən saldı. Həzrət Peyğəmbər *(s)* bu zaman buyurdu:

***“Sən məndən, mən də səndənəm”***.[66]

Həzrət Əli *(ə)* Ühüd savaşında cəsarətlə savaşmış, müşriklərdən çox sayda adam öldürmüşdür. Peyğəmbərin *(s)* üzü yaralanıb dişi qırıldığı zaman üzünü Həzrət Əli *(ə)* yumuşdur. Göründüyü kimi, Həzrət Əli *(ə)* Peyğəmbəri *(s)* qorumaqla yanaşı, həmçinin İslam ordusunda da təqdirəlayiq bir şəkildə vuruşmuşdur. Aldığı yaraların ağırlığına baxmayaraq yenə də öz igidliyindən geri qalmamışdır.

Həzrət Əli *(ə)* Ühüddə çoxlu yara alsa da bütün gücü ilə Peyğəmbəri *(s)* qorumuşdur. Döyüşdə müşriklərin bayrağı Bəni-Əbdiddar qəbiləsindən olan şücaətli şəxs Təlhə ibn Əbu əl-Əbdərinin əlində idi. O məlun meydana çıxıb dedi:

“Ey Muhəmmədin səhabələri! İddia edirsiniz ki, sizin qılınclarınız bizi Cəhənnəmə, bizimkilər isə sizi Cənnətə aparacaq. Hər kəs Cənnəti istəyirsə, mənə tərəf gəlsin”.

---

[65] Reşit Haylamaz, “Saadet Asrına doğru İlk yıldızlar”, Işık Yayınları, İstanbul, 2004, s. 74.

[66] “Səhihi-Buxari”, “Fəzailu əshabin-Nəbi”, 9.

Bunu eşidən Əli *(ə)* meydanına getdi və bir rəcəz oxudu. Rəcəzin təsirini duyan Təlhə dedi:

"Sən kimsən ay gənc oğlan?"

Həzrət Əli *(ə)* buyurdu:

"Mən Əbu Talib oğlu Əliyəm".

Təlhə dedi:

"İndi səni tanıdım. Çünki səndən qeyrisi mənə qarşı bu cəsarəti etməzdi".

Bu sözdən sonra Təlhə Əlinin *(ə)* üstünə atıldı və o Həzrətə *(ə)* zərbə endirdi. Lakin Əli *(ə)* cəld tərpənərək yayındı və öz şiddətli zərbəsi ilə onu parçaladı. Həzrət Əli *(ə)* ona elə sürətlə zərbə endirdi ki, bunu kənardan müsəlmanlar görmədilər. Buna görə də Əli *(ə)* geri qayıtdıqda soruşdular:

"Niyə Təlhəni öldürmədin?"

Həzrət Əli *(ə)* buyurdu:

"Ona elə bir zərbə vurdum ki, bundan sonra yaşaması mümkün deyil".

Təlhənin ölümündən sonra bayrağı Səid ibn Əbu Təlhə əlinə aldı. Lakin Əli *(ə)* onu da öldürdü. Sonra yerə düşmüş bayrağı Osman ibn Təlhə götürdü və Həzrət Əli *(ə)* onu da Cəhənnəmə vasil etdi. Bundan sonra bayrağı Haris ibn Əbu Təlhə götürdü. Mərdlik və igidlik mücəssəməsi olan Əli ibn Əbu Talib *(ə)* onu da öldürdü. Sonra bayrağı Əziz ibn Osman əlinə aldı. Həzrət Əli *(ə)* onu da Cəhənnəmə vasil etdi. Bundan sonra bayrağı Abdullah ibn Cəmilə ibn Züheyr götürdü. Peyğəmbərin *(s)* bayraqdarı Əli ibn Əbu Talib *(ə)* onu da öldürdü. Bundan sonra bayrağı Bəni-Əbdiddar qəbiləsindən doqquzuncu müşrik Ərtah ibn Şürəhbil götürdü. Həzrət Əli *(ə)* onu da öldürdü. Daha sonra bayrağı onların qulu olan Səvəb götürdü. Həzrət Əli *(ə)* onun sol tərəfindən ağır zərbə endirdi. O, bu zərbə nəticəsində Cəhənnəmə vasil oldu.[67]

Həzrət Əlinin *(ə)* iştirak etdiyi və İslamın mühüm cihadlarından biri də Huneyn müharibəsidir. Bu müharibəyə müşriklər

---

[67] Hakim əl-Həskani, "Şəvahidüt-tənzil", birinci nəşri, Beyrut-1393/1974, c. I, s. 252, hədis № 341-342.

tərəfindən məşhur döyüşçü Əbu Hərvəl başçılıq edirdi. Bayrağı əlinə alıb döyüş meydanına gələn Əbu Hərvəl Həzrət Əli *(ə)* ilə döyüşməli oldu. Əli *(ə)* onu bir zərbəsi ilə Cəhənnəmə göndərdi. Bunu görən Əbu Hərvəlin tərəfdarları kütləvi şəkildə müsəlmanlara hücum etdilər və müsəlmanlar qaçmağa üz tutdular. Yalnız Əli *(ə)*, Abbas və Həmzə Peyğəmbərin *(s)* ətrafında qalıb onu müdafiə etdilər. Təkcə Həzrət Əli *(ə)* düşməndən qırx nəfəri öldürdü. Yerdə qalanlar isə qorxularından qaçdılar. Əlinin *(ə)* sayəsində müsəlmanlar düşməndən xeyli sayda əsir götürdülər. Bu döyüşə işarə edən Allah-taala Qurani-Kərimdə buyurur:

***"Allah sizə bir çox yerlərdə, həmçinin Huneyn günündə kömək etdi. O gün çox olmağınız sizi valeh etsə də bir faydası olmadı, geniş dünya sizə dar oldu, sonra dönüb qaçdınız. Sonra da Allah Öz Peyğəmbərinə və möminlərə arxayınçılıq nazil etdi..."***[68]

Ayəni təfsir edən görkəmli İslam alimi Hakim əl-Həskani bir neçə hədis nəql edərək bu İlahi kəlamın məhz Əlinin *(ə)* haqqında nazil olmasını deyir. əl-Həskaninin nəql etdiyi hədislərdən biri də budur:

"Bu ayə Hüneyn günü Peyğəmbərlə *(s)* birlikdə olub qaçmayan Əli *(ə)*, Abbas və Həmzə haqqında nazil olmuşdur".[69]

Bu döyüş haqqında geniş məlumat verən məşhur İslam alimi yazır:

"Hüneyn qəzvəsində müsəlmanlar kütləvi şəkildə qaçıb dağılışdılar. Peyğəmbərin *(s)* yanında yalnız on nəfər şəxs qalmışdı. Onlardan doqquzu Bəni-Haşimdən, biri isə Əymən ibn Ummi Əymən idi. O, şəhid edildi, doqquz nəfər Haşimi isə sağ qaldı. Onlar Rəsulullaha *(s)* sarılmış və tutduqları yerdə möhkəm dayanmışdılar. Allah onların haqqında bu ayəni nazil etdi:

***"Sonra da Allah Öz Peyğəmbərinə və möminlərə arxayınçılıq nazil etdi"***.

[68] "ət-Tövbə", 25-26.

[69] Hakim əl-Həskani, "Şəvahidüt-tənzil", birinci nəşri, Beyrut-1393/1974, c. I, s. 252, hədis № 341-342.

Peyğəmbərin *(s)* ətrafında olan haşimilər – Əli ibn Əbu Talib *(ə)*, sağ tərəfində Abbas ibn Əbdülmütəllib, sol tərəfində Fəzl ibn Abbas, Əbu Süfyan ibn Haris, Növfəl ibn Haris, Rəbiə ibn Haris, Abdullah ibn Zübeyr ibn Əbdülmütəllib, Mutəb və Ütbə ibn Əbu Ləhəb idi. Rəsulullah *(s)* camaatın döyüşdən qaçdığını görüb Abbasa buyurdu:

***"Onları çağır, verdikləri əhdi onlara xatırlat!"***.

Abbas çox uca səslə qışqırdı:

"Ey ağac altında beyət edənlər, ey "Bəqərə" surəsinin əhli, hara qaçırsınız?! Peyğəmbərə *(s)* verdiyiniz vədəni xatırlayın!"

Lakin Abbasın səsini bir kimsə eşitmədi..."[70]

Xeybərdə böyük qəhrəmanlıqlar göstərən Həzrət Əli *(ə)* savaşın qələbə ilə başa çatmasında böyük rol oynamışdır. Xeybər döyüşü elə bir mühüm döyüşdür ki, Peyğəmbər *(s)* məhz Xeybər qalasının fəthində buyurmuşdur:

***"Sabah bayrağı elə bir şəxsə verəcəyəm ki, onu Allah və Rəsulu sevir. O da Allah və Rəsulunu sevir"***.

Səhabələr səhərədək bu şəxsin kimliyi barədə düşündülər və maraqla gözlədilər. Səhəri gün Peyğəmbər *(s)* buyurdu:

***"Əli haradadır?"***.

Səhabələr dedi:

"Ey Allahın Rəsulu *(s)*! Əli *(ə)* gözlərindən şikayət edir".

Peyğəmbər *(s)* Əlinin *(ə)* yanına adam göndərərək gətirtdi və ağzının suyundan onun gözlərinə çəkdi. Bundan sonra o Həzrətin *(ə)* gözlərində heç bir ağrı olmadı və Rəsulullah *(s)* bayrağı ona verdi. Həzrət Əli *(ə)* buyurdu:

***"Ey Allahın Rəsulu! Onlar müsəlman olanadək vuruşacağam"***.

Peyğəmbər *(s)* Həzrət Əlidən *(ə)* əvvəlcə onları İslama dəvət etməsini istədi və buyurdu:

***"Allahın sənin əlinlə bir şəxsi hidayət etməsi sənin üçün qırmızı tüklü dəvələrdən daha faydalıdır"***.[71]

---

[70] "İlamul-Vəra", s. 198.

[71] "Səhihi-Müslim", hədis № 6222-6223-6224.

Peyğəmbərin *(s)* Əlinin *(ə)* haqqında bu sözü deməsi əbəs deyildi. Çünki İslam ordusunun içindən Mərhəbin müqabilinə gedən şəxs tapılmırdı. Yalnız Amir ibn əl-Əklə adlı şəxs getdi ki, o da dərhal Mərhəbin əlində şəhid oldu.

Peyğəmbər *(s)* Xeybər qalasını təxminən iyirmi beş gün mühasirədə saxladı. O, əvvəlcə bayrağı Əbu Bəkrə, sonra Ömər ibn Xəttaba versə də onlar heç bir nəticə əldə etmədən və itki verərək geri döndülər. Bundan sonra Rəsulullah *(s)* bayrağı Həzrət Əliyə *(ə)* verdi və onun haqqında yuxarıdakı hədisi buyurdu.

Həzrət Əli *(ə)* Mərhəbin müqabilində dayandı və onu İslama dəvət etdi. Lakin Mərhəb Əlinin *(ə)* təklifi ilə razılaşmayıb döyüşə üstünlük verdi. Döyüş başlayan kimi Həzrət *(ə)* ona çox ağır bir zərbə vurdu, nəticədə Mərhəb ikiyə bölündü. Bunu görən digər yəhudi döyüşçülər qalaya qaçdı və qapını arxadan bağladılar. Lakin bu yəhudiləri xilas etmədi, Əli *(ə)* Xeybərin möhkəm qapısını qüvvətli əli ilə qopardı və bununla da müsəlman ordusunun qalaya girməsini asanlaşdırdı. Hətta qapının qırılmasını görən yəhudi döyüşçülər ona hücum etdi, Əli *(ə)* isə qopartdığı qapını özünə qalxan edərək onlarla döyüşdü. Həzrət Əlinin *(ə)* bu qəhrəmanlığı dillər əzbəri oldu və hətta məşhur səhabə-şair Həssan ibn Sabit bununla əlaqədar şeir də yazdı.

Həzrət Əlinin *(ə)* Xeybərdəki igidliyini yüksək qiymətləndirən Peyğəmbər *(s)* buyurmuşdur:

***“Əgər xristianların İsa haqqında dedikləri kimi ümmətimin də sənin haqqında deyəcəklərindən qorxmasaydım o zaman ayağının torpağını götürmələrini və onunla şəfa tapmalarını onlara buyurardım. Lakin bu sənə yetər ki, sən məndənsən, mən də səndənəm. Sən məndən, mən də səndən irs aparıram, sən mənə Harunun Musaya olan nisbəti kimisən, bu şərtlə ki, məndən sonra heç bir peyğəmbər yoxdur.***

***Sən Axirətdə insanlar içində mənə ən yaxın olan şəxssən. Sən sabah Kövsər hovuzunun kənarında mənim ardıcılımsan. Sən ümmətim içində Cənnətə girəcək ilk şəxssən. Sənin tərəfdarların nurdan olan minbərlər üzərində olacaqlar. Onlar mənim ətrafımda olacaq və mən onlara şəfaət edəcə-***

***yəm. Onlar Cənnətdə mənim qonşularım olacaqlar. Sənə qarşı olan müharibə mənə qarşı müharibədir. Səninlə olan sülh mənimlə olunan sülhdür...".***[72]

Həzrət Əli *(ə)* Fədəkdə Bəni-Sədə qarşı göndərilən səriyyəni və Yəmənə edilən səfəri idarə etmişdir. Bu sonuncu səfər üzrə Bəni-Həmdan qəbiləsi İslamı qəbul etmişdir. Təbük səfərində isə Əli *(ə)* Mədinədə Peyğəmbərin *(s)* vəkili olaraq qalmışdır.

Həzrət Əli *(ə)* Rəsulullaha *(s)* katiblik də etmiş, Hüdeybiyyə müqaviləsini məhz o Həzrət *(ə)* yazmışdır. Bəzi qəbilələrdəki və Məkkənin fəthindən sonra Kəbədəki bütlərin sındırılması vəzifəsi də Həzrət Əliyə *(ə)* verilmişdir.

Həzrət Əli *(ə)* ilk üç xəlifə zamanında nə bir idarə işçisi olmuş, nə də başqa bir vəzifədə işləmişdir. O Həzrət *(ə)* sadəcə Xəlifə Ömər ibn Xəttabın Fələstin və Suriya səfərində Mədinədə hərbi vali olaraq qalmış, dini elmlərlə məşğul olmuş və heç bir savaşa qatılmamışdır.

Həzrət Əli *(ə)* Quran və hədis elmlərində dərin elmə sahib olduğundan xəlifələr fiqhi məsələlərdə onun fikrinə müraciət etmişlər. Bəzi mənbələrdə Xəlifə Ömər zamanında Peyğəmbərin *(s)* Məkkədən Mədinəyə Hicrət etdiyi günün İslam tarixinə başlanğıc edilməsinə dair təklif də məhz onun tərəfindən edilmiş və qəbul olunmuşdur.[73]

Həzrət Əlinin *(ə)* döyüş tarixinə nəzər saldıqda məlum olur ki, bütün savaşlarında hər an Peyğəmbərin *(s)* yanında olmuşdur, həm onu müdafiə etmiş, həm də qəhrəmancasına vuruşmuşdur.

Həzrət Əli *(ə)* Peyğəmbərin *(s)* vahid ümmətinin İmamı *(ə)* və Xəlifəsidir. Onun imamət və xilafətinə aid olan ilkin ayələrdən biri təfsir əhlinin yanında "İnzar" ayəsi kimi tanınan ***"Yaxın qohumlarını qorxut"***[74] ayəsidir. Bu ayə nazil olduqda Peyğəm-

---

[72] Seyyid Muhəmməd Kazim Qəzvini, "əl-İmam Əli minəl-məhdi iləl-ləhd", ikinci nəşri, Beyrut-1413/1993, s. 84-85.
[73] Fığlali, "Ali", İslam Ensiklopediyası, c. II, s. 371-372.
[74] "əş-Şuəra", 214.

bər *(s)* öz qohum-əqrəbasını Əbu Talibin evində bir yerə topladı. Onların sayı qırx nəfər idi. Peyğəmbər *(s)* onlar üçün quzu əti və süd hazırlatdırmışdı. Onlar yeyib-içdikdən sonra Peyğəmbər *(s)* buyurdu:

***"Ey Əbdülmütəllib övladları! Allah məni yaratdıqları üzərinə, xüsusilə sizin üzərinizə peyğəmbər göndərmişdir. Mən sizi iki kəlməyə tərəf çağırıram. Bu kəlmələrin dildə deyilməsi asan, əməl tərəzisindəki çəkisi isə çox ağırdır. Onları deməklə siz ərəbin və əcəmin padşahına çevriləcəksiniz. O kəlmələrlə siz millətləri ram edəcək, Axirətdə Cənnətə girəcək və Cəhənnəmdən xilas olacaqsınız. Bu kəlmələr – "Allahdan başqa Allah yoxdur və Muhəmməd Onun Rəsuludur" sözləridir. Kim bu çağırışıma cavab versə, o şəxs mənim qardaşım, vəsim, vəzirim, varisim və məndən sonra xəlifəm olacaqdır"***.

Heç kəs Peyğəmbərin *(s)* bu çağırışına cavab vermədikdə Əli *(ə)* ayağa qalxıb buyurdu:

***"Ey Allahın Rəsulu! Mən sənin çağırışına cavab verirəm"***.

Bu hadisə üç dəfə təkrar oldu və hər dəfə Əli *(ə)* ayağa qalxıb eyni sözləri dedi. Sonda Peyğəmbər *(s)* öz tarixi cümləsini buyurdu:

***"Ya Əli! Sən qardaşım, vəsim, vəzirim, varisim və məndən sonra xəlifəmsən"***.[75]

Əlinin *(ə)* imamət və xilafətinə dəlil göstərilən ayələrdən biri də "Təbliğ" ayəsidir. Allah-taala buyurur:

***"Ya Rəsulum! Sənə nazil olanı təbliğ et. Əgər etməsən, Allahın risalətini yerinə yetirmiş olmazsan. Allah səni insanlardan qoruyacaq. Allah kafir camaatı düz yola yönəltməz!"***[76]

Quran təfsirçilərinin rəyinə və onların əsaslandırdığı hədislərə görə, bu ayə Qədir-Xum çölündə nazil olmuşdur. Belə ki, Peyğəmbər *(s)* sonuncu Həcc səfərini təxminən yüz min nəfər sə-

---

[75] Cərir ət-Təbəri, "Tarixi-Təbəri", c. II, s. 62, Əllamə Muttəqi əl-Hindi, "Kənzul-ummal", c. VI, s. 392, Əhməd ibn Şueyb ən-Nisai, "Xəsaisu-Əmiril-muminin", s. 86, Əhməd ibn Hənbəl, "Musnədi-Əhməd", c. I, s. 95.

[76] "əl-Maidə", 67.

habə ilə birlikdə yerinə yetirib geri qayıdarkən Məkkə ilə Mədinə arasında yerləşən Qədir-Xum çölündə Həcc karvanının dayanmasını əmr edir. Bu yer hacıların bir-birlərindən ayrılıb öz ölkələrinə getdikləri bir məkandır. Bu yerdə Cəbrail *(ə)* nazil olub Peyğəmbərə *(s)* yuxarıdakı ayəni gətirir. Peyğəmbər *(s)* karvanı saxladıqdan sonra onun üçün bir minbər hazırlanmasını əmr edir. Minbər hazır olduqdan sonra Allahın Rəsulu *(s)* azan oxunmasını və geridə qalanların da irəli sıxlaşmasını istəyir. Səhabələrin hamısı bir araya toplanır. Onlar istinin şiddətindən öz əbalarını ayaqları altına atırlar.

Peyğəmbər *(s)* minbərin üstünə çıxır və sonra Əlini *(ə)* yanına çağırır. Rəsulullah *(s)* xütbə oxuduqdan sonra bu səfərin sonuncu səfər olduğunu və yaxın zamanlarda Allahın dərgahına qovuşacağını səhabələrə xəbər verir. Peyğəmbərin *(s)* xütbəsinin bir hissəsində deyilirdi:

***"...Mən sizin aranızda iki ağır əmanət buraxıram. Əgər onlardan yapışsanız heç vaxt yolunuzu azmazsınız. Onlar Allahın Kitabı və mənim ailəm olan Əhli-Beytimdir. Bu iki ağır əmanət Hovuzun kənarında mənə yetişənədək heç vaxt bir-birlərindən ayrılmazlar"***.

Sonra Peyğəmbər *(s)* məşhur xütbəsinə davam edərək buyurur:

***"Mən sizə sizdən daha üstün deyiləmmi?"***

Dedilər:

"Bəli, ey Allahın Rəsulu *(s)*!"

Rəsulullah *(s)* buyurdu:

***"Mən hər kəsin rəhbəriyəmsə, onun rəhbəri Əbu Talib oğlu Əlidir. Allahım, onu rəhbər bilənə rəhbər, ona düşmən olana düşmən ol! Ona kömək edənə kömək ol, onu tək buraxanı öz başına burax və harada olsa belə, haqqı onunla birlikdə et!"***[77]

Xilafət ərazisində üsyan və fitnələrin çoxalması səbəbindən Həzrət Əlinin *(ə)* də düşmənləri çoxalmışdı. Nəhayət, o

---

[77] "Səhihi-Müslim", c. VI, s.1873, Əhməd ibn Hənbəl, "Musnədi-Əhməd", c. V, s. 501.

Həzrət *(ə)* şəhid edildi. Həzrəti *(ə)* şəhadətə yetirənlər isə xaricilər oldu. Belə ki, xaricilərdən olan üç nəfər – Əbdürrəhman ibn Mülcəm əl-Muradi, əl-Burək ibn Abdullah ət-Təmimi əs-Sureym və Amr ibn Bəkr ət-Təmimi əs-Sadi Məkkədə gizli şəkildə toplandılar. Toplantıda İslam dünyasının vəziyyəti və müsəlmanların düşdüyü qarışıqlığın səbəbkarları barədə fikirləşdilər və belə bir qənaətə gəldilər ki, bunlar Əli *(ə)*, Əmr ibn As və Müaviyə ibn Əbu Süfyandır. Xaricilər qərar verdilər ki, mövcud vəziyyətdən çıxış yolu onları öldürməkdədir.

İbn Mülcəm Həzərt Əlini *(ə)*, əl-Burak Müaviyəni, Amr ibn Bəkir də Əmr ibn Ası öldürməyə and içdilər. Hamısı qılınclarını itiləyərək zəhər sürtdülər. Ramazan ayının 7-də bu işi görmək üçün hərəkət etdilər. [78]

İbn Mülcəm Küfəyə getdi və orada Katam bint Səcinə (Qüttamə) adında bir qadınla tanış oldu. Katamın atası və qardaşı Nəhrəvan savaşında Həzrət Əli *(ə)* tərəfindən öldürülmüşdü. Qadının gözəlliyi həqiqətən dillərdə dastan olmuşdu. İbn Mülcəm Katamı görən kimi Kufəyə nə üçün gəldiyini unutdu və ona evlənmə təklifi etdi. Katam onun qarşısında 3,000 dirhəm, bir cariyə, bir müğənni qadın və ayrıca Həzrət Əlini *(ə)* öldürməsi şərtini qoydu. İbn Mülcəm dedi:

"Bu şərtlərini yerinə yetirərəm. Vallahi, mən də buraya Əlini öldürmək üçün gəldim".

Həzrət Əli *(ə)* sübh namazı üçün evdən çıxıb Kufə məscidə getmişdi. İbn Mülcəm Əli *(ə)* səcdədə ikən – "Ey Əli! Hökm sənin və yoldaşlarının deyildir" deyərək zəhərli qılıncı ilə o Həzrətə *(ə)* öldürücü zərbə vurdu və qaçarkən tutuldu. Həzrət Əli *(ə)* yataqda ikən buyurdu:

***"Əgər ölərsəm, İbn Mülcəmdən qisas alın"***.

Həzrət *(ə)* sonra buyurdu:

***"Ey Əbdülmütəllib oğulları! Heç vaxt müsəlmanların qanını axıtmağa qalxmayın. "Möminlərin əmiri öldürüldü" – deyə insanlara qıymayın"***.

---

[78] Təbəri, "Tarixi-Təbəri", c. III, s. 157-158.

Həzrət Əli *(ə)* oğullarına tövsiyələr və nəsihətlər verdikdən sonra cümə günü olduğu rəvayət edilən 22 yanvar 661-ci ildə vəfat etmişdir. O Həzrəti *(ə)* oğlanları – İmam Həsən *(ə)*, İmam Hüseyn *(ə)* və Abdullah ibn Cəfər yuyaraq kəfənləmişdir. İmam Əlinin *(ə)* cənazə namazını İmam Həsən *(ə)* qıldırmış və o Həzrəti *(ə)* Nəcəfül-əşrəfdə dəfn etmişdir.

Həzrət Əli *(ə)* beş ilə qədər xəlifəlik etmiş, vəfatı əsnasında 63 yaşlarında olmuşdu.[79]

Təbük səfərində Peyğəmbər *(s)* Həzrət Əlini *(ə)* Mədinənin müdafiəsində saxlamışdı. Həzrət *(ə)* bundan kədərlənmiş və buyurmuşdu:

***"Məni qadın və uşaqların yanındamı buraxırsan?"***

Peyğəmbər *(s)* isə belə buyurmuşdu:

***"Əlinin mənə olan nisbəti Harunun Musaya olan nisbəti kimidir".***[80]

Həzrət Əli *(ə)* xəlifəlik zamanlarında haqq və ədalətdən ayrılmamışdır. O Həzrət *(ə)* bacarıq, himmət, zəka, sürətli cavab vermək, qüvvətli zehin sahibi, müşkül və çətinlikləri həll etməkdə çox bacarıqlı birisi idi. Şücaət, bəlağət və fəsahətdə yüksək dərəcə sahibi idi. Həlim, gülərüzlü və lətifələrə meyilli təbiəti ilə xalqı özünə məftun etmişdi.

Xəlifə Ömər ibn Xəttab demişdir:

"Bizim qazımız fətva hökmü verən Əlidir".

O, həll edilməsi müşkül məsələ ortaya çıxdığı zaman Həzrət Əliyə *(ə)* müraciət edirdi. Nəhv elminin əsasını qoyan Əbu Əsvəd Həzrət Əlidən *(ə)* dərs almışdır. O Həzrətin *(ə)* hikmət və nəsihətə, elmin incəliklərinin sirlərinə və təsəvvüfə dair qiymətli kəlamları vardır.[81]

İmam Əlinin *(ə)* İslamdakı yerinə gəldikdə isə bu dinin yayılmasında o Həzrət *(ə)* hədsiz dərəcədə önəmli rol oynamış, bu sahədə böyük xidmətlər göstərmişdir. İslamın əvvəlki günlərinə

---

[79] Nuru Ünlü, "İslam Tarixi", c. I, s. 155.

[80] "Səhihi-Buxari", Fəzail, 9.

[81] Nuru Ünlü, "İslam tarixi", c. I, s. 155-156.

nəzər salsaq onu təbliğ etmək üçün Peyğəmbərə *(s)* arxa və dəstək olması, hətta məclislər quraraq öz yaxınlarını ora dəvət etməsi, Hicrət zamanı böyük fədakarlıqlar göstərməsi, savaşlarda misilsiz və bənzərsiz qəhrəmanlıqlar nümayiş etdirməsi o Həzrətin *(ə)* şərəfli xidmətlərindəndir.

Həzrət Əli *(ə)* Quran, hədis və xüsusi ilə fiqh elmində səhabələr arasında xüsusi dərəcə və mənsəb sahibi olmuşdur. Peyğəmbərdən *(s)* rəvayət etdiyi hədislərin çoxu fiqh mövzusunda idi. O Həzrətdən *(ə)* İmam Həsən *(ə)*, İmam Hüseyn *(ə)*, Abdullah ibn Məsud və s. səhabələr rəvayət etmişlər.

Həzrət Əlinin *(ə)* rəvayət etdiyi hədislər Əhli-sünnə mənbələrində cəmi 586-dır. Bunlardan 20-si həm "Səhihi-Buxari", həm də "Səhihi-Müslim"də, ayrıca 9-u təkcə "Səhihi-Buxari"də, 15-i isə "Səhihi-Müslim"də keçməkdədir.[82]

Lakin mənbələr daha obyektiv şəkildə araşdırıldıqda məlum olur ki, Həzrət Əli *(ə)* daim Peyğəmbərin *(s)* yanında olduğuna görə ondan bu qədər az hədis nəql oluna bilməzdi. Deməli, burada gizli bir siyasi məqsədin izləri vardır, bu məqsəd bir deyil, hətta bir neçə ola bilər. Ancaq biz bu məqsədlərə varmadan belə, qeyd edirik ki, o Həzrət *(ə)* Peyğəmbərdən *(s)* çoxlu sayda hədis rəvayət etməsi ilə yanaşı, özünün də on bir mindən artıq hədisi olub ki, Əllamə Amədi də onları "Qurərul-hikəm və durərul-kəlam" adlı əsərində cəm etmişdir.

Ərəb dilini Həzrət Əli *(ə)* kimi fəsih danışan biri olmamışdır. Ərəb dilinin ilk qaydalarını qoyan o Həzrət *(ə)* olmuşdur. Nəhv elmi ilə əlaqəli ilk bilgiləri ortaya qoyan şəxsiyyət məhz İmam Əlidir *(ə)*.

Həzrət Əli *(ə)* üzərinə ***"Kəlamın tamamı isim, fel və hərfdir. İsim müsəmmadan xəbər verən, fel özü ilə xəbər verilən, hərf isə məna ifadə edən bir sözdür"*** cümləsini yazdığı bir kağızı Əbül Əsvəd əd-Düəliyə uzatmış və buyurmuşdur:

***"Bu metodu təqib edərək fikirlərini bura əlavə et"***.

---

[82] Heyət, "İslam Alimleri Ansiklopedisi", c. I, s. 106.

əd-Düəli də yazdığı hər babı Həzrət Əliyə *(ə)* təqdim etmişdir. Onu da bu işə məcbur edən bir bədəvinin:

لاناكله إلا الخاطؤن

***"Onu ancaq bilərək günah işləyənlər yeyə bilər"*** ayəsindəki son kəlməni الخاطئين şəklində oxumasıdır.[83]

Həzrət Əlinin *(ə)* ən böyük müfəssir olmasına heç kim şübhə etməzdi. O Həzrət *(ə)* Kufədə insanlara – ***"Qurandan hansı sualı istəsəniz soruşun!"*** deyə müraciət edər, ***"Vallahi, elə bir ayə yoxdur ki, onun qışdamı ya yazdamı, gündüz və ya gecə, yerdə yaxud dağda nazil olduğunu bilməyim...!"*** – deyə buyurardı.[84]

Abdullah ibn Abbasdan Həzrət Əlinin *(ə)* elmi barəsində soruşulduğu zaman demişdi:

"İçi hikmət və elm ilə dolu idi! Vallahi, ona elmin onda doqquzu verilmişdir. Yenə and içirəm ki, o, elmin qalan onda birinə də sizinlə ortaqdır!"

Müaviyə ibn Əbu Süfyan əmirliyi zamanında içindən çıxa bilmədiyi müşkül məsələni Həzrət Əliyə *(ə)* yazaraq soruşardı. Həzrətin *(ə)* şəhid edildiyini xəbər aldığında – "Fiqh və elm Əbu Talibin oğlunun ölümü ilə bitdi!" deməkdən özünü saxlaya bilməmişdi.

Abdullah ibn Məsuda görə, Həzrət Əli *(ə)* fəraizi elmini ən yaxşı bilən idi.[85] "Qazil-quzat" adı ilə tanınan Həzrət Əli *(ə)* Peyğəmbərin *(s)* göstərişi ilə Yəməndə qazı vəzifəsində də işləmişdir. Onun hüquq bilgisi və hökm vermə bacarığını qiymətləndirən Xəlifə Ömər ibn Xəttab demişdir:

"Ən dəqiq hökm verənimiz Əlidir".

Buna görə də ilk üç xəlifə öz zamanlarında İmam Əlinin *(ə)* hökmlərindən faydalanmışlar.

Həzrət Əliyə *(ə)* nisbət edilən "əl-Qasidətüz-zəburiyyə", "əl-Qasidətül-cülcülütiyyə", "Cünnətul-əsma" və "Munacat" ki-

---

[83] İbrahim Erol, "Arab Dili İrabı", nəşr olunmamış magistatura işi, Trabzon, 2006, s. 17.
[84] Heyət, "İslam Alimləri Ansiklopedisi", İstanbul, c. I, s. 107.
[85] Asim Köksal, "İslam tarixi", c. XVIII, s. 278.

mi əsərləri də olmaqdadır. Həmçinin, Həzrət Əlinin *(ə)* hikmətli sözlərindən olan "Əlif kəlmə", "Əmsalul-İmam Əli", "Qurərul-hikəm və durərul-kəlam", "Marlubu-Kulli-Talib min Kəlami Əli ibn Əbi Talib",[86] eyni zamanda "Nəhcül-Bəlağə" və "Divani Əli" kimi əsərləri də olmuşdur.[87]

Həzrət Əli *(ə)* digər fəaliyyətləri kimi, insanları elmə təşviq etməkdə də çox səy göstərmişdir. Əbu Tüfeyl belə nəql edir:

"Həzrət Əli *(ə)* buyurardı:

***"İnsanlar arasında peyğəmbərlərə ən yaxın olanlar, onların gətirdiklərini ən yaxşı bilənlərdir"***

Sonra isə bu ayəni oxuyardı:

***"Şübhəsiz ki, insanların İbrahimə ən yaxın olanı onun ardınca gedənlər, bu Peyğəmbər (Muhəmməd) və ona iman gətirənlərdir. Allah möminlərin dostudur!"***[88]

Ayədəki ***"bu Peyğəmbər"*** – Muhəmməd *(s)*, ***"iman gətirənlər"*** də ona tabe olanlardır. Həzrət *(ə)* bu barədə buyurmuşdur:

***"Bu, münaqişəyə səbəb olmayacaq dərəcədə açıqdır"***.

Küleyb ibn Ziyad belə deyir:

"Əli ibn Əbu Talib *(ə)* əlimdən tutaraq məni çölə apardı. Çöldə bir yerdə oturduq. Bir az dincəldikdən sonra buyurdu:

***"Qəlblərin hərəsi bir cürdür. Ən yaxşı qəlb isə içindəkini çölə vurmayandır. Sənə söyləyəcəyimi yaxşı yadda saxla! İnsanlar üç qrupdur.***

***Birinci qrup qüdrətli alimlərdir.***

***İkinci qrup elm öyrənən, qurtuluş yoluna gedənlərdir.***

***Üçüncü qrup kor-koranə cahil topluluqdur. Bunlar külək haradan əsərsə oraya dönərlər.***

***Elm maldan xeyirlidir. Elm səni qoruyar, malı isə sən qoruyursan. Elmə əməl edildikcə artar. Malı isə xərclədikcə azalar.***

---

[86] Fığlalı, "Ali" maddəsi İslam Ensiklopediyası, c. II, s. 375.

[87] Heyət, "Temel Brıtannıca", Temel Eğitim Ve Kültür Ansiklopedisi, Ana Yayıncılıq, tarixsiz, c. I, s. 151.

[88] "Ali-İmran", 3/68.

***Alimi sevmək hər kəsin borcudur. Alimlər isə dünya durduqca həyatdadırlar. Özləri köçüb getsə də əsərləri və adları daima həyatdadır.***

***Digər bir qisim də mal toplayıb çoxaltmağa düşkün olan kimsələrdir. Bunlar din dövlətçiləri olmazlar. Çöldə otlayan heyvanlara çox bənzəyərlər. Beləliklə, alimlərin ölümü ilə elm də itər...".***[89]

Həzrət Əli *(ə)* həyatının heç bir anında doğruluqdan ayrılmayan, İslam dövləti və dininin yayılmasında çox böyük əməyi olan bir insan olmuşdur. O Həzrəti *(ə)* görənlərin və görənlərdən eşidənlərin söylədiklərinə görə, Həzrət Əlinin *(ə)* zahiri görünüşü aşağıdakı kimi olub:

Qısaya yaxın orta boylu, qara və böyük gözlü, gözəl üzlü idi.

İki çiyninin arası böyükdür.

Boynu gümüş ibriq kimi idi.

Başının təpəsi saçsız idi.

Çiyninin baş tərəfləri dik və yüksək idi.

Əlləri, qolları, biləkləri çox qüvvətli idi.

Savaşa silkələnə-silkələnə gedərdi.

Savaşarkən də çox ürəkli, güclü və səbatlı idi.[90]

Həzrət Əli *(ə)* savaşda kiminlə qarşılaşırdısa, şübhəsiz ki, ona üstün gəlirdi. Qarabuğdayı, sıx və uzun, sinəsini dolduracaq qədər enli saqqallı idi. Saçı və saqqalı ağappaq idi. Uzanan saçını iki tərəfə ayırıb yan tərəflərinə salardı. Başının üzərinə qara sarıq bağlayıb sarığın bir ucunu arxasına atardı.[91]

Qudamə ibn Attab Həzrət Əlini *(ə)* qış günlərinin birində üzərində yun qarışmış ağ parçadan bir paltar və "qıtr" deyilən kətən parçadan iki izar (geyim növü) geyinmiş olduğu halda, xütbə söyləyərkən gördüyünü nəql edib.

---

[89] Kandehlevi, tərc: Heyət, "Hadislerle Müslümanlık", Cümle Yayıncılık, İstanbul, tarixsiz , c. IV, s. 1502.

[90] İbn Kəsir, "əl-Bidayə", c. VII, s. 360.

[91] Fığlalı, "Ali" maddəsi, İslam Ensiklopediyası, c. II, s. 374.

Həzrət Əlinin *(ə)* dünya sərvəti əlində ikən, ona əl vurmayıb, öz malı olan qılıncını sataraq örtünəcək bir paltar almaq istədiyi rəvayət olunur.

Abdullah ibn Abbas Həzrət Əlinin *(ə)* xəlifəliyi zamanında geyinmək üçün üç dirhəmə bir köynək aldığını söyləmişdir.[92]

Zazan belə söyləyir:

"Həzrət Əli *(ə)* xəlifə olduğu zaman bazarda təkbaşına gəzərdi. Yolunu səf salana yol göstərər, bir şey itirənin malını axtarar, zəiflərə kömək edər və satıcıların yanına gedib onlara Quran oxuyardı. Bu ayəni oxuduğunu gördüm:

***"Biz Axirət yurdunu Yer üzündə təkəbbürlük etməyənlərə və fitnə-fəsad törətməyənlərə qismət edərik. (Ən gözəl) aqibət ancaq Allahdan qorxub pis əməllərdən çəkinənlərindir!"***[93]

Sonra ayə haqqında belə buyurdu:

***"Bu ayə ədalətli və təvazökar idarəçilər, xalq üzərində nüfuz sahibi kimsələr haqqında nazil olmuşdur"***.

Əbu Matar Bülbülə belə nəql edir:

"Məsciddən çıxmışdım. Arxamdan bir adamın belə səsləndiyini eşitdim:

***"Ətəyini qısalt, bu, Allaha bağlılığın ifadəsidir. Bundan başqa, paltarın da kirlənməz. Əgər müsəlmansansa saçını qısalt!"***.

Arxama dönüb baxdım, bu, Həzrət Əli *(ə)* idi. Bazara, dəvələrin satıldığı yerə getdi və oradakılara buyurdu:

***"Alış-veriş edin, amma and içməyin. And malın dəyərini düşürür, bərəkətini götürür"***.

Xurma satan birinin yanına getdi. Xidmətçinin ağladığını gördükdə ondan soruşdu:

***"Nə üçün ağlayırsan?"***

Xidmətçi dedi:

"Bu adam mənə bir dirhəmlik xurma verdi. Lakin ağam xurmanı qəbul etməyir"

---

[92] Asim Köksal, "İslam tarixi", c. III, s. 102-103.

[93] "əl-Qəsəs", 28/83.

Həzrət Əli *(ə)* xurma satana buyurdu:

***"Xurmaları al, xidmətçinin pulunu geri ver. Bu, cariyənin əlində olan bir şey deyildir"***.

Xurma satan almaq istəmədi. Mən soruşdum:

"Bunun kim olduğunu bilirsənmi?"

Dedi:

"Xeyr".

Dedim:

"Bu, Həzrət Əlidir *(ə)*, möminlərin əmiridir".

Bundan sonra xurma satan xurmasını geri aldı, xidmətçinin pulunu ona qaytardı və dedi:

"Ey möminlərin əmiri, məndən razı olmanı arzu edirəm".

Həzrət Əli *(ə)* buyurdu:

***"Xalqa qarşı dürüst davranarsansa, məni məmnun etmiş olarsan"***.

Qurani-Kərimdəki bəzi ayələr Həzrət Əlinin *(ə)* fəzilətləri səbəbi ilə nazil olmuşdur. Onun haqqında nazil olmuş ayələrin bəzilərini nəql etmək istəyirik:

"Həzrət Əli *(ə)* məsciddə namaz qılırdı. Bir dilənçi dua etdi və nə isə istədi. İmam *(ə)* rükuda ikən barmağında olan üzüyü çıxarıb dilənçi üçün yerə qoydu. Onun bu halı üzrə Allah-taala bu ayəni nazil etdi:

***"Sizin haminiz (dostunuz) ancaq Allah, Onun Peyğəmbəri və iman gətirənlərdir. O kəslər ki, (Allaha) namaz qılır və rükuda olduqları halda zəkat verirlər"***.[94]

Abbasla Təlhə arasında bir münaqişə olmuşdu. Belə ki, Abbas hacılara su verdiyi üçün çox savab aldığını söylədi. Bəni-Əbdiddar qəbiləsindən olan Təlhə isə Kəbənin açarlarını əlində tutduğunu və istədiyi gecə orada qalacağını söyləyərək daha fəzilətli olduğunu iddia etdi. Bu zaman onlara tamaşa edən Həzrət Əli *(ə)* buyurdu:

***"Siz nə deyirsiniz, mən sizdən on ay əvvəl bu işlərə yönəlmişəm. Siz o zaman buralarda yox idiniz"***.

---

[94] "əl-Maidə", 5/55.

Allah-taala bu ayəni nazil etdi:

***"(Ey müşriklər!) Məgər siz hacılara su verməyi və Məscidül-Həramı təmir etməyi Allaha və qiyamət gününə iman gətirib Allah yolunda cihad edənlərlə eynimi tutursunuz? Onlar Allah yanında eyni olmazlar. Allah zalım tayfanı doğru yola yönəltməz! İman gətirib Hicrət edənləri, Allah yolunda malları və canları ilə vuruşanları Allah yanında ən yüksək dərəcələr gözləyir. Onlar nicat tapanlardır (xeyrə qovuşanlardır)".***[95]

İmam Əlinin *(ə)* şəni barəsində Allah-taala belə buyurmuşdur:

***"Ey iman gətirənlər! Peyğəmbərlə (hər hansı bir iş barəsində) məxfi danışacağınız zaman bu danışıqdan əvvəl (ona hörmət əlaməti olaraq yoxsullara) sədəqə verin. Bu (əməl) sizin üçün (Allah yanında) daha xeyirli, daha pakdır. Əgər (sədəqə verməyə) bir şey tapmasanız (ürəyinizi qısmayın). Çünki Allah bağışlayandır, rəhm edəndir!***"[96]

Abdullah ibn Ömər deyir:

"Həzrət Əlidə *(ə)* olan üç şeyin qırmızı tüklü, qara gözlü bir çox dəvənin məndə olmasından daha çox sevərdim. O üç şey bunlardır:

1. Rəsulullahın *(s)* qızı ilə evli olması;

2. Xeybər müharibəsində Peyğəmbərin *(s)* bayrağı ona verməsi;

3. ***"Ey iman gətirənlər! Peyğəmbərlə (hər hansı bir iş barəsində) məxfi danışacağınız zaman bu danışıqdan əvvəl (ona hörmət əlaməti olaraq yoxsullara) sədəqə verin"*** ayəsinə yalnız Əlinin *(ə)* əməl etməsi".

Həzrət Əlinin *(ə)* barəsində nazil olan digər ayələrdən aşağıdakıları qeyd edə bilərik:

***"Yoxsa dünyada pis əməllər edənlər (Axirətdə) onları iman gətirib yaxşı işlər görənlərlə bir tutacağımızı, onların həyatlarının və ölümlərinin eyni olacağını güman edirlər?!***

---

[95] "ət-Tövbə", 9/19-20.

[96] "Mücadilə", 58/12.

***Onlar nə pis mühakimə yürüdürlər! (Dünyada naz-nemət içində yaşayan kafirlər: "Əgər Qiyamət günü, Axirət doğrudursa, Allah bizə orada da firavan həyat bəxş edəcəkdir!" – deyirlər. Xeyr, onların Axirət həyatı çox pis olacaq və əzab içində keçəcəkdir. Dünyada aldıqları ləzzət Axirətdə onların burunlarından töküləcəkdir. Gözəl Axirət həyatı yalnız dünyada Allah və din yolunda məşəqqətlərə dözmüş möminlərə məxsusdur)";***[97]

***"İnsanların eləsi də vardır ki, Allahın razılığını qazanmaq yolunda (Allah rizası üçün) öz canını fəda edər. Allah Öz bəndələrinə qarşı çox mehribandır!";***[98]

***"Evlərinizdə qərar tutun. İlkin cahiliyyət dövründəki kimi açıq-saçıq olmayın. (Bər-bəzəyinizi taxaraq evdən çıxıb özünüzü, gözəlliyinizi yad kişilərə göstərməyin!) Namaz qılın, zəkat verin, Allaha və Rəsuluna itaət edin. Ey Əhli-Beyt! Allah sizdən çirkinliyi (günahı) yox etmək və sizi tərtəmiz (pak) etmək istər!".***[99]

İmam Əli *(ə)* haqqında Peyğəmbərin *(s)* çoxsaylı hədisləri vardır. İbn Əbil Hədid "Nəhcul-bəlağə"nin 240-cı xütbəsinin şərhində Hicrət gecəsindəki hadisəni – Mövla Əlinin *(ə)* Peyğəmbərin *(s)* yatağında yatması və o Həzrətin *(s)* Əbu Bəkrlə birlikdə müşriklərin əlindən xilas olması barəsində yazır:

"Mən, Əbu Cəfər Yəhya ibn Əbu Zeyd Nəqib Həsənidən (Allah ona rəhmət eləsin) soruşdum:

"Qureyş qəbiləsindən müxtəlif adamlar əllərində qılınc Peyğəmbəri *(s)* öldürmək, qanını Qureyşin müxtəlif qəbilələri arasında bölüb aradan aparmaq və Əbdu Mənaf ailəsinin qanı tələb etməyə bir yer tapmamasını təmin etmək üçün bir araya gəldilər. Belə rəvayət olunmuşdur ki, bu fikri onların ağlına Şeytan salmışdı. Onlar o gecəni sübhədək gözlədilər. Rəvayət olunur ki, qureyşlilər divarın üstünə çıxıb gördülər ki, bir şəxs yaşıl rəngli

[97] "əl-Casiyə", 45/21.
[98] "əl-Bəqərə", 2/207.
[99] "əl-Əhzab", 33/33.

həzrəmi qətifəsinə bürünüb yatmışdır, onun Peyğəmbər *(s)* olmasına şübhə etmədilər. Bununla belə, sübhədək gözlədilər və gördülər ki, bu şəxs Əlidir *(ə)*. Bu iş çox qəribə idi, çünki onlar Peyğəmbəri *(s)* məhz o gecə öldürmək üçün bir araya gəlmişdilər. Bəs nəyə görə qətifəyə bürünmüş adamı öldürmədilər? Onların sübhədək gözləməyi onu öldürmək istəmədiklərindən xəbər verir".

Cavabında Nəqib dedi:

"Onlar bir gün qabaqdan həmin gecə Peyğəmbəri *(s)* öldürmək qərarına gəlmiş və Əbdu Mənaf ailəsindən gizli saxlamaq barəsində razılaşmışdılar. O şəxslər aşağıdakılardır:

Bəni-Əbdiddar ailəsindən – Nəzr ibn Haris və Əsəd ibn Əbdül;

Üzza ailəsindən – Əbül Düxtəri ibn Hişam;

Həkim ibn Hişam və Zümə ibn Əsvəd ibn Müctəlib Məxzum ailəsindən – Əbu Cəhl, qardaşı Haris və Xalid ibn Vəlid ibn Muğeyrə;

Səhm ailəsindən – Həccacın iki oğlu Nəbiyyə və Mənbə, həmçinin Əmr ibn As;

Cəməh qəbiləsindən isə Üməyyə ibn Xələf və qardaşı Übəyy ibn Xələf.

Gecə bu xəbər Ütbə ibn Rəbiə ibn Əbdu Şəmsə çatdı. O, bu adamların bəzisi ilə görüşüb bu işdən əl çəkməsini istəyib dedi:

"Əbdu Mənaf ailəsi Muhəmmədin qanını güzəştə getməyəcək və bundan çəkinməyəcəklər, siz onu zəncirləyib evlərinizdən birində həbs edin və digər şairlər öldüyü kimi ölənədək gözləyin".

Ütbə ibn Rəbiə Əbdu Mənaf ailəsindən sayılan Əbdu Şəms ailəsindən idi. O, həmçinin Peyğəmbərin *(s)* əmioğlusu sayılırdı. Buna görə də Əbu Cəhl və köməkçiləri həmin gecə Peyğəmbəri *(s)* öldürməkdən çəkindilər. Sonra isə Peyğəmbərin *(s)* evdə olmasını güman edərək divarın üstünə çıxıb baxdılar. Orada yaşıl həzrəmi qətifəyə bürünmüş adam gördükdə daha şəkk etmədilər ki, bu Peyğəmbərdir *(s)* və onu öldürmək barədə plan cızmağa başladılar. Əbu Cəhl onları bu işə təşviq edirdi. Onlar gah öldür-

mək niyyətinə düşür, gah da çəkinirdilər. Sonra isə onlardan bəziləri digərlərinə dedilər:

"Onu daşa basın".

Onlar daş atmağa başladılar. Əli *(ə)* bu tərəf o tərəfə çevrilir və yüngül ağrılar hiss edirdi. Çünki Allah-taala Əlinin *(ə)* salamat qalmasını və nicat tapmasını iradə etmişdi. Onlar hava işıqlananadək tərəddüddə qaldılar. Əgər Əli *(ə)* onların atdığı daşların təsiri nəticəsində ölsəydi o zaman Peyğəmbər *(s)* Mədinəyə getməyib Məkkədə qalacaq və ertəsi gün öldürüləcəkdi. Hətta bu, Əbdu Mənaf övladlarıyla dava ilə nəticələnsəydi belə. Çünki Əbu Cəhl Peyğəmbəri *(s)* öldürməkdən əl çəkməyəcəkdi. O, bəsirətsiz bir adam idi və Peyğəmbərin *(s)* qanını tökmək üçün əzmlə çalışırdı".

Mən Nəqibə dedim:

"Rəsulullah *(s)* və Əli *(ə)* bilirdilərmi ki, Ütbə qureyşliləri Peyğəmbəri *(s)* öldürməkdən saxlamışdır?

Cavabında Nəqib dedi:

"Xeyr, onlar o gecə bilmirdilər. Sonralar bildilər".

Bunun üzərinə Peyğəmbər *(s)* Bədrdə Ütbənin döyüşü yatırmaq istəyini gördükdə belə buyurdu:

***"Əgər bu qövmün içində yaxşı birisi varsa, elə qırmızı erkək dəvənin sahibidir"***.

Fərz edək ki, Əli *(ə)* Ütbənin müşriklərə dediyindən xəbərdar idi. Yenə də onun Peyğəmbərin *(s)* yatağında yatması fəzilətindən heç bir şey azaltmır. Çünki onların Ütbənin sözünü eşidib-eşitmədiyinə heç etimadı yox idi. Bəlkə də onun öldürülməyə daha çox gümanı var idi.

İndi ki, söz bura çatdı, İmamın *(ə)* parlaq imanı və əzəmətli ruhundan xəbərdar olmaq üçün bir müqayisə etməyiniz pis olmaz.

"Leylətul-məbit"də Peyğəmbər *(s)* Əliyə *(ə)* onun yatağında yatmaq təklifi etdikdə İmam *(ə)* yalnız bir şey barəsində düşünürdü. Odur ki, soruşdu:

***"Ya Rəsulullah, əgər yerinizdə yatsam siz sağ qalacaqsınızmı?"***

Rəsulullah *(s)* cavab verdi:

***“Bəli, salamat qalacağam”***.

Əli ibn Əbi Talib *(ə)* xoşhallıqla torpağa düşüb şükür səcdəsi etdi. Bu, İslamda baş verən ilk şükür səcdəsi idi.

Yəqubinin “Tarix” əsərində qeyd olunmuşdur ki, həmin gecə Həzrət Əli *(ə)* Peyğəmbərin *(s)* yatağında yatmışdı. Allah-taala Cəbrail *(ə)* və Mikailə *(ə)* vəhy etdi:

***“Mən ikinizdən birini ölümə məhkum etmişəm, hansı biriniz fədailik edib özünü ölümdə qabağa salar?”***

Hər ikisi yaşamağı seçdilər. Vəhy gəldi:

***“Niyə Əli kimi deyilsiniz? Onu Muhəmmədlə bərabər qərar verdim və birinin ömrünü digərindən çox etdim. Amma Əli ölümü seçdi və Muhəmmədin qalmasını üstün tutaraq onun yatağında yatdı ki, Muhəmməd diri qalsın. Gedin onu düşmənlərindən qoruyun”***.

Hər iki mələk dərhal Yerə endi. Biri Əlinin *(ə)* baş tərəfində oturdu ki, onu düşmənlərdən qorusun və daşlardan mühafizə etsin. Cəbrail *(ə)* deyirdi:

“Sənin kimilərə eşq olsun, ey Əbu Talibin oğlu! Allah yeddi göyün mələklərinə buyurdu ki, ***“Səninlə iftixar edir”***.

Təfsir alimləri etiraf edirlər ki, “Bəqərə” surəsinin 207-ci ayəsi Peyğəmbər *(s)* Məkkədən Mədinəyə gedərkən nazil olmuşdur:

**وَمِنَ النَّاسِ مَن يَشْرِي نَفْسَهُ ابْتِغَاء مَرْضَاتِ اللّهِ وَاللّهُ رَؤُوفٌ بِالْعِبَادِ.**

***“İnsanlardan eləsi də var ki, Allahın razılığını qazanmaq yolunda öz canını satar. Allah da Öz bəndələrinə şəfqətlidir”***.

İmam Əli *(ə)* səhabələr arasında Rəsulullaha *(s)* ən yaxın olanıdır. Çünki o, Rəsulullahın *(s)* həm əmisi oğlu, həm də kürəkənidir. Səhabələr içərisində də müsəlman olanlardan birincisidir.

Tirmizi və Nəsai, Zeyd ibn Ərqəmın belə dediyini rəvayət etmişlər:

“İlk müsəlman olan Əlidir *(ə)*. O, Rəsulullahın *(s)* vəfatına qədər yanından ayrılmamışdır”.[100]

---

[100] İbn Kəsir, “əl-Bidayə”, c. VII, s. 524.

Rəsulullah *(s)* Həzrət Əliyə *(ə)* belə buyurmuşdur:

***"Sən məndən, mən də səndənəm"***.

Ömər ibn Xəttab demişdir:

"Peyğəmbər vəfat edərkən Əlidən razı olduğu halda vəfat etmişdir".

Ümmü Sələmə deyir:

"Həzrət Əli *(ə)* Xeybəri fəth edən zaman Peyğəmbər *(s)* belə buyurdu:

***"Sabah bayrağı Allah və Rəsulu tərəfindən sevilən, eləcə də Allah və Rəsulunu sevən bir adama verəcəyəm ki, Allah onun əli ilə fəthi müyəssər edəcək. O, fəthi tamamlamayana qədər cəbhədən geri dönməyəcəkdir"***.

İbrahim ibn Səid atasından rəvayət edir:

"Peyğəmbər *(s)* belə buyurdu:

***"Əlinin mənə olan nisbəti Harunun Musaya olan nisbəti kimidir"***.[101]

Peyğəmbər *(s)* Həzrət Əli *(ə)*, Fatimə *(ə)*, Həsən *(ə)* və Hüseyni *(ə)* yanına çağırıb Allaha belə dua etdi:

***"Allahım, bunlar mənin ev əhlimdir"***.[102]

Hübşi ibn Cunadə belə rəvayət etmişdir:

"Peyğəmbər *(s)* buyurdu:

***"Əli məndəndir, mən də Əlidənəm"***.

İbn Ömər belə rəvayət edir:

"Peyğəmbər *(s)* Əliyə *(ə)* buyurdu:

***"Sən dünya və Axirətdə qardaşımsan"***.[103]

Peyğəmbər *(s)* Təbük səfərinə gedərkən Həzrət Əlini *(ə)* Mədinədə öz yerinə vəkil olaraq qoymuşdu. Lakin o Həzrətin *(ə)* qadınlar və uşaqlarla qalıb savaşa qatılmamaqdan ötrü şikayət etdiyini görəndə Rəsulullah *(s)* buyurdu:

***"Əlinin mənə olan nisbəti Harunun Musaya olan nisbəti kimidir. Ancaq məndən sonra nəbi yoxdur"***.[104]

---

[101] "Səhihi-Buxari", Fəzail, 9.
[102] "Səhihi-Müslim", Fəzail, 4.
[103] "Sünəni-Tirmizi", Mənaqib, 20.

Həzrət Əli *(ə)* Peyğəmbərə *(s)* ilk inananlardan olması, evində himayəsi altında böyüyüb yetişməsi, ən sıxıntılı günlərində yanından bir an da olsa belə, ayrılmaması kimi səbəblərlə Rəsuli-Əkrəmin *(s)* o Həzrəti *(ə)* könüldən sevməsi və ona digər səhabələrdən fərqli davranması təbiidir.

İbn Əbu Dünya, Əbu Ərakənin belə dediyini rəvayət etmişdir:

"Həzrət Əli *(ə)* ilə birlikdə sübh namazını qıldım. Sağına dönəndə bir az dayandı. Üzərində sanki bir kədər var idi. Günəş doğub məscidin divarından bir qədər yüksələndə də iki rəkət namaz qıldı. Sonra əllərini çevirib belə buyurdu:

***"Allaha and verirəm ki, mən Muhəmmədin əshabını gördüm. Ancaq bu gün onları xatırladan şey görmürəm. Onlar çox səcdə etdiklərindən üzləri və alınları tozlanmış olaraq sabahlayardılar. Sanki onlara təziyə edilən insan kimi üzgün durardılar. Gecələrini Allaha səcdə edib qiyamda duraraq, Allahın Kitabını oxuyaraq keçirərdilər. Səhərlər Allahı zikr edərdilər. Küləkli bir gündə ağacların yana yatması kimi, yatardılar. Allaha and verirəm ki, bugünkü xalq gecəni qəflətdə keçirir".***

Həzrət Əlinin *(ə)* göz yaşı elə axırdı ki, paltarları islanırdı. Sonra qalxdı və o gündən etibarən üzünün güldüyü heç görünmədi".[105]

Peyğəmbər *(s)* buyurmuşdur:

***"Hər kim Əlini söyərsə, məni söymüşdür. Məni söyən isə Allahı söymüşdür".***

Həzrəti Əli *(ə)* rəvayət edir ki, Peyğəmbər *(s)* buyurdu:

***"Əli mənim vəzirim və canişinimdir, ona itaət edin!"***[106]

Cabir nəql edir ki, bir gün Rəsulullahın *(s)* yanında idim, Əli *(ə)* uzaqdan göründükdə o Həzrət *(s)* buyurdu:

***"Canım qüdrət əlində olan Allaha and olsun! Bu şəxs və onun tərəfdarları qiyamətdə nicat tapacaqlar".***[107]

---

[104] "Səhihi-Buxari", Fəzail, 9.

[105] İbn Kəsir, "əl-Bidayə", c. VIII, s. 24.

[106] "Tarixi-Təbəri" c. I, s. 321.

Bir başqa yerdə Rəsuli-Əkrəm *(s)* buyurmuşdur:

***"Hikmət on yerə bölünmüşdür, doqquz hissəsi Əliyə, bir hissəsi isə bütün müsəlmanlara nəsib olmuşdur"***;[108]

***"Əli ibn Əbu Talibi yad etməklə məclislərinizi zinətləndirin"***.[109]

Səhl ibn Səd rəvayət edir ki, Peyğəmbər *(s)* buyurmuşdur:

***"Bayrağı sabah elə bir adama verəcəyəm ki, Allah onun əli ilə müsəlmanlara zəfər bəxş edəcək"***.

Səhabələr maraqdan yatmayıb Rəsulullahın *(s)* bayrağı kimə verəcəyi haqqında sabaha qədər düşündülər və səhər olunca Peyğəmbərin *(s)* yanına gəldilər. Onlardan hər biri bayrağın ona verilməsini arzulayırdı. Peyğəmbər *(s)* Əli ibn Əbu Talibin *(ə)* harada olduğunu soruşduqda səhabələr o Həzrətin *(ə)* gözlərindən şikayət etdiyini xəbər verdilər. Rəsulullah *(s)* Həzrət Əlini *(ə)* çağırtdırdı, onun üçün dua etdikdən sonra gözlərinin ağrısı keçdi və bayrağı ona verdi".[110]

Səd ibn Əbu Vəqqas rəvayət edir ki, Peyğəmbər *(s)* Təbük döyüşünə gedərkən Əlini *(ə)* arxada (Mədinədə) saxlamışdı. Həzrət Əli *(ə)* soruşdu:

***"Ey Allahın Rəsulu, məni qadın və uşaqların arasında saxlayırsan?"***

Peyğəmbər *(s)* cavab verdi:

***"Sən Harunun Musa yanında aldığı yeri mənim yanımda almaqdan razı deyilsən? Bu fərqlə ki, məndən sonra peyğəmbər yoxdur"***.[111]

Peyğəmbər *(s)* buyurmuşdur:

***"Əlini sevmək imandan, düşmənçilik etmək isə nifaqdandır"***.[112]

---

[107] Əllamə Suyuti, "əd-Durrul-mənsur", c. VI, s. 379.
[108] İbn Kəsir, "əl-Bidayə vən-nihayə", c. VII, s. 359.
[109] Əllamə Məclisi, "Biharul-ənvar", c. 38, s. 199.
[110] "Səhihi-Buxari", c. VII, s. 87, 3701-ci hədis.
[111] "Səhihi-Buxari", kitabul-məğazi 80/409, "Fəzail-əshab" 9/54.
[112] "Səhihi-Müslim", c. I, s. 61.

Zeyd ibn Ərqəmin rəvayət etdiyi hədisdə Peyğəmbər *(s)* buyurur:

***"Mən kimin vəlisiyəmsə, Əli də onun vəlisidir"***.[113]

Rəsulullah *(s)* buyurmuşdur:

***"Əli mənim qardaşım və xəlifəmdir"***;[114]

***"Əli məndən sonra hər bir möminin rəhbəri, sevimlisidir"***.

Əli ibn Əbu Talib *(ə)* rəvayət edir ki, Peyğəmbər mənə buyurdu:

***"Səni yalnız mömin sevər, münafiqlər isə nifrət edər"***.

Ədiy ibn Sabit Həzrət Əliyə *(ə)* istinadən belə deyir:

***"Mən Peyğəmbərin dua etdiyi əsrin insanlarındanam"***.[115]

Abdullah ibn Ömər rəvayət edir ki, Rəsulullah *(s)* səhabələri bir-biri ilə qardaşlaşdırmışdı. Həzrət Əli *(ə)* gəldi və buyurdu:

***"Səhabələri bir-biri ilə qardaşlaşdırdın, lakin məni heç kəslə qardaşlaşdırmadın"***.

Rəsulullah *(s)* buyurdu:

***"Sən mənim həm bu dünyada, həm də Axirətdə qardaşımsan"***.[116]

Cabir ibn Abdullah rəvayət edir ki, Taif günü Peyğəmbər *(s)* Həzrət Əlini *(ə)* çağırdı və onunla xüsusi görüşdü. Görüşün uzun çəkdiyinə görə adamlar dedilər:

"Rəsulullah *(s)* əmisi oğlu ilə görüşünü uzatdı".

Bunu duyan Peyğəmbər *(s)* buyurdu:

***"Onunla xüsusi görüşü mən (öz arzumla) etmədim, Allah əmr etdi"***.[117]

Ənəs rəvayət edir:

"Rəsulullah *(s)* Bəraət ("ət-Tövbə") surəsini (Ərafatda Həcc ziyarətinə gələnlərə təbliğ etmək üçün) Əbu Bəkrə göndərmişdi. Sonra onu çağıraraq buyurdu:

---

[113] "Sünəni-Tirmizi", hədis-3713.
[114] "Tarixi-Təbəri", c. II, s. 319.
[115] "Səhihi-Müslim", iman-27.
[116] "Sünəni-Tirmizi", Mənaqib, 3720.
[117] "Sünəni-Tirmizi", Mənaqib, 3726.

***“Bunun ailəmdən olmayan bir kimsə ilə təbliğ edilməsi müvafiq deyil”***.

Həzrət Əlini *(ə)* çağıraraq surəni ona verdi”.[118]

Allah-taala Quranda buyurur:

***“Həqiqətən sən qorxudansan və hər ümmət üçün bir hidayət edən vardır”***.[119]

Hədisşünaslər bu haqda belə deyirlər:

“Peyğəmbər *(s)* buyurdu:

***“Mən qorxudan, Əli isə hidayət edəndir. Ya Əli, sənin əlinlə hidayət olanlar nicat tapanlardır!”***[120]

Bu hədisin məzmununu 9 nəfər səhabə, 24 nəfər İslam alimi kitablarında qeyd etmişlər.

Ümmü Sələmədən nəql olunur ki, Peyğəmbər *(s)* buyurdu:

***“Ya Əli, sən və sənin səhabələrin, sən və sənin şiələrin (ardıcılların) Cənnətdə olacaqlar!”***[121]

Peyğəmbərdən *(s)* nəql olunur:

***“Mən və Əli Adəm peyğəmbər yaranmazdan 14 min il (yəqin ki, yer ili deyil) öncə Allahın yaratdığı vahid nur idik. Adəm yaranan gün Allah bu nuru onun sülbündə qərar verdi. Bu nur sülblərdən sülbə gələrək Əbdülmütəllibin sülbündə ikiyə parçalandı. Nübuvvət məndə, imamət isə Əlidə qərar verildi”***.[122]

Peyğəmbərə *(s)* bu ayə nazil oldu:

***“Həqiqətən sizin mövla və rəhbəriniz Allah, Allahın Rəsulu və iman gətirən, namaz qılıb rüku halında zəkat verənlərdir”***.

Ayə nazil olan kimi Rəsulullah *(s)* məscidə getdi. Bu zaman bir dilənçinin sevincək halda məsciddən çıxdığını gördü. Peyğəmbər *(s)* bunun səbəbini soruşduqda, dilənçi namaz halında olan bir şəxsi göstərib dedi:

---

[118] “Sünəni-Tirmizi”, təfsir ət-Tövbə, 3089.

[119] “ər-Rəd”, 7.

[120] “Cameul-bəyan”, “ər-Rəd surəsi”, 17-ci ayənin təfsirində.

[121] Seyyid Əli Şafeinin “Məvəddətul-qurba” və İbn Həcərin “əs-Səvaiqul-muhriqə” kitablarında qeyd etmişlər.

[122] Əhməd ibn Hənbəlin “Musnəd” c. V, s. 143.

“O, rükuda olduğu zaman əlini mənə tərəf uzadıb barmağındakı üzüyünü verdi”.

Rəsulullah *(s)* namaz halında olan şəxsin Həzrət Əli *(ə)* olduğunu görəndə təkbir deyərək buyurdu:

***“Ayə Əlinin barəsində nazil olmuşdur”***.[123]

Həzrət Rəsulullah *(s)* İmam Əlinin *(ə)* əlini bacardıqca qaldırdı və buyurdu:

***“Mən kimin ağasıyamsa, Əli də onun ağasıdır! İlahi, onu sevəni Sən də sev! Ona düşmən olana Sən də düşmən ol! Ona kömək edənə Sən də kömək et! Onu zəlil etmək istəyəni Sən də zəlil et!”***[124]

Rəsulullah *(s)* buyurmuşdur:

***“Əlinin vilayəti mənim vilayətim, mənim vilayətim isə Rəbbimin vilayətidir”***;

***“Əli mənim kimidir, hər kəs ona tabe olsa, mənə tabe olmuşdur və hər kəs ondan üz çevirsə, məndən üz çevirmişdir. Mən və Əli Allahın bəndələrinə olan höccətiyik”***.

Rəsulullah *(s)* buyurmuşdur:

***“Əli Quran ilə, Quran da Əli ilədir”***;[125]

***“Əli haqq ilə, haqq da Əli ilədir”***.[126]

Cabir ibn Abdullah Peyğəmbərdən *(s)* belə rəvayət etmişdir:

***“Cənnətin qapısında belə bir yazı vardır:***

***“La ilahə illəllah, Muhəmmədən Rəsulullah, Əliyən vəliyullah, əxu Rəsulullah qəblə ən yəhlukəs səmavati vəl ərzi-biəlfəy amin”*** (Allahdan başqa Tanrı yoxdur, Muhəmməd *(s)* Onun elçisidir, Əli *(ə)* Allahın dostu və Peyğəmbərin *(s)* qardaşıdır. Göylə Yer yaradılmamışdan 2 min il əvvəl)”.[127]

---

[123] Hədisi rəvayət etmişlər: imam Sələbi, imam Fəxri Razi, Carullah Zəməxşəri, İbn Səd, Qurtubi, Fazil Nişapuri, Əbu Bəkr Cəssas, Əbu Bəkr Şirazi, Beyzavi, Siyuti, Şukani, imam Nəsai, İbn Təlhə Şafei, İbn Səbbağ Maliki, Sibt ibn Cuzi və b.

[124] Rəvayət edənlər: Əbu-Talib Əhməd ibn Muhəmməd ibn Muhəmməd ər-Razi; Əbu Talib Ubeydullah ibn Əhməd ibn Zeyd əl-Ənbari əl-Vasiti; Əbulfəzl Muhəmməd ibn Əbdullah ibn Muttəlib əş-Şəybani və b.

[125] Hakim Nişapuri, “Mustədrək”, c. III, s. 124.

[126] Xətib Bağdadi, “Tarixi-Bağdad”, c. XIV, s. 221.

[127] Qunduzu əl-Hənəfi, “Yənabiul-məvəddə”, s. 134, hədis-19.

İbn Əbil Hədid Mötəzili “Şərhu-Nəhcul-bəlağə” kitabında əvəzsiz bir cümlə yazmışdır:

“Nə deyim sənin şəxsiyyətin qarşısında ya Əli *(ə)*? Sənin fəzilətlərini amansız düşmənlər qəlblərində yatan kin-küdurətdən, dostların isə qorxudan gizlətdilər. Bununla belə, sənin fəzilətlərini sayıb qurtarmaq mümkün deyil...”.

Peyğəmbərdən *(s)* nəql olunur:

***“Qiyamət günü Kövsərin kənarında mənim yanıma gələn ilk şəxs hamıdan əvvəl iman gətirən Əli olacaq”***.[128]

Bürəydə rəvayət edir ki, Peyğəmbər *(s)* buyurmuşdur:

***“Allah mənə dörd nəfəri sevməyi əmr etdi. Özünün də onları sevdiyini mənə bəyan etdi”***.

Bundan sonra deyildi:

“Ey Allahın Rəsulu *(s)*, bizə onların adlarını bildir”.

Peyğəmbər *(s)* buyurdu:

***“Onlardan biri Əlidir”***.

Rəsulullah bunu 3 dəfə təkrarladı, sonra buyurdu:

***“Digərləri isə Əbuzər, Miqdad və Salmandır”***.[129]

İndi isə İmam Əlinin *(ə)* dediyi bəzi hədislərə nəzər salaq.

Həzrət Əli ibn Əbu Talib *(ə)* belə buyurmuşdur:

***“Elm öyrənin, onunla həqiqətləri tanıyın, onunla əməl edin ki, elm ərbabı olasınız. Lakin sizdən sonra elə bir zaman gələcəkdir ki, o zamanda haqqın onda doqquzu inkar ediləcəkdir. O zamanda ancaq tövbə edib Allaha yönələn kimsələr qurtaracaqlar. Onlar da hidayət rəhbəri imamlar və elm sahibi kimsələrdir.***

***Diqqət edin! Dünya arxasını döndərib getmək üzrədir, Axirət isə sizə doğru gəlməkdədir. Dünyanın da, Axirətin də oğulları vardır. Siz Axirət oğulları olun, dünya oğullarından olmayın.***

***Diqqət edin! Dünyada zahid olan kimsələr özlərinə Yer üzünü sərgi, torpağı döşək, suyu da ətir etdilər. Atəşdən qor-***

---

[128] İbn Əbdulbirr, “əl-İstiab”; İbn Əbil Hədid “Şərhu-Nəhcul-bəlağə”; Hakim Nişapuri “əl-Mustədrək” kitablarında nəql edirlər.

[129] “Sünəni-Tirmizi”, hədis-3718.

***xan kimsə haramlardan uzaq durar. Cənnəti istəyən kimsə itaətə yönələr. Dünyada zahid olan kimsə müsibətlərə önəm verməz.***

***Diqqət edin! Allahın necə qulları vardı ki, cənnətlikləri Cənnətdə əbədi olaraq görmüşdülər. Cəhənnəmlikləri də Cəhənnəm atəşində əzablanmış olaraq görürlər. Allahın bu qullarının şərindən əmin olunar. Qəlbləri hüzünlü, nəfsləri iffətli, ehtiyacları azdır. Gecələri isə ayaqlarını saf halında düzüb namaz qılarlar. Cəhənnəm atəşindən azad edilmək üçün Allaha yalvarıb-yaxarar və yüksək səslə dua edərlər”***.

Səd ibn Übeyd, Cadə ibn Hübeyrənin Həzrət Əliyə *(ə)* belə dediyini rəvayət etmişdir:

“Ya Əmirəl-möminin *(ə)*! Sənin yanına iki adam gəlir. Sən onlardan birinə öz ailəsindən və malından daha yaxınsan. Digərinə gəlincə isə o, əgər güc çatdıra bilərsə, səni öldürər. Amma sən sənə düşmən olan kimsənin lehinə və səni sevən kimsənin əleyhinə hökm verirsən. Bu necə işdir?”

Həzrət Əli *(ə)* Cadə ibn Hübeyrəni itələdi və buyurdu:

***“Əgər bu, mənim öhdəmdə olsaydı sənin istədiyin kimi hökm verərdim. Amma bu, Allahın ixtiyarında olan bir şeydir”***.

Əbu Haşim, Zazanın belə dediyini rəvayət etmişdir:

“Həzrət Əli *(ə)* xəlifə olduğu zaman küçələrdə təkbaşına gedərdi. Yolunu itirənlərə yol göstərər, zəiflərə kömək edər, dükanlara gedər və Qurani-Kərimi açıb satıcılara bu ayəni oxuyardı:

***“Biz bu Axirət yurdunu Yer üzündə təkəbbürlük etməyənlərə və fitnə-fəsad törətməyənlərə qismət edərik. (Ən gözəl) aqibət ancaq Allahdan qorxub pis əməllərdən çəkinənlərindir!”***[130]

Sonra da belə buyurardı:

***“Bu ayə ədalət və təvazö sahibi idarəçilər və qüdrət sahibi digər insanlar haqqında nazil olmuşdur”***.

İbn Əsakirdən rəvayət olunduğuna görə, bir nəfər Həzrət Əliyə *(ə)* belə dedi:

“Allah sənə səbat versin”.

---

[130] “əl-Qəsəs”, 28/83.

Həzrət Əli *(ə)* buyurdu:

***"Sənin sinən üzərində mənə səbat versin"***.

Şairin biri Həzrət Əli *(ə)* üçün bu şeiri söyləmişdir:

***"Ölümlü olan kimsənin alçaq könüllü olması lazımdır.***

***Kişiyə dünyada qıt qənaət keçirə biləcəyi bir ruzi kifayətdir.***

***Kişi söyləyə bilinməyəcək dərəcədə kədər sahibi olmamalıdır.***

***Rəbbimizin etdikləri çox gözəldir.***

***Onun təqdir etdiyi ruzilər əlimizdən qaçan deyildir.***

***Ey adam! Yaxında sən danışmaları səssizlik olan bir qövmün yanına köçüb gedəcəksən (ölülər arasına qarışacaqsan)".***[131]

Həzrət Əli *(ə)* buyurmuşdur:

***"Dünya bir cəfadır. Ondan bir şey istəyən itlərlə dalaşmağa dözümlü olmalıdır"***.

Əbu Hüreyrə belə demişdir:

"İmam Əli *(ə)* doqquz cümlə ilə tamah və kini kəsib atdı. O cümlələrin üçü münacata, üçü elmə, üçü də ədəbə aiddir...

Münacaata dair olan:

***"Mənə şərəf olaraq Rəbbim yetər. Qulun olmaram, öyünməməyimə kifayət edər. Zatına sevərək sahib çıxıram. Sən də sevdiyin şeydə mənə müvəffəqiyyətlər ehsan elə"***.

Elmə dair qisim:

***"Kişi dilinin altında saxlanmışdır. Onu danışdırın, qiymətindən nələr itirdiyini bilərsiniz"***.

Ədəbə dair qisim:

***"İstədiyinə yaxşılıq et, ağası olarsan. Kimə ehtiyacı olan şeyi bəlli etməzsən onun kimi olarsan. İstədiyinə ehtiyacını bildir, əsiri olarsan"***.

Həzrət Əli *(ə)* buyurur:

***"Allaha and olsun ki, məni yalnız mömin sevər və mənə ancaq münafiq nifrət edər"***.

---

[131] İbn Kəsir, "əl-Bidayə", c. VIII, s. 22.

İmam Əli *(ə)* belə buyurmuşdur:

***"İnsanın yaşlanaraq Rəbbini bildikdən sonra ölməsi, kiçik ikən ölərək hesabsız Cənnətə girməsindən daha xeyirlidir"***;

***"İnsanlar arasında Allahı ən yaxşı bilən tövhid əhlini ən çox sevən, hörmət göstərəndir"***.

Bir dəfə dedilər:

"Ya Əmirəl-möminin *(ə)*, sənə gözətçilik edək".

O Həzrət *(ə)* belə buyurdu:

***"Adamın gözətçisi əcəlidir"***.

İmam Əlinin *(ə)* belə bir şeiri də vardır:

***"Bir kimsə mütəvazi gərək, madam öləcək,***
***Dünyasından keçimini alıb yetinəcək...***
***Yaraşırmı ərə, kədərlərlə sabahlamaq,***
***Qarğışların tuta bilməyəcəyi hirsə dalmaq...***
***Ey kimsə, çox yaxında yolçusan yadında saxla;***
***Elə bir topluluğa ki, sözləri sükut..."***.[132]

Əbu Tufeyldən belə rəvayət olunur:

"Həzrət Əli *(ə)* buyurdu:

***"İnsanlar arasında elmə ən yaxın olanlar onların getdiklərini ən yaxşı bilənlərdir"***.

Sonra isə bu ayəni oxudu:

***"Şübhəsiz ki, insanların İbrahimə ən yaxın olanı onun ardınca gedənlər, bu Peyğəmbər (Muhəmməd) və ona iman gətirənlərdir. Allah möminlərin dostudur!"***[133]

Ayədəki ***"bu Peyğəmbər"*** Muhəmməd *(s)*, ***"iman gətirənlər"*** də ona tabe olanlardır. Bu münaqişə olunmayacaq qədər açıqdır, dəyişdirə bilmərik".

İmam Şafeidən (ö. 820) nəql edirlər ki, deyib:

"Əli ibn Əbu Talibin *(ə)* vücudunda elə fəzilət və üstün xüsusiyyətlər cəm olub ki, belə xüsusiyyətlər yalnız barmaqla sayıla biləcək şəxslərdə müşahidə olunur. Onun vücudunda elm və əməl

---

[132] İmam Şarani, "Veliler Anisklopedisi", Erkam Yayınları, İstanbul, 2000, c. I, s. 60-62.
[133] "Ali İmran", 3/68.

öz kamal həddində birləşib. Çox az alim var ki, elmi miqdarında əməli olsun. İmam Əli *(ə)* həm fəqir, həm də kamil səxavətə malik idi, şücaət və incə qəlbli, zahid və xoş əxlaqlı, iftixarlı və təvazökar idi. O Həzrət *(ə)* yüksək əsil-nəcabətə malik olub. Bu sifətlər çox nadir insanlarda bir araya gəlib".

Burada Peyğəmbərin *(s)* İmam Əlinin *(ə)* haqqında məşhur səhabəsi Hüzeyfə ibn Yəmana etdiyi nəsihət diqqətimizi xüsusi şəkildə cəlb etdiyindən həmin hədisi qeyd edirik. Belə ki, Peyğəmbər *(s)* buyurmuşdur:

***"Ey Hüzeyfə! Məndən sonra Allahın sizə olan höccəti Əli ibn Əbu Talibdir. Onu tanımamaq Allahı tanımamaqdır. Xilafət məsələsində ona şərik qərar vermək Allaha qarşı şirkdir. Onun barəsində şəkk etmək Allah barəsində şəkk etməkdir. Ondan üz döndərmək Allahdan üz döndərməkdir. Onu inkar etmək Allahı inkar etməkdir. Ona etiqadlı olmaq Allaha mötəqid olmaqdır. O, Peyğəmbərinizin qardaşı və vəsisi, ümmətin imamı, haqqa qovuşmaqdan ötrü vasitə, möhkəm və qırılmaz tutacaqdır. Tezliklə onunla əlaqədar olan iki dəstə həlak olacaq və təqsir də onda olmayacaq; ifrata varan dostlar və təfritə varan düşmənlər.***

***Ey Hüzeyfə! Əlidən əl çəkmə. Əgər belə etsən məndən ayrılmış olarsan. Onunla müxalifət etsən mənimlə müxalifət etmisən. Əli məndəndir, mən də Əlidənəm, qəzəbi mənim qəzəbim, razılığı mənim razılığımdır".***[134]

İmam Əlinin *(ə)* kimliyini və İslamdakı yerini bilmək üçün o Həzrətin *(ə)* mübarək kəlamını öz dilindən eşidək:

***"...Peyğəmbər müqabilində necə bir mərtəbəyə yüksəldiyimi, ona nə qədər yaxın olduğumu bilirsiniz. Uşaq ikən o məni bağrına basardı, üzünü üzümə sürtər, məni qoxlardı... O, hər gün xasiyyətlərindən birini mənə öyrədər və ona qulaq asmağımı istəyərdi. Hər il Hira dağına çəkilər, qulluğa başlayardı. Başqası görməsə də mən onu görürdüm. O gün İslam Peyğəmbəri Xədicədən başqasının evində deyildi və mən onla-***

---

[134] Əllamə Məclisinin "Biharul-ənvar" əsərinə istinadən.

***rın üçüncüsü idim. Vəhy və peyğəmbərlik nurunu görürdüm, peyğəmbərlik qoxusunu duyurdum. Ona vəhy gələrkən acı bir fəryad eşitdim və soruşdum:***

***Ya Rəsulallah bu fəryad nədir?***

***Peyğəmbər buyurdu:***

***"Bu fəryad edən Şeytandır. Sən mənim eşitdiyimi eşidir, gördüyümü görürsən. Ancaq sən peyğəmbər deyilsən".***[135]

İmam Əli *(ə)* qiyamətə qədər olan bütün xəbərlərə vaqifdir. Məşhur İslam alimi Əllamə Muhəmməd Bağır Məclisi "Biharul-ənvar" əsərində yazır:

"Peyğəmbərin *(s)* Əliyə *(ə)* yazdırdığı "Camia" adlı səhifədə insanların möhtac olduğu hər şey, Qiyamətə qədər baş verəcək hadisələr, bütün halal və haramlar, hətta cənnətdəkilərin isimləri belə yazılıdır. Çürüməsi və aradan getməsi mümkün olmayan bu səhifə Həzrət Əli *(ə)* vasitəsilə imamlara *(ə)* intiqal edilmişdir.

Peyğəmbərə *(s)* Merac gecəsi verilən, ondan da Həzrət Əliyə *(ə)* və imamlara *(ə)* intiqal edilən "Divanüş-şiə" adlı bir kitabda da bu cür məlumatlar mövcuddur. İmam Cəfər Sadiqin *(ə)* yanındakı "əl-Cufrul-əbyəz" adlı əsərdə Zəbur, Tövrat, İncil, Həzrət İbrahimə *(ə)* verilən səhifələr və Xanım Fatimənin *(ə)* müshəfi vardır".[136]

İndi isə Əllamə Muhəmməd Bağır Məclisinin "Biharul-ənvar" əsərində İmam Əlinin *(ə)* fəzilətlərinə aid "Mənaqibu Əli ibn Əbu Talib *(ə)*" adlı fəsildə qeyd etdiyi hədisləri təqdim edirik. Bu hədislərdə İmamın *(ə)* onlarla fəzilət və üstünlükləri sadalanmışdır.

**١ - الإحتجاج :قال سليم بن قيس :حدثني سلمان والمقداد وحدثنيه بعد ذلك أبو ذرثم سمعته من علي بن أبي طالب عليه السلام قالوا :إن رجلا فاخر علي بن أبي طالب عليه السلام، فقال رسول الله لما سمع به لعلي عليه السلام :فاخر العرب، فأنت فيهم أكرمهم ابن عم، وأكرمهم صهرا، وأكرمهم نفسا، وأكرمهم زوجة، وأكرمهم أخا، وأكرمهم عما، وأكرمهم ولدا، وأعظمهم حلما، وأكثرهم علما، وأقدمهم سلما، وأعظمهم عناء بنفسك ومالك، وأنت أقرأهم لكتاب الله، وأعلمهم بسنتي، و أشجعهم**

135 "Nəhcul-bəlağə", Tehran çapı,1995, səh. 133.

136 Əllamə Məclisi, "Biharul-ənvar", c. XXVI, səh. 509, 511.

لقاء، وأجودهم كفا، وأزهدهم في الدنيا، وأشدهم اجتهادا، وأحسنهم خلقا، وأصدقهم لسانا، وأحبهم إلى الله وإلي، وستبقى بعدي ثلاثين سنة تعبد الله وتصبر على ظلم قريش لك، ثم تجاهدهم في سبيل الله إذا وجدت أعوانا، فتقاتل على تأويل القرآن كما قاتلت معي على تنزيله، ثم تقتل شهيدا تخضب لحيتك .من دم رأسك، قاتلك يعدل عاقر الناقة في البغض إلى الله والبعد منه.

٢ - الإحتجاج :قال سليم بن قيس :سأل رجل علي بن أبي طالب عليه السلام فقال له و أنا أسمع :أخبرني بأفضل منقبة لك، قال :ما أنزل الله في كتابه، قال :وما أنزل فيك؟ قال " :أفمن " كان على بينة من ربه ويتلوه شاهد منه " قال :أنا الشاهد من رسول الله صلى الله عليه وآله وقوله " :ويقول الذين كفروا لست مرسلا قل كفى بالله شهيدا بيني وبينكم ومن عنده علم الكتاب " إياي عنى بمن عنده علم الكتاب - فلم يدع شيئا أنزله الله فيه إلا ذكره، مثل قوله " :إنما وليكم الله ورسوله والذين آمنوا الذين يقيمون الصلاة ويؤتون الزكاة وهم راكعون " وقوله " :أطيعوا الله و أطيعوا الرسول وأولي الأمر منكم " وغير ذلك - قال :قلت :فأخبرني بأفضل منقبة لك من رسول الله صلى الله عليه وآله، فقال :نصبه إياي يوم غدير خم فقام لي بالولاية بأمر الله عز وجل، وقوله : "أنت مني بمنزلة هارون من موسى إلا أنه لا نبي بعدي " وسافرت مع رسول الله صلى الله عليه وآله ليس له خادم غيري، وكان له لحاف ليس له لحاف غيره ومعه عائشة وكان رسول الله صلى الله عليه وآله ينام بيني وبين عائشة ليس علينا ثلاثتنا لحاف غيره، فإذا قام إلى صلاة الليل يحط بيده اللحاف من وسطه بيني وبين عائشة حتى يمس اللحاف الفرش الذي تحتنا، فأخذتني الحمى ليلة فأسهرتني، فسهر رسول الله صلى الله عليه وآله لسهري فبات ليلة بيني وبين مصلاه، يصلي ما قدر له ثم يأتيني ويسألني وينظر إلي فلم يزل ذلك دأبه حتى أصبح، فلما صلى بأصحابه الغداة قال :اللهم اشف عليا وعافه فإنه أسهرني الليلة مما به، ثم قال رسول الله صلى الله عليه وآله بمسمع من أصحابه :ابشر يا علي، قلت :بشرك الله بخير يا رسول الله وجعلني فداك، قال :إني لم أسأل الله الليلة شيئا إلا أعطانيه ولم أسأله لنفسي شيئا إلا سألت لك مثله، وإني دعوت الله أن، يواخي بيني وبينك ففعل، وسألته أن يجعلك ولي كل مؤمن ومؤمنة ففعل فقال رجلان أحدهما لصاحبه :أرأيت ما سأل؟ فوالله لصاع من تمر خير مما سأل، ولو كان سأل ربه أن ينزل عليه ملكا يعينه على عدوه أو ينزل عليه كنزا ينفعه و .أصحابه فإن بهم حاجة كان خيرا مما سأل !وما دعا عليا قط إلى خير إلا استجيب له.

٣ - معاني الأخبار :أبي، عن المؤدب، عن أحمد بن علي، عن الثقفي، عن الحكم بن سليمان، عن يحيى بن يعلى الأسلمي، عن الحسين بن زيد الخرزي ٥، عن شداد البصري، عن عطاء بن أبي رياح، عن أنس بن مالك قال :قال رسول الله صلى الله عليه وآله:لما عرج بي إلى السماء إذا أنا بأسطوانة أصلها من فضة بيضاء ووسطها من ياقوتة و زبرجد وأعلاها ذهبة حمراء ، فقلت :يا جبرئيل ما

هذه؟ فقال :هذا دينك أبيض واضح مضئ، قلت :وما هذا وسطها؟ قال :الجهاد، قلت :فما هذه الذهبة .الحمراء؟ قال :الهجرة، ولذلك علا إيمان علي على إيمان كل مؤمن.

٤ ـ أمالي الطوسي :المفيد، عن أحمد بن الوليد، عن أبيه، عن سعد، عن أيوب بن نوح، عن صفوان، عن أبان بن عثمان، عن أبي عبد الله جعفر بن محمد عليهما السلام قال:إذا كان يوم القيامة نادى مناد من بطنان العرش :أين خليفة الله في أرضه؟ فيقوم داود النبي عليه السلام فيأ تي النداء من عند الله عز وجل :لسنا إياك أردنا وإن كنت لله تعالى خليفة ثم ينادي ٤ ثانية :أين خليفة الله في أرضه، فيقوم أمير المؤمنين علي بن أبي طالب عليه السلام فيأتي النداء من قبل الله عز وجل :يا معشر الخلائق هذا علي بن أبي طالب خليفة الله في أرضه وحجته على عباده، فمن تعلق بحبله في دار الدنيا فليتعلق بحبله في هذا اليوم يستضئ بنوره وليتبعه إلى الدرجات العلى من الجنات قال : فيقوم الناس الذين قد تعلقوا بحبله في الدنيا فيتبعونه إلى الجنة، ثم يأتي النداء من عند الله جل جلاله :ألا من ائتم بإمام في دار الدنيا فليتبعه إلى حيث يذهب به، فحينئذ " تبرأ الذين اتبعوا من الذين اتبعوا ورأوا العذاب وتقطعت بهم الأسباب وقال الذين اتبعوا :لو أن لناكرة فنتبرأ منهم كما تبرؤوا منا كذلك . يريهم الله أعمالهم حسرات عليهم وما هم بخارجين من النار .

٥ ـ أمالي الصدوق :ابن إدريس، عن أبيه، عن ابن هاشم، عن محمد بن سنان، عن أبي الجارود، عن ابن جبير، عن ابن عباس قال :قال رسول الله صلى الله عليه وآله : ولاية علي بن أبي طالب ولاية الله، وحبه عبادة الله، واتباعه فريضة الله، وأولياؤه أولياء الله، و .أعداؤه أعداء الله، وحربه حرب الله، وسلمه سلم الله عز وجل.

٦ ـ أمالي الصدوق :ابن البرقي، عن أبيه، عن جده، عن سليمان بن مقبل، عن موسى ابن جعفر، عن آبائه، عن أمير المؤمنين صلوات الله عليهم قال :دخلت على رسول الله صلى الله عليه وآله وهو في مسجد قبا وعنده نفر من أصحابه، فلما بصر بي تهلل وجهه وتبسم حتى نظرت إلى بياض أسنانه تبرق، ثم قال :إلي يا علي إلي يا علي، فما زال يدنيني حتى ألصق فخذي بفخذه، ثم أقبل على أصحابه فقال :معاشر أصحابي أقبلت إليكم الرحمة بإقبال علي أخي إليكم، معاشر أصحابي إن عليا مني وأنا من علي، روحه من روحي وطينته من طينتي، وهو أخي ووصيي وخليفتي على أمتي في حياتي وبعد موتي، من أطاعه أطاعني ومن وافقه وافقني . ومن خالفه خالفني.

٧ ـ أمالي الصدوق :حمزة العلوي، عن علي، عن أبيه، عن ابن معبد، عن ابن خالد، عن الرضا، عن آبائه عليهم السلام قال :قال رسول الله صلى الله عليه وآله :يا علي أنت أخي ووزيري وصاحب لوائي في الدنيا والآخرة، وأنت صاحب حوضي، من أحبك أحبني ومن أبغضك .أبغضني.

٨ - أمالي الصدوق :أحمد بن محمد بن حمدان، عن محمد بن عبد الرحمن الصفار، عن محمد بن

عيسى الدامغاني، عن يحيى بن المغيرة، عن جرير، عن الأعمش، عن عطية، عن أبي سعيد الخدري قال :قال رسول الله صلى الله عليه وآله :ليلة أسري بي إلى السماء أخذ جبرئيل بيدي فأدخلني الجنة وأجلسني على در نوك من درانيك الجنة، فناولني سفر جلة فانفلقت بنصفين، فخرجت منها حوراء كأن أشفار عينها مقاديم النسور، فقالت : السلام عليك يا أحمد السلام عليك يا رسول الله السلام عليك يا محمد، فقلت: من أنت يرحمك الله؟ قالت :أنا الراضية المرضية، خلقني الجبار من ثلاثة أنواع :أسفلي من المسك وأعلاي من الكافور ووسطي من العنبر، وعجنت بماء الحيوان، قال الجليل : كوني فكنت، خلقت لابن عمك ووصيك ووزيرك علي بن

.أبي طالب

٩ - أمالي الصدوق :أبي، عن سعد، عن عباد بن سليمان، عن محمد بن سليمان، عن أبيه سليمان الديلمي، عن عمر بن الحارث، عن عمران بن ميثم، عن أبي سخيلة قال أتيت أبا ذر - رحمة الله عليه - فقلت :يا أبا ذر إني قد رأيت اختلافا فما ذا تأمرني؟ قال : عليك بهاتين الخصلتين :كتاب الله والشيخ علي بن أبي طالب، فإني سمعت رسول الله صلى الله عليه وآله يقول :هذا أول من آمن بي وأول من يصافحني يوم القيامة، .وهو الصديق الأكبر، وهو الفاروق الذي يفرق بين الحق والباطل.

١٠ - أمالي الصدوق :ابن الوليد، عن الصفار، عن ابن عيسى، عن علي بن الحكم، عن عامر بن معقل، عن الثمالي، عن أبي جعفر عليه السلام قال :قال لي :يا با حمزة لا تضعوا عليا دون ما وضعه الله ولا ترفعوا عليا فوق ما رفعه الله، كفى بعلي أن يقاتل أهل .الكرة وأن يزوج أهل الجنة .

١١ - أمالي الصدوق :الطالقاني، عن الحسن بن علي العبدي، عن أحمد بن عبد الله الجارودي، عن محمد بن عبد الله، عن أبي الجارود، عن أبي الهيثم، عن أنس بن مالك قال :قال رسول الله صلى الله عليه وآله :إن الله تبارك وتعالى يبعث أناسا وجوههم من نور، على كراسي من نور، عليهم ثياب من نور، في ظل العرش، بمنزلة الأنبياء وليسوا بالأنبياء، وبمنزلة الشهداء وليسوا بالشهداء، فقال رجل :أنا منهم يا رسول الله؟ قال :لا، قال آخر :أنا منهم يا رسول الله؟ قال :لا، قيل :من هم يا رسول الله؟ قال : فوضع يده على رأس علي وقال :هذا وشيعته.

١٢ - أمالي الصدوق :عبد الله بن محمد الصائغ، عن محمد بن عيسى الوسقندي، عن أبيه عن إبراهيم بن ديزيل، عن الحكم بن سليمان، عن علي بن هاشم، عن مطير بن ميمون، عن أنس، عن سلمان - رضي الله عنه - أنه سمع نبي الله صلى الله عليه وآله يقول :إن أخي ووزيري وخير من أخلفه بعدي علي بن أبي طالب.

١٣ ـ أمالي الصدوق :المكتب، عن الحسن بن علي العدوي، عن الهيثم بن عبد الله، عن المأمون، عن الرشيد، عن المهدي، عن المنصور، عن أبيه، عن جده، عن ابن . عباس قال :قال رسول الله صلى الله عليه وآله لعلي عليه السلام :أنت وارثي.

١٤ ـ أمالي الصدوق :ابن إدريس، عن أبيه، عن الأشعري، عن ابن هاشم، عن عمرو بن عثمان، عن محمد بن عذافر، عن أبي حمزة، عن علي بن الخرور، عن القاسم بن أبي سعيد قال :أتت فاطمة عليها السلام النبي صلى الله عليه وآله فذكرت عنده ضعف الحال، فقال لها:أما تدرين ما منزلة علي عندي؟ كفاني أمري وهو ابن اثنتي عشرة سنة، وضرب بين يدي بالسيف وهو ابن ست عشرة سنة، وقتل الابطال وهو ابن تسع عشرة سنة، و فرج همومي وهو ابن عشرين سنة، ورفع باب خيبر وهو ابن اثنين وعشرين سنة ٤وكان لا يرفعه خمسون رجلا، قال :فأشرق لون فاطمة عليها السلام ولم تقر قدماه حتى .أتت عليا عليه السلام فأخبرته، فقال :كيف لو حدثك بفضل الله علي كله؟.

١٥ ـ أمالي الصدوق :أبي، عن الحميري، عن ابن عيسى، عن أبيه، عن يونس، عن منصور الصيقل، عن الصادق، عن آبائه عليهم السلام قال ::قال رسول الله صلى الله عليه وآله :لما أسري بي إلى السماء عهد إلي ربي في علي ثلاث كلمات، فقال :يا محمد ! فقلت :لبيك . ربي، فقال :إن عليا إمام المتقين وقائد الغر المحجلين ويعسوب المؤمنين.

١٦ ـ أمالي الصدوق :ابن موسى، عن ابن زكريا القطان، عن ابن حبيب، عن عمر بن عبد الله، عن الحسن بن الحسين بن عاصم، عن عيسى بن عبد الله العلوي، عن أبيه عن جده، عن علي عليه السلام قال :حدثني سلمان الخير رضي الله عنه قال :يا أبا الحسن قلما أقبلت أنت وأنا عند رسول الله صلى الله عليه وآله إلا قال :يا سلمان هذا وحزبه هم المفلحون .يوم القيامة.

١٧ ـ أمالي الصدوق :ابن موسى، عن ابن زكريا، عن ابن حبيب، عن عبد الرحيم بن علي الجبلي، عن الحسن بن نضر، عن عمر بن طلحة، عن أسباط بن نضر، عن سماط ابن حرب، عن سعيد بن جبير قال :أتيت عبد الله بن عباس فقلت له :يا ابن عم رسول الله إني جئتك أسألك عن علي بن أبي طالب واختلاف الناس فيه، فقال ابن عباس :يا ابن جبير جئتني تسألني عن خير خلق الله من الأمة بعد محمد نبي الله، جئتني تسألني عن رجل كانت له ثلاثة آلاف منقبة في ليلة واحدة وهي ليلة القربة، يا ابن جبير جئتني تسألني عن وصي رسول الله ووزيره وخليفته وصاحب حوضه ولوائه وشفاعته، والذي نفس ابن عباس بيده لو كانت بحار الدنيا مدادا والأشجار أقلاما وأهلها كتابا فكتبوا مناقب علي بن أبي طالب وفضائله من يوم خلق الله .عز وجل الدنيا إلى أن يفنيها ما بلغوا معشار ما آتاه الله تبارك وتعالى.

١٨ ـ أمالي الطوسي :ابن الصلت، عن ابن عقدة، عن أحمد بن يحيى، عن عبيد الله بن موسى، عن فطر، عن أنس قال :قال رسول الله صلى الله عليه وآله :إن أخي ووزيري ووصيي
.في أهلي علي بن أبي طالب

١٩ - الخصال :أحمد بن محمد بن إسحاق الدينوري، عن محمد بن عبد الحميد الفرقاني عن أحمد بن بديل، عن مفضل بن صالح، عن سماك بن حرب، عن عكرمة، عن ابن عباس قال :كان لعلي عليه السلام أربع مناقب لم يسبقه إليها عربي :كان أول من صلى مع رسول الله صلى الله عليه وآله وكان صاحب رايته في كل زحف، وانهزم الناس يوم المهراس . وثبت هو، وغسله وأدخله قبره.

٢٠ - الخصال :أحمد بن محمد بن إسحاق، عن عبد الله بن صالح البخاري، عن يعقوب ابن حميد، عن سفيان بن عيينة، عن أبي نجيح، عن أبيه، عن ربيعة الحرسي أنه ذكر عليا عند معاوية وعنده سعد بن أبي وقاص، فقال له سعد :تذكر عليا؟ أما إن له مناقب أربع لان تكون لي واحدة منها أحب إلي من كذا وكذا – وذكر حمر النعم قوله " :لا عطين الراية غدا " وقوله " :أنت مني بمنزلة هارون من موسى ." وقوله " :من كنت مولاه فعلي مولاه " ونسي سعد الرابعة !

٢١ - الخصال :أبو العباس الفضل بن الفضل الكندي، عن محمد بن الضحاك، عن مجاهد النبال ، عن سليمان بن فرحان، عن عبد الله بن أبي سليمان، عن محمد بن عبد الرحمن، عن ابن أبي سليمان، عن عطية، عن أبي سعيد الخدري، عن النبي صلى الله عليه وآله قال :أعطيت في علي خمسا، أما واحدة فيواري عورتي، وأما الثانية فيقضي ديني وأما الثالثة فهو متكأ لي يوم القيامة في طول الموقف، وأما الرابعة فهو عوني على عقر حوضي، وأما الخامسة فإني لا أخاف عليه أن يرجع كافرا بعد إيمان ولا زانيا . بعد إحصان.

٢٢ الخصال :الحسين بن أحمد الاسترآبادي العدل، عن جده، عن محمد بن أحمد الجرجاني، عن إسماعيل، بن أبان، عن زافر بن سليمان، عن إسرائيل، عن عبد الله ابن شريك العامري، عن الحارث بن ثعلبة قال :قلت لسعد :أشهدت شيئا من مناقب علي عليه السلام؟ قال :نعم شهدت له أربع مناقب والخامسة قد شهدتها، لان يكون لي واحدة منهن أحب إلي من حمر النعم :بعث رسول الله صلى الله عليه وآله أبا بكر ببراءة ثم أرسل عليا فأخذها منه، فرجع أبو بكر فقال :يا رسول الله أنزل في شئ؟ قال : لا إنه لا يبلغ عني إلا رجل مني، وسد رسول الله صلى الله عليه وآله أبوابا كانت في المسجد وترك باب علي فقالوا :سددت الأبواب وتركت بابه؟ فقال :ما أنا سددته ولا أنا تركته، قال :و بعث رسول الله صلى الله عليه وآله عمر بن الخطاب ورجلا آخر إلى خيبر فرجعا منهزمين، فقال النبي صلى الله عليه وآله :لا عطين الراية رجلا يحب الله ورسوله ويحبه الله ورسوله – في ثناء كثير - قال :فتعرض لها غير واحد، فدعا عليا عليه السلام فأعطاه الراية فلم يرجع حتى فتح الله له، والرابعة يوم غدير خم أخذ رسول الله صلى الله عليه وآله بيد علي عليه السلام فرفعها حتى رئي بياض آباطهما، فقال النبي صلى الله عليه وآله :ألست أولى بكم من أنفسكم؟ قالوا :بلى قال :فمن كنت مولاه فعلي مولاه، والخامسة خلفه رسول الله صلى الله عليه وآله في أهله ثم لحق .به، فقال له :أنت مني بمنزلة هارون من موسى إلا أنه لا نبي بعدي .

٢٣ ـ الخصال :الأشناني، عن جده، عن محمد بن الغفار، عن عبد الله بن صالح عن إسرائيل، عن حكيم بن جبير، عن مجاهد، عن عبد الله بن شداد، عن ابن عباس قال : كانت لعلي عليه السلام ثمانية عشرة منقبة لو لم يكن له إلا واحدة لنجا، و . لقد كانت له ثلاثة عشرة منقبة لم تكن لاحد في هذه الأمة.

٢٤ ـ المحاسن :أبي، عن ابن أبي عمير، عن بعض رجاله قال :قال أبو سعيد الخدري كنت مع النبي صلى الله عليه وآله بمكة إذ ورد عليه أعرابي طويل القامة عظيم الهامة محتزم بكساء وملتحف بعباء قطواني قد تنكب قوسا له وكنانة، فقال للنبي صلى الله عليه وآله :يا محمد أين علي بن أبي طالب من قلبك؟ فبكى رسول الله صلى الله عليه وآله بكاء شديدا حتى ابتلت وجنتاه من دموعه وألصق خده بالأرض، ثم وثب كالمنفلت من عقاله وأخذ بقائمة المنبر، ثم قال :يا أعرابي والذي فلق الحبة وبرأ النسمة وسطح الأرض على وجه الماء لقد سألتني عن سيد كل أبيض وأسود وأول من صام وزكى وتصدق وصلى القبلتين وبايع البيعتين وهاجر الهجرتين وحمل الرايتين وفتح بدرا وحنين ثم لم يعص الله طرفة عين، قال :فغاب الاعرابي من بين يدي رسول الله صلى الله عليه وآله فقال رسول الله صلى الله عليه وآله لأبي سعيد :يا أخا جهينة هل عرفت من كان يخاطبني في ابن عمي علي بن أبي طالب؟ فقال :الله ورسوله أعلم، قال :كان والله جبرئيل هبط من السماء . إلى الأرض ليأخذ عهودكم ومواثيقكم لعلي بن أبي طالب عليه السلام.

٢٥ ـ صحيفة الرضا ع :عن الرضا، عن آبائه عليهم السلام قال :قال رسول الله صلى الله عليه وآله لعلي عليه السلام يا علي إنك سيد المسلمين ويعسوب المؤمنين وإمام المتقين وقائد الغر المحجلين قال أبو القاسم أحمد بن عامر الطائي :سألت أحمد بن يحيى عن اليعسوب فقال .:هو الذكر من النحل الذي يتقدمها ويحامي عنها.

٢٦ ـ كشف اليقين :أحمد بن مردويه، عن أحمد بن محمد الخياط، عن الخضر بن أبان عن أبي هدية إبراهيم، عن أنس بن مالك قال :قال رسول الله صلى الله عليه وآله " : الجنة مشتاقة إلى أربعة من أمتي " فهبت أن أسأله من هم؟ فأتيت أبا بكر فقلت له " : إن النبي رسول الله صلى الله عليه وآله لأبي سعيد :يا أخا جهينة هل عرفت من كان يخاطبني في ابن عمي علي بن أبي طالب؟ فقال :الله ورسوله أعلم، قال :كان والله جبرئيل هبط من السماء .إلى الأرض ليأخذ عهودكم ومواثيقكم لعلي بن أبي طالب عليه السلام.

٢٥ ـ صحيفة الرضا ع :عن الرضا، عن آبائه عليهم السلام قال :قال رسول الله صلى الله عليه وآله لعلي عليه السلام يا علي إنك سيد المسلمين ويعسوب المؤمنين وإمام المتقين وقائد الغر المحجلين قال أبو القاسم أحمد بن عامر الطائي :سألت أحمد بن يحيى ٥ عن اليعسوب فقال .:هو الذكر من النحل الذي يتقدمها ويحامي عنها.

٢٦ ـ كشف اليقين :أحمد بن مردويه، عن أحمد بن محمد الخياط، عن الخضر بن أبان عن أبي هدية إبراهيم، عن أنس بن مالك قال :قال رسول الله صلى الله عليه وآله " :

الجنة مشتاقة إلى أربعة من أمتي " فهبت أن أسأله من هم؟ فأتيت أبا بكر فقلت له " : إن النبي صلى الله عليه وآله قال :إن الجنة تشتاق إلى أربعة من أمتي " فاسأله من هم؟ فقال :أخاف أن لا أكون منهم فيعيرني به بنو تيم، فأتيت عمر فقلت له مثل ذلك فقال :أخاف أن لا أكون منهم فيعيرني به بنو عدي، فأتيت عثمان فقلت له مثل ذلك، فقال :أخاف أن لا أكون منهم فيعيرني به بنو أمية، فأتيت عليا عليه السلام وهو في ناضح له فقلت له :إن النبي صلى الله عليه وآله قال " :إن الجنة مشتاقة إلى أربعة من أمتي " فاسأله من هم؟ فقال :والله لأسألنه، فإن كنت منهم لأحمدن الله عز وجل، وإن لم أكن منهم لأسألن الله أن يجعلني منهم وأودهم، فجاء وجئت معه إلى النبي صلى الله عليه وآله فدخلنا على النبي صلى الله عليه وآله ورأسه في حجر دحية الكلبي، فلما رآه دحية قام إليه وسلم عليه وقال :خذ برأس ابن عمك يا أمير المؤمنين فأنت أحق به ]مني [فاستيقظ النبي صلى الله عليه وآله ورأسه في حجر علي عليه السلام فقال له :يا أبا الحسن ما جئتنا إلا في حاجة قال :بأبي وأمي يا رسول الله دخلت ورأسك في حجر دحية الكلبي فقام إلي و سلم علي وقال :خذ برأس ابن عمك إليك فأنت أحق به مني يا أمير المؤمنين !فقال له النبي صلى الله عليه وآله :فهل عرفته؟ فقال :هو دحية الكلبي، فقال له :ذاك جبرئيل فقال له :بأبي وأمي يا رسول الله أعلمني أنس أنك قلت :إن الجنة مشتاقة إلى أربعة من أمتي فمن هم؟ فأومأ إليه بيده فقال :أنت والله أولهم أنت والله أولهم أنت والله أولهم - ثلاثا - فقال له :بأبي وأمي فمن الثلاثة؟ فقال له :المقداد وسلمان . وأبو ذر.

٢٧ - كشف اليقين :أبو بكر الخوارزمي، عن أبي المظفر عبد الملك بن علي، عن أحمد ابن عمر المقري، عن عاصم بن حسين بن محمد، عن عبد الواحد بن محمد بن عبد الله، عن أحمد بن سعيد، عن محمد بن أحمد بن الحسين، عن خزيمة بن ماهان، عن عيسى بن يونس، عن الأعمش، عن ابن جبير، عن ابن عباس قال :قال رسول الله صلى الله عليه وآله: يأتي الناس يوم القيامة وقتا ما فيه راكب إلا نحن أربعة، فقال العباس بن عبد المطلب عمه :فداك أبي وأمي ومن هؤلاء الأربعة؟ قال :أنا على البراق، وأخي صالح على ناقة الله التي عقرها قومه، وعمي حمزة أسد الله على ناقتي العضباء، وأخي علي بن أبي طالب على ناقة من نوق الجنة، مدبجة الجنبين، عليه حلتان خضر أوان من كسوة الرحمن، على رأسه تاج من نور، لذلك التاج سبعون ألف ركن، على كل ركن ياقوتة حمراء تضئ للراكب مسيرة ثلاثة أيام، وبيده لواء الحمد ينادي " لا إله إلا الله محمد رسول الله " فتقول الخلائق :من هذا؟ نبي مرسل ملك مقرب حامل عرش فينادي مناد من بطنان العرش :ليس بملك مقرب ولا نبي مرسل ولا حامل عرش هذا علي بن أبي طالب وصي رسول رب العالمين وأمير المؤمنين وقائد الغر المحجلين . في جنات النعيم.

٢٨ - كشف اليقين :موفق بن محمد المكي، عن محمد بن الحسين بن علي، عن محمد بن محمد بن عبد العزيز، عن هلال بن محمد بن جعفر، عن محمد بن عمر، عن محمد

بن هارون الهاشمي، عن محمد بن زياد النخعي، عن محمد بن فضيل ٣ بن غزوان، عن غالب الجهني، عن أبي جعفر محمد بن علي، عن أبيه، عن جده عليهم السلام قال : قال علي عليه السلام :قال النبي صلى الله عليه وآله :لما أسري بي إلى السماء ثم من السماء إلى سدرة المنتهى وقفت بين يدي ربي عز وجل فقال] لي :[يا محمد، قلت : لبيك وسعديك، فقال :قد بلوت خلقي فأيهم وجدت أطوع لك؟ قال :قلت :رب عليا، قال : صدقت يا محمد فهل اتخذت لنفسك خليفة يؤدي عنك ويعلم عبادي من كتابي ما لا يعلمون قال :قلت :اختر لي فإن خيرتك خيرتي، قال :قد اخترت لك عليا فاتخذه لنفسك خليفة ووصيا، ونحلته علمي وحلمي، وهو أمير المؤمنين حقا لم ينلها أحد. قبله وليست لاحد بعده، يا محمد علي راية الهدى وإمام من أطاعني ونور أوليائي، و هي الكلمة التي ألزمتها المتقين، من أحبه فقد أحبني ومن أبغضه فقد أبغضني فبشره بذلك يا محمد، فقال النبي صلى الله عليه وآله :قلت :ربي فقد بشرته فقال علي عليه السلام أنا عبد الله وفي قبضته، إن يعاقبني فبذنوبي لم يظلمني شيئا، وإن يتم لي ١ وعدي فالله مولاي، قال صلى الله عليه وآله :قلت :اللهم أجل قلبه واجعل ربيعه الايمان به، قال :قد فعلت ذلك به يا محمد غير أني مختصه بشئ من البلاء لم أخص به أحدا من أوليائي، قال :قلت :ربي أخي وصاحبي، قال :قد سبق في علمي أنه مبتلى، لولا علي لم يعرف . حزبي ولا أوليائي ولا أولياء رسلي.

٢٩ ـ كشف اليقين :موفق بن أحمد المكي، عن الحسن بن أحمد المقري، عن أحمد ابن عبد الله الحافظ، عن أحمد بن جعفر الشامي، عن محمد بن حريز، عن عبد الله بن داهر، عن أبي داهر يحيى المقري، عن الأعمش، عن عباية، عن ابن عباس قال :قال رسول الله صلى الله عليه وآله :هذا علي بن أبي طالب لحمه من لحمي ودمه من دمي، وهو مني بمنزلة هارون من موسى غير أنه لا نبي بعدي .وقال :يا أم سلمة اشهدي واسمعي هذا علي أمير المؤمنين وسيد المسلمين وعيبة علمي وبابي الذي اوتى منه . أخي في الدين وخدني في الآخرة ومعي في السنام الاعلى.

٣٠ ـ كشف اليقين :محمد بن النجار، عن المبارك بن أبي الأزهر، عن أبي العلاء الهمداني وعن عبد الوهاب بن علي، عن أبي العلاء، عن الحسن بن أحمد المقري، عن أحمد بن عبد الله الحافظ، عن محمد بن أحمد بن علي، عن محمد بن عثمان بن أبي شيبة، عن إبراهيم بن محمد بن ميمون، عن علي بن عباس، عن الحارث بن حصيرة، عن القاسم بن حيدر عن أنس قال :قال رسول الله صلى الله عليه وآله :يا أنس أسكب لي وضوءا، ثم قام فصلى ركعتين ثم قال :يا أنس أول من يدخل من هذا الباب أمير المؤمنين وسيد المسلمين وقائد الغر المحجلين وخاتم الوصيين، قال :قلت :اللهم اجعله رجلا من الأنصار وكتمته إذ جاء علي عليه السلام، فقال :من هذا يا أنس؟ فقلت :علي فقام مستبشرا فاعتنقه ثم جعل يمسح عرق وجهه] على وجهه [ويمسح عرق وجه علي على وجهه، فقال :يا رسول الله لقد رأيتك صنعت شيئا ما صنعت بي قبل، قال :وما يمنعني وأنت تؤدي . عني وتسمعهم صوتي وتبين لهم ما اختلفوا فيه من بعدي.

٣١ - كشف اليقين :مسعود بن ناصر بن أبي زيد، عن أحمد بن محمد بن أحمد البزاز، عن الحسين بن هارون بن محمد، عن أحمد بن محمد بن سعيد، عن محمد بن محمد بن علي الشروطي قال :حدثنا أبو الحسين محمد بن عمرو أبو عبد الله الحسين بن مروان بن محمد وأبو محمد عبد الله ابن محمد القاضي، قالوا :أخبرنا أحمد بن محمد بن سعيد، عن محمد بن الفضل بن إبراهيم عن أبيه، عن مثنى بن القاسم الحضرمي، عن هلال بن أيوب الصيرفي، عن أبي كثير الأنصاري، عن عبد الله بن أسعد بن زرارة، عن أبيه قال :قال رسول الله صلى الله عليه وآله :من كنت مولاه فعلي مولاه " فهذا آخر حديث البزاز ٣، وزاد الشروطي في رواياته :وقال رسول الله صلى الله عليه وآله :أوحي إلي في علي ثلاث :إنه أمير المؤمنين وسيد المسلمين وقائد الغر المحجلين.

٣٢ - كشف اليقين :علي بن محمد القزويني، عن محمد بن الحسين، عن ابن محبوب، عن أبي حمزة الثمالي، عن أبي إسحاق، عن أبي بشر الغفاري ، عن أنس بن مالك قال :كنت خادما لرسول الله صلى الله عليه وآله وكانت ليلة أم حبيبة بنت أبي سفيان،فأتيت رسول الله صلى الله عليه وآله بوضوء، فقال :يا أنس يدخل عليك من هذا الباب أمير المؤمنين و خير الوصيين أقدم الناس سلما وأكثر الناس حلما وأرجح الناس حلما، قلت :اللهم اجعله من قومي، فلم ألبث أن دخل علي بن أبي طالب صلوات الله عليه من الباب ورسول الله يتوضأ ويرد الماء على وجه علي حتى امتلأت عيناه من الماء، فقال لرسول الله صلى الله عليه وآله :هل حدث في حدث؟ قال رسول الله صلى الله عليه وآله :ما حدث فيك يا علي إلا خير، يا علي أنا منك وأنت مني، تؤدي عني وتفي بذمتي وتغسلني وتواريني في لحدي وتسمع الناس عني وتبين لهم من بعدي، فقال له علي :يا رسول الله .أو ما بلغت؟ قال :بلى، تبين لهم ما يختلفون فيه بعدي.

٣٣ - كشف اليقين :محمد بن جرير، عن ناقد بن إبراهيم، عن زكريا بن يحيى، عن الهيثم بن جابر، عن أيوب بن يونس، عن الحصين بن سالم، عن أم سلمة رضي الله عنها قالت :كان النبي صلى الله عليه وآله عليلا وكان علي بن أبي طالب يحب أن لا يسبقه إليه أحد فغدا إليه ذات يوم وهو في صحن داره فإذا رأسه في حجر دحية بن خليفة الكلبي فسلم عليه، فرد عليه السلام ثم قال :يا حبيبي ادن مني لك عندي مدحة نزفها إليك :أنت أمير المؤمنين وقائد الغر المحجلين وسيد ولد آدم يوم القيامة ما خلا النبيين والمرسلين، لواء الحمد بيدك، تزف أنت وشيعتك معي زفا، قد أفلح من تولاك وخاب وخسر من تخلاك، محبو محمد محبوك ومبغضو محمد مبغضوك لن تنالهم شفاعتي !ادن مني، قال :فأخذ رأس النبي صلى الله عليه وآله فوضعه في حجره .قال السيد:

٣٤ - الإرشاد :محمد بن المظفر البزاز، عن عمر بن عبد الله بن عمران، عن أحمد بن بشير، عن عبد الله بن موسى، عن قيس، عن أبي هارون قال :أتيت أبا سعيد الخدري

فقلت له :هل شهدت بدرا؟ قال :نعم، قال :سمعت رسول الله صلى الله عليه وآله يقول لفاطمة عليها السلام وقد جاءته ذات يوم تبكي وتقول :يا رسول الله عيرتني نساء قريش بفقر علي، فقال لها النبي صلى الله عليه وآله :أما ترضين يا فاطمة أني زوجتك أقدمهم سلما و أكثرهم علما، إن الله تعالى اطلع إلى أهل الأرض اطلاعة فاختار منهم أباك فجعله نبيا، واطلع إليهم ثانية فاختار منهم بعلك فجعله وصيا، وأوحى الله إلي أن أنكحك إياه، أما علمت يا فاطمة أنك لكرامة الله إياك زوجك أعظمهم حلما و أكثرهم علما وأقدمهم سلما؟ فضحكت فاطمة عليها السلام واستبشرت، فقال رسول الله صلى الله عليه وآله :يا فاطمة إن لعلي ثمانية أضراس قواطع لم يجعل الله لاحد من الأولين والآخرين مثلها :هو أخي في الدنيا والآخرة وليس ذلك لاحد من الناس وأنت يا فاطمة سيدة نساء أهل الجنة زوجته، وسبطا الرحمة سبطاي ولده ، وأخوه المزين بالجناحين في الجنة يطير مع الملائكة حيث يشاء، وعنده علم الأولين و الآخرين، وهو أول من آمن بي وآخر الناس عهدا بي، وهو وصيي ووارث الوصيين.

٣٥ - الإرشاد :روى محمد بن أيمن، عن أبي حازم مولى بن عباس قال :قال رسول الله صلى الله عليه وآله لعلي بن أبي طالب عليه السلام :يا علي إنك تخاصم فتخصم بسبع خصال ليس لأحد مثلهن :أنت أول المؤمنين معي إيمانا، وأعظمهم جهادا وأعلمهم بأيام الله، وأوفاهم بعهد الله، وأرأفهم بالرعية، وأقسمهم بالسوية، وأعظمهم . عند الله مزية.

٣٦ - كشف اليقين :عن أبي جعفر بن بابويه برجال المخالفين رويناه من كتابه كتاب أخبار الزهراء، عن محمد بن الحسن بن سعيد، عن فرات بن إبراهيم، عن محمد بن علي الهمداني، عن أبي الحسن بن خلف بن موسى، عن عبد الاعلى الصنعاني عن عبد الرزاق، عن معمر، عن أبي يحيى، عن مجاهد، عن ابن عباس قال :لما زوج رسول الله صلى الله عليه وآله عليا فاطمة عليهما السلام تحدثن نساء قريش وغيرهن وعيرنها و قلن :زوجك رسول الله من عائل لا مال له، فقال لها رسول الله صلى الله عليه وآله :يا فاطمة أما ترضين أن الله تبارك وتعالى اطلع اطلاعة إلى الأرض فاختار منها رجلين أحدهما أبوك والآخر بعلك؟ يا فاطمة كنت أنا وعلي نورا بين يدي الله مطيعين من قبل أن يخلق الله آدم عليه السلام بأربعة عشر ألف عام، فلما خلق آدم قسم ذلك النور جزئين :جزء أنا وجزء علي، ثم إن قريشا تكلمت في ذلك وفشا الخبر فبلغ النبي صلى الله عليه وآله فأمر بلالا فجمع الناس وخرج إلى مسجده ورقا منبره يحدث الناس بما خصه الله تعالى من الكرامة وبما خص به عليا وفاطمة عليهما السلام، فقال : يا معشر الناس إنه بلغني مقالتكم، وإني محدثكم حديثا فعوه واحفظوه مني واسمعوه، فإني مخبركم بما خص الله به أهل البيت وبما خص به عليا من الفضل والكرامة وفضله عليكم فلا تخالفوه فتنقلبوا على أعقابكم ومن ينقلب على عقبيه فلن يضر الله شيئا وسيجزي الله الشاكرين.

معاشر الناس إن الله قد اختارني من خلقه فبعثني إليكم رسولا واختار لي عليا خليفة ووصيا، معاشر الناس إني لما أسري بي إلى السماء وتخلف عني جميع من كان معي من ملائكة السماوات وجبرئيل والملائكة المقربين ووصلت إلى حجب ربي دخلت سبعين ألف حجاب، بين كل حجاب إلى حجاب من حجب العزة و القدرة والبهاء والكرامة والكبرياء والعظمة والنور والظلمة والوقار، حتى وصلت إلى حجاب الجلال فناجيت ربي تبارك وتعالى وقمت بين يديه وتقدم إلي عز ذكره بما أحبه وأمرني بما أراد، لم أسأله لنفسي شيئا في علي إلا أعطاني، ووعدني الشفاعة في شيعته وأوليائه .
ثم قال لي الجليل جل جلاله :يا محمد من تحب من خلقي؟ قلت :أحب الذي تحبه أنت يا ربي، فقال لي جل جلاله :فأحب عليا فإني أحبه وأحب من يحبه، فخررت لله ساجدا مسبحا شاكرا لربي تبارك وتعالى، فقال لي :يا محمد علي وليي وخيرتي بعدك من خلقي، اخترته لك أخا ووصيا ووزيرا وصفيا و خليفة وناصرا لك على أعدائي، يا محمد وعزتي وجلالي لا يناوي عليا جبار إلا قصمته ولا يقاتل عليا عدو من أعدائي إلا هزمته وأبدته يا محمد إني اطلعت على قلوب عبادي فوجدت عليا أنصح خلقي لك وأطوعهم لك، فاتخذه أخا وخليفة ووصيا وزوج ابنتك، فإني سأهب لهما غلامين طيبين طاهرين تقيين نقيين، فبي حلفت وعلى نفسي حتمت أنه لا يتولين عليا وزوجته وذريتهما أحد من خلقي إلا رفعت لواءه إلى قائمة عرشي وجنتي وبحبوحة كرامتي، وسقيته من حظيرة قدسي، ولا يعاديهم أحد ويعدل عن ولايتهم يا محمد إلا سلبته ودي وباعدته من قربي وضاعفت عليهم عذابي ولعنتي، يا محمد إنك رسولي إلى جميع خلقي، وإن عليا وليي و أمير المؤمنين، وعلى ذلك أخذت ميثاق ملائكتي وأنبيائي وجميع خلقي من قبل أن أخلق خلقا في سمائي وأرضي محبة مني لك يا محمد ولعلي ولولد كما ولمن أحبكما . وكان من شيعتكما ولذلك خلقته من طينتكما ١ فقلت :إلهي وسيدي فاجمع الأمة عليه، فأبى علي وقال :يا محمد إنه المبتلى والمبتلى به، وإني جعلتكم محنة لخلقي أمتحن بكم جميع عبادي وخلقي في سمائي وأرضي وما فيهن، لأكمل الثواب لمن أطاعني فيكم وأحل عذابي ولعنتي على من خالفني فيكم وعصاني، وبكم أميز الخبيث من الطيب .يا محمد وعزتي وجلالي لولاك لما خلقت آدم، ولولا علي ما خلقت الجنة، لأني بكم أجزي العباد يوم المعاد بالثواب والعقاب، وبعلي وبالأئمة من ولده أنتقم من أعدائي في دار الدنيا ثم إلي المصير للعباد والمعاد، وأحكمكما في جنتي وناري، فلا يدخل الجنة لكما عدو ولا يدخل النار لكما ولي، وبذلك أقسمت على نفسي .
ثم انصرفت فجعلت لا أخرج من حجاب من حجب ربي ذي الجلال والاكرام إلا سمعت النداء من ورائي :يا محمد قدم عليا، يا محمد استخلف عليا، يا محمد أوص إلى علي، يا محمد واخ عليا، يا محمد أحب من يحب عليا، يا محمد استوص بعلي و شيعته خيرا، فلما وصلت إلى الملائكة جعلوا ينهؤوني في السماوات ويقولون :هنيئا لك يا رسول الله بكرامة الله لك ولعلي.
معاشر الناس علي أخي في الدنيا والآخرة ووصيي وأميني على سري وسر رب العالمين ووزيري وخليفتي عليكم في حياتي وبعد وفاتي، لا يتقدمه أحد غيري، وخير

من اخلف بعدي، ولقد أعلمني ربي تبارك وتعالى أنه سيد المسلمين وإمام المتقين وأمير المؤمنين ووارثي ووارث النبيين ووصي رسول رب العالمين وقائد الغر المحجلين من شيعته وأهل ولايته إلى جنات النعيم بأمر رب العالمين، يبعثه الله يوم القيامة مقاما محمودا يغبطه به الأولون والآخرون، بيده] لوائي [لواء الحمد يسير به أمامي، وتحته آدم وجميع من ولد من النبيين والشهداء والصالحين إلى جنات النعيم، حتما من الله محتوما من رب العالمين، وعد وعدنيه . ربي فيه،، ولن يخلف الله وعده وأنا على ذلك من الشاهدين.

٣٧ - كشف اليقين :من كتاب محمد بن علي النظري، عن الحسن بن أحمد المقري، عن أحمد بن عبد الله، عن محمد بن عمر بن غالب، عن محمد بن أبي خيثمة، عن عباد بن يعقوب الرواجني، عن محمد بن موسى بن عثمان الحضرمي، عن الأعمش، عن مجاهد، عن ابن عباس قال :قال رسول الله صلى الله عليه وآله :ما أنزل الله عز وجل آية " يا أيها الذين . آمنوا " إلا وعلي رأسها وأميرها .

٣٨ - كشف اليقين :من كتاب كفاية الطالب عن عبد العزيز بن محمد الصالحي، عن أبي القاسم بن الحسن بن هبة الله الشافعي، عن يوسف بن عبد الواحد، عن شجاع ابن علي، عن محمد بن إسحاق، عن محمد بن الحسين القطان، عن إبراهيم بن عبد الله، عن يحيى بن كثير، عن جعفر بن الأقمر، عن هلال الصدفي، عن أبي كثيرالأنصاري، عن عبد الله بن أسعد بن زرارة قال :قال رسول الله صلى الله عليه وآله لما أسري بي إلى السماء انتهى بي إلى قصر من لؤلؤ، فراشه من ذهب يتلألأ، فأوحى الله إلي وأمرني في علي بثلاث خصال :بأنه سيد المسلمين وإمام المتقين وقائد الغر.

٣٩ - كشف اليقين :من كتاب سنة الأربعين في سنة الأربعين لفضل الله بن علي الراوندي، عن أحمد بن محمد بن أحمد، عن علي بن أحمد بن القاسم، عن إسماعيل بن محمد عن علي بن مهرويه القزويني، عن داود بن سليمان، عن الرضا، عن آبائه عليهم السلام قال :قال رسول الله صلى الله عليه وآله :يا علي إنك سيد المسلمين وإمام المتقين وقائد الغر .المحجلين ويعسوب المؤمنين

٤٠ - كشف اليقين :من كتاب الخصائص العلوية تأليف محمد بن علي بن الفتح، عن أحمد بن الفضل الخواص، عن عمر بن عبدويه، عن محمد بن علي بن عمر، عن محمد بن جعفر ابن مخلد، عن محمد بن حريز، عن هارون بن حاتم، عن رياح بن خالد الأسدي عن جعفر الأحمر، عن هلال بن مقلاص، عن عبد الله بن أسعد بن زرارة، عن أبيه قال :سمعت النبي صلى الله عليه وآله يقول :ليلة أسري بي إلى السماء أوحي إلي في علي بن . أبي طالب بثلاث خصال :أنه سيد المسلمين وإمام المتقين وقائد الغر المحجلين.

٤١ - كشف اليقين :من كتاب الخصائص عن أبي علي الحداد، عن أبي نعيم، عن عمر بن أحمد القضاني ، عن علي بن العباس، عن أحمد بن يحيى، عن الحسن بن الحسين،

عن إبراهيم بن يوسف بن أبي إسحاق، عن أبيه، عن الشعبي قال :حدثنا علي عليه السلام قال :قال] لي [رسول الله صلى الله عليه وآله :مرحبا بسيد المسلمين

وإمام المتقين، فقيل لعلي عليه السلام :فأي شئ كان من شكرك؟ قال :حمدت الله على ما آتاني، وسألته .الشكر على ما أو لأني، وأن يزيد فيما أعطاني.

٤٢ - كشف اليقين :أحمد بن مردويه، عن محمد بن عبد الرحمن، عن محمد بن أيوب، عن عمر بن الحصين العقيلي، عن يحيى بن العلاء، عن هلال بن أبي حميد الوزان، عن عبد الله بن أسعد بن زرارة، عن أبيه قال :قال رسول الله صلى الله عليه وآله : أوحي إلي في علي .ثلاث :أنه سيد المسلمين وإمام المتقين وقائد الغر المحجلين.

٤٣ - كشف اليقين :من خط جدي ورام بن أبي فراس مما حكاه في مجموعه اللطيف عن ناظر الحلة ابن الحداد، عما انتقاه من تاريخ الخطيب - وكان ابن الحداد حنبليا - يرفعه عن جعفر بن ربيعة، عن عكرمة، عن ابن عباس قال :قال رسول الله صلى الله عليه وآله :ما في القيامة راكب غيرنا نحن أربعة، فقال له عمه العباس :ومن هم يا رسول الله؟ فقال :أما أنا فعلى البراق - ووصفها : وجهها كوجه الانسان، وخدها كخد الفرس، وعرفها ٤ من لؤلؤ مسموط، وأذناها زبرجدتان خضر وان، وعيناها مثل كوكب الزهرة، ووصفها بوصف طويل - قال العباس :و من يا رسول الله؟ قال :وأخي صالح على ناقة الله وسقياها التي عقرها قومه، قال العباس :ومن يا رسول الله؟ قال :وعمي حمزة أسد الله وأسد رسوله سيد الشهداء على ناقتي العضباء، قال العباس :ومن يا رسول الله؟ قال :وأخي علي على ناقة من نوق الجنة، زمامها من لؤلؤ رطب، عليها محمل من ياقوت أحمر، قضبانها من الدر الأبيض، على رأسه تاج من نور، لذلك التاج سبعون ركنا، ما من ركن إلا وفيه ياقوتة حمراء تضي، للراكب، المحث ٥، عليه حلتان خضراوان، وبيده لواء الحمد وهو ينادي " أشهد أن لا إله إلا الله وأن محمدا رسول الله " يقول الخلائق :ما هذا إلا نبي مرسل أو ملك مقرب أو حامل عرش، فينادي مناد من بطنان العرش :ليس هذا ملك مقرب ولا نبي مرسل ولا حامل عرش، هذا علي بن أبي طالب . وصي رسول رب العالمين وإمام المتقين وقائد الغر المحجلين.

٤٤ - كشف اليقين :من كتاب أبي الحسين النسابة، عن عمران بن عبد الرحيم، عن إسحاق بن بشر عن عبد الله بن لهيعة، عن عبد الرحمن بن زياد، عن مسلم بن يسار، عن جابر بن عبد الله قال :قال رسول الله صلى الله عليه وآله لعلي عليه السلام :أنت إمام المتقين .وقائد الغر المحجلين.

٤٥ - كشف اليقين :من كتاب كفاية الطالب عن عبد العزيز بن محمد بن الحسن، عن علي بن الحسن الشافعي، عن أبي القاسم الإسماعيلي، عن حمزة بن يوسف، عن عبد الله بن عدي، عن محمد بن أحمد بن هلال، عن محمد بن يحيى بن ضريس، عن

عيسى بن عبد الله العلوي، عن آبائه، عن علي عليه السلام قال :رسول الله صلى الله عليه وآله: علي يعسوب . المؤمنين والمال يعسوب المنافقين.

٤٦ - كشف اليقين :من كتاب علي بن محمد الطبيب، عن إبراهيم بن غسان، عن الحسن بن أحمد، عن عبد الله بن أبي عامر الطائي، عن أحمد بن عامر، عن الرضا عن آبائه عليهم السلام قال :قال رسول الله صلى الله عليه وآله :يا علي إنك سيد المسلمين وإمام المتقين وقائد الغر المحجلين ويعسوب الدين قال أبو القاسم الطائي : سألت أحمد بن يحيى ثعلب عن اليعسوب قال :هو الذكر من النحل الذي يقدمها.

٤٧ - كشف اليقين :أحمد بن مردويه، عن أحمد بن إسحاق، عن أحمد بن عمرو بن الضحاك، عن محمد بن ضريس، عن عيسى بن عبد الله بن محمد بن عمر، عن أبيه، عن أبيه، عن جده، عن علي عليه السلام قال :قال رسول الله صلى الله عليه وآله :علي يعسوب المؤمنين .والمال يعسوب المنافقين.

٤٨ - كشف اليقين :من كتاب أبي الحسين النسابة عن محمد بن صالح، عن عبد السلام بن صالح، عن علي بن هاشم، عن محمد بن عبد الله بن أبي رافع، عن أبيه، عن جده، عن أبي ذر قال :سمعت النبي صلى الله عليه وآله يقول لعلي عليه السلام : أنت أول من يصافحني .يوم القيامة، وأنت يعسوب المؤمنين .

٤٩ - الخصال :في وصية النبي صلى الله عليه وآله لعلي عليه السلام :يا علي إن الله تبارك وتعالى

أعطاني فيك سبع خصال :أنت أول من ينشق عنه القبر معي، وأنت أول من يقف ٤ على الصراط معي، وأنت أول من يكسى إذا كسيت، ويحيى إذا حييت، وأنت أول من يسكن معي عليين، وأنت أول من يشرب معي من الرحيق المختوم الذي ختامه مسك.

٥٠ - الخصال :أبي، عن المؤدب، عن أحمد الأصبهاني، عن الثقفي، عن جعفر بن الحسن العبسي، عن محمد بن علي السلمي، عن عبد الله بن محمد بن عقيل، عن جابر الأنصاري قال :لقد سمعت رسول الله صلى الله عليه وآله يقول] :إن [في علي خصالا لو كانت واحدة منهن في جميع الناس لاكتفوا بها فضلا :قوله صلى الله عليه وآله : من كنت مولاه فعلي مولاه " وقوله صلى الله عليه وآله " :علي مني كهارون من موسى"

وقوله صلى الله عليه وآله " :علي مني وأنا منه " وقوله صلى الله عليه وآله " علي مني كنفسي طاعته طاعتي ومعصيته معصيتي " وقوله صلى الله عليه وآله " :حرب علي حرب الله وسلم علي سلم الله " وقوله صلى الله عليه وآله " :ولي علي ولي الله وعدو علي عدو الله " وقوله صلى الله عليه وآله " :علي حجة الله وخليفته على عباده "وقوله صلى الله عليه وآله " :حب علي إيمان وبغضه كفر " وقوله صلى الله عليه

وآله " :حزب علي حزب الله وحزب أعدائه حزب الشيطان " و قوله صلى الله عليه وآله " :علي مع الحق والحق معه لا يفترقان حتى يردا علي الحوض"

وقوله صلى الله عليه وآله " :علي قسيم الجنة والنار " وقوله صلى الله عليه وآله " : من فارق عليا فقد فارقني ومن فارقني فقد فارق الله عز وجل " وقوله صلى الله عليه وآله " :شيعة علي هم الفائزون . يوم القيامة .

٥١ - عيون أخبار الرضا ع :بالأسانيد الثلاثة عن الرضا، عن آبائه عليهم السلام قال : قال رسول الله

صلى الله عليه وآله :يا علي إذا كان يوم القيامة كنت أنت وولدك على خيل بلق . متوجين بالدر والياقوت، فيأمر الله بكم إلى الجنة والناس ينظرون.

٥٢ - عيون أخبار الرضا ع :بإسناد التميمي عن الرضا، عن آبائه عليهم السلام قال : قال رسول الله

صلى الله عليه وآله :أنا وهذا - يعني عليا - يوم القيامة كهاتين - وضم بين إصبعيه- وشيعتنا معنا، ومن أعان مظلومنا كذلك.

وبهذا الاسناد قال :قال النبي صلى الله عليه وآله :لا يؤدي عني إلا علي ولا يقضي عداتي إلا علي.

وبهذا الاسناد قال صلى الله عليه وآله :خير إخواني علي .وبهذا الاسناد عن علي عليه السلام قال :قال لي النبي صلى الله عليه وآله :ما سلكت طريقا ولا فجا إلا سلك الشيطان غير طريقك وفجك.

وبهذا الاسناد قال :قال النبي صلى الله عليه وآله :كف علي كفي.

وبهذا الاسناد قال :قال النبي صلى الله عليه وآله لعلي عليه السلام :الجنة تشتاق إليك وإلى عمار وسلمان وأبي ذر والمقداد.

٥٣ - أمالي الطوسي :المفيد، عن الجعابي، عن أحمد بن سعيد، عن العباس بن بكر،عن محمد بن زكريا ، عن كثير بن طارق، عن زيد بن علي، عن أبيه، عن جده عليهم السلام قال :قال رسول الله صلى الله عليه وآله :لعلي :أنت يا علي وأصحابك في الجنة، أنت . يا علي وأتباعك في الجنة.

٥٤ - أمالي الطوسي :المفيد، عن محمد بن أحمد المنصوري، عن محمود بن محمد، عن أحمد ابن محمد بن يزيد، عن إسماعيل بن أبان، عن الأعمش، عن المنهال، عن زاذان، عن سلمان - رضي الله عنه - قال :بعثنا رسول الله صلى الله عليه وآله للنصح للمسلمين .ثم لعلي بن أبي طالب عليه السلام والموالاة له.

٥٥ - أمالي الطوسي :المفيد، عن المراغي، عن محمد بن صالح، عن عبد الاعلى بن واصل عن مخول بن إبراهيم، عن علي بن خرور، عن ابن نباتة، عن عمار بن ياسر قال :قال رسول الله صلى الله عليه وآله لعلي :يا علي إن الله قد زينك بزينة لم يزين العباد بزينة أحب إلى الله منها، زينك بالزهد في الدنيا وجعلك لا ترزأ منها شيئا ولا ترزأ منك شيئا ووهب لك حب المساكين فجعلك ترضى بهم أتباعا ويرضون بك إماما، فطوبى لمن أحبك وصدق فيك، وويل لمن أبغضك وكذب عليك، فأما من أحبك وصدق فيك فأولئك جيرانك في دارك وشركاؤك في جنتك وأما من أبغضك وكذب عليك . فحق على الله أن يوقفه موقف الكذابين.

٥٦ - أمالي الطوسي :المفيد، عن أحمد بن محمد الصولي، عن محمد بن الحسين الطائي، عن محمد بن الحسن بن جعفر الأصبغي عن أبيه، عن جده، عن يعقوب بن الفضل، عن شريك بن عبد الرحمن، عن أبيه قال :قال رسول الله صلى الله عليه وآله : أعطيت في علي تسعا :ثلاثا في الدنيا وثلاثا في الآخرة واثنتين أرجوهما له وواحدة أخافها عليه :فأما الثلاث التي في الدنيا فساتر عورتي والقائم بأمر أهلي ووصيي فيهم، وأما الثلاث التي في الآخرة فإني اعطى يوم القيامة لواء الحمد فأدفعه إلى علي بن أبي طالب يحمله عني، وأعتمد عليه في مقام الشفاعة ويعينني على حمل مفاتيح الجنة، وأما اللتان أرجوهما له فإنه لا يرجع من بعدي ضالا ولا كافرا، وأما التي أخافها عليه فغدر قريش به من بعدي .

٥٧ - أمالي الطوسي :المفيد، عن محمد بن عثمان الصيرفي، عن محمد بن عبد الله العلاف، عن محمد بن يعقوب الدينوري، عن عبد الله بن محمد البلوي، عن عمارة بن زيد، عن بكر ابن حارثة الزهري، عن عبد الرحمن بن كعب بن مالك، عن جابر بن عبد الله، قال :سمعت عليا ينشد ورسول الله صلى الله عليه وآله يسمع :أنا أخو المصطفى لا شك في نسبي * معه ربيت وسبطاه هما ولدي جدي وجد رسول الله منفرد * وفاطم زوجتي لا قول ذي فند فالحمد لله شكرا لا شريك له البر بالعبد والباقي بلا أمد قال : فابتسم رسول الله صلى الله عليه وآله وقال :صدقت يا علي.

٥٨ - أمالي الطوسي :الحفار، عن الجعابي، عن علي بن أحمد، عن عباد بن يعقوب عن عيسى بن عبد الله، عن أبيه، عن جده، عن علي عليه السلام قال :قال رسول الله صلى الله عليه وآله :علي يعسوب المؤمنين والمال يعسوب المنافقين.

٥٩ - أمالي الطوسي :ابن مخلد، عن محمد بن عمرو بن البختري، عن محمد بن عبد الملك عن يزيد بن هارون، عن فطر قال :سمعت بعض أصحاب النبي صلى الله عليه وآله :لقد كان لعلي بن أبي طالب صلوات الله عليه من السوابق ما لو أن سابقة منها بين الخلائق . لوسعتهم خيرا.

٦٠ - أمالي الطوسي :جماعة، عن أبي المفضل، عن الحسن بن موسى بن خلف، عن جعفر بن محمد بن فضل، عن عبد الله بن موسى العبسي، عن طلحة بن خير

المكي، عن المطلب بن عبد الله، عن مصعب بن عبد الرحمن بن عوف، عن أبيه قال :لما افتتح النبي صلى الله عليه وآله :مكة انصرف إلى الطائف يعنى إلى حنين فحاصرهم ثم إلى عشرة أو سبع عشرة فلم يفتحها ثم أو غل روحة أو غدوة ثم نزل ثم هجر فقال :أيها الناس إني لكم فرط وإن موعدكم الحوض وأوصيكم بعترتي ٦ خيرا، ثم قال :والذي نفسي بيده لتقيمن الصلاة ولتؤتن الزكاة أولا بعثن إليكم رجلا مني -أو كنفسي - فليضربن أعناق مقاتليكم وليسبين ذراريكم، فرأى أناس أنه يعني أبا بكر أو عمر، فأخذ بيد علي عليه السلام فقال :هو هذا .قال المطلب بن عبد الله :فقلت لمصعب بن عبد الرحمن :فما حمل أباك على ما صنع؟ قال :أنا والله أعجب من . ذلك .!

٦١ - أمالي الطوسي :جماعة، عن أبي المفضل، عن محمد بن إسحاق بن فروخ، عن محمد بن عثمان بن كرامة في مسند عبيد الله بن موسى، عن محمد بن أحمد بن عبد الله الضرير،عن يوسف بن سعيد بن مسلم، عن عبيد الله بن موسى، عن علي بن خير، عن المطلب بن . عبد الله، عن مصعب بن عبد الرحمن، عن أبيه مثله.

٦٢ - أمالي الطوسي :جماعة، عن أبي المفضل، عن إبراهيم بن حفص، عن عبيد بن الهيثم، عن عباد بن صهيب، عن جعفر بن محمد، عن أبيه عليهما السلام، عن جابر بن عبد الله الأنصاري قال :لما أوقع وربما قال :فرغ - رسول الله صلى الله عليه وآله من هوازن سار حتى نزل الطائف، فحصر أهل أياما، فسأله القوم أن يبرح منهم ٤ ليقدم عليه وفدهم فيشترط له ويشترطون لأنفسهم ، فسار صلى الله عليه وآله حتى نزل مكة، فقدم عليه نفر منهم بإسلام قومهم ولم ينجع القوم له بالصلاة ولا الزكاة، فقال :إنه لا خير في دين لا ركوع فيه ولا سجود، أما والذي نفسي بيده لتقيمن الصلاة ولتؤتن الزكاة أولا بعثن إليكم رجلا هو مني كنفسي فليضرب أعناق مقاتليهم وليسبين ذراريهم، هو هذا، وأخذ بيد علي عليه السلام فأشالها، فلما صار القوم إلى قومهم بالطائف أخبروهم بما سمعوا من رسول الله صلى الله عليه وآله فأقروا له بالصلاة وأقروا له بما شرط عليهم، فقال صلى الله عليه وآله :ما استعصى علي أهل مملكة ولا أمة إلا رميتهم بسهم.

Beləliklə, yuxarıda qısaca qeyd etdiyimiz ayələr, hədisi-şəriflər və İslam alimlərinin ixtilafsız fikirlərindən bir daha məlum oldu ki, İmam Əli ibn Əbu Talib *(ə)* fəzilət baxımından Həzrət Muhəmməd *(s)* istisna olmaqla hər kəsdən üstündür. İmam Hüseyn *(ə)* məhz belə bir müqəddəs atanın övladı olmuşdur. İmam Hüseynin *(ə)* Əlinin *(ə)* övladı olması onun fəzilətini və İslamdakı yerini müəyyən etmirmi!? Allah rizası üçün dü-

şünmək və obyektiv şəkildə bütün bu hədisləri təhlil edib doğru nəticəyə gəlmək, həmçinin İmam Əlinin *(ə)* və onun Əhli-Beytinin *(ə)* İslamdakı üstünlüklərini etiraf etmək ədalətli olmağın bariz nümunəsi deyilmi?

Belə olduğu halda hər bir Əhli-Beytin *(ə)* qanı Quranın da bildirdiyi kimi, bütün bəşəriyyətin qanına bərabər deyilmi?

Belə olduğu halda Əhli-Beytə *(ə)* qarşı gələn, Əhli-Beytə *(ə)* nifrət edən və Əhli-Beytin *(ə)* İslamdakı üstünlüklərini danan hər kəsin vay halına. Bu, Quranın və Rəsulullahın *(s)* hədəsidir. Necə ki, Peyğəmbər *(s)* hədislərinin birində Həzrət Əliyə *(ə)* müraciət edərək buyurmuşdur:

***"Məni sevdiyini iddia edib sənə hirslənən kimsə məni sevdiyinə dair irəli sürdüyü iddiada yalançıdır"***.

Həsən ibn Arfə, Əmmar bin Yasirin belə dediyini rəvayət etmişdir:

"Bir gün Peyğəmbərin *(s)* Həzrət Əliyə *(ə)* belə buyurduğunu eşitdim: ***"Səni sevən və sənin haqqında doğru söyləyən kimsəyə afərin. Sənə nifrət edən və sənin haqqında yalan danışan kimsənin də vay halına!"***

Əbdürrəzzaq, İbn Abbasın belə dediyini rəvayət etmişdir:

"Peyğəmbər *(s)* Əliyə *(ə)* baxıb buyurdu:

***"Sən dünya və Axirətdə seyidsən. Səni sevən məni də sevmişdir. Sənin sevgilin Allahın da sevgilisidir. Sənə nifrət edən mənə də nifrət etmişdir. Səni sevməyəni Allah da sevməz. Məndən sonra sənə nifrət edən kimsənin vay halına"***.


فاطمة الزهراء

## 1. 3. FATİMƏ BİNT MUHƏMMƏD *(ə)*

Muhəmməd peyğəmbərin *(s)* sevimli qızı Xanım Fatimə əz-Zəhra *(ə)* İmam Həsən *(ə)* və İmam Hüseynin *(ə)* anasıdır. O Xanımın *(ə)* doğum tarixi mənbələrdə müxtəlif şəkildə göstərilməkdədir. Əllamə Məclisiyə görə, Xanım Fatimə *(ə)* Besətin beşinci ilində, yəni Miladi təqvimlə 614-ci ildə doğulub.[137] Bu rəvayəti Muhəmməd ibn Yaqub Kuleyni "əl-Kafi" əsərində belə yazır:

**ولدت فاطمة عليها السلام بعد مبعث النبي صلى الله عليه وآله بخمس سنين وتوفيت ولها ثماني عشرة سنة وخمسة وسبعون يوما بقيت بعد أبيها خمسة وسبعين يوما.**

"Xanım Fatimə *(ə)* Peyğəmbərə *(s)* peyğəmbərlik verildikdən beş il sonra doğulmuş və on səkkiz yaşında, atasının vəfatından yetmiş beş gün sonra vəfat etmişdir".

"Rövzətul-vaizin" əsərinin müəllifi Xanım Fatimənin *(ə)* doğumu və vəfatı haqqında yazır:

**ولدت عليها السلام بعد النبوة بخمس سنين وبعد الاسراء بثلاث سنين و أقامت مع رسول الله صلى الله عليه وآله بمكة ثمان سنين، ثم هاجرت مع رسول الله صلى الله عليه وآله إلى المدينة فزوجها من علي صلوات الله عليه بعد مقدمهم المدينة بسنة وقبض النبي صلى الله عليه وآله ولفاطمة عليها السلام يومئذ ثماني عشرة سنة وعاشت بعد أبيها اثنتين وسبعين يوما.**

"Xanım Fatimə *(ə)* Peyğəmbərə *(s)* peyğəmbərlik verildikdən beş il sonra doğulmuş, Peyğəmbərlə *(s)* birlikdə Məkkədə səkkiz il qalmış, sonra atası ilə Məkkəyə Hicrət etmiş, Hicrətdən bir il sonra Mədinədə Həzrət Əli *(ə)* ilə evlənmiş və on səkkiz yaşında, atasından yetmiş iki gün sonra vəfat etmişdir".

"ət-Təbəqat" əsərinin müəllifi İbn Səd Xanım Fatimənin *(ə)* 609-cu ildə,[138] Şeyx Müfidin "Hədaiqur-riyaz" əsərindəki məlumata görə, Besətdən iki il əvvəl (Miladi-608), bəzi qaynaqlarda isə 605-ci ildə Məkkədə doğulduğu qeyd ediləmkədədir.

---

[137] Əllamə Məclisi. "Biharul-ənvar", səh. 7.

[138] İbn Səd, "ət-Təbaqatul-kubra, darus-sadir", Beyrut, tarixsiz, səh. 19.

Şeyx Abbas Qumi Xanım Fatimənin *(ə)* doğumu haqqında yazır:

"Xanım Fatimeyi-Zəhra *(ə)* Besətin beşinci ili, Cəmadiüs-sani ayının iyirmisində, Peyğəmbər *(s)* qırx beş yaşında ikən Məkkədə dünyaya göz açmışdır. İmam Sadiq *(ə)* və İmam Baqirdən *(ə)* müasir dövrümüzədək gəlib çatmış hədislərə əsasən, Xanım Zəhranın *(ə)* anası xanım Xədicə olmuşdur.

Merac gecələrinin birində Rəsuli-Əkrəm *(s)* o Həzrətə *(s)* təklif edilən Behişt meyvələrindən – təzə xurma və üzümdən meyl etmişdi. Allah-taala həmin meyvələri Peyğəmbərin *(s)* sülbündə suya (nütfəyə) çevirmişdir. Nəticədə, Rəsulullah *(s)* Meracdan qayıtdıqdan sonra xanımı Xədicə ilə bir yatmışdı. Beləliklə, Fatimənin *(ə)* nuru Xədicənin bətnində cilvələnmişdi. Buna görə də Xanım Fatiməni *(ə)* "Hövrau-Unsiyyə" də adlandırmışlar ki, bunun da mənası Xanım Zəhranın *(ə)* insan ola-ola eyni zamanda, Behişt hurilərindən sayılması deməkdir. Buna görə də Peyğəmbər *(s)* nə zaman Behişt ətrini duymaq istəsəydi, onun və tuba ağacının ətrini Fatimədən *(ə)* alar, sevimli qızını əzizlərdi. Lakin Peyğəmbərin *(s)* zövcələrindən bəzisi o Xanımın *(ə)* bu böyük məqamını dərk etmədiyinə görə belə hərəkəti Rəsulullah *(s)* üçün nalayiq hesab edirdilər".[139]

Xanım Fatimə *(ə)* sonuncu Peyğəmbər Həzrət Məhəmmədin *(s)* birinci həyat yoldaşı xanım Xədicədən olan qızı, Allah Rəsulunun *(s)* əmisi oğlu İmam Əlinin *(ə)* həyat yoldaşı, İmam Həsən *(ə)* və İmam Hüseynin *(ə)* anası və Qurani-Kərimdə buyurulduğu kimi, Əhli-Beytin *(ə)* beş üzvündən biridir.

Tarixi mənbələr arasında xanım Xədicənin Xanım Fatiməyə *(ə)* İsra və Merac hadisəsindən sonra hamilə qaldığını ifadə edən müxtəlif qaynaqlar da mövcuddur. Bu cür rəvayətlərdə Peyğəmbərin *(s)* Meracda olduğu sırada ona ikram edilən Cənnət meyvəsindən yediyi,[140] Fatimənin *(ə)* bu meyvədən hasil olduğu, Rəsuli-Əkrəmin *(s)* o meyvənin qoxusunu arzuladıqca Fatiməni *(ə)* öpdüyü yazılır. Yenə də eyni xüsusiyyətdəki rəvayət-

[139] Şeyx Abbas Qumi, "Beytul-əhzan", s. 4.
[140] Əllamə Məclisi, "Biharul-ənvar", səh. 7.

lərdə Fatiməyə *(ə)* hamilə olduğu sırada anasının onunla danışdığı,[141] doğulacağı əsnada Sara, Asiya, Məryəm və Şüeyb peyğəmbərin *(ə)* qızı Safuranın köməyə gəldiyi, doğular-doğulmaz kəlmeyi-şəhadət gətirərək babasının kim olduğunu, ərinin kim olacağını söylədiyi və oradakılara adlarıyla xitab etdiyi, doğumuyla birlikdə fövqəltəbii hadisələrin meydana gəldiyi xəbər verilməkdədir.[142]

632-ci ilin iyun ayının 8-də bütün bəşərin Peyğəmbəri Həzrət Muhəmməd *(s)* vəfat edir. Mötəbər rəvayətlərə görə, hələ xəstələndiyi zaman Rəsulullah *(s)* qızı Fatiməyə *(ə)* ondan sonra o Həzrətə *(s)* qovuşacaq ilk şəxs olacağını vədə veribmiş.

Fatimə *(ə)* Rəsulullahın *(s)* ölümündən iki ay yarım sonra, Hicri 11-ci ildə, Ramazan ayının 3-də (632-noyabr) vəfat etmişdir.

Əllamə Məclisiyə görə, Xanım Fatimə *(ə)* Peyğəmbərdən *(s)* 72 və ya 75 gün sonra, 18 yaşında ikən dünyadan köçmüşdür.[143]

İmam Muhəmməd Baqirin *(ə)* ifadə etdiyinə görə, Fatiməyə *(ə)* Həzrət Əli *(ə)* qüsl vermişdir.[144]

Fatimə *(ə)* qadın cənazələrinin kişilərdə olduğu kimi üzərinə örtülən bir kəfənlə sarılaraq hər kəsin gözü qarşısında daşınmasından bərk narahat olduğunu Əsma bint Umeysə söyləyərkən Əsma o Xanıma *(ə)* Həbəşistanda cənazələrin tabut içində daşındığını demiş, bunun üzərinə də Xanım Fatimə *(ə)* öz cənazəsinin bu şəkildə daşınmasını vəsiyyət etmişdi. Necə ki, cənazəsi Əsma bint Umeysin tərif etdiyi şəkildə o tabutla dəfn edildi.[145]

İbn Əbil Hədidin məlumatına görə, Xanım Fatimənin *(ə)* cənazə namazını Peyğəmbərin *(s)* əmisi Abbas qılmışdır.[146] La-

---

[141] Həmin mənbə, səh. 2.

[142] İbn Şəhraşub, "Mənaqibu Əli ibn Əbu Talib *(ə)*", Beyrut 1405/1985, səh. 340; Muhəmməd Kazım əl-Qəzvini, "Fatimətuz-Zəhra *(ə)* minəl-məhdi iləl-ləhd", Beyrut 1404/1984, səh. 60, 64.

[143] Əllamə Məclisi. "Biharul-Ənvar", səh. 7.

[144] Şəmsəddin Muhəmməd ibn Əhməd əz-Zəhəbi, "Alamun-nubəla", VII çap, müəssisətu risalə, Beyrut, 1413/1993, səh. 128.

[145] Əllamə Əli ibn İsa əl-İrbili, "Kəşful-ğummə, darul-əzva", Beyrut, 1405/1985, səh. 67.

[146] İbn Əbil Hədid, "Şərhu Nəhcul-bəlağə", darul-ihyai-kutubil-ərəbi, 1378/ 1959, səh. 214.

kin bu fikir doğru deyildir. Çünki Xanıma *(ə)* cənazə namazını İmam Əli *(ə)* özü qılmış, vəsiyyət etdiyi kimi gecə Əli *(ə)*, Abbas ilə oğlu Fəzl, Salman Farsi tərəfindən Cənnətul-baqidə dəfn edilmişdi.

İmam Rzadan *(ə)* gələn rəvayətə görə, Xanım Fatimə *(ə)* öz evində dəfn edilmiş, sonralar Əməvilər Məscidun-Nəbini genişləndirdikdə qəbri məscidə daxil olmuşdur.

Peyğəmbərin *(s)* vəfatından sonra 632-ci ilin iyun ayında Əbu Bəkr ibn Əbu Quhafə, Səqifə məclisində xəlifə seçildi. Peyğəmbərin *(s)* vəfatından sonra Fatimə *(ə)* Xəlifədən ona atasından miras qaldığı Fədək bağını istəyir. Lakin Xəlifə Xanımın *(ə)* istəyi ilə razılaşmır, "peyğəmbərlər miras qoymur, onların qoyduğu sədəqədir" deyərək Fatimənin *(ə)* istəyini qəbul etmir. Nəticədə Fatimə *(ə)* ilə ali hakimiyyət arasında gərginlik daha da artır.

Xanım Faitiməyə *(ə)* Peyğəmbər *(s)* tərəfindən qoyulan ad və ləqəblər aşağıdakılardan ibarətdir:

- Ümmü Əbiha
- Bətul
- Siddiqə
- Mübarəkə
- Tahirə
- Zəkiyyə
- Raziyyə
- Mərziyyə
- Muhaddəsə
- Zəhra
- Əşrəfətul-Nisa
- Meymunə
- Ümmül-Əimmə
- əl-Məvziya
- əl-Kubra
- Səyyidətul Nisail Muminat
- Əfdalul Nisail Əhlul Cənnəti
- Bizzatuz Tahirə

- Ümmü Həsən
- Ümmü Hüseyn
- Ümmü Muhsin

Xanımın *(ə)* adının Fatimə mənası haqqında Əllamə Məclisi yazır:

"Peyğəmbər *(s)* buyurmuşdur:

***"Qızımın Fatimə adlanmasının səbəbi onun və onu sevənlərin Cəhənnəm odundan uzaq olmalarına, ondan qorunmalarına görədir".***[147]

Xanımın *(ə)* Zəhra adlanmasının səbəbi haqqında Əban ibn Təğlib deyir:

"Bu haqda İmam Sadiqdən *(ə)* soruşdum, İmam *(ə)* buyurdu:

***"Çünki o, gündə üç dəfə Əli üçün nura boyanırdı, onun bu nuru namaz halında daha çox zahir olurdu…".***[148]

Həmçinin, İmam Sadiqdən *(ə)* gələn digər bir rəvayətə görə, Xanım Fatimə *(ə)* namaz halında duranda üzünün nuru səma əhlini nurlandırdığı üçün belə adlanıb. [149]

Bildiyimiz kimi, Xanım Fatimənin *(ə)* soy-kökü İbrahim peyğəmbərin *(ə)* nəslinə yetişməklə İsmayıl peyğəmbərin *(ə)* nəslindən, Ədnanilər qövmündən, Qüreyş qəbiləsinin Bəni-Haşim sülaləsindən gəlir. Rəvayət edilən soy silsiləsi belədir:

"Fatimə bint Muhəmməd *(ə)* ibn Abdullah ibn Əbdülmütəllib (Şeybə) ibn Haşim ibn Əbu Manaf (Muğirə) ibn Quseyy ibn Kilab ibn Mürrə ibn Kab ibn Lüey ibn Qalib ibn Fixr ibn Malik ibn Nadr ibn Kinanə ibn Xüzeymə ibn Müdrikə (Amir) ibn İlyas ibn Mudar ibn Nizar ibn Maad ibn Ədnan".

Xanım Fatimənin *(ə)* İslamdakı fəzilətləri sayılmayacaq qədər çoxdur. Qurani-Kərimdəki "Mübahilə", "Məvəddət", "Əhli-Beyt", "Həl əta" və s. ayələr Fatimə *(ə)* və onun Əhli-Beyti *(ə)* haqqında nazil olmuşdur. Həmin ayələrdən bir neçəsini qeyd etməklə onun bəşər qadınlarının ən üstün olduğunu görəcəyik.

---

[147] Əllamə Məclisi. "Biharul-Ənvar", səh. 12.
[148] Əllamə Məclisi. "Biharul-Ənvar", səh. 12.
[149] Əllamə Məclisi. "Biharul-Ənvar", səh. 12.

Bundan başqa, xilafətin Əli *(ə)* ilə Fatimənin *(ə)* soyuna aid etdiyi hədislər mühüm əhəmiyyət kəsb etmiş, bu hədislərdə ömür-gün yoldaşı Əli *(ə)* ilə soylarından gələn on bir İmam *(ə)* kimi, Xanım Fatimənin *(ə)* də günahlardan qorunmuş olması barədəki fikir ifadə edilmişdir. Bəzi alimlər Rəsuli-Əkrəmin *(s)* Əli *(ə)*, Fatimə *(ə)*, Həsən *(ə)* və Hüseyni *(ə)* əbasının altına alaraq – ***"Ey Əhli-Beyt! Allah sizdən çirkinliyi (günahı) yox etmək və sizi tərtəmiz, pak etmək istəyir"***[150] mənasına gələn ayəni oxumasını qəbul etməklə yanaşı,[151] Qurani-Kərimin bu ayəsindən onların məsumiyyətinin aydın olmayacağını, belə etməklə Peyğəmbərin *(s)* Əhli-Beytini *(ə)* Allahın əmrlərinə uyğun gəlməyə çağırdığını, ayrıca ismət sifətinin sadəcə peyğəmbərlərə *(ə)* məxsus olması səbəbilə onların günahsız sayıla bilməyəcəyini ifadə edirlər.[152]

Lakin xatırladaq ki, bu ifadə və fikirlər əsassızdır. Çünki Qurani-Kərimin ayələrindən də məlum olur ki, məsumiyyət sifəti təkcə peyğəmbərlərə *(ə)* aid olmayıb, hətta Məryəm və s. kimi insanlar da bu sifəti daşımışlar.

Bəzi qaynaqlarda Fatimənin *(ə)* fəzilətləri haqqında Əhli-Beytə *(ə)* daxil digər dörd nəfər kimi, onun da nurdan yaradıldığı, Qiyamətə qədər olmuş və olacaq hər şeyi bildiyi, soyundan imamlar *(ə)* və vəlilər gələcəyini Allahın ona bildirdiyi, hətta Əli *(ə)* ilə evlənməsini Meracda Allah-taalanın qərarlaşdırdığı və o Xanımın *(ə)* tərəfini tutanların Cəhənnəm əzabından xilas olacağı irəli sürülməkdədir.[153] Bu səpkidə olan rəvayətləri Əllamə Məclisi təsdiq edərək "Biharul-ənvar"da qeyd etmişdir.

Fatimə *(ə)* ilə Əhli-Beytin *(ə)* mövqeyi və üstünlüyünü ifadə edərkən üzərində əhəmiyyətlə dayanılan xüsuslardan biri də Mübahilə hadisəsidir. Hicrətin 10-cu (631-632) ilində Mədinəyə

---

[150] "əl-Əhzab", 33.
[151] "Səhihul-Muslim", fəzail-61.
[152] Diyanet İslam Ansiklopedisi, c. XII, səh. 343.
[153] Muhəmməd Kazım əl-Qəzvini, "Fatimətuz-Zəhra minəl-məhdi iləl-ləhd", Beyrut 1404/1984, səh. 119.

gələn Nəcran xristianlarının İsanın *(ə)* ilahlığı mövzusunda israr etmələri üzərinə nazil olan “Ali-İmran” surəsindəki 61-ci ayə Xanım Fatimənin *(ə)* Əhli-Beytə *(ə)* daxil olmasından xəbər verir. Bütün tarixi mənbələrdə Peyğəmbərin *(s)* Fatimə *(ə)*, Əli *(ə)*, Həsən *(ə)* və Hüseynlə *(ə)* birgə nəcranlıların qarşısına çıxdığı və beləcə Qurandakı ***“qadınlarımız”*** ifadəsiylə yalnız Fatimənin *(ə)* nəzərdə tutulduğu fikri irəli sürülərək o Xanımın *(ə)* məsumiyyət və ucalığı qeyd edilmişdir. Bu haqda İbn Əsir və digər müəlliflər yazırlar:

“Nəcranın xristianlarına gəlincə, bunlar aralarından irəli gələnləri də, sıravi kəsləri də bir qrup halında Rəsulullahın *(s)* yanına göndərib “mübahilə” edilməsini istədilər. Rəsulullah *(s)* bunun üzərinə Əli *(ə)*, Fatimə *(ə)*, Həsən *(ə)* və Hüseyn *(ə)* götürüb birlikdə onların qabağına çıxdı. Nəcranlılar onları görüncə belə dedilər:

“Bunlar elə üzlərdir ki, əgər Allahdan dağları yerindən oynatmasını istəyəcək olsalar, Allah qətiliklə yerindən oynadar”.

Bu baxımdan Rəsulullahla *(s)* “mübahilə” etməyib hər birisi qırx dirhəm və iki min paltar verməklə o Həzrətin *(s)* elçilərini qonaq edib saxlamaq üzrə razılaşdılar. Bunun üzərinə Rəsulullah *(s)* da onlardan üşr vergisi almamaq üzrə onlara yazılı bir əhdnamə verdi və faiz yeməmələrini də şərt qoşdu”.[154]

Kasim Kufralı haqlı olaraq “İslam Ansikilopedisi”nə yazdığı “Fatimə *(ə)* maddəsi”ndə[155] mübahilə hadisəsində o Xanımın *(ə)* da iştirak etməsini, bütün müsəlmanların bunu qəbul etməsini və sözünə dəlili olaraq qaynaq kimi Hazin və Beyzavinin təfsirlərini verməkdədir.

Şeyx Abbas Qumi “Beytul-əhzan” adlı əsərində “Fatimənin *(ə)* fəzilətləri” bölümündə belə yazır:

“Kisa və Mübahilə əhlindən biri sayılan Fatimə *(ə)* ən çətin dövrdə Allah yolunda Hicrət edən, şərəfinə “Təthir” ayəsi

---

[154] Əhməd Bəlazuri, “Futuhul-Buldan”, səh. 75; İbn Kəsir, “əl-Bidayə vən-Nihayə”, səh. 43-44.
[155] c. IV, səh-520.

nazil olan şəxsiyyətlərdəndir. Hətta Cəbrail *(ə)* mələk də onlarla birgə ağlamasına fəxr etmişdi. Allah-taala onların paklıq və doğruluğuna şəhadət vermişdir. O Xanım *(ə)* imamların *(ə)* anası olmaqla yanaşı, Peyğəmbərin *(s)* mübarək nəslinin ondan doğulub Qiyamətə kimi davam edəcək yadigarıdır. Bu nurlu vücud əvvəldən axıra kimi hər iki dünya qadınlarının Xanımıdır *(ə)*.

Xanım Fatimə *(ə)* sözündə və danışığında Həzrət Muhəmmədə *(s)* ən çox oxşayan şəxs idi. Xanımın *(ə)* əxlaq və həyatı Rəsuli-Əkrəmin *(s)* həyat tərzi və əxlaqını xatırladırdı, yerişi sanki Peyğəmbərin *(s)* yerişi idi. Fatimə *(ə)* həmişə atasının yanına gələndə Rəsuli-Əkrəm *(s)* qızını mehribanlıqla qarşılayar, əlindən öpər, nə zaman Behişt ətrini duymaq istəsəydi onu iyləyər və buyurardı:

***"Fatimə bədənimin parəsidir. Kim onu sevindirsə, məni sevindirib, kim ona pislik etsə, mənə pislik edibdir. Fatimə mənə hamıdan əzizdir"***.

Peygəmbərin *(s)* Fatiməyə *(ə)* olan sonsuz məhəbbətini ifadə etdirən ***"Ya həbibətə əbiha"*** kimi kəlamlarını misal göstərmək olar ki, bu da "Ey atasının dostu və məhbubu" mənasındadır.

Təbəri İmam Baqirə *(ə)*, İmam *(ə)* da öz cəddinə əsaslanaraq Xanım Fatimənin *(ə)* dilindən belə nəql edir:

***"Bir gün Allahın Rəsulu mənə belə xitab etdi:***

***"Ey atasının dostu və məhbubu! Hər bir məstedici haramdır və hər bir məstedici şərab sayılır"***.

Xatırladaq ki, Allaha daha yaxın olan insanlar öz övladlarını, yaxın qohum-əqrəba və dostlarını instinktiv olaraq sevməmişlər. Əksinə, onlar hər cür nəfsani, eləcə də qeyri-insani hisslərdən uzaq olmuşlar. Belə şəxslərin məhəbbəti ixlas üzündən və Allaha görə olmuşdur. Allahdan digərinə olan sevgiləri isə elə yenə də Allahın Özünə qayıdır və Allaha xatir olur. Məhz buna görə də Yəqub peyğəmbər *(ə)* Yusifi *(ə)* başqa övladlarından daha çox sevirdi. Nəticədə, Yəqubun *(ə)* o biri övladları atalarının Yusifi *(ə)* nə səbəbə belə çox sevdiyindən xəbərsiz olduqları üçün pis fikirlərə düşmüşdülər. Onu yolunu azmış kimi qələmə verib, həmişə deyinirdilər:

“Atamız Yəqubun bu məhəbbətinə biz layiqik, çünki dünya işlərini yerinə yetirməkdə biz ondan (Yusifdən) daha bacarıqlı və daha güclüyük”.

Lakin Yəqub peyğəmbərin *(ə)* Yusifə *(ə)* olan məhəbbəti maddi səbəblər üzündən deyildi, Allahın Yusifi *(ə)* sevdiyinə və onu qardaşlarının arasından seçəcəyinə görə idi. Yəqin ki, Allahın sevimlisi Onun peyğəmbərinin *(ə)* də məhbubu, sevimlisi olacaqdı.

Kuleyni, Muhəmməd ibn Sənandan belə nəql edir:

“Bir gün İmam Cavada *(ə)* müsəlmanlar arasında baş vermiş ixtilaflı bir mövzu barədə söhbət açdım. İmam *(ə)* mənim cavabımda belə buyurdu:

***“Ey İbn Sənan! Bil ki, Allah həmişəki kimi yeganə və misilsizdir. Rəbbim ilk olaraq Həzrət Muhəmməd (ə), Əli (ə) və Fatimənin (ə) nurunu yaratdı. O pak üç nur min illərlə beləcə qaldı. Sonra Allah-taala bütün mövcudatı xəlq edib onları məxluqatın yaradılışına şahid etdi. Bütün yaradılmışların arasında yalnız onlara itaət etməyi buyurdu, məxluqatın bütün işlərini onlara həvalə etdi. Beləliklə, onlar Muhəmməd (ə), Əli (ə), Fatimə (ə) istədikləri şeyi halal və haram edə bilərlər. Lakin onu da bilmək lazımdır ki, bu üç müqəddəs vücud Allahın istədiyini istər, Onun qəbul etmədiyini sevməz və ya Allah istəyəndən başqa heç nəyi istəməzlər. Bu, dinin mahiyyətidir. Kim tələsib qabağa keçsə, yolunu azar. Hər kim də arxaya qalıb ləng tərpənsə, həlak olar. Yalnız din ilə yanaşı addımlayan onunla bir haqqa yetişər. Ey İbn Sənan, bu sözü öyrən və əzbərlə”***.

Müəllif yazır: “Bu hədisi-şərifdən bəlli olur ki, Fatimə *(ə)* məxluqatın bütün işlərini İlahinin ona həvalə etdiyi şəxslərdəndir. Beləliklə, o, istədiyi şeyi halal və haram edə bilər (əlbəttə, bir şərtlə ki, onun istədiyi Allahın istədiyi olsun)”.[156]

Xanım Fatimə *(ə)* Allahın Yer üzündəki ən böyük möcüzələrindən biridir. Əgər Allah-taala İsa peyğəmbəri *(ə)* beşikdə danışdırmışsa, Fatiməni *(ə)* də ana bətnində danışdırmışdır. Bu mötəbər hədisi mənbələr belə nəql edirlər:

---

[156] Şeyx Abbas Qumi, “Beytul-əhzan”, s. 9-10.

أمالي الصدوق :أحمد بن محمد الخليلي، عن محمد بن أبي بكر الفقيه، عن أحمد بن محمد النوفلي، عن إسحاق بن يزيد، عن حماد بن عيسى، عن زرعة بن محمد، عن المفضل بن عمر قال :قلت لأبي عبد الله الصادق عليه السلام :كيف كان ولادة فاطمةعليها السلام؟ فقال :نعم إن خديجة عليها السلام لما تزوج بها رسول الله صلى الله عليه وآله هجرتها نسوة مكة فكن لا يدخلن عليها ولا يسلمن عليها ولا يتركن امرأة تدخل عليها فاستوحشت خديجة لذلك وكان جزعها وغمها حذرا عليه صلى الله عليه وآله فلما حملت بفاطمة كانت فاطمة عليها السلام تحدثها من بطنها وتصبرها وكانت تكتم ذلك من رسول الله صلى الله عليه وآله فدخل رسول الله يوما فسمع خديجة تحدث فاطمة عليها السلام فقال لها :يا خديجة من تحدثين؟ قالت : الجنين الذي في بطني يحدثني ويؤنسني، قال :يا خديجة هذا جبرئيل يبشرني يخبرني أنها أنثى وأنها النسلة الطاهرة الميمونة وأن الله تبارك وتعالى سيجعل نسلي منها وسيجعل من نسلها أئمة ويجعلهم خلفاءه في أرضه بعد انقضاء وحيه.
فلم تزل خديجة عليها السلام على ذلك إلى أن حضرت ولادتها فوجهت إلى نساء قريش وبني هاشم أن تعالين لتلين مني ما تلي النساء من النساء فأرسلن إليها : أنت عصيتنا ولم تقبلي قولنا وتزوجت محمدا يتيم أبي طالب فقيرا لا مال له فلسنا نجئ ولا نلي من أمرك شيئا فاغتمت خديجة عليها السلام لذلك فبينا هي كذلك إذ دخل عليها أربع نسوة سمر طوال كأنهن من نساء بني هاشم ففزعت منهن لما رأتهن فقالت إحداهن :لا تحزني يا خديجة فإنا رسل ربك إليك ونحن أخواتك أنا سارة وهذه آسية بنت مزاحم وهي رفيقتك في الجنة وهذه مريم بنت عمران وهذه كلثم أخت موسى بن عمران بعثنا الله إليك لنلي ما تلي النساء من النساء، فجلست واحدة عن يمينها، وأخرى عن يسارها، والثالثة بين يديها، والرابعة من خلفها، فوضعت فاطمة عليها السلام طاهرة مطهرة.
فلما سقطت إلى الأرض أشرق منها النور حتى دخل بيوتات مكة ولم يبق في شرق الأرض ولا غربها موضع إلا أشرق فيه ذلك النور ودخل عشر من الحور العين كل واحدة منهن معها طست من الجنة وإبريق من الجنة وفي الإبريق ماء من الكوثر فتناولتها المرأة التي كانت بين يديها فغسلتها بماء الكوثر وأخرجت خرقتين بيضاوين أشد بياضا من اللبن وأطيب ريحا من المسك والعنبر فلفتها بواحدة وقنعتها بالثانية ثم استنطقتها فنطقت فاطمة عليها السلام بالشهادتين وقالت :أشهد أن لا إله إلا الله وأن أبي رسول الله سيد الأنبياء وأن بعلي سيد الأوصياء وولدي سادة الأسباط ثم سلمت عليهن وسمت كل واحدة منهن باسمها وأقبلن يضحكن إليها وتباشرت الحور العين وبشر أهل السماء بعضهم بعضا بولادة فاطمة عليها السلام وحدث في السماء نور زاهر لم تره الملائكة قبل ذلك وقالت النسوة :خذيها يا خديجة طاهرة مطهرة زكية ميمونة بورك فيها وفي نسلها .فتناولتها فرحة مستبشرة وألقمتها ثديها فدر عليها فكانت فاطمة عليها السلام تنمي في اليوم كما ينمي الصبي في الشهر وتنمي في الشهر كما ينمي الصبي في السنة.

Şeyx Səduq "Əmali" kitabında Müfəzzəl ibn Ömərdən belə nəql edir:

"Ömər deyir ki, bir gün İmam Sadiqdən *(ə)* soruşdum: "Fatimə *(ə)* dünyaya necə gəlmişdi?"

İmam *(ə)* buyurdu:

***"Xədicə Peyğəmbər ilə evlənəndən sonra Məkkə qadınları İslama olan düşmənçilikləri üzündən ondan uzaqlaşdılar. Belə ki, nə Xədicənin evinə gedir, nə də yolda görəndə ona salam verirdilər, hətta başqa qadınların da onunla görüşməsinə mane olurdular. Bütün bunlardan Xədicə çox kədərlənir və bu çirkin əməllərin Həzrət Muhəmmədə (ə) zərər yetirəcəyindən çəkinib qorxurdu, lakin bunu Peyğəmbərdən gizlədirdi.***

***Bir gün Allahın Rəsulu evə daxil olduqda Xədicənin kiminləsə söhbət etdiyini eşidir və bu barədə ondan soruşduqda o pak qadın belə cavab verir:***

***"Bətnimdəki uşaq mənimlə söhbət edir. O, mənim munisimdir".***

***Peyğəmbər buyurur:***

***"Cəbrail (ə) mənə xəbər verib ki, bu, qız uşağıdır və bizim mübarək, pak nəslimiz də odur. Mənə olunan vəhy kəsildikdən sonra Allah-taala onları Yer üzündə canişinim və xəlifələrim olaraq qərar verəcəkdir".***

***Bu minvalla Xədicə hamiləlik dövrünü keçirirdi. Fatimənin (ə) təvəllüdü yetişdikdə Qureyş və Bəni-Haşim qadınlarına ona hamiləlikdən azad olmaqda kömək göstərmələri üçün xəbər göndərdi, lakin Qureyş və Bəni-Haşim qadınları belə dedilər:***

***"Sən bizi saymayıb sözümüzü yerə saldın və Əbu Talibin yoxsul yetimi olan Muhəmmədə (ə) ərə getdin. Buna görə də yanına gəlməyəcəyik, sənə heç bir kömək də etməyəcəyik".***

***Besətin ilk illərində müşriklər müsəlmanları bacardıqları qədər çox sıxışdırırdılar. Həzrət Muhəmmədin (ə) tərəfdarları özlərini cəmiyyətdən təcrid olunmuş, təklənmiş və qərib hiss edirdilər. Xədicə bu xəbərdən çox kədərləndi, lakin Allah-taala onu tək qoymadı. Qəflətən Bəni-Haşim qadınlarına bənzər dörd nəfər buğdayı, hündür qamətli qadın evə daxil oldu. Xədicə onları görcək qorxdu. Qadınlardan biri dedi:***

***"Ey Xədicə, kədərlənmə! Biz Allah tərəfindən göndərilmişik. Sənin bacılarınıq. Mən Sarayam – İbrahim Xəlilin yoldaşı, bu, Məzahimin qızı Asiyadır. O, sənin Behiştdəki rəfiqəndir. O birisi İmranın qızı Məryəm, digəri isə Musanın bacısı Gülsümdür. Allah-taala bizi sənin yanına sənə hamiləlikdən azad olmaqda kömək etmək üçün göndərmişdir".***

***Bu vaxt onlardan biri Xədicənin sağ tərəfində, o birisi sol, üçüncüsü üzbəüz, dördüncüsü isə arxa tərəfində əyləşdi. Fatimə (ə) pak-pakizə halda dünyaya gəldi. Dünyaya gəldiyi zaman ondan saçan nur bütün Məkkə evlərini işıqlandırdı, şərq və qərbdə nur saçılmayan bir yer qalmadı.***

***Behişt hurilərindən on nəfər əllərində Cənnətdən gətirdikləri teşt və Kövsər suyundan doldurulmuş kuzə ilə evə daxil oldular. Xədicənin qarşısında duran qadın Fatiməni götürüb Kövsər suyu ilə yudu, ağappaq, ətirli iki parçadan biri ilə Fatiməni bələdi, digəri ilə başını bağladı, sonra Fatimə(ə)ni dindirdi. Fatimə (ə) dil açıb Allahın birliyinə, Muhəmmədin isə Onun Rəsulu olmasına şəhadət verərək belə dedi:***

***"Şəhadət verirəm ki, yeganə Allahdan başqa Allah yoxdur. Atam Allahın Rəsulu, peyğəmbərlərin sonuncusudur. Ərim övliyaların sərvəri, iki övladım isə Behişt cavanlarının ağasıdır".***

***Sonra Fatimə (ə) qadınlara ayrı-ayrılıqda salam verərək onların hər birini öz adı ilə səsləyib dindirdi. Qadınlar böyük sevinc və şadlıqla Fatimənin (ə) Mövludu münasibətilə təbrik söyləyib müjdə verirdilər. Hurilər səmada ilk dəfə olaraq elə bir nur gördülər ki, hələ ondan qabaq belə bir nuru heç bir vaxt sezməmişdilər. O zaman xanımlar Xədicəyə dedilər:***

***"Pak-pakizə və bərəkətli nəslə sahib olacaq mübarək övladını qucağına al!"***

***Xədicə döşlərini qızının mübarək dodaqlarına tutdu. Süd cari oldu. Fatimə (ə) ondan sonra hər gün bir aylıq uşaq təki, hər ay isə bir illik uşaq kimi böyüyüb gündən-günə boy atırdı".***[157]

Xanım Fatimə *(ə)* özünü Allah qarşısında son dərəcə xüzu və xüşu halında aparardı. Hədislərdə qeyd olunur ki, "Xanım

---

[157] Əllamə Məclisi, "Biharul-ənvar" əsərinə istinadən.

Fatimeyi-Zəhranın *(ə)* nəfəsi namazda Allah-taalanın qorxusundan çətin gedib-gələrdi”.[158]

Allahın Peyğəmbəri *(s)* buyurur:

***“Qızım ona görə Fatimə adlanıb ki, Allah-taala onu və onu sevənləri oddan (Cəhənnəmdən) uzaq edib”.***[159]

İmam Sadiq *(ə)* buyurur:

***“Fatimənin Allah yanında doqquz adı var: Fatimə, Siddiqə, Mübarəkə, Tahirə, Zəkiyyə, Rəziyyə, Mərziyyə, Mühəddisə, Zəhra”.***[160]

Umarə nəql edir:

“İmam Sadiqdən *(ə)* soruşdum ki, Xanım Fatiməni *(ə)* nə üçün “Zəhra” (parlaq) adlandırıblar? İmam *(ə)* belə buyurdu:

***“Çünki o mehrabda dayananda nuru səma əhlinə ulduzların yerdə olanlar üçün saçması kimi saçırdı”.***[161]

Allahın Peyğəmbəri *(s)* Fatimənin *(ə)* haqqında aşağıdakı hədisi-şərifləri buyurmuşdur:

***“Fatimə bədənimin bir parçasıdır. Onu sevindirən məni sevindirib və onu qəmləndirən məni qəmləndirib. Fatimə mənim üçün ən əziz şəxsdir”;***[162]

***“Həqiqətən Fatimə bədənimin bir parçasıdır. O, mənim gözümün nuru və qəlbimin meyvəsidir. Onu qəmləndirən məni də qəmləndirir və onu şad edən məni də şad edir. O, Əhli-Beytimdən mənə qovuşan ilk şəxsdir”;***[163]

***“Qızım Fatimə dünya xanımlarının Xanımıdır”;***[164]

***“Fatimə Cənnət xanımlarının Xanımıdır”;*** [165]

***“Qızım Fatimə dünyanın – yaradılışın əvvəlindən sonuna kimi – bütün qadınlarının Xanımıdır”.***[166]

---

[158] Həmin mənbə, c. 70, s. 400, hədis-72.
[159] Şeyx Tusi, “Əmali”, s. 300.
[160] Şeyx Səduq, “Əmali”, s. 474, hədis-18.
[161] Şeyx Səduq, “Məani əl-Əxbar”, səh. 64, hədis-15.
[162] Əllamə Məclisi, “Biharul-ənvar”, c. 43, s. 23, hədis-17.
[163] Şeyx Səduq, “Əmali”, s. 394, hədis-18.
[164] Əllamə Məclisi, “Biharul-ənvar”, c. 43, s. 22, hədis-13.
[165] Əhməd ibn Hənbəl, “Musnəd”, c. III, s. 80.
[166] Əllamə Hüveyzi, “Nurus-Səqəleyn”, c. I, s. 338, hədis-135.

Peyğəmbər *(s)* "Fatiməyə *(ə)* buyurub:

***"Allah sənin qəzəbinlə qəzəblənir və sənin sevincinlə şad olur".***[167]

İmam Əli *(ə)* Fatiməni *(ə)* torpağa tapşırarkən buyurmuşdur:

***"Salam olsun sənə ey Allahın Peyğəmbəri! Mənim tərəfimdən, kənarında uyuyan və sənə (başqalarından) daha tez qovuşan qızından!***

***Ey Allahın Peyğəmbəri, qızının kədərləndirici ayrılığından səbrim tükəndi, güc və taqətimi əldən verdim. Lakin sənin böyük kədər yaradan ayrılığın və səni itirmənin böyük müsibəti belə bir vaxtda mənim təsəlli amilimdir. Çünki başının mənim sinəmdə olduğu, mənim qucağımda can verdiyin və öz əlimlə başını qəbrinin daşı üzərinə qoyduğum anları heç vaxt unutmaram.***

***Biz Allah tərəfindənik və Ona tərəf qayıdacağıq. Budur (mənə tapşırdığın əmanət) geri qaytarıldı və girov alındı. Lakin bundan sonra Allah mənim üçün sənin olduğun diyarı seçincəyə qədər mənim (sizin ayrılığınız üçün olan) qəm-kədərim daimi olacaq, gecələrim oyaqlıqla keçəcək. Tezliklə qızın səni ümmətinin və bir-birləri ilə əlbir olanların ona olan zülmlərindən və haqqını qəsb etmələrindən xəbərdar edəcək. Bütün baş verənləri ondan soruş və vəziyyət barəsindəki xəbərlərin hamısını ondan xəbər al.***

***Bu zülmlər baş verərkən sənin getməyindən elə də çox zaman keçməmişdi və xatirələrin itməmişdi. Salam olsun sizə, bezikmək deyil, vida salamı! Buna görə də əgər sizin yanınızdan getsəm, bu, bezikmək və məhəbbətin olmaması demək deyil. Əgər qalsam, bu, Allahın səbir edənlərə vəd etdikləri barəsində pis gümanda olmağımdan deyil".***[168]

**محمد بن يحيى، عن العمركي بن علي، عن علي بن جعفر أخيه، أبي الحسن (عليه السلام) قال: إن فاطمة (عليها السلام) صديقة شهيدة وإن بنات الانبياء لا يطمثن.**

Əli ibn Cəfər qardaşı Əbul Həsəndən *(ə)* (İmam Musa Kazım *(ə)* belə rəvayət etmişdir:

---

[167] Əllamə Hindi, "Kənzul-ummal", hədis-37725.

[168] Seyyid Rəzi, "Nəhcul-bəlağə", xütbə-202.

***“Fatimə siddiqə və şahiddir. Nəbilərin qızları heyz qanını görməzlər”.***[169]

Furat ibn İbrahim öz təfsirində Əmirəl-möminin Əlinin *(ə)* dilindən belə söyləyir:

***“Bir gün Peyğəmbər Fatimənin yanına gəldikdə qızının kədərli olduğunu hiss etdi. Rəsulallah bir az Qiyamət günü barədə danışıb bu məqama yetişəndə belə buyurdu:***

***“Ya Fatimə, Behişt qapısına yetişən zaman o vaxta qədər heç bir kəslə görüşməyən və səndən sonra da görüşməyəcək on iki min Behişt hurisi səni qarşılayar. Onların əlində nurdan ibarət silah olar. Bu hurilər yəhəri sarı qızıl və qırmızı yaqut, yüyəni təzə mirvaridən olan işıq saçan dəvələrə minərlər. Hər dəvənin üstündə sıx-sıx düzülmüş və parlaq incilərlə bəzədilmiş “sundus” süfrəsi açılar. Behiştə gələn zaman cənnət əhli sənin qədəmlərindən şadü-xürrəm olar. Əhli-Beyt tərəfdarları üçün istədikləri şey həmişə və o dəqiqə hazır olar. Allah övliyaları Behiştdə yerləşdirən zaman Həzrət Adəm, ondan sonra isə bütün peyğəmbərlər səni ziyarət etməyə gələrlər”.***[170]

Xanım Fatimə *(ə)* buyurmuşdur:

***“Öz aranızda bir-birinizi çağırdığınız kimi, Peyğəmbəri çağırmayın, yəni onu ehtiramla səsləyin”***[171] ***ayəsi nazil olan zaman Rəsuli-Əkrəmi “Ey Allahın Rəsulu!” – deyə çağırırdım. Lakin Allahın Rəsulu istəyirdi ki, ona “ata” deyə müraciət edim. Üç dəfə heç bir şey söyləmədi. Axırda mənə üz tutub buyurdu:***

***“Ya Fatimə, bu ayə sənin, ailən və sənin nəslin üçün nazil olubdur”.***

***Sonra əlavə etdi:***

***“Mənə “ata” deyə müraciət et, çünki sənin belə çağırmağın qəlbimi daha da şadlandırır və Allahı da razı edir”.***

“Mishabul-ənvar” adlı kitabda Həzrət Əlinin *(ə)* Həzrət Muhəmmədin *(s)* qızı Fatiməyə *(ə)* bəslədiyi dərin məhəbbət və

---

[169] Kuleyni, “əl-Kafi”, c. I, s. 458, hədis-2.
[170] Şeyx Abbas Qumi, “Beytul-əhzan”, s. 10-11.
[171] “ən-Nur”, 63.

ehtiram barəsində söylədiyi hədis qeyd olunmuşdur. Həmin hədisdə Fatimə *(ə)* atası ilə olan mükaliməni xatırlayaraq belə bir məqama toxunmuşdu:

***"Allah-taala sənə salam göndərəni bağışlayar və onu mən Cənnətin harasında olsam mənə qovuşdurar".***[172]

Rəsulullahın *(s)* tərbiyəsi ilə yetişən Fatimə *(ə)* onun həya, ədəb kimi özəlliklərinə[173] və bir çox başqa xüsusiyyətinə sahib oldu. Atasının uyğun gördüyü həyat tərzini mənimsəyərək onun kimi sadə yaşadı.

Kəbul Əhbar deyir:

"Mən onların Quranda vəsfini tapmışam. Onlar Allahın hizbi, İslamın köməkçiləri, Allah vəlisinin ardıcılları, insanlar arasında Allahın alicənab və seçilmiş bəndələridir. Allah-taala onları Öz dini üçün seçmiş, Behişti onlar üçün yaratmışdır. Onlar Behiştdə – Firdovsi-əlada şəffaf mirvari dənəsindən və ləl-cəvahirdən düzəldilmiş otaqlarda yaşayar, müqəddəs şəxsiyyətlərin arasında olar, hələ əl dəyməmiş içkilərdən içərlər. Bu içki onlara məxsus "Təsnim" adlı bulağın suyundandır.

"Təsnim" Allah-taalanın Xanım Fatiməyə *(ə)* əta etdiyi bulaqdır. Onun mənbəyi qübbəsi soyuqluqda kafur, dadı zəncəfil, iyi isə müşk kimi olan bir sütunun dibindədir. O bulaq arxlara axar, Fatimənin *(ə)* dostları da ondan içər. Bu qübbənin dörd sütunu var, bir sütunu yaşıl zümrüddəndir. Həmin sütunun dibində isə təhur və baldan olan şərabla dolu daha iki bulaq vardır. Bu çeşmələrdən hər biri Behiştin aşağı hissəsində, "Təsnim" çeşməsi isə yuxarı başında axır. Onun suyundan yalnız Behiştin xüsusi adamları içəcəklər. Onlar Əlinin *(ə)* dostlarıdırlar. Budur, Allah-taalanın Quranda buyurduğu kəlamın təfsiri:

***"Onlar ağzı bağlı, əl dəyməmiş şərabla sirab olarlar. O elə bir çeşmədir ki, ondan yalnız Allahın ən yaxın adamları içəcəklər".***[174]

---

[172] Şeyx Abbas Qumi, "Beytul-əhzan", s. 11.
[173] "Sünəni-Tirmizi", Mənaqib-60.
[173] "Mutəffifin", 25-28.
[174] "Mutəffifin", 25-28.

Allaha and olsun ki, Əlinin *(ə)* dostlarını ancaq Allahın əhdi-peyman bağladığı şəxslər sevir”.[175]

Bu paraqrafı Xanım Fatimənin *(ə)* sonuncu dəfə yazdırdığı vəsiyyətlə sona yetirmək istərdik. Belə ki, dahi mühəddis Şeyx Kuleyni Əbu Bəkrdən nəql edir:

“İmam Sadiq *(ə)* mənə buyurdu:

***“İstəyirsənmi, Fatimənin vəsiyyətnaməsini sənə oxuyum?***

Dedim:

“Bəli! İstəyirəm”.

İmam Sadiq *(ə)* sandığı açıb bir namə çıxartdı və belə oxudu:

***“Bismillahir-rəhmanir-rəhim. Bu, Peyğəmbərin qızı Fatimənin etdiyi vəsiyyətdir ki, bu vəsiyyətdə “həvaiti səbə” (yeddi bağ): əvaf, dəlal, burqə, mübit, husna, safiyə, məşrəbətu Ümmü İbrahim bağlarını vəsiyyət edirəm ki, vəqf olaraq qalsın. Bunların idarə olunmasını Əmirəl-mömininə həvalə etdim. Onun vəfatından sonra oğlum Həsənin, ondan sonra övladlarımın ən böyüyünün (yəni bu işlər tarix boyu böyük nəvələrimin) ixtiyarında olsun. Allah bu vəsiyyətə şahiddir. Həmçinin, Miqdad və Əbuzər də şahiddir. Bu vəsiyyəti Əl ibn Əbu Talib yazdı”.***[176]

Əhli-sünnə qaynaqlarında Fatimədən *(ə)* cəmi on səkkiz hədis rəvayət edilmiş, hamısı “Kutubi-sittə”də yer almış, bunlardan ikisi həm “Səhihi-Buxari”, həm də “Səhihi-Müslim”də yer almaqdadır.[177] Ondan Əli *(ə)*, Həsən *(ə)* ilə Hüseyn *(ə)*, Aişə, Ümmü Sələmə, Peyğəmbərin *(s)* xidmətçisi Ümmü Rəfinin arvadı Səlma, Ənəs ibn Malik və başqaları rəvayət etmişlər.

Şiə qaynaqlarında isə Xanım Fatimədən *(ə)* gələn hədislərin sayı çoxdur. Həmçinin, o Xanımın *(ə)* hədisləri Peyğəmbərin *(ə)* hədislərindən sonra Əhli-Beyt imamlarının *(ə)* hədisləri kimi dində höccət sayılır və hər kəsin bu hədislərə əməl etməsi şərtdir.

---

[175] Şeyx Abbas Qumi, “Beytul-əhzan”, s. 19.
[176] Həmin mənbə, s. 135.
[177] Diyanet İslam Ansiklopedisi, c. XII, səh. 342.

# حسين

# 1. 4. İMAM HƏSƏN İBN İMAM ƏLİ *(ə)*

İmam Həsən ibn Əli ibn Əbu Talib *(ə)* Həzrət Peyğəmbərin *(s)* qızı Xanım Fatimə *(ə)* ilə Əlinin *(ə)* böyük oğlu, İmam Hüseynin *(ə)* böyük qardaşı və müsəlmanların ikinci imamıdır. Həzrət Həsən *(ə)* islami mənbələrdə Raşidi xəlifələrindən beşincisi qəbul edilir. İmamın *(ə)* Hicrətin ikinci ilində (Miladi 624-cü ildə) anadan olduğu rəvayət edilir. Lakin bəzi qaynaqlara görə, İmam Həsənin *(ə)* Hicrətin üçüncü ilinin Ramazan ayının ortalarında,[178] başqa bir rəvayətdə isə Hicri üçüncü ilin Şaban və ya Ramazan ayının on beşində Mədinədə anadan olduğu bildirilir.

İmam Həsənin *(ə)* nəsil şəcərəsi heç şübhəsiz ki, yuxarıda Peyğəmbərin *(s)* və Əlinin *(ə)* nəsil şəcərəsini qeyd etdiyimiz kimidir. Lakin buna baxmayaraq qaydaya uyğun olsun deyə burada da həmin nəsil silsiləsini təkrar qeyd edirik:

**الحسن بن علي بن أبي طالب بن عبد المطلب بن هاشم بن عبد مناف بن قصي بن كلاب بن مرة بن كعب بن لؤي بن غالب بن فهر بن مالك بن قريش بن كنانة بن خزيمة بن مدركة بن إلياس بن مضر بن نزار بن معد بن عدنان. أمه :فاطمة الزهراء بنت رسول الله محمد بن عبد الله بن عبد المطلب بن هاشم بن عبد مناف بن قصي بن كلاب بن مرة بن كعب بن لؤي بن غالب بن فهر بن مالك بن قريش بن كنانة بن خزيمة بن مدركة بن إلياس بن مضر بن نزار بن معد بن عدنان.**

İmam Həsən *(ə)* Peyğəmbərin *(s)* ən çox sevdiyi nəvəsidir. O vaxta qədər ərəblərdə bilinməyən Həsən adı ona Allahın əmrilə şəxsən Peyğəmbər *(s)* tərəfindən verilmişdir. Ləqəbi Əbu Məhəmməddir. Mənbələrə görə, İmam Həsən *(ə)* Peyğəmbərə *(s)* daha çox oxşayırmış. Hətta bu haqda Əbu Bəkr ibn Əbu Kuhafənin şeiri də vardır:

**بأبي شبيه بالنبي**
**غير شبيه بعلي**

"Əliyə *(ə)* deyil, Peyğəmbərə *(s)* oxşayana atam qurban".[179]

---

[178] Əllamə Məclisi, "Biharul-ənvar", c. 43, s. 250

[179] "Səhihi-Buxari", c. IV, s. 164.

İmam Həsənin *(ə)* babası Peyğəmbərə *(s)* oxşamasını Malik ibn Ənəs də nəql etmişdir:

**قال أنس بن مالك: لم يكن أحدٌ أشبه برسول الله(صلى الله عليه وآله) من الحسن بن علي وفاطمة عليهم السلام.**

"Heç bir kəs Peyğəmbərə *(s)* Həsən *(ə)* qədər oxşamırdı."[180]

İmam Həsən *(ə)* anadan olan zaman ona ad qoyulması haqqında mənbələr belə qeyd edirlər:

**لمّا ولدت السيّدة فاطمة الإمام الحسن (صلى الله عليه وآله)، قالت لعلي (عليه السلام): «سمّه»، فقال الإمام (عليه السلام): ما كنت لأسبق باسمه رسول الله (صلى الله عليه وآله .فلمّا جاء النبي (صلى الله عليه وآله) قال لعلي (عليه السلام): «هل سمّيته»؟ فقال: «ما كنت لأسبقك باسمه»؟ فقال (صلى الله عليه وآله): «ما كنت لأسبق باسمه ربّي عزّ وجلّ»، فأوحى الله تبارك وتعالى إلى جبرائيل أنّه قد ولد لمحمّد ابن فاهبط وأقرئه السلام وهنّئه، وقل له: إنّ علياً منك بمنزلة هارون من موسى، فسمّه باسم ابن هارون، فهبط جبرائيل (عليه السلام) فهنّأه من الله عزّ وجلّ، ثمّ قال: إنّ الله عزّ وجلّ يأمرك أن تسمّيه باسم ابن هارون .قال: «وما كان اسمه»؟ قال: «شبّر»، قال: «لساني عربي»، قال: «سمّه الحسن»، فسمّاه الحسن، ولم يكن يُعرف هذا الاسم في الجاهلية.**

"Fatimə *(ə)* Həsəni *(ə)* dünyaya gətirdikdə Əliyə *(ə)* buyurdu:

***"Ona ad qoy"***.

İmam *(ə)* buyurdu:

***"Ona ad verməkdə Allah Rəsulunun önünə keçə bilmərəm"***.

Peyğəmbər *(s)* gəldi və Əliyə *(ə)* buyurdu:

***"Ona ad verdinmi?"***

İmam *(ə)* buyurdu:

***"Ona ad verməkdə səndən qabağa keçmək istəmədim"***.

Peyğəmbər *(s)* buyurdu:

***"Mən də bu işdə Rəbbimdən qabağa keçə bilmərəm"***.

Bu zaman Allah Cəbrailə *(ə)* vəhy etdi ki, Peyğəmbərin *(s)* övladı doğulub, en, onu salamla və ona gözaydınlığı ver. Cəbrail *(ə)* nazil oldu və Peyğəmbərə *(s)* dedi:

***"Allah sənə salam göndərir və salamdan sonra buyurur:***

***"Həqiqətən Əlinin sənə olan nisbəti Harunun Musaya olan nisbəti kimidir. Uşağa Harunun oğlunun adını qoy"***.

---

[180] "Musnədi-Əhməd", c. III, s. 164.

Peyğəmbər *(s)* buyurdu:

***“Harunun oğlunun adı nə idi?”***

Cəbrail *(ə)* dedi:

“Şübhər”.

Peyğəmbər *(s)* buyurdu:

***“Axı mənim dilim ərəb dilidir”***.

Cəbrail *(ə)* dedi:

“Onu həmin ada uyğun olaraq Həsən adlandır”.

Beləliklə, təzə doğulmuş uşağa Həsən adı verildi. Bu ad cahiliyyə dövründə heç kəsə verilməmişdir”.[181]

İmam Həsən *(ə)* anadan olduqdan sonra süd anasına verildi. O, anadan olanda Peyğəmbər *(s)* əmisi Abbasın xanımı Ümmü Fəzlin evinə getdi. Ümmü Fəzl Peyğəmbəri *(s)* həyəcanlı gördükdə ondan soruşdu:

“Ey Allahın Rəsulu *(s)*! Narahatçılığınızın səbəbi nədir?”

Peyğəmbər buyurdu:

***“Xeyirdir inşallah! Fatimənin bir oğlu oldu. Sən onu da Küsəmin südü ilə əmizdir”***.

Ümmü Fəzl cavab verdi:

“Əlbəttə, ey Allahın Rəsulu *(s)*!”

Bununla birlikdə bir müddət İmam Həsəni *(ə)* Ümmü Fəzl əmizdirdi.[182]

Ümmü Fəzl əvvəlcə Həzrət Həsəni *(ə)*, sonra da qardaşı Həzrət Hüseyni *(ə)* oğlu Küsəm ilə birlikdə bir müddət əmizdirdi.[183]

Lakin daha doğru ilkin mənbələrdə qeyd olunan aşağıdakı hədisdir:

**جاء النبي (صلى الله عليه وآله)، فأُخرج إليه، فقال (صلى الله عليه وآله :(اللّهمّ إنّي أُعيذه بك وولده من الشيطان الرجيم، ثمّ أذّن (صلى الله عليه وآله) في أُذنه اليمنى، وأقام في اليسرى، وعقّ عنه قال: «بسم الله عقيقة عن الحسن»، وقال: «اللّهمّ عظمها**

---

[181] Şeyx Səduq, “əl-Amal”, s. 198.

[182] Mustafa Necati Bursalı, “Hz. Hasan (e) ve Hz. Hüseyn (e), Çile Yayınları, İstanbul 1983, s. 15.

[183] Mustafa Asım Köksal, “İslam Tarihi Hz Muhammed ve İslamiyet”, Köksal Yayıncılık, İstanbul 1999, V, 101.

بعظمه، ولحمها بلحمه، ودمها بدمه، وشعرها بشعره، اللّهمّ اجعلها وقاءً لمحمّد وآله» وحلق رأسه، وأمر أن يتصدّق بزنة شعره فضّة، فكان وزنه درهماً وشيئاً.

"İmam Həsən *(ə)* doğulduqdan sonra Peyğəmbər *(s)* onu götürdü və buyurdu:

***"Allahım mən onun və övladlarının barəsində qovulmuş Şeytanın şərindən sənə sığınıram"***.

Sonra onun sağ qulağına azan, sol qulağına isə iqaməni oxudu və bir əqiqə qurbanlığı da kəsdi. Qurbanı kəsən zaman Allahın Rəsulu *(s)* buyurdu:

***"Allahın adı ilə Həsən üçün qurbanlıq edirəm"***.

Sonra isə belə dua etdi:

***"Allahım bu qurbanlığın sümüyü onun sümüyü, əti onun əti, qanı onun qanı və yunu onun tükü üçün salamatlıq olsun! Allahım, onu Muhəmməd və onun ailəsi üçün möhkəm et!"***

Sonra onun başını qırxıb tükünün çəkisi qədər sədəqə verdi.[184]

"Əl-Kafi" əsərində bir qrup şəxslərdən nəql olunur ki, İmam Cəfər Sadiq *(ə)* Həsən *(ə)* doğulan zaman Peyğəmbərin *(s)* qoç qurbanı kəsdiyini belə nəql edir:

الكافي :العدة، عن أحمد بن محمد، عن الحسين بن سعيد، عن حماد بن عيسى، عن عاصم الكوزي قال :سمعت أبا عبد الله) عليه السلام (يذكر عن أبيه أن رسول الله )صلى الله عليه وآله (عق عن الحسن) عليه السلام (بكبش، وعن الحسين) عليه السلام بكبش وأعطى القابلة شيئا وحلق رؤوسهما يوم سابعهما، ووزن شعرهما فتصدق بوزنه فضة.

***"Peyğəmbər Həzrət Həsən üçün əqiqə qurbanı olaraq bir qoç kəsdi..."***[185]

İmam Həsən *(ə)* atası Əli *(ə)* və anası Fatimeyi-Zəhranın *(ə)* tərbiyəsi sayəsində böyüdü. Babasının, eləcə də atasının məktəbindən elmi dərslər aldı. O, Peyğəmbər *(s)* nəzərində çox dəyərli və üstün bir uşaq idi. Günlərin bir günü Peyğəmbər *(s)* minbərdə söhbət etdiyi vaxt Həsənin *(ə)* ağlamaq səsini duyur, tez minbərdən aşağı düşüb onun qəlbini ələ aldıqdan sonra yenidən minbərə çıxır. Camaat bu hərəkəti barədə Peyğəmbərə *(s)* sual verdikdə, o Həzrət *(s)* belə buyurur:

---

[184] Əllamə Məclisi, "Biharul-ənvar", c. 43, s. 256-257.
[185] Həmin mənbə, c. 43, s. 257.

***“Onu ağlayan gördükdə dözə bilmirəm”***.

Peyğəmbər *(s)* namazını camaatla birgə qılıb qurtardıqdan sonra kiçik Həsəni *(ə)* qucağına alıb belə buyurur:

***“Hər kim məni sevirsə, Həsəni də sevsin”***.

Bir dəfə Peyğəmbər *(s)* Həsəni *(ə)* çiyni üstə götürüb belə buyurdu:

***“Allahım, bu uşağın sayəsində ümid edirəm ki, ümmətimi (bütün pisliklərdən) təmizləyəcəksən”***.

Rəsulullah *(s)* başqa bir hədisində belə buyurub:

***“Həsən və Hüseyni sevən məni də sevir, bu iki nəfərlə düşmənçilik edən mənimlə düşmənçilik edir. Həsən və Hüseyn Cənnət cavanlarının ağasıdır”***.

O Həzrət *(s)* digər bir hədisində isə buyurmuşdur:

***“Həsən və Hüseyn Allah ərşinin iki qoşa nurudur ki, Allahın Cənnəti onlarla fəxr edir”***.

Ümmü Fəzldən belə rəvayət edilir:

“Peyğəmbərin *(s)* ailə fərdlərindən biri evimdə oldu. Allahın Rəsulu *(s)* mənə buyurdu:

***“Gözəl bir uşaq anadan oldu. Sən də onu himayənə al və əmizdir”***.

Mən də o uşağı gəzincəyə qədər əmizdirdim. Sonra Həsəni *(ə)* götürüb Peyğəmbərin *(s)* yanına getdim və qucağına qoydum. Uşaq Peyğəmbərin *(s)* qucağını buladı, onun kürəyinə vurdum. Peyğəmbər *(s)* buyurdu:

***“Allah sənə rəhm etsin, oğluma şəfqət göstər. Sən onu incitdin”***.

Peyğəmbərə *(s)* dedim ki, paltarınızı çıxardın yuyum! Həzrət *(s)* buyurdu:

***“Paltar ancaq qız uşaqları buladığı vaxt yuyulur, oğlan uşaqları buladığı vaxt paltara su səpilir”***.[186]

Peyğəmbər *(s)* Həsən *(ə)* və Hüseynə *(ə)* kəsilən əqiqə qurbanlarından bir bud ev əhli üçün göndərilməsini, geridə qala-

---

[186] Əhməd ibn Hənbəl, “Musnədi Əhməd ibn Hənbəl”, Çağrı yayınları, İstanbul, 1992, c. VI, s. 339.

nının isə sümüklərini qırmadan yeyilməsini və başqalarına da yedirilməsini tövsiyə etmişdir.

İmam Həsən *(ə)* bütün xüsusiyyəti baxımından elmdə, səxavətdə və digər xüsusuiyyətlərində Peyğəmbərin *(s)* varisi idi. Bir gün Peyğəmbər *(s)* məscidində qoca bir kişi düzgün olmayan bir şəkildə dəstəmaz alırdı. Həzrət Həsən *(ə)* ona dəstəmazının səhv olduğunu başa salıb anlatmalı idi, lakin necə? Əgər desəydi ki, dəstəmazın səhvdir, onda qocanın qəlbi sınar, yaxud narahat olub qəbul etməyə bilərdi. Qardaşı Həzrət Hüseyn *(ə)* ilə birlikdə belə qərara gəldilər ki, özləri dəstəmaz alıb həmin qoca kişini də onların bu hərəkətinə münsiflik etməyə çağırsınlar. Həzrət Həsən *(ə)* Həzrət Hüseynə *(ə)* buyurdu:

***"Mən səndən daha yaxşı dəstəmaz alıram"***.

Hüseyn *(ə)* isə onun cavabında belə buyurdu:

***"Yox, mən səndən daha yaxşı dəstəmaz alıram"***.

İkisi də qoca kişinin yanına gəlib buyurdular:

***"Dəstəmaz almağımıza baxıb hansımızın daha düzgün dəstəmaz aldığını söylə"***.

Sonra dəstəmaz almağa başladılar və dəstəmazlarını düzgün, tam şəkildə yerinə yetirdilər. Qoca kişi başa düşdü ki, onlar onun doğru dəstəmaz almadığını demək istəyirlər. Buna görə də onlara belə dedi:

"İkinizin də dəstəmazı düzdür. Dəstəmaz almağı düzgün bilməyən cahil isə mən idim. Siz məni başa salmaq istəyirdiniz. Mən də sizə minnətdaram".

İmam Həsən *(ə)* dövrünün insanlarından daha artıq abid və zahid idi. Həcc mərasimini yerinə yetirməkdən ötrü Məkkəyə gedəndə piyada gedər, namaz qılanda və ya dəstəmaz alanda isə özünü Allah qarşısında aciz görüb bədəni titrəyər və buyurardı:

***"Allahın əmanətini əda etməyin vaxtıdır"***.

Məscidə girib mehrabda durduğu vaxt başını göylərə qaldırıb buyurardı:

***"Allahım, hüzurunda duran şəxs Sənin qonağındır. Sənin günahkar bəndən Sənə doğru gələrək onun pis işlərini bağışlamağını ümid edir. Çünki Sən rəhman və rəhimsən"***.

**روى المبرّد وابن عائشة: أنّ شاميّاً رآه راكباً فجعل يلعنه والحسن لا يردّ ، فلما فرغ أقبل الحسن عليه السلام فسلّم عليه وضحك، فقال : أيها الشيخ! أظنّك غريباً؟ ولعلّك شبّهت، فلو استعتبتنا أعتبناك، ولو سألتنا أعطيناك، ولو استرشدتنا أرشدناك، ولو استحملتنا حملناك، وإن كنت جائعاً أشبعناك، وإن كنت عرياناً كسَوْناك، وإن كنت محتاجاً أغنيناك، وإن كنت طريداً آويناك، وإن كان لك حاجة قضيناها لك، فلو حرّكت رحلك إلينا وكنت ضيفنا الى وقت ارتحالك كان أعود عليك، لأنّ لنا موضعاً رحباً وجاهاً عريضاً ومالاً كثيراً.**

**فلمّا سمع الرجل كلامه بكى، ثم قال : أشهد أنّك خليفة الله في أرضه، والله أعلم حيث يجعل رسالته، وكنت أنت وأبوك أبغض خلق الله إليّ، والآن أنت أحبّ خلق الله إليّ...**

İmam Həsən *(ə)* atla bir küçədən keçərkən Müaviyənin dostlarından biri ilə rastlaşdı. Həmin adam onun İmam Həsən *(ə)* olduğunu biləndə pis sözlər söyləyərək o Həzrəti *(ə)* təhqir etməyə başladı. İmam Həsən *(ə)* isə onun söylədiklərini dinlədikdən sonra buyurdu:

***"Güman edirəm ki, qəribsən, buralı deyilsən, düşmənlər tərəfindən təhrik olmusan. Onların yalan və iftiraları qəlbini bizə qarşı kinlə doldurubdur. Əgər bir ehtiyacın vardırsa həll edək, acsansa doyduraq, paltarın yoxdursa paltar verək, yox əgər qalmağa yer axtarırsansa, səni öz evimə aparıb qonaq saxlayım"***.

Həmin adam İmamın *(ə)* bu rəftarından utanıb söylədiyi pis sözlərdən peşman oldu. O, gördüyü işdən o qədər narahat olmuşdu ki, ağlaya-ağlaya İmamdan *(ə)* üzr istəyib dedi:

"Düşmənlərinizin sözləri məni aldatmışdı. Bundan əvvəl ən çox kin-küdurət və ədavət bəslədiyim adamlar sən və atan idi. İndi isə sənin bu gözəl əxlaqını görəndən sonra ən çox sevdiyim adamlara çevrildiniz. Artıq anladım ki, sizin ailəniz Peyğəmbərin *(s)* xəlifəliyinə layiq olan bir ailədir. Ömrüm boyu sizləri sevəcək və sizin haqqınızı müdafiə edəcəyəm".

Bu kişi ölənə qədər verdiyi sözün üstündə durdu.[187]

Rəvayət olunur ki, bir nəfər İmam Həsənin *(ə)* hüzuruna gəlib dedi:

"Yoxsulluq və bədbəxtlik məni incidir. İsmət və təharət ailəsi olan sizlər məni bu zalım düşmənin əlindən qurtarın".

---

[187] Şəhr Aşub, "əl-Mənaqib", c. III, s. 185.

İmam Həsən *(ə)* xidmətçisini çağırıb ondan soruşdu:

***“Yanında nə qədər pul var?”.***

Xidmətçi cavab verdi:

“Əlli min dirhəm”.

İmam Həsən *(ə)* buyurdu:

***“O pulun hamısını bu kişiyə ver ki, məişəti və işinin sərmayəsinə çevrilsin, qoy yoxsulluqdan qurtarsın”.***

Bir gün İmam Həsən *(ə)* Allah evində ibadətə məşğul ikən bir kişinin dua edib belə söylədiyini eşitdi:

“Allahım! On min dirhəmə ehtiyacım var. Ey Rəhman və Rəhim (mehriban və bağışlayan) Allah, bu neməti mənə nəsib eylə!”

Bunu eşidən İmam *(ə)* evə qayıdıb istədiyi məbləği o kişi üçün göndərdi.

Günlərin bir günündə yoxsul və kasıb bir kişi İmam Həsənin *(ə)* hüzuruna gəlib aşağıdakı şeiri oxudu:

*“Heç bir şeyim, hətta bir dirhəmim belə, qalmadı.*
*Satmaq üçün artıq heysiyyətimdən başqa bir şeyim yoxdur.*
*Sənin onu alacağını bilirəm”.*

Həzrət Həsən *(ə)* dərhal xidmətçisini çağırıb belə buyurdu:

***“Yanında nə qədər pul varsa, ver bu adama”.***

Xidmətçi o adama on min dirhəm pul verdi. Həzrət *(ə)* isə ona belə buyurub üzr istədi:

***“Sənə verə biləcək yalnız bu qədər pulum var idi. Onu al, özünə maya et və ehtiyaclarını təmin elə. Beləliklə, yoxsulluqdan qurtaracağını ümid edirəm”.***

Yuxarıda qeyd etdiyimiz bu bir neçə hekayə göstərir ki, İmam Həsən *(ə)* xalqın axirətini düşündüyü kimi, dünyasını də nəzərdə tuturdu. Çünki dünya ilə Axirət bir-biri ilə əlaqədardır. Bəzən yoxsulluq və aclıq bəzi adamların Axirət haqqında düşüncələrinin qarşısını alır. Onun etdiyi köməkliklər nəinki xalqı dilənçilikdən azad edirdi, hətta onlar üçün iş və çalışmaq zəmini də yaradırdı.[188]

---

[188] İbn Şəhr Aşub, “Mənaqibu Ali Əbu Talib *(ə)*”, c. III, s. 159; Əllamə Məclisi, “Biharul-ənvar”, c. 43.

Hicri 40-cı ilin Ramazan ayının 21-ci gecəsi atası Əli ibn Əbu Talib *(ə)* vəfat edərək hamını matəmə qərq etdi. O zaman 27 yaşında olan Həsən *(ə)* xalqla birlikdə məscidə gələrək minbərə çıxdı və atasının şəhadəti haqqında belə buyurdu:

***"Dünən gecə sizin aranızdan elə bir insan getdi ki, həm keçmişdəki, həm də gələcəkdəkilər arasında elm, təqva və davranışında yeganə və nümunəvi bir şəxsiyyət idi. O şəxs Allahın Peyğəmbəri ilə birgə müharibələrdə iştirak edərək İslamın qorunması uğrunda əlindən gələni əsirgəməmişdi. Düşmənlərin gözündə tikan, dostların könlündə isə solmaz bir gül idi. Əlinin ailəsinə xidmətçi tutmaq üçün yığdığı 700 dirhəmdən başqa dünya malından heç bir şeyi yox idi"***.

Bu sözləri deyib qurtardıqdan sonra hönkür-hönkür ağlamağa başladı və camaat da ona qoşuldu. Daha sonra camaatın imamət və rəhbərlik məqamının özünə aid olduğunu anlamaları və beləliklə də doğru yoldan çıxıb zəlalətə, azğınlığa düşməmələri üçün özü haqqında belə buyurdu:

***"Mən Peyğəmbərin, Əlinin və Fatimənin oğluyam. Mən nübüvvətin parlaq nurlarından bir nümunəyəm. Elə bir ailəyə mənsubam ki, Allah onlardan bütün pislikləri uzaqlaşdırıbdır"***.

Daha sonra Abdullah ibn Abbas ayağa qalxıb dedi:

"Ey camaat! Bu, Peyğəmbərimizin *(s)* və İmamınızın *(ə)* oğludur. Bilin ki, o, Əlinin *(ə)* haqq xəlifəsidir. Ona beyət edin".

Camaat dəstə-dəstə İmama *(ə)* beyət etdilər. Bu zaman Həzrət Həsən *(ə)* onlarla belə bir şərt bağladı:

***"Hər kimlə müharibə etsəm müharibə edəcək, yox əgər məsləhət görüb sülh etsəm onda siz də qəbul edəcəksiniz"***.

Hamısı bu şərti qəbul edib razılıqla öz İmamlarına *(ə)* boyun əydilər.

Xəlifə Müaviyə ibn Əbu Süfyan Şamda özü üçün bir hökumət qurmuşdu. İllər idi ki, Əlinin *(ə)* əleyhinə müxtəlif plan və hiylələr quraşdırırdı. Əlinin *(ə)* əshabını öldürərək azğın bir qrup olan xariciləri meydana gətirmişdi. İndi isə xalqın İmam Əlinin *(ə)* şəhadətindən sonra İmam Həsənə *(ə)* beyət edərək onu Peyğəmbərin *(s)* xəlifəsi seçdiklərini eşitmişdi. Bu vəziyyə-

ti qəbul edə bilməyən Müaviyə Kufə və Bəsrəyə çoxlu casus göndərib əhvalatı öyrənmək, sonra da İmam Həsəni *(ə)* devirmək üçün müxtəlif məkrli planlar hazırlamaq, lazım gəlsə üsyan və həcr-mərclik yaratmaq istəyirdi. İmam *(ə)* casusların tutularaq edam edilmələri barədə əmr etdi. Sonra da Müaviyəyə aşağıdakı məzmunda məktub yazdı.

***“Ey Müaviyə! Casus göndərib hərc-mərclik törətmək istəyirsənmi? Güman edirəm ki, müharibə xəyalına düşmüsən və müharibəni sevirsən. Mən hazıram. Gözlə, müharibə yaxındadır, inşaallah...***

***Ey Müaviyə! Təəccüblənirəm ki, layiq olmadığın bir məqamı zorla ələ keçirmək niyyətindəsən. Nə dində bir fəzilətin var, nə də xoş bir əsərin...***

***Müsəlmanlar mənə beyət etdilər. Əgər sən də onlar kimi etsən, bu İslamın məsləhətinə uyğun olacaq. Batilin dalınca düşmə. Sən də başqa adamlar kimi mənə beyət et. Müsəlmanların qanına hörmət et, ehtiram qoy. Əgər mənim nəsihətlərimi qəbul etməyib üsyana qalxsan və müsəlman qanı töksən müsəlmanlarla əlbir olub səni məhkəməyə çəkəcəyik”.***

Müaviyə isə İmam Həsənin *(ə)* məktubuna belə cavab verdi:

“Əbu Bəkr öz təcrübəsinin çoxluğuna görə xəlifəliyi Əlidən aldığı kimi, mənim də təcrübəm səndən çoxdur və bu məqama səndən daha layiqəm. Əslində sən mənə beyət etməlisən. Beləliklə, xəlifəlik məndən sonra sənin olacaq və mən ömrüm boyu İraqın bütün gəlirini sənə verəcəyəm”.

Müaviyə nəinki beyət etmədi, üstəlik İmamı *(ə)* öldürtmək üçün Kufəyə casuslar göndərməkdən əl çəkmədi. Bu da səbəb oldu ki, Həzrət Həsən *(ə)* namaz qılanda paltarının altından zireh geymək məcburiyyətində qalırdı. Bir dəfə Müaviyənin göndərdiyi satqın adamlardan birisinin atdığı ox zirehə dəydi və bununla da İmam Həsən *(ə)* böyük təhlükədən qurtardı.

Çox keçmədi ki, Müaviyə müsəlmanların birliyini təmin etmək bəhanəsi ilə İmamla *(ə)* müharibə etmək üçün İraqa böyük bir ordu göndərdi. İmam Həsən *(ə)* Müaviyə ordusunun hərəkət etməsi xəbərini eşidən kimi, camaatı məscidə çağırıb min-

bərə çıxdı. Allaha həmd, Peyğəmbərə *(ə)* isə salavat və salam göndərdikdən sonra xalqa xitab edib buyurdu:

***"Müaviyə ordusu ilə birlikdə İraqa tərəf gəlir. Müharibə üçün hazır olmağınız, dininizi və şərəfinizi qorumağınız zəruridir".***

Lakin o zamanın pis və rahatlıqsevən, beyətlərinə sədaqətə elə də böyük əhəmiyyət verməyən cahil insanları İmama *(ə)* cavab vermədilər. Ədiyy ibn Hatəm xalqın arasından ayağa qalxıb orada olanlara belə dedi:

"Siz necə millətsiniz? Bu ölümü yada salan səssizlik nə deməkdir? Nəyə görə İmama *(ə)*, Peyğəmbərinizin *(s)* oğluna cavab vermirsiniz? Allahın əzabından qorxun və İmamınızın *(ə)* əmrinə tabe olun. Qalxın, kişi kimi silah götürüb şərəf, namus və dininizi müdafiə edin. Beləliklə, Allah və İmamınızı *(ə)* özünüzdən razı salın".

Bu sözlər bəzilərində böyük təsir qoydu. Nəhayət, xalq müharibə üçün hazır olduğunu elan etdi. Ədiyy ibn Hatəm İmama *(ə)* xitab edərək dedi:

"Biz hazırıq və sənin bu barədəki əmrlərini gözləyirik".

İmam Həsən *(ə)* buyurdu:

***"Mən Nüxəylə tərəfə gedirəm. Bilirəm ki, sözünüzün üstündə durmayacaqsınız və Müaviyə sizi aldadacaq. Lakin buna baxmayaraq kim istəyirsə, mənimlə gəlsin".***

İmam Həsən *(ə)* Nüxəyləyə çatdığı vaxt "müharibə, müharibə!" şüarını səsləndirənlərin əksəriyyətinin orada olmadığını və əmrinə itaət etməkdiklərini gördü. Çünki orada olanlar aşağıdakılardan ibarət idi:

1. İmamın *(ə)* əmrinə itaət etmək üçün deyil, Müaviyə ilə döyüşmək üçün gələn xaricilər.
2. Müharibədə qənimət əldə etmək üçün gələnlər.
3. Qəbilələrinin başçısının əmrini yerinə yetirmək üçün gələnlər.

Buna görə də İmam Həsən *(ə)* belə buyurdu:

***"Məni də məndən əvvəl imam olan atam Əli kimi aldatdınız. İmamla, yoxsa Allah və Peyğəmbərinə inanmayanlarla müharibə aparacaqsınız?"***

İmam Həsən *(ə)* Həkəm adlı bir kişini sərkərdə seçərək dörd min əsgəri sərəncamına verdi və Anbar şəhərinə göndərdi. Həkəm orada Müaviyənin qoşununun qarşısını almalı və İmamın *(ə)* növbəti əmrlərini gözləməli idi. Lakin Müaviyə pul və yalan vədələrlə Həkəmi aldatdı. Nəticədə Həkəm 200 nəfərlə birgə Müaviyə ordusuna qoşuldu. İmam *(ə)* Bəni-Murad qəbiləsindən bir nəfəri onun yerinə seçib buyurdu:

***"Hərçənd sizə də etibar etmək olmaz. Lakin bu, bir imtahandır, siz də gedin"***.

Müaviyə onun gəldiyini eşidən kimi bir neçə nəfər nümayəndə və beş min dirhəm pul göndərib ona hökumətlik vədini verdi. O da aldanıb Müaviyə ordusuna qoşuldu.

İmam Həsən *(ə)* sərkərdərlərinin Müaviyə ordusuna qoşulduğu xəbərini eşidəndə çox narahat olub buyurdu:

***"Mən demədimmi ki, sizdə vəfa yoxdur və hiylə ilə rəftar edirsiniz?"***

Nəhayət, İmam Həsən *(ə)* əsgər yığıb özü müharibəyə getmək barədə qərara gəldi. Əshabının köməkliyi ilə qırx min nəfər toplanmışdı. İmam *(ə)* Mədainin Sabat şəhərinə gedərək oradan on iki min əsgəri qabaqcıl olaraq fədakarlıq və əhval-ruhiyyələrini sınamaq üçün Ubeydullah ibn Abbasın sərkərdəliyi və Qeys ibn Səd ibn Ubadənin müavinliyi altında Müaviyə ilə müharibə etməyə göndərdi. Müaviyə bir milyon dirhəm verib bəzi məmurları İmamın *(ə)* ordusuna göndərdi ki, Qeysi aldatsınlar. Qeys isə qəbul etməyib dedi:

"Müaviyə bunu bilsin ki, dinimi məndən pulla satın ala bilməz. Mən heç bir hiyləyə aldanıb İmamımdan *(ə)* əl çəkmərəm".

Məmurlar Qeysdən ümidlərini kəsdilər və əsl sərkərdə olan Ubeydullah ibn Abbasın yanına gəlib onu aldatmağa müvəffəq oldular. Ubeydullah ibn Abbas gecə ikən dostları ilə birgə Müaviyənin tərəfinə keçdi. İmamın *(ə)* ordusu başsız qaldığı üçün Qeys onun yerinə keçib camaat namazını qılandan sonra sərkərdə oldu.

Qeysin fədakarlıqla döyüşməsi Müaviyəni dəhşətə salmışdı. Buna görə də mahir hiyləgər və fitnəkar olan Müaviyə ordu-

nun arasına casuslar göndərərək “Müaviyə ilə İmamın *(ə)* barışdığı və burada olanlarla yersiz döyüşdüyü” şayiəsini yaydı. Bununla da Müaviyə xariciləri İmamdan *(ə)* ayırıb aldatmağa müvəffəq oldu və onları İmam Həsənlə *(ə)* düşmən etdi.

Xaricilər Müaviyənin casuslarının sözlərinə inanıb İmamın *(ə)* əmrini rədd edərək, guya “İmamın *(ə)* da atası kimi kafir olduğunu və Müaviyə ilə əməkdaşlıq etdiyini” elan etdilər. Onlar İmam Həsənin *(ə)* çadırına həmlə edərək əllərinə keçəni qarət etdilər, hətta İmamın *(ə)* səccadəsini belə, ayağının altından çəkib apardılar. Nəticədə İmam Həsən *(ə)* oranı tərk etmək məcburiyyətində qaldı. Səhabələrdən bir dəstə onun ətrafında ikən atını mindi. Elə bu vaxt xaricilərdən biri gizləndiyi yerdən çıxıb İmamı *(ə)* yaraladı. İmam Həsəni *(ə)* dostlarından birisinin evinə aparıb müalicə etdilər. İş o yerə çatmışdı ki, İmamın *(ə)* sərkərdələrinin çoxu gizlincə Müaviyəyə məktub göndərib ona belə vədlər verirdilər:

“Biz sənin əmrinə itaət edirik. Tezliklə İraqa gəl. İmamı tutub sənə təhvil verəcəyik”.

Müaviyə həmin məktubları öz məktubu ilə bir yerdə İmam Həsənə *(ə)* göndərib məktubunda belə yazdı:

“Bunlar sənin atana vəfa etmədilər, səninlə də birlikdə olmayacaqlar. İndi səninlə müqavilə bağlayıb müharibədən əl çəkməyə hazıram”.

Xaricilərin əməlləri və dostlarının xəyanəti Həzrət Həsəni *(ə)* Müaviyə ilə sülh mqaviləsi bağlamaq məcburiyyətində qoymuşdu. Lakin bu, Müaviyəyə tabe olub onun zülmkarlığını qəbul etmək deyildi. Bu, yalnız Müaviyə ilə hərbi dayandırmağa dair müqavilə bağlamaq mənasında idi. Çünki əgər Müaviyə müharibədə qələbə çalsaydı, İslamın bütün hədəfləri məhv olub aradan gedəcəkdi. Bundan əlavə, Rum imperatoru İslam ölkəsinə həmlə etmək fikrindəydi və bu ixtilaf onun üçün böyük bir fürsət idi. Dərd və həsrətdə qovrulan İmam Həsən *(ə)* qəm və kədərlə vəfasız əshabına qarşı belə buyurdu:

***“Bilirəm ki, mənə hiylə və kələk qurubsunuz. Həyasız və dinsiz bir dəstə məni tamamilə Müaviyəyə təslim etdi. Vay ol-***

***sun halınıza! Allaha and olsun ki, Müaviyə verdiyi sözlərə vəfa etməyəcəkdir. Mən sizin üçün haqq dini bərpa etmək istəyirdim, lakin mənə yardım etmədiniz, əksinə mənə qarşı çıxıb xəyanət etdiniz. Sizin bu əməlləriniz məni müqaviləni imzalamağa məcbur etdi. Allaha and olsun ki, əgər köməyim olsaydı, bu işi Müaviyəyə həvalə etməzdim. Çünki xəlifəliyi Bəni-Üməyyə üçün haram bilirəm. Çox keçməz ki, Müaviyənin rəftarının acı nəticələrini dadarsınız”***.

İmam *(ə)* saziş etmək məcburiyyətində qaldığına görə Müaviyəyə belə bir məktub yazdı:

***“Mən haqqı yaşadıb batili məhv etmək niyyətində idim. Allahın Kitabı və Peyğəmbərin sünnəsini xalqa hakim etmək istəyirdim. Lakin xalq mənimlə eyni fikirdə olmadı və məcbur qaldığım üçün səninlə sülh edirəm. Bu sülh üçün bir sıra şərtlər qoysam da sənin onların heç birinə əməl etməyəcəyini çox gözəl bilirəm. Ancaq çox keçməyəcək ki, bunun sənin üçün heç bir faydası olmayacaq və işindən peşman olacaqsan”***.

Sonra İmam Həsən *(ə)* əmoğlusu Əmr ibn Harislə sülh müqaviləsini müzakirə etdi, müzakirə bitəndən sonra müqavilənin şərtlərini bəyan etdi və Əmr ibn Harisi onu imzalamağa göndərdi. Müqavilənin bir neçə maddəsi bunlardan ibarət idi:

1. Həzrət Əli *(ə)* tərəfdarlarının qanının tökülməsinin qarşısı alınacaq və onların hüquqları tapdalanmayacaq;
2. Həzrət Əli *(ə)* və tərəfdarları söyülməyəcəklər;
3. Müaviyə Allahın Kitabı və Peyğəmbərin sünnəsinə əsasən əməl edəcək;
4. İmamın *(ə)* əshabı və dostları harada olursa-olsunlar Müaviyə və adamlarının şərindən amanda qalacaqlar;
5. İmam *(ə)* Müaviyəni “əmirəl-möminin” olaraq tanımayacaq və xütbələrdə onun adını əsla çəkməyəcək;
6. Müaviyə xəlifəliyi özündən sonra başqa bir nəfərə tapşırmayacaq.

Müqavilənin imzalanmasından sonra Kufə Müaviyənin diqqət mərkəzinə çevrildi. O, bir cümə günü Nüxəylədə cümə namazı əsnasında belə dedi:

“Ey camaat! Mən sizin namaz qılmağınız və ya oruc tutmağınız üçün müharibə etmədim. Sizlər istəməsəniz də hökmdarınız olmaq üçün müharibə etdim. Mən Həsən ibn Əli ilə imzaladığım müqavilənin maddələrini ayağım altına qoyub əzirəm”.

Lakin Müaviyənin rəftarının bəzi məqamları açıq-aydın göstərirdi ki, o, İmamın *(ə)* nüfuzundan bərk narahatdır və qorxur. Buna görə də Müaviyə müqavilənin müəyyən maddələrini həyata keçirmək məcburiyyətində qaldı. Belə ki, Kufə valisi Ziyad İmamın *(ə)* əshabından birisini tutdurmaq istəyəndə o Həzrət *(ə)* əhvalatı Müaviyəyə yazdı və Müaviyə Ziyadı bu işi üçün danladı.

Nəhayət, Müaviyə özündən sonra oğlu Yezidi xəlifə təyin etmək qərarına gəldi. Lakin İmam Həsənlə *(ə)* imzaladığı müqavilə bu işdə ona mane olurdu. Buna görə də xalqdan zorla beyət almaq və oğlunun xəlifəliyinin sağlam təminatı üçün yol açmaq məqsədi ilə İmamı *(ə)* zəhərlətmək istəyirdi. Bu məqsədni gerçəkləşdirməkdən ötəri İmamın *(ə)* arvadı Cudəni aldadaraq ona bir qabda zəhər göndərdi və vəd etdi ki, əgər ərini zəhərləsə, ona yüz min dirhəm verib oğlu Yezidə arvad edəcək.

Şeytani vəsvəsələr, pul və şöhrət hərisliyi İmam Həsənin *(ə)* arvadının gözünü tutub qəlbini kor etdi və səbəb oldu ki, tarixin heç bir zaman unutmayacağı bir xəyanəti həyata keçirərək Müaviyənin bu murdar təklifini qəbul etsin. İmam Həsən *(ə)* dəfələrlə öz arvadının əli ilə şəhid olacağını söyləmişdi. Yaxınları Həzrətə *(ə)* dəfələrlə demişdi:

“İndi ki, belədir boşa və evindən qov onu”.

Lakin o Həzrət *(ə)* belə buyurmuşdu:

***“O, həlalik bir günah etməyib, buna görə də əgər onu qovsam yaxşı iş görməmiş olaram. Çünki o, bu işi bəhanə edərək – “məni günahsız olduğum halda evdən qovdu” deyəcək, bununla da xəyanətini gizlədib gördüyü işin doğru olduğunu iddia edəcək. Bilin ki, Müaviyə özünün xəyanətli əməllərindən əl çəkməyəcək. Arvadımı boşasam da özünü məzlum cildinə salıb planını həyata keçirməyə cəhd göstərəcəkdir”***.

Nəhayət, Cudə Hicri 50-ci ilin Səfər ayının 28-də (miladi təqvimlə 1 mart 670-ci il), havanın çox isti və İmamın *(ə)* oruc olduğu bir gündə onun süd içdiyi qaba zəhər töküb iftar üçün hüzuruna gətirdi. İmam *(ə)* zəhərli süddən bir az içdikdən sonra arvadına tərəf dönüb buyurdu:

***"Ey Allahın və Peyğəmbərin düşməni, məni öldürdün, Allah səni öldürsün. Allaha and olsun ki, sən və Müaviyə zəlil olacaqsınız!"***

Çox keçmədi ki, İmamın *(ə)* dediyi kimi də oldu, Cudə Müaviyənin sarayından qovularaq, Müaviyə isə ağır bir xəstəliyə tutularaq öldü. İmam Həsən *(ə)* vəfat etdikdən sonra Mədinədəki Bəqi qəbristanlığında torpağa tapşırıldı.[189]

İmam Həsənin *(ə)* varlığı Müaviyəyə baha başa gəlirdi. O Həzrət *(ə)* Yezid ibn Müaviyənin hakimiyyətə gəlməsi önündə böyük bir maneə hesab olunurdu. Buna görə də Müaviyə İmam Həsəni *(ə)* aradan götürməyi qərara aldı. O, durmadan qərarını gerçəkləşdirməyin yolları barədə düşünürdü, yollar axtarırdı. Nəhayət, Müaviyə bir çox böyük səhabənin qətlə yetirilməsində istifadə etdiyi metoda (bala zəhər qataraq çoxlu səhabənin canına qəsd etmişdi) əl atdı. Belə ki, hiyləgər Müaviyə Maliki Əştəri Misirə gedərkən və başqa bir çoxlarını da bu yolla aradan qaldırmışdı. İbn Əbu əl-Hədid "Nəhcul-Bəlağənin şərhi"ndə yazır:

"Müaviyə oğlu üçün beyət almaq istədikdə Həsən ibn Əlinin *(ə)* varlığı başqa hər kəsdən daha çox maneə idi. Buna görə də zəhər göndərdi və o Həzrəti *(ə)* zəhərlətdi. Müaviyə Əşəs ibn Qeysin qızı Cudəni (İmam Həsənin *(ə)* həyat yoldaşı) aldadıb ona söz verdi ki, əgər İmama *(ə)* zəhər verib qətlə yetirsə, onu oğlu Yezidə alacaq. Cudə zəhəri, güman ki, iftar zamanı İmama *(ə)* yedizdirdi və zəhər o Həzrətin *(ə)* içini parçaladı".

İmam Sadiqdən *(ə)* nəql olunan bir hədisdə buyurulur:

***"Əşəs ibn Qeysin əli Əmirəl-möminin Əlinin qanına batdı. Çünki qızı Cudə İmam Həsəni zəhərlədi, oğlu Muhəmməd isə İmam Hüseynin qətlinə şərik oldu"***.

---

[189] Əllamə Məclisi, "Biharul-ənvar", c. 43, s. 267.

İmam Baqirdən *(ə)* nəql edilən bir hədisdə buyurulur:

***"İmam Həsən canını tapşırarkən ağlayırdı. Ətrafına toplaşan şəxslər o Həzrətdən soruşdular:***

***"Ey Peyğəmbər övladı, siz də ağlayırsınızmı? Siz ki, Allah və Onun Rəsulunun yanında uca məqam sahibisiniz. Rəsulullah sizin haqqınızda nə qədər qiymətli kəlam buyurmuşdur. Siz iyirmi dəfə piyada Həcc ziyarətinə getmiş, üç dəfə bütün malınızı yoxsullarla bölüşmüsünüz".***

***İmam belə buyurdu:***

***"Yalnız iki şey üçün ağlayıram. Biri Allah divanından qorxu, ikincisi isə dostlarımın ayrılığı".***

Bir başqa bir rəvayətdə isə deyilir:

"İmam Həsən *(ə)* son nəfəsini verərkən qardaşı Hüseyni *(ə)* çağırtdırdı, vəsiyyətlərini etdi və buyurdu:

***"Dünyamı dəyişdiyimdə qüslümü özün ver və kəfənlə. Sonra baban Peyğəmbərin məzarına apar ki, ziyarət edim. Daha sonra isə Bəqi məzarlığında dəfn et. Əgər buna qarşı çıxanlar hörmətsizlik edərlərsə, qarşılıq verməyin və münaqişədən çəkinin".***

Həzrət Hüseyn *(ə)* buyurdu:

***"Qardaş, can verərkən sənin nələr keçirdiyini bilmək istəyirəm".***

İmam *(ə)* buyurdu:

***"Əlini mənə ver. Ölüm mələyini gördükdə əlini sıxacam".***

Həzrət Hüseyn *(ə)* əlini İmam Həsənin *(ə)* əlinə qoydu. Bir neçə saatdan sonra İmam Həsən *(ə)* qardaşının əlini sıxdı. Həzrət Hüseyn *(ə)* dodaqlarını İmam Həsənin *(ə)* qulağına yaxınlaşdırdı. İmam Həsən *(ə)* buyururdu:

***"Ölüm mələyi mənə deyirdi:***

***"Sənə müjdələr olsun! Allah-taala səndən razıdır və baban Qiyamət gününün şəfaətçisidir".***

Həsən *(ə)* və Hüseyn *(ə)* Peyğəmbər *(s)* həyatda ikən kiçik yaşlarda olublar. Allahın Rəsulu *(s)* vəfat edərkən Həsənin *(ə)* səkkiz, Hüseynin *(ə)* isə yeddi yaşlarında olduğu məlumdur. Bu səbəbdən də onlar haqqında o dövrlə əlaqəli nəql edilən rəvayət-

lərin demək olar ki, hamısı Rəsulullahın *(s)* onlara olan sevgisini göstərməkdədir. Lakin bu mövzuda olan rəvayətlərlə yanaşı, sonrakı dövrlərdə cərəyan edən hadisələrdə o həzrətlərin *(ə)* rolundan xəbər verən rəvayətlər də vardır.

Xəlifə Əbu Bəkrə istinad edilən məşhur bir rəvayətə görə, Peyğəmbərin *(s)* Həsən *(ə)* haqqında belə buyurduğu nəql edilməkdədir:[190]

***"Mənim bu oğlum seyiddir. Ümidvaram ki, Allah onunla iki mömin topluluğunu barışdıracaqdır"***.

Peyğəmbərdən *(s)* nəql edilən bu hədis ilə sonrakı hadisələr nəzərə alınarkən ortada açıq bir möcüzə olduğunu görmək mümkündür.

**أمالي الصدوق :أبي، عن محمد العطار، عن الأشعري، عن يوسف بن الحارث، عن محمد بن مهران، عن علي بن الحسن، عن عبد الرزاق، عن معمر، عن إسماعيل ابن معاوية، عن نافع، عن ابن عمر قال :قال رسول الله) صلى الله عليه وآله :(إذا كان يوم القيامة زين عرش رب العالمين بكل زينة، ثم يؤتى بمنبرين من نور طولهما مائة ميل فيوضع أحدهما عن يمين العرش، والاخر عن يسار العرش، ثم يؤتى بالحسن و الحسين عليهما السلام فيقوم الحسن على أحدهما والحسين على الاخر، يزين الرب تبارك وتعالى بهما عرشه كما يزين المرأة قرطاها.**

***"Qiyamət günü olduqda Rəbbimin minbəri zinətlənər, sonra iki minbər gətirilər. Onun nuru yüz mil uzunluqdan görünər. Onlardan biri Ərşin sağ, digəri isə sol tərəfində qoyular. Sonra Həsən onun birinə, Hüseyn isə digərinə sahib olar. Allah onların ikisi ilə Öz Ərşini zinətləndirər..."***.[191]

Bəra ibn Azib bir gün kiçik Həsəni *(ə)* Peyğəmbərin *(s)* çiyinlərində ikən görmüş və Rəsulullahın *(s)* belə buyurduğunu nəql etmişdir:

***"Allahım, mən onu sevirəm, Sən də onu sev!"***[192]

**قرب الإسناد :ابن طريف، عن ابن علوان، عن جعفر، عن آبائه، عن علي) عليهم السلام قال :بينما الحسن والحسين يصطرعان عند النبي) صلى الله عليه وآله (فقال**

---

[190] Buxari, "Fəzailu Əshabin-Nəbi", 3746; Tirmizi, "Mənaqib", 46.
[191] Əllamə Məclisi, "Biharul-ənvar", c. 43, s. 275.
[192] "Buxari, "Fəzailu Əshabin-Nəbi", 3747.

النبي) صلى الله عليه وآله :هي يا حسن فقالت فاطمة :يا رسول الله تعين الكبير على الصغير؟ فقال رسول الله) صلى الله عليه وآله :جبرئيل يقول :هي يا حسين وأنا أقول : هي يا حسن.

"Bir dəfə Həsən *(ə)* qardaşı Hüseynlə *(ə)* Rəsulullahın *(s)* hüzurunda güləşirdi. Peyğəmbər *(s)* Həsənin *(ə)* tərəfində idi. Xanım Fatimə *(ə)* bu mənzərəni seyr edərkən buyurdu:

***"Atacan, Hüseyn kiçikdir, lakin siz həmişə Həsənin tərəfini tutursunuz"***.

Allahın Rəsulu *(s)* buyurdu:

***"Ya Fatimə! Cəbrail Hüseynə kömək edir"***.[193]

Digər bir rəvayətdə İslam Peyğəmbərinin *(s)* Həsəni *(ə)* qucağına alaraq oxşadığı, kiçik Həsənin *(ə)* də əlləri ilə Rəsulullahın *(s)* saqqalı ilə oynadığı və Peyğəmbərin *(s)* onun üçün belə dua etdiyi ifadə edilməkdədir:

***"Allahım, mən onu sevirəm, Sən də onu sev!"***[194]

قرب الإسناد :ابن طريف، عن ابن علوان، عن جعفر، عن أبيه عليهما السلام قال:قال رسول الله صلى الله عليه وآله :الحسن والحسين سيدا شباب أهل الجنة وأبوهما خيرمنهما.

Rəsulullah *(s)* belə buyurur:

***"Həsən və Hüseyn Cənnət cavanlarının ağasıdırlar. Ataları isə onlardan daha xeyirlidir"***.[195]

Bu sözü söyləyənin öz nəfsinə görə söyləmədiyi, sözünün vəhyə uyğun olduğu, Qurani-Kərimə istinad edildiyi bəlli olur, hansı ki, müqəddəs Kitabda buyurulur:

***"O, öz həvasından danışmır. Bu ancaq (Allah dərgahından) nazil olan bir vəhydir"***.[196]

Rəsulullah *(s)* yenə Həsən *(ə)* və Hüseyn *(ə)* haqqında aşağıdakı qiymətli kəlamını buyurub və üç dəfə təkrar edib:[197]

---

[193] Əllamə Məclisi, "Biharul-ənvar", c. 43, s. 276.
[194] Buxari, "Fəzailu Əshabin-Nəbi", 3749.
[195] Əllamə Məclisi, "Biharul-ənvar", c. 43, s. 277.
[196] "ən-Nəcm", 53/ 3-4.
[197] İbn Hənbəl, "Musnəd", c. I-II, s. 331.

***“Bunlar mənim oğullarım və qızımın oğullarıdır.***[198] ***Allahım, mən onları sevirəm, Sən də onları sev!***[199] ***Onları sevəni də sev!”***.

Əbu Əyyub Ənsari nəql edir:

“Bir gün Rəsulullahın *(s)* yanına getmişdim. Həsən *(ə)* və Hüseyn *(ə)* önündə oynayırdılar.

Soruşdum:

“Ya Rəsulullah *(s)*, onları çoxmu sevirsən?”

Peyğəmbər *(s)* buyurdu:

***“Necə sevməyim? Onlar mənim dünyada öpüb iylədiyim iki ətirli reyhanımdır”***.[200]

Peyğəmbərin *(s)* xanımı Aişə deyir:

“Peyğəmbər *(s)* üzərində qara yundan toxunmuş naxışlı bir örtü olduğu halda səhər tezdən evdən çıxdığı vaxt Həsən *(ə)* gəldi. Peyğəmbər *(ə)* onu əbanın içinə aldı. Sonra Hüseyn *(ə)* gəldi. O da Həsənin *(ə)* yanına girdi. Sonra Fatimə *(ə)* gəldi. Peyğəmbər *(s)* onu da əbanın içinə aldı. Sonra Əli *(ə)* gəldi. Peyğəmbər *(s)* onu da əbanın içinə aldıqdan sonra bu ayəni oxudu:[201]

***“Ey Əhli-Beyt! Allah sizdən çirkinliyi (günahı) yox etmək, sizi tərtəmiz (pak) etmək istəyir!”***[202]

**الخصال :الحسن بن محمد بن يحيى العلوي، عن جده، عن الزبير بن أبي بكرعن إبراهيم بن حمزة الزبيري، عن إبراهيم بن علي الرافعي، عن أبيه، عن جدته زينب بنت أبي رافع قالت :أتت فاطمة بنت رسول الله صلى الله عليه وآله بإبنيها الحسن والحسين عليهما السلام (إلى رسول الله) صلى الله عليه وآله في شكواه الذي توفي فيه فقالت :يا رسول الله هذان ابناك فورثهما شيئا فقال :أما الحسن فإن له هيبتي وسؤددي، وأما الحسين فإن له شجاعتي وجودي.**

Zeynəb bint Əbi Rafe nəql edir:

“Fatimə bint Muhəmməd *(ə)* bir gün Həsən *(ə)* və Hüseynlə *(ə)* birlikdə Peyğəmbərin *(s)* yanına gəldi. Fatimə *(ə)* buyurdu:

---

198 Tirmizi, “Mənaqib”, 46.
199 İbn Hənbəl, “Musnəd”, c. V-VI, s. 369.
200 İbn Hənbəl, “Musnəd”, c. I-II, s. 85.
201 Asim Köksal, “İslam Tarihi Hz. Muhammed ve İslamiyet”, c. IV, s. 105.
202 “əl-Əhzab”, 33/33.

***"Ey Allahın Rəsulu, bunların ikisi də sənin övladlarındır. Bunlara irs buraxacaqsanmı?"***

Peyğəmbər *(s)* buyurdu:

***"Həsən mənim heybətimi, Hüseyn isə şücaət və comərdliyimi irs aparır"***.[203]

Ənəsdən rəvayət edildiyinə görə, Rəsulullaha *(s)* "Əhli-Beytdən *(ə)* ən çox kimi sevirsən?" – deyə soruşulduğu zaman o Həzrət *(s)* belə buyurub:

***"Həsən və Hüseyni"***.[204]

Bir gün Peyğəmbər *(s)* nəvəsi Həsəni *(ə)* boynunda daşıyırdı. Bunu görən birisi dedi:

"Ey uşaq, sən nə gözəl bir miniyə mindin!"

Rəsulullah *(s)* o adama baxaraq buyurdu:

***"O da nə gözəl minicidir!"***.

Yenə bir gün Peyğəmbər *(s)* Məscidi-nəbəvidə müsəlmanlara xütbə oxuyurdu. Bu vaxt Həsən *(ə)* camaatın içərisindən iməkləyərək gəlirdi. Peyğəmbər *(s)* söhbətini saxlayaraq minbərdən düşdü, onu qaldırdı və önünə otuzdurdu.[205] Sonra da bu ayəni oxudu:

***"Bilin ki, mal-dövlət və övladınız sizin üçün (Allah qarşısında) ancaq bir imtahandır"***.[206]

İmam Həsənin *(ə)* bir çox övladı vardı. Onların adları Həsən, Zeyd, Təlhə, Qasım, Əbu Bəkr və Abdullahdır. Bunların hamısı İmam Hüseynlə *(ə)* birlikdə Kərbəlada şəhadətə yetişdilər. Digər oğulları isə Əmr, Əbdürrəhman, Hüseyn, Muhəmməd, Yaqub və İsmail idi ki, İmam Həsənin *(ə)* nəsli bunlarla davam etmişdi. İmam Həsənin *(ə)* nəslindən gələnlərə "Şərif seyidləri" deyilir.[207]

İmam Əli *(ə)* oğlu Həsənə *(ə)* aşağıdakı məzmunda bir vəsiyyətnamə yazmışdır. Vəsiyyətnamənin surəti belədir:

---

[203] Əllamə Məclisi, "Biharul-ənvar", c. 43, s. 263.
[204] Tirmizi, "Mənaqib", 46.
[205] Əhməd ibn Hənbəl, "Musnəd", c. V, s. 25.
[206] "əl-Ənfal"", 8/28.
[207] Heyət, "Hz. Hasan ibn Ali", İslam Alimleri Ansiklopedisi, Türkiye Gazetesi, İstanbul, tarixsiz, s. 148.

*“Sizə Allahdan qorxmağı tövsiyə edirəm. Tövsiyə edirəm ki, dünya sizdən üz çevirsə də ona əhəmiyyət verməyin, itirdiyiniz şeyə görə kədərlənməyin. Haqq söz danışın, Axirət savabı qazanmaq üçün hərəkət edin! Zalımın düşməni, məzlumun yardımçısı olun!*

*Sizə (yəni Həsənlə Hüseynə), qalan övladlarıma, ailə üzvlərimə, həmçinin məktubumu oxuyacaq hər kəsə Allahdan qorxmağı vəsiyyət edirəm. İşlərinizi nizama salın, aranızdakı ixtilafları kənar edin. Babanız Rəsulullahdan eşitmişəm ki, o Həzrət belə buyurub:*

*“İki küsmüş şəxsin münasibətlərini qaydaya salmaq bir illik müstəhəb namaz və orucdan daha üstündür”.*

*Siz Allah, yetimləri unutmayın, onların ağzını bir loxma çörək intizarında qoymayın, onlara qarşı etinasızlıq etməyin!*

*Siz Allah, qonşularınıza diqqətli olun! Bu, Peyğəmbərin sifarişidir. O Həzrət qonşuya yaxşılıq barədə o qədər tapşırırdı ki, elə güman etdik qonşuları bir-biri üçün vərəsə qərar verəcək.*

*Siz Allah, Quranı yaddan çıxarmayın! Çalışın ki, Quranın hökmlərinə əməl etməkdə başqaları sizi ötməsinlər!*

*Siz Allah, namaza diqqətli olun! Namaz dinimizin sütunudur!*

*Siz Allah, Allahın evi Kəbəyə diqqətli olun! Nə qədər ki, qüdrətiniz var onu boş qoymayın! Əgər Kəbəni gözdən salsanız, özünüz də gözdən düşüb etibarınızı itirərsiniz!*

*Siz Allah, Allah yolunda malınız, canınız və dilinizlə cihad etməyi unutmayın! Bir-birinizlə əlaqələri möhkəmlədin! Allah yolunda bəxşiş verin! Bir-birinizə qarşı etimadsızlıq və soyuqluqdan əl çəkin! Yaxşı işlərə doğru çağırmağı və pis işlərdən çəkindirməyi tərk etməyin! Çünki bunları tərk etsəniz zalımlar sizə qalib gələr, əlacsız qalıb Allaha dua edərsiniz, amma dualarınız müstəcab olmaz!*

*Ey Əbdülmütəllib övladları! Camaatın qanını tökməyə aludə olmayın! Mənim ölümümdən sonra “Əmirəl-möminin öldürüldü!” – deyə qəzəb və intiqam hissi ilə haray salmayın! Mənim qisasım üçün qatilimdən başqasını öldürməyin!*

***Bilin ki, mənə bircə qılınc zərbəsi vurulub, siz də qatilimə bircə zərbə vurun. Qatilimə işgəncə verməyin! Allah Rəsulundan eşitmişəm ki, o Həzrət belə buyurub:***

***“Hətta itə də işgəncə verməkdən çəkinin!”***

***“Ey oğlum, hər şeydən əvvəl Allahdan layiqincə qorx! Allahın bütün əmrlərinə riayət et! Onu yada salmaqla qəlbini yaşat! Onun ipindən möhkəm yapış! Əgər bu ipi əlində saxlaya bilsən, Rəbbinlə arandakı əlaqədən daha qüvvətli bir bağ ola bilməz. Qəlbinə nəsihət etməklə onu yaşat. Zahidliklə, dünya malını və ona olan sevgini tərk etməklə onu öldür. Qəlbin haqq, güclü, hikmət, ədalət, elm və doğru söz ilə daim parlaq və nurlu olsun. Öz nəfsinə və qəlbinə daha əvvəl yaşamış insanların qissə və hekayələrini danış. Keçmişdə insanların başına gələn fəlakət və müsibətləri düşün. Eyni şeylərin yenidən təkrarlanmaması üçün diqqətli ol. Ata-babalarının torpaqlarını və yaşadıqları yerləri gəz və onların qoyub getdiklərinə bax. Onların nə etdiklərini, hardan-haraya və nə üçün köç etdiklərini öyrən. Bunları öyrəndiyin zaman onların yaxın dostları və sevdiklərindən ayrılıb yad ellərə getdiklərini görəcəksən. Eyni şəkildə sən də çox yaxında bilmədiyin və görmədiyin yerlərə köçüb gedəcəksən. O halda, gələcəkdəki yerini indidən hazırla və təmizlə. Axirətini dünyaya satma”.***[208]

Bundan sonra Həzrət Əli *(ə)* ölüm yatağında ikən ***“La ilahə illəlah”*** kəlməsini çox söylədi. Rəvayət edildiyinə görə, onun son sözü belə oldu:

***“Kim (dünyada) zərrə qədər yaxşı is görmüşdürsə, onun əvəzini görəcəkdir (mükafatını alacaqdır). Kim də zərrə qədər pis iş görmüşdürsə, onun zərərini görəcəkdir (cəzasını çəkəcəkdir)”.***[209]

İmam Əli *(ə)* İmam Həsənə *(ə)* başqa bir vəsiyyətində buyurmuşdur:

---

208 Mahmud Sami Ramazanoğlu, “Həzrət Əliyyul-Murtəza”, İpək yolu nəşriyyat, Bakı 2009. s. 90-92.

209 “əz-Zilzal”, 99/7-8.

***"Bəndə dünyada məşru olmayan şeylərdən faydalanarsa, təmin etdiyi fayda dünyəvi baxımdan dəyərli də olsa Allah qatında o bəndənin dərəcəsi düşər.***

***Ey oğlum! Mənim vəsiyyətimdən əldə edəcəyin şeylərin ən xeyirlisi Allahdan qorxub ona sığınmaq, sənə fərz buyurduğu əmrləri yerinə yetirmək, babalarının və keçmiş insanların yoluyla getməyindir. Sən öz nəfsindən necə arxayınsansa, səndən əvvəl yaşamış babaların da eyni şəkildə özlərindən əmin idilər. Sən necə düşünürsənsə, onlar da eynisini düşünürdülər. Nəhayət, ən yaxşı və ən doğru hesab etdikləri yolu seçdilər və öz vəzifələrini nöqsansız yerinə yetirməyə çalışdılar. Bu səylər nəticəsində onların əldə etdiklərini əldə edib tutduqları yolu tutmaq istəyirsənsə, o zaman onların yolu ilə get. Lakin bu qərarın şübhələrini körükləyərək düşmənçilik hisslərini alovlandırmasın. Əksinə ən doğru olanı və həqiqəti mənimsəyib öyrənməyə xidmət etsin"***.

İmam Həsən *(ə)* gözəl söz deyər, dediyi sözləri də mənalı, başadüşülən şəkildə açıqlayardı. Onun bu dərəcədə gözəl danışmasına səbəb şübhəsiz ki, insanların ən düzgün danışanı Həzrət Peyğəmbərin *(s)* yanında yetişməsidir. Mövzumuzla əlaqəli olaraq bu rəvayəti göstərə bilərik:

İmam Həsəndən *(ə)* soruşuldu:

"Doğru iş nədir?"

İmam *(ə)* buyurdu:

***"Pisliyi yaxşılıqla uzaqlaşdırmaqdır"***.

"Şərəf nədir?" – deyə soruşuldu:

İmam Həsən *(ə)* buyurdu:

***"Cəmiyyəti yaxşılıqla uzaqlaşdırmaqdır"***.

"İnsanlıq, doğru şəxsiyyət nədir?" – deyə soruşuldu.

İmam *(ə)* buyurdu:

***"Pis söz və pis işlərdən uzaq olmaq, halal mal əldə edərək yerli yerində işlətməkdir"***.

"Mərhəmət nədir?" – deyə soruşuldu:

İmam Həsən *(ə)* buyurdu:

***"İşin asandına baxmaq, xor görməyi yasaqlamaqdır"***.

“Comərdlik nədir?” – deyə soruşuldu:
İmam *(ə)* buyurdu:
***“Darlıqda və bolluqda ehsan etməkdir”***.
“Qorxaqlıq nədir?” – deyə soruşuldu:
İmam Həsən *(ə)* buyurdu:
***“Dosta qarşı çıxmaq, düşməndən də qaçmaqdır”***.
“Qənimət nədir?” – deyə soruşuldu:
İmam *(ə)* buyurdu:
“***Təqvaya rəğbət etmək və dünyadan da üz çevirməkdir”***.
“Hilm nədir?” – deyə soruşuldu:
İmam Həsən *(ə)* buyurdu:
***“Hirsinə qalib gəlmək və nəfsə sahib olmaqdır”***.
“Zənginlik nədir?” – deyə soruşuldu:
İmam *(ə)* buyurdu:
***“Az da olsa Allahın verdiyi qismətə nəfsin razı olmasıdır”***.
“Yoxsulluq nədir?” – deyə soruşuldu:
İmam Həsən *(ə)* buyurdu:
***“Nəfsin hər şeyə düşkün olması, onun ac gözlü olmasıdır”***.
“Mədəniyyət nədir?” – deyə soruşuldu:
İmam *(ə)* buyurdu:
***“Səni maraqlandıran hər hansı mövzuda söz söyləməyindir”***.
“Şərəf, ucalıq nədir?” – deyə soruşuldu:
İmam Həsən *(ə)* buyurdu:
***“Qüsurun olmadığı halda zərəri ödəmən və günahı bağışlamandır”***.
“Ağıl nədir?” – deyə soruşuldu:
İmam *(ə)* buyurdu:
***“Aldığın hər şeyi qəlbin yadda saxlamasıdır”***.
“Üstünlük nədir?” – deyə soruşuldu:
İmam Həsən *(ə)* buyurdu:
***“Gözəli seçmək və çirkini də tərk etməkdir”***.
“Qadağan etmək nədir?” – deyə soruşuldu:
İmam *(ə)* buyurdu:
***“Sənə təqdim edilsə də zövq verən şeyi tərk etməyindir”***.

Bir gün İmam Həsəndən *(ə)* soruşdular:

"Mürüvvət nədir?"

İmam *(ə)* belə buyurdu:

***"Mürüvvət bəndənin dinini mühafizə edib nəfsini qorxutması, qonağını yaxşı qarşılaması, elmi müzakirələrdə gözəl davranmasıdır"***.

"Ululuq nədir?" – deyə soruşuldu:

İmam Həsən *(ə)* buyurdu:

***"Qonşuya əziyyət etməmək və çətinliklərə sinə gəlməkdir"***.

"Kərəm nədir?" – deyə soruşuldu:

İmam *(ə)* buyurdu:

***"Kərəm isə istəmədən verməkk, yerinə görə yemək yedirmək, hər kəsə yumşaq davranmaq və verdiyini də artıqlamasıyla verməkdir"***.[210]

İmam Həsənin *(ə)* belə bir nəsihətini də qeyd etmək lazımdır:

***"İnsanlar dörd qrupdur: Bir qisminin yaxşılıq və xeyirdə nəsibi vardır, fəqət əxlaqdan nəsibi yoxdur. Bir qismi əxlaqlıdır, fəqət yaxşılıq və xeyirdən nəsibi yoxdur. Bir qisminin nə əxlaqdan nə də yaxşılıq və xeyirdən nəsibləri vardır. Bunlar insanların ən pisləridir. Bir qismi isə həm əxlaqlıdır, həm də yaxşılıq və xeyirdən nəsibləri vardır. Bunlar da insanların ən fəzilətliləridir"***.

Bir gün İmam Həsən *(ə)* insanlara belə bir nəsihət etdi:

***"Kim dünyanı istəyərsə onu özünə bağlayar. Dünyaya bağlanmayan onun nemətlərinə dəyər verməz. Dünyaya tamah edən ona hökm edənin köləsidir"***.

Yenə də İmamın *(ə)* belə bir nəsihətini qeyd etmədən keçmək olmaz:

***"Dünya sənin üçün kifayət qədərdir. Hamısı sənin olsa belə, yenə də xoşbəxt olmazsan. Çünki dünyada bugünkü həyat ilə dünənki həyatı eyni şəkildə davam etdirənlər aldanmış,***

---

[210] Adəm Saraç, Nazənin Güllər, "Hz. Hesen (e) ve Hz. Hüseyn (e)", İpəkyolu nəşriyyatı, Bakı-2009, s. 119-120.

***Axirətdə peşman olmuşlar. Buna görə də səhvlərini araşdırmayanın əskikləri vardır. Əskiklər içində yaşayan bir kimsə üçün ölüm daha xeyirlidir”***.

Əbu Nuaym rəvayət edir:

“Həzrət Həsən *(ə)* Allah yolunda iki dəfə bütün malını xərclədi. Hətta ayaqqabısının bir tayını verib digər tayını özünə saxladı. Bir şəxs İmam Həsənin *(ə)* yanına gələrək varlı ikən kasıbladığını, vəziyyətinin çətinliyini və əlindəki malın azaldığını söylədi. İmam *(ə)* buyurdu:

***“Məndən istədiyin miqdarı təmin etməyim, əlbəttə, çətindir. Sənə lazım olan miqdarı verməkdə də acizəm. Allah üçün nə qədər mal xərcləsən də azdır. Əlimdə olan mala qənaət edib şükür etsəm, xalqı yığıb məni onlardan sənin üçün mal istəmək çətinliyinə salmasan, bütün malımı sənə verərəm”***.

Həmin şəxs dedi:

“Ey Rəsulullahın *(s)* qızının oğlu! Mən malın azını qəbul edər, verəcəyin miqdara da qarşı şükür edərəm. Verə bilməsən də xalqa sənin çarəsiz olduğunu deyərəm”.

İmam Həsən *(ə)* vəkilini yanına çağıraraq onunla məsləhətləşdi, sonra isə buyurdu:

***“Artıq olan malı gətir”***.

Həzrət *(ə)* özündə olan əlli min dirhəmi hazırladı və vəkilindən soruşdu:

***“Səndə olan beş yüz dinarı nə etdin?”***.

Vəkil cavab verdi:

“Yanımdadır”.

İmam Həsən *(ə)* buyurdu:

***“Onu da gətir”***.

Həzrət *(ə)* həm beş yüz dinarı, həm də əlli min dirhəmi o şəxsə verdi”.[211]

İmam Həsənin *(ə)* şəhid edilməsi Müaviyəni çox sevindirdi. O, İbn Abbası gördükdə dedi:

“Xəbərin var ki, Həsən ibn Əlin ölüb?”

---

[211] Hədislər üçün bax: Əllamə Məclisi, “Biharul-ənvar”, 43 - 44-cü cildlər.

İbn Abbas dedi:

"Buna görəmi təkbir dedin?"

Müaviyə cavab verdi:

"Bəli!".

İbn Abbas dedi:

"Allaha and olsun ki, onun ölümü sənin əcəlini təxirə salmayacaq, məzarı sənin qəbrini genişlətməyəcək. Onun şəhid edilməsi ilə başımıza gələn müsibət Həzrət Peyğəmbəri *(s)*, Əmirəl-mömininini *(ə)* itirməyin müsibəti qədər böyükdür".

İmam Həsənin *(ə)* şəxsində görürük ki, varlı və imkanlı şəxslər kasıblar, eləcə də imkansızlar qarşısında böyük məsuliyyət daşıyırlar. Dərin mənəvi əhdlərə və müsəlmanlar arasında bərqərar olmuş dini qardaşlıqlara əsasən varlılar kasıbların ehtiyaclarını mümkün qədər təmin etməyə çalışmalıdırlar. İmam Həsən *(ə)* bu barədə təkcə sifarişlər etməmiş, hətta öz zamanında insansevərliyin və zəifpərvərliyin bir nümunəsi olmuşdur.

Həzrət Həsən *(ə)* elm, təqva, zahidlik və ibadətlə yanaşı, eyni zamanda öz dövrünün səxavətli şəxsi, məzlumların köməkçisi, miskinlərə kömək edən bir şəxs kimi də tanınmışdır. O Həzrətin *(ə)* vücudu dərdli ürəklərin, fağır və imkansızların pənahı, ehtiyacı olanların ümid yeri idi. Belə ki, bir kasıb belə, İmamın *(ə)* evindən əliboş geri qayıtmamışdır. İstənilən qəlbisınıq bir şəxs dərdini açıb ona söyləsəydi, İmam Həsən *(ə)* onun dərdinə məlhəm olacaq bir çarə mütləq tapardı. Hətta bəzi vaxtlar imkansız şəxs ehtiyacını demədən və xəcalət təri tökmədən İmam *(ə)* onun ehtiyacını ödəyər, ona utanmağa icazə verməzdi.

Bu fəsli Əllamə Cəlaləddin Süyutinin fikirləri ilə bitiririk. O, kitabında yazır:

"Həsən ibn Əli *(ə)* bir çox əxlaqi dəyər və insani fəzilətlərə malik idi. O Həzrət *(ə)* alicənab, səbirli, vüqarlı, mətin, səxavətli və camaatın hörmət bəslədiyi (rəğbətini qazanmış) bir şəxsiyyət idi".[212]

---

[212] Cəlaləddin Süyuti, Tarixul-xuləfa, s. 189.

II FƏSİL

# ƏMƏVİLƏR XİLAFƏTİ VƏ İMAM HÜSEYNİN *(ə)* XİLAFƏTƏ QARŞI MÖVQEYİ

## 2. 1. ƏMƏVİLƏRİN SÖY-KÖKÜ

Əməvilərə "Bəni-Ümayyə" də deyilir. Bu şəcərə islami mənbələrdə xəbis şəcərə kimi xarakterizə edilməkdədir. Mənbələr yazır ki, Əqil ibn Əbu Talib Əmirəl-möminin Əlini *(ə)* axtarırdı, Həzrət Əlini *(ə)* Kufə məscidinin həyətində oturmuş halda tapıb hüzuruna gəldi və dedi:

"Ya Əmirəl-möminin, sənə Allahın rəhməti və bərəkəti olsun!"

Əqilin gözləri kor olmuşdu. Həzrət Əli *(ə)* ona cavab verdi:

***"Ey Əbu Yezid, sənə salam olsun!"***

Sonra üzünü oğlu Həsənə *(ə)* tutub buyurdu:

***"Dur, əmini minikdən düşür və oturt"***.

Həsən *(ə)* belə də etdi. Həzrət Əli *(ə)* yenə də üzünü Həsənə *(ə)* tutub buyurdu:

***"Get, əmin üçün təzə köynək, əba, şalvar və ayaqqabı al".***

O da gedib onları hazırladı. Ertəsi gün Əqil təzə paltarlarını geyinib yenə də Əlinin *(ə)* yanına gəldi, o Həzrətə *(ə)* əmir salamı verdi və dedi:

***"Ya Əmirəl-möminin, sənə salam olsun!"***

Həzrət Əli *(ə)* cavab verdi:

***"Sənə salam olsun, ya Əbu Yezid!"***

Əqil dedi:

"Dünyadan bəhrələndiyini görmürəm. Mənim nəfsim sən öz nəfsini xilafətdən razı etdiyin kimi razı deyildir".

Əli *(ə)* buyurdu:

***"Ya Əbu Yezid, maaşımı və payımı versələr sənə verəcəyəm".***

Əqil Əmirəl-mömininin *(ə)* yanından Müaviyənin yanına getdi. Əqilin gəlişinə görə göstəriş verilmişdi ki, sarayda oturacaqlar düzülsün. Müaviyə öz ətrafındakıları oturacaqlara oturt-

du. Əqil daxil olan kimi əmr etdi ki, ona 100 min dirhəm versinlər. O, da qəbul etdi.

Başqa bir gün, Əmirəl-mömininin *(ə)* vəfatından və İmam Həsənin *(ə)* Müaviyəyə "beyəti"ndən sonra Əqil Müaviyənin yanına gəldi. Ətrafındakıları Müaviyənin yanında idilər. Müaviyə dedi:

"Ey Əbu Yezid, mənim ordumla qardaşının ordusunun mövqeyini mənə açıqla. Hər ikisini də görmüsən".

Əqil dedi:

"İndi sənə deyərəm. Allaha and olsun, qardaşımın mövqeyindən keçərkən gördüm ki, Rəsulullahın *(s)* gecəsi kimi gecəsi, gündüzü kimi gündüzü vardır. Yalnız fərqi burasındadır ki, Rəsulullah *(s)* onların arasında deyildir. Orada namaz qılanlardan başqa heç bir səs-səda eşitmədim. Sənin ordunun mövqeyindən keçəndə bir qrup münafiq və süsbədələr, Peyğəmbərin *(s)* dəvəsini hürkütmək istəyənlər və Əmr ibn As məni qaşıladı".

Əqil bu sözdən sonra Müaviyədən soruşdu:

"Sənin sağ tərəfində oturan kimdir?"

Müaviyə cavab verdi:

"Bu Əmr ibn Asdır".

Ərəb nəsil elminin mahir bilicilərindən olan Əqil dedi:

"Bu həmin adamdır ki, doğulan kimi altı kişi onun atası olduğunu iddia etdi, sonda Qureyşin qəssabı və dəvə kəsəni digərlərinə qalib gəldi. O, birisi kimdir?"

Müaviyə cavab verdi:

"Zöhhak ibn Qeys Tehridir".

Əqil dedi:

"Bəli, and olsun Allaha, atası erkək keçilərin nütfə pulunu yaxşı alırdı".

Əqil yenə soruşdu:

"O birisi kimdir?"

Müaviyə cavab verdi:

"Əbu Musa Əşəridir".

Əqil dedi:

"Bu o pis əməl sahibi olan oğrunun oğludur".

Müaviyə gördü ki, Əqil onun ətrafındakıları qəzəbləndirdi və bilirdi ki, o, Müaviyənin özü barəsində də bir söz, xoşagəlməz bir şey deyəcəkdir. Buna görə də istədi ki, Əqildən özü barəsində soruşsun, Əqil də o mövzunu desin. Bununla da ətrafındakıların qəzəbi yatsın. Odur ki, səsləndi:

"Ey Əbu Yezid, mənim barəmdə nə deyirsən?

Əqil dedi:

"Məni bu işə salma".

Müaviyə əl çəkmədi:

"Deməlisən".

Əqil dedi:

"Həmmaməni tanıyırsanmı?"

Müaviyə cavab verdi:

"Ey Əbu Yezid, Həmmamə kimdir?"

Əqil dedi:

"Sənə xəbər verdim"

Sonra Əqil durub getdi.

Müaviyə nəsilşünası çağırtdırıb soruşdu:

"Həmmamə kimdir?"

Nəsilşünas dedi:

"Amandayammı?"

Müaviyə dedi:

"Bəli".

Nəsilşünas dedi:

"Sənin ata tərəfdən nənəndir. Yəni cahiliyyət dövrünün bayraqdarlarının ağsaqqalı olan Əbu Süfyanın anasıdır".

Müaviyə üzünü ətrafındakılara tutub dedi:

"Bilin ki, mən də sizinlə bərabər, bir az da artıq oldum. Hirslənməyin!"[213]

İbn Abbasdan nəql etmişlər ki, o, deyirdi:

"Lənətlənmiş şəcərə Bəni-Üməyyədir. Yəni Həkəm ibn Əbil Asın övladlarıdır".

---

[213] İbn Əbil Hədid "Nəhcul-bəlağənin şərhi" 30-cu xütbənin təfsiri.

İbn Abbas deyir:

“Peyğəmbər *(s)* yuxuda gördü ki, Mərvanın övladları bir-birinin ardınca o Həzrətin *(s)* minbərinə dırmaşırlar. Rəsulullah *(s)* yuxusunu onlarla otaqda tək olduğu vaxt Əbu Bəkr ibn Əbu Quhafə və Ömər ibn Xəttaba danışdı. Peyğəmbər *(s)* onlardan ayrılanda eşitdi ki, Həkəm Allah Rəsulunun *(s)* yuxusunu danışır. Bu hadisə Peyğəmbərə *(ə)* ağır gəldi. Ömər ibn Xəttab bu sirri dağıtmaqda müttəhim oldu. Sonradan isə məlum oldu ki, bu işdə Ömər ibn Xəttabın heç bir günahı yoxdur. Həkəm isə onların danışıqlarına qulaq asırmış. Bir müddət sonra Rəsulullah *(s)* onu sürgün etdi”.

İbn Əbil Hədid “Nəhcul-Bəlağə”nin 27-ci məktubunun şərhində bir münasibətlə əl-Mötəzid Billahdan, Abbasi xəlifəsinin bir məktubundan söhbət açır, onu bəyənilmiş məktublardan hesab edərək kitabında nəql edir. Məktub çox müfəssəl yazılmışdır. Lakin biz yuxarıdakı ayənin təfsiri münasibətilə onun bir hissəsini burada qeyd edirik:

“...Onun rəhbərlik etdiyi qrup və tutduğu bayraqdan başqa heç bir qrup və heç bir bayraq İslamın ziddinə qaldırılmamışdır. Ühüd və Xəndək döyüşlərinin, eləcə də baş vermiş digər döyüşlərin başçısı Əbu Süfyan ibn Hərbdir. Onun dalınca gedənlər Allahın Kitabı və Peyğəmbərin *(s)* dilində dəfələrlə, həmçinin müxtəlif münasibətlərlə lənətlənən Bəni-Üməyyə ailəsi olmuşdur. Onların küfr və nifaqı Allahın elmi və hökmündə öz əksini tapmışdır. Əbu Süfyan döyüşə səy etdiyi kimi hiyləgərliklə də düşmənçilik edirdi. Döyüş üçün qoşun hazırladı, sonda qılınclar onu məğlub etdi, Allahın fərmanı qələbə çaldı. Onların bundan xoşu gəlmirdi, lakin çarəsiz qalıb zahirdə müsəlman oldular, küfrü isə olduğu kimi məxfi saxlayır və özlərini ondan çıxarmamışdılar. Peyğəmbər *(s)* Əbu Süfyan və övladlarını onun və onların halından xəbərdar olduğu halda qəbul etdi.

Bəni-Üməyyə iki qrupa bölünür. Onlardan biri Əyas, digəri isə Ənabis qrupudur. Əyas qrupu As, Əbul As, İys və Əbul İysdən, Ənabis isə Hərb, Əbu Hərb və Əbu Süfyandan ibarətdir. Bu bölgüyə əsasən Mərvan və Osman Əyas qrupundan, Müaviyə və övladları isə Ənabisdəndirlər. Bu qupların hər biri barə-

sində çoxlu söz, onlardan hansının digərindən üstünlüyü barəsində isə şiddətli ixtilaf vardır.

Əbu Süfyan ibn Hərbin müsəlman olması barəsində Muhəmməd ibn Cərir Təbəri (ö. 923) "Tarix" əsərində (Hicrətin 8-ci ilinin Ramazan ayının 20-də olan Məkkənin fəthi hadisəsində) yazır:

"Peyğəmbərin *(s)* əmisi Abbas Əbu Süfyanı zəmanətə götürüb Allah Rəsulunun *(s)* yanına gətirdi. Ömər ibn Xəttab Peyğəmbərdən *(s)* neçə dəfə icazə istədi ki, Əbu Süfyanı öldürsün. Lakin Rəsulullah *(s)* buyurdu ki, ona sabah səhərədək aman vermişik. Ertəsi gün Peyğəmbərin *(s)* yanına gəldikdə, o Həzrət *(s)* buyurdu:

***"Vay olsun sənə ey Əbu Süfyan! Hələ də Allahdan başqa Allah olmadığını bilməyin vaxtı çatmamışdırmı?"***

Əbu Süfyan dedi:

"Atam-anam sənə qurban, nə qədər sileyi-rəhm edirsən, səbirlisən və kərimsən. Niyə, güman edirəm ki, əgər Allahdan başqa Allah olsaydı mən belə çarəsiz qalmazdım".

Sonra Rəsulullah *(s)* buyurdu:

***"Mənim Allahın Rəsulu olduğumu bilməyinin vaxtı çatmamışdırmı?"***

Əbu Süfyan cavab verdi:

"Atam-anam sənə qurban, sənin sileyi-rəhm etməyin, səbrin və kərəmin valehedicidir. Lakin bu iş barəsində qəlbim şəhadət vermir".

Bu anda Abbas ona dedi:

"Vay olsun sənə, boynun vurulmamış şəhadət de".

Əbu Süfyan istər-istəməz şəhadət gətirdi və öldürülməkdən canını qurtardı. Deməli, Əbu Süfyan elə birinci gün İslamı məcburi qəbul etdi və sonralar da təəssüflər olsun ki, İslamın həyat bəxş edən təlimləri onun ruhuna azca da olsa təsir etmədi. Çünki bu tarixdən təqribən 15 il sonra xalq Osman ibn Əffana beyət edərkən Əbu Süfyan Bəni-Üməyyə qarşısında açılan siyasi fəzada ürəyindəkiləri dilə gətirməklə öz etiqadını açıqlayır".

İbn Əbil Hədid “Nəhcul-bəlağə” əsərinin 139-cu xütbəsinin şərhində xalqın Osmana ibn Əffana beyətindəki olayları şərh edərək yazır:

“Şüəbi deyir:

Osman ibn Əffan evinə gedən kimi o qədər Bəni-Üməyyə toplaşdı ki, ev doldu. Qapını bağladılar. Əbu Süfyan dedi:

“Ey Bəni-Üməyyə indi xilafəti top kimi bir-birinizə ötürün. Əbu Süfyanın and içdiyinə and olsun, nə hesab və nə də əzab vardır, nə bir Cənnət nə də Cəhənnəm vardır, nə yenidən oyanmaq və nə də Qiyamət vardır!”

Bu hadisə Təbərinin “Tarix” əsərindən əlavə, Məsudinin “Muruc əz-Zəhəb”, İbn Əsakirin “Təhzib” və İbn Əsəm əl-Kufinin “əl-Futuh” kitablarında da nəql olunmuşdur.

Muhəmməd ibn Əli ibn Babəveyh Qumi, İbn Abbasdan nəql edir:

“Bir gün Əbu Süfyan Rəsulullahın *(s)* yanına gəlib dedi:

“Bir şey soruşmaq istəyirəm”.

Rəsulullah *(s)* buyurdu:

***“Əgər istəyirsənsə deyim nə soruşmaq istəyirsən?”***

Əbu Süfyan dedi:

“Buyur!”

Peyğəmbər *(s)* buyurdu:

***“İstəyirsən mənim ömrümün nə qədər olacağını soruşasan”***.

Əbu Süfyan dedi:

“Bəli, ya Rəsulullah”.

Həzrət *(s)* buyurdu:

***“Mən 63 il yaşayacağam”***.

Əbu Süfyan dedi:

“Şəhadət verirəm ki, sən doğru deyirsən”.

Həzrət *(s)* buyurdu:

***“Dildə şəhadət verirsən, qəlbində isə imanın yoxdur”***.

İbn Abbas deyir:

“Allaha and olsun, o Həzrət *(s)* buyurduğu kimi idi. Əbu Süfyan münafiq idi. Onun nifaqının şahidlərindən biri də bu idi ki, ömrünün axırlarında kor olmuşdu. Bir gün bir məclisdə otur-

muşduq. Həzrət Əli ibn Əbi Talib *(ə)* də məclisdə idi. Azan verildi. Elə ki, ***“Əşhədu ənnə Muhəmmədən Rəsulullah”*** deyildi, Əbu Süfyan soruşdu:

“Bu məclisdə mülahizə edilməli bir adam varmı?”

Oradakılardan biri dedi:

“Xeyr”.

Sonra Əbu Süfyan dedi:

“Görün bu Haşimi kişi adını harada qərarlaşdırdı?”

Dərhal Əli *(ə)* buyurdu:

***“Allah gözünü ağlar qoysun ey Əbu Süfyan, bunu o deyil, Allah etmişdir. Odur ki, Allah-taala buyurmuşdur:***

**ورفعنا لک ذکرک.**

***“Sənin adını ucaltdıq”***. [214]

Əbu Süfyan dedi:

“Allah o adamın gözünü ağlar qoysun ki, mülahizə olunmalı bir adam varmı soruşduqda o, məni ələ salaraq dedi ki, yoxdur”.

Bu, Müaviyənin atası Əbu Süfyanın iman gətirməsi idi. Anası isə Məkkədə "məşhur" olan Hinddir.

Ustad Fəqih Mahmud Şəhabi “Ədvari Fiqh” kitabının 3-cü cildində yazır:

“Müaviyənin anası Hind istər İslam və müsəlmanlarla düşmənçilik, istərsə də Peyğəmbərlə *(s)* müharibə, Rəsulullaha *(s)* əziyyət etmək, həmçinin Peyğəmbərin *(s)* əmisi Həzrət Həmzəyə qarşı ədəbsizlik və daşürəklilik baxımından çarəsizlik və məcburiyyət qarşısında müsəlman olan əqidəsiz həyat yoldaşı Əbu Süfyanla münasib olmuşdur.

İbn Əbil Hədid “Nəhcul-Bəlağə”nin 64-cü məktubunun şərhində Muhəmməd ibn Ömər Vəqidinin “Məğazi” kitabından (Məkkənin fəthi hadisəsinin şərhi əsnasında) nəql edir ki, Əbu Süfyan Abbasa dedi:

“Mən indiyədək belə bir dəstə görməmişəm və heç kəsdən də eşitməmişəm. Subhanəllah, heç kəsin bu dəstə ilə döyüşməyə

---

[214] "Əş-şərh", 4

qüdrəti yoxdur. Ey Abbas, qardaşın oğlunun padşahlığı böyümüşdür".

Abbas dedi:

"Vay olsun sənə, bu padşahlıq deyil, peyğəmbərlikdir".

Vəqidi yazır:

"Abbas Əbu Süfyana dedi:

"Tələsik gedib, Muhəmməd *(s)* (şəhərə) daxil olmamış qohumlarını tap".

Əbu Süfyan tələsik Kədda qapısından Məkkəyə daxil oldu. O, fəryad edərək deyirdi:

"Əbu Süfyanın evinə girən hər bir kəs amandadır".

Həyat yoldaşı Hind Ütbə qızının yanına gəlcək Hind soruşdu:

"Nə xəbər var?"

Əbu Süfyan dedi:

"Bu Muhəmməddir ki, on min nəfər zirehli geyimli dəstə ilə gəlmişdir. Mənə bu imtiyazı vermişdir ki, hər kəs mənim evimə gəlsə və ya öz evində oturub qapısını bağlasa və eləcə də silahını yerə qoysa, amanda olacaqdır".

Hind dedi:

"Allah səni rüsvay eləsin. Nə bədxəbər adamsan?!"

Sonra da qışqırmağa başlayıb dedi:

"Camaat bu nümayəndənizi öldürün, Allah onu rüsvay eləsin".

Əbu Süfyan da camaata deyirdi:

"Ehtiyatlı olun ki, bu qadının sözləri sizi aldatmasın. Mən çoxlu döyüşçü, minik və silah gördüm. Siz onları görməmisiniz. İndi Muhəmməd 10 min nəfərlik bir orduyla gəlmişdir. Heç kəsin onlara müqabil olmağa qüdrəti çatmaz. Təslim olun ki, salamat qalasınız".

Mərhum Şəhabi yazır:

"Hindin İslamla düşmənçiliyini, Ühüd hadisəsindəki daşqəlblilik və qəzavətini hamı nəql etmişdir. Bu döyüşdə Hind Peyğəmbərin *(s)* sevimli əmisi Həmzəni öldürmək üçün Vəhşini tamahlandıraraq təhrik etmişdi. Həmzə Vəhşinin arxadan vurduğu

zərbə ilə şəhid olduqdan sonra Hind başının üstünə gəlib onu müslə (qulaq, burnu kəsmək) etdikdən sonra ciyərini çıxararaq ağzına salıb çeynəmişdir. Buna görə də آكله الاكباد "ciyəryeyən qadın" (bu ləqəb Hind üçün çox məşhur olmuşdu) ləqəbi ilə adlandırılmışdır. Hindin bu ləqəbi istər tam hakim olmamışdan, istərsə də hakim olduqdan sonra həmişə Müaviyənin başına qaxınc olmuşdur.

Ziyad ibn Əbih Həzrət Əlinin *(ə)* zamanında Fars vilayətinin hakimi oldu. İmam Əli *(ə)* şəhid olduqdan sonra Müaviyə qorxdu ki, birdən Ziyad, Həsən ibn Əlinin *(ə)* tərəfinə keçib haqqa riayət edər, İmamın *(ə)* əlini alaraq beyət edər və beləliklə də Müaviyəni zəhmətə salar. Ona görə də ona təhqiramiz və hədə dolu bir məktub yazdı. Müaviyənin məktubu Ziyada çatan kimi o fars camaatını toplayıb minbərə çıxdı, Allaha həmd-sənadan sonra belə dedi:

**...العجب كل العجب من ابن آكله الاكباد و كهف النفاق ورئيس الاحزاب يتهددنى ...**

İbn Həcər Əsqəlaninin "əl-İsabə" kitabına əsasən, Müaviyənin əmri və göstərişi ilə Hücr ibn Ədiy və dostları tutulub öldürülən zaman bu xəbər Ayişəyə çatdıqda dedi:

**اما والله لو علم معاويه ...حتى يقتلهم بالشام ولكن ابن آكله الاكباد علم انه قد ذهب الناس**

Şəhabi əlavə edir:

"Müaviyə xüsusiyyət və məziyyətləri ilə Raşidi xəlifələrlə müqayisədə fərqlənirdi. Onun müsəlman olaraq Peyğəmbərlə *(s)* birlikdə olması çox qısa bir müddət sürmüşdür."

İbn Əbil Hədid yenə də 60-cı xütbənin şərhində bir hadisəni nəql edir ki, Məsudi də "Muruc əz-Zəhəb" kitabının ikinci cildində onu eynilə nəql etmişdir. O, yazır: "Bizim (Mötəzili) dostlarımızdan böyük bir qrupu Müaviyəni dinin əslinə görə məzəmmət edərək kifayətlənməmiş, onun mülhid olmasını, nübuvvətə etiqadı olmamasını demişlər. Buna dəlil olaraq onun bir sıra nalayiq sözlərini nəql etmişlər".

Müaviyə ilə əsla düşmənçilikdə ittiham olunmayan, əhvalından, eləcə də Əlinin *(ə)* fəzilətlərindən uzaqlaşmağından mə-

lum olan Zubeyr ibn Bəkkar özünün “əl-Müvəffəqiyyat” kitabında belə yazmışdır:

“Mütrəf ibn Muğirə ibn Şöbə deyir:

Atam həmişə Müaviyənin yanına gedib onunla söhbət edirdi. Mənim yanıma qayıtdıqdan sonra Müaviyədən və onun ağlından danışırdı. Ondan gördüklərindən izhar edir, ona vurulduğunu deyirdi. Bir gecə isə gəlib axşam yeməyi yemədi. Onun qəmli olduğunu gördüm. Bir saat gözlədim və elə bildim ki, aramızda olan bir işə görə qəmlidir.

Dedim:

Bu gecə niyə belə qəmlisən?

Atam dedi:

“Oğlum, mən ən pis bir adamın yanından gəlirəm”.

Soruşdum:

Nə olmuşdur?

Söylədi:

“Müaviyə ilə xəlvətdə ikən fürsət tapıb ona dedim: Ey əmirəl-möminin, ömründən xeyli keçmişdir, qocalmısan, nə yaxşı olar ki, xeyirxahlıq edib öz Bəni-Haşimdən olan qardaşlarına diqqət edəsən, onlara məhəbbətlə baxasan və qohumluq bağlılığına riayət edəsən. Allaha and olsun, bu gün onların əlində bir qüdrət yoxdur ki, ondan qorxasan və həm də bu bir savab işdir ki, sənin üçün qalsın!”

Müaviyə dedi:

“Heyhat, heyhat! Hansı yaxşı adın qalmasına ümidvar olum? Əbu Bəkr xəlifə oldu. Ədalətlə və necə lazımdır hökumət etdi. Amma ölən kimi onun yaxşı adı da öldü. Yalnız bəzən bir nəfər deyər: “Bir Əbu Bəkr də var idi”. Sonra Ədi ailəsindən o kişi (Ömər) xəlifə oldu. Çox çalışdı, on il zəhmət çəkdi, elə ki, vəfat etdi, onun da yaxşı adı batdı. Onun da barəsində bəzən bir nəfər deyər: “Bir Ömər də var idi”. Halbuki Əbu Həbəşinin oğlu üçün (qureyş müşrikləri Həzrət Peyğəmbəri *(s)* təhqir etmək üçün onu belə adlandırırdılar) gündə beş dəfə qışqırılaraq

اشهد ان محمدا رسول الله

***“Əşhədu ənnə Muhəmmədən Rəsulullah”*** deyilir”.

Buna görə də, ay atasız, bundan sonra hansı yaxşı iş əbədi qalar? Yox, Allaha and olsun ki, dəf olunmaqdan başqa heç nə qalmır”.

Lakin Yezid ibn Müaviyə ibn Əbu Süfyan – İbn Əsəm Kufinin “əl-Futuh” və digərlərinin, o cümlədən, Əllamə Şeyx Əli Camalın “Qəbəsatın min tarixi beyti əl-nübuvvəh” kitablarında yazdıqlarına əsasən – öz biabırçı şeirlərini Şamın qəsrində Cənnət cavanlarının ağası Həzrət Əbu Əbdullah Hüseynin *(ə)* müqəddəs başını qarşısına qoyub sərxoş halda zümzümə edirdi:

**ليت اشياخى ببدر شهدوا    وقعه الخزرج مع وقع الأسل**

**لعبت هاشم بالملک فلا    خبر جاء ولا وحى نزل**

**لست من خندف ان لم انتقم    من بنى احمد ماكان فعل**

**قد اخذنا من على ثارنا    وقتلنا الفارس الليت البطل**

**لو رأوه لأستهلوا فرحا    ثم قالوا يا يزيد لا تشل**

Budur qəmli qəsidənin nümayişi. Quranın dilində ona ***“şəcəreyi-məlunə”*** ibarəsi verilmişdir. Babası Əbu Süfyan ayağını Ühüddə yatanların qəbrinə döyəcləyərək – “rəyasət bizə çatmışdır” deyirdi. Yezid isə hesabı çürütdüyünə görə badəni başına çəkirdi. İslamın iqtidar zirvəsində isə, Hind-Çindən Əndəlusədək (İspaniya) İslam adı ilə azan verilən yerlərdən Muhəmmədin *(s)* risalətinə şəhadət verilirdi. Belə bir ölkənin paytaxtında Yezid ibn Müaviyə ibn Əbu Süfyan deyir ki, nə səmadan bir xəbər gəlmiş, nə də vəhy nazil olmuşdur. Lakin bu gün Əməvi məscidinin minarəsində şəhadəteyn yerindədir, Əməvi sarayına əbədi nifrin də yerindədir. Hər Aşura günü üstündə.

## 2. 2. MÜAVİYƏ İBN ƏBU SÜFYANIN ŞƏXSİYYƏTİ VƏ XİLAFƏTİ

Əbu Əbdürrəhman Müaviyə ibn Əbu Süfyan Sahr ibn Hərb ibn Ümeyyə əl-Əməvi əl-Qüreyşi 602 və ya 603-cü ildə Məkkədə doğulmuşdu. O, Əməvi xilafətinin qurucusudur (661-680).

Müaviyə Həzrət Muhəmmədin *(s)* peyğəmbərliyini elan etməsindən sonra Qureyşin digər öndərləri ilə birlikdə İslama qarşı cəbhə açan və Bədr döyüşünün (624) ardından Məkkə müşriklərinin liderliyini şəhərin fəthinə qədər (630) davam etdirən atasının himayəsində bir şahzadə kimi böyüdü və onunla birlikdə fəth əsnasında müsəlman oldu. O, müəlləfati-qulubdan sayıldığı üçün Hüneyn qənimətlərinin bölüşdürülməsində payına çoxlu miqdarda pul və mal ayrıldı.

Müaviyə 638-ci ildə II xəlifə Ömər ibn Xəttab (632-644) tərəfindən əvvəl İordaniya, növbəti il isə Dəməşq valiliyinə təyin edildi. 640-cı ildən sonra xəlifənin əmri ilə Fələstinin sahil şəhərlərindən Qeysəriyyə, Əsqəlan və Tripolini götürdü, sahillərə polis hissələri qurub əsgər yerləşdirdi. Bu vaxt Bizansdan qalma tərsanələrdən faydalanaraq ilk İslam dəniz donanmasını təşkil etdi. Ardından da sahillərə yaxınlığı səbəbindən təhlükə meydana gətirən Kiprə səfər təşkil etmək üçün xəlifədən icazə istədisə də ala bilmədi.

III Xəlifə Osman ibn Əffanın dövründə (644-656) Fələstin, əl-Cəzirə, Hums və Künnəsrinin də öhdəsinə verilməsi ilə Suriya ümumi valiliyinə gətirilən Müaviyə yeni xəlifə ilə olan qohumluğu sayəsində daha rahat hərəkət etməyə başladı. İslamın əvvəlki illərində Suriyaya yerləşmiş olan Bəni-Kəlb qəbiləsindən bir qadınla evlənib bölgənin ən böyük qəbiləsini özünə cəlb etdi və bir neçə il sonra xəlifənin də eyni qəbilədən bir qadınla evlənməsini həyata keçirərək aralarındakı yaxınlığı daha da gücləndirdi. Beləcə, Kəlbilərə və xəlifəyə söykəndiyi gücü və etibarını getdikcə artırdı, özünə bağlı olan intizamlı bir ordu qurmaqla yanaşı, müxtəlif vasitələrlə bölgə xalqının rəğbətini qazandı. 648-ci ildə Kiprə bir donanma göndərilməsi barəsində

Xəlifə Osman ibn Əffanı (644-656) razı salan Müaviyə göndərdiyi 1,700 parçalıq flot ilə qarşı tərəfi qan tökmədən ildə 7,200 qızıl xərac verməyə məcbur etdi, beş il sonra da ikinci bir səfər təşkil edib buraya 12,000 nəfərlik bir ordu yerləşdirdi.

Müaviyə Xəlifə Osmanın öldürülməsindən sonra (656) Mədinədə seçilən yeni Xəlifəyə – Həzrət Əliyə *(ə)*, guya "Osmanın öldürülməsində səhlənkarlıq etdiyi və cinayət ortağı olan üsyançıları ordusunda saxladığı" bəhanəsi ilə beyət etmədi. Bununla yanaşı, Xəlifə Osmanın yaxın qohumu sifəti ilə onun qanını iddia etmək haqqına sahib olduğunu söylədi, bunu reallaşdırmaq şərti ilə Şam xalqından beyət aldı.

Həmçinin, Müaviyə Məkkədə Peyğəmbərin *(s)* xanımı Aişə, Təlhə ibn Ubeydullah və Zübeyr ibn Avvam üçlüyü ətrafında öldürülən xəlifənin qanının yerdə qalmamasından ötəri dava etmək üçün toplanan qruplarla Xəlifə Əli *(ə)* arasındakı mübarizənin nəticəsini gözləməyi seçdi.

Cəməl hadisəsində (656) qalib gələn Xəlifə Əlinin *(ə)* onu təkrar itaətə dəvət etməsi qarşısında Müaviyə o Həzrətə *(ə)* Osmanın qatillərini ona təslim etməsini və xəlifəliyi buraxaraq Şura tərəfindən yeni xəlifə seçilməsini təklif etdi. Onun bu rəftarı iki tərəfi Siffeyndə qarşı-qarşıya gətirdi (iyun 657). Dekabra qədər üç ay sürən müharibənin son günündə Əlinin *(ə)* sərkərdəsi Malik əl-Əştər Müaviyənin ordusuna qəti zərbəni vurmaq nöqtəsinə qədər gəlmiş, hətta ümidini itirən Müaviyə qaçmağa qərar vermişdi.[215]

Lakin bu sırada yanında döyüşən və çox hiyləgər olan Əmr ibn As Müaviyəyə təklif etdi ki, nizələrin ucuna Qurani-Kərimin səhifələrini taxsınlar, guya, anlaşılmazlığı Allah Kitabının hakimliyi ilə həll etmək istəmələri bəhanəsi ilə qarşı tərəfi görüşə çağırsınlar.

Belə də oldu və bu yalançı taktika işə yaradı. Müaviyə ağır bir məğlubiyyətdən xilas oldu. Nəticədə döyüş dayandı və tərəflər Allahın Kitabı, lazım olduqda isə Rəsulullahın *(s)* sünnəsinə əsasən hakimlərin hökm verməsi şərti ilə razılaşdılar.

---

[215] Muhəmməd ibn Cərir ət-Təbəri, "Tarixul-Uməm vəl-Muluk", mətbəətul-istiqamə, Misir-1357 h/q, c. I, s. 3330.

Bununla da Müaviyə ibn Əbu Süfyan hiylə işlədərək Əlinin *(ə)* ordusunun parçalanmasına, o cümlədən aralarında döyüş çıxmasına zəmin hazırlamış oldu. Çünki böyük bir qrup (xaricilər) işin hakimlərə buraxılması üzərinə üsyan edərək İmam Əlinin *(ə)* ordusundan ayrılmış və o Həzrətə *(ə)* qarşı silahlı mübarizəyə girişmişdilər. Bu səbəbdən də rəqibinin xaricilərlə məşğul olduğu bir vaxtda məsələnin daha kompleks hala gəlməsi Müaviyənin işinə yaradı, hakimi Əmr ibn Asın Əlinin *(ə)* hakimi ilə etdiyi görüşlərdən sonra özünü xəlifə seçdiklərini elan etməsinin ardından Şamda xalqdan beyət aldı. Beləcə, əvvəllər Əli *(ə)* tərəfində olan əsgəri üstünlüyün "hakim hadisəsi"ndən sonra öz tərəfinə keçməsi üzərinə fürsəti qiymətləndirən Müaviyə xaricilərlə məşğul olmaq məcburiyyətində qalan Əliyə *(ə)* bağlı mərkəzlərdə qətliama başlatdı. Müaviyə bir neçə il içərisində Misir, İraq, Hicaz və Yəməni əlinə keçirdi. Həzrət Əlinin *(ə)* buraları geri almasına baxmayaraq İmam *(ə)* çətin bir vəziyyətə düşmüşdü. Təbəri qeyd edir ki, 660-cı ildə iki tərəf bir-birlərinə hücum etməmək haqqında aralarında müqavilə imzaladı.[216]

Əlinin *(ə)* Əbdürrəhman ibn Mülcəm əl-Xarici tərəfindən şəhid edildiyi ildə Müaviyənin bir başqa xaricinin sui-qəsdindən yaralanması onu hədəfinə bir az da yaxınlaşdırdı. Qüdsdə "əmirəl-möminin" ünvanı ilə beyət alan Müaviyə Əlinin *(ə)* yerinə xəlifə seçilən oğlu Həzrət Həsənlə *(ə)* döyüşmək üçün İraqa yollandı. İmam Həsənin *(ə)* öz ordusuna güvənməməsi və İmamın *(ə)* əsgərləri arasına qarışıqlıq düşməsi Müaviyənin işini xeyli asanlaşdıran səbəb oldu. Müaviyə qarşılıqlı yazışmalar nəticəsində rəqibinin bəzi şərtlərlə xəlifəliyi buraxmağı qəbul etməsi üzərinə Kufəyə gedərək xalqdan beyət aldı. Beləcə, "birlik ili" (amul-cəmaat) adı verilən o ildə Müaviyə ölkənin hamısını hakimiyyəti altında topladı və doxsan il hökm sürəcək Əməvi dövlətini qurmuş oldu. Bəzi tarixçilər Müaviyənin xəlifəlik hökumətinin İmamın *(ə)* ona beyəti anından başlamasını qeyd edirlər. Lakin həqiqət budur ki, Həzrət Həsən *(ə)* Müaviyəyə heç vaxt beyət etməmişdir.

---

[216] Həmin mənbə, c. I, s. 3453.

Hələ Həzrət Əlinin *(ə)* zamanında İraq inkişaf etmiş, şiə və xaricilərin birgə yurduna çevrilmişdi. Müaviyə şiələrin mərkəzi şəhəri olan Kufə valiliyinə Muğirə ibn Şöbəni gətirdi (661-ci il). Qəddar və dinə əhəmiyyət verməyən bir dövlət adamı olan İbn Şöbə belə qarışıq şəhərdə antişiə siyasəti yürütməklə yanaşı, lazım gələndə güc istifadə etməkdən belə, çəkinmirdi. O, suriyalı birliklərin xaricilər qarşısında məğlub olması üzərinə onlarla olan mübarizəni müxtəlif təzyiqlər tətbiq etmək yolu ilə "hakim hadisəsi"nə qədər birlikdə döyüşdükləri Əli *(ə)* tərəfdarlarının üzərinə yüklədi. Nəticədə xaricilər ağır məğlubiyyətə uğradılar (663-cü il). İbn Şöbə xəlifəyə ən böyük yaxşılığı özü kimi Səqif qəbiləsinə mənsub olan Ziyad ibn Əbihinin Müaviyəyə qatılmasını təşkil etməklə etdi. İmam Əli *(ə)* tərəfindən vali təyin edildiyi Farsda müqavimət göstərərək təhdidlərə və pul vədlərinə boyun əyməyən İbn Əbihi, İbn Şöbənin araya girməsi ilə Əbu Süfyanın nəsəbinə qatılıb Müaviyənin qardaşı elan edildi, ardından isə Bəsrə valiliyinə gətirildi (665-ci il). Bununla da Müaviyə ibn Əbu Süfyan Peyğəmbərin *(s)* qadağan etmiş olduğu hökmü pozdu. Belə ki, Rəsulullah *(s)* həmin hökmdə buyurmuşdur:

***"Övlad yalnız ataya mənsub edilməli, zinakara isə daşla cavab verilməlidir"***.

Müaviyə İbn Şöbənin ölümündən sonra Kufə valiliyinin idarəçiliyini İbn Əbihinin öhdəsinə verdi (670-ci il). Şərq vilayətlərini səkkiz il zülmlə idarə edən bu şəxs xaricilərə qarşı çox sərt siyasət yeritdi, Həzrət Əlinin *(ə)* tərəfdarlarına və təbliğatına icazə vermədi. İbn Əbihi, həmçinin bu vaxt idarəçilərin İmam Əlinin *(ə)* əleyhinə fəaliyyət göstərənlərə açıq şəkildə qarşı çıxaraq müxalifət cəbhəsi quran Hücr ibn Ədiyi və yoldaşlarını fitnə çıxarıb itaətdən ayrılmaqda günahlandıraraq Müaviyəyə göndərdi və nəticədə edam edilmələrini təmin etdi *(671-ci il).*

Peyğəmbər *(s)* fəzilətlərinə görə Hücrə "Hucrul-xayr" demişdir. İbn Səd Hücrun öz qardaşı Hanı ilə birlikdə Rəsuli-Əkrəmə *(s)* elçi olaraq gəldiyinə və səhabə olduğuna dair bir rəvayət yazmışdır.[217] Zəhəbiyə görə Peyğəmbərə *(s)* gələn qəbilə nü-

---

[217] Muhəmməd ibn Səd, "ət-Tabaqatul-Kubra", Beyrut, 1410/1990, c. VI, s. 217.

mayəndələrindən olan Hücr ibn Ədiy mücahid və abid bir sahabə idi. Həmçinin, səhabələrin həyatlarına dair əsərlərdə ona da yer verilmişdir.

Hücr ibn Ədiy Cəməl və Siffeyn savaşlarında İmam Əlinin *(ə)* qoşun sərkərdəsi olmuşdur. Xəlifə Əli *(ə)* onu Siffeyn döyüşündən sonra 4,000 nəfərlik bir orduyla Dahhab ibn Əriyin üzərinə göndərdi.[218]

Müaviyənin tövsiyələrinə uyğun olaraq Kufə valisi Muğirə ibn Şöbənin cümə xütbələrində İmam Əli *(ə)* və tərəfdarlarını söyməsinə, habelə Osmanı tərifləyərək onun qətlini qınayan söhbətlər etməsinə İbn Ədiy şiddətli reaksiya verdi. O, İbn Şöbənin söydüyü şəxslərin o məlunun özündən daha artıq fəzilətli olduğunu üzünə elə məsciddə söylədi. Hətta Müaviyənin istədiyi bəzi malları aparmaq üzrə İbn Şöbə tərəfindən hazırlanan karvanın önünü kəsərək malları aldı.

Hücr ibn Ədiy hamısı kufəli olan on iki və ya on dörd yoldaşı ilə birlikdə Müaviyənin istəyi üzərinə Suriyaya göndərildi və Dəməşq yaxınlığında, şəxsən fəthində olduğu Mərciazra deyilən yerdə həbs edildi. Müaviyə, Ziyad ibn Əbihiyə Hücr ibn Ədiy və yoldaşlarını bir daha Kufəyə göndərməməyi tələb edən məktub yolladı. Məktubda İbn Ədiyin və geridə qalan yoldaşlarının İmam Əlini *(ə)* lənətlədikləri və o Həzrətdən *(ə)* uzaq olduqlarını söylədikləri təqdirdə sərbəst buraxılmasına, əks halda isə öldürülməsinə qərar verdi. Əlbəttə ki, Hücr ibn Ədiy və yoldaşlarının belə iyrənc bir təklifə razı olmaları mümkün deyildi və elə bu səbəbdən də öldürüldülər.

Rəvayətə görə, İbn Ədiy öldürülməzdən əvvəl dəstəmaz alıb iki rükət namaz qılmış, üzərindəki zəncirlərin açılmamasını, qanının yuyulmadan dəfn edilməsini vəsiyyət etmişdi. Bununla da Hücr ibn Ədiy zülmlə öldürüldüyünü və şəhid sayılacağını izah etmək istəmişdir. Hətta İbn Ədiyin bu sözləri İbn Şirin kimi bəzi alimlərin şəhidlərin dəfn edilməsi ilə əlaqədar görüşlərinə dəlil olacaq qədər təsir etmişdir. Əməvilər tərəfindən öldü-

[218] Muhəmməd ibn Cərir ət-Təbəri, “Tarixul-Uməm vəl-Muluk”, mətbəətul-İstiqamə, Misir-1357 h/q, c. V, s. 135.

rülən Hücr ibn Ədiyin Mərciazradakı qəbri üzərində sonralar bir məscid tikilmiş və ora ziyarətgah olmuşdur.

Peyğəmbərin *(s)* xanımı Aişə Hücr ibn Ədiyin Dəməşqə göndərildiyini eşidincə Əbdürrəhman ibn Hərislə Müaviyəyə bir məktub göndərmiş, İbn Ədiyin və yoldaşlarının sərbəst buraxılmasını istəmiş, İbn Həris isə yalnız Hücr ibn Ədiyin qətlindən sonra Dəməşqə çata bilmişdir. Daha sonra Müaviyə Mədinəyə gedib xanım Aişəni ziyarət etdiyində Aişə onu Hücr ibn Ədiyi və yoldaşlarını öldürdüyü üçün danlamış, Müaviyə isə onların öldürülmələrində ümmət üçün fayda gördüyünü söyləyərək özünü təmizə çıxarmaq istəmişdir.

Bir rəvayətə görə, xanım Aişə Müaviyəyə Rəsulullahın *(s)* bəzi insanların Mərciazrada öldürüləcəyi, bunun Allahı və əhli-səmanı qəzəbləndirəcəyi barədə söylədiyini bildirmişdir. İbn Mübarək bu hədisi İbn Ləhiyədən nəql etmiş, İmam Əli *(ə)* Əzrada yeddi adamın öldürüləcəyini və onları öldürənlərin ashabul-uxdud kimi olduqlarını xəbər vermişdir.[219]

Hücr ibn Ədiyin öldürülməsi o zaman bir çoxlarını üzmüş, Ziyad ibn Əbihinin Xorasan valisi təyin etdiyi Rəbi ibn Ziyad əl-Hərisi kədərindən vəfat etmiş,[220] Mədinədə bu hadisədən xəbərdar olan Abdullah ibn Ömər isə bərk ağlamışdır. Həsəni Bəsri də hadisədən duyduğu narahatlığı dilə gətirmişdir. Hücrun iki oğlu Ubeydullah ilə Əbdürrəhman da Əli *(ə)* tərəfdarlığı üzündən öldürülmüşdür.[221]

Çox namaz qılıb oruc tutan, duası məqbul, yaxşılığı tövsiyə edən, pisliklərə qarşı çıxan kimi tanınan Hücr ibn Ədiy Müaviyənin öldürdüyü ilk səhabələrdən biri idi. Lakin bundan da dəhşətlisi onun İmam Həsəni *(ə)* şəhid etməsidir.

Tarixçilərin də qeyd etdiyi kimi, Müaviyə, Əşəs ibn Qeysin qızı Cudəyə yalançı vədlər verərək onu Peyğəmbərin *(s)* nəvəsini öldürməyə vadar etdi. Bu haqda Əhli-Beyt imamlarından *(ə)* çox-

---

[219] İbn Əsakir, “Tarixul-mədinətil-Diməşq”, I çap, 1998, c. XII, s. 226-227; İbn Həcər əl-Əsqəlani, “əl-İsabə fi təmyizis-səhabə”, Beyrut, 1412 h/q, c. I, s. 315.
[220] Əhməd Bəlazuri, “Futuhul-buldan”, Misir çapı, s. 596.
[221] İbn Əsakir, “Tarixul-mədinətil-Diməşq”, I çap, 1998, c. XII, s. 210.

lu rəvayət nəql olunmuş, İslam alimlərinin bir çoxu, o cümlədən İbn Əbil Hədid əş-Şafei yazdığı çoxcildli "Şərhu-Nəhcul-bəlağə" əsərində[222] buna geniş yer vermişdir.

673-cü ildə ölən Ziyad ibn Əbihinin yerinə təyin edilən oğlu Ubeydullah da atası kimi xaricilərin üsyanlarını qanlı bir şəkildə yatırtdı. Müaviyə xaricilərlə mübarizədə özlərindən faydalandığı İmam Əli *(ə)* tərəfdarlarına əvvəllərdə olduğu kimi zülm edirdi. O, xaricilərin aradan qaldırılmasından sonra iqtisadi və siyasi təzyiq tətbiq edib onları təsirsiz hala gətirdi. Müaviyə Həzrət Əli *(ə)* əleyhinə olan təbliğatları ilə Hücr ibn Ədiy və yoldaşlarının edamı kimi hadisələrlə yanaşı, onları öz dövründə zülmə də məruz qoydu.

Müaviyə daxili qarşıdurmalar səbəbindən təqribən on ilə yaxın müddətdə dayanmış fəth hərəkatlarını üç ayrı cəbhədə yenidən başlatdı.

O, birinci cəbhəyə belə başladı.

Həzrət Əli *(ə)* ilə mübarizəsi əsnasında vergi vermək məcburiyyətində qaldığı Bizans üzərinə 662-ci ildən etibarən hərbi səfərlər təşkil etdi.

669-cu ildə qurudan və dənizdən islami dövrdəki ilk İstanbul mühasirəsi reallaşdırıldı.

670-ci ildə Kapıdağ yarımadası ələ keçirildi və buradan başladılan axınlarla İstanbul dörd il müddətinə mühasirə edildi (674-678).

İkinci cəbhə olan Bəsrəyə bağlı Xorasan və Sind bölgələrində də hakimiyyətdən çıxan bəzi mərkəzlərin itaət altına alınmasından sonra yeni istilalar gerçəkləşdirildi.

Sicistandakı mərkəzlərin ardından Kabil (664), Toharistan, Kuhistan, Buxara (674) və Səmərqənd (676) alınaraq bəzi Şərq hökmdarları vergi verməyə məcbur edildi.

Üçüncü cəbhə olan Afrikada isə Müaviyə ibn Əbu Süfyanın Misirdəki adamı Müaviyə ibn Hudeyc bölgəni yenidən zəbt etdi (665). Onun xələfi Uqbə ibn Nafi də məğrib fəthləri üçün əsas olaraq istifadə məqsədi ilə Kayravan qərargah şəhərini qurdu (670). İbn Nafi hərəkatını Atlantik Okeanına doğru geniş-

---

[222] c. IV, s. 4.

ləndirərkən müvəffəqiyyətli siyasəti ilə bölgə xalqı Bərbərilərin İslama girməsini sürətləndirdi.

Müaviyənin ən böyük səhvlərindən biri də İmam Əlini *(ə)* söydürüb lənətləmək idi. Bu haqda tanınmış hədis alimi Müslim ibn Həccac Nişapuri "əs-Səhih" əsərinin "kitabul-fəzailis-səhabə" fəslinin "babu-fəzaili-Əli *(ə)*" hissəsində Müaviyənin Səd ibn Vəqqası çağıraraq – "Əlini niyə söymürsən" deyə təhdid etməsi hədisini nəql edib. Halbuki Peyğəmbər *(s)* buyurmuşdur:

***"Müsəlmanı söymək fisq, öldürmək isə küfrdür".***[223]

Bu fikri İbn Əsakir "Tarix" əsərində də qeyd edib.[224]

Xəlifəliyi qəbilə təəssübkeşliyinə dayanan bir mübarizə ilə ələ keçirən Müaviyənin ən mənfur işi şərabxor oğlu Yezidi vəliəhd təyin etməsi və dövləti varislik qaydasını əsasa alan bir xanədana çevirməsidir.

Məşhur rəvayətə görə, bunu Kufə valisi Müğirə ibn Şöbənin tövsiyəsi və müsəlmanların xilafət məsələsi üzündən yeni bir anlaşılmazlığa düşmələrinə maneə törətmək məqsədilə etdiyini söyləyən Müaviyə Mədinədən başqa digər əhəmiyyətli bir müxalifətlə qarşılaşmadı. Mədinədə Hüseyn ibn Əli *(ə)* və Abdullah ibn Zübeyrin başına toplaşan bir qrup səhabə Müaviyəyə şiddətlə qarşı çıxdı. Bunun üzərinə beyətlərini birbaşa almaq üçün Hicaza gedən Müaviyə təhdidlə problemi həll etdi. Lakin burada İmam Hüseynin *(ə)* şiddətli etirazına, qınağına tuş gəldi. Müaviyənin bu işi ilk İslam tarixçilərinin çoxu tərəfindən qınaqla yad edilir. Ancaq İbn Xaldun kimi üzdəniraq bəzi tarixçilər bu işin müsəlmanların xeyrinə olduğunu söyləyir. İbn Xaldunun bu fikrini bəzi müasir yazarlar da mənimsəmişdir.[225]

Müaviyə Taif, Məkkə və Mədinə valiliyi ilə Həcc əmirliyinə qohumlarını vəzifələndirirdi. Özü isə valiliyinin ilk illərindən etibarən Bizans idarəçiləri kimi geyinməyə və yaşamağa başlamışdı.

---

[223] "Səhihi-Müslim", daru-ihyait-yüras, Beyrut, tarixsiz, c. I, s. 44; "Səhihi-Buxari", Misir, mətbəətul-xeyr-1320 h/q, c. IV, s. 1497.

[224] İbn Əsakir, "Tarixul-mədinətil-Diməşq", I çap, 1998, c. XXVII, s. 127.

[225] Diyanət İslam Ansiklopediyası, c. XI, s. 90.

Şama gələn Xəlifə Ömər onun dəbdəbəli paltarını görüb narazılıq etsə də Müaviyə cihad ruhunu itirmədiyini, düşmənə yaxın olduqları üçün heybətli görünməyin lazım olduğunu söyləyərək xəlifəni razı salmağı bacarmışdı.

Bizans müəssisələrindən faydalanaraq öz dövlətini qurmağa çalışan Müaviyə ibn Əbu Süfyanın zamanında haciblik, Divanur-rəsail, Divanul-xatəm və Divanul-bərid quruldu. Həmçinin, hücumlardan qorunmaq üçün xüsusi gözətçilər vəzifələndirən ilk xəlifə də Müaviyə idi. Qeyri-müsəlmanlara qarşı yaxşı davranan Müaviyə müşavirlərindən olan Sərcun ibn Mənsur və xüsusi həkimi İbn Üsal kimi bəzi xristianlara sarayında vəzifə vermişdi.

Müaviyə ibn Əbu Süfyan alim, ədib və şairlərlə söhbəti sevər, onların cahiliyyə divanına önəm verər, onlardan faydalanmağa çalışar, eyni zamanda tarixə də böyük maraq göstərərdi. O, yəmənli tarixçi Ubeyd ibn Şəriyyəni Dəməşqə çağıraraq ondan ərəb və əcəm məliklərinin həyatından bəhs edən kitab yazmasını istəmişdi.

Müaviyə Peyğəmbərdən *(s)* 163 hədis rəvayət etmiş, bunlardan dördü Buxari və Müslimdə, beşi tək Buxaridə, dördü isə yalnız Müslimdə nəql olunmuşdur.

Xilafəti varisliyə söykənən mütləq bir səltənətə çevirən Müaviyə, nəhayət Hicri 60-cı ilin Rəcəb ayında (aprel-680) Dəməşqdə öldü və Babus-səğir qəbiristanlığında dəfn edildi. Həmin gün onun yerinə oğlu Yezid xəlifə keçdi.

Yuxarıda qeyd etdiyimiz məlumatlardan məlum oldu ki, Müaviyə ibn Əbu Süfyanın məqsədi Şamda valilik kürsüsünə oturduğu ilk gündən İslamı məhvə aparmaq idi. O, ikinci xəlifə zamanında tam səylə çalışırdı ki, xəlifədən sonra bu kürsüdə oturan heç bir kəs onunla bacara bilməsin.

Üçüncü xəlifədən sonra isə yüz minlərlə insanın qanı bahasına olsa belə, dini və qanuni hökumətin qarşısında dayandı. Nəhayət, sülh müqaviləsinin imzalanmasından sonra, İbn Əbil Hədidin 203-cü xütbənin şərhində Əbulhəsən Əli ibn Muhəmməd ibn Əbi Yusif Mədainin "əl-Əhdan" kitabından nəql etdiyinə əsasən, Müaviyə bütün məmləkətdə olan işçilərinə yazdı:

"Əli və Əhli-Beyt tərəfdarlarından heç bir kəsi qəbul etməyin. Osmanın dostları, havadarları, onun fəzilətlərini nəql

edənləri əzizləyərək özünüzə yaxınlaşdırın, onları özünüzə yaxın yerdə oturdun. Onlardan hər birinin rəvayət etdiyini öz adı, atasının və tayfasının adı ilə birlikdə mənə yazın".

Onlar belə də etdilər. Müaviyə onlara pul, paltar, mükafat və torpaq sahələri verdiyinə görə, saxta hədis yazanlar da Xəlifə Osmanın fəzilətlərini həqiqətə sığmayacaq dərəcədə şişirdirdilər. Bu rəvayətlər bütün Ərəbistana və ətraf yerlərə yayıldı. Var-dövlət əldə etmək üçün bu məsələ hər yerdə adət şəklini aldı. Belə ki, istənilən alçaq və azğın bir şəxs Xəlifə Osmanın fəziləti ilə bağlı müəyyən rəvayət nəql edərək hökumət işçilərindən birinin yanına aparırdısa, işçi o şəxsin adını divana yazır və şəhadətini qəbul edirdi. Həmçinin, yazıda deyilirdi:

"Müsəlmanların Əli barədə nəql etdiyi xəbərləri buraxmayın, onun kimisini səhabələr üçün saxtalaşdırıb mənim yanıma göndərin. Bu iş mənim çox xoşuma gəlir və gözlərimin işıqlanmasına səbəb olur".

Axı niyə Müaviyə başda Həzrət Əli *(ə)* olmaqla Bəni-Haşimin əzilməsinə təkid edirdi? Nə üçün deyirdi ki, Osman ibn Əffan və ondan əvvəlki iki xəlifə barədə saxta hədislər düzəldin?

Əbu Süfyanın oğlu bu üç xəlifə barədə edilən tərifləri o həddə çatdırmışdı ki, hətta Peyğəmbərin *(s)* dilindən belə, yalanlar yazmağa başlamışdılar. Görəsən, Müaviyə Rəsulullahın *(s)* dilindən yalan danışmağın labüdlüyünü təhqiq etmişdimi? Görəsən, Müaviyə bir müsəlman kimi hökumətin nizama düşməsinin əsasını Əli *(ə)* və onun övladlarının əzilməsində görürdümü? Bu, əsla, belə deyildi.

Əgər təsəvvür edilsə ki, Müaviyənin İmam Əli *(ə)* ilə olan problemi yalnız hakimiyyət üstündə idi və buna görə də o Həzrətə *(ə)* böhtanlar yağdırırdı, bu səhv fikirdir. Çünki Müaviyənin problemi yalnız hakimiyyət məsələsi olsaydı o zaman İmam Həsənlə *(ə)* arasında olan sülh müqaviləsinə əsasən, İmam *(ə)* hakimiyyəti ona həvalə etmişdi. Müqavilənin şərtlərindən biri də bu idi ki, Müaviyə Həzrət Əliyə *(ə)* nalayiq sözlər deməsin. Deməli, Müaviyənin söyüş və lənətlərdən məqsədi hakimiyyətə gəlmək idisə, artıq bu arzusuna çatmışdı. Lakin göründüyü kimi, hakimiyyət ələ alındıqdan sonra da qarşıdurma səngimədi, əvvəlki ki-

mi davam elədi, lənətlər və nalayiq sözlər isə daha da kütləviləşdi və yavaş-yavaş cümə namazlarında edilən moizə və xütbələrə də sirayət etdi, doğrudan da, axı niyə?

Bu da doğrudur ki, Müaviyənin proqramı fürsət axtaranlar üçün yaxşı gəlir mənbəyinə çevrilmişdi. Onlar bu yolla hökumət idarəçiliyinə yaxınlaşır və hansısa mənsəb əldə edirdilər.

Müaviyə də bu saxta hədislərlə bacardığı qədər əvvəlki üç xəlifəni onun yolunun təmizləyiciləri olduqlarına görə təriflәyir, İmam Əli *(ə)* və övladlarını isə onunla siyasi və dini rəqib olduqlarına görə təqib edirdi. Həqiqətdə Müaviyə ibn Əbu Süfyan bilərəkdən İslamın mənafeyini öz hakimiyyətinin inzibati mənafeyinə qurban verirdi. Lakin diqqət olunmalıdır ki, məsələ bir o qədər də sadə deyildir və faciənin özəyi başqa yerdə axtarılmalıdır.

İbn Əsakir və Yaqub ibn Sufyanın "Tarix", Beyhəqinin "Dəlail", İbn Əbdürrəhmanın "İstiab" və İbn Əsirin "Kamil" əsərində rəvayət etdiklərinə görə, səhabənin böyüklərindən olan Hücr ibn Ədiyi Müaviyənin əmri ilə işgəncə edərək öldürdülər. Hücrün tək günahı isə Əliyə *(ə)* lənət etməmək və o Həzrətin *(ə)* tərəfdarı olmadığını söyləməmək idi.

Görəsən, Peyğəmbərin *(s)* böyük nəvəsi və "Əhli-kisa"nın beşincisi olan İmam Həsən *(ə)* möminlərin böyüklərindən və Cənnət gənclərinin iki seyidindən biri deyildimi?

Məsudu, İbn Əbdülbirr, Əbülfərəc İsfahani, Muhəmməd ibn Səd ("ət-Təbəqat"da), Sibt ibn Cövzi ("ət-Təzkirə"də) və bir çox digər böyük alimlər öz kitablarında yazmış olduqlarına görə, Müaviyə, Cudəyə bir zəhər göndərdi və – "Həsən ibn Əlini öldürəcək olsan sənə yüz min dirhəm verər və səni oğlum Yezidlə evləndirərəm" deyə ona vəd verdi. İmam Həsənin *(ə)* şəhadətindən sonra Müaviyə ona yüz min dirhəm verdi, lakin oğlu ilə evləndirmədi. İmam Həsənin *(ə)* şəhidliyi bir möminin qətlindən əlavə, Peyğəmbəri *(s)* üzən bir hadisə deyildimi?

Böyük səhabədən olan Əmmar da Siffeyndə Müaviyənin əmri ilə öldürülmədimi? Böyük alimlərin də ittifaq etmiş olduğu üzrə, Peyğəmbər *(s)* Əmmar haqqında belə buyurmamışdımı?..

***"Ey Əmmar, səni tüğyan əhli olan bir qrup öldürəcəkdir"***.

Dinin iti qılıncı və təmiz ürəkli bir mömin olan Malik Əştər də Müaviyənin əmri ilə zəhərlənmədimi? Müaviyənin Misirdəki iki adamı Əmr ibn As və Müaviyə ibn Hudeyc Həzrət Əlinin *(ə)* Misir valisi olan Muhəmməd ibn Əbu Bəkri işgəncəylə öldürüb ölmüş eşşəyin qarnında yandırmadılarmı? Əgər Müaviyənin öldürdüyü möminlərin siyahısını verəcək olsaq bir gecə deyil, kim bilər neçə gecə sürər.

Müaviyənin Həzrət Əliyə *(ə)* lənət etməyə əmr etməsi və o Həzrətin *(ə)* əleyhinə hədis uydurtması yuxarıda qeyd etdiyimiz kimi, onun ən böyük xətalarındandır.

Müaviyənin küfrünə ən əhəmiyyətli dəlil İmam Əliyə *(ə)* lənət etməsi və xalqı da bu böyük günaha məcbur etməsidir. Bütün İslam tarixçilərinin belə qeyd etdiyi üzrə, namazın qunutlarında və cümə namazı xütbələrində bu çirkin əməl və bidət tətbiq olunmuş, bir çox insan lənət etmədiyi üçün də qətlə yetirilmişdir. Bu cinayətlər Ömər ibn Əbdüləziz dövrünə (717-720) qədər davam etmişdir.

Şübhəsiz ki, müvəhhidlərin İmamı *(ə)*, Peyğəmbərin *(s)* qardaşı, Xanım Fatimənin *(ə)* həyat yoldaşı və möminlərin əmiri Həzrət Əliyə *(ə)* həyatında və ya vəfatından sonra lənət edənlər, həmçinin lənət etməyi əmr edənlər daim lənətlənmişlər. Çünki Əhməd ibn Hənbəl "Musnəd"də, Nəsai "Xəsaisu-Əli"də, Sələbi və Fəxrı Razi "Təfsir"də, İbn Əbil Hədid "Nəhcul-Bəlağənin Şərhi"ndə, Muhəmməd ibn Yusif "Kifayətut-Talib"də, Sibt ibn Cövzi "Təzkirə"də, Süleyman Bəlxi "Yənabiul-məvəddə"də, Müslim "Səhih"də və böyük alimlərin əksəriyyəti fərqli təbirlərlə qısa və ya detallı olaraq Peyğəmbərin *(s)* belə buyurduğunu rəvayət etmişlər:

***"Əliyə söyən mənə söymüşdür, mənə söyən də Allaha söymüşdür"***.

Bəziləri də bu mövzuda başqa hədislər rəvayət etmişdir ki, ümumiyyətlə Həzrət Əliyə *(ə)* əziyyət edənin lənətlənmiş olduğuna dəlalət etməkdədir. Məsələn, Deyləmi "Firdövs"də, Süleyman Hənəfi "Yənabiul-məvəddə"də fərqli sənədlərlə və digərləri də müxtəlif şəkildə Peyğəmbərin *(s)* belə buyurduğunu rəvayət etmişlər:

***“Əliyə əziyyət edən mənə əziyyət etmişdir, mənə əziyyət edənin də üzərinə Allahın lənəti olsun!”***

Həmçinin, o Həzrətin *(s)* belə buyurduğu da rəvayət edilir:

***“Ya Əli, sənə söyən mənə söymüşdür, mənə söyən Allah-taalaya söymüşdür. Kim Ona söysə, Allah-taala söyəni üzü üstə Cəhənnəmə atacaqdır”***.

Müaviyə ibn Əbu Süfyanın tarixi qiymətini verən alimlərdən biri də Əbu Hənifədir. Belə ki, Əbu Şəkur Səlmi “Təmhidun fi bəyanit-tovhid” kitabında Əbu Hənifədən belə nəql edir:

“Əbu Hənifə dedi:

“Bizim Şam əhli ilə nə üçün düşmən olduğumuzu bilirsinizmi?”

Cavab verdilər ki, xeyr.

Əbu Hənifə dedi:

“Əgər biz Siffeyn döyüşündə Əli ibn Əbu Talibin *(ə)* qoşununda olsaydıq, onun nəzərinə əsasən, Müaviyə ilə döyüşər və ona yardım etmiş olardıq. Biz Müaviyə ilə müharibə aparmağın zəruri olması etiqadına malikik və həmin səbəbdən Şam əhlinə düşmənik”.

Əhməd ibn Hənbəl “Musnəd”ində Peyğəmbərin *(s)* belə buyurduğunu yazır:

***“Əli ilə xilafət barəsində döyüşən şəxsi kimliyindən asılı olmayaraq öldürün!”***

Müaviyənin Həzrət Əli *(ə)* ilə döyüşməsini nəzərə alarkən Əhməd ibn Hənbəlin ona nisbətdəki mövqeyi məlum olur.

Həmçinin, İbn Cövzi, Abdullah ibn Əhməd ibn Hənbəldən onun belə dediyini nəql edir:

“Atamdan Həzrət Əli *(ə)* və Müaviyə barədə nə fikirləşdiyini soruşdum. O, bir qədər düşündükdən sonra dedi:

“Həzrət Əlinin *(ə)* çoxlu düşmənlərinin olmasına baxmayaraq heç kəs İmamda *(ə)* hansısa bir qüsur və eyib tapa bilmirdi. Düşmənlər çarəsizlikdən Müaviyəyə üz tutdular və Müaviyə ibn Əbu Süfyan İmam Əli *(ə)* ilə döyüşdü. Onlar yalandan Müaviyəni tərifləməyə başladılar. O Həzrətə *(ə)* düşmən olduqları üçün Müaviyəni onun qarşısına çıxardılar”.

## 2. 3. YEZİD İBN MÜAVİYƏ VƏ ONUN CİNAYƏTLƏRİ

Yezid Əməvilər xilafətinin qurucusu və birinci Əməvi xəlifəsi olan Müaviyə ibn Əbu Süfyanın oğulu olaraq Şamda dünyaya gəlmişdi. Onun 645-ci ildə doğulduğu qeyd olunur. Anası Bəni-Kəlb qəbiləsindən Maysun adlı bir qadın idi. Müaviyə Maysun ilə razılaşa bilmədiyindən Maysun kiçik yaşdakı oğulu Yezidi də yanına alaraq qəbiləsinin yanına geri dönmüşdü. Uşaqlığını anasıyla keçirən Yezid ondan şeir və ədəbiyyat öyrənmişdi. Yezid gənclik çağına gəlincə atasının yanına döndü. Gəncliyində də yaxşı bir təhsil almışdı.

O, Bizansa edilən səfərlərə qatıldı və 669-cu ildə birinci dəfə Əməvilərin İstanbulu mühasirə etməsində sərkərdə olaraq özünü göstərdi.

Müaviyə ölümündən əvvəl, 679-cu ildə Hüseyn ibn Əlinin *(ə)* və Abdullah ibn Zübeyrin qarşı çıxmasına baxmayaraq oğulu Yezidi xəlifə elan etdi və ona beyət edilməsini istədi.

Yezidin xəlifəliyinə qarşı çıxılmasının ən əhəmiyyətli səbəbləri kimi onun şərabxor, meymunbaz, İslam şəriətindən xəbərsiz olması, xilafətin varisliyə çevrilməsi narahatlığı və ərəb siyasi ənənələri göstərilməkdədir. O dövr ərəb siyasi ənənələrinə görə, liderlər ümumiyyətlə yaşlı, təcrübəli və nüfuzlu şəxslər olurdu, Yezid isə bu xüsusiyyətlərə sahib deyildi.

Yezid bir dəfə Şamın Hevran kəndində ova çıxarkən atının ürkməsi nəticəsində gözlənilməz şəkildə öldü. O zaman onun 38 yaşı var idi və üç il yarım xəlifəlik etmişdi. Oğulu II Müaviyə yerinə xəlifə oldu.

Yezid Peyğəmbərin *(s)* sevimli nəvəsi və Əhli-Beytdən *(ə)* olan İmam Hüseyni *(ə)* Kərbəlada susuz və zülm ilə şəhid edən, İslamla, müsəlmanlıqla əlaqəsi olmayan bir din düşməni və zalımdır. Dünyanın heç bir milləti Yezidi bu etdiyi zülmlərə görə haqlı saymır. Təkcə müsəlmanlar deyil, eyni zamanda başqa dinə mənsub olanlar belə, Yezidin etdiyi bu zalım hərəkəti lənətləmiş, Süfyan oğullarının nə qədər xain və qəddar bir zalım olduğunu anlamışlar.

Yezidin soy-kökünü və qövmünü araşdırsaq görərik ki, o, Əbu Süfyanın nəvəsi, Müaviyənin oğulu və Əməvi sülaləsinin dinsiz zalımlarından biridir. Əməvi sülaləsi isə İslam dinini quran Muhəmməd peyğəmbərə *(s)*, bu dini yaşadan Həzrət Əliyə *(ə)* və Əhli-Beytə *(ə)* əzəldən düşmən idi. Çünki Peyğəmbər *(s)* və onun Əhli-Beyti *(ə)* Haşimilər sülaləsindən idilər.

Yezid Şam valisi, kələkbaz, hiyləgər, Əhli-Beyt *(ə)* və din düşməni olan atası Müaviyə ibn Əbu Süfyanın ölümündən sonra hakimiyyətə gəlmiş, atasının etdiyi zülmlərdən betərini etmişdir. Onun bütün həyatı zövq, səfa və dinsizlik içərisində keçmiş, yeganə məqsədi Əhli-Beytdən *(ə)* həyatda tək qalan İmam Hüseyni *(ə)* aradan götürmək, beləliklə haqsız olaraq işğal etdiyi mövqedə əbədi hökm sürmək olmuşdu.

Əhli-Beytin *(ə)* nur nişanəsi olan İmam Hüseynə *(ə)* bu zülm və zalımlığı bir insan, əgər Yezidə insan demək mümkündürsə, necə, nə üçün və nə səbəbə etmişdir? Bu səbəbləri Əhli-Beyt *(ə)* ardıcılları olaraq araşdırmağımız, bilməyimiz və nəhayət anlamağımız son dərəcə zəruri və vacibdir.

Yezid bu zülmü və zalımlığı iki səbəbə görə etmişdir:

**1. Əməvi sülaləsinin Haşimi sülaləsi ilə olan əzəli düşmənçiliyi;**

Belə ki, Əməvilər elə ilk gündən Haşimilərə, eləcə də bu sülaləni təmsil edən Peyğəmbər *(s)* və Həzrət Əliyə *(ə)* nifrət edirdilər. Bu səbəblə Yezidin babası Əbu Süfyan İslamiyyətin qurulması və başlanğıcında İslam dininin qurucusu Həzrət Muhəmmədə *(s)* qarşı döyüşmüşdü. Atası Müaviyə İslam dininin ayaqda qalması üçün hər cür fədakarlıq göstərən İmam Əliyə *(ə)* qarşı savaşmışdı.

**2. İslam dininin qurulmasına mane olmaq, ümumiyyətlə İslamiyyəti ortadan qaldırmaq;**

Yeni din olan İslam Əməvilərin mənfəətlərinə uyğun gəlmirdi. Onlar bu səbəblə qədim bütpərəstliklərini eynilə davam etdirmək istəyirdilər. Əməvilərin bütün ticari gəlirləri bu nizam üzərində qurulmuşdu.

Əməvilər İslamiyyətin qurulmasından bəri heç zaman səmimi, əsl müsəlman olmamışdılar. Onlar hiylə və sağlam olma-

yan rəqabətlə ələ keçirdikləri mövqelərində din adına rahat otura bilmirdilər. Çünki haqsız yerə işğal etdikləri həmin mövqenin həqiqi sahibləri onlar deyil, Əhli-Beyt *(ə)* idi. Müaviyə və oğulu Yezid bunları çox yaxşı bilirdi. Onlar din, İslamiyyət və insanlıq ilə heç bir əlaqəsi olmayan zalımlar idi. Buna görə də qəsb etdikləri mövqelərini qorumaq üçün dinin həqiqi sahibləri olan Əhli-Beytə *(ə)* və onları sevənlərə hər cür zülm edirdilər.

Yezid səltənətin başına keçincə dərhal İmam Hüseynə *(ə)* xəbərlər göndərmişdi. Yezidin Həzrət Hüseyndən *(ə)* tək bir istəyi vardı: İmam *(ə)* onun xəlifəliyini qəbul və təsdiq etsin, yəni o Həzrət *(ə)* Yezidə beyət etsin. Lakin İmam Hüseyn *(ə)* İslam Peyğəmbərinə *(s)* bütün varlığını fəda edən, Rəsulullahın *(s)* ruhu və ürəyi sayılan, bu səbəblə də İslam Peyğəmbərinin *(s)* - ***"Mənim ruhum, mənim canım, mənim qanım, mənim nəfsim"***, eləcə də – ***"Dünya və Axirətdə mənim qardaşım tək Əlidir"*** kimi mübarək kəlamlarla mübarək şəxsiyyətinə qiymət verdiyi İslam aləminin vəlisi, vəlilər şahı Əliyyul-Murtəzanın *(ə)* oğuludur.

Yezidin İslam dinini ortadan qaldırmaq istəməsini yaxşı qarşılayanlar da vardı. Lakin İmam Hüseyn *(ə)* buna dözə bilməz və mane olmaq üçün heç bir fədakarlıqdan çəkinməzdi. Həzrət Hüseyn *(ə)* Kərbəla hadisəsinin son anında körpəsini qucağında tutaraq buyurmuşdu:

***"Ey zalımlar, mənə və mənim səhabələrimə bir içim su vermədiniz və onları susuz şəhid etdiniz. Bilirsiniz ki, İslam əqidəsi tərəfindən bütün uşaqlar müsəlman olaraq doğulurlar. Bu gördüyünüz uşaq günahsızdır, müsəlmandır və hətta Muhəmməd əl-Mustafanın qızı Fatimeyi-Zəhranın nəvəsidir. Bu günahsız uşaq susuzluqdan ölür. Allahın hər kəsə lütf etdiyi sudan bu uşağa bir içim verin"***.

Körpə uşağının belə, şəhid ediləcəyini bildiyi halda o böyük İmamın *(ə)* ona su istəməsi "o günahsız uşağa su verərlər" ümidindən irəli gəlmirdi. İmam Hüseyn *(ə)* yaxşı bilirdi ki, Müaviyənin oğulu Yezid insaniyyətdən uzaq olan necə bir daşürəkli və bədbəxtdirsə, ordusunun sərkərdəsi Səd ibn Vəqqasın

oğulu Ömər də bu baxımdan öz hökmdarından geri qalmayacaq, nəinki İslam Peyğəmbərinin *(s)* sevimli nəvəsinin uşağına bir içim su verməyəcək, hətta o günahsız körpəni susuz şəhid edəcəkdi.

Təəssüflər olsun ki, bir qrup şəxslər Peyğəmbərin *(s)* əziz balası və Cənnət cavanlarının Ağası Həzrət Hüseynin *(ə)* matəm mərasiminin qeyd edilməsinə, onun öldürülməsi əmrini verən və Peyğəmbər *(s)* ailəsini əsir edən Yezidə lənət oxunmasına etiraz edərək bu xalqın içinə fitnələr salmağa çalışmışlar. İmam Hüseynin *(ə)* qətlində Yezidi günahkar bilməyən bəziləri onun barəsində yazılan bütün tarixi əsərləri inkar edirlər.

Görəsən, İbn Teymiyyə və Qəzzali İmam Hüseynin *(ə)* Yezid tərəfindən öldürülməməsi barədə məlumatları hansı tarixi mənbədən əldə ediblər? Biz isə heç bir tarixi mənbədə belə faktla qarşılaşmadıq.

Bir neçə mənbədə Yezid bu qətldə əli olmamasını iddia edərək günahı İbn Ziyadın üstünə atsa da bu, həqiqətə uyğun deyil. Çünki Yezid bunu yalnız xalqın ona qarşı ayağa qalxdığını görərkən siyasətbazlıq edərək söyləsə də bu faciədə onun bilavasitə əli və birbaşa əmri olduğunu tarix çoxdan isbat etmişdir.

Digər tərəfdən, İbn Ziyad və Şümr Yezidin bilavasitə İmam Hüseynin *(ə)* qətlinə sərəncam verdiyini söyləmişdir. Bütün tarixçilər İmam Hüseynin *(ə)*, həmçinin o Həzrətin *(ə)* övladları, qardaşları və dostlarının Yezidin əmri ilə, habelə o məlunun hakimiyyətinin əldən gedəcəyindən qorxması səbəbi ilə faciəli şəkildə Kərbəlada şəhid edildiyini yazır. Tarixçilər Yezidin Mədinə valisinə İmam Hüseyndən *(ə)* zorla da olsa beyət alması, imtina etdiyi halda isə qətlə yetirilməsi haqqında əmr etməsində yekdil fikirdədirlər. Yezid ibn Müaviyə 60-cı ilin Rəcəb ayında Mədinə valisi Vəlid ibn Ütbəyə belə yazmişdir:

“Yazım sənə çatan kimi Hüseyn ibn Əlini və Zübeyr ibn Abdullahı tapıb mənim üçün beyət al. Beyətdən boyun qaçırtsalar boyunlarını vurub mənə göndər”.[226]

---

[226] İbn Şəhraşub, “əl-Mənaqib”, c. IV, s. 88, Şeyx Müfid, “İrşad”, s. 182.

İmam Hüseyn *(ə)* Mədinə hakiminin təqibindən qurtulandan sonra Məkkəyə getdi. Lakin Yezid yenə də o Həzrətdən *(ə)* əl çəkmədi, İmamın *(ə)* Kəbənin kənarında da olsa qətlə yetirilməsi üçün ikinci dəfə Məkkəyə bir dəstə göndərdi. Bu dəfə İmam Hüseyn *(ə)* Məkkədən İraqa tərəf hərəkət etdi. Yezid bundan xəbərdar olanda İbn Ziyadı Bəsrədən Kufəyə göndərdi və ona belə bir fərman verdi:

"Hüseyn ibn Əli ilə vuruşmaq üçün ona qarşı təcili qoşun göndər və beyətdən başqa onun heç bir təklifini qəbul etmə. Əks təqdirdə onu və tərəfdarlarını öldür, cəsədlərinin üstündən at qovdur, kəsilmiş başlarını mənim üçün göndər".

Yezidin bu fərmanından sonra hansı əsasla bir qrup təəssübkeş ona haqq qazandırır. Bu təəssübkeşlər tarix qarşısında həya etmədən belə bir iddia irəli sürürlər ki, Yezid Hüseynin *(ə)* qətlinə nəinki fərman verməyib, hətta buna razı belə, olmayıb. Bu cür insanlara məsləhət bilərdik ki, Zəhəbinin və İbn Kəsirin "Tarix" əsərlərinə müraciət etsinlər. Bundan əlavə, sübutlar əldə etmək üçün Təbərinin, İbn Əsir, İbn Xaldun və İbn Əsakirin "Tarix"lərinə müraciət edə bilərlər. Misal üçün, Təbəri özünün "Tarix" kitabında belə yazır:

"Hüseynin *(ə)* şəhid edilməsinin tarixi haqqında mövcud rəvayətlərdən biri belədir:

Müaviyə ibn Süfyan oğlu Yezidi xəlifə təyin edərək öləndən sonra Kufə əhalisi Hüseynə *(ə)* məktub yazaraq onu xəlifə görmək istədiklərini və ona itaət edəcəklərini bildirdilər. Hüseyn *(ə)* Müaviyə oğlu Yezidə beyət etmir və Məkkəyə gəlir. Kufəlilərin məktubunu Məkkədə alır və Kufəyə yollanmaq üçün hazırlaşır. Dövrün böyük səhabələrindən olan Ömərin oğlu Abdullah, Abbasın oğlu Abdullah və qardaşı Muhəmməd ibn Hənəfiyyə (Əlinin *(ə)* digər arvadından olan oğlu) kimi bir çox hörmətli adamlar ona Kufəyə getməməsini tövsiyə edirlər. Lakin Hüseyn *(ə)* yolundan qalmır. Yezid Kufəyə Ubeydullah ibn Ziyadı vali təyin edir və Hüseyni *(ə)* qarşılamaq üçün qoşun hazırlayır. Qoşuna Ömər ibn Səd ibn Əbu Vəqqas başçılıq edir. Bu qarşıdurma Hüseyn *(ə)* tərəfdən 72 nəfərin, o cümlədən

Hüseyn *(ə)* və 19 nəfər Əhli-Beyt *(ə)* adamlarının şəhid olması ilə nəticələnir".

Yezid nəinki İmam Hüseynin *(ə)* şəhid edilməsinə əmr vermiş, hətta kəsilərək ona göndərilən o Həzrətin *(ə)* mübarək başına hörmətsizlik etmişdir. Təbəri "Tarix" kitabının VI cildində yazır:

"Yezid sarayında əlində qamçı ilə Həzrət Hüseynin *(ə)* dişlərinə və ağzına vururdu. Orada olan Peyğəmbər *(s)* səhabələrindən Əbu Bərzə əl-Əsləmi qışqırdı:

"Sən Hüseynin *(ə)* dişlərinə və ağzına vurursan? Halbuki mən dəfələrlə Peyğəmbərin *(s)* onları öpdüyünü görmüşəm".

O, buna dözməyib saraydan çıxdı".

Müaviyə və Yezidin kimliyini Yezidin övladı və ondan sonra hakimiyyətə gələn, lakin tezliklə də aradan götürülən II Müaviyə ibn Yeziddən eşidək:

"Ey insanlar! Babam Müaviyə, Peyğəmbərə yaxınlıq səbəbi ilə xəlifəliyə daha layiq olan Əli ibn Əbu Talibə qarşı döyüşdü və bilmədiyiniz şeyi sizə yüklədi. Nəhayət, ölüm onu haqladı, indi qəbrində günahlarının girovu, qəbahətlərinin əsiridir. Sonra bu vəzifəyə atam gəldi. Halbuki o, xilafət əhli deyildi. Nəfsinə, həvəsinə tabe oldu. Tamah gözlərini kor etdi. Ancaq əcəl onu da yaxaladı. İndi o da qəbrində günahlarının girovu, qəbahətlərinin əsiridir".

Bu zaman Müaviyə ibn Yezid ağlamağa başladı və göz yaşları içində sözünə belə davam etdi:

"Bizim üçün ən ağır iş onun yatdığı yerin murdarlığını bilməyimizdir. Onun getdiyi yer necə də pis yerdir. Çünki o, Allah Rəsulunun övladlarını qətlə yetirdi, harama halal dedi və Kəbəni dağıtdı".[227]

Bir mətləbi də qeyd etmək yerinə düşər ki, Yezidin məmurları İmam Hüseynin *(ə)* qəbrini itirmək üçün Fəratdan kanal çəkmiş, qəbri sular altında qoymuşlar. Lakin Hüseyni *(ə)* sevənlər bu qəbrin yerini qoruyub saxlamışlar. Görünür ki, qəbir da-

---

[227] Bax: İbrahim Həsən "Tarixul-İslam", həmçinin müasir Quran təfsirçisi türkiyəli alim Mustafa İslamoğlu, "İmamlar və sultanlar" kitabına.

ğıtmaq ənənəsi heç də təzə deyil. Elə ilk müqəddəs qəbri dağıdan da Yezid olmuşdur.

Həmçinin, Yezid ibn Müaviyənin açıq-aşkar Allahın dinini və Qiyamət gününü təkzib etməsini isbat etmək üçün onun "Divanı"ndan bəzi şeirləri oxuculara təqdim edirik. Yezidin söylədiyi bu şeirləri Əbulfərəc, Şeyx Abdullah Şəbravi Şafei, Xətib Xarəzmi və İbn Əbil Hədid kimi böyük İslam alimləri öz kitablarında yazmış və o fasiqin lənətlənməsinə hökm vermişlər. Şeirlərin bir hissəsi aşağıdakılardan ibarətdir:

*"Şərab bir günəş kimi saqinin əlindən çıxır,*
*mənim ağzımda qürub edir.*
*Əgər Muhəmmədin dinində haramdırsa,*
*gəlin İsanın dinində içək".*

Xətib Xarəzmi, Əbulfərəc ibn Cuzi, Şeyx Abdullah Şəbravi Şafei yazırlar:

"İmam Hüseynin *(ə)* kəsilmiş başı Yezidin qarşısına qoyulanda o, yəhudi və xristian qonaqlarının qarşısında – "bu gün Bədr gününün müqabilində bir gün oldu ya Muhəmməd!" deyərək bu şeiri oxumağa başladı:

*"Kaş Bədr günü ölən babalarım indi burda olaydılar.*
*Sevincdən fəryad edib deyərdilər: əlin var olsun Yezid!*
*Onların ən böyüklərini öldürdün.*
*Bu Bədrin cavabı idi, indi oldu heç-heçə.*
*Bəni-Haşim səltənətlə oyun oynadı, necə.*
*Yoxsa, nə bir xəbər var idi, nə də vəhy gəlmişdi.*
*Xəndəfin (babalarından biri) oğlu olmazdım əgər,*
*Muhəmmədin balalarından intiqam almasaydım.*
*Əziz övladını öldürüb Əlidən öz qisasımızı aldıq..."*

Bu şeirlərin sahibinə haqq qazandırmaq, ona "Allah rəhmət etsin" demək İslamın əsaslarını ayaq altına qoymaq deyilmi?

Yezidin tarixdəki cinayətləri tək bunlarla bitmir. Onun əmri ilə Mədinə şəhərində qırğınlar olmuş, səhabə və tabeun kütləvi şəkildə öldürülmüş, Kəbə dağıdılmış, müsəlman qadınlar zorlanmışdır. Sibt ibn Cövzi, Əbulhəsən Mədaini və başqa tarixçilər yazırlar:

“Mədinədə Təvvabin qiyamı yatırıldıqdan sonra Yezid ibn Müaviyənin əmri ilə Peyğəmbərin *(s)* şəhərinə basqın edildi. Basqında o qədər müsəlman öldürüldü ki, hətta onların qanı Peyğəmbərin *(s)* məscidi və mübarək qəbrinə qədər axdı. Yezidin qoşunu xalqa amansızcasına divan tutur, müsəlmanların namusuna təcavüz edirdilər. Belə ki, həmin hadisədə zorlanmış mindən artıq ərsiz qadın sonradan dünyaya qanunsuz uşaq gətirdilər”.

Böyük İslam alimi Məsudi “Murucuz-zəhəb” kitabının II cildində yazır:

“Yezid yolu Fironluq yoludur. Hətta Firon idarəçilikdə ondan adil idi. Onun səltənəti İslam aləmi üçün böyük bir utandırıcı nöqsan oldu. Yezidin şərab içməsi, Peyğəmbər *(s)* balasını şəhid etməsi, Həzrət Əli ibn Əbu Talibə *(ə)* lənət oxuması, Kəbəni talan etməsi və bir çox insanların qanını tökməsi və s. onun bağışlanmayacağını göstərir”.

Həmçinin, İbn Cövzi Yezidin iç üzünü açan “ər-Rəddu ələl-mutəəssibil-ənid əl maniu ən ləni Yezid lənətullah” kitabını yazmışdır.

Yezid ibn Müaviyə üç illik hakimiyyəti müddətində Əhli-Beyti *(ə)* sevənlərə, inananlara, həmçinin Əhli-Beyt *(ə)* ardıcıllarına hər cür zülm, zalımlıq və dini düşmənçilik etmişdir. Heç şübhəsiz ki, Yezid etmiş olduğu bu zalımlıqlarından ötəri həm bu dünyada, həm də Axirət aləmində Allahın lənətini qazanmışdır. O, insan oğlunun edə biləcəyi zülm və zalımlığın ən qəddar nümayəndəsi olmuşdur. Yezid bu zülmlərindən ötəri əbədi olaraq qalacağı Cəhənnəmdə Qiyamətə qədər atəşdən ibarət bir tabut içərisində yanacaq. Yezidin cəzasını Qiyamətdə şübhəsiz ki, Allah verəcəkdir.

Tarixçilər yazırlar ki, Kərbəlada Əhli-Beytə *(ə)* bu zülmü edənlər atlı və ya piyada olsun, sıravı əsgər və ya sərkərdə olsun, heç birisi rahatlıq üzü görmədi. Bu zalımlar ən qısa zamanda insanlar tərəfindən layiq olduqları cəzalara düçar oldular və az qala hamısı, Cəhənnəm əzabından əvvəl, bu dünyada layiq olduqları əzab, qorxu və dəhşəti yaşayaraq qılınclar altında ölüb getdilər.

## 2. 4. ƏMƏVİLƏR XİLAFƏTİNİN SİYASİ VƏ MƏDƏNİ TARİXİ

Raşidi xəlifələri zamanından sonra (632-661) Suriyanın mərkəzi olan Dəməşqdə qurulan bu ilk xanədan dövləti öz adını qurucusu Muaviyə ibn Əbu Süfyanın mənsub olduğu Bəni-Üməyyə (Üməyyə oğulları, Əməvilər) qəbiləsinin adından götürmüşdür. Müaviyə və ondan sonrakı iki xəlifə bu qəbilənin Süfyani qolundan, digər on bir xəlifə isə eyni ailənin Mərvani qolundandır.[228]

Müaviyə ibn Əbu Süfyan Xəlifə Osman ibn Əffana (644-656) laqeyd münasibət bəslədiyini və onun ölümündə günahkar olan üsyançıları ordusunda saxladığını iddia edərək Xəlifə Osmanın yerinə Mədinədə xəlifə seçilən Həzrət Əliyə *(ə)* beyət etmədi. Hətta yeni xəlifəyə üsyan etməklə də kifayətlənmədi, Xəlifə Osmanın yaxın qohumu olaraq onun qanını tələb etmək haqqına sahib olduğunu irəli sürdü və bunu həyata keçirmək şərti ilə Şam xalqından beyət aldı. Daha sonra Məkkədə xanım Aişə, Təlhə və Zübeyri təhrik edərək öldürülən xəlifənin qanını almaq üçün toplanan qruplarla qatillərin cəzalanması üçün Əli *(ə)* arasında haqsız yerə mücadilə başladı. Cəməl müharibəsində qalib gələn Əlinin *(ə)* Müaviyəni təkrar itaətə dəvət etməsi qarşısında o Həzrətə *(ə)* Xəlifə Osmanın qatillərini ona təslim etməsini və xəlifəliyi buraxaraq Şura tərəfindən yeni bir xəlifə seçilməsi işini təmin etməsini təklif etdi. Onun bu davranışı iki tərəfi Siffeyndə qarşı-qarşıya gətirdi.[229] Bundan sonra isə mücadilələr gücləndi və İslam tarixində heç də xoş olmayan məlum nəticələrə gətirib çıxardı (3, 134, 140).

Nəhayət, Müaviyə müəyən şərtlərlə İmam Həsənin *(ə)* beyətini alaraq “birlik ili” adlanın 661-ci ildə ölkəni tamamilə hakimiyyəti altında topladı. Lakin Əməvi müxalifləri mücadilələrini buraxmadılar. Bu müxalif qruplar Müaviyə ilə xeyli müddət mücadilə etdilər.

---

[228] Filip Hitti, “Siyasi ve Kültürel İslam Tarihi”, tər: Salih Tuğ, Marmara Üniversitesi İlahiyat Fakültesi Vakfı Yayınları, İstanbul-1995, c. I, s. 301, 306.

[229] İsmail Yigit, “Emeviler”, DİA, Türkiye Diyanet Vakfı Nazirliyi, İstanbul-1991, c. XI, s. 87-90.

Dövlətini bəzi Bizans müəssisələrindən faydalanaraq quran və sabit bir vəziyyətə gətirən Müaviyə qeyri-müsəlmanlara qarşı çox yaxşı davranaraq könüllərini almış və bunların bəzilərini də sarayında vəzifələndirmişdir. Məsələn, müşavirlərindən Sərcun ibn Mansur bir xristian idi.[230]

Xəlifəliyi qəbilə təəssübkeşliyi təməlinə əsaslanan mücadilə nəticəsində ələ keçirmiş olan Müaviyənin ən əhəmiyyətli icraatı oğlu Yezidi vəliəhd təyin etməsidir. Onu bu işə təhrik edən isə Kufə valisi Muğirə ibn Şöbə olduğu rəvayət edilir. Müaviyə oğlunun xəlifəliyə layiq olduğunu göstərə bilmək üçün bəzi təşəbbüslər də göstərmiş, bu məqsədlə onu tələsik 670-ci ildə İstanbul səfərinə göndərmişdir. Yezidin Həccə getməsi və Hicaz xalqına bol yardımlar etməsi də bununla bağlı idi.

İlk İslam tarixçilərinin çoxu başda oğlu Yezidi vəliəhd təyin etməsi və digər səbəblərə görə Müaviyəni tənqid etmişdir. Onların Ömər ibn Əbdüləziz (717-720) istisna edilməklə digər Əməvi xəlifələrinə olan baxışları da eynidir. Lakin daha sonrakı dövrlərdə fərqli görüşlər irəli sürənlər də olmuşdur.

Muaviyənin ölümündən (aprel-680) sonra paytaxt Dəməşqdə və digər mərkəzlərdə Yezidə beyət edildi. Bu mövzuda problem çıxaran yeganə şəhər Mədinə oldu. Yezidin xəlifəliyini tanımayan İmam Hüseyn *(ə)* və Abdullah ibn Zübeyr onlardan zor ilə beyət almaqla vəzifələndirilən Mədinə valisinin təqibindən uzaqlaşaraq Məkkəyə getdilər. Lakin Hüseyn ibn Əli *(ə)* Məkkəyə gizlində deyil, aşkarcasına yola düşdüyünü elan edərək getmişdir. Onların bu davranışı ilə birlikdə Müaviyə zamanında nəzarət altında tutulan müxalifət hərəkətə başladı. Bu işin başında kufəlilər dururdu. Onlar Məkkəyə gələn İmam Hüseynə *(ə)* elçi və məktublar göndərərək o Həzrəti *(ə)* Kufəyə dəvət etdilər. Dəvətlərini qəbul edib Kufəyə gəldiyində isə İmamı *(ə)* xəlifə elan edəcəklərini və o Həzrətin *(ə)* bayrağı altında Yezidə qarşı vuruşacaqlarını bildirdilər. Hüseyinin *(ə)* vəziyyəti araşdırmaq üzrə göndərdiyi əmisi oğlu Müslim ibn Əqil Kufədə çox yaxşı bir şə-

[230] Hayati Ülkü, "Başlangıçtan Günümüze İslam Tarihi", c. II, s. 117, 120.

raitin olduğunu müşahidə etdi və İmam Hüseyn *(ə)* adına xalqdan beyət alıb Hüseyni *(ə)* Kufəyə çağırdı.[231]

Hadisələrdən xəbərdar olan Yezid Bəsrə valisi Ubeydullah ibn Ziyadı Kufə valiliyinə gətirərək onu üsyanın qarşısını almaqla vəzifələndirdi. Vəzifəyə başladıqdan dərhal sonra Müslim ibn Əqil və yoldaşlarını öldürdən İbn Ziyad göndərdiyi qüvvələrlə Kufədəki yeni hadisələrdən xəbərsiz olaraq gəlməkdə olan İmam Hüseynin *(ə)* yolunu kəsdi. Hicrətin 61-ci ilində, Məhərrəm ayının 10-da (10 oktyabr–680), cümə günü Kərbəlada cərəyan edən çarpışmalarda İmam Hüseyn *(ə)* və yanındakı şəxslərin demək olar ki, hamısı şəhid edildi.[232]

Xəlifə Yezid ibn Müaviyənin 683-cü ildə baş verən ölümündən sonra xəlifəliyə II Muaviyə ibn Yezid gəldi. II Müaviyə Əməvilər sülaləsinin Süfyanilər qolunun sonuncu nümayəndəsi oldu.

684-cü ildə Mərvan ibn Həkəmin xəlifəlik məqamını işğal etməsi ilə Əməvilər sülaləsinin yeni qolu olan Mərvanilər qolu iş başına keçmiş oldular.

Əməvilərin ən böyük hökmdarı olaraq bilinən Əbdülməlik ibn Mərvan (685-705) bir tərəfdən daxili və xarici düşmənləri ilə mücadilə edərkən, digər tərəfdən dövlətin inkişafını təmin edən bəzi yeni islahatlar həyata keçirmişdir. İlk İslam pul vahidini kəsdirməsi və dövlət dairələrində ərəb dilini rəsmi dil olaraq qəbul etdirib məhəlli dillər ilə tutulan divanları ərəb dilinə tərcümə etdirməsi islahat fəaliyyətinin başında gəlməkdədir.

Xəlifə Əbdülməlikdən sonra taxta onun oğlu I Vəlid (705-715) keçdi. On illik iqtidarı dövründə Əməvi dövlətini zamanın ən böyük dövləti halına gətirən I Vəlid babası Mərvan və atası Əbdülməlik kimi taxtını öz oğluna tərk etmək arzusunda idi. Buna görə də atasının ikinci vəliəhd təyin etdiyi qardaşı Süleymanı bu məqamdan uzaqlaşdırmalı idi. Qardaşının vəliəhdlik haqqından əl çəkməməsi I Vəlidin bu arzusuna çatmasını əngəllədi. O, bu istəyini həyata keçirə bilmədən vəfat etdi. Bunun üzərinə 715-ci ildə xəlifə olan Süleyman ibn Əbdülməlik, Həccac ibn Yusif

---

[231] Əllamə Məclisi, “Biharul-ənvar”, c. 44, s. 340.
[232] Həmin mənbə s. 403.

(695-715) tərəfindən həbsə atılan minlərlə məhkumu buraxmaq, eyni zamanda I Vəlidi dəstəkləyərək onu vəliəhdlikdən uzaqlaşdırmağa çalışan dövlət adamlarını cəzalandırmaqla işə başladı.

Süleyman ibn Əbdülməlik ölüm döşəyində ikən öz yerinə nisbətən dindar olan Ömər ibn Əbdüləzizi vəliəhd təyin etdi (717-ci ildə). Gözləmədiyi anda xəlifəliyə gətirilən Ömər ibn Əbdüləziz yaxşı dini təhsil almışdı. O, təhsilini tamamladığı Mədinənin valiliyini idarə etdiyi 706-712-ci illər arasında şəhərin məşhur on din alimindən meydana gələn bir məclis qurdurmuş, əhəmiyyətli işləri onlarla müzakirədən sonra qərarlaşdırmışdır. Xəlifə olaraq da sələfləri və xələfləri arasında çox fərqli bir zehniyyətə sahib idi. İslam dininin bütün qaydalarını yaşatmaq üçün çalışan bir dövlət başçısı Ömər ibn Əbdüləzizlə birlikdə xuləfai-Raşidin dövründəki (632-661) xəlifəlik zehniyyəti təkrar tarix səhnəsinə qayıtdı. Bu səbəblə də bəzi qaynaqlarda ona Raşidi xəlifələrinin beşincisi adı verilmişdir. Əməvilər dövləti bu xəlifənin zamanında demək olar ki, ən parlaq dövrünü yaşamışdır.[233]

Əməvi xəlifələrinin ən acizlərindən biri olan II Yezidin səltənəti (720-724) sülalə dövlətinin təməlini sarsıdan, İraq bölgəsində Yəmən əsilli Əzd və Rəbiə qəbilələri ilə Şimal ərəblərindən olan Təmim və Qays qəbilələrini şiddətli döyüşlərə sövq edən Yezid ibn Mühəlləb üsyanı ilə başladı. II Yezid, Həccacı dəstəkləyənlərdən idi və onunla qohum olmuşdu.

II Yezidin yerinə keçən Hişamın xəlifəliyi (724-743) təqribən iyirmi il davam etmişdir. Əməvilərin üçüncü yüksəliş dövrü kimi dəyərləndirilən bu dövrün sonuna doğru sülalə dövlətinin təməlləri sarsılmağa başladı.

Xalid ibn Abdullah əl-Qəsrinin 15 il müvəffəqiyyətlə idarə etdiyi İraq onun vəzifədən kənarlaşdırılmasından (738-ci ildə) bir müddət sonra Əli *(ə)* övladından Zeyd ibn Əlinin üsyanına səhnə oldu, lakin çox çəkmədi ki, bu üsyan yatırıldı. Bəzi din alimlərinin də dəstəklədiyi bu hərəkat Əməvi dövlətini yıxmaq məqsədilə fəaliyyətə başlamışdır.

---

[233] Filip Hitti, “Siyasi ve Kültürel İslam Tarihi”, tər: Salih Tuğ, Marmara Üniversitesi İlahiyat Fakültesi Vakfı Yayınları, İstanbul-1995, c. I.s. 364.

Xəlifə Hişam ibn Əbdülməlikdən sonra isə Əməvi taxtına II Vəlid ibn II Yezid (743-744), III Yezid ibn I Vəlid (744-744), İbrahim ibn I Vəlid (744-744) və II Mərvan ibn Muhəmməd (744-750) növbə ilə sahib oldular.[234]

İslamı zülm və istibdad yolu ilə yaymağa çalışan Əməvilərin tənəzzülünə zəmin hazırlayan əhəmiyyətli səbəblərdən biri də şiə və xarici üsyanlarıdır. Abdullah ibn Zübeyrin, İbn Əşəsin və Yezid ibn Mühəlləbin üsyanları da bu səbəblər arasında qeyd edilə bilər. Yəmənli və Mudari qəbilələri arasındakı mücadilələr və bu səbəbdən baş verən daxili müharibələr dövləti əhəmiyyətli dərəcədə zəiflətdi. Əməvi ordusunun qəbilə təməli üzərində qurulması və xəlifələrin qəbilə təəssübkeşliyi ilə hərəkət etməsi bu mücadiləni daha da şiddətləndirmişdir. Xüsusilə Əməvi idarəsinin təməl dəstəyi olan Yəmənli qəbilələrin sülalə dövlətinin əleyhinə son zamanlarda çıxış etməsi tənəzzülü sürətləndirən mühüm amillərdəndir. Xəlifələrdən bir çoxunun dini həyatdan uzaq, israf içərisində yaşamaları və vəliəhdlik tətbiqatları səbəbi ilə xanədan mənsubları arasında çıxan ixtilaflar da bu amillərə əlavə edilə bilər. Bundan əlavə, güclü ərəbçilik təəssübü ilə məşhur olan Əməvi xəlifələrinin Məvalini ərəblərinin faydalandıqları bir qisim haqlardan məhrum etmələri qeyd edilən tənəzzülü labüd etmişdir.

Əməvi dövlətinin müxtəsər mədəni tarixinə gəldikdə isə demək lazımdır ki, onlar öz siyasi məqsədlərinin mənfur olmasına baxmayaraq bu işdə çox irəliləmişdilər.

Məlum olduğu kimi, müsəlmanlar arasında elm kəlməsinin ifadə etdiyi məna çox genişdir. İlk zamanlarda bilinən və ya öyrənilən nə varsa hamısına elm adı verilirdi. Lakin sonralar elmin inkişafı, maariflənmənin genişlənməsi, əhalinin savadlılığının artması, elmin müxtəlif sahələrinin inkişaf etməsi səbəbi ilə bu sahələrdə ixtisaslaşmanın zəruri olaraq ortaya çıxması kimi səbəblər yeni-yeni elm növlərini meydana gətirdi.

Bu elm sahələrini müxtəlif cür təsnif etmişlər. Hər kəs fərqli nöqteyi-nəzərdən məsələyə yanaşmış, bir çox elm təsnif-

[234] İsmail Yigit, "Emeviler", DİA, Türkiye Diyanet Vakfı Nazirliyi, İstanbul-1991, cc. XI, s. 92-95.

ləri ortaya çıxmışdır. Bu təsniflərdən müsəlmanlar arasında daha geniş bilinəni “dini” və “dünyəvi” olmaqla edilən təsnifdir.

Dini elmlər deyildikdə xüsusi ilə ilk yada düşən Qurani-Kərim, hədis, fiqh, təfsir və s. elmlərdir. Astronomiya, tibb, kimya kimi elmlər isə Əməvilər zamanında dünyəvi elmlər arasında yer alan elm sahələrinin başlıcaları idi.

Ümumiyyətlə, elmlərin yayılması və tədvini mərhələsində Əməvilər dövrünün özünəməxsus yeri vardır.

Qurani-Kərimin tədqiqi, həmçinin onu təfsir edib açıqlama zərurəti iki əkiz qardaş olan “dilçilik” və “lüğətçilikdə” olduğu kimi, eyni zamanda İslamdakı yazılı elmi fəaliyyətin ən mühüm sahələrindən biri olan hədis elminin də ortaya çıxmasına səbəb olmuşdur.

Termin mənası ilə hədis istər Muhəmmədin *(s)*, səhabənin və Əhli-Beytin *(ə)* “buyurduğu kəlam və etdiyi iş” mənasına gəlir. Məhz Qurani-Kərim və hədisin təməl təşkil etməsi şərti ilə bunların üzərinə “əqaid” və “fiqh”, yəni şəriətin iman və əməl (inanc və yaşayış) bölümləri inşa edilmişdir. İslam hüququ bu gün modern hüquqşünasların anladığı hüquq elmi olmaqla yanaşı, həm də “qəti bir şəkildə dinə bağlı olan bir hüquq” mənasındadır. Əməvilər dövründə Roma hüququnun İslam hüququna və onun formalaşmasına təsir etdiyi iddia edilsə də bunun nə qədər doğru və bu təsirin nə dərəcədə olduğu mübahisəli bir məsələ olaraq bu gün də öz aktuallığını itirməmişdir. Əməvilər dövründə olan hüquqi araşdırmalara aid yazılı qaynaqların çox az bir qismi bu gün bizə məlum olmaqla bərabər, eyni zamanda bəzi mühəddis (hədis alimi) və füqəhanın (hüquq alimi) adlarını və onlar haqqındakı bir çox məlumatı bilməkdəyik.

Əksəriyyəti şiə və Əli *(ə)* tərəfdarlarından mütəşəkkil olan kufəlilərin ərəb dili, qrammatika, bir sözlə İslam təliminə bəxş etdikləri qonşuları bəsrəlilərinki qədər parlaqdır. Bu iki ayrı şəhərdə toplanan alimlər arasındakı rəqabət, ərəb dilinin qrammatikası və ədəbiyyatı sahələrindən iki çox məşhur məktəbin – Bəsrə və Kufə məktəblərinin zühur etməsinə səbəb oldu.

Elm və təhsilin şəkli və müəssisələşmiş forması Əməvilər dövründə hələ tam olaraq sonrakı zamanlarda yaranacaq mü-

kəmməl şəklini almamışdır. İlk Əməvi vəliəhdləri üçün Suriya çölü (Badiyyə) gənc yaşda və uşaq olanların saf və fəsih ərəb dilini öyrənmələri, şeir və ədəbiyyatda yaxşıca yetişmələri üçün göndərildikləri xüsusi bir məktəb rolunu ifa etməkdəydi. Xəlifə Müaviyə bu məqsədlə oğlu və gələcək xəlifə olacaq Yezidi Suriya çölündə yaşamağa göndərmişdir. Xalq Yezidi öz ana dilində oxuyub-yaza bilən, mahir oxatan və üzgüçü, təhsilli biri kimi tanıyırdı. Bu da əhali arasında adətən mükəmməl insan təsəvvürü oyadırdı. Lakin buna baxmayaraq xalq onun meymunbaz, qumar və şərab düşkünü olduğunu da yaxşı bilirdi.

Mövzu ilə əlaqəli yazılmış əsərlərdən aydın olur ki, cəsarət, çətinliklərə sinə gərmək bacarığı, səbir, qonşu, insanlar və ailəyə qarşı olan vəzifələri yerinə yetirmək, mərdlik, kişilik, ləyaqət, mürüvvət, comərdlik, qonaqpərvərlik, qadınlara hörmət və s. bu kimi əxlaqi prinsiplər təhsildə diqqət edilən və nəticə olaraq əldə edilməyə çalışılan nəhayi hədəflər idi. Bu xüsuslar çöldə, səhrada yaşayan bədəvi ərəblər arasında xüsusi dəyərə sahib idi.

Xəlifə Əbdülməlik zamanından etibarən sarayda adətən ya bir azad kölədən, ya da bir xristian dinindən olan şəxslərdən təyin edilən tərbiyəçilər davamlı olaraq vəzifə almışlar. Bu tərbiyəçilər "Müəddib" adlanırdılar. Bunlar xəlifənin oğullarına lazım olan hər şeyi öyrədirdilər. Xəlifə II Ömər övladları ərəb dilini qrammatik qaydalara riayət etmədən danışdıqları üçün onlara bu cür təhsil verdirmiş, hətta nəticəni əldə etmək üçün onlara dəyənək cəzasının verilməsinə belə, razı olmuşdur. II Ömərin övladlarının tərbiyəçisinə verdiyi təlimat xüsusi ilə maraqlıdır. O, tərbiyəçiyə demişdir:

"Onlara verəcəyin ilk təsirli əxlaq dərsi Şeytanın bir aldatması olan və nəticədə Allahı qəzəbləndirən əyləncə vasitələrinə qarşı onların zehnində düşmənlik yaratman olsun".[235]

Bu gün də olduğu kimi, Əməvilər zamanında da təhsil almaq istəyən xalq ilk növbədə Qurani-Kərim və hədis dərsləri tədris edilən məscidlərə müraciət edirdilər. Bu səbəblə də İslamda, həmçinin Əməvilərdə təhsillə məşğul olan ilk müəllimlərin

---

[235] Filip Hitti, "Siyasi ve Kültürel İslam Tarihi", tər: Salih Tuğ, Marmara Üniversitesi İlahiyat Fakültesi Vakfı Yayınları, İstanbul-1995, c. I, s. 397.

Qurani-Kərimi oxuyub yaza bilən qurralar (Quranı mükəmməl oxuyanlar) olduğunu söyləsək heç də yanılmarıq. Hələ Xəlifə Ömər 638-ci ildə idarəsi altında olan bütün bölgələrə bu cür müəllimlər göndərmiş və cümə günləri onların məclislərində iştirak etməyi xalqa əmr etmişdir. Əslində isə bu fəaliyyət Peyğəmbərin *(s)* zamanından başlamışdır. Xəlifə II Ömər Yezid ibn Əbi Həbibi (ö. 746) Misirə Baş qazı göndərmiş və Yezid Misirdə fəaliyyət göstərən ilk müəllim olmuşdur. Kufədə isə qaynaqların rəvayətinə görə, əd-Dahhak ibn Muzahim (ö. 723) adında biri məktəb (küttab) açmış və işi üçün heç bir məvacib tələb etməmişdir. Bununla yanaşı, VIII əsrdə Bəsrədə pullu məktəblərin də olduğu qaynaqlarda nəql edilməkdədir.

Çöldən gələn ərəblər idarələri altına aldıqları ölkələrə nə bir təhsil ənənəsi, nə də bir mədəniyyət gətirmişdilər. Onlar Suriya, Misir, İraq və İranda itaət altına aldıqları millətlərin önündə elm tələb edən bir kimsə kimi diz çökdülər. Onların əsil hünəri də elmi alıb dəyərləndirmələri oldu.

Əməvilər dövrünün cahiliyyə dövrünə çox yaxın olması, aparılan daxili və xarici müharibələr, İslam dünyasının ictimai və iqtisadi həyatındakı qarışıq vəziyyət və s. bu dövrdəki fikri həyatın inkişafına əngəl, mane olmuşdur. Lakin bununla yanaşı, onu da qeyd etmək lazımdır ki, sonrakı dövrlərdə meydana çıxacaq islami fikir və düşüncə mirası məhz bu dövrdə cücərmiş və boy atmağa, yetişməyə başlamışdır.[236]

İranlı, suriyalı, türk, habelə digər müsəlman millətlər ərəblər ilə evlilik münasibətləri qurduqdan sonra ərəblə qeyri-ərəb arasında qədimdən bəri mövcud olan ayırıcı və qalın divar yıxıldı. Artıq bundan sonra müsəlmanın irqi və milliyyəti arxa plana atılmış oldu, Həzrət Peyğəmbərin *(s)* gətirdiyi dinə tabe olan artıq ərəb sayılırdı.

Buna görə də ərəb deyildikdə "irqi mənsubiyyəti nəzərə alınmadan İslamı qəbul edib ərəbcə oxuyub-yazan və ya danışan" başa düşülürdü. Bu məqam İslam mədəniyyəti tarixində diqqət çəkən xüsuslardan biri oldu. Sonralar Qərb aləmində for-

---

[236] Həmin mənbə, 377-378.

malaşan "Ərəb mədəniyyəti", "Ərəb fəlsəfəsi", "Ərəb tibbi" kimi məfhumlarla da sadəcə ərəb irqinin deyil, fərqli millətlərdən təşəkkül tapan müsəlmanların birgə ortaya qoyduqları düşüncə mirası nəzərdə tutulurdu.

Əməvilər dövründə İraq bölgəsinin iki əkiz qardaş şəhəri olan Bəsrə və Kufə İslam dünyasının ən canlı və hərəkətli fikri, elmi fəaliyyət mərkəzləri halına gəlmişdir. İraqın bu iki mərkəzi 638-ci ildə Xəlifə Ömər ibn Xəttabın əmri ilə əslində bir əsgər qərargahı olaraq təsis edilmişdir.[237]

Xəlifə Əli ibn Əbu Talib *(ə)* tərəfindən paytaxt olaraq istifadə edilən Kufə qədim Babil şəhərinin xarabalıqları yaxınlığında yüksəlmişdi. Bu iki qardaş şəhər qurulduqları ərazi, ticarət və əhalinin miqrasiyası baxımından çox əlverişli bir mövqeyə sahib olduqları üçün qısa zaman içərisində zəngin və əhalisi yüz minləri aşan böyük şəhərlər halına gəldilər. Əməvilər dövründə Xorasanın mərkəzi sayılan Bəsrənin 670-ci ildə ümumi əhalisinin sayının 300.000-i aşdığı və daha sonrakı illərdə 120.000 ədəd su kanalına sahib olduğu qaynaqlarda nəql edilir. Məhz İran sərhədində yerləşən bu torpaqlarda ərəb dili və qrammatikasının əsas etibarı ilə xaricilərdən İslamı qəbul edənlərin, qismən də ərəblərin özlərinin istifadəsi üçün elmi baxımdan tədqiqi və araşdırılması başlandı. Bu mövzudakı ilk təkan Qurani-Kərimi tədqiq etmək istəyənlərin istəkləri olmuşdur. Bununla yanaşı, Qurani Kərimin "fəsih ərəbcəsi" ilə süryanicə, farsca, eləcə də digər dil və ləhcələrin qarışmasıyla formalaşan "avami ərəbcə" arasındakı məsafə və fərqliliklərin gün keçdikcə daha da artması bu tip dil və qrammatika araşdırmalarına əhəmiyyətli dərəcədə təkan vermişdir.[238]

Bu həqiqətləri diqqətə alsaq görərik ki, ərəb dilinin əfsanəvi qrammatiki (nəhvçisi) Əbu Əsvəd əd-Duəlinin (ö. 688) məhz Bəsrə şəhərində yetişib şöhrət qazanmasında təsadüfün heç bir rolu yoxdur. Məşhur tərcümeyi-hal yazıçısı İbn Xəllikanın nəql

---

[237] İbrahim Quliyev, "Hədisi-şəriflərdə müqəddəs şəhərlərin tarixi", Bakı, Nurlar-2012, s. 142.

[238] İsmail Yigit, "Emeviler", DİA, Türkiye Diyanet Vakfı Nazirliyi, İstanbul-1991, c. XI, s. 96-97.

etdiyinə görə, İmam Əli *(ə)* əd-Duəliyə cümlələrin "isim", "fel" və "hərf" olmaqla üç prinsipdən meydana gəldiyini buyurmuşdur. O da bunu müvəffəqiyyətlə isbat etmişdir. əd-Duəli ərəb aləmində ilk "Usulun-Nəhvil-Ərəbiyyi" adlı qrammatika kitabını yazan şəxsdir. Bundan əlavə, ərəb dilinin qrammatikası yavaş və uzun sürən bir inkişaf mərhələsindən keçmiş, Yunan məntiqinin bəzi diqqət çəkən təsirlərinə məruz qalmışdır.

əd-Duəlidən sonra digər bir elm adamı olan əl-Xəlil ibn Əhməd əl-Fərahidi ərəb dilinin qrammatikasında bir sıra tədqiqatlar apardı və nailiyyətlər əldə etdi. əl-Xəlilin "Kitabul-eyn" adlı lüğət kitabı yazmasına dair tərcümeyi-hal yazanlar tərəfindən edilən rəvayətlər göstərir ki, ona ərəb şeirinin vəzn və qaydalarını tapıb ortaya çıxaran bir şəxs kimi baxılır və hətta bu gün bu qayda və vəznlər ərəb şeirində öz ağırlığını hiss etdirməkdə davam edir.

İranlı Sibəveyh (ö. 793) ərəb dilinin qrammatikası haqqında ilk sistemli kitab yazan şəxslərdən biridir. Onun "əl-Kitab" adlı məşhur əsəri o zamandan bəri qrammatika mövzusuna həsr edilən bütün digər kitablara təməl nümunə təşkil etmişdir.

Osman ibn Əffanın xilafəti dövründə (644-656) üzü köçürülən Quran nüsxələri qiraət vəchlərini yaxşı bilən alimlər vasitəsi ilə böyük mərkəzlərə göndərilmiş və onlar tərəfindən başqalarına öyrədilmişdir. Bu şəxslər və qiraət qaydalarını bilən digər alimlər olduqları mərkəzlərdə qiraət elminin öndərləri olmuşlar. Məhz onların sayəsində Qurani-Kərim bütün oxunuş fərqlilikləri mühafizə edilməklə Peyğəmbərə *(s)* nazil olunduğu şəkildə gələcək nəsillərə ötürülmüşdür.

Əməvilər dövründə yetişən qiraət alimləri ilk halqalarında müəllimlərindən dinlədikləri qiraət tərzlərini sistemləşdirməyə başlamış, beləcə qiraət elminin inkişafında mühüm rol oynamışlar. Bu dövrdə çox sayda qiraət alimi yetişmiş, onlardan bəziləri elmi fəaliyyətlərini tamamilə Quranın oxunuşuna həsr etmişlər.

Qiraət elmində yeganə müraciət mənbəyi halına gələn "qiraəti-səba" imamlarından üçü bu dövrdə yetişmişdir. Bunlar Suriya bölgəsinin qiraət ustadı İbn Əmir əl-Yahsubi, Məkkənin qi-

raət imamı İbn Kəsir və kufəlilərin imamı Asim ibn Vəhdələdir. Qaynaqlar İbn Kəsirin bu sahədə kitab yazdığını zikr etməkdə və bəzi əsərlərinin adını verməkdədir.

Əsasən qiraət elminə aid ilk əsərlər Əməvilər zamanında yazılmağa başlamışdır. Çox az bir hissəsi zamanımıza qədər çata bilən bu əsərlər daha sonrakı qaynaq təşkil etmişlər.

Yenə də ilk dəfə Əməvilər zamanında Quran mətninə nöqtə və hərəkələr qoyulmuş, mətnlər Müshəf cüzlərə, aşırlara və hizblərə ayrılmışdır. Ayələrin sayına və vəqf yerlərinə aid ilk əsərlər də Əməvilər zamanında yaşayan alimlər tərəfindən təklif edilmişdir.

Əməvilər zamanında təfsir çalışmalarına elmi fəaliyyətlərlə vəzifəli olaraq və ya başqa səbəblərlə əhəmiyyətli mərkəzlərdə məskunlaşan müfəssir-səhabələr öndərlik etmişdir. Bu zamanda təfsir çalışmaları Məkkə, Mədinə və Kufədə geniş vüsət almışdır. Abdullah ibn Abbas kimi ömürlərinin əhəmiyyətli vaxtlarını Əməvilər zamanında keçirən əshabın gənc nəslini təmsil edən müfəssir-səhabələrin təfsir ilə əlaqəli açıqlamaları onların tələbələri tərəfindən qeydə alınmış, tabeunun ilk təbəqəsinə mənsub bu müfəssirlərin tutduğu təfsir qeydləri bu sahədəki yazılı tədqiqatların ilk nümunələrini təşkil etmişdir.

Mücahid ibn Cəbrin mənası çətin başa düşülən ayələri açıqlamaq üçün yazdığı və günümüzə qədər də gəlib çatan təfsiri kimi ("Təfsiri-Mucahid") ilk təfsir kitabları da bu dövrdə qələmə alınmışdır. Eyni dövrdə yazılan, lakin zaman keçdikcə yox olan bir çox təfsir kitabının adı əsərləri bu günə çatan müfəssirlərin ana qaynaqları arasında yer almaqdadır.

Bu dövrdə yetişən Qatadə ibn Diamə və Ata ibn Müslim əl-Xorasani kimi müfəssirlər Qurandakı nasix və mənsux ayələrlə əlaqəli əsərlər yazmışlar. Yenə bu dövrdə Əta ibn Əbu Rəbah kimi qaribul-Quran müqəddəs Kitabı tədqiq edənlər arasında vardır. Təfsirin qollarından sayılan "əl-Vucuh vən-Nəzair" elminin ilk nümunələri də bu dövrdə qələmə alınmışdır.

Məkkə təfsir məktəbinin qurucusu sayılan Abdullah ibn Abbas Əməvilər dövrünün ən məşhur müfəssirlərinin önündə gə-

lən, “müfəssirlərin sultanı” və “Quranın tərcümanı” deyə adlandırılan şəxsdir. İbn Abbasın tələbələri Qurani-Kərimdə qarşılaşdıqları bütün müşkülləri (çətinlikləri) müəllimlərindən soruşub öyrənmiş, bu biliklərə öz tədqiqatlarını da əlavə edərək təfsir elminə dair ilk əsərlər ortaya qoymuşlar. İbn Abbasın tələbələrindən Əta ibn Əbu Rəbah, Tavus ibn Keysan, Mücahid ibn Cəbr, Said ibn Cübeyr, İbn Əbu Müleyki, İkrimə, Amr ibn Dinar və Meymun ibn Mihran kimi şəxslər təfsir elmində şöhrət qazanmışlar.

Mədinə şəhərində səhabədən olan Ubey ibn Kəbin rəhbərliyi ilə başlayan təfsir tədqiqatları da bu zamanda bir çox müfəssirlərin yetişməsinə zəmin yaratmışdır. Səhabənin əksəriyyəti bu şəhərdə olduğu üçün onlardan istifadə etmək şansına sahib olan Mədinə müfəssirlərinin önündə Əbu Aliyə ər-Riyahi, Muhəmməd ibn Kəb əl-Kurazi, Zeyd ibn Əsləm əl-Ədəvi kimi şəxslər görünməkdədir.

İraq ərazisində ilk təfsir tədqiqatları Abdullah ibn Məsud və tələbələri tərəfindən həyata keçirilmişdir. Qatadə ibn Diamə, Mürrə ibn Şərahil, İsmail ibn Abdurrahman əs-Süddi (Süddii Kəbir), Əbu Abdurrahman əs-Süləmi onun ən tanınmış tələbələrindəndir. Ariyyə əl-Avfi və Rəbi ibn Ənəs əl-Bəsri də bu elmdə əsərlər yazmışlar.

Xorasan bölgəsində Dahhak ibn Müzahim və Əta ibn Müslim əl-Xorasani, Misirdə Ata ibn Dinar təfsir elminin öndə gələn nümayəndələri arasında yer almaqdadır. Muhəmməd ibn Cərir ət-Təbəri və Saləbi kimi daha sonrakı dövrlərdə yaşayan müfəssirlər Əməvilər dövründə yazılan, lakin zaman keçdikcə itən təfsir kitablarından əhəmiyyətli dərəcədə faydalanmışlar.

Beləliklə, zamanımıza qədər gəlib çatan təfsir qaynaqlarında yer alan məlumatın böyük bir bölümünün Əməvilər dövründə yetişən müfəssirlərə aid olduğu və ya onlar tərəfindən nəql edildiyi görünməkdədir.

Hədis elmi ilk zamanlarda demək olar ki, bütün dini mövzuların hamısını əhatə edirdi. Bu dövrdə əsasən elm deyilincə hədislərin rəvayəti və hədislərin əhatə etdiyi mövzulara dair biliklər nəzərdə tutulurdu. Bu vəziyyət VII əsrin ikinci yarısına

qədər davam etmişdir, sonralar isə dini elmlər getdikcə qollara ayrılmağa başlamışdır.[239]

Hədis elmi başlıca olaraq üç mərhələdən keçmişdir:

Birinci mərhələ hədislərin yazılmasıdır. Səhabə dövrü ilə tabeunun ilk zamanlarını əhatə edən bu mərhələdə hədislər "səhifə" adı verilən kiçik kitabçalarda toplanmışdır.

İkinci mərhələ müxtəlif hədis səhifələrinin bir araya toplandığı tədvin mərhələsidir. Bu dövr VII əsrin sonları ilə VIII əsrin başlanğıcını əhatə edir.

Hədis elminin III mərhələsi isə məhz Əməvilərin son dövrlərindən başlayaraq Abbasilərin dövründə tamamlanan təsnif mərhələsidir.

Səhabədən bəzilərinin hələ Rəsulullahın *(s)* zamanında onun özündən icazə alaraq başlatdıqları hədisyazma fəaliyyəti Əməvilər zamanında daha da genişlənmişdir. Bu dövrün alimləri rastlaşdıqları hədisləri öz kitablarında toplamağa böyük həvəs göstərmişlər.

Beləcə yayılan hədis rəvayəti hərəkatı ilə yanaşı, müxtəlif məqsədlərlə hədis uydurma fəaliyyətləri də paralel olaraq davam etmişdir. Bu təhlükənin qarşısının ilk dəfə rəsmi olaraq alınması da Əməvilər dövrünə təsadüf etməkdədir. Əməvilərin görkəmli xəlifələrindən biri olan Ömər ibn Əbdüləzizin zamanında bu sahədə əhəmiyyətli işlər görülmüşdür. O, islami elmlərin inkişaf etdiyi və tədvin fəaliyyətlərinin gücləndiyi bir dövrdə yetişmişdir. Onun zamanında Rəsulullahın *(s)* hədisləri yavaş-yavaş toplanmağa başlanmışdır. Sonralar Xəlifə Ömər ibn Əbdüləziz sünnənin qorunmasına olan şiddətli ehtiyacı nəzərə alaraq hədis olaraq bilinən nə varsa hamısının toplanmasını əmr etmişdir. Bu əmri ilk olaraq haqqı ilə yerinə yetirən şəxs isə hədis tarixində özünəməxsus bir yeri olan, Hicaz və Şam bölgəsinin görkəmli alimi Muhəmməd ibn Şihab əz-Zühri (ö. 742) olmuşdur. Çağdaşı olan digər alimlər də onun yolunu təqib etmişlər. əz-Zühri öz tədvin fəaliyyətləri ilə birlikdə həm də bir növ hədislərin təsnifini də başlatmışdır.

---

[239] Hədis elminin tarixi inkişafı haqqında bax: İbrahim Quliyev "Hədisşünaslığın əsasları" (Bakı, Elm-2013).

Əməvilər dövründə hədis kitabəti və tədvini ilə məşğul olan alimlərdən bəziləri gənc səhabələr nəslinə mənsubdur. Bunların ən öndə gələnləri arasında yazdıqları hədis səhifələri ilə məşhur olan Abdullah ibn Amr ibn As, Abdullah ibn Abbas, Səmurə ibn Cündəb, Cabir ibn Abdullah və b. kimi səhabələr vardır.

Tabeun təbəqəsinə mənsub olan Həmmam ibn Münəbbihin hədis tarixində əhəmiyyətli sənədlərdən biri olan və bizə qədər olduğu kimi gəlib çatan hədis səhifəsi Əməvilər zamanına aid hədis fəaliyyətləri üçün çox dəyərli bir nümunə təşkil etməkdədir. İbn Münəbbihin səhifəsi xaricində, Əməvilər dövründə yazılan və bu günə qədər gəlib çatan başqa səhifələr də mövcuddur.

Əməvilər dövrü kəlam tarixi baxımından etiqadi mövzuların müzakirəsinə başlanılan və Kəlam elminin təməllərinin atıldığı bir dövr olaraq qəbul edilir. Bu bir əsrlik zaman içərisində şəxslər ətrafında bəzi qruplaşmalar meydana gəlsə də böyük etiqadi məktəblər hələ tam mənası ilə təşəkkül etməmişdir. Buna görə də Əməvilər dövrü Kəlam elminin hazırlıq mərhələsi olaraq dəyərləndirilir. Bu gün əlimizdə kəlami ifadələrin işlədildiyi ən qədim qaynaqlar Cahizin (ö. 869) əsərləridir.

Xəlifə Osmanın qətl edilməsi ilə başlayan və Siffeyn müharibəsindən sonra (658-ci il) hakim təyini məsələsi ilə davam edən siyasi hadisələrin müsəlmanlar arasında dövlət başçılığı mövzusunun etiqadi yönünün gündəliyə gətirilməsi digər yandan qədər, iradə, kəbir (böyük günahlar), iman və küfr məfhumları ilə əlaqəli müzakirələr və mübahisələrin ortaya çıxması Kəlam elminin meydana gəlməsinə təsir edən ilk qrupların formalaşmasına zəmin hazırlamışdır. Şiə, sünnü, xəvaric, Qədəriyyə, Cəbriyyə və Mürciyyə olaraq adlandırılan bu firqələr daha sonra öz aralarında müxtəlif qollara ayrılmışdılar.

Əməvilər zamanında qədər mövzusu gündəliyə gətirilərək insan hürriyyətini müdafiə edən ilk şəxslərin Məbəd əl-Cühəni ilə Qalyan əd-Dəməşqi, cəbr görüşünü dəstəkləyənlərin Sad ibn Dirhəm ilə Cəhm ibn Saffan olduğu, ilk itizal hərəkatını da Vasil ibn Əta ilə Amr ibn Ubeydin başlatdığı qəbul edilir. Dövrün etiqadi görüşlərlə əlaqəli diqqəti cəlb edən iki mühüm şəxsi Həsəni Bəsri ilə Əbu Hənifədir.

Bu irəliləyişlər bəzi araşdırmaçıların Kəlam elminin yeganə qaynağı olaraq irəli sürdükləri xarici mədəniyyətlər ilə təmas hadisələrindən daha əvvəl başlamışdır. İslam coğrafiyasının sürətlə genişlənməsi nəticəsində digər din və mədəniyyətlər ilə münasibətlərin artması daxili münaqişələrlə yanaşı, İslamın qorunması və doğru olaraq təqdim edilməsi problemini də meydana gətirmişdir. Xüsusilə İran və hind mənşəli dualist düşüncələrlə Əməvilər zamanında başlayan və iki əsrə qədər davam edən fikri mücadilə zəruriyyəti münaqişəyə əsaslanan bir Kəlam elminin qurulmasında digər mühüm bir təsir olmuşdur. Əməvilər dövründə Xalid ibn Yezid ibn Müaviyə kimi şəxslərin xüsusi marağı ilə fəlsəfi elmlərə qarşı bir meyl yaranmışdısa da bu sahədə ciddi bir çalışmadan bəhs etmək üçün Abbasilər zamanını gözləmək lazımdır.[240]

Əməvilərin zamanından bu günə qədər gəlib çatan Kəlam ədəbiyyatı arasında Həsən Bəsrinin "Risalə fil-Qədər" əsəri ilə Vasıl ibn Ətanın "Xutbətu Vasıl ibn Ata" adlı risaləsini nümunə göstərə bilərik.

Gənc səhabələrlə tabeunun yaşadığı Əməvilər dövrü fiqhin ayrıca bir elm qolu kimi hədisdən ayrılmağa başladığı dövr olaraq qəbul edilir. Peyğəmbər *(s)* və dörd xəlifə tərəfindən İslamı təbliğ edib öyrətmək, dini problemləri həll etmək, idarə, ədliyyə, habelə maliyyə və s. təşkilatlanmasını təmin etmək kimi vəzifələrlə digər İslam regionlarına göndərilən və fəth əsnasında bu ərazilərdə qalaraq məskunlaşmış səhabələr Qurani-Kərim və sünnə çərçivəsi daxilində rəy və ictihadın inkişafı, əhalinin problemlərinin həlli kimi mühüm bir vəzifəni üzərilərinə götürmüşdülər.[241] Tabeun nəsli Kufə, Bəsrə, Məkkə, Mədinə, Dəməşq kimi böyük mərkəzlərdə olan səhabələrin ətrafında geniş elm halqaları təşkil etmiş, onlardan aldıqları bilikləri inkişaf etdirərək sonrakı nəsillərə nəql etmişlər.

---

240 İsmail Yigit, "Emeviler", DİA, Türkiye Diyanet Vakfı Nazirliyi, İstanbul-1991, c. XI, s. 99-100.
241 Filip Hitti, "Siyasi ve Kültürel İslam Tarihi", tər: Salih Tuğ, Marmara Üniversitesi İlahiyat Fakültesi Vakfı Yayınları, İstanbul-1995, c. I, s. 380-382.

Raşidi xəlifələr dövründəki fiqh demək olar ki, tamamilə əməli fiqh idi. Hər hansı bir məsələ qarşısında səhabə Kitab, sünnə və ictihadları ilə qərar verirdilər və bu o dövr üçün fiqh qaydası və ya dini bir düstur olurdu.

Əməvilər dövründə isə vəziyyət tamamilə dəyişmişdi. Bu dövrdə fiqh elmi getdikcə bir elm kimi ayrılmağa, daha çox fərdiləşməyə və tətbiqi xarakterini bir qədər dəyişərək daha çox nəzəri üslub qazanmağa başlamışdır. Ömər ibn Əbdüləzizdən başqa, digər Əməvi xəlifələrinin dini və fiqhi məsələlərə qarşı biganə münasibətləri fiqh elmini fərdi səylərin köməyi ilə müəllim-tələbə münasibətləri sayəsində məktəbləşərək inkişaf etməyə yönəltmişdir. Bu laqeydlik xüsusilə Mədinədəki səhabə və tabeun nəslini hüquqi hökmləri Kitab və sünnə çərçivəsində təsis etməyə sövq etmişdir. Onlar bu davranışları ilə həm əvvəlki nəsillərdən miras olaraq alınan dini bilgiləri gələcək nəsillərə sağlam bir şəkildə nəql etməyə, həm də idarəçilərin dinin əsaslarına zidd davranışlarına təsir göstərməyə çalışırdılar.[242] Bəzi Əməvi idarəçilərinin xoşagəlməz rəftarı, fərqli zamanlarda meydana gələn fitnə və üsyanlar, yeni-yeni mədəniyyətlərlə qarşılaşmağın özü ilə bərabər gətirdiyi fikri müzakirələr və irəliləmələr fiqhin sistemləşməsinə və maraq dairəsinə yaxından təsir göstərmişdir. Bununla yanaşı, fiqhin ayrı bir elm qolu kimi tədris edilməyə başlanması, fəqihlərin verdikləri fətvaların sadəcə elmi məclislərdə müzakirə edilməsi və bir-birindən fərqli görüşlərin meydana çıxması fiqhin getdikcə gündəlik tətbiqinin həyatdan uzaqlaşaraq nəzəri xarakterli bir elm halına gəlməsinin əsas səbəbləri sırasında yer almaqdadır.

Əməvilər dövründə şəhərlərdə fəaliyyət göstərən tabeun öz nəslindən çoxlu sayda müctəhid yetişdirdi. Müəllimlərinin elm, metod və şəxsiyyətləri ilə birlikdə yaşadıqları mühitdən də təsirlənən tabeun fəqihlərinin hər biri olduğu regionda ayrı, özlərinə məxsus bir elmi üslub və mühit yaratmışlar. Bunlar arasında "Hicaz Məktəbi" və "İraq Məktəbi" şəklində adlandırılan iki müxtəlif qrup bunun bariz nümunəsidir.

---

[242] Hamdi Döndürən, "Fıkıh", Şamil İslam Ansiklopedisi, Şamil Yayınevi, İstanbul-1992, c. II, s. 181-183.

Mərkəzi Mədinə olan Hicaz fiqh məktəbi və ya digər adı ilə Mədinə məktəbi Ömər, Aişə, Zeyd ibn Sabit, Abdullah ibn Abbas kimi səhabələrdən nəql edilən zəngin bir fiqhi mirasa sahib idi. Məktəbə Əməvilər zamanında Said ibn Müsəyyəb rəhbərlik edirdi.[243] "Mədinəli yeddi fəqih" olaraq məşhur olan Ürvə ibn Zübeyr, Qasım ibn Muhəmməd, Xaricə ibn Zeyd, Əbu Bəkr ibn Əbdürrəhman, Süleyman ibn Yəsar, Ubeydullah ibn Əbdürrəhman ibn Utbə və bu nəslin tələbələri vəziyyətindəki Zühri, Nafi, Əbu Bəkr ibn Hazm, Rəbiyə ibn Əbu Əbdürrəhman kimi alimlər bu hərəkatın əhəmiyyətli nümayəndələri arasında yer alırlar.

İraq fiqh məktəbinin mərkəzi isə Kufədir. Bu məktəbin təmsilçisi İbrahim ən-Nəxəidir. Əlqəmə ibn Qeys, Məsruq ibn Əcda, Əsvəd ibn Yəzid, Qazi Şureyh, Şabi kimi fəqihlər bu məktəbin əhəmiyyətli nümayəndələrindəndir.

Fəlsəfə başda olmaq üzrə astronomiya, riyaziyyat, tibb və kimya kimi elmlərə aid əsərlərin ərəb dilinə tərcümə edilməsi, beləcə xarici elmin və mədəniyyət məhsullarının İslam cəmiyyəti içərisində yayılmağa başlaması da yenə Əməvilər zamanına təsadüf etməkdədir. Tərcümə hərəkatının ilk başladıcısının Xalid ibn Yezid olduğu, ilk tərcümələrin də astronomiya, kimya və tibb sahələrinə aid olduğu da bilinməkdədir.[244]

Xalid ibn Yezid, Mərvan ibn Həkəm tərəfindən vəliəhdlikdən uzaqlaşdırıldıqdan sonra o, özünü kimya elmi sahəsində araşdırmalara vermiş, tibb və astronomiya sahələrində bəzi kitabların tərcümə edilməsini təmin etmişdir. Zəngin bir kitabxanaya sahib olduğu rəvayət edilən Xalid ibn Yezidin Misirdə yaşayan bəzi alimləri gətirdərək tərcümə işini onlara həvalə etdiyi, bundan əlavə, özünün də kimya ilə əlaqəli bəzi risalələr yazdığı rəvayət edilməkdədir. Əməvi xəlifələrinin paytaxt şəhəri Dəməşqdə bir rəsədxana inşa etdirdikləri müəyyənləşdirilmişdir.

---

243 Heyət, "Said ibn Müseyyib", İslam Alimleri Ansiklopedisi, Türkiye Gazetesi, İstanbul, s. 27-29.

244 Bu haqda geniş məlumat üçün bax: Hacı Sabir Həsənli, "İslam mədəniyyətində elm" (Bakı, 1998).

Tibb elminə dair əsərlərin tərcümə edilməsinə xəlifələr xüsusi bir maraq göstərmişlər. Dövrün məşhur həkimləri xəlifələrin və digər dövlət adamlarının xüsusi həkimləri olaraq vəzifə icra etmişlər. Demək olar ki, hamısı qeyri-müsəlman olan bu təbiblər tibb sahəsində bəzi əsərləri ərəb dilinə tərcümə etmiş və bəzi risalələr yazmışdılar. Maserceveyh əl-Bəsri ilə İskəndəriyyə məktəbi alimlərindən Əbdülməlik ibn Əbcər əl-Kinani Əməvilər zamanındakı həkimlərin ən məşhurlarındandır. Digər tərəfdən xəlifə Vəlid ibn Əbdülməlik 707-ci ildə cüzamlılar üçün bir xəstəxana inşa etdirmiş, korlara və iflic olanlara yardım etmək məqsədilə vəzifəlilər müəyyənləşdirmişdir. İslam tibb tarixi üçün böyük əhəmiyyəti olan bu fəaliyyət İslam dininin insana, xüsusilə insan həyatına verdiyi dəyəri nümayiş etdirməsi cəhətdən də əhəmiyyətlidir.

Əməvilər dövründə ortaya çıxan İslam tarixçiliyi, hədis kitabları şəklində formalaşmağa başlamışdır. Bu səbəbə görə tarix müsəlmanlar tərəfindən araşdırılan və inkişaf etdirilən ilk elm qollarından biri olmaqdadır. İslamda tarix araşdırmalarına təkan verən və buna təhrik edən başlıca amillər ümumiyyətlə bunlardır:

a) İlk xəlifələrin özlərindən əvvəl gəlib keçmiş hökmdar və idarəçilərin davranış və hərəkətlərini, siyasi manevrlərini əsaslı bir şəkildə araşdırıb öyrənmək arzusu.

b) Müsəlmanların Peyğəmbər *(s)* və onun səhabələri ətrafında cərəyan edən hadisələrin toplanıb bir araya gətirilməsinə dair hiss etdikləri ehtiyac. Bu sahə ilə əlaqəli toplanan hədislər daha sonralar meydana gətirilən "Sirə" (Peyğəmbərin *(s)* tərcümeyi halı) və "Məğazi" (Peyğəmbərin *(s)* iştirak etdiyi döyüşlər və ya müharibələr) kitablarının təməli olmuşdur.

c) Dövlət xəzinəsindən maaş alan ilk müsəlmanların alacaqları məbləğin miqdarını təyin, müəyyən etmək üçün bu kimsələrin soyunun və nəsillərinin araşdırılması zərurəti.

ç) Ərəb şeirində olan bəzi ifadə və xüsusiyyətlərin izah edilməsi, həmçinin açıqlanması.

d) Dini kitablarda keçən şəxs və yer adlarının təyini və təsviri.

e) İtaət altına alınan millətlərin ərəblərin milli təəssübü ilə tarazlıq yaratmaq üçün özlərinin keçmişdə əldə etdikləri şanlı tarixi sənədləşdirib ortaya qoymaq üçün göstərdikləri həssaslıq və s.[245]

Əməvilər dövrünün ilk tarixçiləri arasında yarı əfsanəvi bir şəxsiyyət olan Cənubi ərəbistanlı Abid (yaxud Ubeyd) ibn Şerya da var idi ki, Xəlifə Müaviyənin dəvəti ilə "İlk Ərəb Kralları" haqqında bildiklərini ona anlatmaq üçün paytaxt Dəməşqə gəlmişdi. Abid ibn Şerya himayəsi altında olduğu Xəlifə Müaviyə üçün tarix sahəsində əhəmiyyətli olan bir çox kitab qələmə aldı. Bunlardan biri olan "Kitabul-Muluk və Əxbarul-Mazin" ("Hökmdarlar Kitabı və Qədimlərin Tarixi") adlı əsər tarixçi əl-Məsudinin (ö. 956) zamanında geniş bir şəkildə oxunurdu.

İlmul-əvail (yəni insanların mənşəyinə dair elm) üzərində çalışan digər bir alim Vəhb ibn Münəbbih (ö. 728) İran mənşəli yəmənli bir yəhudidir ki, böyük ehtimalla İslam dininə girmişdir. Əsərlərində verdiyi məlumatların səhihliyi ciddi bir məsələ olan İbn Münəbbih İslamdan əvvəlki Cənubi Ərəbistan və digər ölkələr haqqında mübahisəli də olsa başlıca məlumat qaynaqlarından biri olmuşdur.

Digəri isə Kəb əl-Əxbardır (ö. 652/654). Bu şəxs də yəmənli bir yəhudidir. Özü ilk iki xəlifədən birinin zamanında İslamı qəbul etmiş, Müaviyə hələ Suriya valisi olarkən onun sarayında müəllim və müşavir vəzifəsini icra etmişdir. Nəticədə Kəb əl-Əxbar müsəlman-yəhudi mədəniyyət münasibətləri nöqteyi-nəzərindən mühüm şəxslərdən birinə çevirilmişdir. Kəb ibn Münəbbih, həmçinin başqa yəhudi müsəlmanlar vasitəsi ilə Talmutda olan və "İsrailiyyat" adı verilən bir çox rəvayət və məlumat müsəlmanlar arasında yayılmış, eyni zamanda İslamdan əvvəlki ərəblərin tarixi ilə əlaqəli məlumatlar arasına daxil olmuşdur.

Bütün bunlarla yanaşı, Əməvilər dövründə İslamın əsaslarını sarsıdan bir sıra dini-fəlsəfi cərəyanlar, məzhəb və təriqətlər də meydana gəlmişdir. Burada onların bəzilərinə toxunacağıq.

---

[245] Filip Hitti, "Siyasi ve Kültürel İslam Tarihi", tər: Salih Tuğ, Marmara Üniversitesi İlahiyat Fakültesi Vakfı Yayınları, İstanbul-1995, c. I, s. 383.

**a) Qədəriyyə**

Miladi VIII əsrdə Bəsrə şəhərində Mötəzilə adı verilən və “rasionalizm (ağılçılıq)” məktəbini quran Vasil ibn Əta (ö. 748) adlı bir şəxs ortaya çıxdı. Onun görüşlərini mənimsəyənlərə “mötəzilə” (çəkilib gedən, ayrılan) deyilməsinin səbəbi İslamda böyük günah (kəbair) işləyən bir kimsənin “kafir” sayılmaması və bu səbəblə də müəllimi Həsən əl-Bəsridən ayrılmasıdır. Bir müddət “Cüzi iradə” nəzəriyyəsinə bağlı qalmışdır. Bu nəzəriyyə Mötəzilə məktəbinin ana cəhətlərindən birini təşkil edir. “Cüzi iradə” fikri mötəzilələr tərəfindən qəbul edilmiş, sonralar isə “Qədəriyyə” nəzəriyyəsi adını almışdır. Qədərilərin görüşləri Qurani-Kərimdəki bəzi ayələrin digər bir təfsir tərzi olan “Allah-taala ən incə təfərrüatına qədər olacaq hər bir hadisəni əvvəlcədən təqdir edir (planlayır)” görüşünə qarşı bir reaksiya olaraq meydana çıxmış və özündə olan xristian-yunan təsirini əks etdirməkdədir. Qədərilər müsəlmanlar arasında formalaşan ilk fəlsəfi nəzəriyyəni təmsil etməkdədirlər. Onların fikir və düşüncələrinin geniş bir çərçivədə yayılmasını isə Əməvi xəlifələrindən II Müaviyə və III Yezidin Qədəriyyə düşüncəsini paylaşmış olmaları isbat etməkdədir.[246]

“Cüzi iradə” nəzəriyyəsinin ana mövzularına mötəzilələr bir başqa mövzu da əlavə etmişlər: Allah-taalanın “Əsmai-Hüsna”sından olan “Qüdrət”, “Ağıl” və “Həyat” kimi sifətləri Onun Birliyi və Təkliyi prinsipini zədələyəcəyindən Allah ilə birlikdə ola bilməz. Məhz buna görə də mötəzilələr özlərini “Ədalət və Tövhid Firqəsi” adlandırmışlar. Bu cərəyan sonralar Abbasilərin hakimiyyəti dövründə, xüsusilə də əl-Məmunun xəlifəliyi zamanında (813-833) böyük əhəmiyyət qazandı. Bu dövrlərdə cərəyanın fikir mərkəzi baxımından Bəsrə və Kufə şəhərlərindən sonra sırada Bağdad şəhəri gəlməkdə idi.[247]

**b) Xariciyyə**

Qədəriyyə cərəyanın İslamda ilk fəlsəfi düşüncə cərəyanı olması ilə yanaşı, xaricilər İslamda olan ilk dini-siyasi cərəyanı nümayiş etdirirlər. Vaxtı ilə özünü müdafiə etməklə yanaşı, son-

---

[246] Həmin mənbə, s. 385.

[247] Ahmed Özalp, “Kaderiyye”, Şamil İslam Ansiklopedisi, c. III, s. 263-264.

ralar Həzrət Əlinin *(ə)* qanına susamış bir vəziyyətə gələn xaricilər hər zaman üsyana hazır bir qrup olmuşdur. İslamın ilk və sadə zamanlarında yaşanılan, guya demokratik prinsiplərin qorunması və tətbiq edilməsi üçün böyük səy göstərən bu ifrat dindar zümrə İslamın ilk üç əsri boyunca ümmətin daxilində insan qanının axmasına səbəb olmuşdur. Zamanla bunlar mübarizə etdikləri xüsuslar arasına bəzi vəlilərin məzarlarını camaatla birlikdə ziyarət etməyi və təsəvvüfi təriqətləri də əlavə etmişlər.

Bu qrupa daxil olan, Hicri ilk əsrin ikinci yarısında yaranmış xaricilərin şöbələrindən biri olan ibadilər (Abbadilər) qolu isə bu gün Cəzair, Liviya, Zəngibar, Omman-Maskat ərazilərində öz mövcudiyyətini sürdürməkdədir.

**c) Mürciyyə**

Əməvilər zamanında ortaya çıxan və əvvəldə qeyd etdiyimiz cərəyanlara nisbətən daha az əhəmiyyət kəsb edən başqa cərəyan isə Mürciyyə cərəyanıdır. Bunların əsas əqidələri günah işləyən müsəlmanlar haqqında nəhai hökmün Allah-taalaya aid olmaq şərti ilə Axirətə buraxılması (irca) və bu müsəlmanların indidən "kafir" olaraq adlandırılmamasının zəruri olmadığı şəklindədir. Xüsusilə mürcilərin fikrinə görə, dövlət başçıları olan xəlifələrin İslamın şəri hüququnu yaşamamaları onlara beyət etməməyi vacib etməz. Bu görüşü mənimsəyənlərin nəzərində Əməvilərin zahirən də olsa müsəlman kimi görünməmələri onları xəlifə qəbul etmək üçün kifayətdir.

Mürciyyə firqəsinə görə, Həzrət Əli *(ə)*, Osman ibn Əffan, hətta Müaviyə Allahın sadiq qullarıdır və onlar ancaq Allah tərəfindən mühakimə edilə bilər. İslam hüququnun dörd böyük qolundan birincisinin qurucusu olan Əbu Hənifəni də mürcilərdən hesab edirlər.[248]

Əməvilər dövründə qonşu ölkələrdə dini təbliğ etməyə hazır olan mütəşəkkil dəstələrin hamısı İslam dini barədə lazımi birliyə malik deyildilər. Onlar bu dini Hicazdan qıraq ölkələrə yaymaqda eyni məqsəd güdmürdülər və bir dəstə adam bir növ

---

[248] Filip Hitti, "Siyasi ve Kültürel İslam Tarihi", tər: Salih Tuğ, Marmara Üniversitesi İlahiyat Fakültesi Vakfı Yayınları, İstanbul-1995, c. I, s. 388.

vuruşub çoxlu miqdarda qənimət əldə etmək istəyirdi. Belə bir hadisə ilə müsəlmanlar hələ Peyğəmbərin *(s)* sağlığında da üzləşmişdilər. Peyğəmbərdən *(s)* nəql olunmuş hədisi Buxari öz kitabının əvvəlində belə qeyd edib:

***"Hər bir kəs Allaha və Peyğəmbərə xatir Hicrət edərsə, onun mükafatı Allah və Peyğəmbərin yanındadır. Hər bir kəs bu Hicrətdən dünya malı və gözəl qadın istəyərsə, ondan başqa bir şey nəsibi olmayacaqdır"***.

Məlumdur ki, fəthlərdə iştirak etməyə hazır olan qüvvələrin bəzisi birinci dəstənin sırasından sayılmırdılar (yəni bu fəthlərdən yalnız dini yaymaq  məqsədini güdən dəstə). Lakin elə ilk günlərdən Peyğəmbərin *(s)* sünnəsinə əsasən qoşunun getdiyi yerə Quranı və İslam fiqhinin hökmlərini öyrədən dəstə də gedərdi. Bu dəstə İslamı insanlara bəzi hökmlərə görə deyil, iman əsasında öyrədirdi. Onların (dərs verənlərin) əksəriyyətinin sözləri ilə rəftarı üst-üstə düşdüyündən haraya getsəydilər orada əqidəli, dinin hökmlərinə yerli-yerində riayət edən müsəlmanlar yetişdirir və ya tərbiyə edirdilər. Lakin Əməvilər dövründə məsələ heç də belə deyildi. Peyğəmbərdən *(s)* sonrakı dövrlərdə şəriətə uyğun gəlməyən söz deyən və ya hərəkət edən hakimlərə irad tutan, cəza tədbirləri və hüquqi işlərdə İslam fiqhinin tətbiq olunmasının bünövrəsini qoyan da bu dəstə olmuşdur. Onlar Quranın zahiri ayələrində Peyğəmbər *(s)* sünnəsindən istifadə edərək müsəlmanların məişətinə uyğun hökmlər çıxarırdılar ki, bu da Əməvi hökumətinin sonu, Abbasi xilafətinin ilk çağlarında həmin hökmlərin genişlənməsi, formalaşması və günün tələblərinə uyğun olmasına gətirib çıxardı. Əməvilər dövründə isə İslam fəthləri yalnız işğalçılıq xarakteri daşıyırdı. Belə ki, əsgərlər qənimət əldə etmək, xəlifə isə xəzinəsini doldurmaq üçün fəthlərdə iştirak edirdi. Yalnız Ömər ibn Əbdüləziz qısa hakimiyyəti dövründə müharibələri dayandırmaq, əsgərlərə isə sərhədləri qorumaq barədə əmr verdi.

Əməvilərin hakimiyyəti dövrü bir neçə cəhətdən təhlil və təhqiq olunmalıdır:

1. Ölkələri fəth etmələri və bu sülaləyə mənsub hakimlərin siyasi nüfuzlarının yayılması;

2. Üsulid-din və füruid-dində köklü dəyişikliklərin baş verməsi;

3. Belə geniş qüdrətə malik olmuş Əməvi hökumətinin 90 ildən artıq davam gətirə bilməsi.

Xəritədən də məlum olduğu kimi, 661-ci ildən 750-ci ilə qədər İslam hökumətinin əraziləri kifayət qədər genişlənmişdi. Belə ki, 500 il davam edən Abbasi hökuməti bu əraziyə artıq bir şey əlavə etməmişdi. Bu sülalənin İslam dinində gördükləri əsaslı dəyişiliklər qısaca olaraq aşağıdakılardan ibarətdir:

1. Peyğəmbərdən *(s)* sonra insanların nisbi beyəti əsasında qurulan İslam hökuməti mütləq monarxiya və miras olaraq bir-birinə ötürülən hakimiyyətlə əvəz olundu. Bəzi qərb şərqşünasları çalışırlar ki, Müaviyənin Yezidi vəliəhd təyin etməsini xalqın razılığını əldə etməklə həyata keçirdiyini sübut etsinlər və bunun ən bariz nümunəsini bir neçə tanınmış şəxsiyyətlərin ona beyət etməsi ilə əlaqələndirirlər. Bu sözlərlə Yezidin xəlifəliyini Raşidi xəlifələrinin seçilməsi kimi tanıtdırmaq istəyirlər. Lakin qeyd olunduğu kimi, Yezidin vəliəhd təyin olunması məsələsi pul vermək və güc tətbiq etməklə qabaqcadan hazırlanmış bir plan əsasında olmuşdur. Yezidə beyət etməkdən boyun qaçıran o üç nəfərin xalq arasında çox yüksək hörməti var idi. Buna görə də Müaviyə onlara birbaşa zərər yetirə bilmir, həmçinin ölkədəki siyasi vəziyyət buna imkan vermirdi. Bundan əlavə, bəzi mənbələrdə qeyd olunub ki, Müaviyə Yezidə beyət almaq üçün Hicaza səfər edən zaman məsciddə o üç nəfərin hər birinin başı üstə nəzarətçi məmur qoydu və etiraz etdikləri zaman onları öldürməyi əmr etdi.

2. Bu dövrdə İslam hökumətinin əsas bünövrələrindən biri hesab olunan bərabərlik aradan getmişdi. Halbuki Quran və Peyğəmbər *(s)* sünnəsi bütün üstünlükləri ləğv etmişdi və Allah dərgahında ən uca meyar təqvalı olmaq sayılırdı. Əməvilər ərəb soy-kökünü uca hesab edir və İslam Peyğəmbərinin *(ə)* də ərəb olduğunu deyirdilər. Deməli, başqa xalqların içərisində ərəblər və onların da arasında Qüreyş hamıdan üstün sayılırdı.

3. Ölkənin gəliri ümumi işlərə xərc olunmur, müharibədən əldə olunmuş qənimətlər, fəth olunmuş ərazilərdən gələn gəlir cihad-

da iştirak edən əsgərlər arasında bölünmür və hökumət bu gəlirləri özlərinin gözəl və təmtəraqlı həyat sürmələri üçün xərcləyirdi.

4. Zindana salmaq, işgəncə, ölüm və bəzən də kütləvi qırğın çox geniş yayılmışdı.

5. Raşidi xəlifələrinin hakimiyyəti dövründə adəti üzrə bir mövzu haqda hökm çıxarmaq üçün ilk növbədə Qurana və Peyğəmbər *(s)* sünnəsinə müraciət olunurdu. Orada bir hökm (qəti cavab) tapmadıqda səhabələrdən soruşardılar (mühacir və ənsar) ki, "siz bu barədə Peyğəmbərdən *(s)* bir hədis eşitmisiniz ya yox?" Bu axtarışlardan sonra bir sənəd əldə etmədikdə fiqh elmində dərin biliyə və uzaqgörənliyə malik olan alimlər öz ictihadları əsasında hökm çıxarırdılar. Bunun də şərti bu idi ki, verilən hökm Quranın zahirinə və Peyğəmbərin *(s)* sünnəsinə tam surətdə zidd olmasın. Lakin Əməvilər dövründə xəlifələr verdikləri hökmlərin Quran və Peyğəmbər *(s)* hədisi ilə ziddiyyət təşkil etməsində heç bir maneə görmürdülər. Qeyd etdiyimiz kimi, Müaviyə Peyğəmbər *(s)* hədisinin ziddinə olaraq Ziyad ibn Əbihini qanunsuz yolla Əbu Süfyanın oğlu və özünün qardaşı adlandırdı.

6. Bildiyiniz kimi, İslam fiqhində günahkar və müttəhimi cəzalandırmaq üçün "həddlər" (yəni cəza tədbirləri) və "diyələr" (yəni hər hansı bir günah müqabilində ödənilən cərimə, qanbahası və s.) termini ilə tanınmış hökmlər mövcuddur. Günahkar yalnız bu hökmlərə əsasən cəzalandırılmalıdır. Lakin Əməvilər dövründə günahkarlar İslam qanunu əsasında cəzalandırılmırdı. Müqəssirin cəzalandırılması hakimin öz şəxsi nəzərindən asılı idi. Bəzən müqəssiri bağışlayar, bəzən günahsız yerə öldürər, bəzən də müqəssirə işlətdiyi günahdan artıq cəza verilərdi.

7. Müsəlman ərazilərində böyük fəqihlərin yetişməsinə baxmayaraq demək olar ki, onların sözünə heç kəs qulaq asmırdı. Əgər bir fəqih hər hansı bir hakimin zərərinə hökm çıxarmış olsaydı onu təhlükə gözləyirdi. İslamın mühüm əsaslarından sayılan yaxşı işlərə dəvət və pis işlərdən çəkindirmə (əmr be məruf və nəhy əz münkər) bu səbəbə görə yaddan çıxarıldı. Heç kəsin xəlifə və ya onun yerlərdə olan nümayəndəsini pis işlərdən çəkindirməyə cürəti çatmırdı.

8. İslam və müsəlmanların müqəddəs saydıqları şeylər təhqir olunurdu. Belə ki, Kəbə və Məscidül-Həram viran edildi, Peyğəmbərin *(s)* mübarək məzarı, məscidi və minbəri təhqir olundu. Mədinə əhalisini isə 3 gün kütləvi surətdə qırdılar.

9. İslam tarixində ilk dəfə olaraq Peyğəmbər *(s)* övladlarını qətlə yetirib arvad-uşaqlarını, bütövlükdə ailə üzvlərini əsir alaraq şəhərlərdə gəzdirdilər.

10. Cahiliyyət dövrünün şüarları və Peyğəmbər *(s)* zamanı yasaq edilən yersiz mədhlər yenidən geniş formada yayılmağa başladı. Əməvi dövrünün şairləri bacardıqca xəlifə və ya hakimi layiq olmadığı xüsusiyyətlərlə tərif edir, onlarda olan çatışmazlıqları isə müsbət keyfiyyət kimi qiymətləndirirdilər.

11. Hakimlərin razılığını əldə edərək Allahı qəzəbləndirən, satqın və dünyapərəst alimlər iş başına gəlirdilər. Bunlar Quran ayələrini və Peyğəmbər *(s)* hədislərini öz istədikləri kimi təfsir edir, hakimlərin sözlərini və rəftarlarını onların xeyrinə izah edirdilər.

12. Geyim, yemək, saray, ev əşyaları və bütövlükdə yaşayış tərzinə dair nə vardısa günbəgün zinətlənirdi. Rum imperiyası üslubunda saraylar, qış və yay iqamətgahları, hökumət sarayında, hətta ovlaqlar da belə, gözəl bəzədilmiş hamamlar tikilirdi.

13. Sərxoşluq və əyyaşlıq, həmçinin rəqqasə kənizlərin alınması geniş surətdə yayılmışdı. Belə ki, Əməvi xəlifələrindən bəzisinin söz-söhbəti ancaq qadın, yemək-içmək və şərab barəsində idi.[249]

Qeyd etdiyimiz kimi, Müaviyə elə ilk başlanğıcdan hakimiyyət iddiasında idi, bu arzusuna çatmaq üçün Xəlifə Osmanın intiqamını, sonra isə İslam xilafəti məsələsini əldə bəhanə tutmuşdu. Hakimiyyətin Əbu Süfyan ailəsinin əlinə keçməsi ilə bu məqam tələb tayfanın üzvləri öz istəklərinə çatdılar. Müaviyənin şəxsi həyat tərzi, Şam əhalisi və bütövlükdə İslam hakimiyyəti altında yaşayan digər xalqlara qarşı olan münasibət və rəftarı Əbu Bəkr, Ömər, hətta Osmanın dövründəki rəftardan artıq dərəcədə fərqli idi.

---

[249] Bax: http://muselman.az/ saytına.

Müaviyə Xəlifə Ömər ibn Xəttab tərəfindən Şama hakim təyin olunan gündən dövlət quruluşunda Rum imperatorlarının üslubundan istifadə etmiş, şəxsi həyatını da onların həyat tərzinə oxşatmışdır. Sadə İslam hakimiyyətini kənara qoyub özü üçün cah-cəlallı bir idarə üsulu yaratmışdı.

Bir gün Ömər ibn Xəttabla Əbdürrhəman ibn Of Şama səfər edirdi və hər ikisi ulağa minmişdi. Bu zaman Müaviyə böyük bir təntənə ilə xəlifəni tanımadan onun yanından keçdi. O, ulağa minən şəxsin xəlifə olduğunu bildikdən sonra tez geri dönüb atdan düşdü, Ömər isə ona əhəmiyyət vermədi. Müaviyə Ömərin yanıyla piyada getməyə məcbur oldu. Nəhayət Əbdürrəhman ibn Of dilləndi:

"Müaviyəni yordun!"

Bu vaxt Ömər üzünü Müaviyəyə tərəf çevirdi və onların arasında belə bir mükalimə oldu:

Ömər: "Böyük təntənə, nökər və qulluqçularla yola çıxmısan? Eşitmişəm camaatı sarayın qapısında gözlətdirirsən və sən icazə verməyincə heç kəs içəri daxil olmur?"

Müaviyə: "Bəli, ya əmirəl-möminin, belədir!"

Ömər: "Nəyə görə?"

Müaviyə: "Biz elə bir ölkədə yaşayırıq ki, düşmənin casusları bizə daim nəzarət edir. Gərək elə davranaq ki, onlar bizdən qorxsunlar. Əgər sən istəsən mən belə davranmaqdan əl çəkərəm".

Ömər: "Əgər düz deyirsənsə ağıllı cavabdır, yox əgər yalan deyirsənsə, ağıllı fırıldaqdır".

Müaviyə təkcə Şamda hakim olanda belə rəftar edirdisə, İraq, Misir, İran, Afrika və digər fəth olunmuş ölkələr də onun hakimiyyəti altına keçdikdən sonra hansı üslubda rəftar edəcəyi məlum idi.

Müaviyə və atası Əbu Süfyan vəzifəpərəst, təntənə və cah-cəlal aşiqi idilər. Qeyd etdiyimiz kimi, Əbu Süfyan çıxılmaz vəziyyətdə qalıb müsəlman olmuşdu. Bildiyiniz kimi, o, Peyğəmbərin *(s)* əmisi Abbasın vasitəçiliyi ilə imtiyaz qazandı. Hətta Hüneyn müharibəsinin qənimətlərindən ona da pay düşdü. Lakin onun gözü hakimiyyətdə idi. Məlumata əsasən, Peyğəmbər *(s)*

onu Nəcrana hakim təyin etmiş, həmçinin Taifin gəlirini toplamağı ona tapşırmışdı.

Ömər ibn Xəttab, Müaviyəni Şama hakim təyin edən gün o, anası Hindin yanına gedir və Hind ona belə deyir:

"Bu kişi (Ömər) sənə vəzifə veribsə, çalış o deyən kimi rəftar et, öz istədiyin kimi davranma".

Müaviyə aldığı vəzifə barədə atasına xəbər verdikdə Əbu Süfyan deyir:

"Mühacirlər bizdən əvvəl müsəlman olublar. İndi onlar öz mükafatlarını alırlar. Onlar rəis biz isə adi adamlarıq. Sənə mühüm olan bir iş veriblər. Çalış onların əleyhinə bir iş görməyəsən, çünki heç bir şeyin sonunu bilmək olmaz".

Bu söhbətlər göstərir ki, ata və oğul mal-dövlət və hakimiyyət əldə etmək üçün müsəlmanlıqdan bir vasitə kimi istifadə etmişlər.

Müaviyənin silahlı mühafizə dəstəsi var idi, hətta məscidə gedəndə belə, onu qoruyurdular. Belə ki, namazda ayağından yaralandıqdan sonra (vurulan zərbədən) ona bir qəfəs düzəldirlər ki, namazı içində qılsın. Rəsmi görüşlərdə əsgərlər onun canını qoruyurdular. Özündən əvvəlki hakimlərin dövründə belə üsuldan istifadə edilməmişdi. Onlar məscidə tək gedər, digər müsəlmanlarla birgə əyləşər, şikayətçilərə qulaq asıb onların suallarına cavab verərdilər.

Hökumət məmurları ilə xalq arasında ayrılıq demək olar ki, Müaviyənin dövründə baş verdi. Müaviyə öz əzəmət və böyüklüyünü xalqa göstərməkdən ötrü təmtəraqlı qəbul salonu, çox baha başa gələn qiymətli xalçalar və başqa zinət əşyaları ilə bəzənmiş saraylar tikdirdi. Belə saraylar tikdirdiyinə görə Əbuzərin etiraz səsi ucalmışdı.

Müaviyə özünün 20 illik hökmranlıq dövründə daim hakimiyyət dairəsini genişləndirməyə çalışırdı. O, bununla xəzinənin gəlirini artırmaq, qüdrət sahibi olmaq, əsarət altına aldığı ölkələrin idarə edilməsinin öhdəsindən gəlmək, qonşu ölkələri qorxutmaq, həmçinin ona tabe olmayanların üsyan və iğtişaş salmalarının qarşısını almaq istəyirdi.

Bütün bunları qeyd etməkdə məqsədimiz İslam tarixində vəzifəpərəst şəxslərin öz məqsədlərinə çatmaq üçün hər cür va-

sitədən istifadə etdiklərini göstərməkdir. Digər tərəfdən, eyni düşüncəyə malik olan şəxslər də vardır. Onlar hakimiyyət əldə etmək üçün bəs qədər gücə malik olmasalar da hakimiyyətə çatmaq yolunda vəzifəpərəstlərin əhatəsinə toplaşaraq yardım göstərirlər.

Hələ Peyğəmbərin *(s)* vəfatından otuz il keçməmiş, yenicə şəhid edilmiş təqvalı, abid (zahid) və məsum xəlifənin xatirəsi zehinlərdən silinməmiş Peyğəmbərin *(s)* canişinliyi iddiasını edən bir şəxs onun sünnəsini necə də əldə oyuncağa çevirir.

## 2. 5. İMAM HÜSEYNİN *(ə)* ƏMƏVİLƏRƏ QARŞI MÜBARİZƏSİ

Yuxarıda qeyd etdiyimiz kimi, o dövrlərdə Müaviyə ikinci xəlifə tərəfindən Şama vali olaraq seçilmişdi. O, vali olduğu müddətdə öz mövqeyini daha da möhkəmlətmiş və İslam ölkəsinin taleyini həll edərək xəlifə kimi hakimiyyəti ələ keçirmişdi.

İmam Hüseyn *(ə)* heç kəsin etiraz etməyə cürəti olmadığı bir dövrdə ayağa qalxıb bacardığı qədər Müaviyəyə qarşı mübarizə aparırdı. O Həzrətin *(ə)* Müaviyə ilə apardığı mübarizələrdən üçünü araşdırdıqda bu qənaətə gəlmək olar. Həmin üç mübarizə aşağıdakılardan ibarətdir:

1) Etirazlı məktublar və çıxışlar.

İmam Hüseynlə *(ə)* Müaviyə arasında bir çox məktublaşmalar olmuşdur. Bu da Həzrət Hüseynin *(ə)* Müaviyənin müqabilində tutduğu inqilabi və möhkəm mövqeyin nişanəsidir. İmam *(ə)* Müaviyənin İslam dininə zidd olan hər hansı bir hərəkətindən sonra onu möhkəm danlayır, tənqid edir və həmin işə öz etirazını bildirirdi. Bu işlərin ən əsasından biri Yezidin vəliəhdliyi idi.

Müaviyə Yezidi vəliəhd təyin etmək məqsədilə irəli sürdüyü siyasəti davam etdirərək Mədinə şəhərinin sakinlərindən, xüsusən də başda İmam Hüseyn *(ə)* olmaqla şəhərin adlı-sanlı şəxsiyyətlərindən oğlu Yezid üçün beyət almaq məqsədi ilə Mədinə

şəhərinə gəldi. O, Mədinəyə gəldikdən sonra İmam Hüseyn *(ə)* və Abdullah ibn Abbasla görüşüb söhbət əsnasında Yezidin vəliəhdliyi məsələsini ortaya atdı və çalışırdı ki, onları bu işə razı salsın. İmam Hüseyn *(ə)* Müaviyənin bu sözü qarşısında bir müqəddimə (ön söz) qeyd etdikdən sonra belə buyurdu:

"Sən özünü üstün tutmaqla ifrata düçar olmusan. Camaatın ümumi malını qəsb etməklə zülm etmisən! Sən camaatın malını onların özlərinə qaytarmaqdan çəkindin və bu işdə xəsislik etdin. Açıq-aşkar o qədər qarətlər etdin ki, öz həddini aşdın. Haqq sahiblərinin haqqını özlərinə qaytarmadığın üçün Şeytan (səni yoldan çıxarmaqda) öz arzusuna çatdı. Yezid üçün saydığın fəzilətləri və İslam ümmətini idarə etmək üçün qeyd etdiyin ləyaqətləri başa düşdüm. Sən camaata elə adamı tanıtdırmaq istəyirsən ki, elə bil camaat onun həyat sabiqəsini tanımır. Sanki burada olmayan bir nəfərdən xəbər verirsən ki, camaat onu görməyib. Elə bil ki, onu ancaq sən tanıyırsan. Xeyr, Yezid öz batinini açıb aşkar etmişdir. Yezidi olduğu kimi tanıtdır. Yezid itbaz, quşbaz və kef adamıdır. O, ömrünü çalmaq, oxumaq və əyyaşlıqla keçirir. Yezidi bu cür tanıtdır. Bu boş təbliğlərini kənara qoy! Bu ümmətin müqabilində boynuna yığdığın öz günahların bəsdir. Elə bir iş görmə ki, Allah qarşısında günahların bundan da ağır olsun. Sən o qədər öz batil və zülm yoluna davam edib ağılsızlıq, düşüncəsizlik üzündən zülmlər etdin ki, artıq camaatın səbir kasasını doldurmusan. İndi səninlə ölüm arasında bir göz qırpımından artıq vaxt qalmayıb. Bunu bil ki, sənin bütün əməllərin Allah yanında qorunub saxlanır və sən onlardan ötrü cavab verməli olacaqsan".

İmamın *(ə)* bu fikirlərindən sonra Müaviyə onun qiyamından nigarançılıq keçirir. Elə həmin günlərdə Müaviyə tərəfindən bir il idi ki, Mədinəyə vali seçilmiş Mərvan ibn Həkəm Müaviyəyə yazır:

"Əmr ibn Osman xəbər verir ki, İraq və Hicazın nüfuzlu şəxsiyyətləri Hüseyn ibn Əlinin yanına get-gəl edirlər".

O, daha sonra bildirmişdi:

"Mən inanmıram ki, Hüseyn ibn Əli qiyam etməsin".

Mərvan məktubuna əlavə edib demişdi:

"Bu haqda axtarış aparmışam. Əldə olan məlumata görə, hələ onun qiyam etmək fikri yoxdur. Lakin inanmıram ki, gələcəkdə də bu cür olsun. İndi bu barədə öz fikrini bildir".

Müaviyə bu xəbəri eşitdikdən sonra Mərvanın məktubuna cavabından əlavə, aşağıdakı məzmunda İmam Hüseynə *(ə)* də bir məktub yazdı:

"Sənin gördüyün bəzi işlər barədə mənə xəbər çatmışdır. Əgər bunlar doğrudursa, mən səni bu işlərə layiq görmürəm (bu işlər sənə yaraşmaz). And olsun Allaha, kim bir nəfərlə əhd bağlasa, gərək əhdinə vəfa etsin. Əgər mənə gəlib çatan xəbərlər yalan olarsa, sən bu işə (əhdə vəfalı olmağa) ən layiq adamsan. Özündən muğayat ol və əhdinə vəfa et. Əgər mənimlə müxalifətçilik etsən, müxalifətçiliklə, əgər pislik etsən, pisliklə üzləşərsən. Ümmətin arasında ixtilaf salmaqdan çəkin".

Müaviyənin məktubu İmam Hüseynə *(ə)* yetişən zaman o Həzrət *(ə)* ona dərhal aşağıdakı məzmunda cavab məktubu göndərir:

***"Sənin məktubunu aldım. Yazmısan ki, mənim barəmdə sənə bəzi xəbərlər çatır və sən məni o işlərə layiq görmürsən. Bunu deyim ki, insanı yaxşı işlərə tərəf cəlb edən və yaxşı işlər görməyə kömək edən yalnız Allahdır. Mənim barəmdə sənin qulağına çatmış xəbərlərin hamısı boş və əsassız sözlərdir. Bu sözləri sənin yalan danışan yaltaqların özlərindən deyirlər. Bu dinsiz yalançılar yalan demişlər. Mən sənə qarşı nə döyüş tədarükü görmüşəm, nə də sənə qarşı qiyam etmək məqsədim var. Sənin özünün, dinsiz, zalım və Şeytanın qardaşları olan dostlarının əleyhinə qiyam etməməyimin səbəbi də Allahdan olan qorxumdur.***

***Hücr ibn Ədiy və dostlarının qatili sən deyilsənmi? Onların hamısı namaz qılan, Allaha itaət edən, bidətlərə qarşı mübarizə aparan şəxslər idi. Onların işi yalnız əmr be-məruf və nəhy əz-münkər idi.***

***Sən onlara aman verdikdən, keçmiş işlərinə görə onlara heç bir əziyyət verməyəcəyinə dair and içdikdən sonra andını pozaraq onları vəhşicəsinə qətlə yetirdin. Bu işinlə Allaha hörmətsizlik edib öz əhdini pozdun.***

*Təqvalı müsəlman, ibadətinin çoxluğundan bədəni zəifləmiş Əmr ibn Həmiqi sən öldürmədinmi? Onlara əziyyət verməyəcəyin barədə söz verib əhd bağladıqdan sonra onları öldürdün. Əgər o əhd-peymanı çöl ceyranlarına da versəydin dağlardan aşağı enərdilər.*

*(Süməyyənin oğlu) Ziyadı özünə qardaş edən və onu Əbu Süfyanın oğlu qələmə verən sən deyilsənmi? Halbuki Peyğəmbər buyurmuşdur:*

*"Uşaq ataya bağlıdır, zinakar isə daşqalaq edilməlidir" (Ziyad da zinadan olmuş bir insan idi).*

*Kaş iş bununla sona yetəydi. Ancaq belə olmadı. Hələ bu azmış kimi Süməyyənin oğlunu özünə qardaş elan etdikdən sonra müsəlmanların başı üstünə gətirdin. O da sənin gücünə arxalanaraq müsəlmanları öldürdü, əl-ayaqlarını kəsdi, onları xurma ağaclarından asdı.*

*Ey Müaviyə! Sən müsəlmanların vəziyyətini elə çətinləşdirdin ki, elə bil heç sən bu ümmətin adamı və bu ümmət də sənin camaatın deyil.*

*Həzrəmini öldürən sən deyilsənmi? Onun günahı nə idi? Ziyad sənə xəbər vermişdi ki, o, İmam Əlinin tərəfdarlarından idi. İmam Əlinin dini elə əmisi oğlu Muhəmmədin dinidir. İndi sən həmin din adı ilə camaata başçılıq edirsən. Əgər bu din olmasaydı indi sən və əcdadın cahiliyyət içində yaşayardınız. Sizin ən şərəfli işiniz ildə iki dəfə – yayda və qışda Yəmən və Şama getmək idi. Ancaq Allah biz Əhli-Beytin sayəsində sizi bu acınacaqlı yaşayışdan qurtardı.*

*Ey Müaviyə! Sənin sözlərindən biri də bu idi ki, deyirsən mən camaat arasında ixtilaf və fitnə yaratmayım. Mən bu ümmət üçün sənin hökumətindən böyük fitnə tanımıram.*

*Sözlərindən bir başqası bu idi ki, deyirsən rəftarımdan muğayat olum, öz dinimi və Muhəmməd ümmətinin dinini qoruyum. Mən öz vəzifəmi düşünüb özümün və Muhəmməd ümmətinin dininə fikir verəndə səninlə vuruşmaqdan böyük vəzifə görmürəm. Bu vuruş Allah yolunda cihad olacaq. Əgər (bəzi səbəblər üzündən) sənə qarşı qiyam etməkdən çəkinirəmsə,*

***bunun üçün Allahdan üzr istəyirəm (çünki ola bilər ki, bu səbəblərim Allah dərgahında üzrlü sayılmaya). Allahdan istəyirəm ki, məni Özü razı olan işə yönəltsin.***

***Ey Müaviyə! Sənin sözlərindən biri də bu idi ki, əgər sənə pislik etsəm, sən də mənə pislik edəcəksən, səninlə düşmənçilik etsəm, sən də mənimlə düşmənçilik edəcəksən. Qoy deyim ki, bu dünyada yaxşı insanlar daima pis insanların düşmənçiliyi ilə üzləşiblər. Ümid edirəm ki, sənin düşmənçiliyin mənə bir ziyan vurmayacaq, pis fikirlərinin ziyanını hamı özünə deyəcək və öz əməllərini məhv edəcək. Elə isə nə qədər bacarırsansa, düşmənçilik et.***

Ey Müaviyə! Allahdan qorx, bil ki, bütün günahların, istər böyük, istərsə də kiçik Allah yanında qorunub saxlanır. Bunu da bil ki, Allah sənin törətdiyin cinayətləri, sırf güman nəticəsində camaatı qətlə yetirməyini, ittiham edərək onları tutub həbs etməyini, şərabxor və itbaz bir uşağı hökumət başına gətirməyini heç vaxt unutmayacaq. Sən bu işinlə özünü fəlakətə saldın (öz başına iş açdın), öz dinini əlindən verdin və millətin hüququnu tapdaladın".[250]

İmam Hüseyn *(ə)* iştirak etdiyi bütün məclislərdə Əməvilər, xüsusilə də Müaviyənin əleyhinə təbliğatlar aparırdı. Bu təbliğatlardan biri, o Həzrətin *(ə)* böyük Həcc mərasimi zamanı sərt çıxışı yadda qalmışdır. Belə ki, Müaviyənin ölümündən bir (ya da iki) il əvvəl İmam Hüseyn *(ə)* Həcc ziyarətinə yollandı. Abdullah ibn Abbas və Abdullah ibn Cəfər də o Həzrətlə *(ə)* birlikdə idilər. O vaxt camaat arasında təqva, xeyir və paklıqla tanınan Peyğəmbərin *(s)* səhabələri, tabeun və bütün Bəni-Haşim nümayəndələri İmam Hüseynin *(ə)* Minadakı çadırına yığışmaq istədilər. İki yüz nəfər Peyğəmbər *(s)* səhabəsi və yeddi yüz nəfər tabeun İmamın *(ə)* çadırının yanına toplaşdı. İmam Hüseyn *(ə)* ayağa qalxıb aşağıdakı məzmunda bir çıxış etdi:

***"Gördünüzmü bu zalım və qəddar kişi bizimlə necə rəftar etdi? Mən indi bəzi məsələlərə toxunmaq istəyirəm. Əgər (de-***

---

[250] İmam Hüseynlə *(ə)* Müaviyə arasındakı məktublar üçün bax: Əllamə Məclisi, "Biharul-ənvar" (44-cü cild).

***diklərim) düz olarsa, təsdiq edin, yox əgər yalan olarsa, təkzib edin. Mənim sözlərimi eşidin və danışığımı yazın. Elə ki, öz şəhərlərinizə qayıtdınız, mənim sözlərimi etibarlı və inanılmış şəxslərə çatdırın və onları bizə tabe olmağa dəvət edin. Mən bundan qorxuram ki, bu məsələ (camaatın biz Əhli-Beyt tərəfindən idarə olunması) tamamilə unudula və haqq məğlub olub aradan gedə”*****.**

Sonra İmam *(ə)* atasının və Əhli-Beytin *(ə)* parlaq sabiqəsini, onların fəzilətlərini sadaladı, Müaviyənin hökumətinin bidətlərini, cinayət və İslama zidd olan hərəkətlərini açıqladı. Beləliklə də Müaviyənin pozğun hökumətinə qarşı böyük bir təbliğ edərək qiyam üçün zəmin yaratdı.

Dördüncü əsrin (Hicri tarixi ilə) görkəmli alimi Həsən ibn Əli ibn Şöbə “Tuhəful-uqul” kitabında İmam Hüseyndən *(ə)* tarixi və harada söylənildiyi məlum olmayan bir xütbə qeyd etmişdir. Ancaq bəzi nişanələrdən və xütbənin məzmunundan məlum olur ki, bu xütbə elə İmam Hüseynin *(ə)* Minada (Həcc mərasimində) buyurduğu xütbədir. Həmin xütbənin bəzi hissələrinin tərcüməsi belə idi:

***“...Ey qüdrətli kişilər! Siz camaat arasında elmlə, xeyirxahlıqla tanınmış adamlarsınız. Siz Allahın dini sayəsində camaatın qəlbində yer tapmısınız. Şərəfli insanlar sizlərdən ad aparır, zəiflər sizə hörmət edirlər. Sizinlə bərabər olan insanlar onlara heç bir minnətiniz olmadığı halda sizi özlərindən üstün hesab edirlər...***

***Siz Allahın qayda-qanunları və əhdinin pozulmasını öz gözlərinizlə görür, lakin bundan qorxmursunuz. Öz atalarınızın əhd-peymanının pozulmasından təşvişə düşürsünüz, lakin Allah Peyğəmbərinin əhdinin pozulmasından, Rəsulullaha qarşı hörmətsizlik olmasından heç narahat olmursunuz. Kor, lal, çolaq insanlar İslam ölkəsində başsız qalmış və onlara heç bir rəhm olunmur. Siz məqam və mövqeyinizin müqabilində heç bir iş görmür, bu yolda öz vəzifəsini yerinə yetirən adama da kömək etmirsiniz. Zalımlarla saziş bağlayıb özünüzü rahat edirsiniz. Allah pis işlərdən çəkinməyi və camaatı pisliklərdən***

*qorumağı əmr etmişdir, lakin siz bundan qafilsiniz. Siz ümmət alimlərinin müsibəti hamıdan çoxdur. Çünki din alimlərinin məqamı qəsb olunmuşdur. Kaş ki, bunu başa düşəydiniz.*

*Hökuməti Allahın ehkamından xəbərdar olan, halal-haramı tanıyan adam ələ almalıdır. Bu məqama layiq olduğunuz halda onu əlinizdən aldılar. Bu məqamı o vaxt əlinizdən aldılar ki, siz haqqın ətrafından uzaqlaşdınız, açıq-aşkar sübutlar ola-ola Peyğəmbər sünnəsində ixtilaf yaratdınız. Əgər Allah yolunda çətinliklərə qatlaşıb əzab-əziyyətə dözsəydiniz indi hökumət sizin əlinizdə olar və bütün işlərə siz nəzarət edərdiniz. Lakin siz zalımları öz işlərinizə rəhbər tutdunuz və Allahın əmanətini (hökuməti) onlara verdiniz. Onlar da halalı harama qatıb öz həvayi-həvəslərinə məşğul oldular.*

*Onları hökumətə gətirən yalnız sizin ölümdən qaçaraq bir-iki günlük həyata bel bağlamağınız oldu. Siz vəzifənizdə bu cür tənbəllik etməklə məzlumları onlara əlaltı etdiniz. Onlar da bunun nəticəsində bir dəstəni özlərinə nökər, xidmətçi, bir dəstəni isə daim acınacaqlı həyat sürməyə məcbur etdilər. Onlar zalımlara itaət edərək Allah qarşısında süstlük etmək nəticəsində hökuməti öz meylləri əsasında idarə edib həvayi-həvəsə tabe oldular. Onlar bütün şəhərlərdə (öz məqsədlərinə nail olmaq üçün) minbər başına təbliğatçılar göndərirlər. İslam ölkəsi tamamilə onların ixtiyarındadır. Əlləri hər yerdə açıqdır və camaat onların nökərinə çevrilmişdir. Bu çarəsiz camaata hər hansı istədikləri zülmü edirlər, camaat isə özünü müdafiə edə bilmir. Onların bəziləri elə zalımdırlar ki, hər bir məzluma əziyyət verir, bəziləri elə hakimlərdir ki, heç insanı dirildən və öldürən Allaha da etiqadı yoxdur.*

*Bu vəziyyət çox təəccüblüdür! Necə təəccüb etməyim ki, ölkə zalım və fasiq bir şəxsin ixtiyarındadır, o isə möminlərə ürək yandırmadan, rəhm belə, etmədən başçılıq edir. Aramızdakı bəzi ixtilaflara Allah Özü hakimdir və Öz hökmü ilə qəzavət edir.*

*İlahi! Bizim hərəkətimiz (qiyamımız) nə hökumət başına gəlmək üçündür, nə də mal-dövlətə yiyələnmək üçün. Məqsədimiz yalnız budur ki, Sənin dininin nişanələrini camaata gös-*

***tərək və İslam ölkəsində islahatı həyata keçirək. Qoy bunun nəticəsində məzlum bəndələr zalımların əlindən amanda olsunlar, Sənin ehkamın və Peyğəmbərin sünnəsi həyata keçsin!***

***İndi (ey ümmətin qabaqcılları) əgər siz mənə kömək etməsəniz zalımlar qalib gələcək və Peyğəmbərimizin nurunu söndürmək üçün çalışacaqlar..."***

Elə həmin günlərdə bir qədər beytül-mal daşıyan bir karvan Yəməndən çıxıb Mədinəni keçərək Şama tərəf gedirdi. Bundan xəbər tutan İmam Hüseyn *(ə)* karvanın qarşısını kəsib malları müsadirə edərək Bəni-Haşim yoxsulları və digər yoxsullar arasında bölüşdürdü. Həzrətin *(ə)* bu siyasəti Peyğəmbərin *(s)* siyasəti ilə tam üst-üstə düşürdü. Sonra Müaviyəyə aşağıdakı məzmunda bir məktub yazdı:

***"Yəməndən gələn karvan buradan keçirdi. Onlar sənin üçün pul, müxtəlif parçalar və ətriyyat gətirirdilər ki, sən onları alıb Dəməşq xəzinəsinə tökəsən, sonra onları qarın və cibləri indiyədək beytül-mal yeməkdən dolan qohumların arasında bölüşdürəsən. Mənim o mallara ehtiyacım var idi, ona görə də onları müsadirə etdim. Vəssəlam!"***

Müaviyə İmam Hüseynın *(ə)* bu hərəkətindən bərk narahat olub İmama *(ə)* qəzəbli bir məktub yazdı.

Şübhəsiz ki, İmamın *(ə)* bu hərəkəti Müaviyənin hökumətinin qanunsuz və qeyri-şəri tanıtdırması yolunda atılmış aşkar addım hesab olunur. Elə bir zamanda da belə bir hərəkəti görməyə İmam Hüseyndən *(ə)* başqa heç kim cürət etməzdi.

III FƏSİL

# İMAM HÜSEYNİN *(ə)* HƏYATI VƏ FƏALİYYƏTİ

# الحسن المجتبى

# 3. 1. İMAM HÜSEYNİN *(ə)* HƏYATI

İslam Peyğəmbərinin *(s)* qızı Xanım Fatimeyi-Zəhra *(ə)* İmam Həsənin *(ə)* doğumundan əlli gecə sonra İmam Hüseynə *(ə)* hamilə qalmışdı.[251] Hicrətin dördüncü ili, Şaban ayının beşində (Miladi 626-cı ilin yanvar ayının 10-da) Peyğəmbərimizin *(s)* əziz nəvəsi, Həzrət Əlinin *(ə)* ikinci oğlu İmam Hüseyn *(ə)* Xanım Fatimədən *(ə)* doğulmuşdu.[252]

Bəzi mənbələrdə qeyd edilir ki, Abbasın zövcəsi Ümmü Fəzl bir gün Peyğəmbərin *(s)* yanına gəlib dedi:

"Ey Allahın Rəsulu *(s)*! Mən gecə bir yuxu gördüm!"

Peyğəmbər *(s)* buyurdu:

***"Nədir o gördüyün yuxu?"***

Ümmü Fəzl dedi:

"Sənin cəsədindən bir parçanın kəsilib evimə qoyulduğunu gördüm!"

Rəsulullah *(s)* buyurdu:

***"Xeyir görmüsən inşaallah! Fatimə bir oğlan doğacaq, sən də ona oğlun Küsəmin südünü əmdirəcəksən!"***

Həzrət Hüseyn *(ə)* doğulunca Ümmü Fəzl onu apararaq oğlu Küsəmin südüylə bəslədi.[253]

İmam Hüseynin *(ə)* doğulması haqqında nəql olunmuş ən doğru məlumatı görkəmli hədis alimi Şeyx Səduq belə nəql edir:

**روي أنه لما ولد الحسين عليه السلام أمر الله تعالى جبرئيل أن يهبط في ملاء من الملائكة فيهنئ محمدا، فهبط فمر بجزيرة فيها ملك يقال له فطرس، بعثه الله في شئ فأبطأ فكسر جناحه فألقاه في تلك الجزيرة، فعبد الله سبعمائة عام، فقال فطرس لجبرئيل :إلى أين؟ فقال :إلى محمد، قال :احملني معك لعله يدعو لي. فلما دخل جبرئيل وأخبر محمدا بحال فطرس، قال له النبي :قل يتمسح بهذا المولود، فتمسح**

---

[251] "Kəşful-ğummə", c. II, s. 170.

[252] Əllamə Hairi, "Dairətul-maarif", c. VIII, s. 248.

[253] İslam Tarihi Ansiklopedisi, c. V, s. 221.

**فطرس بمهد الحسين عليه السلام، فأعاد الله عليه في الحال جناحه ثم ارتفع مع جبرئيل إلى السماء.**

İmam Sadiqin *(ə)* dilindən rəvayət edilir:

***“Hüseyn ibn Əli doğulduqda Allah Cəbraili min mələklə birlikdə Peyğəmbərə göndərdi. Peyğəmbər Allahdan və Cəbraildən gələn təbriki aldı. Cəbrail dənizdə olan bir adaya endi. Orada Fətrəs adlı bir mələk vardı. O, bir iş üçün göndərilmiş, lakin ağır tərpəndiyindən qanadları yanıb həmin adaya atılmışdı. Fətrəs 600 il idi ki, orada Allaha ibadət edirdi. O, Cəbraili görüb dedi:***

***“Hara gedirsən?”***

***Cəbrail cavab verdi:***

***“Allah Muhəmmədə bir nemət əta etmişdir, məni göndərir ki, bununla əlaqədar gedib ona gözaydınlığı verim”.***

***Fətrəs dedi:***

***“Ya Cəbrail məni də özünlə apar ki, Muhəmməd mənə dua etsin”.***

***Cəbrail onu özü ilə apardı, Peyğəmbərin yanına daxil oldu, onu Allah tərəfindən təbrik etdi və Fətrəsin gəlişini xəbər verdi. Peyğəmbər buyurdu:***

***“Ya Cəbrail! Onu içəri daxil et”.***

***Cəbrail Fətrəsi içəri daxil etdikdə Peyğəmbəri onun əhvalından xəbərdar etdi. Peyğəmbər Fətrəsə dua etdi və belə buyurdu:***

***“Bu təzə doğulmuş uşağa toxun və öz məkanına qayıt”.***

***Fətrəs Hüseynə toxundu, müşkülü həll oldu və Peyğəmbərə dedi:***

***“Ey Allahın Rəsulu! Sənin ümmətin onu öldürəcəkdir, mənə belə bir mükafat ver ki, onu ziyarətə gələn zəvvarı ona yetişdirim, ona salam və salavat deyənlərin salamını və salavatını ona çatdırım”.***

***O, bunları dedi və qalxıb getdi”.***[254]

---

[254] Əllamə Məclisi, “Biharul-ənvar”, c. 44, s. 244.

İmam Hüseynin *(ə)* doğumunun yeddinci günü Peyğəmbər *(s)* əqiqə qurbanı olaraq iki qoç kəsdirdi. Sonra buyurdu:

***"Ya Fatimə! Hüseynin saçını kəs! Saçının ağırlığı qədər sədəqə ver"***.

Xanım Fatimə *(ə)* Hüseynin *(ə)* kəsilən saçının ağırlığı qədər gümüşü fəqirlərə payladı. Rəsulullah *(s)* qurbanın sümüklərini qırmadan bişirib yemək və başqalarına da vermək barədə tövsiyə etdi.

İmam Hüseynə *(ə)* ad qoyulması ilə əlaqədar Şeyx Səduq nəql edir:

"Fatimə *(ə)* Hüseyni *(ə)* dünyaya gətirdikdə Allah tərəfindən Cəbrailə *(ə)* belə vəhy gəldi:

***"Muhəmmədin oğlu olmuşdur. Onun yanına en, onu təbrik et və ona de ki, Əli sənə Harunun Musaya olan nisbəti kimidir. Buna görə də uşağa Harunun uşağının adını qoysun"***.

Cəbrail *(ə)* İlahi vəhyi Rəsulullaha *(s)* bildirdi. Peyğəmbər *(s)* buyurdu:

***"Onun uşağının adı nə idi"***.

Cəbrail *(ə)* dedi:

"Onun oğlunun adı Şubeyr idi".

Peyğəmbər *(s)* buyurdu:

***"Mənim dilim ərəbdir"***.

Cəbrail *(ə)* dedi:

"Onu Hüseyn adlandır".

Bununla da uşağı Hüseyn *(ə)* adlandırdılar"[255].

Həmçinin, Şeyx Səduq İmam Sadiqdən *(ə)* belə rəvayət edir:

***"Bir gün Peyğəmbərin xanımı Ümmü Əymənin qonşuları Allah Rəsulunun yanına gəlib dedilər:***

***"Ya Rəsulullah! Ümmü Əymən dünən səhərədək yatmayıb ağladı, səhərədək ağlamağı kəsmədi".***

***Peyğəmbər Ümmü Əymənin ardınca adam göndərib çağırtdırdı, gəldikdə ona buyurdu:***

[255] "əl-Məcalis", s. 82.

***“Sənin qonşuların mənim yanıma gəlib dünən sənin səhərədək yatmayıb ağladığını deyirlər. Allah sənin gözlərini ağlatmasın! Nə səbəb olmuşdur ki, belə ağlamısan?”***

***Cavabında Ümmü Əymən dedi:***

***“Ya Rəsulullah! Yuxumda böyük bir hadisə görmüşəm. Buna görə də səhərədək ağlamışam”.***

***Peyğəmbər buyurdu:***

***“Gördüyün yuxunu Peyğəmbərə danış. Allah və Rəsulu daha yaxşı bilər”.***

***Ümmü Əymən dedi:***

***“Onu danışmaq mənə çox ağırdır”.***

***Peyğəmbər buyurdu:***

***“Yuxu gördüklərin (mütləq gerçək) demək deyildir, danış”.***

***Ümmü Əymən dedi:***

***“Mən bu gecə yuxumda gördüm ki, sənin bəzi bədən üzvlərin mənim evimdə görünür”.***

***Peyğəmbər buyurdu:***

***“Gözlərin aydın olsun ey Ümmü Əymən! Fatimə Hüseyni dünyaya gətirəcək, o, bədənimin bir hissəsi olacaq və onun tərbiyəsi, təlimi sənin evində olacaqdır”.***

***Bu hadisədən doqquz gün keçmiş Xanım Fatimə İmam Hüseyni dünyaya gətirdi. Peyğəmbər onun başının qırxılmasını və saçının çəkisi qədər də gümüş sədəqə verilməsini, həmçinin onun üçün əqiqə qurbanlıq kəsilməsini əmr etdi. Sonra Ümmü Əymən uşağı hazırladı, bükdü və Peyğəmbərə apardı. Peyğəmbər onları görcək buyurdu:***

***“Uşaq da, sən də xoş gəlmisiz ey Ümmü Əymən! Sənin yuxunun yozumu bax, budur!”***[256]

Şeyx Səduq mötəbər bir rəvayəti İbn Abbasdan nəql edir:

“Hüseyn ibn Əli *(ə)* cümə günü anadan olanda Allah-taala Cəhənnəmin gözətçisinə vəhy etdi ki, Muhəmmədin *(s)* oğlunun doğulmasına görə Cəhənəm odunu orada olanlara yüngülləşdir.

---

[256] Həmin mənbə, s. 51.

Sonra Cənnətin gözətçisi Rizvana vəhy etdi ki, Muhəmmədin *(s)* oğlunun dünyaya gəlməsi hörmətinə cənnətlər bəzədilsin. Sonra hurilərə vəhy etdi ki, Muhəmmədin *(s)* oğlunun doğulmasına xatir bəzənsinlər və bir-birlərini ziyarət etsinlər. Sonra mələklərə vəhy etdi ki, Muhəmmədin *(s)* oğlunun doğulmasına görə səf-səf durub Allaha təsbih və təkbir desinlər. Sonra Cəbrailə *(ə)* vəhy etdi ki, hər dəstədə Ruhanilər adlanan və nur saçan min mələk olmaqla min dəstə ilə Peyğəmbərə *(s)* müxtəlif rəngli zinət əşyaları və yaqutla ensin, onu təbrik edib göz aydınlığı versinlər. Sonra ona xəbər ver:

***"Uşağın adını Hüseyn qoydum. Onu ümmətinin ən pis adamları öldürəcəklər. Vay olsun onun qatilinə, bu işə sövq edənə və bu işə rəhbərlik edənə! Mən ondan, o da Məndən uzaqdır.***

***Qiyamət günü Hüseynin qatilindən daha ağır günahlı bir şəxs məhşərə gəlməyəcək. Hüseynin qatili Allahdan başqa Allah olduğunu iddia edənlərlə birlikdə Qiyamət günü Cəhənnəmə daxil olacaqdır. Cənnət Allaha itaət edənlərin həsrətində olduğu kimi, Cəhənnəm də Hüseynin qatilinin həsrətindədir".***[257]

İmam Hüseynin *(ə)* künyəsi Əbu Abdullah, ləqəbi isə Seyyid və Şəhiddir. Çox zaman o Həzrətə *(ə)* Əbu Abdullah və ya Seyyidüş-şühəda deyə xitab edilərdi. İmam Hüseyn *(ə)* gənclik dövründən başlayaraq atası İmam Əlinin *(ə)* siyasi mövqeyini himayə etmiş, ona tabe olmuşdur.

Bir gün Hüseyn *(ə)* Ömər ibn Xəttabın hakimiyyəti dövründə məscidə girib gördü ki, xəlifə minbərdə oturmuşdur, tez minbərin başına qalxıb xəlifəyə buyurdu:

***"Atamın minbərindən aşağı düş və get öz atanın minbərində otur".***

Xəlifə özünü itirmiş halda dedi:

"Mənim atamın minbəri olmayıb".

Sonra onu yanında əyləşdirdi. Minbərdən düşdükdən sonra Hüseyni *(ə)* öz evinə aparıb ondan soruşdu:

---

[257] Şeyx Səduq, "Kəmaluddin və Təmamun-Nimət", Qum-1405, s. 165.

“Bu sözü sənə kim öyrədib?”

Hüseyn *(ə)* buyurdu:

***“Heç kim”***.

Həzrət Hüseyn *(ə)* atası Əli ibn Əbu Talibin *(ə)* hakimiyyəti dövründə siyasi və nizami səhnələrdə onunla çiyin-çiyinə çalışmışdır. O, atasının hakimiyyəti dövründə baş vermiş hər üç döyüşdə fəal iştirak etmişdir.

Cəməl döyüşündə ordunun sol cinahının başçılığı Həzrət Hüseynin *(ə)* öhdəsində idi. Siffeyn döyüşündə ordunu döyüşə həvəsləndirmək məqsədilə etdiyi çıxışlarla yanaşı, düşmənlə mübarizədə də əsas rol oynamışdır. Əbu Musa Əşəri ilə Əmr ibn As arasında gedən danışıqlarda da Həzrət Hüseyn *(ə)* Həzrət Əli *(ə)* tərəfindən seçilmiş əsas şahidlərdən biri idi.

Həzrət Hüseyn *(ə)* atasının şəhadətindən sonra qardaşı İmam Həsən *(ə)* ilə birgə olmuşdur. İmam Həsənin *(ə)* ordusu Şama tərəf hərəkət edəndə Hüseyn *(ə)* mübarizə meydanında böyük qardaşıyla çiyin-çiyinə olmuşdur. Müaviyə İmam Həsənə *(ə)* sülh təklif etdikdə o, qardaşı Hüseyni *(ə)* və Abdullah ibn Cəfəri çağırıb bu təklif barədə onlarla məsləhət etdi. Nəhayət, sülh müqaviləsi bağlanandan sonra qardaşı ilə birlikdə Mədinəyə qayıtdı və elə orada da yaşamağa başladı.

İmam Hüseyn *(ə)* Hicrətin altmış birinci ilində, Məhərrəm ayının onunda (10 oktyabr 680) Kərbəlada şəhid edilmişdir.[258]

İbn Əsir onun haqqında deyir:

“Hüseyn *(ə)* fəzilətli, çox oruc tutub namaz qılan, sədəqə verən və xeyir işlər görən bir şəxs idi. O, iyirimi beş dəfə Mədinədən Həcc ziyarətinə getmişdir”.[259]

---

[258] Şeyx Səduq, “əl-Məcalis”, s. 84.

[259] İbn Əsir, “Usdul-qabə”, Tehran çapı, cild II, səh-18.

# 3. 2. İMAM HÜSEYNİN *(ə)* QURANİ-KƏRİMDƏKİ FƏZİLƏTLƏRİ

İmam Hüseynin *(ə)* fəziləti Quran və hədisdə öz əksini tapmış və inkar edilməsi qəti mümkün olmayan həqiqətlərdəndir. O, Peyğəmbərin *(s)* nəvəsi olmaqla yanaşı, həm də Peyğəmbərdən *(s)*, atası Əlidən *(ə)* və qardaşı Həsəndən *(ə)* sonra Allah tərəfindən İslam ümmətinə İmam və Xəlifə təyin olunmuş şəxsdir. Peyğəmbər *(s)* özündən sonra ümmətə on iki İmamın *(ə)* rəhbərlik edəcəyini, onların isə imamlığına etiqadın vacib olduğunu bildirərək buyurmuşdur:

***"Hər kəs zamanın İmamını tanımadan ölsə, cahiliyyət dövrünün ölüsü kimi ölər".***[260]

Həmçinin, Rəsulullah *(s)* buyurmuşdur:

***"Məndən sonra on iki xəlifə olacaqdır".***[261]

Bu mənada Həzrət Hüseyn *(ə)* ümmətin İmamı və dövrünün İlahi xəlifəsi idi. Lakin təəssüflər olsun ki, onun dünyəvi xəlifəliyi zalımların müxalifətçiliyi ucbatından tarixdə gerçəkləşə bilmədi. Ancaq buna baxmayaraq o Həzrət *(ə)* on iki İmamdan *(ə)* biri və üçüncüsü olmaqla bütün məxluqata imamlıq vəzifəsini icra etdi. Peyğəmbərin *(s)* hədisində onun imamətinə aid olan dəlillərə bütün məzhəblərin qaynaqlarında rast gəlmək mümkündür. Belə ki, görkəmli İslam alimlərindən Qunduzi əl-Hənəfi "Yənabiul-məvəddə",[262] Muhəmməd Həməvini əş-Şafei "Fəraidus-simteyn"[263] əsərlərində on iki İmamın *(ə)* adlarını, onların üçüncüsünün isə İmam Hüseyn *(ə)* olduğunu rəvayət edirlər.

Görkəmli İslam alimi Hafiz əl-Həskani səhih bir sənədlə "əl-Maidə" surəsinin 67-ci ayəsinin Həzrət Əlinin *(ə)* imaməti haqqında nazil olduğunu rəvayət edir:

---

[260] Əhməd ibn Hənbəl, "Musnəd", c. IV, s. 96, Təbərani, "Musnədiş-Şamiyyin", c. II, s. 437.

[261] "Səhihi-Müslim", c. III, s. 1452, "Kitabul-imamət, Səhihi-Buxari", c. VIII, s. 127.

[262] səh-529.

[263] cild II, səh-132.

“Əbu Hüreyrə deyir:

Peyğəmbər *(s)* buyurdu:

***“Mən Meraca gedəndə Ərşin altında eşitdim ki, deyilirdi:***

***“Əli hidayət bayrağı və Mənə sığınanların sevimlisidir. Ya Muhəmməd, bunu öz ümmətinə çatdır!”***

Peyğəmbər *(s)* bu kəlamı buyurmuşdu ki, Allah-taala aşağıdakı ayəni endirdi:

***“Ya Peyğəmbər! Rəbbin tərəfindən sənə nazil olanı təbliğ et. Əgər bunu etməsən Allahın risalətini (sənə həvalə etdiyi peyğəmbərliyi) yerinə yetirmiş olmazsan. Allah səni insanlardan qoruyacaq. Allah kafir camaatı düz yola yönəltməz!”***[264]

Bu ayə Əlinin *(ə)* imamətini isbat etməklə yanaşı, imamətin xüsusi önəm daşıdığını, İslam ümmətinin imamsız təsəvvür olunmadığını diqqətə çatdırır. İmam Hüseyn *(ə)* də bu imamət nurunun bir ulduzu olmaqla yanaşı, Həzrət Əlinin *(ə)* övladıdır. Həmçinin, İmam Hüseyn *(ə)* dünya və Axirət xanımlarının rəhbəri Xanım Fatimənin *(ə)* oğludur. İmam Sadiq *(ə)* buyurur:

***“Peyğəmbər Fatiməni çox öpərdi. Bunu görən Aişə etiraz etdikdə o Həzrət buyurdu:***

***“Ey Aişə! Meraca gedəndə Cənnətə daxil oldum. Orada Cəbrail məni yanına çağırıb Tuba ağacının meyvəsindən yedirtdi. Ondan belimdə bir şeylər əmələ gəldi ki, Yer üzünə qayıtdıqdan sonra Xədicə ilə olan münasibətimdən Xədicə Fatiməyə hamilə oldu. Mən Fatiməni öpdükdə Tuba ağacının ətrini duyuram”.***[265]

Bundan əlavə, İmam Hüseyn *(ə)* Əhli-Beytdən *(ə)* olduğuna görə xüsusi üstünlük və fəzilətə malikdir. Quran buyurur:

***“Siz ey ev əhli! Allah sizdən çirkinliyi yox etmək və sizi tərtəmiz, pak etmək istəyir”.***[266]

Bütün təfsir əhlinə görə, bu ayə “Təthir” ayəsi kimi tanınır və Peyğəmbərə *(s)* zövcəsi Ümmü Sələmənin evində nazil ol-

---

[264] “Şəvahidut-tənzil”, c. I, s. 187, hədis № 243.

[265] Əllamə Hüveyzi, “Təfsiru nurus-səqəleyn”, c. III, s. 131, hədis № 49.

[266] “əl-Əhzab”, 33.

muşdur. Bu haqda Müslüm ibn Həccac ən-Nişapuri belə rəvayət edir:

“Ümmü Sələmə deyir:

Bu ayə mənim evimdə nazil olmuşdur. Ayə nazil olanda Əli *(ə)*, Fatimə *(ə)*, Həsən *(ə)* və Hüseyn *(ə)* Peyğəmbərin *(s)* dövrəsinə toplaşmış, mən isə qapının astanasında oturmuşdum. Peyğəmbər *(s)* onları əbasının altına alıb buyurdu:

***“Allahım bunlar mənim Əhli-Beytimdir”***.

Dedim:

Ey Allahın Rəsulu *(s)*! Mən də ora daxil olum?

Peyğəmbər *(s)* buyurdu:

***“Sən yerində qal, sən xeyir üzərindəsən”***.[267]

Bu ayənin Əhli-Beytin *(ə)* haqqında nazil olmasını İbn Həcər əl-Heytəmi belə ifadə edir:

“Əksər təfsirçilərə görə, bu ayə Əli *(ə)*, Fatimə *(ə)*, Həsən *(ə)* və Hüseyn *(ə)* haqqında nazil olmuşdur”.[268]

ən-Nişapuri deyir:

“Əhməd ibn Hənbəl bu ayənin beş nəfərin haqqında nazil olmasını Əbu Səid əl-Xudridən belə nəql edir:

“Bu ayə Peyğəmbər *(s)* Əli *(ə)*, Fatimə *(ə)*, Həsən *(ə)* və Hüseynin *(ə)* haqqında nazil olmuşdur”.[269]

Həmçinin, bu ayənin adıçəkilən beş nəfərin haqqında nazil olmasını Hakim əl-Həskani “Şəvahidut-tənzil” əsərində[270] də səhih rəvayətlərlə isbat etmişdir. Eyni zamanda Təntavi məşhur “Təfsir” əsərində bu ayənin təfsirində yazır:

“Bil ki, Əhli-Beyt *(ə)* anlamı məxsusdur Əli *(ə)*, Fatimə *(ə)*, Həsən *(ə)* və Hüseynə *(ə)*”.[271]

---

[267] “Səhihi-Müslim”, c. VII, s. 130, Əhməd ibn Hənbəl, “Musnəd”, c. I, s. 330, Tirmizi, “Sünən”, c. V, s. 351, Hakim Nişapuri, “əl-Mustədrək”, c. III, s. 133, Təbərani, “Möcəm”, c. III, s. 48, Buxari, “Tarixul-kəbir”, c. VIII, s. 187, İbn Həcər əl-Heytəmi, “əs-Səvaiqul-muhriqə”, s. 221.

[268] “əs-Səvaiqul-muhriqə”, s. 220.

[269] Həmin mənbə, s. 221.

[270] cild II, s. 10, 92.

[271] cild XVI, s. 27.

Quranda İmam Hüseynin *(ə)* fəzilətlərinə işarə edən ayələrdən biri salavat ayəsidir. Uca Allah buyurur:

***"Həqiqətən Allah və mələkləri Peyğəmbərə salavat göndərirlər. Ey iman gətirənlər! Siz də ona salavat göndərib, layiqincə salamlayın!"***[272]

İbn Həcər bu ayənin Peyğəmbərin *(s)* Əhli-Beyti *(ə)* haqqında nazil olması barədə xeyli hədis nəql etmişdir. O, deyir:

"Kəb ibn Ucrə belə rəvayət edir:

"Bu ayə nazil olduqda, Peyğəmbərə *(s)* dedik:

"Ey Allahın Rəsulu *(s)*! Sənə necə salam göndərək?"

Peyğəmbər buyurdu:

***"Deyin: Allahummə salli alə Muhammədin va ali Muhəmməd!*** – Allahım Muhəmməd və onun ailəsinə salavat və salam göndər!"[273]

Bu hədisin oxşarını Buxari də nəql etmişdir. O, deyir:

"Kəb ibn Ucrə nəql edir:

"Deyildi:

"Ey Allahın Rəsulu *(s)*! Sənə salam göndərməyi bilirik, bəs sənə salavatı necə verək?"

Peyğəmbər *(s)* buyurdu:

***"Deyin: Allahummə salli alə Muhəmmədin va alə ali Muhəmməd, kəma salleytə alə ali İbrahim, innəkə həmidun məcid, Allahummə barik alə Muhəmmədin va alə ali Muhəmməd, kəma barəktə alə ali İbrahim, innəkə həmidun məcid"***.[274]

İbn Həcər Peyğəmbərdən *(s)* belə bir hədis də nəql edir:

***"Dua Muhəmməd və Ali-Muhəmmədə salavat göndərmədən məqbul deyil"***.[275]

Bu hədisi nəzmə çəkən görkəmli İslam alimi və Şafei məzhəbinin banisi Muhəmməd ibn İdris əş-Şafei nəzmlə yazır:

---

[272] "əl-Əhzab", 56.
[273] "əs-Səvaiqul-muhriqə", s. 225-226.
[274] "Səhihi-Buxari", səh-844, kitabut-təfsir, hədis № 4797.
[275] "əs-Səvaiqul-muhriqə", s. 227.

*Ya Əhlə-Beyti Rəsulillahi*
*Faraza minəllahi fil-Quran*
*Kəfakum min azimil-qadri ənnəkum*
*Mən ləm yusalli aleykum lə salatə ləhu.*
(Ey Peyğəmbərin *(s)* Əhli-Beyti *(ə)* sizi sevməyi,
Quranda Allah vacib edib, ayə endirmişdir.
Qədir-qiymətinizin böyük olmasına bu kifayətdir ki,
Hər kəs sizə salavat göndərməsə, onun namazı yoxdur).[276]

İmam Hüseynin *(ə)* fəzilətinə işarə edən ayələrdən biri də ***"Ali-Yasinə salam olsun"***[277] ayəsidir. İbn Həcər bu ayə haqqında yazır:

"Təfsirçilərin çoxu İbn Abbasın rəvayətinə əsasən, bu ayəni "Ali-Muhəmmədə *(ə)* salam olsun" kimi təfsir ediblər".[278]

Həmçinin, təfsir əhli – ***"Yığın bir yerə zülm edənləri, onların həmtaylarını və ibadət etdiklərini"***[279] ayəsinin də Əhli-Beytin *(ə)*, o cümlədən İmam Hüseynin *(ə)* fəzilət və məqamına işarə olduğu fikrindədirlər. Bu haqda Əllamə Huveyzi rəvayət edir:

"Ayədəki ***"zülm"*** kəlməsi Ali-Muhəmmədin *(ə)* haqqını tapdalamaq, ***"həmtaylarını"*** ifadəsindən məqsəd isə onların haqqını tapdalayanlara kömək edənlər deməkdir".[280]

İmamın *(ə)* fəzilət və üstünlüklərini çatdıran ayələrdən biri də ***"Onları yubadıb saxlayın, çünki sorğu-sual olunacaqlar"***[281] ayəsidir. Bu haqda İbn Həcər,[282] Əllamə Huveyzi,[283] habelə digər hədis və təfsir alimləri Peyğəmbərdən *(s)* rəvayət edirlər:

"Bu ayənin mənası – "Əli ibn Əbi Talibin *(ə)* və Əhli-Beytin *(ə)* vilayəti barəsində sorğu-sual olunacaqlar" deməkdir."

---

[276] İbn Həcər əl-Heytəmi, "əs-Səvaiqul-muhriqə", s. 228.
[277] "əs-Saffat", 130.
[278] "əs-Səvaiqul-muhriqə", s. 228.
[279] "əs-Saffat", 22.
[280] "Təfsiru nurus-səqəleyn", c. IV, s. 401, hədis № 11.
[281] "əs-Saffat", 24.
[282] "əs-Səvaiqul-muhriqə", s. 229.
[283] "Təfsiru nurus-səqəleyn", c. IV, s. 29.

İmam Hüseynin *(ə)* üstünlüklərini bizə çatdıran ayələrdən biri də ***"Biz ona böyük bir qurbanlıq əvəz verdik"***[284] ayəsidir. Bu ayəni izah edən İmam Rza *(ə)* buyurur:

***"Allah İbrahimə oğlu İsmailin əvəzində ona nazil etdiyi qoçu kəsməyi əmr etdikdə İbrahim Allahdan təmənna etdi ki, oğlu İsmail qurban kimi kəsilsin, çünki ona qoç kəsmək yox, oğlunu kəsmək əmr olunubdur. Allah ona belə vəhy etdi:***

***"Ey İbrahim! Yaratdıqlarım içində sənə ən çox sevimli olan kimdir?"***

***İbrahim dedi:***

***"Ey Rəbbim! Yaratdıqların içində mənə ən sevimli olan həbibin Muhəmməddir".***

***Allah vəhy etdi:***

***"Sənə o çox sevimlidir, yoxsa öz canın?"***

***İbrahim dedi:***

***"O, mənə canımdan da sevimlidir".***

***Allah vəhy etdi:***

***"Sənə onun övladı sevimlidir, yoxsa sənin öz övladın?"***

***İbrahim dedi:***

***"Onun övladı".***

***Allah vəhy etdi:***

***"Onun düşmənləri övladının başını zülmlə kəsərlər, onun öldürülməsi sənin qəlbini ağrıdır, yoxsa oğlunun qurban kəsilməsi?"***

***İbrahim dedi:***

***"Ey Rəbbim! Onun zülmlə kəsilməsi mənim qəlbimi daha ağrıdır".***

***Allah vəhy etdi:***

***"Ey İbrahim! Muhəmmədin ümmətindən bir dəstə ondan sonra onun oğlu Hüseyni zülm və düşmənçiliklə qoç kəsən kimi kəsərlər".***

***İbrahimin qəlbi bu hadisədən qəmgin oldu. O, ağladı".***[285]

---

[284] "əs-Saffat", 107.

[285] Əllamə Hüveyzi, "Təfsiru nurus-səqəleyn", c. IV, s. 429-430.

İmam Hüseynə *(ə)* aid olan ayələrdən biri də ***"Halbuki sən onların arasında ola-ola Allah onlara əzab verən deyildir. Bağışlanmalarını diləyərkən də Allah onlara əzab verməz!"***[286] ayəsidir. Bu ayənin Əhli-Beytə *(ə)* aid olduğunu deyən İbn Həcər yazır:

"Peyğəmbər *(s)* bu ayənin Əhli-Beytə *(ə)* işarə olduğunu və onların Yer əhli üçün əminlik olduğunu buyurmuşdur. Bu haqda hədislər çoxdur, onlardan bəzisini qeyd edirik. Peyğəmbər *(s)* buyurur:

***"Əhli-Beytim ümmətim üçün əminlikdir"***.

Digər hədisində isə o Həzrət *(ə)* belə buyurur:

***"Ulduzlar Yer əhli üçün əminlik olduğu kimi, Əhli-Beytim də ümmətimin ixtilafa düşməməsi üçün əminlikdir"***.[287]

Müəllif bu hədisləri qeyd etdikdən sonra ikinci hədisin Buxari və Müslümün şərtlərinə uyğun olduğunu qeyd edir.

İmamın *(ə)* fəzilətinin ali olduğunu isbat edən ayələrdən biri də ***"Sənə göndərilən bilikdən sonra buna dair səninlə mübahisə edənlər olsa, onlara de: Gəlin biz də oğlanlarımızı, siz də oğlanlarınızı, biz də qadınlarımızı, siz də qadınlarınızı, biz də özümüzü siz də özünüzü çağıraq! Sonra Allahdan yalvarıb yalançılara lənət etməsini diləyək!"***[288]

Bu ayə haqqında İbn Həcər əl-Heytəmi, Carullah Zəməxşəridən nəqlən deyr:

"Əhli-Beytin *(ə)* fəzilətinə bundan güclü dəlil tapmaq mümkün deyildir. Onlar Əli *(ə)*, Fatimə *(ə)*, Həsən *(ə)* və Hüseyndir *(ə)*. Bu ayə nazil olduqda Peyğəmbər *(s)* Hüseyni *(ə)* qucağına alıb Həsənin *(ə)* də əlindən tutdu. Fatimə *(ə)* və Əli *(ə)* də onun ardınca gedirdi. Buradan məlum olur ki, ayədə məqsəd onlardır. Fatimənin *(ə)* övladları və onların zürriyyətləri Peyğəmbərin *(s)* övladı hesab olunur, ona nisbət verilirlər".[289]

---

[286] "əl-Ənfal", 33.
[287] "əs-Səvaiqul-muhriqə", s. 234.
[288] "Ali-İmran", 61.
[289] "əs-Səvaiqul-muhriqə", s. 238, Carullah Zəməxşəri, "Təfsirul-Kəşşaf", c. I, s. 361-362, Əhməd ibn Əli əl-Cəssas, "Əhkamul-Quran", c. II, s. 18-19, əl-Qazi

İbn Həcər adıçəkilən əsərində belə bir hədis də nəql edir:

"Əli *(ə)* Peyğəmbərin *(s)* yanına daxil oldu. Peyğəmbər *(s)* ayağa qalxıb onu qarşıladı, alnından öpdü və sağ tərəfində oturtdu. İbn Abbas dedi:

"Ey Allahın Rəsulu *(s)*! Onu çox istəyirsənmi?"

Həzrət *(s)* buyurdu:

***"Ey əmi! And olsun Allaha ki, Allah onu məndən çox istəyir! Allah bütün peyğəmbərlərin zürriyyətini onların öz bellərindən, mənim zürriyyətimi isə Əlinin belindən qərar vermişdir".***[290]

İmam Hüseynin *(ə)* haqqında nazil olmuş ayələrdən biri də ***"Allah iman gətirib yaxşı əməllər edən bəndələrinə bununla müjdə verir, de ki: mən sizdən bunun (risaləti təbliğ etməyimin) müqabilində qohumluq məhəbbətindən başqa bir şey istəmirəm"***[291] ayəsidir. Bütün təfsir və hədis əhlinə görə, bu ayədə məqsəd Peyğəmbərin *(s)* yaxın qohumları olan Əli *(ə)*, Fatimə *(ə)*, Həsən *(ə)* və Hüseynə *(ə)* məhəbbət göstərib onları sevməkdir. Bu ayə təfsirçilərin yanında "Məvəddət" ayəsi kimi tanınır. Bu ayənin təfsiri haqqında Əllamə Hüveyzi belə rəvayət edir:

"İsmail ibn Əbdülxaliq İmam Sadiqə *(ə)* dedi:

"Bəsrə əhli bu ayə haqqında deyir ki, qohumluq məhəbbəti dedikdə Peyğəmbərin *(s)* qohum-əqrəbası nəzərdə tutulur".

İmam *(ə)* buyurdu:

***"Yalan deyirlər. Bu ayə bizim, xüsusilə də Əhli-Beytin – Əli, Fatimə, Həsən və Hüseynin haqqında nazil omuşdur".***[292]

Bu ayə nazil olduqda Peyğəmbər *(s)* buyurdu:

***"Allah peyğəmbərləri müxtəlif ağaclardan yaratdı, mənimlə Əlini isə bir ağacdan. Mən o ağacın kökü, Əli gövdəsi,***

---

Nəsruddin Beyzavi, "Təfsiru-Beyzavi", c. I, s. 163, Muhəmməd ibn Əhməd əl-Qurtubi, "əl-Camiul-Əhkamil-Quran", c. II, s. 67, Hakim əl-Həskani, "Şəvahi-dut-tənzil", c. I, s. 123-124, hədis № 170-171.

[290] "əs-Səvaiqul-muhriqə", s. 239.

[291] "əş-Şura", 23.

[292] "Təfsiru nurus-səqəleyn", c. IV, s. 572, hədis № 65.

***Fatimə çiçəkləri, Həsən və Hüseyn meyvələri, tərəfdarlarımız isə budaqlarıdır. Hər kəs o ağacın budaqlarından yapışsa, nicat tapacaq, hər kəs ondan üz çevirsə, məhv olacaq. Əgər bir bəndə Səfa ilə Mərva arasında Allaha iki min il ibadət etsə, lakin bizə məhəbbət göstərməsə, Allah onu Cəhənnəmdə saxlayacaqdır".***[293]

İmam Hüseynin *(ə)* fəzilətlərinə işarə edən ayələrdən biri də ***"Hamınız bir yerdə Allahın ipindən möhkəm yapışın, bir-birinizdən ayrılmayın"***[294] ayəsidir. Bu ayədə məqsədin Əhli-Beyt *(ə)* olduğunu görkəmli İslam alimləri Sələbi "Təfsiru-Sələbi", İbn Həcər əl-Heytəmi isə "əs-Səvaiqul-muhriqa"[295] əsərində İmam Sadiqdən *(ə)* belə rəvayət edirlər:

***"Biz Allahın ipiyik ki, bizim haqqımızda – "Hamınız Allahın ipindən möhkəm yapışın, bir-birinizdən ayrılmayın" demişdir".***

Bu ayədən belə məlum olur ki, İmam Hüseyn *(ə)* digər imamlarla *(ə)* birlikdə Yer üzündə Allahın möhkəm ipidir və ondan yapışmadan nicata yetişmək mümkün deyildir.

İmamın *(ə)* fəzilətinə işarə edən ayələrdən biri də ***"Yoxsa onlar Allahın öz nemətindən bəxş etdiyi şeyə görə insanlara həsəd aparırlar? Halbuki biz İbrahim övladına da kitab və hikmət vermişdik və onlara böyük mülk bəxş etmişdik"***[296] ayəsidir. İmam Baqir *(ə)* bu ayənin təfsirində belə buyurmuşdur:

***"Ayədə həsəd aparılan insanlar bizik".***[297]

İmamın *(ə)* fəzilət və üstünlüklərini çatdıran ayələrdən biri də ***"Şübhəsiz ki, Mən həm də tövbə edib iman gətirəni və yaxşı işlər görüb sonra da doğru yol tutanı çox bağışlayanam!"***[298] ayəsidir. Bu ayənin təfsirində tanınmış İslam alimləri, o cüm-

---

[293] Əllamə Hüveyzi, "Təfsiru nurus-səqəleyn", c. IV, s. 572, hədis № 69.
[294] "Ali İmran", 103.
[295] səh, 233.
[296] "ən-Nisa", 54.
[297] İbn Həcər əl-Heytəmi, "əs-Səvaiqul-muhriqə", s. 233, Əllamə Hüveyzi, "Təfsiru nurus-səqəleyn", c. I, s. 491, hədis № 304.
[298] "Taha", 82.

lədən Sabit əl-Bənani, İbn Həcər əl-Heytəmi və başqaları İmam Baqirdən *(ə)* hədis gətirərək ayəni "Əhli-Beytin *(ə)* vilayətinə tərəf hidayət edər" kimi təfsir edirlər.[299] Göründüyü kimi, ayədə Allah insanların hidayət olunmasını Əhli-Beytin *(ə)*, o cümlədən İmam Hüseynin *(ə)* vilayət və imamətini tanımaqda görür. Bunu təsdiq edən digər görkəmli alim Deyləmi Peyğəmbərdən *(s)* belə bir hədis nəql edir:

***"Mənim qızım ona görə Fatimə adlandırılıb ki, həqiqətən, Allah onu və onu sevənləri Cəhənnəmdən qoruyacaqdır"***.

Əhməd ibn Hənbəl də buna işarə edən Peyğəmbərin *(s)* aşağıdakı hədisini nəql edir:

***"Hər kəs məni, Həsən və Hüseyni, həmçinin onların ata-anasını sevərsə, Qiyamət günü mənimlə bir dərəcədə olacaqlar".***[300]

Bu ayələrdən belə məlum olur ki, İmam Hüseynin *(ə)* məqamı Allah yanında ən ali məqamdır. Onun Allah yanında ən sevimli bəndə olduğunu təsdiq edən bu və digər ayələr onu göstərir ki, İmama *(ə)* qarşı çıxmaq, onun vilayət və imamətini tanımamaq, onu düşmənləri ilə bir cərgədə tutmaq yolverilməz haldır və hər kəs buna görə Allah qarşısında cavabdehdir. İmamın *(ə)* fəzilətlərinə dair və ümumiyyətlə onun haqqında digər ayələr də vardır. Bu haqda Əllamə Şərafəddin əl-Amili deyir:

"Quranda Əhli-Beytə *(ə)* aid təxminən 300 ayə vardır".

Bu isə təxminən Quranın üçdə birini təşkil edir.[301]

---

[299] "əs-Səvaiqul-muhriqə", s. 235.

[300] İbn Həcər əl-Heytəmi, "əs-Səvaiqul-muhriqə", s. 235.

[301] Bax: İbrahim Quliyev, "Hədisi-şəriflərdə müqəddəs şəhərlər", s. 288-297.

## 3. 3. İMAM HÜSEYNİN *(ə)* HƏDİSİ-ŞƏRİFLƏRDƏKİ FƏZİLƏTLƏRİ

Müslüm ibn Həccac ən-Nişapuri səhih bir sənədlə belə rəvayət edir:

"Mubahilə" ayəsi nazil olduqda Peyğəmbər *(s)* Əli *(ə)*, Fatimə *(ə)*, Həsən *(ə)* və Hüseyni *(ə)* çağırıb buyurdu:

***"Allahım! Bunlar mənim Əhli-Beytimdir"***.[302]

İmam Hüseynə *(ə)* aid hədislərdən biri "Ulduz" hədisidir. Peyğəmbər *(s)* buyurur:

***"Ulduzlar Yer əhlini batmaqdan qoruyur, Əhli-Beytim isə ümmətimi ixtilafa düşdükləri məsələlərdən qoruyar. Ərəb qəbilələrindən biri onlarla müxalifətçilik etsə, ixtilafa düşərlər və bununla da Şeytanın dəstəsindən olarlar"***.[303]

Əllamə Məclisi "Təfsiri-Əyyaşi" əsərinə istinadən nəql edir:

**تفسير العياشي :عن مسعدة قال :مر الحسين بن علي عليهما السلام بمساكين قد بسطوا كساء لهم وألقوا عليه كسرا فقالوا :هلم يا ابن رسول الله !فثنى وركه فأكل معهم ثم تلا " إن الله لا يحب المستكبرين " ثم قال :قد أجبتكم فأجيبوني، قالوا :نعم يا ابن رسول الله، فقاموا معه حتى أتوا منزله، فقال للجارية :أخرجي ما كنت تدخري.**

"Bir gün İmam Hüseyn *(ə)* süfrə açmış bir dəstə yoxsul fəqirə rast gəldi. Onlar dedilər:

"Ey Peyğəmbər övladı, buyurun, biz fəqirlərlə bir süfrə başında əyləşin!"

İmam Hüseyn *(ə)* buyurdu:

***"Allah lovğaları sevmir. Mən sizin dəvəti qəbul etdim, siz də mənim dəvətimi qəbul edin"***.

Dedilər:

"Məmnuniyyətlə, ey Peyğəmbər balası!"

---

[302] "Səhihi-Müslim", cild VII, səh. 130.

[303] Hakim Nişapuri, "Mustədrək alə Səhiheyn", cild III, səh.149.

Sonra İmam Hüseynlə *(ə)* birgə onun mənzilinə gəldilər. İmam *(ə)* ev əhlinə buyurdu:

***"Evdə nə varsa, qonaqlar üçün gətirin"***.[304]

Əmr ibn Dinar rəvayət edir:

**عمرو بن دينار قال :دخل الحسين عليه السلام على أسامة بن زيد وهو مريض، وهو يقول :واغماه، فقال له الحسين عليه السلام :واما غمك يا أخي؟ قال :ديني وهو ستون ألف درهم فقال الحسين :هو علي قال :إني أخشى أن أموت، فقال الحسين لن تموت حتى أقضيها عنك، قال :فقضاها قبل موته.**

"Həzrət Hüseyn *(ə)* Üsamə ibn Zeydin (xəstəliklə bağlı) görüşünə getdi. Üsamə İmamı *(ə)* görən kimi dedi:

"Ah, bu qəm-qüssə əlindən!"

İmam *(ə)* buyurdu:

***"Qardaşım, nə üçün qəmlisən?"***

Üsamə dedi:

"Altmış min dirhəmlik ağır bir borc var öhdəmdə".

İmam *(ə)* buyurdu:

***"Nigaran olma, mən ödəyərəm"***.

Üsamə dedi:

"Qorxuram əcəlim möhlət verməyə".

İmam *(ə)* buyurdu:

***"Arxayın ol, nə qədər ki, dirisən borcunu verəcəyəm"***.

Ravi deyir:

"Hüseyn *(ə)* Üsamənin ölümündən qabaq bütün borclarını ödədi".[305]

**وفد أعرابي المدينة فسأل عن أكرم الناس بها، فدل على الحسين عليه السلام فدخل المسجد فوجده مصليا فوقف بإزائه وأنشأ:لم يخب الآن من رجاك ومن حرك من دون بابك الحلقه أنت جواد وأنت معتمد * أبوك قد كان قاتل الفسقة لولا الذي كان من أوائلكم كانت علينا الجحيم منطبقه قال :فسلم الحسين وقال :يا قنبر هل بقي من مال الحجاز شئ؟ قال :نعم أربعة آلاف دينار، فقال :هاتها قد جاء من هو أحق بها منا، ثم نزع برديه ولف الدنانير فيها وأخرج يده من شق الباب حياء من الأعرابي وأنشأ:خذها فاني إليك معتذر * واعلم بأني عليك ذو شفقه لو كان في سيرنا الغداة عصا أمست سمانا**

---

[304] Əllamə Məclisi, "Biharul-ənvar", c. 44, s. 189.

[305] Həmin mənbə.

عليك منه فقه لكن ريب الزمان ذو غير * والكف مني قليلة النفقة قال :فأخذها الأعرابي وبكى فقال له :لعلك استقللت ما أعطيناك، قال:لا، ولكن كيف يأكل التراب جودك، وهو المروي عن الحسن بن علي عليهما السلام.

Ərəb köçərilərindən biri Mədinəyə gəldi. Səxavətlə, kəramətlə ən yaxşı adamı soraqladı. Dedilər:

"Axtardığın Həzrət Hüseyndir *(ə)*".

Ərəb məscidə daxil olub gördü ki, Həzrət *(ə)* namaz qılır. İmamın *(ə)* yanına gələrək, şeirlə ehtiyacını dilə gətirdi. İmam Hüseyn *(ə)* evə gəlib Qənbərə buyurdu:

***"Hicaz malından bir şey qalıbmı?"***

Qənbər dedi:

"Bəli, qırx min dinar".

İmam *(ə)* buyurdu:

***"Hamısını gətir, bizdən daha layiqli biri var, pula möhtacdır"***.

Hüseyn *(ə)* evin qapısını yarımçıq aralayıb pulları ərəbə verdi. Şübhəsiz, İmamın *(ə)* belə etməkdən məqsədi bu idi ki, ərəblə göz-gözə gəlməsin və o, xəcalət çəkməsin. Ərəb pulları götürüb ağlaya-ağlaya dedi:

"Məgər az bağışlamısan ki, belə edirsən? İlahi, bu bərəkətli və səxavətli əllər necə torpağa gömüləcək?!"[306]

İmam Səccad *(ə)* buyurur:

***"Atam Həzrət Hüseyndən eşitmişəm ki, buyurub:***

***"Əgər kimsə məni təhqir edib sonradan üzr istəsə, onun üzrünü qəbul edər, bağışlayaram. Çünki Əli ibn Əbu Talib mənə babam Peyğəmbərin bu sözlərini çatdırmışdır:***

***"Üzr istəyənin üzrünü qəbul etməyən kəs Kövsər hovuzundan su içməz"***.

İmam Hüseyn *(ə)* yoxsullar və əlsiz-ayaqsızlarla birgə oturaraq buyurardı:

***"Allah lovğa və özünü çəkən insanları sevmir"***.

Bir gün Həzrət Hüseyn *(ə)* yavan çörək yeyən bir dəstə uşaqla rastlaşdı. Uşaqlar İmamdan *(ə)* xahiş etdilər ki, onlarla

---

306 Həmin mənbə, c. 44, s. 190.

birgə nahar etsin. İmam Hüseyn *(ə)* son dərəcə mehribanlıq və səmimiyyət göstərərək uşaqların xahişini qəbul edib süfrə başına əyləşdi. Sonra o Həzrət *(ə)* uşaqları öz evinə apardı, yedizdirəndən və geyindirəndən sonra buyurdu:

***“Bu uşaqlar məndən daha səxavətlidirlər, çünki nələri vardısa mənə bağışladılar. Mən isə onlara malımın bir hissəsini bağışladım”***.

**وحنى غلام له جناية توجب العقاب عليه فأمر به أن يضرب، فقال :يا مولاي " والكاظمين الغيظ " قال :خلوا عنه، فقال :يا مولاي " والعافين عن الناس " قال:قد عفوت عنك، قال :يا مولاي " والله يحب المحسنين" قال :أنت حر لوجه الله، ولك ضعف ما كنت أعطيك.**

İmam Hüseynin *(ə)* xidmətçilərindən biri günah işlətmişdi. O, tənbeh olunmalı idi. İmam *(ə)* cəzalandırılmasını rədd etdi. Xidmətçi dedi:

“Ey mənim ağam, Allah-taala buyurur:

***“O mütləqdir ki, bolluqda da, qıtlıqda da (malları yoxsullara) xərcləyər, qəzəblərini udarlar”***.

Həzrət Hüseyn *(ə)* buyurdu:

***“Onu bağışlayın, qəzəbimi uddum”***.

Xidmətçi dedi:

***“İnsanların günahlarından keçərlər. Allah yaxşılıq edənləri sevər”***.

İmam *(ə)* buyurdu:

***“Səni Allaha xatir azad etdim”***.

Sonra göstəriş verdi ki, ona layiqli ənam versinlər.[307]

Hürr ibn Yezid Riyahi Kərbəlada min nəfər döyüşçü ilə İmam Hüseynin *(ə)* qoşununa yaxınlaşdı. O, qızmar havada İmam *(ə)* və səhabəsinin yolunu kəsib mane oldu. Hüseyn *(ə)* və silahdaşları da qılınc çəkib onların qarşısında dayandılar. Bu vaxt İmam *(ə)* gördü ki, düşmən qoşunu susuzluqdan çox əzab çəkir. Dərhal ətrafındakı gənclərə buyurdu:

***“Adamlara və miniklərə doyunca su verin”***.

---

[307] Həmin mənbə, c. 44, s. 191.

İmamın *(ə)* göstərişi ilə Hürrün qoşununa və miniklərə su verdilər. Əli ibn Məharibi deyir:

"Mən Hürrün qoşunundan ora axırıncı yetişən şəxs idim. Susuzluq məni və dəvəmi taqətdən salmışdı. Həzrət Hüseyn *(ə)* mənim və dəvəmin nə qədər susuz olduğunu görüb buyurdu ki, dəvəmi yatırım. Əvvəlcə dəvəni suvardım. İmam Hüseyn *(ə)* mübarək əli ilə su məşkini tutub mənə içirdi".

**أن أعرابيا جاء إلى الحسين بن علي عليهما السلام فقال :يا ابن رسول الله قد ضمنت دية كاملة**

**وعجزت عن أدائه، فقلت في نفسي :أسأل أكرم الناس، وما رأيت أكرم من أهل بيت رسول الله صلى الله عليه وآله.**

**فقال الحسين :يا أخا العرب أسألك عن ثلاث مسائل، فان أجبت عن واحدة أعطيتك ثلث المال، وإن أجبت عن اثنتين أعطيتك ثلثي المال، وإن أجبت عن الكل أعطيتك الكل.**

**فقال الأعرابي :يا ابن رسول الله أمثلك يسأل عن مثلي وأنت من أهل العلم والشرف؟ فقال الحسين عليه السلام :بلى سمعت جدي رسول الله صلى الله عليه وآله يقول المعروف بقدر المعرفة، فقال الأعرابي :سل عما بدا لك، فان أجبت وإلا تعلمت منك، ولا قوة إلا بالله.**

**فقال الحسين عليه السلام :أي الأعمال أفضل؟ فقال الأعرابي :الإيمان بالله،**

**فقال الحسين عليه السلام :فما النجاة من المهلكة؟**

**فقال الأعرابي :الثقة بالله،**

**فقال الحسين عليه السلام :فما يزين الرجل؟**

**فقال الأعرابي :علم معه حلم،**

**فقال :فإن أخطأهذلك؟**

**فقال :مال معه مروءة،**

**فقال :فإن أخطأه ذلك؟**

**فقال :فقر معه صبر،**

**فقال الحسين عليه السلام :فان أخطأه ذلك؟**

**فقال الأعرابي :فصاعقة تنزل من السماء وتحرقه فإنه أهل لذلك.**

**فضحك الحسين عليه السلام ورمى بصرة إليه فيه ألف دينار، وأعطاه خاتمه، وفيه فص قيمته مائتا درهم وقال :يا أعرابي أعط الذهب إلى غرمائك، واصرف الخاتم. في نفقتك، فأخذالأعرابي وقال " :الله أعلم حيث يجعل رسالاته."**

Bir kişi İmam Hüseynin *(ə)* hüzuruna gəlib salam verdi. Dərdini açıb söylədi:

"Hüseyncan *(ə)*, alicənab babanın belə buyurduğunu eşitmişdim:

***"Ehtiyacın olsa dörd şəxsdən istə: şərəfli ərəbdən, kəramətli mövladan, Quran hafizindən, xoşsifət insandan"***.

Baban Rəsulullahın *(s)* şərəfilə şərəflənibsiniz, kəramət rəftarınızda və vücudunuzdadır. Quran sizin evə nazil olub, gülərüzlük də sənə məxsusdur. Rəsulullah *(s)* buyurub:

***"Nə vaxt çöhrəmi görmək arzusunda olsanız Həsən və Hüseynin çöhrəsinə baxın"***.

İmam Hüseyn *(ə)* kişini dinlədikdən sonra buyurdu:

***"İstədiyini de"***.

Kişi istədiyini barmağı ilə torpaq üstdə yazdı.

İmam *(ə)* buyurdu:

***"Atam Əlidən eşitmişəm:***

***"Hər kəsin qiymətli saydığı şey dəyəri qədərdir".***

***Babam Peyğəmbər buyurub:***

***"Hər kəsin dərrakəsi və mərifəti qədər ona yaxşılıq və məhəbbət olunmalıdır".***

***Sənə üç sualım var. Düzgün cavabların hər birinə mal-dövlətimin üçdə bir hissəsini verəcəyəm. Əgər hamısına düz cavab versən bütün var-dövlətimi bağışlayacağam"***.

Kişi dedi:

"Soruşun, bilsəm cavab verərəm, bilməsəm sizdən öyrənərəm. Axı siz elm və şərəf sahibisiniz".

İmam Hüseyn *(ə)* buyurdu:

***"Ən yaxşı iş hansıdır?"***

Kişi dedi:

"Allaha inanmaq və Peyğəmbəri *(s)* təsdiq etmək".

İmam *(ə)* buyurdu:

***"Bəndəni məhvdən xilas edən yol hansıdır?"***

Kişi dedi:

"Allaha arxalanmaq, Ona təvəkkül etmək".

Həzrət Hüseyn *(ə)* buyurdu:

***"İnsanın bəzəyi nədir?"***

Kişi dedi:

"Həlimlik (helm) ilə yanaşı, birgə olan bilik (elm)".

İmam Hüseyn *(ə)* buyurdu:

***"Əgər elmi olmasa necə?"***

Kişi dedi:

***"Kəramət və səxavətlə birgə sərvət"***.

İmam *(ə)* buyurdu:

***"Əgər sərvəti olmasa necə?"***

Kişi dedi:

"Səbir ilə birgə olan yoxsulluq".

İmam Hüseyn *(ə)* buyurdu:

***"Əgər səbri və dözümü olmasa necə?"***

Kişi dedi:

"Göydən od gəlib onu yandırar".

İmam Hüseyn *(ə)* güldü və içində min qızıl dinar olan pul kisəsini ona bağışladı. Sonra iki dirhəm dəyərində üzüyünü də verib buyurdu:

***"Min qızıl dinarla borcunu ödə, üzüyü də ailənə sərf et"***.

Kişi İmam Hüseynin *(ə)* bəxşişlərini alıb dedi:

"Allah risalətini kimə tapşırdığını yaxşı bilir".[308]

Aşura günü İmam Hüseynin *(ə)* çiynində iz görüb İmam Səccaddan *(ə)* soruşdular:

"Həzrətin *(ə)* çiynindəki bu iz nədir?"

İmam Səccad *(ə)* buyurdu:

***"Bu, atam Hüseynin dul qadınlara, yetimlərə, əlsiz-ayaqsızlara ərzaq daşıdığı qabın izidir"***.

Əbdürrəhim Silmi İmam Hüseynin *(ə)* övladına mübarək "Həmd-surə"ni öyrətdi. Həzrətin *(ə)* övladı surəni atası üçün oxuduqda İmam *(ə)* müəllimə min libas və min dinar pul bağışladı, üstəlik, müəllimin ovcunu dürr ilə doldurdu. Silmi dedi:

"Niyə bu qədər hörmət edirsiniz?"

---

[308] Əllamə Məclisi, "Biharul-ənvar", c. 44, s. 203.

O Həzrət *(ə)* buyurdu:

***“Bu hədiyyələr onun tədrisinin əvəzini necə ödəyə bilər?”***

Üsam ibn Müstələq Şami deyir:

“Mədinəyə gələndə Hüseyn ibn Əlinin *(ə)* gözəl çöhrəsini gördüm. Onun məsum görkəmi, şövkət və cah-calalı məndə paxıllıq hissi oyatdı. Atasına qarşı qəlbimdə olan nifrət və düşmənçiliyi aşkarlamaq istədiyim üçün yaxınlaşıb nifrətlə dedim:

“Ey Əbu Turabın oğlu?!”

İmam *(ə)* buyurdu:

***“Bəli”***.

Bacardığım qədər o Həzrətin *(ə)* atasına təhqiramiz sözlər söylədim. İmam *(ə)* isə mehriban və mülayim tərzdə mənə buyurdu:

***“Qovulmuş Şeytandan Allaha pənah aparıram. Rəhman və Rəhim Allahın adı ilə başlayıram. Bağışlamaq yolunu tut, yaxşılığa əmr et və nadanlardan uzaq ol!”***

Sonra Həzrət *(ə)* buyurdu:

***“Mənimlə mülayim və sakitcəsinə rəftar et ki, həm özünün, həm də mənim işimi asanlaşdırasan. Allah-taaladan əfv dilə, bizdən kömək istəyirsənsə, əsirgəmərik. Başqa bir şeyə ehtiyacın varsa, istədiyini verərik. Nəsihətə və düz yolu tanımağa ehtiyacın varsa, doğru yolu göstərərik”***.

Mən yanlış və təhqiramiz sözlərimə görə peşman oldum. Həzrət *(ə)* bu peşmançılığımı duydu və buyurdu:

***“Yusifin xatakar qardaşlarına dediyi sözü mən də deyirəm:***

***“Bu gün sizə məzəmmət və danlaq yoxdur. Allah bağışlasın sizi, O, rəhm edənlərin ən yaxşısıdır”***.

O qədər təhqir və ədəbsizliyimin qarşısında Həzrətin *(ə)* belə gözəl rəftarı mənə elə təsir etdi ki, utandığımdan lap yerə girmək istədim. Çarəsiz qalıb Həzrətin *(ə)* məclisini tərk etdim.

Bu hadisədən sonra mənim üçün Həzrət Hüseyn *(ə)* və atası Əli ibn Əbu Talibdən *(ə)* sevimli və əziz adam yox idi”.

Peyğəmbər *(s)* Həsən *(ə)* və Hüseynə *(ə)* baxıb belə dua etmişdir:[309]

***“Allahım! Mən bunları sevirəm. Sən də bunları sev!”***

---

[309] İslam Tarihi Ansiklopedisi, c. V, s. 221.

Bundan başqa, Rəsulullah *(s)* buyurmuşdur:

***"Həsən və Hüseyn dünyada qoxuladığım iki reyhanımdır!"***;

***"Həsən və Hüseyni sevən məni sevmiş, onlara kin tutan isə mənə kin tutmuş olur!"***;

***"Həsən və Hüseyn Cənnət gənclərinin iki seyididir!"***

Allahın Rəsulu *(s)* bir gün səhabələri ilə dəvət edildiyi bir yerə gedirdi. O əsnada balaca Hüseyn *(ə)* də küçədə uşaqlarla oynayırdı. Peyğəmbər *(s)* səhabələrindən ayrılaraq irəlilədi və Hüseyni *(ə)* tutmaq istədi. Balaca Hüseyn *(ə)* isə sevinclə ora-bura qaçır, Rəsulullah *(s)* da gülərək onu tutmağa çalışırdı və nəhayət, tutdu. Peyğəmbər *(s)* bir əlini Hüseynin *(ə)* başının arxasına, digər əlini də çənəsinin altına qoyub onu öpdü və belə buyurdu:

***"Hüseyn məndəndir, mən də Hüseyndənəm. Allahı sevən Hüseyni sevər. Hüseyn, nəvələrdən bir nəvədir..."***[310]

Bir gün Xanım Fatimənin *(ə)* evinin önündən keçərkən kiçik Hüseynin *(ə)* ağladığını eşidən Peyğəmbərin *(s)* o Xanıma *(ə)* belə buyurduğu rəvayət edilir:[311]

***"Bilmirsənmi ki, onun ağlamağı məni incidir?"***

Həzrət Peyğəmbər *(s)* bir hədisində buyurmuşdur:

***"Hüseyn məndəndir, mən də Hüseyndənəm. Hüseyni sevəni, Allah da sevər"***.

Bu sözü söyləyənin öz nəfsinə görə söz söyləmədiyi, sözünün vəhyə uyğun olduğu və Qurani-Kərimə istinad etdiyi bildirilir, necə ki, müqəddəs Kitabda belə buyurulmuşdur:

***"O, arzusuna görə söz söyləməz. Onun sözü özünə vəhy olunandan başqa bir şey deyildir"***.[312]

Yenə bu sözü söyləyən, iki cahan sərvəri, peyğəmbərlərin *(ə)* sonuncusu və adı Allahın adından sonra anılan, aləmlərə rəhmət olaraq göndərilən Həzrət Muhəmməd əl-Mustafadır *(s)*.[313]

---

[310] Asim Köksal, "İslam Tarixi", s. 29-31.
[311] www.ziyababa.org.tr.
[312] "ən-Nəcm", 3-4.
[313] www.ziyababa.org.tr.

Həzrət Muhəmməd *(s)* digər bir hədisində buyurmuşdur:

***“Mən bir ağaca bənzəyirəm. Fatimə bu ağacın kökü, Əli gövdəsi, Həsən və Hüseyn isə meyvəsidir”.***[314]

Peyğəmbərin *(s)* zövcəsi Ümmü Sələmədən rəvayət edildiyinə görə, Rəsulullah *(s)* bir gün yanı üzərinə yatdı. Sonra qayğılı və kədərli olaraq oyandı. Sonra yatdı. Yenə qayğılı və kədərli olaraq oyandı. Yenə yatdı. Bu dəfə oyandığında ovucunda qırmızı torpaq var idi və onu öpürdü. Ümmü Fəzl - “Nədir bu?” deyə soruşduqda Peyğəmbər *(s)* buyurdu:

***“Cəbrail oğlum Hüseynin İraq torpağında öldürüləcəyini mənə xəbər verdi. Bu da oranın torpağıdır!”***

İmam Hüseynin *(ə)* şəhid ediləcəyi yerdən Cəbrailin *(ə)* gətirdiyi torpağın Kərbəla torpağı olduğu, Peyğəmbərimizin *(s)* bu yeri – ***“Kərbu-bəla”*** (qəm-kədər) deyə adlandırdığı da rəvayət edilir. Peyğəmbər *(s)* Ümmü Sələməyə torpağı verərkən buyurdu:

***“Bu torpaq qan halına gəlincə Hüseyn şəhid ediləcək!”***

Ümmü Sələmə torpağı bir çanağın içində yanında saxladı və Həzrət Hüseynin *(ə)* şəhid edildiyi gün onun qan halına gəldiyini gördü.

İmam Hüseynin *(ə)* doğulması və qətl ediləcəyi İlahi vəhy əsasında Peyğəmbərə *(s)* bildirilmişdir. Böyük hədis alimi Kuleyni İmam Sadiqdən *(ə)* nəql edir:

**روى الأوزاعي، عن عبد الله بن شداد، عن أم الفضل بنت الحارث أنها دخلت على رسول الله صلى الله عليه وآله فقالت :يا رسول الله رأيت الليلة حلما منكرا قال :وما هو؟ قالت :إنه شديد، قال :وما هو؟ قالت :رأيت كأن قطعة من جسدك قد قطعت ووضعت في حجري فقال رسول الله :خيرا رأيت تلد فاطمة غلاما فيكون في حجرك.**

**فولدت فاطمة عليها السلام الحسين عليه السلام قالت :وكان في حجري كما قال رسول الله فدخلت به يوما على النبي فوضعته في حجر رسول الله صلى الله عليه وآله ثم حانت مني التفاتة، فإذا عينا رسول الله تهرقان بالدموع، فقلت :بأبي أنت وأمي يا رسول الله مالك؟ قال :أتاني جبرئيل فأخبرني أن أمتي يقتل ابني هذا وأتاني بتربة .حمراء من تربته.**

---

314 İslam Tarihi Ansiklopedisi, c. V, s. 221.

“Fatimə *(ə)* Hüseynə *(ə)* hamilə olduqda Cəbrail *(ə)* Peyğəmbərə *(s)* nazil olub dedi:

“Fatimə bir oğlan döğacaqdır ki, onu səndən sonra sənin ümmətin öldürəcəkdir...”

Bu hədisi Əllamə Məclisi də “Biharul-ənvar” əsərində rəvayət etmişdir.[315]

Digər bir hədisdə isə deyilir:

“Cəbrail *(ə)* Muhəmmədə *(s)* nazil olub dedi:

“Ya Muhəmməd! Allah səni Fatimənin dünyaya gətirəcəyi bir oğlan övladı ilə müjdələyir, lakin ümmətin səndən sonra onu öldürəcəkdir”.

Peyğəmbər *(s)* buyurdu:

***“Ya Cəbrail! Rəbbimə salam de. Fatimənin dünyaya gətirəcəyi və məndən sonra ümmətimin öldürəcəyi belə uşağa ehtiyacım yoxdur”***.

Cəbrail *(ə)* qalxdı, bir azdan nazil olaraq həmin xəbəri təkrar dedi. Peyğəmbər *(s)* əvvəl dediyi cavabı yenə təkrarladı. Cəbrail *(ə)* bu dəfə də qalxıb bir azdan yenidən gəldi və dedi:

“Ya Muhəmməd! Rəbbin sənə salam deyir və salamdan sonra səni belə müjdələyir:

***“O uşaq sənin zürriyyətin içərisində İmam, Vəli və Vəsi olacaqdır”***.

Peyğəmbər *(s)* buyurdu:

***“İndi razı oldum”***.

Sonra Allahın Rəsulu *(s)* Fatimənin *(ə)* evinə sifariş yollayıb buyurdu:

***“Allah məni dünyaya gətirəcəyin bir oğlanla müjdələdi. Lakin məndən sonra onu ümmətim öldürəcəkdir”***.

Cavabında Fatimə *(ə)* də Peyğəmbərə *(s)* sifariş yollayaraq buyurdu:

***“Mənim dünyaya gətirəcəyim və səndən sonra da öldürüləcək belə uşağa ehtiyacım yoxdur!”***

---

[315] Əllamə Məclisi, “Biharul-ənvar”, c. 44, s. 236, Yəqub əl-Kuleyni, “əl-Kafi”, c. I, s. 280, hədis № 1263.

Bu dəfə Peyğəmbər *(s)* Xanım Fatiməyə *(ə)* sifariş yollayıb belə buyurdu:

***"Allah onu İmam, Vəli və Vəsi edəcəkdir"***.

Bundan sonra Fatimə *(ə)* buna razı oldu. Allah bu ayəni nazil etdi:

***"Biz insana ata-anasına yaxşılıq etməyi tövsiyə etdik. Çünki anası onu zəhmətlə gəzdirmiş, əziyyətlə doğmuşdur. Onun daşınma və süddən kəsilmə müddəti otuz aydır. Nəhayət, kamillik həddinə yetişib qırx yaşa çatdıqda belə deyər: Pərvərdigara! Mənə mənim özümə və ata-anama əta etdiyin nemətə şükr etmək və Sənə xoş gedəcək yaxşı əməl etmək üçün ilham ver, nəslimi əməli-saleh et. Mən Sənə tövbə etdim. Şübhəsiz ki, mən müsəlmanlardanam"***.[316]

İmam Sadiq *(ə)* buyurur:

***"Onun "mənim zürriyyətimi də salehlərdən et" deməsi zürriyyətinin hamısının İmam olmasına səbəb oldu"***.

Həzrət Hüseyni *(ə)* nə Fatimə *(ə)*, nə də digər qadınlardan heç kim əmizdirməmişdir. Peyğəmbər *(s)* şəhadət barmağını onun ağzına salmış və Hüseyn *(ə)* üç gün ondan qidalanmışdır. Beləliklə də Hüseynin *(ə)* əti-qanı Peyğəmbərin *(s)* əti-qanından əmələ gəlmişdir. O, altı aylıq doğulmuşdur".[317]

Şeyx Səduq nəql edir:

"Fatimə *(ə)* Hüseyni *(ə)* dünyaya gətirdikdə Allahdan Cəbrailə *(ə)* vəhy gəldi:

***"Muhəmmədin oğlu olmuşdur. Onun yanına en, onu təbrik et və ona de ki, Əli sənə Harunun Musaya olan nisbəti kimidir. Buna görə də uşağa Harunun uşağının adını qoysun"***.

Cəbrail *(ə)* nazil olub İlahi vəhyi Peyğəmbərə *(s)* çatdırdı. Allahın Rəsulu *(s)* buyurdu:

***"Onun uşağının adı nə idi"***.

Cəbrail *(ə)* dedi:

"Onun oğlunun adı Şubeyr idi".

---

[316] "əl-Əhqaf", 15.

[317] Kuleyni, "Usuli-kafi", c. I, s. 280-281, hədis № 1264.

Peyğəmbər *(s)* buyurdu:
***“Mənim dilim ərəbdir”***.
Cəbrail *(ə)* dedi:
“Onu Hüseyn adlandır”.
Bununla da uşağı Hüseyn *(ə)* adlandırdılar”.[318]

**وروي بإسناد آخر عن أم سلمة رضي الله عنها أنها قالت :خرج رسول الله من عندنا ذات ليلة فغاب عنا طويلا، ثم جاءنا وهو أشعث أغبر، ويده مضمومة فقلت له :يا رسول الله ما لي أراك شعثا مغبرا؟ فقال :أسري بي في هذا الوقت إلى موضع من العراق يقال له كربلا فأريت فيه مصرع الحسين ابني وجماعة من ولدي وأهل بيتي فلم أزل القط دماءهم فها هو في يدي وبسطها إلي فقال :خذيها فاحفظي بها فأخذتها فإذا هي شبه تراب أحمر، فوضعته في قارورة وشددت رأسها واحتفظت بها.**

Həmçinin, Şeyx Səduq İmam Sadiqdən *(ə)* rəvayət edir:

***“Peyğəmbərin xanımı Ümmü Əymənin qonşuları Rəsulullahın yanına gəlib dedilər:***

***“Ey Allahın Rəsulu! Ümmü Əymən dünən səhərədək yatmayıb ağladı və səhərədək ağlamağı kəsmədi”. Peyğəmbər Ümmü Əymənin ardınca adam göndərib onu çağırtdırdı, gəldikdə isə buyurdu:***

***“Qonşuların yanıma gəlib sənin dünən səhərədək yatmayıb ağladığını deyirlər. Allah sənin gözlərini ağlatmasın! Nə səbəb olmuşdur ki, belə ağlamısan?”***

***Ümmü Əymən dedi:***

***“Ey Allahın Rəsulu! Yuxumda böyük bir hadisə görmüşəm. Buna görə də səhərədək ağlamışam”.***

***Peyğəmbər buyurdu:***

***“Gördüyün yuxunu Peyğəmbərə danış. Allah və Rəsulu daha yaxşı bilər”***.

***Ümmü Əymən dedi:***

***“Onu danışmaq mənə çox ağırdır”.***

***Peyğəmbər buyurdu:***

***“Yuxu gördüklərin (mütləq gerçək) demək deyildir, danış”***.

---

[318] Şeyx Səduq, “əl-Məcalis”, s. 82.

***Ümmü Əymən dedi:***

***"Mən bu gecə yuxumda gördüm ki, sənin bəzi bədən üzvlərin mənim evimdə görünür".***

***Peyğəmbər buyurdu:***

***"Gözlərin aydın olsun ey Ümmü Əymən! Fatimə Hüseyni dünyaya gətirəcək. O, bədənimin bir hissəsi olacaq və onun tərbiyəsi, təlimi sənin evində olacaqdır".***

***Bu hadisədən doqquz gün keçmiş Fatimə Hüseyni dünyaya gətirdi. Peyğəmbər onun başının qırxılmasını və Hüseynin saçının çəkisi qədər də gümüş sədəqə verilməsini, həmçinin onun üçün əqiqə qurbanlıq kəsilməsini əmr etdi. Sonra Ümmü Əymən uşağı hazırladı, bükdü və Peyğəmbərə apardı. Peyğəmbər onları görcək buyurdu:***

***"Uşaq da, sən də xoş gəlmisiz ey Ümmü Əymən! Sənin yuxunun yozumu bax budur!"***[319]

Digər bir hədisdə isə deyilir:

"Cəbrail *(ə)* Peyğəmbərə *(s)* nazil olub dedi:

"Nəvən Hüseyn bir qrup insanlar tərəfindən zürriyyətin və Əhli-Beytindən olan şəxslərlə birlikdə Fərat çayının sahilində, Kərbəla adlı bir yerdə qətlə yetiriləcəkdir. Allah onların ruhlarını Öz əli ilə alacaqdır. Göyün yeddinci təbəqəsindən əllərində yaqut və zümrüd qablar olan mələklər enəcəklər ki, o qablar həyat suyu ilə dolu olacaqdır. Mələklər Cənnət suyu və Cənnət ətiri ilə qarışdırılmış həmin sularla onların cəsədlərini yuyacaq, onlara Cənnətdən gətirilmiş parça geydirəcək və o ətirlə onlara hənut sürtəcəklər. Sonra mələklər səf-səf dayanıb onlara namaz qılacaqlar".[320]

Həmçinin, hədislərin birində İmam Sadiqdən *(ə)* nəql edilir:

***"Peyğəmbər vəfat etdikdə Cəbrail Qədr gecəsində nazil olan Ruh və digər mələklərlə endi. Əlinin gözlərindən pərdələr götürüldü ki, onları görsün. O, gördü ki, mələklər göydən Yerədək sonsuz səmadan enib Peyğəmbərə qüsl verirlər, ona namaz qılır və onun üçün qəbir hazırlayırlar. Allaha and olsun ki,***

---

[319] "əl-Məcalis", s. 51.

[320] "əl-Qumi, Nəfsul-Məhmum", s. 206; Əllamə Hairi, "Dairətul-məarif", c. XV, s. 91.

***Peyğəmbərin qəbrini onlardan başqa kimsə hazırlamamışdı və onlar Peyğəmbəri qəbrə qoyanla birlikdə qəbirə enib onu ora qoymuşdular. Onlar Əli vəfat edən zaman Əlinin dəfnində Peyğəmbərin dəfnində iştirak etdikləri kimi iştirak etdilər. Sonra Həsən vəfat etdikdə həmin mələklər Peyğəmbərin və Əlinin dəfnində iştirak etdikləri kimi iştirak etdilər. Hüseyn qətl edilərkən onun da dəfnində həmin mələklər İmam Zeynülabidinə eyni cür göründülər".***[321]

Məşhur İslam alimi Əhməd ibn Hənbəl rəvayət edir:

"Əli *(ə)* Siffeyn döyüşünə gedərkən Kərbəla ərazisində dayandı. O, buranın hara olduğunu soruşduqda dedilər:

"Bura Neynəvadır".

Əli *(ə)* buyurdu:

***"Səbir et, ey Əba Ədillah! Səbir et, ey Əba Əbdillah!"***

Dedilər:

"Nə baş verir?"

Əli *(ə)* buyurdu:

***"Bir gün Peyğəmbərin yanına daxil oldum və onu gözü yaşlı gördüm. Soruşdum:***

***Səni kim qəzəbləndirib ki, gözlərindən belə yaş gəlir, ya Rəsulallah?"***

***Peyğəmbər buyurdu:***

***"Cəbrail mənim yanımda idi. O, mənə dedi ki, Hüseyni Fəratın sahilində öldürəcəklər. Onun türbəsindən iyləmək istəyirsənmi?"***

***Cavab verdim:***

***"Bəli".***

***Peyğəmbər əlini uzadıb o torpaqdan götürdü və mənə verdi. Buna görə gözlərim yaşardı".***[322]

Bundan başqa, digər sünni qaynaqlarında Hüseynin *(ə)* Fərat sahilində, Kərbəla çölündə şəhid ediləcəyi və Peyğəmbərin *(s)* ona ağlayıb göz yaşı tökməsi haqqında hədislər vardır.[323]

---

[321] Əllamə Hairi, "Dairətul-məarif", c. XV, s. 91-92.
[322] "Musnədi-Əhməd", c. I, s. 86, hədis № 648.
[323] Bax: İbn Əbu Şeybə, "Musənnəf", c. VII, s. 477-478, hədis № 37366.

İbn Həcər əl-Heytəmi Aişədən rəvayət edir:

"Peyğəmbər *(s)* buyurdu:

***"Cəbrail mənə xəbər verdi ki, oğlum Hüseyni məndən sonra Tif adlı çöldə qətlə yetirəcəklər. Bu torpağı mənə gətirdi və xəbər verdi ki, bu onun yatdığı yer olacaqdır".***[324]

Peyğəmbərin *(s)* bu xüsusdakı xəbəri vəfatından əlli il sonra, Hicrətin altmış birinci ilində Kərbəlada cərəyan edən faciə ilə gerçəkləşmişdir.[325]

Məşhur bir hədisdə isə Peyğəmbərin *(s)* xanımı Ümmü Sələmə deyir:

"Peyğəmbər *(s)* bir gecə evdən çıxdı və uzun müddət gözümüzə görünmədi. Sonra gəldi və bizə buyurdu:

***"Mən bu vaxt ərzində İraq ərazisində bir yerə aparıldım ki, o yerə Kərbəla deyirlər. Mən orada Hüseynin yıxılıb şəhid edildiyi və qanının töküldüyü yeri gördüm. Əlimdəki bu torpaq oradandır, bunu yaxşı qoru. Bu torpaq nə vaxt qana dönsə, bil ki, onun şəhadət günüdür".***

Mən o torpağı götürdüm. Vaxt gəldi Hüseyn *(ə)* İraqa yola düşdü. Mən həmin torpağı hər gün götürür, baxır, onu iyləyir və ağlayırdım. Elə ki, Məhərrəmin onuncu günü oldu, günortanın əvvəlində o torpaq olduğu kimi idi. Lakin günortanın axırında ona baxdıqda onun rəngi qırmızıya dönmüşdü. Bundan sonra mənim evimdə ağlamaq və qışqırıq səsi yüksəldi. Bu zaman evin ətrafından səslər eşidilirdi. Həmin səslər belə bir novhə deyirdi:

*"İsbiru Alir-Rəsul,*
*Qətlu fərxun-Nəhul.*
*Nəzələ Ruhul-Əmin,*
*Bibukai və avil".*[326]

---

[324] "əs-Səvaiqul-muhriqə", səh. 292.
[325] Əllamə Məclisi, "Biharul-ənvar", c. 44, s. 199.
[326] Əllamə Hairi, "Dairətul-məarif", c. XV, s. 70-71; İbn Əbu Asim, "əl-Ahad vəl-Məsani", birinci nəşri, ər-Riyaz-1411/1991, c. I, s. 308, hədis № 425.

Rəsulu-Əkrəmin *(s)* nəvəsi, Həzrət Əli *(ə)* ilə Xanım Fatimənin *(ə)* övladı olması və daha çox İslam tarixinin ən əhəmiyyətli hadisələrindən biri sayılan Kərbəlada şəhid edilməsi səbəbi ilə İmam Hüseyn *(ə)* haqqında geniş bir ədəbiyyat meydana gəlmişdir. Bu mövzuda hədis külliyyatı, İslam tarixi qaynaqları və bioqrafik əsərlərdə olan zəngin məlumatlarla yanaşı, bir çox monoqrafik əsərlər də vardır.

Hədis külliyyatından "Səhihi-Buxari", "Səhihi-Müslim", "Sünəni-Tirmizi", "Sünəni-İbn Macə"də, eləcə də Kuleyninin "Usuli-kafi", Şeyx Səduqun "əl-Məcalis", Əllamə Məclisinin "Biharul-ənvar" kimi əsərlərinin müxtəlif hissələrində, özəlliklə səhabənin fəzilətləri ilə əlaqədar qismlərində İmam Hüseyn *(ə)* haqqında bir çox hədis yer almışdır. Adıçəkilən əsərlərdə "Həsən *(ə)* və Hüseynin *(ə)* Fəzilətləri" başlıqlı müstəqil bir bab açılmış, burada Peyğəmbərin *(s)* və Əhli-Beyt İmamlarının *(ə)* yalnız biri, yaxud hər ikisi üçün söylənən təriflər yazılmışdır.

Tirmizinin "Sünən"ində, həmçinin digər bəzi əsərlərdəki "Mənaqibul-Həsən vəl-Huseyn" və "Mənaqibu Əhli-Beytin-nəbi" bablarında iyirmidən çox hədis nəql edilməkdədir.[327] Əbu Davud, Nəsasi, İbn Macə və Dariminin "Sünən" əsərləri ilə Malikin "əl-Muvatta" əsərinin müxtəlif bölümlərində də çox sayda hədis vardır. Əhməd ibn Hənbəl "əl-Musnəd"ində İmam Hüseyndən *(ə)* əlliyə yaxın hədis rəvayət etmişdir.[328]

İmam Hüseyn *(ə)* Kərbəla hadisəsi ilə dünya tarixinin ən böyük və üstün qəhrəmanı oldu. İmamın *(ə)* zalım və mənfur hakimiyyətə qarşı vuruşu əslində atası Həzrət Əlidən *(ə)* aldığı təlim-tərbiyə əsasında olmuş, atası zülm və istibdada qarşı vuruşduğundan İmam Hüseyn *(ə)* də bu yolu getmişdir. Buna görədir ki, Kərbəla hadisəsi Peyğəmbər *(s)* nəvəsi ilə fasiq Yezidin, hidayət ilə fiskin, ədalət ilə zülmün, xilafət ilə səltənətin, sadiqlər ilə yolundan dönənlərin, qəhrəmanlar ilə qorxaqların, İslam fədailəri ilə dinini dünyasına dəyişənlərin döyüşüdür.

---

[327] "Sünəni-Tirmizi", Mənaqib, 31-32.

[328] "Musnədi-Əhməd", c. I, s. 203, 242, c. II, s. 85, 93, c. III, s. 62, 261.

Kərbəla hadisəsi İmam Hüseynin *(ə)* buyurduğu – ***"Zillət bizdən uzaqdır!"*** mübarək kəlamın isbat edildiyi ər meydanıdır. Buna görə də bu gün bizlər – Əhli-Beytin *(ə)* sadiq tərəfdarları Kərbəla faciəsindən çoxlu dərs və mesajlar almışıq. Bunların ən əhəmiyyətlisi isə Peyğəmbər *(s)* nəvəsinin bir neçə mübarək insanla birlikdə Allahın hökmlərini yüksəklərə qaldıran, müsəlmanları hiylə yolu ilə, güc istifadə edərək qorxudub məhv edən şəhvət azğını və şərabxor Yezidin minlərlə döyüşçüdən ibarət insafsız, zalım ordusuna qarşı qiyam etməsidir. İmam Hüseyn *(ə)* bu rəftarı ilə haqqın fasiq və azğınlıq qarşısındakı dayanıqlılıq və dik duruşunu təmsil etmiş, qiyamətə qədər zalımlara qarşı mübarizənin məşəlini yandıraraq – ***"Zillət altında yaşamaqdansa, izzətli bir şəkildə Allah yolunda ölməyi"*** bütün nəsillərə dərs olaraq vermişdir.

Tarixə Kərbəla hadisəsi kimi keçən bu hadisə İslam aləmində tərəfləri dəqiqləşdirmişdi. İmam Hüseyn *(ə)* yalnız həyatı ilə deyil, şəhidliyi ilə də bütün insanlığa bir mesaj vermişdir. İmam Hüseyn *(ə)* bir simvoldur, igidliyin, fədakarlığın, məzlum olmanın simvolu. İmam Hüseyn *(ə)* verdiyi mesajda sonu nə olursa-olsun, hec vaxt, amma heç vaxt Yezidə, bu səbəbdən zalıma və onun zülmünə boyun əyməyəcəyini bütün dünyaya şəhidliyi ilə sübut etmişdir. İnsanlıq var olduqca İmam Hüseyn *(ə)* də var olacaqdır.

IV FƏSİL

# KƏRBƏLA FACİƏSİ

# 4. 1. KƏRBƏLA FACİƏSİNİ DOĞURAN SƏBƏBLƏR

Kərbəla faciəsinin bir çox dini, ictimai və siyasi səbəbləri olmuşdur. Bu haqda İslam alimləri aşağıdakı qeyd edəcəyimiz bəzi səbəbləri sadalayırlar. Bundan əlavə, İmamın *(ə)* inqilabı barədə bir sıra suallar vardır ki, o Həzrətin *(ə)* inqilabının səbəblərinin aydın olması məhz o sualların cavabından asılıdır. Suallar belədir:

1. Əgər Yezid bin Müaviyə İmam Hüseyndən *(ə)* beyət almaq üçün onu sıxışdırmasaydı, o Həzrət *(ə)* yenə qiyam edəcəkdi?

2. Kufə camaatı İmam Hüseyni *(ə)* Kufəyə dəvət etməsəydi, yenə bu qiyam baş verəcəkdi?

3. Bu qiyam və çevriliş bugünkü zəmanədə materialistlərin irəli sürdüyü kor-koranə, hesabsız ictimai partlayışdır, yoxsa hesab-kitablı və əvvəlcədən hazırlanmış bir qiyam?

Bu sualların cavablarının aydın olması üçün əvvəlcə bunu qeyd etməliyik ki, adətən təkmahiyyətli olan təbii şeylərdən fərqli olaraq ictimai hadisələr ola bilsin ki, bir neçə mahiyyətə malik olsun. Məsələn, bir filiz eyni zamanda həm qızıl, həm də mis mahiyyətini daşıya bilməz. Lakin ictimai hadisələrin eyni zamanda həm bir neçə cəhəti ola bilər və həm də onun meydana çıxmasında bir neçə vasitə təsir göstərə bilər. Məsələn, bir inqilab ola bilər ki, bir işə qarşı reaksiya olsun, yəni, onun mahiyyəti bir işə qarşı reaksiyadan ibarət olur. Lakin eyni zamanda, həmin inqilabın hücum mahiyyəti də ola bilər. Üstəlik, reaksiya mahiyyəti daşıdığı an da ola bilər ki, bir hadisəyə qarşı mənfi reaksiya versin, digər bir hadisəyə isə müsbət reaksiya. İmam Hüseynin *(ə)* inqilabı da bu cür hadisələrdən idi və bu cəhətlərin hamısı onda mövcud olmuşdur. Çünki həmin inqilabın müxtəlif səbəbləri olmuşdur. İndi həmin səbəbləri sizin nəzərinizə çatdırırıq.

İmam Hüseynin *(ə)* inqilabının səbəbləri – aşağıda qeyd edəcəyimiz üç səbəb o Həzrətin *(ə)* inqilabına böyük təsir etmişdir:

1. İmam Hüseyndən *(ə)* Yezid üçün beyət almaq və bu məqsədlə İmama *(ə)* təzyiqlər göstərmək;

2. Kufə camaatının İmam Hüseyni *(ə)* İraqa (Kufəyə) dəvət etməsi;

3. Əmr be-məruf və nəhy əz-münkər amili. O Həzrətin *(ə)* Mədinədən çıxdığı andan şüarı da məhz bu olmuşdur.

İndi bu səbəblərin hər birini ayrı-ayrılıqda izah edəcəyik. Bununla da İmam Hüseynin *(ə)* inqilabının bu səbəblərini nəzərə alaraq hansı mahiyyət daşıdığını və bu səbəblərin inqilabın yaranmasında nə qədər təsir göstərdiyini biləcəyik.

1. Yezidə beyət etməyə qarşı müxalifət.

Zaman nöqteyi-nəzərindən İmam Hüseyn *(ə)* inqilabının ilk səbəbi Yezidin hökuməti tərəfindən İmamdan *(ə)* beyət istəmək və o Həzrətin *(ə)* bununla müxalif olmasıdır. Tarixçilərin dediyi kimi, Hicrətin altımışıncı ili, Rəcəb ayının on beşində Müaviyə öldükdən sonra Yezid Mədinənin valisi Vəlid ibn Ütbə ibn Əbu Süfyana məktub yazdı ki, Hüseyndən *(ə)* onun üçün beyət alsın və bu işi əsla yubatmasın. Məktub çatan kimi Mədinənin valisi İmam Hüseyni *(ə)* çağırtdırıb onu məsələdən agah etdi. Hələ Müaviyənin sağlığında Yezidin vəliəhdliyi ilə müxalif olan Hüseyn *(ə)* bu dəfə də beyətdən imtina etdi. Çünki Yezidə beyət etmək təkcə Yezid kimi alçaq bir şəxsin hakimiyyətini təsdiqləmək deyil, həm də əsasını Müaviyə qoymuş diktatura rejimi kimi böyük bir bidəti təsdiqləmək demək idi.

Mədinənin hakimi tərəfindən bir neçə gün təzyiqlər davam etdi. Ancaq bu təzyiqlər Hüseyn ibn Əlinin *(ə)* müqavimətini qıra bilmədi. Təzyiqlərin artması nəticəsində İmam Hüseyn *(ə)* Rəcəb ayının iyirmi səkkizində ailəsi və Bəni-Haşimdən olan bir dəstə ilə Məkkəyə getmək məqsədi ilə Mədinəni tərk etdi və Şəban ayının üçündə Məkkəyə çatdı. Həzrətin *(ə)* şəhərlər arasından məhz Məkkəni seçməsinin səbəbi oranın əmin-amanlıq yeri olması və qarşıdan gələn Həcc mərasiminin yaxınlaşması idi. Hacıların tez bir zamanda Məkkəyə yığılacağını nəzərə aldıqda bu şəhər Hüseynin *(ə)* öz məqsədini müsəlmanlara çatdırması üçün ən münasib yer idi.

İmam Hüseynin *(ə)* inqilabı bura qədər reaksiya mahiyyəti daşıyırdı, həm də qeyri-şəri bir istəyə qarşı mənfi reaksiya. Çünki Yezid hökuməti ondan zor gücünə beyət almaq istəyir, lakin İmam Hüseyn *(ə)* buna razı olmurdu. Hər necə olur-olsun, bu

məsələ məlumdur ki, İmam Hüseyni *(ə)* Kufə əhalisi dəvət etməzdən qabaq o Həzrət *(ə)* Yezid hökumətinin təzyiqlərinə qarşı müxalifət edirdi. Əgər Kufə əhalisinin dəvəti olmasaydı belə, İmam *(ə)* yenə də Yezidə beyət etməyəcəkdi.

2. Kufəlilərin dəvəti.

İmam Hüseyn *(ə)* Şəban ayının üçündə Məkkəyə çatıb orada düşərgə saldı və hökumətin əsl mahiyyətini açıb söyləməklə məşğul oldu. İmamın *(ə)* Yezidin hökumətinə qarşı müxalifəti və onun Məkkədə düşərgə salması xəbəri İraqa çatdı. Təxminən iyirmi il əvvəl Həzrət Əlinin *(ə)* ədalətli hakimiyyətini yadda saxlayan, həmçinin İmam Əlinin *(ə)* təlim-tərbiyəsini hələ də unutmayan Kufə əhalisi – o Həzrətin *(ə)* böyütdüyü yetimlər və himayəsinə aldığı dul qadınlar bir yerə toplaşaraq vəziyyəti araşdırandan sonra belə qərara gəldilər ki, Yezidin hakimiyyətinə qarşı çıxaraq İmam Hüseyni *(ə)* Kufəyə dəvət edib ona itaət etsinlər.

Bu müzakirədən sonra Kufə şiələrinin başçıları, o cümlədən Süleyman ibn Sürəd, Müsəyyib ibn Nəcəbə, Rüfaə ibn Şəddadi Bəcəli və Həbib ibn Məzahir İmam Hüseynə *(ə)* məktub yazıb onu dəvət etdilər ki, İraqa gəlib onlara rəhbərlik etsin. İlk məktub İmam Hüseynə *(ə)* Hicrətin altımışıncı ilinin Ramazan ayının onunda çatdı.

Hər gün Kufənin müxtəlif şəxsiyyət və dəstələri tərəfindən məktublar gəlməkdə davam edirdi. Belə ki, İmam Hüseynə *(ə)* təkcə bir gündə altı yüz məktub gəldi. Məktubların ümumi sayı təxminən on iki minə çatırdı. İmam Hüseyn *(ə)* camaatın müsbət reaksiya göstərməsini, məktubların axınını və istəkləri nəzərə alaraq iraqlıların dəvətinə müsbət cavab verməyi qərara aldı. Buna görə də əmisi oğlu Müslim ibn Əqili oranın vəziyyətini araşdırıb nəticəni ona xəbər vermək üçün İraqa göndərdi. Əgər (İraq) Kufə camaatı həqiqətən də yazdıqlarına əməllərində vəfalı qalacaqdılarsa, Hüseyn *(ə)* özü də ora yola düşəcəkdi.

Göründüyü kimi, İmam Hüseynin *(ə)* kufəlilərin dəvətinə qarşı münasibəti və bu münasibətin mahiyyəti müsbət olmuş və iraqlılarla bir növ həmkarlıq xüsusiyyəti daşımışdır. Tarixi faktlardan məlum olur ki, İmam Hüseynin *(ə)* Məkkədə Yezidin hö-

kumətinə beyət etməməkdən başqa vəzifəsi yox idi. Onu da yerinə yetirmişdi (yəni, beyətdən imtina etmişdi). Lakin Kufə camaatının dəvəti hadisəyə yeni bir yanaşma tələb etdi və Hüseyn *(ə)* üçün yeni bir məsuliyyət ortaya çıxardı. İmam Hüseyndə *(ə)* belə bir fikir yarandı ki, əgər Kufə camaatı bu cür həvəslə o Həzrəti *(ə)* ora dəvət edirlərsə, deməli İraqa getməlidir. Əgər vədələrinə vəfa etsələr, çox yaxşı, əgər vəfa etməsələr, onda yenə də Məkkəyə qayıdar, ya da başqa bir islami məntəqəyə gedər.

Buna əsasən, zaman nöqteyi-nəzərindən İmam Hüseynin *(ə)* Yezidə beyət etməkdən imtina etməsi kufəlilərin dəvətindən əvvəl olmuşdur. Kufədən gəlmiş ilk məktub isə İmam Hüseyn *(ə)* Məkkəyə çatdıqdan qırx gün sonra yetişmişdir. Məsələ belə deyil ki, Kufə camaatı İmamı *(ə)* dəvət etdiyi üçün İmam Hüseyn *(ə)* Yezidə beyət etməkdən imtina etmişdi və Kufə olmasaydı, camaat məktub göndərməsəydi, İmam *(ə)* Yezidə beyət edəcəkdi. Xeyr, hətta Yer üzünü o Həzrətə *(ə)* dar etsəydilər belə, yenə də İmam Hüseyn *(ə)* Yezidə beyət etməyəcəkdi.

3. Əmr be-məruf və nəhy əz-münkər (yaxşılığa dəvət, pisliklərdən çəkindirmə) amili.

İmam Hüseyn *(ə)* ilk gündən Mədinədən əmr be-məruf və nəhy əz-münkər şüarı ilə hərəkət etmişdi. Buna görə də məsələ belə deyildi ki, İmam Hüseyndən *(ə)* beyət tələb olunduğuna görə o Həzrət *(ə)* inqilab etmişdi. Xeyr, İmamdan *(ə)* beyət istəməsəydilər belə, yenə də inqilab edəcəkdi. Bundan əlavə, Həzrət Hüseyn *(ə)* Kufə camaatının dəvətinə görə də inqilab etməmişdi. Əvvəldə qeyd edildiyi kimi, İmamın *(ə)* beyətdən imtina etməsindən bir ay yarım sonra Kufə camaatının məktubları o Həzrətə *(ə)* gəlməyə başlamışdı. Bu baxımdan İmam Hüseynin *(ə)* məntiqi İslama zidd olan hökumətə qarşı yönəlmiş etiraz və hücum məntiqidir. İmam Hüseynin *(ə)* məntiqi bu idi ki, İslam aləmini fəsad bürüdüyü və hakimiyyət fəsadın mənbəyinə çevrildiyi üçün o, öz şəri və Allah qarşısında olan borcunu yerinə yetirməkdən ötrü inqilab edir.

Öncə də qeyd etdiyimiz kimi, bu üç səbəbin hər birinin İmam Hüseynin *(ə)* inqilabında rolu olmuş, onların hər biri İmam *(ə)* üçün yeni bir təklif və vəzifə irəli çıxartmışdı. İmam

Hüseynin *(ə)* bu üç amilə nisbət mövqeyi bir-birindən fərqli olmuşdur.

Birinci amil baxımından İmam Hüseyn *(ə)* müdafiə rolunu oynayırdı. Çünki ondan zorla beyət istəyirdilər, o da bundan imtina edirdi.

İkinci amil baxımından İmam Hüseyn *(ə)* köməkçi rolunu ifa edirdi. Çünki onu (Kufə camaatı) həmkarlığa dəvət etmiş, o da bu dəvətə müsbət cavab vermişdi.

Üçüncü amil baxımından isə İmam Hüseyn *(ə)* etiraz edərək hücuma keçmişdi. Çünki o Həzrətdən *(ə)* heç beyət istəməsəydilər də o, hökumətə qarşı inqilab edib onu qeyri-islami hökumət adlandıracaqdı.

Hər üç amilin öz dəyəri vardır. İndi gəlin görək bu üç amildən hansı daha çox əhəmiyyət daşıyır?

Şübhəsiz ki, Kufə camaatının dəvətini qəbul etmək amilinin əhəmiyyəti vardır. Çünki İmam Hüseyn *(ə)* Yezidin qanunsuz hakimiyyətinə etiraz edib onu rəhbər olmağa dəvət edən camaata öz hazırlığını bildirdi. Əgər şərait yaxşı olsaydı, şübhəsiz, İmam *(ə)* islami hökumət quracaqdı. Lakin İmam Hüseynin *(ə)* Yezidə beyət etməkdən imtina etməsi amili bundan daha çox əhəmiyyət daşıyır. Çünki İmam Hüseyn *(ə)* dəfələrlə elan etmişdi ki, nəyin bahasına olursa olsun, bütün təzyiqlərə dözüb Yezidə beyət etməyəcək. Bu, İmam Hüseynin *(ə)* təzyiqə və zorakılığa qarşı dözüm və müqavimətini göstərir.

4. Sünnənin məhv olması və bidətlərin yayılması.

İmam Hüseyn *(ə)* Məkkəyə gəldikdən sonra Bəsrə şəhərindəki qəbilələrin başçılarına məktub yazdı. Məktubda deyilirdi:

***“...Mən öz qasidimi bu məktubla sizə tərəf göndərirəm. Sizi Allahın Kitabı və Peyğəmbərin sünnəsinə dəvət edirəm. İndi elə bir vəziyyətdəyik ki, Peyğəmbərin sünnəsi tamamilə itib batmış, aradan getmiş və onun yerini bidətlər tutmuşdur. Əgər mənim sözümə qulaq assanız sizi düz yola hidayət edərəm. Allahın salamı, rəhməti və bərəkəti sizə olsun!”***

Müaviyə uzunmüddətli hakimiyyəti dövründə Şam əhalisini elə “tərbiyələndirmişdi” ki, onlar din barəsində az da olsa, xəbərdar deyildilər və Müaviyənin sözünə can-başla boyun əyib ona ta-

be olurdular. Müaviyə bu müddətdə Şam əhalisini təkcə nizami və siyasi cəhətdən öz əmri altına almamış, üstəlik öz dediklərini onlara İslam təlim-tərbiyəsi kimi qəbul etdirmək üçün onları fikri və məzhəbi cəhətdən də kor etmişdi. O, özünəməxsus hiyləsi ilə bu sahədə istəklərinə nail ola bildi və bunların hamısı nəzəri cəlb edən məsələlərdir. Onun Həzrət Əli *(ə)* kimi bir şəxsiyyətin (camaatın fikrində) əsl simasını dəyişdirmək üçün işlətdiyi hiylələri, o Həzrətə *(ə)* söyməyi bir bidət kimi cəmiyyətdə yaydığını hamı bilir. Məsələn, Peyğəmbər *(s)* Əmmar Yasirin – İslamın qocaman, pak və doxsan yaşlı mücahidinin zalımların əli ilə şəhadətə yetişməsi barədə qabaqcadan xəbər vermişdi. Lakin Əmmar Siffeyn döyüşündə Həzrət Əlinin *(ə)* ordusunda şəhid olduqdan sonra Müaviyə aldadıcı hiyləsi ilə Şam ordusu arasında xəbər yaydı ki, Əmmarın qatili Əlidir *(ə)*. Çünki onu döyüş meydanına Əli *(ə)* göndərmişdir.

Müaviyənin adamlarının erkək dəvəni dişidən seçə bilməməsi, onun rəhbərliyi ilə həftənin üçüncü günü biabırçı şəkildə cümə namazının qılınması da bir daha bu mənanı təsdiqləyir. Bunlar o qədər aydın məsələlərdir ki, əlavə izahata heç ehtiyac yoxdur.

Bəni-Üməyyənin çirkin hökuməti əks təbliğ və şəxsi qərəzlər nəticəsində Peyğəmbərin *(s)* pak ailəsini Şam əhalisinin fikrində pis, pozğun, bunun müqabilində isə Bəni-Üməyyəni Peyğəmbərin *(s)* ailəsi kimi qələmə verirdi. Belə ki, tarixçilər yazırlar:

"Abbasilərin qələbəsindən sonra Əbul Abbas Səffah hakimiyyətə gələndə Şam əmirlərindən on nəfər onun yanına gedib hamılıqla and içərək bildirdilər ki, biz (sonuncu Əməvi xəlifəsi) Mərvanın ölümünə qədər Peyğəmbərin *(s)* Bəni-Üməyyədən başqa qohumu olduğunu bilmirdik. Yalnız siz hakimiyyətə gələndən sonra bunu bildik".

Buna əsasən, tarix kitablarında yazılmış aşağıdakı ibarələri oxuduqda heç də təəccüblənməməliyik:

"Kərbəla əsirləri Şama daxil olduqda bir kişi Zeynülabidinin *(ə)* qarşısında durub dedi:

"Həmd olsun Allaha ki, sizi öldürməklə camaatı sizin şərinizdən qurtardı və əmirəl-möminini (Yezidi) sizin üzərinizdə qalib etdi".

İmam Səccad *(ə)* sakit qalıb gözlədi. Şamlı kişi bütün ürəyində olanları dedi. Sonra İmam Səccad *(ə)* ondan soruşdu:

***“Quran oxumusan?”***

Kişi cavab verdi:

“Bəli!”

İmam *(ə)* buyurdu:

***“Bu ayəni oxumusanmı?:***

***“De: Mən sizdən bunun (risaləti təbliğ etməyimin) müqabilində Əhli-Beytimə məhəbbətdən başqa bir şey istəmirəm”***.

Kişi dedi:

“Bəli!”

İmam Səccad *(ə)* buyurdu:

***“Bəs bu ayəni necə?***

***“Qohum-əqrəbanın haqqını ödə”***.

Kişi dedi:

“Bəli!”

İmam *(ə)* buyurdu:

***“Bu ayəni də oxumusan?***

***“Ey peyğəmbərin Əhli-Beyti, Allah sizdən çirkinliyi yox etmək və sizi tərtəmiz (pak) etmək istəyir”***.

Kişi dedi:

“Bəli!”

İmam Səccad *(ə)* buyurdu:

***“Ey qoca, bu ayələr bizim haqqımızda nazil olmuşdur. Peyğəmbərin qohum-əqrəbası, hər cür çirkinlikdən uzaq olan bizik”***.

Qoca bildi ki, bu əsirlər barədə eşitdikləri doğru deyil. Onlar heç də xarici deyil, əksinə Peyğəmbər *(s)* övladlarıdırlar. Buna görə də peşman olub dedi:

“İlahi, mən bunlara qarşı ürəyimdə olan kin-küdurətdən Sənə pənah aparıram! Mən Muhəmməd *(s)* və Ali-Muhəmmədin *(ə)* düşmənlərinə nifrət edirəm!”

# 4. 2. MÜAVİYƏ İBN ƏBU SÜFYANIN YEZİDƏ VƏSİYYƏTİ VƏ İMAM HÜSEYNİN *(ə)* KUFƏYƏ SƏFƏRİ

Müaviyə ibn Əbu Süfyan ölüm döşəyinə düşüncə oğlu Yezidi yanına çağırdı və İmam Hüseyn *(ə)* haqqında bəzi nəsihətlər etdi. Müaviyə dedi:

"Əgər o sənin üzərinə gələrsə və sən də ona qələbə çalarsansa, onu əfv et. Ondan hər hansı müxalifətçilik görərsənsə, onun atasını öldürən Allah sənə kifayət edər".

Müaviyə 680-cı ilin yazında Şamda öldü. Bundan sonra şamlılar məsciddə toplanaraq Müaviyə ibn Əbu Süfyanın oğlu Yezidə beyət etdilər. O əsnada Vəlid ibn Ütbə ibn Əbu Süfyan Mədinədə, Yəhya ibn Hakim ibn Səfvan ibn Ümeyyə Məkkədə, Nüman ibn Bəşiri Ənsari Kufədə, Ubeydullah ibn Ziyad isə Bəsrədə vali vəzifəsində idi.[329]

Bir başqa rəvayətə görə, Müaviyə xəstələndiyi zaman oğlu Yezidi çağırıb dedi.

"Oğul, yükünü azaldıb bütün işləri yoluna qoymuşam. Düşmənlərini zəlil etmişəm və ərəb qövmünün boynunu burmuşam. Hamını sənin ətrafına toplamışam. Ancaq dörd nəfərdən başqa sənə heç kimin qarşı çıxacağını sanmıram. Bunlar – Hüseyn ibn Əli, Ömər ibn Abdullah, Zübeyr ibn Abdullah, Əbubəkr ibn Əbdürrəhmandır".[330]

Yezid ibn Müaviyə Mədinə valisi Vəlid ibn Ütbə ibn Əbu Süfyana belə yazdı:

"Məktubum sənə çatınca Hüseyn ibn Əli ilə Abdullah ibn Zübeyri çagırtdır və mənə beyətlərini al. Əgər beyət etməkdən boyun qaçırsalar boyunlarını vur! Başlarını mənə göndər! Xalqın da beyətini al! Vəssalam..."

---

[329] Mustafa Asim Köksal, e.a.ə, s. 39; Nuri Ünlü, "İslam Tarihi" (Başlangıçtan Osmanlılara kadar), Marmara Universitesi İlahiyat Fakultesi Vakfı Yayınları, Nu-51, İstanbul-1997, I, 168.

[330] Əbu Mexnəf Lut ibn Yəhya, "Kərbəla Macərası", Bakı-Gənclik-2001, s. 9.

Vəlid Yezidin yazısını oxuduqdan sonra İmam Hüseyni *(ə)* Yezidə beyətə dəvət etdi. İmam Hüseyn *(ə)* buyurdu:

***“...Beyət işinə gəlincə, mənim kimi bir adam gizli olaraq beyət edə bilməz. Sən xalqı beyətə dəvət etdiyin zaman bizi də çağırarsan”.***

Vəlid dedi:

“Yaxşı, indi evinə dön. Xalq beyət üçün toplandığı zaman sən də onlarla birlikdə gəlib beyət edərsən”.

Bu zaman Mərvan dedi:

“Əgər bu indi sənin yanından ayrılacaq olarsa, onu bir də heç bir zaman ələ keçirə bilməyəcəksən. Sən bu adamı həbs et. O, buradan getmədən ya beyət edər, yaxud onun boynunu vurarsan”.

İmam Hüseyn *(ə)* yerindən sıçradı və buyurdu:

***“Yalan söylədin! Vallahi sən alçaqlaşdın. Mənim boynumu vurmağa nə sən qadir ola bilərsən, nə də o qadir ola bilər!”***

Sonra İmam *(ə)* Vəlidin yanından çıxıb getdi.

Vəlid Mərvana dedi:

“Yazığım gəlir sənə! Sən mənə Rəsulullahın qızı Fatimənin oğlu Hüseyni öldürməyi təklif etmək istəyirsən? Vallahi, Hüseyni öldürüb dünyanın bütün var-dövlətinə sahib olacağımı bilsəm, yenə də onu öldürməyi arzu etmərəm!”.

İmam Hüseyn *(ə)* Hicrətin altmışıncı ili, Rəcəb ayının sonuna iki gecə qalmış bacısı Ümmü Gülsüm, Zeynəb, qardaşının oğlu, qardaşları Əbu Bəkr, Cəfər, Abbas və Mədinədə olan bütün əhli-beytini yanına alaraq Məkkəyə üz tutdu. Mədinədə sadəcə qardaşı Muhəmməd ibn Hənəfiyyə qaldı.[331]

Kufəlilər Müaviyənin öldüyünü, İmam Hüseynin *(ə)* isə Məkkəyə getdiyini xəbər alınca Əhli-Beyt *(ə)* tərəfdarlarından bir qrup Süleyman ibn Surədin evində toplandılar. Süleyman ibn Surəd Peyğəmbərin *(s)* əshabından idi. Cəməl və Siffeyn savaşlarında da İmam Əlinin *(ə)* yanında olmuşdu. O, dedi:

---

[331] Mustafa Asim Köksal, e.a.ə, s. 45.

“Müaviyə ölmüşdür. Hüseyn *(ə)* xalqın beyətini alacaqdır. Əgər ona kömək edəcəksiniz və onu düşmənlərindən qoruyacaqsınızsa, ona xəbər edin. Əgər qorxaqlıq edəcəksinizsə, onu aldatmayın”.

Toplaşanlar dedilər:

“Xeyr, onu aldatmayacağıq”

Sonra onlar İmam Hüseynə *(ə)* xəbər göndərməyi qərara aldılar. Kufəlilər İmama *(ə)* göndərdikləri məktubda deyirdilər:

“Sənin arxanda yüz min nəfər olacaqdır”.

Bundan əlavə, onlar Kufə valisi Nüman ibn Bəşiri qovacaqlarını, hətta – “Ölsək belə, sənin yanından ayrılmayacağıq” deyə söz verdiklərini də məktubda bildirdilər.[332]

Bəsrədəki Əhli-Beyt *(ə)* tərəfdarları da xeyli vaxt idi ki, İmam Hüseynə *(ə)* beyət haqqında danışırdılar. Ubeydullah ibn Ziyad İmamın *(ə)* gələcəyini xəbər alınca Bəsrədəki vali vəkilinə məktub yazaraq yolların tutulmasını əmr etdi.

İmam Hüseyn *(ə)* əmisi oğlu Müslim ibn Əqili çağırdı və buyurdu:

***“Ey əmimin oğlu! Səni Kufəyə göndərəcəyəm. Kufəlilərin hansı görüşdə olduğunu öyrən. Əgər onların məktubda dedikləri doğrudursa, tez mənə xəbər göndər yanına gəlim. Əgər vəziyyət başqa isə sən də tez geri qayıt”***.

Müslim ibn Əqil Mədinəyə yola düşdü və nəhayət, Kufəyə çatdı. Orada Muxtar ibn Əbu Ubeyd əs-Səqəfinin evində qonaq qaldı. Əhli-Beyt *(ə)* tərəfdarları olan kufəlilər Müslimin gəldiyini eşidincə ətrafına toplandılar. Müslim onlara İmam Hüseynin *(ə)* məktubunu oxudu. İmamın *(ə)* məktubu oxunarkən kufəlilər ağladılar. Xəbər Kufədə yayıldı. Hətta Kufə valisi Nüman ibn Bəşir də bunu eşitdi.[333]

Rəvayətə görə, Müslim ibn Əqilin Kufədə – “Ey Kufəlilər! Rəsulullahın qızının oğlu bizə “Bəhdəlul-Kəlbi”nin qızının oğlundan daha sevimlidir” deyərək camaatı beyətə dəvət etməyə başladığını xəbər alan Yezid soruşdu:

---

[332] Əbu Mexnəf Lut ibn Yəhya, e.a.ə, s. 17.

[333] Mustafa Asim Köksal, e.a.ə, s. 51-52; www.ziyababa.org.tr.

“Ey şamlılar! Kufəyə kimi vali təyin edim? Mənə bir işarə verin”.

Şamlılar dedi:

“Atan Müaviyənin seçib qəbul etdiyi kimsəyə razı olarsanmı?”

Yezid dedi:

“Bəli”.

Şamlılar dedi:

“Elə isə Ubeydullah ibn Ziyadın İraqa valiliyi üçün qərar çıxar”.[334]

Yezid, İbn Ziyada yazdığı məktubda ona belə bir əmr verdi:

“İndi Kufədə mənə tərəfdar olanlar Müslim ibn Əqilin camaatı topladığını və hakimiyyəti ikiyə ayırdığını mənə xəbər verdilər. Bu məktubumu alar-almaz Kufəyə get! İbn Əqili ələ keçirincəyə qədər onu axtar. Tutduğun zaman öldür və yaxud sürgün et! Hüseyn ibn Əli də Məkkədən ayrılıb onlara tərəf hərəkət etmişdir. Sən ya onu öldürərsən və ya yox edilərsən!”

Müslim ibn Əmr Bəsrəyə çatdı. Yezidin yazısını İbn Ziyada təslim etdi. İbn Ziyad tələsik yol hazırlığı görüb ertəsi günü Kufəyə getməyə hazırlaşdı.[335]

İmam Hüseyn *(ə)* Bəsrə qəbilə rəislərinə əshabından olan Salmanla bir məktub göndərmişdi. Məktubda belə deyilirdi:

***“Sizlərə salam olsun. Əlbəttə, Uca Allah Muhəmmədi insanlar arasından seçərək peyğəmbərliklə şərəfləndirdi, sonra onu bəndələrinə nəsihət və gətirdiyi şeyləri təbliğ etdikdən sonra hüzuruna aldı. Biz isə Muhəmmədin Əhli-Beyti, övladları və varisləri oluruq. Onun yerinə keçməyə insanlar arasında ən layiq və haqlı olan da bizik. Sözlərimi dinləyər, əmrimə də itaət edərsəniz doğru yolu taparsınız. Vəssələmu Aleykum”***.[336]

---

[334] Mustafa Necati Bursalı, e.a.ə, s. 160-161.

[335] www.ziyababa.org.tr; Mustafa Asim Köksal, e.a.ə, s. 56.

[336] Əbu Mexnəf Lut ibn Yəhya, e.a.ə, s. 23; Mustafa Asim Köksal, e.a.ə, s.57.

İmam Hüseynin *(ə)* məktubu Bəsrədəki Əhli-Beyt *(ə)* tərəfdarlarına gəlincə Münzir ibn Caruddan başqa hamı onu gizli saxladı. Münzir isə onu faş etdi. Çünki qızı Hindi İbn Ziyadla evləndirmişdi.

Münzir, İbn Ziyadın yanına gedərək gələn məktubu və içindəkiləri ona xəbər verdi. İbn Ziyad İmam Hüseynin *(ə)* elçisi Salmanın axtarılmasını əmr etdi. Salmanı tutub gətirdilər və boynunu vurdular.[337]

İbn Ziyad Kufəyə gəlişinin ertəsi günü xalqı məscidə toplayıb kimin evində Yezidə üsyan edən şəxs olarsa, onu evinin qapısından asdıracağını söylədi. Ona kömək edənlərə isə pul və bəxşiş verəcəyini söyləməyi də unutmadı. Hərbdən əldə edilən qənimətin də xalq arasında bölünəcəyini əlavə etdi. Sonra isə vali sarayına gedərək yerləşdi.[338]

Müslim ibn Əqil İbn Ziyadın Kufəyə gəldiyini, onun çıxışını və əhalidən Yezidin lehinə söz aldığını eşitdikdə Muxtarın evindən çıxıb Haninin evinə getdi. Hani Müslim ibn Əqili görüb narahat oldu. Müslim ibn Əqil dedi:

"Mən qonaq qalmaq üçün buraya gəlmişəm"

Hani dedi:

"Allah sənə rəhm etsin! Ağır bir təklif edirsən. Əgər məni əmin bilib qapıma gəlməsəydin evimdən çıxmağını istəyərdim. Lakin indi bu, alçaqlıq olardı. Mənim kimi bir adam səni qovmaz. İçəri gəl".

Beləliklə, Hani Müslim ibn Əqili evində saxladı. Kufəlilər Haninin evinə Müslim ibn Əqili ziyarətə gəldilər. On səkkiz min nəfərə qədər adam beyət etdi.[339]

Müslim ibn Əqil İmam Hüseynə *(ə)* bir məktub yazıb Abis ibn Şəbib Şaki ilə göndərdi. Məktubda deyilirdi:

"Adil bir kimsə öz əhlinə yalan söyləməz. Kufə əhlindən on səkkiz min nəfər beyət etmişdir. Bu məktubu alan kimi bu-

---

[337] Mustafa Necati Bursalı, e.a.ə, s. 162; Mustafa Asim Köksal, e.a.ə, s. 57-58,
[338] Əbu Mexnəf Lut ibn Yəhya, e.a.ə, s. 21.
[339] Hayati Ülkü, "Başlangıçtan Günümüze İslam Tarihi", II, 127.

raya gəlməkdə tələs! Hamı səninlədir. Müaviyənin tərəfdarları yoxdur”.

Mənbələrin verdiyi məlumata görə, Müslim ibn Əqil məktubu şəhid olmazdan iyirmi səkkiz gün əvvəl İmam Hüseynə *(ə)* göndərdi.[340]

Şərik ibn Avər Müslim ibn Əqilə dedi:

“Sənin və sənə tərəfdar olanların da məqsədi ancaq bu bəlanın yox edilməsidir. Allah onu öldürmək üçün sənə fürsət verdi. O, mənim xəstəliyimi yoxlamağa gələcəkdir. Qalx gizlən. O, mənim yanımda oturub dinləndiyi zaman çıx və onu öldür. Xalqdan heç kəs onu öldürdüyün üçün səninlə mübarizə etməz”.

Müslim ibn Əqil razılaşdı. İbn Ziyad gəldiyi zaman Şərikin Müslim ibn Əqilə İbn Ziyadı öldürməyin vaxtı olduğunu kinayəli şəkildə başa salmaq istədiyini Mihran sezərək İbn Ziyada gözüylə işarə etdi. İbn Ziyad yerindən sıçrayaraq qalxdı və getmək istədiyini bildirdi. Mihran İbn Ziyadın arxasınca çıxaraq dedi:

“Vallahi, səni öldürmək istədilər”.

İbn Ziyad özünün öldürülməsini Hani və Şərikdən gözləmədiyini deyərək sarayına qayıtdı.[341]

Müslim ibn Əqil gizləndiyi yerdən çıxıb gəldiyində Şərik onu nə üçün öldürmədiyini soruşdu. Müslim ibn Əqil dedi:

“Onu öldürməkdən məni iki mühüm şey saxladı. Birincisi, onu Haninin evində öldürməyi xoş görməməyim, ikincisi də Rəsulullahın buyurduğu – ***“Mömin anidən adam öldürmək üçün fürsət axtarmaz”*** hədisidir”.

İbn Ziyad Məqəl adlı qulamını çağırtdırıb ona üç min dirhəm pul verərək belə əmr etdi:

“Müslim ibn Əqilin yanına get. Bu pulu onlara verib de ki, düşməninizlə müharibə etməniz üçün bir yardımdır. Bu işinlə etimadını qazan və onlarla qal. Onlar isə sənə inandıqları üçün heç nəyi gizli saxlamazlar”.

---

[340] Əbu Mexnəf Lut ibn Yəhya, e.a.ə, s. 26.

[341] Mustafa Asim Köksal, e.a.ə, s. 63-64; Əbu Mexnəf Lut ibn Yəhya, e.a.ə, s. 28.

Beləliklə, Məqəl məscidə getdi. Orada Müslim ibn Ovsəcənin namaz qıldığını gördü. Onun İmam Hüseyn *(ə)* tərəfdarlarından olduğunu eşitmişdi. İbn Ovsəcən namaz qılandan sonra Məqəl ona dedi:

"Ey Allahın bəndəsi! Mən Peyğəmbərin *(s)* qızının oğluna beyət edən bir nəfərin Kufəyə gəldiyini eşitdim. Bu pulu alıb məni onun yanına aparарsan və mən də ona beyət edərəm. İstəyirsən birinci səndən beyət alım".

Məqəl ona beyət etdi və bu sirri açmayacağına dair söz verdi. Bundan sonra Müslim ibn Əqilin yanına gəlib-getməyə başladı.[342]

Bir gün İbn Ziyad məclisdəkilərdən soruşdu:

"Nə üçün Hani buralara gəlmir?".

Bir nəfər cavab verdi:

"Xəstədir".

İbn Ziyad dedi:

"Xəbər tutmuşam ki, yaxşıdır. Axşamlar qapısının ağzında oturur. Gedib ona deyin ki, haqdan əl çəkməsin! Mən onun kimi şərəfli bir adamın fasid olmasını istəmirəm!"

Onlar İbn Ziyadın əmrini ona yetirdilər. Hani geyinib qatırına mindi və onun ardınca gələnlərlə birgə saraya yollandı. İbn Ziyad Haninin evində özünün öldürülmək istəməsini kinayəli şəkildə dedi. Hani isə bunun doğru olmadığını bildirdi. Beləliklə, İbn Ziyad təkid edir, Hani isə danırdı.

Nəhayət, İbn Ziyad Məqəli çağırıb Hanidən soruşdu:

"Bu adamı tanıyırsanmı?"

Hani dedi:

"Bəli"

Hani bu an Məqəlin İbn Ziyadın casusu olduğunu başa düşdü. Sonra İbn Ziyada dedi:

"And olsun Allaha! Onu evimə çağırmamışam və işlərindən də xəbərim yoxdur. Bir gün onun qapımda oturduğunu gördüm. Məndən evimə gəlməyi xahiş etdi. Mən də utanıb onu evi-

---

[342] Əbu Mexnəf Lut ibn Yəhya, e.a.ə, s. 26, Mustafa Asim Köksal, e.a.ə, s. 65.

mə dəvət etdim. İstəyirsənsə onu evimdən çıxarım. Başqa yerə gedər və qonaq haqqı da mənim üzərimdən götürülər".

İbn Ziyad dedi:

"Xeyr, Allaha and olsun, onu mənim üçün gətirməyincə heç yerə getməyəcəksən".

Hani dedi:

"Xeyr, and olsun Allaha ki, qonağımı öldürmək üçün heç vaxt onu sənə verməərəm".

Bu şəkildə Hani ilə İbn Ziyad xeyli mübahisə etdilər. Nəhayət, İbn Ziyad hirslənərək əlindəki ağacla Haninin sifətinə o qədər vurdu ki, Haninin burnu sındı, sifətinin əti parçalandı və İbn Ziyadın əlindəki ağac qırıldı. Sonra Xaricə ibn Əsma, İbn Ziyada doğru gəlib qışqırdı:

"Bu vəfasızlıqdır! Sən bu adamı yanına gətirməyi əmr etdin, biz də gətirdik! İndi isə onun saqqalını qana boyadın və onu öldürməyə çalışdın".

İbn Ziyad onu da tutub döydürərək həbs etdirdi.[343]

Haninin döyülərək həbs edildiyini eşidən Müslim ibn Əqil tərəfdarlarını yığaraq gəlib vali sarayını mühasirə etdi. İbn Ziyad qorxusundan qapıları bağlayaraq saraya sığındı. Müslim ibn Əqil sarayın ətrafında şiddətli vuruşduqdan sonra ağır şəkildə yaralandı. Tərəfdarlarından da bəziləri öldü.

İbn Ziyad tək qalmaqdan çəkinərək Kufənin qəbilə rəislərini ətrafında toplayaraq onlara belə dedi:

"Xalqa görünün! İtaətkar olanların artıqlaması ilə mükafatlandırılacağını, asi olanlara ümidlərinin boşa çıxacağını və cəzalandırılacaqlarını, Şamdan onlara qarşı ordunun gəldiyini söyləyərək qorxudun!"

Xalqa qarşı ilk danışan Kəsir ibn Şihab oldu. O, dedi:

"Ey insanlar! Əgər siz İbn Ziyadla döyüşməyə davam etsəniz Yezidin ordusuna məğlub olacaqsınız. İbn Ziyad sizin heç birinizi sağ buraxmayacaq. Yaxşısı budur ki, dağılıb evinizə gedin!".

---

[343] Mustafa Necati Bursalı, e.a.ə, s. 166; Əbu Mexnəf Lut ibn Yəhya, e.a.ə, s. 29-30, Mustafa Asim Köksal, e.a.ə, s. 67.

Bundan sonra Müslim ibn Əqilin ətrafındakı adamlar yavaş-yavaş dağılışmağa başladılar. Beləcə Kəsir ibn Şihab öz hiylə dolu sözləri ilə Kəlb qəbiləsindən iki min nəfəri Müslim ibn Əqildən ayırdı. Orada toplananlar axşama qədər dağılışdılar. Müslim ibn Əqilin yanında beş yüz nəfər qaldı. Sonra onlar da azala-azala sadəcə otuz nəfər adam qaldı.[344]

Müslim ibn Əqil vali sarayının yanındakı məsciddə axşam namazını sadəcə otuz adamla qıldı. O, yanındakı otuz nəfərlə Kində məhəlləsinə tərəf irəliləməyə başladı. Kində qapılarına çatdığı zaman yanında ancaq on nəfər qaldı. Kində qapısından çıxarkən dönüb arxasına baxdığı zaman ona gedəcəyi yolu göstərəcək və qarşılaşacağı düşmənə qarşı dayaq olacaq bir kimsəni görə bilmədi. Müslim ibn Əqil hara getdiyini və hara gedəcəyini belə, bilmirdi.

Nəhayət, Bəni-Cəlbə qəbiləsinin məhəlləsində Tövə adlı bir qadının qapısında dayandı. Onun Bilal adlı oğlu var idi. Bilal camaata qoşulub evdən çıxmışdı. Anası onun yolunu gözləyirdi. Müslim ibn Əqil Tövədən içməyə su istədi. Suyu içdikdən sonra Tövə onun getmədiyini görüb dedi:

"Mənim barəmdəki fikrinə görə, Allahdan qorx! Qapımda durmaq sənə yaraşmaz! Get ailənin yanına!"

Müslim ibn Əqil dedi:

"Mənim bu şəhərdə heç kimim yoxdur".

Qadın dedi:

"Nə demək istəyirsən?"

Müslim ibn Əqil dedi:

"Mən Müslim ibn Əqiləm".

Qadın onun Müslim olduğunu bildikdə onu evinə apardı. Bir azdan Bilal qayıtdı, anasının digər otağa tez-tez girib çıxdığını görərək nəyin baş verdiyini öyrənmədikcə əl çəkmədi. Anası da bu sirri açmayacağına dair söz alaraq başına gələnləri Bilala danışdı.[345]

---

[344] Mustafa Necati Bursalı, e.a.ə, s. 166, Əbu Mexnəf Lut ibn Yəhya, e.a.ə, s. 35.
[345] Əbu Mexnəf Lut ibn Yəhya, e.a.ə, s. 36-37.

Səhər açılınca Tövənin oğlu Bilal Əşəsın oğlu Əbdürrəhmanın yanına gələrək Müslim ibn Əqilin anasının yanında olduğunu bildirdi. Əbdürrəhman da atasının yanına gedib İbn Ziyadla oturarkən bu xəbəri gizlicə söylədi. İbn Ziyad dedi:

"Oğlun sənə nə söylədi?"

O da dedi:

"Müslim ibn Əqilin yerini bildiyini söyləyir".

İbn Ziyad Əşəsə Qeys qəbiləsindən yetmiş adam verərək Müslim ibn Əqili gətirməsini əmr etdi. Onlar Müslim ibn Əqilin olduğu evə gəldilər. O əsnada Müslim ibn Əqil yaralarının qanını yumaqda idi.

İbn Ziyadın adamları evə basqın etdilər. Bükeyr Müslim ibn Əqilin sifətinə qılıncla vuraraq üst dodağını kəsdi. Müslim də qüvvətli zərbəylə Bükeyrin çiynini sinəsinə qədər yardı. Müslim artıq taqətdən düşmüşdü. Əşəs dedi:

"Ey gənc! Sən əmniyyətdəsən. Mənim sözümdə nə yalan, nə də hiylə var".

Müslim dedi:

"Mən doğurdan da əmniyyətdəyəmmi?".

Onlar da dedilər:

"Bəli".

Ətrafı mühasirəyə alındığı zaman həyatdan ümidi kəsilən Müslimin gözləri yaşardı. Bu, vəfasızlığın, sözündə durmamağın bir əlaməti idi. Süləmi dedi:

"Biz sənin kimi birisini də tutaraq aparmışdıq. Lakin o heç ağlamamışdı".

Müslim dedi:

"Vallahi, mən özüm üçün ağlamıram. Mən bura gəlmək üçün yola çıxan İmam Hüseyn və onun əhli-beyti üçün ağlayıram".

Nəhayət, Əşəs icazə alıb Müslimi İbn Ziyadın yanına apardı. Müslim İbn Ziyada salam vermədikdə oradakılar səbəbini soruşdular.

O, dedi:

"Məni öldürməyə gətirmisiniz, hələ sizə salam da verim!"

İbn Ziyad dedi:

“Öz canım üçün öləcəksən”.

Müslim dedi:

“Elə isə icazə ver öz adamlarıma vəsiyyətimi edim”.

İbn Ziyad dedi:

“İstədiyin vəsiyyəti et”.[346]

Müslim nəzər salıb Səd ibn Öməri gördü və ona dedi.

“Qohum olduğumuz üçün sənə ehtiyacım var. Yerinə yetirməyin vacib, lakin gizlidir”.

Səd ibn Ömər razılıq verdi. Müslim dedi:

“Kufədə yeddi yüz dirhəm borcum var. Onu verərsən. Öləndən sonra cənazəmi basdırarsan. Nəhayət, bir nəfər göndər ki, İmam Hüseynə mənim sözümü yetirsin. Onu Kufəyə gəlməyə qoymasın. Çünki mən ona məktub yazaraq gəlməsini istəmişdim və onun da gələcəyini dəqiq bilirəm”.[347]

İbn Ziyad Müslimin boynunun vurulub bədəninin isə sarayın damından yerə atılmasını əmr etdi, sonra Müslimin qılıncla yaraladığı Bükeyri çağırıb Müslimin boynunu vurmağı ona həvalə etdi. Bükeyr də onun boynunu vuraraq cəsədini yerə atdı. İbn Ziyad Müslimin dama çıxarkən nə dediyini Bükeyrdən soruşdu. Bükeyr dedi:

“Allahu Əkbər, Sübhanəllah” deyirdi”.

Müslim Hicrətin altmışıncı ili, Zilhiccə ayının səkkizində şəhid edildi.[348]

Müslim ibn Əqilin şəhadətindən sonra İbn Ziyad Haninin bağışlanması əhdini pozdu. Nəhayət, Hanini əl-qolu bağlı olaraq gətirdilər. O yazıq imdad edərək haray çəkir, Məzhəc qəbiləsindən kömək istəyirdi. Lakin bunun heç bir faydası olmadı. Haninin boynu vurularaq başı İbn Ziyada göndərildi.[349]

İmam Hüseyn *(ə)* Hicrətin altmışıncı ili, şənbə günü, Rəcəb ayında Mədinədən çıxıb Şəban ayının üçü, cümə günü Məkkəyə

---

346 E.a.ə, s. 42-43; www.odtumezunlari.gen.tr; www.ziyababa.org.tr.

347 Əbu Mexnəf Lut ibn Yəhya, e.a.ə, s. 43.

348 www.ziyababa.org.tr.

349 Mustafa Asim Köksal, e.a.ə, s. 93-95.

daxil oldu. Şəban, Ramazan, Şəvval və Zilhiccə aylarını Məkkədə qaldı. Müslim ibn Əqilin məktubunu alınca yol hazırlığına başladı. Çərşənbə axşamı günü, Zilhiccənin səkkizində Məkkədən çıxdı.

Muhəmməd ibn Hənəfiyyə İmam Hüseynin *(ə)* arxasından Məkkəyə qədər getdi, İmamı *(ə)* tapıb Kufəyə getməsinin doğru bir görüş olmadığını bildirdi.

İmam Hüseyn *(ə)* Muhəmməd ibn Hənəfiyyənin görüşünü qəbul etmədi. Muhəmməd ibn Hənəfiyyə isə oğlanlarından heç birini o Həzrətlə *(ə)* birlikdə göndərmədi. İmam Hüseyn *(ə)* buyurdu:

***"Oğlunu – "o yerdə ölər" deyə göndərmək istəmirsən?"***

Muhəmməd ibn Hənəfiyyə cavab verdi:

"Sənin öldürülməyin bizə görə, onların öldürülməsindən daha ağırdır".

Muhəmməd ibn Hənəfiyyə İmam Hüseynin *(ə)* əhli-beyti ilə birlikdə Məkkədən ayrılıb Kufəyə doğru getdiyini Mədinədə dəstəmaz aldığı əsnada eşidincə özünü saxlaya bilməyərək ağlamışdı.

İmam Hüseyn *(ə)* Məkkədən yola çıxınca Məkkə valisi Əmr ibn Səd ibn As qardaşı Yəhya ibn Sədin rəhbərliyi altında göndərdiyi əmniyyət qüvvələri ilə o Həzrətin *(ə)* önünü kəsdi. Onlar dedilər:

"Hara gedirsiniz? Geri dönün. Yoxsa sizi zorla döndərəcəyik".

İmam Hüseyn *(ə)* dönməyib yoluna davam etdi. Məkkə valisi Əmr ibn Səd işlərin qarışmasından qorxdu. Adamlarına xəbər göndərərək dönmələrini əmr etdi.[350]

Mərvan ibn Həkəm Kufə valisi İbn Ziyada yazdığı məktubunda belə dedi:

"İndi Hüseyn sənə doğru yönəlmişdır. Vallahi, Allah bizə Hüseyndən daha uyğun bir kimsəni təslim etməmiş, əlimizə düşürməmişdir!"

Məkkə valisi də belə yazdı:

"İndi Hüseyn sənə doğru yönəlmişdir. Onun kimiləri haqqında görüləcək iş əsir olaraq tutulmaqdan ibarətdir!"

---

[350] Mustafa Asim Köksal, e.a.ə, s. 107.

İmam Hüseyn *(ə)* Rummədən Kufəyə tərəf hərəkət edincə İraqdan dönməkdə olan Abdullah ibn Müti ilə qarşılaşdı. İbn Müti İmama *(ə)* dedi:

"Ey Rəsulullahın *(s)* oğlu, hara gedirsən?"

İmam Hüseyn *(ə)* buyurdu:

***"Kufəlilər mənə məktub yazaraq bidət və zəlaləti yox etmək üçün yanlarına gəlməmi istəyirlər"***.

İbn Müti dedi:

"Xahiş edirəm, ora getmə. Əgər gedərsənsə, şübhəsiz, onlar səni öldürəcəklər".

İmam Hüseyn *(ə)* İbn Müti ilə xudahafizləşib yoluna davam etdi.

Sələbə deyilən yerə çatanda Əsəd qəbiləsindən biriylə qarşılaşdılar və soruşdular:

"Kufədə nə var, nə yox?"

Adam dedi:

"Mən Kufədən çıxmazdan bir az öncə Müslim ibn Əqil və Hani ibn Ürvə öldürüldü. Uşaqların onların cəsədlərini ayaqlarından tutub sürüdüklərini də gördüm!"

İmam Hüseyn *(ə)* buyurdu:

***"İnnə lilləhi və innə ileyhi raciun"*** (Biz Allahın təslim olmuş qullarıyıq və axırda da ona tərəf dönəcəyik!)

Adam dedi:

"Ey Allah Rəsulunun *(s)* oğlu! Allah eşqinə özünə və səninlə birlikdə olduqlarını gördüyümüz bu əhli-beytə yazığın gəlsin! Gəldiyin yerə qayıt! Vallahi, orada sənə kömək yoxdur!"

Müslim ibn Əqilin qardaşları dedilər:

"Müslimdən sonra bizə yaşamaq yaraşmaz! Ya intiqamını alarıq, yaxud biz də onun kimi şəhid olarıq".[351]

Müslim ibn Əqilin vəsiyyəti üzərinə Ömər ibn Sədin İmam Hüseynə *(ə)* göndərdiyi elçisi İyas ibn Əsəl İmam Hüseyn *(ə)* Zübalədə olduğu əsnada o Həzrətə *(ə)* çatdı.[352]

---

[351] Mustafa Necati Bursalı, e.a.ə, s. 173, www.ziyababa.org tr; www. Odtumezunlari.gen.tr.

Müslim ibn Əqil kufəlilərin beyətdən sonra onu tərk etdiklərini İmam Hüseynə *(ə)* yazmalarını Ömər ibn Sədə vəsiyyət etmişdi. İmam Hüseyn *(ə)* elçidən məktubu alıb oxuyunca eşitdiklərinin doğruluğuna əmin oldu. Müslim ibn Əqil ilə Hani ibn Ürvənin öldürülmələri ona çox ağır gəldi.[353]

Abdullah ibn Bukturun ölüm xəbəri də İmam Hüseynə *(ə)* Zübalədə ikən gəldi. İmam *(ə)* bu xüsusda gələn məktubu yanındakılara oxutduqdan sonra buyurdu:

***"İndicə bizə çox acı bir xəbər gəldi. Müslim ibn Əqil və Hani ibn Ürvə öldürülmüşdür. Kufədəki tərəfdarlarımız bizdən ayrılmış, əlaqə və köməklərini bizdən kəsmişlər. Sizlərdən geri dönüb getmək istəyənlər dönüb getsin. Heç kəs bizə görə məsuliyyət daşımır!"***

Bundan sonra İmamın *(ə)* yanındakılar dağılışmağa başladı. Mədinədən onunla gələn əshabından başqa yanında heç kim qalmadı.

İmam Hüseyn *(ə)* və əshabı yenə yollarına davam edərkən qarşıdan onlara tərəf bir süvari ordusunun gəldiyini gördülər. Süvari ordusunun başında Hürr ibn Yezid ər-Riyahi var idi. Namaz vaxtı girincə İmam Hüseyn *(ə)* pişnamaz oldu. Hürr və adamları da İmam Hüseynə *(ə)* qatılaraq camaat namazı qıldılar. Namaz bitəndən sonra İmam *(ə)* camaata dönərək buyurdu:

***"Mən bura sizin dəvətiniz üzərə gəldim. Əgər siz əhdlərinizdən dönmüsünüzsə, mən də geri dönüb gəldiyim yerə gedim!"***

Hürr cavab verdi:

"Mənim belə bir dəvətdən xəbərim yoxdur. Mən sizi Kufəyə, Ubeydullah ibn Ziyadın yanına aparıncaya qədər sizdən ayrılmamağa əmr olundum".

İmam Hüseyn *(ə)* buyurdu:

***"Ölüm bundan yaxşıdır"***.

Sonra əshabına atlarına minmələrini əmr etdi. Ancaq Hürr buna mane olaraq dedi:

"Nə Mədinəyə gedə bilərsiz, nə də Kufədən başqa bir yerə!".

---

352 Muhəmmədsadiq Nəcmi, e.a.ə, s. 88.

353 Mustafa Asim Köksal, e.a.ə, s. 118-119.

Atlarına minən İmam Hüseyn *(ə)* və əshabı yavaş-yavaş hərəkət etdilər. Hürr və adamları da onları təqib edirdi.[354]

Bir az irəlilyincə Kufədən gələn dörd nəfərlə qarşılaşdılar. İmam Hüseyn *(ə)* onlardan soruşdu:

***"Kufədən nə xəbər?"***

Hürr İmamın *(ə)* bu adamlarla görüşməsinə mane olmaq istədi. Lakin İmamın *(ə)* qəti cəhdini görüb görüşmələrinə icazə verdi. Gələnlər kufəlilərin halını və Müslim ibn Əqilin necə qəddarcasına şəhid edildiyini danışdılar.

İçərilərindən biri belə dedi:

"Ya İmam *(ə)*! Dostun az, düşmənin çoxdur. Gəl bizim tanıdığımız dağa çəkil. O dağa düşmən nə qədər əsgər göndərərsə göndərsin, yenə də bir şey edə bilməyəcək. On gün keçmədən Kənar qəbilələr də köməyimizə gələr".

Lakin İmam *(ə)* onlara bu yola davam edəcəyini bildirdi.[355]

Səhər namazının vaxtı olunca İmam Hüseyn *(ə)* ilə əshabı namazlarını qılaraq tələsik heyvanlarına mindilər. İmam *(ə)* Hürrün süvari ordusundan ayrılmaq üçün əshabı ilə Badiyəyə tərəf irəliləmək istəyərkən Hürr də onları geri döndərməyə çalışdı. Onları Kufə yoluna döndərmək istəyən Hürr İmamın *(ə)* və o Həzrətin *(ə)* dəstəsindəkilərin dirənişini görərək Neynəvada qalmaqla kifayətləndi.[356]

Neynəva çölündə silahlı bir süvari onlara çatdı və Hürrə yaxınlaşaraq İbn Ziyaddan gətirdiyi məktubu ona verdi. Məktubda deyilirdi:

"İndi məktubum sənə çatdığı zaman Hüseyn ibn Əli və əshabını dərhal dayandır və olduqları yerdə saxla. Çalış onları sığınacaqsız, susuz, ağacsız və geniş bir yerdə durdur".

Hürr məktubu oxuyunca onları olduqları yerdə saxladı. Çünki orada nə bir su, nə də bir sığınacaq vardı.[357]

---

[354] Mustafa Necati Bursalı, e.a.ə, s. 174-175.
[355] Mustafa Asim Köksal, e.a.ə, s. 128-129.
[356] Muhəmmədsadiq Nəcmi, e.a.ə, s. 122.
[357] Nuri Ünlü, e.a.ə, I, 171.

İbn Ziyad Ömər ibn Sədi çağıraraq İmam Hüseynin *(ə)* üzərinə getməyi əmr etdi. Ömər ibn Səd dedi:

“Əgər uyğun görərsənsə, mən bu işdən vaz keçmək istəyirəm”.

Ömər ibn Sədin getmək istəmədiyini anlayan İbn Ziyad əgər getməzsə vəzifəsindən alınacağını söylədi. Ömər ibn Səd düşünmək üçün bir gün möhlət istədi. O, evə dönüb İbn Ziyadın əmrini bildirdikdə hər kəs onun bu işdən uzaq durması üçün öyüd verdi.

Ona dedilər:

“Vallahi, bütün dünyanın mülkü sənə verilsə belə, bu işə razılıq vermə”.

Ömər ibn Səd bütün gecə düşündü. Ertəsi gün səhər olunca ona əmr olunan işə razı oldu.[358]

İmam Hüseynin *(ə)* Kərbəlada (Neynəvada) saxlanmasının ertəsi günü Ömər ibn Səd dörd min atlı ilə Kərbəlaya gəldi və Əzrə ibn Qeysə dedi:

“Get Hüseyndən soruş, bura nə üçün gəldi və nə istəyir”.

Əzrə Hüseynin *(ə)* Kufəyə gəlməsindən ötəri məktub yazanlardan idi. Bunun üçün İmamın *(ə)* yanına getməkdən utandı.

İmam Hüseynə *(ə)* məktub yazan kufəli rəislərin hamısına bu iş təklif edildi. Hamısı da boyun qaçıraraq onun yanına getməkdən utandılar.

Ömər ibn Səd İmam Hüseynə *(ə)* elçi göndərərək nə istədiyini soruşdu. İmam Hüseyn *(ə)* buyurdu:

***“Mənim adımdan Ömər ibn Sədə de ki, bu şəhər xalqı mənə yazı yazdılar, yanlarına gəlməmi istədilər. Bu xüsusda mənə qəti söz verdilər. On səkkiz min adam beyət etdi. Lakin heç biri sözündə durmadı. Yanlarına gəldiyim zaman məni aldatdıqlarını hiss etdim. Gəldiyim yerə dönmək istəyəndə Hürr ibn Yezid buna mane oldu və buraya qədər məni gətirdi. Aramızda qohumluq var. Burax məni, dönüb gedim”***.

Ömər ibn Səd dedi:

“Allaha şükürlər olsun. Vallahi, mən də Hüseynlə qarşılaşmamaq üçün Allaha dua edirdim”.[359]

---

[358] Hayati Ülkü, e.a.ə,II, 130.

O, İmam Hüseynin *(ə)* təklifini İbn Ziyada bildirdi.

İbn Ziyad öncə İmam Hüseyni *(ə)* sərbəst buraxacaqmış kimi davrandı və dedi:

"Vallahi, o mənim hər hansı bir işimi əngəlləməmişdir. Mən onun yolunu açmaqdan, onu sərbəst buraxmaqdan başqa şey düşünmürəm. Hara istəyirsə çıxsın getsin!"

Lakin Şimr ibn Zilcövşən dedi:

"Əgər sən belə etsən və Hüseyni sərbəst buraxsan bir daha onu ələ keçirə bilməzsən".

İbn Ziyad İmam Hüseyni *(ə)* Yezidə göndərmək istəyəndə də Şimr dedi:

"Allahın sənin əlinə düşürdüyü düşməni Yezidəmi göndərəcəksən? O, sənin hökmünə boyun əymədikcə qətiyyən olmaz".

İbn Ziyad Zilcövşənin bu fikrini mənimsədi.[360] O, Ömər ibn Sədə belə bir məktub yazdı:

"İndi yazın mənə çatdı. O, indi bizim torumuza düşmüşdür və qurtulmağa ümid edir. Onlardan Yezidə beyət etmələrini istə. Əgər beyət etsələr mənə yaz, gərəyi düşünülər".

Bu yazı Ömər ibn Sədə gəlincə o, gileyləndi:

"Mən onsuz da İbn Ziyadın sülh tərəfdarı olmadığını bilirdim".

Bundan sonra Ömər ibn Sədə bir yazı da gəldi. Yazıda deyilirdi:

"İndi Hüseyn ilə əshabının Fəratın suyu ilə əlaqəsini kəs. Onlar bu sudan bir damcı da dadmayacaqlar".

Ömər ibn Səd də beş yüz süvari ilə Əmr ibn Həccacı göndərərək İmam Hüseyn *(ə)* və yaxınlarını Fərata yaxın buraxmamağı tapşırdı. Bu hadisə İmamın *(ə)* şəhadətindən üç gün öncə idi.[361]

İmam Hüseyn *(ə)* Kəb Ənsarini Ömər ibn Sədin yanına göndərib gecə iki qoşun arasında onunla görüşmək istədiyini bil-

---

[359] www.odtumezunlari.gen.tr; www.ziyababa.org tr.

[360] Mustafa Asim Köksal, e.a.ə, s. 143.

[361] www.ziyababa.org tr; Mustafa Asim Köksal, e.a.ə, s. 144, Mustafa Necati Bursalı, e.a.ə, s. 177.

dirdi. Gecədən bir qədər keçmişdi ki, Ömər ibn Sədlə İmam Hüseyn *(ə)* iki qoşun arasında bir-birinə çatdılar. Hər ikisini iyirmi atlı müşayiət edirdi. İmam Hüseyn *(ə)* Ömər ibn Sədlə gecənin yarısına qədər oturub danışdı və ayrıldılar.[362]

Xalq arasında yayılmışdı ki, İmam Hüseyn *(ə)* Ömər ibn Sədə bu üç yoldan birini təklif etmişdi;

1. Mədinəyə qayıtmağa yol versin.

2. Yezidin yanına gedib görüşlərini bildirsinlər.

3. Onu müsəlman şəhərlərindən birinə aparsınlar və o, adi bir müsəlman hüququna malik olsun.[363]

Ömər ibn Səd İmam Hüseynlə *(ə)* danışdıqdan sonra İbn Ziyada bir məktub yazaraq İmamın *(ə)* təkliflərini ona bildirdi. İbn Ziyad məktubu oxuyub dedi:

"Bu, öz əmirinə nəsihət edən və xalqına mehriban olan bir adamın məktubudur. Bəli, qətiyyətlə qəbul edirəm".

Bu halda Şimr ibn Zilcövşən ayağa qalxaraq dedi:

"Bu sözü sənin torpağında və yaxınlığında olan Hüseyndən qəbul edirsən? Allaha and olsun, əgər əlini sənin əlinə qoymayıb bu şəhərdən keçərsə, qüdrət və hörmət qazanacaq. Bu fürsəti ona vermə. Mənə belə bir xəbər gəlib ki, Hüseyn ilə Ömər ibn Səd gecələr danışırlar".

İbn Ziyad dedi:

"Ən gözəl fikir səninkidir".

İbn Ziyad Ömər ibn Sədə cavab olaraq belə yazdı:

"Nəhayət, bundan sonra təkid edirəm ki, səni Hüseyndən əl çəkib sözü uzatmağa, ona əmin-amanlıq diləməyə göndərməmişəm. Əgər təslim olsalar o zaman sağ-salamat yanıma göndər. Əks təqdirdə isə yürüş edib başlarını kəs! Onlar qəti surətdə öldürülməlidirlər! Hüseyni öldürdükdən sonra nəşi üstündə at çapdırın, çünki üsyan edərək araya ayrılıq salıb".

İbn Ziyad Şimr ibn Zilcövşəni çağıraraq məktubu ona verdi. Ömər ibn Səd əmrə tabe olduğu müddətə qədər ona itaət et-

---

[362] Muhəmmədsadiq Nəcmi, e.a.ə, s. 130.

[363] www.ziyababa.org.tr; Əbu Mexnəf Lut ibn Yəhya, e.a.ə, s. 72-73.

məyi, əks təqdirdə onun da boynunu vurmağı Şimrə tapşırdı.[364] Ömər ibn Səd İbn Ziyadın yazısını adamlarından biri ilə İmam Hüseynə *(ə)* göndərdi. İmam *(ə)* buyurdu:

***"Mənmi Mərcanənin oğluna boyun əyəcəm? Vallahi, mən bunu heç bir zaman etmərəm! Bu yolda ölümdən o tərəfi varmı? Elə isə ölüm xoş gəldi, səfa gətirdi!"***.

Ömər ibn Səd İmam Hüseynin *(ə)* edilən təklifi rədd etdiyini İbn Ziyada yazıb bildirdi. İbn Ziyad hirsləndi və hər kəsi İmam Hüseynlə *(ə)* savaşmaq üzrə Kərbəlada topladı. Kufəlilərə bol-bol bəxşiş verdi. Kufədə İmamla *(ə)* savaşmaqdan çəkinən çox az kimsə qaldı. İbn Ziyad əmr etdi ki, Kufədə qalanları tutub gətirsinlər və bir nəfəri tutaraq boynunu vurdu. Bunu görən hər kəs Kərbəlaya getməyə məcbur oldu.

Nəhayət, Ömər ibn Səd ikindi namazından sonra qoşuna hücum əmri verdi. Digər tərəfdən Abbas ibn Əli İmam Hüseynin *(ə)* yanına gəlib Ömər ibn Sədin xəbərini ona bildirdi. İmam *(ə)* buyurdu:

***"Qayıt, onlardan sabaha qədər möhlət istə. De ki, fikirləşib bir qərara gəlmək üçün bizə möhlət versinlər. Səhər olanda isə fikrimizi bildirərik"***.

Abbas ibn Əli dərhal qayıdaraq onlara belə dedi:

"Fikirləşib qərara gəlmək üçün İmam Hüseyn *(ə)* sizdən bu günlük dönmənizi istəyir. İstəyinizə razı olub-olmadığımızı sizə sabah bildirərik".

Ravi deyir ki, İmam Hüseynin *(ə)* möhlət istəməsi yaxınlarına vəsiyyət edib döyüşə tədarük görməsi üçün idi. Nəhayət, Ömər ibn Səd bir elçi göndərərək möhlət verildiyini bildirdi.[365]

Ömər ibn Səd qoşununu geri çəkincə İmam Hüseyn *(ə)* öz əshabını toplayaraq Allaha həmd etdikdən sonra onlarla halallaşdı. İmam *(ə)* buyurdu:

***"Mən zənn edirəm ki, düşmənlərimiz ertəsi gün bizi öldürəcəklər. Sizin üzərinizdə məzəmmətim yoxdur. Hər biriniz əhli-beytimin birinin əlini tutub öz yurdunuza gedin. Ta ki, Allah bizə bir çıxış yolu açsın!"***.

---

[364] Mustafa Asim Köksal, e.a.ə, s. 149; İslam Tarihi Ansiklopedisi, V, 221.

[365] Əbu Mexnəf Lut ibn Yəhya, e.a.ə, s. 79, Mustafa Asim Köksal, e.a.ə, s. 155.

Abbas ibn Əli ayağa qalxıb dedi:

"Nə üçün səni tək qoyub gedək? Səndən sonra bu dünyada sağ qalmaq üçün? Allah belə sağlığı bizə göstərməsin!"

Şənbə günü, Aşura səhəri açıldıqda Ömər ibn Səd səhər namazını qıldıqdan sonra qoşunla çıxdı. Qoşuna başçılıq edənlər bunlardan ibarət idi:

Mədinə əyanı Abdullah ibn Züheyr;

Məzhəc və Əsəd qəbiləsinin əyanı Əbdürrəhman və Rəbiyə;

Kində qəbiləsinin başçısı Qeys;

Ömər ibn Səd.

Ömər ibn Səd qoşunun sağ tərəfini Əmr ibn Həccaca, sol tərəfini isə Şimr ibn Zilcövşənə tapşırdı.

İmam Hüseyn *(ə)* atlıları gördükdə əllərini göyə qaldırıb bu duanı oxudu:

***"İlahi, hər çətinlikdə ümidim yalnız Sənədir. Qarşıma çıxan hər bir işdə Səndən qüvvət alıram. Bu müşkülümü Sənə açıb, Sənə şikayət etmişəm. Çünki Səndən başqasına yox, yalnız Sənə rəğbətim var. Sənsən bütün yaxşılıqların sahibi və bütün arzu-diləklərin sonu"***.

Kərbəlada ölümdən yaxa qurtaran İmamın *(ə)* səhabələrindən Zəhhak ibn Abdullah deyir:

"Qoşun bizə tərəf yürüş etdikdə bir atlı onlardan ayrılıb sürətlə gəlirdi. Keçərək xəndəkdə yandırdığımız odu götürüb uca səslə dilləndi:

"Ey Hüseyn, Qiyamət günü gəlməmiş bu dünyada oda tələsmisən!"

İmam Hüseyn *(ə)* buyurdu:

***"Bu kimdir?"***

Dedilər:

"Şimr ibn Zilcövşəndir".

İmam *(ə)* buyurdu:

***"Ey keçi otaran qadının oğlu! Sən odda yanmağa daha çox layiqsən!"***[366]

---

[366] Mustafa Asim Köksal, e.a.ə, s. 163, Əbu Mexnəf Lut bin Yəhya, e.a.ə, s. 85.

İmam Hüseyn *(ə)* də əshabı ilə sabah namazı qıldıqdan sonra onları döyüş nizamına uyğun düzdü. İmamın *(ə)* dəstəsində otuz iki atlı, qırx piyada var idi.

İmam *(ə)* kufəlilərin arxadan hücum etmələri ehtimalını göz önünə alaraq çadırların arxasına odun və qamış yığıb yandırmalarını əmr etmiş, bunun üçün gecədən çuxurlar qazılmış, içinə odun və qamış doldurulmuş, bu şəkildə arxa tərəflərini əmniyyət altına almışdılar.

Hürr ibn Yezid Ömər ibn Səddən soruşdu:

"Nə üçün onun təkliflərindən birini qəbul etmirsiniz?"

Ömər ibn Səd dedi:

"Vallahi, bu iş mənim əlimdə olsaydı qəbul edərdim. Lakin sənin valin buna razı olmadı".

Bundan sonra Hürr ibn Yezid Ömər ibn Səddən ayrılaraq ordunun önündə dayandı. Hürr İmam Hüseyn *(ə)* olan yerə yavaş-yavaş yaxınlaşırdı. Mühacir ibn Evs dedi:

"Ey Hürr, sənə nə olub? Sənin halın mənə şübhəli görünür".

Hürr dedi:

"Vallahi, Cənnətlə Cəhənnəm arasında qalan kimi özümü ikisindən birini seçmək üzrə sərbəst buraxıram. And olsun Allaha, Cənnəti heç bir şeyə dəyişmərəm, hətta öldürülsəm belə".

Sonra Hürr ibn Yezid atını çapıb İmam Hüseynin *(ə)* yanına getdi.

Kufəlilərdən də otuz nəfər dedilər:

"Rəsulullahın *(s)* oğlu sizə üç təklif etdi. Heç birisini qəbul etmədiniz".

Onlar bu sözdən sonra İmam Hüseynin *(ə)* tərəfinə keçdilər və ölüncəyə qədər onun yanında vuruşdular.[367]

Ömər ibn Səd ordusunu İmam Hüseyn *(ə)* və əshabına tərəf hərəkətə keçirərək səsləndi:

"Ey Züveyd! Bayrağını mənə yaxınlaşdır".

Bayraq ona yaxınlaşdırılınca oxunu alaraq İmam Hüseynə *(ə)* tərəfə atdı və dedi:

"Şahid olun ki, ilk oxu atan şəxs mənəm".

---

[367] Mustafa Asim Köksal, e.a.ə, s.175.

Bu hadisə Hicrətin altmış birinci ilində, Məhərrəm ayının onu, cümə günü səhəri baş verdi. Doğru bir rəvayətə görə, düşmən ordusu otuz beş min nəfər əsgərdən, İmam Hüseynin *(ə)* dəstəsi isə yetmiş iki nəfərdən ibarət idi.[368]

Kufə ordusunun sağ cinah rəhbəri Əmr ibn Həccac bütün qüvvələri ilə birlikdə hücuma keçdi. İmam Hüseyn *(ə)* və əshabı yaxınlaşan düşmənə nizələrlə cavab verdilər. Atlar qorxudan nizələrin üzərinə gəlməyərək dönüb qayıdınca onları ox atəşinə tutdular, bir qismini öldürdülər, bir qismini də yaraladılar.

Hürrün İmam Hüseynin *(ə)* yanına getdiyini eşidincə Təmim oğulları qəbiləsindən Yezid ibn Süfyan demişdi:

"Vallahi, əgər Hürrü görsəm arxasını buraxmaz, öldürərəm".

İki tərəf bir-biri ilə vuruşduğu zaman Husayn ibn Numeyr Yezid ibn Süfyana dedi:

"Hürr ibn Yezid odur! Onunla qarşılaşmağı çox arzulayırdın".

Yezid ibn Süfyan – "Bəli" deyərək Hürrə tərəf getdi, yaxınlaşınca ona döyüşməyi təklif etdi, Hürr də razılaşdı. Döyüşməyə başladılar. Hürr gözünü açmağa belə, imkan vermədən onu öldürdü.

Əmr ibn Həccac Kufə ordusuna bağıraraq dedi:

"Ey axmaqlar! Siz şəhər süvariləri kimlərlə döyüşdüyünü bilirmi? Ölməyi istəyən bir qövmlə! Heç biriniz onlarla ayrı-ayrı döyüşməyin. Onlar azdır, azala-azala heç qalmazlar".

Ömər ibn Səd dedi:

"Doğru söylədin".

Sonra hamının hücuma keçməsi barədə əmr etdi.[369]

Savaş davam edirdi. İmam Hüseynin *(ə)* igidləri bir-bir şəhadət şərbətini içirdilər. Müslim ibn Övsəcə, Abdullah ibn Ümeyr qəhrəmancasına şəhid oldular. Həzrət Hüseynin *(ə)* otuz iki nəfərdən ibarət süvariləri hər tərəfdən hücuma gələn Kufə

---

[368] www.caferilik.de.

[369] Mustafa Asim Köksal, e.a.ə, s. 182.

süvariləri ilə qəhrəmancasına savaşırdı. Bunu görən Ömər ibn Səd, Husayn ibn Nümeyri çağırdı. Onu beş yüz oxçu ilə İmam Hüseynin *(ə)* üzərinə göndərdi. Bunlar İmamın *(ə)* əshabına ox yağdırınca atları irəliləyə bilmədi. Buna görə də hamısı atlarından enib piyada oldular.

Səd ibn Ubeydə deyir:

"Kufəli qocalardan bəziləri kiçik bir təpənin üzərinə çıxaraq ağlayır və deyirdilər:

"Ey Allahım! Sən köməkçilərini endir".

Onlara dedim:

"Ey Allahın düşmənləri! Onu siz kufəlilər bu vəziyyətə salmadınızmı ki, bir də durub ona kömək etməsini Allahdan istəyirsiniz?"

Savaş günortaya qədər şiddətlə davam etdi. Çadırların sıx və dolaşıq olması səbəbi ilə Kufə ordusu bir tərəfdən hücum edirdi. Ömər ibn Səd bunu görüncə bir dəstə adam göndərərək çadırları dağıtmağı əmr etdi. Lakin bu mümkün olmadı. Çünki İmam Hüseynin *(ə)* əshabından üç dörd nəfər çadırlarda gizlənərək ora yaxınlaşanları oxla vururdular. Bunu görən Ömər ibn Səd çadırların yandırılmasını əmr etdi. Çadırlar yanarkən yenə də kufəlilər üçün keçilməz oldu.

Şimr ibn Zilcövşən İmam Hüseynin *(ə)* çadırına qədər irəliləyib bağırdı:

"Mənə atəş gətirin! Bu çadırı içindəkilərlə bərabər yandıracağam".

Qadınlar fəryad edərək çadırlardan çıxmağa başladılar. Bunu görən İmam Hüseyn *(ə)* belə buyurdu:

***"Ey İbn Zilcövşən! Sən mənim əhli-beytimi yandırmaq üçün atəş gətirirsən. Allah da səni Cəhənnəmində yandıracaq!"***

O əsnada Abdullah ibn Ümeyrin zövcəsi Ümmü Vəhb Abdullahın cəsədinin başında oturaraq əli ilə onun üzündəki tozları silir və deyirdi:

"Cənnət sənə mübarək, Cənnət nemətləri sənə nuş olsun".

Şimr ibn Zilcövşən oğlu Rüstəmə dedi:

“Onun başına əmudla vur!”

Rüstəm, Ümmü Vəhbin başına əmudla vurduğu zaman qadın yerindəcə canını tapşırdı.[370]

Hürr ibn Yezid və Züheyr Şam ordusu ilə şiddətli bir şəkildə vuruşurdu. Biri ordunun içinə dalır, digəri onu qurtarırdı. Bir müddət bu şəkildə döyüşdülər. Sonra Şam piyadaları Hürrün üzərinə gedərək onu şəhid etdilər.

## 4. 3. İMAM HÜSEYNİN *(ə)* ÖNÜNDƏ ŞƏHİD OLAN ŞƏXSLƏR

İmam Hüseyn *(ə)* və əshabı Şam ordusunun önündə bir-bir şəhadət yarışına girişdilər. Seyf ibn Hari ilə Malik ibn Abd adında iki gənc İmamın *(ə)* yanına gəldilər. Onlar ağlayırdılar. İmam *(ə)* onlara buyurdu:

***“Ey qardaşımın oğulları ağlamayın! Vallahi, bir az sonra sevinəcəyinizə ümid edirəm”***.

Gənclər dedi:

“Allah bizi sənə fəda etsin! Xeyr! Vallahi, biz özümüzə görə ağlamırıq. Sənin hər tərəfdən mühasirəyə alındığını, bizim isə səni qorumağa gücümüz yetmədiyini düşünərək ağlayırıq”.

İmam Hüseyn *(ə)* belə dua etdi:

***“Ey qardaşımın oğulları, siz bu yolda mənə necə yaxşılıq etdiniz və dərd ortağı oldunuzsa, Allah da ən gözəl mükafatla sizi sevindirsin!”***.

Digər qəhrəmanlar isə İmam Hüseyndən *(ə)* icazə istəyərək döyüş meydanına atılır və bir-birinin ardınca şəhid olurdular. Bunların arasında Həbib ibn Məzahir, Nafə ibn Hilal, Əsəd ibn Şiyami, Cabiri qəbiləsindən olan iki gənc, Ğəffar tayfasından olan iki qardaş və başqaları var idi.[371]

---

[370] E.a.ə, s. 186.

[371] Mustafa Asim Köksal, e.a.ə, s. 191-192-193.

İmamın *(ə)* əhli-beytindən ilk şəhid olan böyük oğlu Əliy-yul-Əkbər idi. O, Kufə ordusuna dayanmadan hücum edirdi. Şamlılardan bir adam belə dedi:

"Sən möminlərin əmiri Yezid ibn Müaviyənin qohumu olduğun üçün və bu qohumluğu gözləməyimiz səbəbi ilə səni öldürmək istəmirik".

Əliyyul-Əkbər dedi:

"Rəsulullahla *(s)* olan qohumluq gözlənilməyə daha çox layiqdir!"

Mərrət ibn Mənqəz adlı bir kufəli dedi:

"Əgər onunla qarşılaşarsam atasını oğulsuz qoyacağam".

Əliyyul-Əkbər yenə Şam ordusuna hücum edincə İbn Mənqəz yandan gələrək qılıncla vurub onu atdan yerə saldı. Sonra şamlılar həmlə edib onu qılıncları ilə amansızcasına doğradılar.

İmam Hüseyn *(ə)* özünü oğlunun başı üstünə yetirib buyurdu: ***"Oğul, Allah səni öldürən qövmü öldürsün! Allahın əmrindən çıxaraq Peyğəmbərə hörmətsizlik etməkdə onlar nə qədər irəli getdilər. Səndən sonra bu dünya mənim üçün bir torpaq yığınıdır!"***

Sonra İmam Hüseyn *(ə)* Əliyyul-Əkbərin cəsədini qaldırıb çadırların yanına apardı.[372]

Abdullah ibn Müslim də– Əmr ibn Subeyhus-Səydəvinin atdığı oxla şəhid oldu. Əmr ibn Subeyhus-Səydəvinin atdığı birinci oxdan alnını əli ilə qorumaq istəyən Müslimin əli alnına mıxlandı və ayıra bilmədi. Əmr ibn Subeyhus-Səydəvinin atdığı ikinci ox isə Müslimin ürəyindən dəydi.

Şam ordusundan Abdullah ibn Qəhtəbeyi Qai hücum edib Ovn ibn Abdullah ibn Cəfəri şəhid etdi. Sonra onun qardaşı Məhəmməd ibn Abdullah ibn Cəfər döyüş meydanına gəldi. Onu da Əmr ibn Nəşəl Təmimi şəhid etdi. Əbdürrəhman ibn Aqil meydana daxil oldu. Onu da Osman ibn Xalid şəhid etdi.

---

[372] www.feyzdergisi.com; Əbu Mexnəf Lut ibn Yəhya, e.a.ə, s. 109, Mustafa Asim Köksal, e.a.ə, s. 196, Seyyid Əli Əkbər Qureyşi, "Kərbəla meydanı", Bakı-2000, s. 47-48.

Humeyd ibn Müslim deyirdi:

“Bir gənc bizə tərəf gəlirdi. Onun üzü sanki ay parçası idi. Əlində qılınc və üzərində köynək var idi”.

İmam Hüseyn *(ə)* kiçik uşağı Əli Əsgəri götürüb meydana getdi. O zaman uşağın üç yaşı (digər bir rəvayətə görə, onun hələ bir yaş altı ayı tamam olmuşdu)[373] var idi. Şam ordusunun oxatanlar bölümündən Hərmələ adlı bir məlun bir ox ataraq Əli Əsgəri boğazından vurdu. İmam Hüseyn *(ə)* qanla dolmuş ovucunu yerə boşaltdı. İmam *(ə)* uşağın boğazından oxu çəkib atdıqdan sonra əli ilə qanını silərək buyurdu:

***“Ey Allahım! Bunlarla və qövmümüzdən olanlarla aramızda Sən hökm ver. Kömək etmək üçün bizi çağırırlar. Sonra da tutub bizi öldürürlər”.***[374]

İmamın *(ə)* ordusundan son döyüşə gedən qardaşı Abbas ibn Əli idi.[375] O, ərəb qəbilələri içində ən şücaətli qəbilə olan Bəni-Əsəd qəbiləsindən idi.[376]

---

[373] www.alevibektasi.org.

[374] Muhəmmədsadiq Nəcmi, e.a.ə, s. 210-211.

[375] Hicri təqvimi ilə 26-cı il, Rəcəb ayının dördüncü günü Kərbəla ələmdarı, Neynəva Səqqa, Bəni-Haşimin Qəməri Əbulfəzl-Abbas dünyaya göz açdı (“Vəqaye və həvadis”, c. 3, səh. 30).

Abbas ibn Əlinin əziz atası təqvalılar mövlası, Əmirəl-möminin Əli *(ə)*, uca məqamlı anası isə Ümmi-Bənin ləqəbli Fatimə Kəlabiyədir. O mübarək doğulmuş uşağın qundağını əziz atasına verdilər. İmam Əli *(ə)* onu görəndə mübarək gözləri yaşla doldu. Sonra Peyğəmbərin *(s)* sünnəsinə uyğun olaraq sağ qulağına azan, sol qulağına iqamə oxudu və Ümmil-Bənindən soruşdu:

***“Onu necə adlandırdınız?”***

Ümmil-Bənin dedi:

“Mən heç bir işi sizdən öncə yerinə yetirməmişəm. Bəyəndiyiniz hər hansı adı ona seçin”.

Əmirəl-möminin *(ə)* buyurdu:

***“Bu uşağı əmimin adı ilə – Abbas adlandırıram”.***

Abbas ibn Əlinin künyəsi Əbülfəzldir. Çünki onun həyatı başdan-başa fəzilət və ütsünlükdən ibarətdir. Onun ən məşhur ləqəbləri bunlardır:

Qəməri-Bəni-Haşim, Babul-həvaic, Babul-Huseyn, Səqqa, Əbdu Saleh, əl-Həvasi (fədakarlıq edən), Sahibul-ləva (bayraqdar), Sədiq (“Çehreye-derəxşane-Qəməre-Bəni-Haşim, Əbülfəzlil-Əbbas”: c. 1, səh. 147).

Abbas ibn Əli xoş simalı və gözəl idi. Ona görə də onun ləqəbi “Bəni-Haşimin Ayı”dır. Uca qamətli, güclü qollara sahib idi. Ata süvar olanda dizi atın boğazına

çatardı. Allahın Cəlal və Cəbərutun məzhəri idi. Şücaət və (gözəl) sifətlərdə İmam Hüseyndən *(ə)* sonra Əmirəl-mömininin *(ə)* ölvadlarının öncülü idi.

Abbas ibn Əli bir parça iman və bəsirət idi. İmam Sadiq *(ə)* onun ziyarətnaməsində belə buyurub:

***"Şəhadət verirəm ki, sən bir an da olsa, süstlük göstərməyib, qayıtmamısan. Sənin addımların dinin iman və bəsirətində iz qoyub"*** ("Kamilul-ziyarat", səh. 786.).

Başqa bir yerdə İmam *(ə)* buyurub:

***"Bizim əmimiz Əbbas iti (açıq) gözlü və möhkəm imanı olan şəxs idi. Qardaşı ilə birgə cihad edib, Allahın imtahanından qalib çıxıb və şəhadətlə həyat köçünü yığdı"*** ("Əyanuş-şiə", səh. 786).

Sonda Abbas ibn Əlinin məqamı haqqında İmam Baqirin *(ə)* buyurduğu *(ə)* rəvayəti sizə təqdim edirik:

***"Qiyamət qopanda Peyğəmbəri-Əkrəm, Əmirəl-mömininə buyuracaq: "Fatiməyə de: Ümmətin şəfaəti üçün Allahın dərgahına nəyi (ərz) təqdim edirsən?"***

***Həzrət Əli onun sözünü çatdıracaq və cavabında o böyük Xanım buyuracaq:***

***"Oğlum Abbasın kəsilmiş iki əli bu məqam üçün kifayətdir"*** ("Məaluyul-Sibtəyn", c. 2, səh. 452).[375]

[376] Əbülfəzl-Abbasın anası Ümmül-Bəninin ata-babaları İslamdan öncəki ərəblər arasında qəhrəmanlardan hesab olunur. Tarixçilər onların döyüş zamanı göstərdikləri şücaəti xüsusi vurğulayıblar. Əbulfərəc İsfahani özünün kitabında Ümmül-Bəninin əcdadının qəhrəmanlığından yazıb. Bundan əlavə, onlar öz qövmlərinin başçısı olublar. Belə ki, dövrün sultanları onlara təslim olaraq baş əyirdilər. Təsadüfi deyil ki, Əqil ibn Əbi Talib Əmirəl-mömininə *(ə)* deyirdi:

"Ərəblər arasında Ümmül-Bənin tayfasından daha qəhrəman və şücaətlilərin görməmişəm".

Əmirəl-möminin *(ə)* Xanım Fatimənin *(ə)* şəhadətindən sonra Ümmül-Bənin ilə evlənib.

Deyilənə görə, Əqil ibn Əbi Talib ərəb tayfalarını tanıyırdı. Həzrət Əliyə *(ə)* Ümmül-Bəninlə evlənmək təkilifini də o, etmişdi. Həzrət *(ə)* bu təklifi qəbul edir və qardaşını Ümmül-Bəninin atasının yanına elçiliyə göndərir. Bu izdivacın nəticəsində Əbülfəzl-Əbbas, Əbdüllah, Osman, Cəfər dünyaya gəldi ki, onlar da Kərbəlada şəhid oldular.

Ümmül-Bənin istər Həzrət Əlinin *(ə)* həyatı dövründə, istərsə də onun şəhadətindən sonra öz həyat yoldaşı üçün səmimi, fədakar, ismətli xanım olub. Bu fədakar xanım Həzrət Əlinin *(ə)* azyaşlı uşaqlarını görəndə birbaşa onlara xidmət etmək qərarına gəldi və həqiqi bir ana kimi tutduğu yolda irəli getdi. Xanım Fatimənin *(ə)* övladlarını öz övladlarından da önə çəkdi. Əsasən öz məhəbbətini onlara həsr etdi. Bir qədər sonra (əsl adı Fatimə olduğu üçün) Həzrət Əliyə *(ə)* deyir ki, onun adını Ümmül-Bənin çağırsın. Beləliklə də İmam Həsən *(ə)* və İmam Hüseyn *(ə)* onun əsl adını atalarından eşidəndə analarına aid acı xatirələri xatırlayıb anasızlıq əzabını hiss etməsinlər. Məhz onun belə xüsusiyyətlərinə görə Həzrət Əli *(ə)* səmimi-qəlbdən onun hörmətini saxlayırdı.

Əbülfəzl-Abbas çox böyük şücaət və fəzilətə malik olmuşdur. Mənbələrin qeyd etdiyi rəvayətlərə görə, onun Kərbəlada göstərdiyi şücaət dost və düşmənin etirafına səbəb olmuşdur. Abbas ibn Əlinin fəzilətləri haqqında hədisi-şəriflərdə də kifayət qədər məlumatlar var. Həmin hədislərdən aşağıdakıları qeyd etməklə onun İslamda xüsusi fəzilətə sahib olduğunun şahidi olacağıq.

İmam Hüseyn *(ə)* Əbülfəzl-Abbasa xitabən buyurmuşdur:

***"Canım sənə fəda olsun, ey qardaşm".*** [377]

---

Deyirlər ki, Aşura hadisəsində Ümmül-Bənin Mədinədə idi. Övladlarına səfər zamanı belə tapşırdı:

"Mövlam İmam Hüseynə *(ə)* göz qoyun, ona itaət edin!".

Əlbəttə, Bəşir və xanım Zeynəb ona İmam Hüseynin *(ə)* şəhadət xəbərini verəndə o dedi:

"Ey Bəşir, ürəyimi parçaladın!".

Səsini qaldırıb nalə etməyə başladı. Bəşir dedi:

"Allah, mövlamız İmam Hüseynin *(ə)* müsibətinə görə sizə böyük mükafat versin".

Ümmül-Bənin dedi:

"Övladlarım və Yer üzündə olan hər bir şey İmam Hüseynə *(ə)* fəda olsun!"

Din alimi Mamağaninin dediyinə əsasən, onun bu sözü imanının yüksək dərəcəsini, imamət məqamını güclü tanıdığını göstərir. O, özünün misilsiz dörd oğlunun İmamın *(ə)* müdafiəsi uğurunda şəhadətə çatmasını şükranlıqla qəbul edir.

Kərbəla hadisəsindən sonra o, hər gün övladı Abbas üçün ağlayır, mərsiyələr deyir, onun balalarını özü ilə birlikdə gətirərdi. Mədinə camaatı onun mərsiyələrini eşitmək üçün toplanar, yandırıb-yaxan rövzələrindən hamılıqla göz yaşı tökərdilər.

Diqqət olunası nöqtə odur ki, onun Bəqi məzarlığına gəlməsi Bəni-Üməyyəyə qarşı bir inqilab idi. Camaatı o müsibətin incəliklərindən xəbərdar edirdi.

Aşura hadisəsi və orada şəhid olanların xəbərindən sonra Ümmül-Bənin öz evində yas mərasimi təşkil etdi. Bəni-Haşim qadınları orada bir araya gəlib İmam Hüseyn *(ə)* və onun ailəsi üçün ağlayırdı.

Məşhur rəvayətə görə, Hicri təqvimi ilə 64-cü il, Cəmadius-sani ayının 13-cü günü, Həzrət İmam Əlinin *(ə)* həyat yoldaşı və Qəməri-Bəni-Haşimin əziz anası Ümmül-Bənin vəfat etdi. Onun oğlu Abbasın nəvələrinin əksəriyyəti Ərəbistan, İraq, Misir, İordaniya, İran və Türkmənistana da yayılmış, elm, ədəbiyyat, hədis və şeirdə öz dövrlərinin üstünləri olmuşlar.

O cümlədən Əbu Əli ibn Həmzə ibn Qasim ibn Əli ibn Həmzə ibn Həsən ibn Abdullah …ibn Abbas Əhli-Beyt *(ə)* məktəbinə xas aləmdə etimad olunan hədisşünaslardan olmuşdur. O, "ət-Tövhid", "əz-Ziyarə", "əl-Mənasik" kimi kitabların müəllifidir (Mənbə: http://www.muselman.ws).

[377] "Tarixi-Təbəri", c. IV, s. 315.

İmam Cəfər Sadiq *(ə)* buyurur:

***"Bizim əmimiz Abbas ibn Əli dolğun təfəkkürlü və imanlı idi".***[378]

İmam Mehdi (ə.f.) buyurur:

***"Əmirəl-möminin Əli oğlu Abbasa salam olsun ki, ömründən qiyamət gününə tədarük edib canını qardaşının köməyi yolunda fəda etdi".***[379]

İmam Zeynülabidin *(ə)* buyurur:

***"Allah-taala yanında Əbülfəzl-Abbas üçün elə məqam vardır ki, qiyamət günü bütün şəhidlər ona qibtə edərlər".***[380]

İmam Hüseyn *(ə)* bərk susamışdı, susuzluğu dözülməz hala gəlincə çadırından çıxaraq Fərata tərəf getdi. Bu zaman şamlılar İmamın *(ə)* su içməsinə mane oldular, hətta onlardan bir nəfər ox atıb Həzrət Hüseynin *(ə)* barmağından vurdu. İmam *(ə)* oxu çəkib atdıqdan sonra əllərini açdı, əlləri qanla doldu və belə buyurdu:

***"Ey Allahım! Sən də onu susuz öldür. Ey Allahım! Peyğəmbərinin oğluna edilənlərdən ötrü şikayətimi Sənə ərz edirəm!".***

Sonra İmam Hüseyn *(ə)* geri döndü.

Deyilənə görə, çox keçmədən həmin şəxs susuzluq xəstəliyinə tutuldu, yanında soyuq su olduğu halda ondan içir və doymurdu. Nəhayət, qarnı şişərək partladı və beləcə Cəhənnəmə vasil oldu.

Şam ordusunun piyadaları İmamı *(ə)* mühasirə edərək aradakı məsafəni getdikcə azaldırdılar. İmam *(ə)* onların üstünə gedincə dağılışırdılar. Bundan sonra onlar İmamı *(ə)* bir dəfə də mühasirə etdilər. İmamın *(ə)* yanına əhli-beytindən bir uşaq gəlmək istəyirdi. Xanım Zeynəb onu tutub saxladı. İmam *(ə)* Zeynəbə buyurdu:

***"Onu buraxma".***

Uşaq dinləməyərək İmam Hüseynə *(ə)* tərəf qaçıb gəldi və o Həzrətin *(ə)* yanında dayandı. Bəhr ibn Kəb Hüseynin *(ə)* üstünə qılıncla gedərkən uşaq ona bağırdı:

***"Ey pis kişinin oglu! Əmimi öldürəcəksən?".***

---

[378] "Əyanuş-şiə", c. VII, s. 430.

[379] "Biharul-ənvar", c. 101 s. 270.

[380] Şeyx Səduq, "əl-Xisal", c. I, s. 68.

Bəhr uşağı qılıncla vurdu. Uşaq əli ilə qorunmaq istəyərkən qılınc əlini kəsdi. Bu zaman uşaq – "Bibican!" deyərək fəryad etdi. İmam *(ə)* onu tutub bağrına basdı və buyurdu:

***"Ey qardaşımın oğlu! Başına gələn fəlakətlərə səbir et. Şübhəsiz bunda xeyir var"***.

Sonra Həzrət Hüseyn *(ə)* buyurdu:

***"Ey Allahım! Onlara göydən yağış yağdırma və Yer bərəkətlərindən onları məhrum et"***.[381]

Şam ordusundan olan Abdullah ibn Əmmar deyir:

"Hücum edərkən Hüseynin yanına qədər yaxınlaşmışdım. İstəsəydim onu vura bilərdim. Lakin geri döndüm. O əsnada bacısı Zeynəb bint Fatimə çadırdan çıxdı və – "nə olaydı göy Yerə yıxılıb bir olaydı" deyirdi. Zeynəb Hüseynin yaxınlığında olan Ömər ibn Sədə dedi:

"Ey Ömər! Sən baxıb durarkən Əbu Abdullah öldürüləcəkmi?"

O əsnada Ömər ibn Sədin yanaqlarına və saqqalına göz yaşlarının axdığını gördüm. O, üzünü Zeynəbdən yan tərəfə çevirdi".[382]

İmam Hüseyn *(ə)* uzun müddət hərəkətsiz qaldı. Həmin vaxt Şam ordusu cəsarət edib irəli gələ bilmirdi. Şimr ibn Zilcövşən Şam ordusuna qışqırdı:

"Yazıqlar olsun sizə! Daha nə baxıb durursunuz? Öldürün onu!".

Bundan sonra hər tərəfdən İmama *(ə)* hücum etdilər. İmamın *(ə)* sol qoluna bir qılınc zərbəsi endirildi. Bunu vuran Zürə ibn Şərik idi. İbn Şərik bir zərbə də onun çiyninə vurdu. İmam *(ə)* da onu çiynindən vurub yerə saldı. Artıq taqəti kəsilən İmam *(ə)* gah yıxılır, gah da qalxırdı. O əsnada Sənan ibn Ənəs arxadan gələrək nizəsini İmamın *(ə)* kürəyindən sancaraq sinəsindən çıxardı. İmam *(ə)* üzü üstə yerə düşdü.[383]

Bir müddət İmama *(ə)* yaxınlaşıb başını kəsməyə heç kim cürət etmədi. Sənan ibn Ənəs, Xuli ibn Yezidə dedi:

---

[381] Mustafa Asim Köksal, e.a.ə, s. 204-205.

[382] E.a.ə, s. 205-206.

[383] Seyyid Əli Əkbər Qureyşi, e.a.ə, s. 57, Nuri Ünlü, e.a.ə, s. 172, Əbu Mexnəf Lut ibn Yəhya, e.a.ə, s. 210, www.ziyababa.org; www.caferilik.de.

“Kəs onun başını”.

İbn Yezid bunu etmək istəyincə əlləri titrədi, kəsə bilmədi. Sənan ibn Ənəs dedi:

“Allah qollarını qırsın”.

Sonra atından enib İmamın *(ə)* başını kəsdi. Lakin daha məşhur olan rəvayət budur ki, Şimr ibn Zilcövşən İmamın *(ə)* başını bədənindən ayırıb Xuli ibn Yezidə vermişdi.

Şəhid edildiyi zaman İmamın *(ə)* cəsədində otuz üç nizə və otuz dörd qılınc yarası var idi.[384] Digər bir rəvayətə görə isə vücudunda yetmiş iki qılınc və otuz üç nizə yarası var idi.[385]

Beləliklə, İmam Hüseyn *(ə)* Miladi 680, Hicri 61-ci ildə, Məhərrəm ayının onunda, cümə günü günortadan sonra şəhid edildi. İmam Hüseyn *(ə)* şəhid edildiyi zaman əlli yeddi yaşında idi.[386] Digər bir rəvayətə görə isə İmam *(ə)* şəhid edildiyi vaxt əlli beş yaşı vardı.[387]

İmam Hüseynin *(ə)* başını Sənan ibn Ənəs nizəyə vurdu. Onun mübarək başı bədənindən ayrıldıqdan sonra Bəhr ibn Kəb xələtını qarət etdi və İmamı *(ə)* çılpaq qoydu. Əsəd adında bir adam İmamın *(ə)* ayaqqabılarını, Nəhşəl adlı birisi də qılıncını götürdü. Çox keçmədi ki, onların hamısı dərdə mübtəla oldular.

Verilən doğru xəbərlərə görə, Kərbəla faciəsinə qatılanlardan demək olar ki, xəstəliyə tutulmayan kimsə qalmamışdır.

Bundan sonra kufəli əsgərlər çadırlara hücum etdi və İmamın *(ə)* əhli-beytinə aid əşyaları talan etməyə başladılar. Paltarlarının soyundurulmasına razı olmayan qadınların paltarları zorla alındı.

Şüveyd ibn Əmr vurulub ölülər arasına düşmüşdü. Ayılınca – “Hüseyn öldürüldü!” dediklərini eşitdi. Qılıncı alındığına görə yanında olan bir bıçağı alaraq döyüşməyə başladı. Bir müddət döyüşdükdən sonra, o da şəhid edildi. Kərbəla şəhidlərinin sonuncusu Şüveyd ibn Əmr idi.[388]

---

[384] Nuri Ünlü, e.a.ə, I, 172, www.alevibektasi.org.

[385] Mustafa Necati Bursalı, e.a.ə, s. 211.

[386] Mustafa Asim Köksal, e.a.ə, s. 208-209, İslam Tarihi Ansiklopedisi, V, 221.

[387] Nuri Ünlü, e.a.ə, I, 172.

[388] Əbu Mexnəf Lut ibn Yəhya, e.a.ə, s. 115, Mustafa Asim Köksal, e.a.ə, s. 210.

# 4. 4. KƏRBƏLA ŞƏHİDLƏRİNİN SAYI

İmam Hüseynin *(ə)* əshabından şəhid olanlar 72 nəfər idi. Qarşı tərəfdən isə ölənlərin sayı minlərlə olmuşdur. Kərbəla şəhidlərindən 20-ni İmamın *(ə)* əhli-beyti ilə qohumları təşkil edirdi. Onlardan İmama – Hüseynə *(ə)* qohum olanlar aşağıdakılardır:

1. Abbas ibn Əli,
2. Əli Əkbər ibn Hüseyn,
3. Osman ibn Əli,
4. Cəfər ibn Əli,
5. Ovn ibn Əli,
6. Muhəmməd ibn Əli,
7. Atiq ibn Əli,
8. Qasım ibn Həsən,
9. Əbu Bəkr ibn Həsən,
10. Abdullah ibn Həsən,
11. Abdullahul-Əkbər ibn Müslim ibn Əqil,
12. Əbdürrəhman ibn Müslim ibn Əqil,
13. Muhəmməd ibn Müslim ibn Əqil,
14. Əli ibn Müslim ibn Əqil,
15. Abdullahul-Əkbər ibn Əqil,
16. Muhəmməd ibn Abdullahul-Əkbər ibn Əqil,
17. Muhəmməd ibn Əbu Səid ibn Əqil,
18. Hüseyn ibn Abdullah ibn Cəfər,
19. Əvnul-Əsğər ibn Abdullah ibn Cəfər,
20. Muhəmmədul-Əsğar ibn Abdullah ibn Cəfər.[389]

[389] Mustafa Asim Köksal, e.a.ə, s. 213-214.

## 4. 5. CƏSƏDLƏRİN DƏFNİ VƏ İMAM HÜSEYNİN *(ə)* BAŞI İBN ZİYADIN ÖNÜNDƏ

Ömər ibn Səd öz ölülərinin cənazə namazlarını qıldı və onları dəfn etdirdi. Lakin Peyğəmbərin *(s)* Əhli-Beytinin *(ə)* mübarək cəsədləri səhrada qaldı. Şam ordusu çəkilib getdikdən sonra Qadiriyyə kəndliləri (Bəni-Əsəd qəbiləsi) Kərbəla şəhidlərini bir gündə dəfn etdilər. Onlara bu işdə Kufə zindanından gələn İmam Zeynülabidin *(ə)* kömək göstərdi.

İmam Hüseynin *(ə)* qəbrini bilinməz etmək üçün qırx gün sonra qəbrinin olduğu yerə Fəratdan su salınmışdı. Əsəd oğullarından bir bədəvi gəlib İmamın *(ə)* qəbrini axtardı. Torpağı ovuc-ovuc alıb iyləməyə və qəbrin olduğu yerə tərəf yavaş-yavaş getməyə başladı. Qəbri tapınca – "Düşmənləri onun qəbrini itirmək istədilər. Halbuki qəbrinin xoş ətri ona dəlildir" deyərək ağladı.[390]

İmam Hüseynin *(ə)* mübarək və qanlı başı Kufəyə gətirildiyi zaman İbn Ziyad yemək yeyirdi. İmamın *(ə)* başı böyük bir ləyənin içində gətirilib onun önünə qoyuldu. O, əlindəki çubuqla İmamın *(ə)* dodaqlarına vuraraq dedi:

"Yaraşıqlı bir gənc idi!"

İbn Ziyadın əlindəki çubuqla İmamın *(ə)* ön dişlərinə toxunub durduğunu görən Zeyd ibn Ərqəm ona dedi:

"Çək çubuğu o dodaqlardan! Allaha yəmin edirəm ki, Rəsulullahın *(s)* öz dodaqlarını o dodaqların üzərinə qoyaraq öpdüyünü görmüşəm!"

İbn Ərqəm ağlamağa başladı və qalxaraq oranı tərk etdi. İbn Ziyad İmamın *(ə)* başının Kufədə gəzdirilməsini əmr etdi.[391]

İmamın *(ə)* əhli-beyti Kufəyə girərkən kufəli qadınlar fəryad qopararaq ağlamağa başladılar. İmam Hüseynin *(ə)* xəstə olan oğlu dedi:

---

[390] Əbu Mexnəf Lut ibn Yəhya, e.a.ə, s. 117, Mustafa Necati Bursalı, e.a.ə, s. 215.

[391] Mustafa Asim Köksal, e.a.ə, s. 218.

“Əgər bunlar bizim başımıza gələnlərdən ötrü ağlayırlarsa, bəs bizi öldürənlər kim idi?”

Aşura hadisəsindən sonra Yezid ibn Müaviyənin adamları yuxarıda dediyimiz üsuldan istifadə edərək onun qələbəsini Allahın istəyi kimi qələmə verir və təbliğ edirdilər.

Ubeydullah ibn Ziyad İmam Hüseynin *(ə)* şəhadətindən sonra camaatı Kufənin Cami məscidinə yığıb öz işlərinə məzhəbi don geyindirdirərək dedi:

“Həmd olsun o Allaha ki, haqqa qələbə qazandırdı, əmirəl-mömininə (Yezidə) və onun tərəfdarlarına kömək etdi, yalançı oğlu yalançını (İmam Hüseyni *(ə)* öldürdü”.[392]

Buna cavab olaraq düşmənin təbliğ vasitəsindən xəbərdar olan İmam Zeynülabidin (ə) və xanım Zeynəb Bəni-Üməyyənin bu fikir dayağını hədəfə alıb özlərinin əsaslı və mətanətli sözləri ilə cavab verdilər, Yezid və onun davamçılarının öz əməlləri qarşısında məsuliyyət daşımalarını bildirdilər. Bir-birinin ziddinə olan iki təfəkkür tərzinin toqquşmasının nümunələrindən biri əhli-beyt qadın və uşaqlarının Ubeydullah ibn Ziyadın sarayına daxil olduğu zaman olmuşdur.

Həmin gün İbn Ziyad sarayda ümumi görüş elan etmiş və əmr vermişdi ki, İmam Hüseynin *(ə)* kəsilmiş başını onun qarşısında qoysunlar. Sonra əsirləri saraya daxil etdilər. Xanım Zeynəb ən dəyərsiz paltarlarını geymişdi. O, dövrəsini əhatə edən qadın və kənizlər arasında naməlum şəkildə içəriyə daxil oldu və heç kəsə etina etmədən bir küncdə əyləşdi. Ubeydullah ibn Ziyadın gözü ona sataşdıqda soruşdu:

“Özünü kənara çəkən və digər qadınların dövrəyə aldığı bu qadın kimdir?”

Xanım Zeynəb cavab vermədi. İbn Ziyad sualını bir də təkrar etdi. Kənizlərdən biri dedi:

“O, Peyğəmbərin nəvəsi və Fatimənin qızı Zeynəbdir”.

İbn Ziyad üzünü xanım Zeynəbə tutub dedi:

“Həmd olsun Allaha ki, ailənizi rüsvay edib qırdı və göstərdi ki, dediyiniz yalandan başqa bir şey deyil”.

---

[392]Seyyid ibn Tavus, Luhuf, səh.29

Xanım Zeynəb cavab verdi:

“Həmd olsun Allaha ki, bizi (bizim ailədən çıxmış) Peyğəmbərin *(s)* vasitəsilə əzizlədi və çirkinliklərdən uzaq etdi. Fasiqdən başqa heç kəs rüsvay olmaz, pis adamdan başqa heç kim yalan danışmaz. Şükürlər olsun ki, pis adam biz deyil, başqalarıdır (yəni, siz və dəstənizdir)”.[393]

İbn Ziyad dedi:

“Gördün, Allah ailənizin başına nə gətirdi?”

Xanım Zeynəb cavab verdi:

“Yaxşılıqdan başqa heç bir şey görmədim. Allah onların şəhadətini qabaqcadan müəyyənləşdirmişdi. Onlar da itaət edib öz Axirət mənzillərinə yollandılar. Tezliklə Allah səni və onları (Qiyamət günü) bir-birinizlə üzləşdirəcək, onlar səndən Allaha şikayət edib ədalət tələb edəcəklər. İndi fikirləş, gör o gün kim qalib gələcək? Anan sənin matəmində otursun, ey Mərcanənin oğlu!”

İbn Ziyad (xanım Zeynəbin açıq-aşkar və mətanətlə dediyi sözlərdən və onu pozğun nənəsi Mərcanənin adı ilə çağırmasından) bərk qəzəbləndi və pis qərar çıxarmaq istədi. Məclisdə olanlardan biri, Əmr ibn Haris adlı bir şəxs dedi:

“Ey hökmdar, bu bir qadındır və heç kim qadını sözlərinə görə cəzalandırmaz”.

İbn Ziyad yenə xanım Zeynəbə üz tutaraq dedi:

“Allah boyun əyməyən qardaşının və qiyamçı ailənizin öldürülməsi ilə qəlbimə şəfa verdi”.

Xanım Zeynəb cavab verdi:

“Canıma and olsun ki, mənim əzizimi, qardaşımı, ağamı öldürdün, belimi qırdın, kökümü kəsdin. Əgər bu işinlə şəfa tapırsansa, onda şəfa tapmısan”.

Xanım Zeynəbin sözlərinin gözəlliyinin təsirindən qəzəblənən İbn Ziyad qəzəb və rişxəndlə dedi:

“Bu da atası kimi sözdüzəldəndir. Canıma and olsun ki, atan da şair idi və qafiyə ilə (yerli-yerində) söz deyirdi”.

---

393 “əl-İrşad”, səh. 244.

Xanım Zeynəb cavab verdi: “Qadının qafiyə ilə nə işi var? (İndi qafiyə vaxtı deyil ki?)”[394]

İbn Ziyad sübut etmək istəyirdi ki, döyüş meydanında hansı tərəf zahirdə məğlub olubsa, o da rüsvay olmuşdur. Məğlub olan tərəf haqlı olsaydı qalib gələrdi.

İbn Ziyadın haradan danışdığını çox yaxşı bilən xanım Zeynəb onun fikir dayağını söküb dağıtdı. Xanım bu sözləri ilə sübut etdi ki, şərəf və fəzilətin ölçüsü və əsası qüdrətdə yox, həqiqət axtarmaq və haqqı tələb etməkdədir. Xanım Zeynəb bildirdi ki, Allah yolunda şəhid olan şəxs rüsvay olmaz. Rüsvay o şəxs olar ki, zülm, haqsızlıq etsin və Haqqın yolundan çıxsın.

Ubeydullah ibn Ziyad belə güman edirdi ki, başı müsibətlər çəkmiş, əzizini itirmiş Zeynəb kiçik bir tənə ilə təslim olub göz yaşı tökəcək, ağlayıb-sızlayacaq. Lakin xanım Zeynəb onun sözlərini ağzındaca dondurub qürurunu sındırdı.

Doğrudan da bəşəriyyət tarixində hansı bir qadını tapmaq olar ki, onun yeddi (bu barədə tarixçilər müxtəlif versiyalar irəli sürmüşlər) qardaşını öldürsünlər, oğlunu şəhadətə yetirsinlər, on qardaşoğlu və əmioğlusunu qılıncdan keçirsinlər, sonra da özünü bütün bacıları və qardaşı uşaqları ilə birlikdə əsir alsınlar, belə bir vaxtda o, əsir ola-ola öz haqqını və eləcə də şəhid olanların haqqını müdafiə etsin? Özü də elə bir şəhərdə, elə bir binada ki, atasının hakimiyyət mərkəzi olmuş və atası təqribən hakimiyyətinin dörd ilini həmin binada keçirmişdi. Belə bir vəziyyətdə və bu cür narahatlıqlarla başına gələnlərdən narazı olmayan xanım Zeynəb indi İbn Ziyadla fikir mücadiləsi edir, hətta qətiyyətlə bildirir ki, biz öz meylimizə zidd olan heç bir iş görməmişik. Əgər bizim kişilərimiz şəhadətə yetişiblərsə, elə gəlişlərindən məqsədləri də bu olmuşdur. Əgər bundan başqa bir iş olsaydı, onda narahat olmağa dəyərdi (yəni, biz öz istəyimizə çatmışıq). İndi ki, onlar Allah qarşısındakı öz vəzifələrini çox yüksək səviyyədə yerinə yetirib şəhadət zirvəsinə nail olub-

---

[394] “Luhuf”, səh.68.

lar, biz bu işin müqabilində Allah qarşısında şükürdən başqa hansı layiqli bir iş görə bilərik?[395]

Əsirlərin və kəsilmiş başların Şama aparılması üçün yol hazırlığı görüldü. İbn Ziyad Əli ibn Hüseynin əllərini zəncirlə boynuna bağlatdırdı, İmamın *(ə)* əhli-beytini Məxfər ibn Sələbə və Şimr ibn Zilcövşənlə Şama göndərdi.

İmam Hüseynin *(ə)* başı bir qabın içində olduğu halda Yezidin önünə gətirilib qoyuldu. Yezid əmr etdi, başın üstü açıldı. Müaviyənin oğlu başı görüncə üzü qızardı və dedi:

“Mən Əbu Abdullahın bu yaşa gəldiyini sanmırdım. Bunlar başa iş açan, üstün gəlmək istəyən adamların başlarıdır! Vallahi, ey Hüseyn! Əgər səninlə mən qarşılaşsaydım və görüşsəydim, səni öldürməzdim”.

Yezid içkiyə çox düşkün idi, hətta oruc tutduqda iftarını içki ilə açardı. Meymunlara, çöl eşşəklərinə cürbəcür paltarlar geyindirər, çalğı və əyləncəylə vaxt keçirərdi. Yezid Kərbəla faciəsindən sonra bir gün içki məclisi qurmuş, İbn Ziyadı sağ yanında oturtmuş, uşağına öncə özünə içki verməsini əmr etmiş, sonra da fasiq İbn Ziyada verməsini əmr edərək – “O, mənim yanımda sir və əmanət sahibidir!” demişdir.

Yezid sərxoş olaraq ova çıxdığı vaxt atına minmiş, at ürkərək qaçdığı zaman yıxılaraq boynu qırılmış və ölmüşdür (683/64-cü ildə).

---

395 http://quranevi.az Mehdi Pişvayi, Tərcümə: M. Ağaverdiyev, (“Aşura tarixinin araşdırılması”, səh.203).

## 4. 6. İMAM *(ə)* NƏ ÜÇÜN ŞƏHADƏT YOLUNU SEÇDİ?

Hədis və rəvayətlərdən başqa, Kufədə xilafətin acı təcrübələrini nəzərə almaqla məlum olur ki, sonda seçilən yol şəhadətdir. Bəs nə səbəbə İmam *(ə)* bu yolu seçdi? Bu səbəbin fəlsəfəsini bilməkdən ötrü öncə ogünkü Kufənin simasına nəzər salmalıyıq. Doktor Şəhidi "Hüseynin *(ə)* qiyamı" kitabında yazır:

"Bu şəhəri Səd ibn Əbu Vəqqas 17-ci Hicri ilində ordudakı adamları yerləşdirmək üçün tikdirdi. Əvvəlcə məqsəd əsgərlər üçün yaşayış yeri salmaq idi. Çox keçmədi ki, Peyğəmbər *(s)* səhabələrindən bir qrupu, habelə digər adamlar bu şəhərə üz tutdular. Şərqdə yeni torpaqların fəth olunması ilə həmin ərazilərdən daha çox insan dəstə-dəstə Kufəyə gəlirdilər.

Bəsrə müharibəsindən sonra Həzrət Əli *(ə)* Kufəni özünə qərargah etdi. Bu tarixdən Kufə İslam şəhərləri arasında xüsusi əhəmiyyət kəsb etməyə başladı. Qeyd etdiyimiz illərdə bu şəhərin əhalisini müxtəlif adamlar təşkil edirdilər. Hər bir dəstənin özünəməxsus adət-ənənəsi, əqidəsi və digər dəstələrə zidd ayinləri var idi. Fəth olunmuş ərazilərdən tədricən sənətkarlar, ziyalılar, müəyyən vəzifə və sərvət əldə etmək istəyənlər, habelə öz peşəsini və ya istedadını nümayiş etdirmək həvəsində olanlar Kufəyə üz tuturdular. İslamın fəthindən qabaq müxtəlif din və fəlsəfələrə malik olan bu adamların Kufədə məskunlaşması ilə cürbəcür mübahisələr üçün meydan açıldı. Yaxşı məlumdur ki, bu mübahisələrin genişlənməsi müsəlmanlar arasında ixtilafların baş verməsinə səbəb oldu. Fərat hövzəsinin müxtəlif yerlərindən bu şəhərə üz tutan adamların əhval-ruhiyyəsi və əxlaqı da Hicazda yaşayanlarla üst-üstə düşmürdü. Hissləri kəskin şəkildə büruzə vermək, təhrikçilik qabiliyyəti, sonunu düşünmədən hərəkət və bu səbəbdən tələsik qərarlar qəbul etmək, həmçinin bu cür qərarlardan dərhal peşman olmaq bu adamların başlıca xüsusiyyətlərindən idi".

Doktor Şəhidi "İslam mədəniyyəti tarixi"ndən nəql edir:

"Müaviyə, İbn Kəvvadan soruşdu:

"İslam şəhərlərindəki adamların xasiyyətləri necədir?"

O, Kufə əhalisi barədə dedi:

"Onlar bir işə birgə qoşulur, sonra dəstə-dəstə özlərini kənara çəkirlər".

Şəhidi əlavə edir:

"Kufə xilafət mərkəzinə çevrildikdən sonra İraq keçmiş arzusuna yaxınlaşmışdı. Lakin bir məqamı nəzərdən qaçırmamalıyıq ki, Şam əhalisi nə qədər öz hakimlərinin itaətində yekdil idisə, İraq əhalisi də bir o qədər işləri pozmaqda, hökumət işlərinə yersiz müdaxilə etməkdə, ani qərar qəbul etmək və həmin qərardan dönməkdə, habelə öz başçılarına problemlər yaratmaqda möhkəm idi. Buna görə də İmam Hüseyn *(ə)* buyururdu:

***"Şamlılar batil işlərində də yekdildirlər, lakin siz haqq tərəfdarı ola-ola öz haqqınızda pərakəndəsiniz. Buna görə də sizlərdən on nəfəri Müaviyə tərəfdarlarından olan bir nəfərlə dəyişməyə razıyam".***

Müaviyə İmam Həsənlə *(ə)* sülh müqaviləsi bağladıqdan və İmam *(ə)* Hicaza getdikdən sonra İraqda silahlı qüvvə ilə üz-üzə gəlməkdən xilas oldu və bacardığı qədər yerli əhaliyə əziyyət verməkdən çəkinmədi. Bir çox mömin və dindar adamları məkr və hiylə ilə, yaxud aman verməklə tələyə saldı, sonra da müsəlman qaydalarına zidd olaraq onları öldürmək barədə göstəriş verdi. Şamlıların qarşısında İraq böyükləri xeyli təhqir edildi. İraqlılar yavaş-yavaş bütün bu zülmlərdən cana doydular. Müaviyə ölən kimi Kufə əhalisi bildi ki, yeni bir iş üçün münasib fürsət yaranmışdır.

Şübhəsiz ki, bu zaman həmin şəhərdə qəlbi təmiz müsəlmanlar heç də az deyildi. Onlar Peyğəmbərin *(s)* Sünnəsinin pozulmasından artıq cana doymuşdular. Buna görə də həmin insanlar ürəkağrısı çəkir və istəyirdilər ki, adil bir imam hakimiyyət başına gəlib mövcud eybəcərlikləri aradan qaldırsın. Lakin onların əksəriyyəti üçün bu iddia keçmiş məğlubiyyətlərinin, o cümlədən Siffeyndəki məğlubiyyətin intiqamını almaq, habelə yəmənlilərin misirlilərə olan kinlərinin əvəzini çıxmaq üçün bir bəhanə idi.

Xülasə, Doktor Şəhidi öz ümumi təhlilində belə bir nəticəyə gəlir ki, iraqlı və şamlılar arasında olan düşmənçilik alovu daha da qızışdıqca Kufə qiyama hazırlaşmağa başladı və deyildiyi kimi, İmam Hüseynə *(ə)* məktub yazdılar. Lakin Həzrət Hüseyni *(ə)* İraqa kömək etmək məqsədilə çağıranların heç birinin din dərdi yox idi. Bu dəvətlərin başında din adı altında siyasi məqsədlər gizlənmişdi. İraq Şama öz gücünü göstərməli, bacardığı təqdirdə xilafət mərkəzini Dəməşqdən Kufəyə köçürməli idi.

Bu, medalın bir üzü idi. Digər üzü isə Zəhra *(ə)* balasıdır. Şübhəsiz ki, Aşura qiyamı barədə düşünən hər bir kəs əgər öz təhlilində "İmam Hüseyn *(ə)* hakimiyyəti əldə etmək üçün İraqa gəldi. Lakin məğlub oldu" nəticəsinə gələrsə, o zaman tarixi bir daha mütaliə etməlidir. Axı, Həzrət Hüseynin *(ə)* zülmkar hökumət başçısı əleyhinə qiyamı nə vaxtdan hakimiyyəti ələ almaq kimi dəyərləndirilir? Bu cür naşı və mənasız təhlillər insafsız, həmçinin İslamın şəhadət fəlsəfəsindən uzaq olan Qərb tarixçi və təhqiqatçılarının əlinə düşdükdə isə onlar belə nəticəyə gəlirlər ki, Peyğəmbər *(s)* mirasını bölmək üstündə əmioğlular arasında ixtilaf oldu və nəticədə Yezid ibn Müaviyə qələbə qazandı, Hüseyn ibn Əli *(ə)* isə öldürüldü!

Gələcək səhifələrdə təfsilatı ilə izah olunacağına baxmayaraq burada o Həzrətin *(ə)* Məkkədən İraqa getmək qərarına gələrkən bəyan etdiyi sözləri dinləyək ki, qiyamın məqsədinin nə olduğunu da anlayaq.

**بسم الله الرحمان الرحيم خطّ الموت على ولد آدم مخط اقلادة على جيد الفتاة ...**

***"Ölüm hər bir Adəm övladı üçün məcburidir və bu, cavan gəlinin sinəsindəki boyunbağı tək gözəl bir xətdir. Mən öz babalarımın Yəqubun Yusifi gözləməsi kimi hərəkətlərinə valehəm... Hər kəs qanını bizim yolumuzda tökməyə və özünü Allahla görüşə hazırlamışdırsa, mənimlə köç etsin. Mən bu səhər yola düşəcəyəm, inşallah!"***

Bir sözlə, İmam Hüseyn *(ə)* şəhadət yolunu bilərəkdən seçdi. Çünki bilirdi ki, Yezidə beyət etməkdən nə qədər imtina etsə də Yezid hökuməti islami və qanuni olmayacaqdır.

# 4. 7. AŞURANIN EHTİRAMINI SAXLAMAQ VƏ ƏZADARLIQ

Bu barədə dəfələrlə təkrarlanan çoxlu hədis və rəvayətlər var ki, onlarda əzadarlıq, Aşura xatirəsini yaşatmaq, o Həzrətin *(ə)* və onun tərəfdarlarının müsibətlərinə ağlamaq məsələsi təsdiq edilir. Lakin diqqət yetirmək lazımdır ki, əgər sırf əzadarlıq mərasimi keçirilsəydi onda bu, öz-özlüyündə təbii olaraq digər dəyərləri də təsiri altına alardı. Bəziləri belə deyir:

"İsa peyğəmbər *(ə)* bəşəriyyətin şəhadəti üçün özünü xaç mehrabında qurban etdiyi kimi, İmam Hüseyn *(ə)* də İslam ümmətinin günahlardan təmizlənib paklanması məqsədi ilə özü və yaxınlarının Kərbəla səhrasında şəhid olmasına razılıq verdi".

Bizim xristianların Həzrət İsa ibn Məryəmin *(ə)* çarmıxa çəkilməsi barəsində olan fikirləri, düşüncələri ilə heç bir işimiz yoxdur. Lakin özünü müsəlman olaraq öyən, Quranın hökmlərini həyatın bütün sahələrində qəbul edən, onu bəşəriyyətin şəfası və səadət rəmzi bilən bir cəmiyyətdə bəzilərinin – "Məsih *(ə)* insanların səadəti üçün çarmıxa çəkilməsinə razılıq verdi" deməsi nə dərəcədə doğrudur? Bu, Muhəmmədin *(s)* Quranıdır ki, buyurur:

وَقَوْلِهِمْ إِنَّا قَتَلْنَا الْمَسِيحَ عِيسَى ابْنَ مَرْيَمَ رَسُولَ اللّٰهِ وَمَا قَتَلُوهُ وَمَا صَلَبُوهُ وَلَـكِن شُبِّهَ لَهُمْ ...

***"Və eləcə də "biz Allahın peyğəmbəri Məryəm oğlu İsanı öldürdük" demələrinə görə (lənət və əzaba düçar oldular)! Halbuki onu öldürmədilər və çarmıxa çəkmədilər, amma iş onlara belə göründü (güman etdilər ki, İsa döyüşdə öldürüldü, yaxud onun şəklində olan başqa bir şəxsin öldürülməsini güman etdilər, yaxud da yalandan peyğəmbərlik iddiasında olan İsa adlı birisi bir müddətdən sonra öldürüldü). Həqiqətən onun barəsində fikir ayrılığında olanlar bu barədə şəkk və tərəddüd içərisindədirlər, o haqda zənn və gümana tabe olmaqdan başqa bir elmləri yoxdur. Onu həqiqətən öldürməyiblər"***;

***“Əksinə, Allah onu (diri halda və dünyadakı bədəni ilə) Özünə (dərgahına) tərəf qaldırıb. Allah həmişə yenilməz qüdrət (xilqət və şəriətdə), hikmət sahibidir”.***[396]

Bu ayələrin təfsirində deyilir:

“Həzrət Məsihin *(ə)* həyatına aid olan tarixi hadisələrdən birində Quranın bəyanı ilə incillər arasında açıq-aşkar ixtilaf olan məsələlərdən biri də Məsihin *(ə)* həyatının sonu barəsindədir. Mövcud incillərə tabe olan xristianların əqidəsi budur ki, “yəhudilər İsanı *(ə)* dara çəkib öldürdülər və o, xalqın günahlarının qurbanı oldu”. Lakin Quran açıq-aşkar elan edir ki, Məsihi *(ə)* öldürmədilər və onu dara çəkmədilər. Əslində, onlara belə gəldi”.

Xristianlar İsa peyğəmbərin *(ə)* çarmıxa çəkilməsini təkidlə deyir, çarmıxa çəkilmə nişanı olan xaçı müqəddəs sayır və həmin xaçı özlərinə şüar edirlər ki, həmişə İsanın *(ə)* çarmıxa çəkilməsini xatırlasınlar. Digərlərini xristianlığa dəvət edənlərin irəli sürdükləri başlıca fikir yalnız bu sözlə bağlıdır və bu, İsa peyğəmbərin *(ə)* öz ardınca gələnlərin günahının qurbanı olması məsələsidir. Onların əqidəsinə görə, bütün insanlar fitri olaraq günahkardırlar. Adəm peyğəmbər *(ə)* yaradılışın əvvəlində yasaq olunmuş meyvədən yeyərək Allahın sözünə baxmamış və Cənnətdən qovulduğuna görə bu günah onun bütün nəsli boyu davam etmişdir. Yəni anadan olan hər bir kəs də günahkardır. Ona görə də qüsl edirlər ki, günahları təmizlənsin. Onların əqidəsi baxımından İsa peyğəmbər *(ə)* çarmıxa çəkilərək qətlə yetirilmişdir ki, insanları pak etsin və xalqın günahlarının əvəzini versin, yəni Həzrət İsa *(ə)* özünü insanlara fəda etmişdir.

Bu fikir sadəlövh, xüsusilə günaha batmış insanların xoşuna gəlsə də məntiq və idrak baxımından düzgün deyil, ağıl və düşüncə ilə ziddiyyət təşkil edir. Onun çox pis örnəkləri vardır və bu, insanların günaha batmasına səbəb olur. Hətta bu sözün özü insanları günaha dəvət etməkdir, yəni onlar günah etməkdən qorxmasınlar. Çünki Məsih *(ə)* onların qurbanı olmuş və bu işlərdə onların günahlarının bağışlanmasına səbəb olmuşdur.

---

[396] “ən-Nisa”, 157-158.

Qurani-Kərim İsa peyğəmbərin *(ə)* aqibəti barədə digər mənbələrdə yazılanları qəti surətdə rədd edir və bəyan edir ki, Məsih *(ə)* öldürülməmiş, çarmıxa çəkilməmişdir. Əslində, Allah onu Öz yanına aparmış, Məsihin *(ə)* işi yəhudi və xristianlara qaranlıq qalmışdır. İsanı *(ə)* tutmaq və onu çarmıxa çəkmək üçün əsgərlərin hücumu barədə mövcud incillərdə, habelə İslam tarixindən və rəvayətlərdən gələn hədislər toplusundan aydın olur ki, başqa birisinin İsanın *(ə)* yerinə səhvən tutulması üçün də zəmin mövcud idi. Çünki bu hücumun gecə baş verdiyinə və hücum edənlərin İsa peyğəmbərin *(ə)* zahiri görkəmini tanımadıqlarına görə onların səhv etməsi mümkün idi. Matvey İncilində qeyd olunanlara əsasən, düşmənlər onu tanımırdılar. İsanın *(ə)* öz tərəfdarlarından biri olan Yəhuda İsxəryuti çoxlu pul aldıqdan sonra onu həmin adamlara göstərmişdir.

"Təfsir əl-Mənar"da deyilir:

"Hərçənd Matvey İncilinin davamında qeyd olunmuşdur ki, Həzrət İsanın *(ə)* düşmənləri onu tutdular və Yəhuda da öz etdiyindən peşman oldu. Lakin xristianların digər rəvayətlərində vurğulanır ki, Yəhuda İsxəryuti zahiri görkəmi baxımından İsaya *(ə)* oxşayırdı. Bu hadisədən sonra o, bir daha görünmədi".

"Məcməul-Bəyan" təfsirində yazılır:

"Bu məsələni bəzi İslam rəvayətlərinə bir ibrət kimi göstərmək olar. Həmin rəvayətlərdə deyilir ki, Yəhuda Həzrət İsanın *(ə)* yerini düşmənlərə göstərdikdən sonra onlar həmin yeri gəzib axtardılar. Lakin İsanın *(ə)* yerinə Yəhudanın özünü tutdular. Yəhuda nə qədər qışqırdı ki, "mən İsa deyiləm, onun yerini sizə göstərən adamam" onlar qəbul etmədilər və onu İsanın *(ə)* yerinə öldürdülər".

Bütün bunlara əsasən, İslam və Quran baxışında Həzrət İsa *(ə)* çarmıxa çəkilməyib, çarmıxa çəkilən Yəhuda olub. O, Allahın Peyğəmbərinə *(ə)* etdiyi xəyanətə görə Allahın qəzəbinə tuş gəlib. Bu iş İsanın *(ə)* düşmənləri üçün çətin olub və onlar Məsihin *(ə)* əvəzində Yəhudanı öldürüblər. Beləliklə, nə İsa *(ə)* öldürülüb, nə də şəhadəti bəşəriyyətin günahlarının kəffarəsi olub.

Təəssüflə qeyd etməliyik ki, bu, tamamilə düzgün olmayan fikir insanların müxtəlif günahlara batmasına səbəb olmaqla yanaşı, xristianlıqdan şiə əqidə və inamına da keçmiş, “İmam Hüseyn *(ə)* də özünü şəhadətə çatdırdı ki, İslam ümmətini günahlardan təmizləsin” formasında ifadə edilmişdir.

Lakin unutmamalıyıq ki, bir az öncə izah etdiyimiz kimi, bu barədə bizim yol və üslubumuz, Peyğəmbərimizin *(s)* yolu və üslubudur.

Əvvəla, İslamda ta qədimdən əzizlərin ölümünün ildönümü adəti bayram və şənlik formasında deyil, matəm mərasimi şəklində keçirilir.

İkincisi, bildiyimiz kimi, Rəsulullah *(s)*, sevimli qızı Fatimə *(ə)* və Həzrət Əli *(ə)* bu hadisə baş verməmişdən qabaq dəfələrlə o günü yad etmiş, bu xatırlama zamanı göz yaşları tökmüşlər.

Üçüncüsü, Aşura hadisəsindən sonra təkrarlanan hədislərə əsasən, məsum İmamlar *(ə)* o günün ildönümü mərasimi kimi keçirilməsini təkid etməklə yanaşı, özləri də Aşuranı anım və matəm mərasimləri kimi təşkil edirdilər. Necə ki, yazmışlar:

“Həzrət İmam Zeynülabidin *(ə)* öz atasının şəhadətini yad edərək 40 ilə yaxın bir müddətdə ağlamışdır. İmam Sadiq *(ə)* öz babasının müsibətini xatırlayarkən ağlayırdı. İmam Kazım *(ə)* həmişə Məhərrəm ayının əvvəlindən qəm-qüssəli olar və əsla gülümsəməzdi”.

Dördüncüsü, tarix bizə deyir ki, Bəni-Üməyyə o günü bayram və şənlik keçirməklə yad etmiş və həmin tarixi mübarək hesab edərək şadlıq etmişlər.

**هذا يوم فرحت به آل زياد وال مروان بقتلهم الحسين صاوات الله عليه**

Aşura bir gündür ki, o gün Ziyad və Mərvanın ailəsi Hüseynin *(ə)* şəhid edilməsi münasibətilə şadlıq etmişdir.

Əhli-Beytin *(ə)* də bizə sözləri budur: “Ey bizdən sonra gələn adamlar, bütün bəşəriyyətə yaxşı yaşamağı və həm də yaxşı ölməyi öyrədən bu ailədir. Çünki hər kəs yaşadığı kimi də ölür”:

**اللهم اجعل محياى محمد وال محمد و محمد و مماتى ممات محمد وال محمد**

Daha bir dəfə bu cümləni oxuyuruq: “İlahi, həyatımı Muhəmməd *(s)* və onun ailəsinə yaxın et, eləcə ölümümü də Muhəmməd *(s)* və onun ailəsinin ölümü kimi et”.

Doğrudan da kim bu cümlənin mənasını bilmir? Onu başa düşməyən ya quru adam, ya da axmaq olmalıdır. Əks təqdirdə gün kimi aydındır ki, əgər Aşura müsibətinə ağlamaq insanların həyatını dəyişdirən, cism, can, düşüncə və fikrində dəyişiklik yaradan, eləcə də ölümü asan və mübarək edən bir ağlamaq deyilsə, təbii ki, Yezid və onun tərəfdarlarının dəyirmanına su tökən bir ağlamaqdır. Belə olan halda müsbət təsəvvür olunan əməllər mənfi nəticə verəcəkdir.

Quran bizə buyurur:

وَلاَ تَحْسَبَنَّ الَّذِينَ قُتِلُواْ فِي سَبِيلِ اللّهِ أَمْوَاتًا بَلْ أَحْيَاء عِندَ رَبِّهِمْ يُرْزَقُونَ

***“Allah yolunda öldürülənləri əsla ölü zənn etmə, əksinə, diridirlər və onlara Rəbbi yanında ruzi verilir”***;

***“(Onlar) Allahın Öz mərhəmətindən onlara əta etdiyinə şaddırlar və arxalarınca (hələ gəlib) onlara qoşulmamış (hələ şəhid olmamış) kəslərə görə sevinirlər ki, onlar üçün nə bir qorxu var və nə də qəmgin olacaqlar”***.[397]

Ayələrə əsasən, Allah yolunda öldürülənlər həqiqətdə öldürülməmişlər, onları öldürülmüş hesab etməməliyik, onlar Allah yanında ruzi yeyirlər.

Buna oxşar bir xəbər “əl-Bəqərə” surəsinin 154-cü ayəsində buyurulur:

وَلاَ تَقُولُواْ لِمَنْ يُقْتَلُ فِي سَبيلِ اللّهِ أَمْوَاتٌ

***“Allah yolunda öldürülənlərə ölü deməyin, əksinə (onların ruhları Bərzəx aləmində müstəqil şəkildə, yaxud “misal” qəlibinə daxil olmaqla) diridirlər və lakin (bunu) siz dərk etmirsiniz”***.

Qurani-Kərim Allah yolunu Öz şəhidləri üçün mühüm, fikirləşməli və dərin məna kəsb edən bir yol olaraq bəyan etmişdir. Bu məntiq isə ondan ibarətdir ki, şəhidlər həqiqətdə öl-

---

397 “Ali-İmran”, 169-170.

məmişlər, əksinə bir növ yaşayırlar. İndi baxmaq lazımdır ki, bu yaşamağın məqsədi nədir, şəhidlər öldürüldükdən və ruhları bədəndən ayrıldıqdan sonra necə diri qalıblar?”

Şəhidlər doğrudan da diridirlər. Lakin biz onların həyatının necəliyini dərk etmirik. Bu, elə bir həyatdır ki, bizim indiki həyatımızdan və bütün bəşəriyyətin Axirət aləmindəki olacaq həyatdan fərqlidir. Şəhidlərə gəldikdə onlar elə diridir ki, Allahın yanında ruzi yeyirlər, Onun nemətlərindən istifadə edirlər, onlara verilənlərdən şad və razıdırlar, hələ üstəlik, onlara qovuşmayan digərlərini də müjdələyirlər. Lakin bu təmas, xəbər və müjdələmək birtərəfli olduğuna görə bizim onu dərk etməyə gücümüz çatmır.

Bütün bu deyilənlərdən başqa, İmam Hüseynə *(ə)* əzadarlığın fəziləti haqqında aşağıdakıları qeyd etmək olar:

**1. İmam Hüseynin *(ə)* məqsədini canlandırmaq**

Görəsən, Kərbəla faciəsi kimi bəşəriyyət tarixində baş verən ikinci bir hadisə, faciə varmı? Əgər yoxdursa onda bu faciəyə, bu faciə nəticəsində özü və yaxınları müqəddəs şəhidlik zirvəsinə ucalan İslam Peyğəmbərinin *(s)* əziz nəvəsi İmam Hüseynin *(ə)* o müsibətinə necə ağlamayasan, necə şərik olmayasan.

Əslində ağlamaqla Həzrət Hüseynin *(ə)* Allah yolunda əmr be-məruf (yaxşılıqlara dəvət etmək) və nəhy əz-münkər (pisliklərdən çəkindirmək) etməsi, İslama verdiyi böyük xidmətlər qəlblərə həkk olur.

Həqiqətən ağlamaqla, əzadarlıq etməklə qəflətdə olanlar, yolunu azanlar ayılır, İmamın *(ə)* məhəbbəti və Kərbəla hadisəsi zehinlərdə canlanır. İmam Hüseynin *(ə)* məqsədini canlandırmaq isə sözün əsl mənasında, elə İslamı qoruyub saxlamaq, yaşatmaq deməkdir.

Qərb alimi Murik Dukberi yazır:

“Əgər tarixçilərimiz Aşuranın mahiyyət və məğzini anlasaydılar bu hadisəyə sadə yanaşmazdılar. Hüseyn ibn Əlinin ardıcılları zillət və acizliyə baş əyməzlər. Çünki İmamın əsas şüarı zülmə baş əyməmək, zalıma təslim olmamaq olmuşdur. Hüseyn ibn Əlinin əzadarlıq məclisində onun insanların namusu, şərəfi

və İslamın əzəməti naminə mübarizəsindən danışılır. O, canı, malı və övladından keçdi, lakin Yezidə tabe olmadı. Gəlin, biz də şərəflə ölməyi zillətlə yaşamaqdan üstün tutaq”.

**2. İmam Hüseynə *(ə)* sonsuz məhəbbət və düşmənlərinə nifrət**

İmam Hüseynə *(ə)* ağlamaq, vəhy ailəsinə məhəbbət və sadiqliyin aliliyini göstərir. Bu, İmama *(ə)* məhəbbəti artırmaqla yanaşı, düşmənlərinə nifrət oyadır. Bəli, Həzrət Hüseynin *(ə)* haqqını tanıyaraq ağlamaq qatillərinə nifrət deməkdir.

**3. Dinin həqiqəti ilə yaxından tanışlıq**

İmam Hüseynə *(ə)* əzadarlıq məclisinin əsas faydalarından biri də budur ki, insanlar İslam həqiqəti ilə dərindən tanış olur, dinin Quran və Əhli-Beytə *(ə)* bağlılığını dərk edirlər.

**4. Günahların bağışlanması**

Rəyyan ibn Şəbib İmam Rzadan *(ə)* rəvayət edir:

***“Ey Şəbibin oğlu, əgər Hüseynə ağlasan yanaqlarına axan ilk göz yaşınla Allah sənin kiçik və böyük günahlarını bağışlayar”.***

Başqa yerdə İmam *(ə)* buyurur:

***“Ağlayanlar heç olmasa Hüseyn kimi bir şəxsiyyətə ağlasınlar. Çünki Hüseynə ağlamaq böyük günahların bağışlanmasına səbəb olur”.***

**5. Behiştdə qalmaq**

İmam Baqir *(ə)* buyurur:

***“Hüseynin əzasında ağlayanı Allah Behişt otaqlarının birində yerləşdirər”.***

İmam Sadiq *(ə)* buyurur:

***“Kimin yanında Hüseynin adı çəkilsə, gözündən damcı da olsa belə, yaş axsa, əvəzini Allah Behiştlə qiymətləndirər”.***

İmam Sadiq *(ə)* başqa yerdə buyurur:

***“Kim Hüseynin əzasında ağlasa, yaxud özünü ağlayanlara oxşatsa, Behişt ona vacib olar”.***

**6. Şəfa tapmaq**

İmamın *(ə)* əza məclislərinin bərəkətlərindən biri də şəfa tapmaqdır. Dəfələrlə eşitmişik ki, Hüseynə *(ə)* əza saxlayanların

bəziləri şəfa tapıb. Böyük müctəhid, məhrum Ayətüllahül-üzma Bürucerdi 90 yaşında olarkən gözləri sağlam, eynəksiz kitab oxuyurdu. Mərhum alim deyir:

“Bir vaxt Bürucerd şəhərində yaşayırdım. Güclü göz ağrısına düçar olmuşdum. Müalicənin faydası olmadı. Get-gedə ağrı artırdı. Məhərrəm ayı çatdıqda əzadarlıq məclisinə gedirdim. Müxtəlif yerlərdən dəstə-dəstə insan məclisə gəlirdi. Dəstələrdən biri məclisə daxil olanda sanki mənəviyyat işığı gücləndi. Mən də kənarda oturub ağlayırdım. Bu vaxt həmin dəstənin ayaq tozundan götürüb gözümə çəkdim. Gözlərim sağaldı. İndi görmə qabiliyyətim də artıb. İmam Hüseynin *(ə)* bərəkətindən hətta eynəyə də ehtiyacım yoxdur”.

**7. İmam Hüseynə *(ə)* ağlayan, Qiyamət günü ağlamaz**

Rəsulullah *(s)* qızı Fatimeyi-Zəhraya *(ə)* buyurdu:

***“Hüseyn müsibətinə ağlayan gözlərdən başqa, Qiyamətdə bütün gözlər ağlar qalacaq. Hüseynə ağlayan Qiyamət günü şad və gülərüz olacaq”***.

**8. Ölüm qorxusundan və Cəhənnəm atəşindən amanda qalmaq**

Müsmə deyir:

“Bir gün İmam Sadiq *(ə)* belə buyurdu:

***“Heç bilirsən ki, düşmənlərimiz Hüseynlə necə rəftar etdilər?”***

Dedim:

“Bəli”.

İmam *(ə)* buyurdu:

***“Yadına düşəndə narahat olub ağlayırsanmı?”***

Dedim:

“And olsun Allaha ki, qəmgin olub ağlayıram”.

İmam *(ə)* buyurdu:

***“Allah göz yaşlarına rəhm eləsin. Bizim dərdli günümüzə kədərlənib şad günümüzə sevinən adamlardansan. Ölüm vaxtı əcdadım başın üstündə olar, ölüm mələyi Əzrailə sənin barəndə xoş danışarlar. Mələk səninlə ananın övlada mehribanlığı kimi rəftar edər”***.

Sonra İmam Sadiq *(ə)* buyurdu:

***“Kim Əhli-Beytin müsibətinə kədərlənsə, gözündən yaş axmamış Allahın ona rəhmi gələr. Hər damcısı Cəhənnəmə düşərsə, alovu sönər. Ağlayan gözlər bizə baxmaqla xoşhal olar”***.

Bu hədisi-şərif göstərir ki, Cəhənnəm atəşi İmam Hüseynə *(ə)* ağlayan gözdən gələn yaşla sönürsə, zəif dünya alovunun Hüseyn *(ə)* əzadarını yandırmaması təəccüb doğura bilməz. Mərhum Seyyid, doktor İsmayıl Mücab Hindistanda gördüyü hadisədən belə danışır:

“Hindistandakı bütpərəstlərdən bəzilərinin İmam Hüseynə *(ə)* əqidələri olduğundan Məhərrəmdə başqa müsəlmanlar kimi əza saxlayıb sinə vurur və belə məclislərə maddi köməklik edirdilər. Bir bütpərəst həmişə əza məclisində sinə vururdu. Dünyasını dəyişdikdə adət-ənənə üzrə yandırıldı. Bədəni külə döndü, yalnız sağ əli və sinəsi yanmamışdı. Yaxın qohumları sinəsini və əlini gətirib müsəlman qəbiristanlığına dəfn edib dedilər: “Bunlar sizin Hüseynə aiddir”.

**9. İmam Hüseyn *(ə)* əzasında şeirin təsiri**

İmam Sadiq *(ə)* buyurur:

***“Kim Hüseyn haqqında şeir oxuya, ağlaya, yaxud kimisə ağlada hər ikisi Behiştə gedər”***.

Peyğəmbər *(s)* Sünnəsində İmam Hüseynə *(ə)* ağlamaq və əzadarlıq mərasimi keçirmək daha çox təkid olunmuşdur. Hətta Peyğəmbərin *(s)* İmam Hüseynə *(ə)* ağlaması bütün mötəbər mənbələrdə öz əksini tapıb.

Rəsulullahın *(s)* İmam Hüseynə *(ə)* həddən artıq məhəbbət və ehtiram göstərməsi bir çoxlarının heyrət və təəccübünə səbəb olmuş və olmaqdadır. Eyni zamanda, belə şəxslər daimi olaraq özlərinə sual verirlər:

“Görəsən, nə üçün Allahın Rəsulu *(s)* digərlərinin gözü qabağında qızının övladı olan İmam Hüseyni *(ə)* həddən artıq öpər, onu əzizləyər və nəvaziş göstərərdi? Bu nəvazişlər sadəcə babanın nəvəsinə göstərdiyi qayğı və məhəbbətdən ibarət idimi? Yoxsa, bu məsələnin başqa bir sirri vardı?”

Bu sualın cavabı Peyğəmbər *(s)* Sünnəsini təşkil edən o Həzrətin *(s)* əməl və rəftarlarına nəzər saldıqda bizim üçün aydınlaşacaq.

**9.1. İmam Hüseynin *(ə)* dünyaya gəldiyi ilk günlərdə Peyğəmbərin *(s)* ağlaması**

"Mustədrəkus-səhihəyn" və İbn Əkasirin "Tarix" kitabında, həmçinin Xarəzminin "Məqtəl" və digər əsərlərdə Ümmü Fəzl bint Harisdən belə nəql edilmişdir:

"Harisin qızı Ümmü Fəzl Peyğəmbərin *(s)* hüzuruna gələrək dünən gecə bir yuxu gördüyünü deyir. Peyğəmbər *(s)* nə gördüyünü soruşduqda Ümmü Fəzl qorxulu yuxu olduğunu deyir və nəql edir ki, "siz bədəninizdən bir parça əti kəsərək qucağıma qoydunuz". Cavabında Peyğəmbər *(s)* buyurur:

***"İnşaallah xeyirli yuxudur, Fatimənin bir oğlu dünyaya gələcək və uşağı qucağına qoyacaqlar".***

Ümmü Fəzl deyir:

"Bir müddətdən sonra xanım Fatimə *(ə)* Hüseyni *(ə)* dünyaya gətirdi və Peyğəmbərin *(s)* buyurduğu kimi, onu mənim qucağıma qoydular. Sonra mən Hüseyni *(ə)* gətirib Allah Rəsulunun *(s)* qucağına qoydum. Peyğəmbər *(s)* mənə mehribanlıq göstərdi və gözləri yaşla doldu. Mən soruşdum:

Ey Allahın Rəsulu *(s)*, anam-atam sizə fəda olsun, nə üçün ağlayırsınız?

Peyğəmbər *(s)* buyurdu:

***"Cəbrail nazil olaraq məndən sonra övladımın tezliklə ümmətim tərəfindən qətlə yetiriləcəyini söylədi".***

Mən soruşdum ki, bu Hüseyni *(ə)* deyirsiniz? Rəsulullah *(s)* – ***"Bəli!"*** deyə cavab verdi və Kərbəla torpağından bir qədərini mənə göstərdi".

Hakim bu rəvayəti nəql etdikdən sonra belə deyir:

"Bu hədis Buxari və Müslimin nəzərdə tutduğu şərtlərə uyğun və səhih hədislərdəndir, lakin onların heç biri bu rəvayəti nəql etməmişdir".[398]

---

[398] Hakim Nişapuri, "Mustədrəkus-səhihəyn", c. 3, səh. 176 və ixtisarla səh. 179; "İmam Hüseynin *(ə)* şərhi-halı ilə bağlı Şam tarixi", səh. 183, hədis 232,

**9.2. İmam Hüseynin *(ə)* bir yaşında Peyğəmbərin *(s)* ona ağlaması**

Xarəzmi özünün "Məqtəl" kitabında belə yazır:

"İmam Hüseynin *(ə)* bir yaşı olduğu zaman siması qana bulaşmış on iki mələk Peyğəmbərə *(s)* nazil olaraq tezliklə başına gələcək hadisələrdən onu xəbərdar etdi".[399]

Əlbəttə, bu rəvayətdə Peyğəmbərin *(s)* ağlamasına işarə olunmasa da digər rəvayətlərdən o Həzrətin *(s)* ağlaması məlum olur.

**9.3. İmam Hüseynin *(ə)* iki yaşında Peyğəmbərin *(s)* ona ağlaması**

İmam Hüseynin *(ə)* iki yaşı olanda Peyğəmbər *(s)* səfərə çıxmışdı. O Həzrət *(s)* yolun yarısında dayanaraq – ***"inna lillahi və inna iləyhi raciun"*** (həqiqətən, biz Allah tərəfindən gəlmişik və ona tərəf də qayıdacağıq) zikrini deyir və ağlamağa başlayır. Yanındakı şəxslər Peyğəmbərdən *(s)* nə üçün ağladığını soruşduqda o Həzrət *(s)* belə buyurur:

***"Cəbrail nazil olaraq Fərat çayının yaxınlığındakı Kərbəla adlı yerdə Hüseynin qətlə yetiriləcəyi və şəhid olacağı xəbərini mənə bildirdi"***.

Rəsulullahdan *(s)* Hüseyni *(ə)* kimin şəhadətə yetirəcəyini soruşdular. Peyğəmbər *(s)* onun Yezid (Allah ona lənət eləsin) olduğunu bildirdi və buyurdu:

***"Sanki qətligahda onun başının kəsildiyini və Yezid məluna hədiyyə aparıldığını görürəm. Allaha and olsun, onun kəsilmiş başını görən zaman qəlbində Allah məhəbbəti olmayanlardan başqa heç kim sevinməz"***.

---

"Məcməuz-zəvaid", c. 9, səh. 179, Xarəzmi, "Məqtəl", c. 1, səh. 159 və səh. 162-də hədis fərqli ifadələrlə qeyd edilib, İbn Kəsir, "Tarix", c. 6, səh. 230 və c. 8, səh. 199-dakı hədisə işarə edilmişdir, əs-Səcri, "Əmali", səh. 188, İbn Səbbağ Maliki, "əl-fusulul-muhimmə", səh. 154, "Rövzətun-nəzir", c.1, səh. 89, "əs-Səvaiqul-muhriqə", səh. 115, "Kənzul-ummal", qədim çapı, c. 6, səh. 223, "Xəsaisul-kubra", c. 2, səh. 125.

[399] Xarəzmi, "Məqtəlul-Huseyn *(ə)*", c.1, səh. 163.

İbn Abbasdan belə nəql edilmişdir:

"Allahın Rəsulu *(s)* səfərdən qayıtdığı zaman kədərli və qüssəli halda minbərə çıxdı, camaat üçün xütbə söyləməyə başladı, onlara moizə etdi. İmam Həsən *(ə)* və İmam Hüseyn *(ə)* də camaatın arasında idi. Xütbəni bitirdikdən sonra Peyğəmbər *(s)* sağ əlini İmam Həsənin *(ə)*, sol əlini də İmam Hüseynin *(ə)* başına qoyaraq başını göyə qaldırdı və belə buyurdu:

***"İlahi, mən Muhəmməd Sənin bəndən və Peyğəmbərinəm, bu iki nəfər də mənim Yer üzərindəki ən üstün olan canişin və nəvələrimdir. İlahi, Cəbrail mənə xəbər verdi ki, bu nəvəmi qətlə yetirəcəklər. İlahi, ona ölümü asan elə və onu şəhidlərin sərvəri et! Həqiqətən, sən hər bir şeyə qadirsən. İlahi, onun qatilinə lənət elə!"***

Peyğəmbər *(s)* bu sözləri söyləyəndə bütün məscid əhli ağlayaraq ah-nalə etməyə başladı. Bu zaman Rəsulullah *(s)* buyurdu:

***"Ağlayırsınız, lakin ona kömək etmirsiniz?! İlahi, Sən Özün ona yardımçı və köməkçi ol!"***

İbn Abbas deyir:

"Peyğəmbər *(s)* sonra bir daha məscidə qayıtdı. Bu dəfə onun rəngi qaçmış, siması toz-torpağa bulaşmışdı. Sonra gözlərindən yaş axdığı halda qeyri-adi bir xütbə oxudu. Daha sonra belə buyurdu:

***"Ey insanlar, mən özümdən sonra sizin aranızda iki ağır əmanət qoyuram. Onlardan biri Allahın Kitabı, digəri isə həyatımın meyvəsi olan itrətimdir. Onlar Qiyamətdə Kövsər hovuzunun kənarında mənə qovuşana qədər bir-birindən heç zaman ayrılmazlar. Bilin ki, peyğəmbərliyim müqabilində sizdən yaxınlarıma nisbətdə məhəbbət bəsləməyi istəyirəm. Diqqətli olun ki, mənimlə Hovuzun kənarında görüşərkən nəslimdən olanların haqqına zülm etmiş halda görüşməyəsiniz. Bilin ki, Cəbrail mənə ümmətim tərəfindən Hüseynin Kərbəla torpağında qətlə yetiriləcəyini xəbər vermişdir və Allahın lənəti Qiyamətə qədər onun qatilinə olacaqdır"***.

İbn Abbas deyir ki, sonra Peyğəmbər *(s)* minbərdən düşdü, mühacir və ənsardan elə bir şəxs qalmadı ki, onlar İmam Hüseynin *(ə)* şəhadətə çatacağı barədə yəqinə çatmamış olsun.[400]

**9.4. Ümmətin Peyğəmbər *(s)* xanədanına kinli olması üçün o Həzrətin *(s)* ağlaması**

Yunis ibn Hubab, Ənəs ibn Malikdən belə nəql edir:

"Mən Allahın Rəsulu *(s)* və Əli ibn Əbu Taliblə *(ə)* birlikdə idim, Mədinənin ətrafındakı bir bağın yanından keçirdik. Həzrət Əli *(ə)* buyurdu:

***"Ey Allahın Rəsulu, necə də gözəl bağdır!"***

Cavabında Peyğəmbər *(s)* belə buyurdu:

***"Sənin Cənnətdəki bağın bundan da gözəldir"***.

Beləliklə, biz yeddi bağın yanından ötdükcə onların arasında bu cür söhbətlər oldu. Sonra Peyğəmbər *(s)* dayandı, biz də dayandıq. Başını Həzrət Əlinin *(ə)* çiyninə qoyaraq ağlamağa başladı. Həzrət Əli *(ə)* soruşdu:

***"Ey Allahın Rəsulu, ağlamağınıza nə səbəb oldu?"***

Peyğəmbər *(s)* buyurdu:

***"Dünyadan getdikdən sonra bu qövmün qəlbindəki kin və düşmənçiliklərin aşkar olacağına görə ağlayıram"***.[401]

**9.5. Ümmü Sələmənin söylədiyi hədis**

Peyğəmbərin *(s)* pak xüsusiyyətli və seçilmiş xüsusiyyətlərə malik zövcəsi Ümmü Sələmə o Həzrətin *(s)* həyatında baş verən mühüm hadisələr barədə nəql etmişdir. Ümmü Sələmə Peyğəmbərin *(s)* İmam Hüseynə *(ə)* ağlaması məsələsini bu cür nəql edir:

"Bir gün Allahın Rəsulu *(s)* mənim otağımda olarkən belə buyurdu:

***"Heç kəsi otağa buraxma"***.

---

400 Əhməd ibn Əsəm Kufi, "əl-Futuh", c. 4, səh. 325.

401 "Məcməuz-zəvaid", c. 9, səh. 118; "Kənzul-ummal", c. 13, səh. 176, "Nəhcul-bəlağənin şərhi", c. 3, səh. 107, Xarəzmi, "Mənaqib", səh. 650, "Yənabiul-məvəddəh", c. 1, səh. 134.

Otağın çölündə gözləyirdim ki, kimsə gəlsə, içəri girməsinə icazə verməyim. Bu zaman Hüseyn *(ə)* gəldi və Peyğəmbərin *(s)* ağlamaq səsi otağın içindən eşidilməyə başladı. Otağın içinə daxil oldum və gördüm ki, Hüseyn *(ə)* Peyğəmbərin *(s)* dizi üstündə oturub və o Həzrət *(s)* əlini onun başına çəkərək ağlayır. Dedim ki, Allaha and olsun, mən Hüseynin *(ə)* otağa daxil olmasını bilmədim ki, ona mane olam. Peyğəmbər buyurdu:

***"İndi Cəbrail mənimlə idi. Məndən soruşdu ki, Hüseyni çox istəyirsənmi? Mən də – "Bəli!" deyərək cavab verdim. Bildirdi ki, ümmətim onu Kərbəla adlı yerdə qətlə yetirəcək. Daha sonra Kərbəla torpağından bir qədərini mənə göstərdi".***[402]

Bu hədisi nəql edən Heysəmi belə yazır:

"Bu hədisi Təbərani nəql etmişdir və onun sənədlərinin birində hədisi nəql edənlərin hamısı (hədisin ricalları) siqədir (doğru danışandır)".[403]

Başqa bir hədisdə isə belə deyilir:

"Ümmü Sələmə deyir:

"Peyğəmbər mənə buyurdu:

***"Otaqın qabağında əyləşib kiminsə içəri daxil olmasına icazə vermə".***

Mən də otağın qabağında oturmuşdum. Bu zaman Hüseyn *(ə)* gəldi və mən onun içəri girməsinə mane olmaq istədikdə məndən qabaq otağa daxil oldu. Mən də içəri girib dedim ki, ey Allahın Rəsulu *(s)*, mənə kimsəni içəri girməyə qoymamağı tapşırmışdınız, lakin nəvəniz gəldiyində ona mane ola bilmədim. Uzun müddətdən sonra yenə otağa daxil oldum və gördüm ki, Peyğəmbərin *(s)* əlində nəsə var və o Həzrətin *(s)* gözlərindən yaş axır. Ağlamasının səbəbini soruşduqda Rəsulullah *(s)* belə buyurdu:

***"İndi Cəbrail nazil olaraq Hüseynin ümmətim tərəfindən qətlə yetiriləcəyini bildirdi və Kərbəla türbətindən mənə bir qədər gətirdi. Onu əlimdə saxlamışam".***[404]

---

[402] "Məcməuz-zəvaid", c. 9, səh. 189.
[403] "Məcməuz-zəvaid", c. 9, səh. 189.
[404] Təbərani, "əl-Mucəmul-kəbir", c.3, səh.109; İbn Rahəvey, "Musnəd", c.4, səh. 131.

**9.6. Xanım Aişənin nəql etdiyi hədis**

Peyğəmbərin *(s)* digər zövcəsi Aişə belə nəql edir:

"Hüseyn *(ə)* Peyğəmbərin *(s)* yanına daxil olduğu zaman Rəsulullaha *(s)* vəhy nazil olmuşdu və Cəbrail *(ə)* orada idi. Cəbrail *(ə)* Peyğəmbərdən *(s)* soruşdu:

"Ya Muhəmməd, Hüseyni çox istəyirsən?"

Peyğəmbər *(s)* buyurdu:

***"Nəvəmi nə üçün çox istəməyim?!"***

Cəbrail *(ə)* xəbər verdi ki, səndən sonra ümmətin onu öldürəcək. Daha sonra Peyğəmbərə *(s)* ağ rəngli torpaq verdi. Sonra Allahın Rəsulu *(s)* gözləri yaşla dolduğu halda Əli *(ə)*, Əbu Bəkr, Ömər, Hüzeyfə, Əmmar və Əbuzərin yanına getdi. Onlar Peyğəmbərdən *(s)* nə üçün ağladığını soruşdular. Rəsulullah *(s)* buyurdu:

***"Cəbrail nazil olaraq Hüseynin Tif adlı yerdə öldürüləcəyini mənə xəbər verdi və bu torpağı gətirdi. O, həmin yerdə dəfn ediləcək".***[405]

**9.7. İmam Hüseynin *(ə)* şəhadətindən sonra Peyğəmbərin *(s)* əzadarlığı**

Səlma nəql edir:

"Ümmü Sələmənin yanına getdiyimdə o ağlayırdı. Mən ondan nə üçün ağladığını soruşdum. Ümmü Sələmə belə cavab verdi:

"Yuxuda Peyğəmbəri *(s)* görmüşəm. Rəsulullahın *(s)* üz-gözü və saçı toz-torpağa bulaşmışdı. Peyğəmbərdən *(s)* nə üçün bu halda olduğunu soruşdum. O Həzrət *(s)* belə buyurdu:

***"İndicə Hüseynin öldürülməsinin şahidi oldum".***[406]

Yuxarıda qeyd etdiklərimizdən məlum olur ki, Peyğəmbər *(s)* də illərlə əvvəl İmam Hüseyn *(ə)* şəhid olmamışdan və Aşura hadisəsindən öncə ona əzadarlıq məclisi təşkil edərək ağlamış-

---

[405] Təbərani, "əl-Mucəmul-kəbir", c. 3, səh. 107, "Məcməuz-zəvaid", c. 9, səh. 187, İbn Əkasir, "Tərcumətul-İmamil-Huseyn *(ə)*", c. 7, səh. 260.

[406] "Sünəni Tirmizi", c. 12, səh. 195; "Kitabu fəzailis-səhabə", "Mənaqibu Həsən *(ə)* vəl Huseyn *(ə)*" bölməsi).

dır. Bu məsələnin özü əzadarlıq mərasiminin əhəmiyyət daşıdığını bildirir.

Görəsən, Allah Rəsulunun *(s)* əməli, Sünnə və rəftarı İmam Hüseynə *(ə)* əzadarlıq mərasimi keçirməklə bağlı ən yaxşı dəlil və bu mərasimin bərpası ilə əlaqədar höccət hesab edilmirmi?

**10. Məsumların sünnəsində İmam Hüseynə *(ə)* əzadarlıq mərasimi keçirmək**

Burada üç vacib məqama diqqət yetirəcəyik. Həmin məqamlar aşağıdakılardan ibarətdir:

**10.1. Əmirəl-möminin Əlinin *(ə)* Kərbəla hadisəsindən illərlə əvvəl bu məsələyə ağlaması**

Hədis mənbələrində Həzrət Əlidən *(ə)* də oğlu İmam Hüseynin *(ə)* qətlə yetiriləcəyini eşitdikdən sonra Peyğəmbər *(s)* kimi ağlayaraq göz yaşı tökməsi nəql edilmişdir. Biz burada iki nümunəni diqqətinizə çatdırmaqla kifayətlənirik:

I. Nuccəyi Həzrəmi belə nəql edir:

"Siffeyn döyüşünə yola düşdüyümüz zaman İmam Əli *(ə)* Neynəva adlı yerdə uca səslə belə buyurdu:

***"Ey Əba Əbdillah, Fəratın kənarında səbirli ol!"***

O Həzrət *(ə)* bu ifadələri iki dəfə təkrar elədi. Mən nə üçün belə söylədiyini soruşduğumda Həzrət Əli *(ə)* buyurdu:

***"Bir gün Peyğəmbərin yanına daxil olduğumda onun gözlərinin yaşla dolduğunu və ağladığını gördüm. Soruşdum ki, ey Allahın Rəsulu, sizi kimsə narahat etdiyi üçün ağlayırsınız? Peyğəmbər buyurdu:***

***"Bir qədər əvvəl Cəbrail nazil olaraq mənə Hüseynin Fəratın kənarında qətlə yetiriləcəyini bildirdi və dedi ki, istəyirsənmi sənə həmin torpaqdan bir qədər gətirim? Mən – "Bəli!" deyərək cavab verdim və Cəbrail əllərini uzadaraq Hüseynin şəhid olacağı yerin torpağından bir ovuc mənə verdi. Mən ağlamağımın qarşısını ala bilmədim".***[407]

---

[407] "Məcməuz-zəvaid", c. 9, səh. 187.

Heysəmi bu rəvayəti nəql etdikdən sonra belə yazır:

"Bu rəvayəti Əhməd, Əbu Yəla, Bəzzaz, Təbərani nəql etmişdir və onun bütün raviləri siqədir. Həmçinin, başqaları da bu rəvayəti nəql etmişlər".[408]

II. İbn Həcər "əs-Səvaiqul-muhriqə" kitabının müəllifi İbn Səd Şöbidən belə nəql edir:

"Həzrət Əli *(ə)* Siffeynə tərəf yola düşür və Neynəva adlı yerə çatır. Həmin məntəqənin adını soruşduqda buranın adının Kərbəla olduğunu bildirirlər. Kərbəla adını eşitdikdə o Həzrət *(ə)* o qədər ağlayır ki, gözünün yaşı torpağı isladır, sonra buyurur:

***"Mən Peyğəmbərin yanına getdiyim zaman onun ağladığını gördüm. Soruşdum ki, sizin ağlamağınıza nə səbəb olmuşdur? Peyğəmbər belə buyurdu:***

***"Bir qədər əvvəl Cəbrail nazil olmuşdu. O, Hüseynin Fəratın kənarındakı Kərbəla torpağında şəhid ediləcəyi xəbərini mənə gətirdi və həmin torpaqdan bir qədər torpaq verdi ki, onu iyləyim. Mən də özümü saxlaya bilməyib ağladım".***[409]

**10.2. Xanım Fatimənin *(ə)* məhşərdə əzadarlığı**

Xanım Fatimənin *(ə)* məhşərdə Həzrət Hüseynə *(ə)* əzadarlıq mərasimi keçirəcəyi ilə bağlı nəql edilən məsələlər də bu məsələnin əhəmiyyəti ilə bağlı ən tutarlı və möhkəm dəlillərdəndir. Əhli-Beytə *(ə)* məhəbbəti olanların da bu sünnəni davam etdirərək İmam Hüseynə *(ə)* əzadarlıq mərasimi keçirməsi bəyənilən məsələlərdəndir.

Əli ibn Muhəmməd Şafei Məğazili Əbu Əhməd Amirdən, o, İmam Rzadan *(ə)* və İmam Rza *(ə)* da ata-babasından Əmirəlmöminin Əlinin *(ə)* Peyğəmbərdən *(s)* belə nəql etdiyini söyləyir:

***"Xanım Fatimə İmam Hüseynin qanlı köynəyini əlində tutaraq məhşərə daxil olar və ərşin sütunlarının birindən yapışaraq belə deyər:***

***"Ey ədalətli Allah, mənimlə oğlumun qatili arasında hökm ver!"***

---

[408] Heysəmi, "Məcməuz-zəvaid", c. 9, səh. 187.

[409] Əhməd ibn Həcər Heysəmi, "əs-Səvaiqul-muhriqə", səh. 193.

***Kəbənin Rəbbinə and olsun ki, Allah bu barədə xüsusi bir hökm verərək qəzavət edəcək”.***[410]

Bütün qeyd edilənlərdən və məsum imamların *(ə)* da həyatında həyata keçirilən əzadarlıq mərasimindən Əhli-Beytə *(ə)* məhəbbət və sevgisi olanlar bu sünnə və ənənəni davam etdirməyi, eyni zamanda İmam Hüseyn *(ə)* və Kərbəla şəhidlərini Qiyamətdə Xanım Zəhraya *(ə)* qovuşana və Allah bu barədə qəzavət edənə qədər unutmamağı düşünür.

### 10.3. Əhli-Beyt imamlarının *(ə)* əzadarlıq etməsi və ağlaması

Tarixdə nəql edilənlərə əsasən, İmam Hüseynin *(ə)* şəhadətindən sonra din rəhbərləri və imamların *(ə)* sünnəsi o Həzrətin *(ə)* müsibətində əzadarlıq məclisləri təşkil edərək göz yaşı tökmək olmuşdur. Həqiqətdə də insanlar arasında İmam Hüseynə *(ə)* rövzə oxuyub mərsiyə demək ənənəsinin əsasını qoyanlar elə əvvəldən imamlar *(ə)* olmuş, bu mərasimin zamanla şiələrin təfəkkür və düşüncəsində özünəməxsus yer tutmasına səbəb olmuşlar.

Nəticədə şiələr məskunlaşan məntəqələrdə belə məclis və mərasimlərin keçirilməsi yenicə meydana çıxan, yadellilər tərəfindən uydurulan və ya digər məzhəblərə təqlid edilən bir məsələ deyildir. Əksinə, əzadarlıq mərasimləri şiə imamlarının *(ə)* həyatda olduqları zamanlarda əsasını qoymuş olduğu və təşkil etdiyi, eyni zamanda bu məsələlərə təkid etdiyi bir mərasimdir. Onlar öz ifadə və sözlərində də bu ilahi nişanənin yaşadılaraq dirçəldilməsi və İmam Hüseynin *(ə)* şəhadətinin ildönümündə əzadarlıq mərasimlərinin keçirilməsinə diqqət yetirilməsini bildirmiş, belə məclislərdə axıdılan göz yaşlarına böyük mükafat və savabların verilməsini vəd etmişlər.

Adı dillərdə əzbər olan Kərbəla şəhidi İmam Hüseyn *(ə)* buyurmuşdur:

---

[410] Məğazili, “Mənaqibu Əliyyibni Əbi Talib *(ə)*”, səh. 66; Qunduzi, “Yənabiul-məvəddəh li zəvil-qurba”, c. 3, səh. 47.

***“Kim bizim əzadarlıq məclisimiz və müsibətimizdə bir damla göz yaşı axıtsa, Allah ona Cənnəti nəsib edəcək”.***[411]

İmam Səccadın *(ə)* Kərbəla hadisəsindən sonra bir an da olsun göz yaşları dayanmamışdır. Onu bu halda görənlər ağlamasının səbəbini soruşduqda, İmam *(ə)* belə buyurardı:

***“Bu məsələdə məni məzəmmət eləməyin. Həzrət Yaqub müəyyən müddət öz oğlundan ayrı düşdüyü zaman o qədər ağladı ki, sonunda gözləri kor oldu. Halbuki Yusifin ölmədiyini bilirdi. Lakin bir gün ərzində mənim gözlərimin önündə ailə üzvlərimdən on dörd nəfərin başını bədənindən ayırdılar. Belə olduğu halda siz kədərin məndən uzaq olacağını düşünürsünüz?!”***[412]

Daimi hüzn və kədər faciənin böyüklüyünə dəlildir. Digər tərəfdən, İmam Səccad *(ə)* bu əməli ilə bütün möminlərə yol göstərir ki, Aşura hadisəsi və İmam Hüseynin *(ə)* şəhadəti məsələsini Qiyamətə qədər yaşatmaq lazımdır.

İmam Baqir *(ə)* də öz atası İmam Səccaddan *(ə)* nəql etdiyi bir hədisə istinad edərək Aşura hadisəsinin dirçəldilməsi və onun əbədiliyinə işarə edir, əzadarlıq mərasiminin müdafiəsinə qalxır:

***“Atam Əli ibn Hüseyn buyurardı:***

***“Hansı bir möminin gözündən İmam Hüseyn və onun əshabı üçün yaş axsa, Allah həmin mömınə Cənnətdə otaq ayırar. Bizim müsibətlərimizə görə hansı möminin göz yaşı üzünə axaraq cari olsa, Allah dərgahında yüksək bir məqama nail olar”.***[413]

İmam Sadiq *(ə)* də İmam Hüseynin *(ə)* əzadarlıq mərasimi barədə sifariş edərək Aşura və Kərbəla hadisəsinin yad edilməsini tapşırır və buyurur:

---

[411] “Zəxairul-uqba”, səh. 19, Qunduzi əl-Hənəfi, “Yənabiul-məvəddəh”, c. 2, səh. 117.

[412] Məzzi, “Təhzibul-kəmal”, c. 20, səh. 399, İbn Kəsir, “əl-Bidayətu vən-nihayə”, c. 9, səh. 125, “Tarixu mədinəti Dəməşq”, c. 41, səh. 386.

[413] Qunduzi, “Yənabiul-məvəddəh li zəvil-qurba”, c. 3, səh. 102, İbn Həcər, “əl-İsabə”, c. 2, səh. 438 və “Lisanul-mizan”, c. 2, səh. 451.

***“Aşura günündə baş verən hadisə qəlbimizə od vurdu, gözlərimizin yaşla dolmasına səbəb oldu. Biz Əhli-Beyt Kərbəla qəm-kədərinin varisləriyik. Ağlayanlar İmam Hüseynə ağlasınlar. Çünki ey möminlər, Hüseynə göz yaşı tökmək günahların məhv olmasına səbəb olar”.*** [414]

## 4. 8. KƏRBƏLA HADİSƏSİNDƏN SONRA BAŞ VERMİŞ QİYAMLAR

İmam Hüseyn *(ə)* Kərbəlada şəhid edildikdən, İbn Ziyadın əsgərləri Kufəyə döndükdən sonra İmama *(ə)* məktub ünvanlayan bəzi kufəlilər bir-biri ilə qarşılaşdığı zaman İmamın *(ə)* dəvətini qəbul etməmək, Kərbəlada onun tərəfinə keçib ona kömək etməməkdə çox böyük günah işlədiklərini başa düşmüş, etdiklərinə peşman olmuşdular. Onlar üzərilərindəki bu günahı təmizləmək üçün ancaq İmam Hüseyni *(ə)* Kərbəlada şəhid edənləri və bu cinayətə qatılanları öldürməklə mümkün olacağına əmin oldular. Onlar İmam Hüseynin *(ə)* şəhadətindən sonra onun intiqamını almaq üçün gizlicə dəvətə başladılar. Döyüş üçün silah yığmağı da unutmadılar.

Yezid ibn Müaviyə öldüyü zaman İbn Ziyad İraqın ümumi valisi idi və Bəsrədə otururdu. Əmr ibn Hüreys də Kufə valisi idi. Süleyman ibn Sərdin (Surədin) dostlarından bəziləri onun yanına gələrək dedilər:

“Bu zalım adam artıq ölmüş və səltənət zəifləmişdir. İstəyirsən Əmr ibn Hüreysi vəzifəsindən çıxarıb ataq və Hüseynin *(ə)* intiqamını almağa adam yığaq”.

Süleyman ibn Sərd dedi:

“Tələsməyin! Görürəm ki, Hüseyni *(ə)* şəhid edənlər Kufə süvariləridir. Əgər onlar özlərindən intiqam alınacağını bilsələr üzərimizə gələcəklər”.

Bununla bərabər, camaat Əmr ibn Hüreysi qovdu.

---

[414] Əbu İshaq Əsfərayini, “Nurul-uyun fi məşhədil-Hüseyn”, səh. 84, (http://www.kamillik.com saytına istinadən).

Hicri 65-ci ildə kufəlilərdən beş nəfər İmam Hüseynin *(ə)* intiqamını almaq üçün yığılaraq Süleyman ibn Sərdin evində bir toplantı etdi. Əhli-Beyt *(ə)* tərəfdarlarından da bir çox adam bu toplantıya qatıldı. Toplantıda ilk danışan Müsəyyəb ibn Nəcəbə idi. O, Rəsulullahın *(s)* qızı Fatimənin *(ə)* oğlunu aldadanlar mövqeyində Allahın hüzuruna çıxmaqdan utanacaqlarını söylədi. Lakin "bu işdə əli olanları öldürərək və ya bu yolda ölərək bəlkə Rəbbimizin rəhmətinə nail olarıq" – dedi.

Bundan sonra Rifaə ibn Şəddad, Abdullah ibn Vail və Müsəyyəb ibn Nəcəbə qalxaraq danışdılar. Bunlardan sonra Süleyman ibn Sərd danışdı. Nəticədə onlar Süleyman ibn Sərdi başçı təyin etdilər.

Süleyman ibn Sərd və adamları Kufəyə doğru hərəkətə keçmək istədikləri zaman Abdullah ibn Yezid minbərə çıxaraq dedi:

"İndi bu şəhər xalqından bir camaatın üzərimizə gəlmək istədiyini eşitdim. Onların dərdi nədir? – deyə soruşdum. Hüseynin intiqamını alacaqlaqrını söylədilər. Əgər onlar mənimlə savaşsalar mən də onlarla savaşaram. Mənim üzərimə gələnlər mənimlə nə üçün savaşacaqlar? Mən nə Hüseyni öldürdüm, nə də onu öldürənlərlə bərabər oldum. Hüseyni də, sizin xeyirlilərinizi də öldürən İbn Ziyaddır. Bir-birinizi öldürməkdənsə gedib onunla savaşmağınız daha yerində və doğru olar".[415]

Süleyman ibn Sərd Kərbəla fədailərini Hicri 65-ci ildə Nuheylə qərargahına çağırdı və özü də Nuheyləyə getdi. Oradan da iki atlını Kufəyə göndərdi. Atlılar – "Hüseynin intiqamı?" deyərək səsləndilər. Kufədə İmam Hüseynin *(ə)* intiqamına xalqı ilk dəvət edən bunlar oldu. Süleyman ibn Sərd, Nuheylə qərargahına gələrək ona beyət edənlərə baxmaq üçün beyət dəftərinə baxdı. On altı min nəfərdən ancaq dörd min kişi sözündə durmuşdu. O, Nuheylədə üç gün qaldı. Adamlarından bəzilərini geri qalanlara verdikləri sözü xatırlatmaları üçün Kufəyə göndərdi. Bundan sonra min nəfər ona qatıldı.

---

[415] Mustafa Asim Köksal, e.a.ə, s. 259.

Müsəyyəb ibn Nəcəbə, Süleyman ibn Sərdin yanına gələrək ona dedi:

“Könülsüz gələcək adamlardan sənə heç bir fayda yoxdur. Artıq başqalarını gözləməyək, hərəkətə keçməyin vaxtıdır”.

Süleyman ibn Sərd – “Düz deyirsən” deyərək onu təsdiqlədi, sonra camaatın yanına gedərək belə dedi:

“Ey insanlar! Kim ancaq Allahın rizasını və Axirət səvabını istəyirsə, o bizimlədir. Kim ki, dünya nemətlərini ümid edərək gəlirsə, bizim ona verəcək qənimətimiz yoxdur. Bizdə aləmlərin Rəbbinin rəhmətindən başqa bir şey yoxdur. Bundan başqa bir şey ümid edən kəs bu başdan bizdən ayrılsın!”

Kufə valisi Abdullah ibn Yezid, Süleyman ibn Sərdin hərəkət etmək üçün hazırlaşdığını eşidincə onlara şəhərdə qalmalarını, İbn Ziyada qarşı birlikdə hərəkət etməyin lazım olduğunu bildirdi. Süleyman ibn Sərd bu görüşü qəbul etmədi. Abdullah ibn Yezid İmam Hüseynin *(ə)* ölümündə iştirak etməkdə təqsirləndirilən şəxslərlə görüşüb danışmaq istəmirdi, habelə bunun Süleyman ibn Sərd və adamları tərəfindən görülməsindən çəkinməkdə idi.

Ömər ibn Səd, Süleyman ibn Sərd Nuheylədə olduğu əsnada gecələr evində yatmağa qorxduğundan vali sarayına gedərək Abdullah ibn Yezidin yanında qalırdı.

Süleyman ibn Sərdin başçılığı altında olan ordu Rəbiulaxir ayının beşi, cümə günü əsr namazı vaxtına qədər Nuheylədə qaldılar. Sonra isə Kufəyə doğru yola çıxdılar. İmam Hüseynin *(ə)* qəbrinə çataraq orada sabahladılar. Qəbrə çatdıqları zaman – “təki biz də səninlə birlikdə şəhid olsaydıq” deyərək hamı fəryad etməyə başladı. Bir gün bir gecə orada qalaraq Hüseynə *(ə)* salavat, özləri üçün də tövbə etdilər. Bundan sonra onlara “Təvvabin” deyildi.

Kərbəladan ayrılarkən İmam Hüseynin *(ə)* qəbrinə gedərək ona rəhmət dilədilər. Sonra Süleyman ibn Sərd hərəkət etmək üçün əmr verdi. Oradan ayrılan hər kəs İmam Hüseynə *(ə)* rəhmət dilədi. İmamın *(ə)* qəbrinin başında görülən izdiham Həcərul-Əsvədin ətrafındakı izdihamdan çox idi. Kərbəladan göz yaşları ilə ayrıldıqdan sonra Həssasəyə, sonra Ənbara, sonra Sə-

duda, daha sonra Qəyyarəyə çatdılar. Bu zaman Kufə valisi Abdullah ibn Yezid Süleyman ibn Sərdə məktub göndərərək saylarının az olduğunu, düşmənə qarşı birlikdə hərəkət etməyin lazım olduğunu bildirdi.

Süleyman ibn Sərd məktubu oxuyaraq camaatın bu barədə nə fikirləşdiyini soruşdu. Onlar – “Sənin fikrin nədir?” deyə soruşdular. Süleyman ibn Sərd dedi:

“Məncə siz şəhidlik və zəfərə bu günkündən daha yaxın olmamısınız!”.

Süleyman ibn Sərd Kufə valisinə yazdığı cavabda dedi:

“Bu qövm etdiyi beyətlərlə müjdələnmiş, işlədikləri böyük günahlardan tövbə edərək Allaha yönəlmiş, Ona təvəkkül etmişdir. Rəbbimiz olan Allahın hökmünə razı olmuşdur”.

Süleyman ibn Sərdin məktubu Kufə valisinə çatınca vali dedi:

“Ölməyi istəyən bir qövmdən sizə ilk çatan xəbər onların öldürüldükləri xəbəri olacaqdır! Allaha and içirəm, qiymətli müsəlmanlar öldürüləcəklər!”[416]

Süleyman ibn Sərdin ordusu İbn Ziyadın ordusundan öncə Aynul-Vərdədə yerləşərək qərargahını qurdu.[417] Onlar orada beş gün qalaraq dincəldilər. Şamlıların Aynul-Vərdədəyə çatmalarına isə bir gün bir gecəlik yol qalmışdı.

Bundan sonra Süleyman ibn Sərd Müsəyyəb ibn Nəcəbəni dörd yüz süvari ilə ön cəbhəyə rəhbər təyin etdi və ona dedi:

“Onların ilk əsgəri ilə qarşılaşıncaya qədər yoluna davam et. Çox sayda əsgərlə qarşılaşaraq vuruşmaq istəməsən geri dön”.

Müsəyyəb ibn Nəcəbə yolda bir bədəvi ilə rastlaşdı və ondan soruşdu:

“Mənimlə bu qövm arasında nə qədər məsafə var?”

Bədəvi dedi:

“Sizə onların əsgərlərindən Şürahbil ibn Zilqəlanın əsgərləri daha yaxındır. Onun əsgərləri sizdən bir mil uzaqlıqdadır”.

---

[416] Mustafa Asim Köksal, e.a.ə, s. 273.
[417] Nuri Ünlü, e.a.ə, I, 177.

Müsəyyəb ibn Nəcəbə şamlıların üzərinə hücum edərək qərargahlarını darmadağın etdi və onlar döyüşməyə imkan tapmadan qaçdılar. Nəticədə bir çox qənimət əldə olundu. Bundan sonra Müsəyyəb ibn Nəcəbənin əmriylə ordu Süleyman ibn Sərdin yanına döndü.

İbn Ziyad Husayn ibn Nümeyri on iki min nəfərlik ordu ilə Süleyman ibn Sərdə qarşı göndərdi. Süleyman ibn Sərd Abdullah ibn Səd ibn Nüfeyli sağ cinaha, Müsəyyəb ibn Nəcəbəni isə sol cinaha rəhbər təyin etdi. Özü ortada durdu. Husayn ibn Nümeyr gəlib ordusunu nizamladı.

Ordu yavaş-yavaş Süleyman ibn Sərdə tərəf irəliləməyə başladı. Husayn ibn Nümeyr yaxınlaşdığı zaman Süleyman ibn Sərdi Əbdulməlik ibn Mərvana itaətə dəvət etdi. Süleyman ibn Sərd də onları İbn Ziyadı verməyə və Əbdulməlik ibn Mərvanı da vəzifədən uzaqlaşdırmağa dəvət etdi. Sonra da Peyğəmbərin *(s)* Əhli-Beytinə *(ə)* xilafətin geri verilməsini istədi. Hər iki tərəf edilən təkliflərlə razılaşmadılar. Sonra Süleyman ibn Sərdin ordusu hücuma keçərək şamlıları qərargahlarına qədər sıxışdırdı. Qələbəyə yaxınlaşdıqları zaman gecənin qaranlığı savaşı kəsməyə məcbur etdi.

Ertəsi gün Şürahbil ibn Zilqəlanın əmri altındakı səkkiz min nəfərlik köməkçi qüvvə şamlılara gəlib çatdı. Bundan sonra tərəflər arasında qızğın döyüş başladı və axşama qədər vuruşdular. Axşama yaxın iki tərəf bir-birindən ayrıldı. Səhər olunca Ədhəm ibn Bahili on min nəfərlə köməyə gəldi. Üçüncü gün və cümə günü də əsr vaxtına qədər şiddətlə savaşdılar. Şamlılar gələn köməkçi qüvvələrlə çoxaldı. Süleyman ibn Sərd adamlarının uğradığı aqibəti görüncə qılıncının qınını qıraraq – “Ey Allahın qulları, Rəbbinə tez qovuşmaq istəyən varsa, mənim yanıma gəlsin!” – deyərək şamlılara hücum etdi.[418]

Husayn ibn Nümeyr, Süleyman ibn Sərd və adamlarının şücaətini görərək bütün ordunu hərəkətə keçirdi. Nəticədə Süleyman ibn Sərdin ordusu mühasirəyə düşdü. Husayn ibn Nü-

---

[418] Mustafa Asim Köksal, e.a.ə, s. 283.

meyr Süleyman ibn Sərdə bir ox atdı, o, yerə yıxıldı, sonra ayağa qalxaraq yenidən yıxıldı və bir daha qalxmadı. Süleyman ibn Sərdin şəhid olduğu zaman doxsan üç yaşı var idi.[419] Onun şəhid olduğunu görən Müsəyyəb ibn Nəcəbə bayrağı alaraq bir müddət savaşdı və şəhid oldu. Bu savaşda Süleyman ibn Sərdin ordusu səkkiz min şəhid verdi.[420]

Axşam olunca şamlılar qərargahlarına döndülər. Rifaə ibn Şəddad bütün yoldaşlarının yaralandığını və yaralıların özünü idarə edə bilməyəcək şəkildə olduğunu görüncə onları qəbilələrinə yola saldı.

Hümeyd ibn Müslim deyir:

"Biz geri çəkilmək üçün hazırlandığımız zaman Abdullah ibn Qaziyyə şəhidlərin yanına gedərək dedi:

"Allah sizə rəhmət etsin! Siz sözünüzdə durdunuz. Biz isə yalançı çıxdıq və qaçdıq".

Səhər açıldığı zaman fədailərdən heç kim qalmamışdı. Husayn ibn Nümeyr onları tutmaq üçün arxalarınca adam göndərsə də heç kimi ələ keçirə bilmədi. Süleyman ibn Sərdin və Müsəyyəb ibn Nəcəbənin başları Mərvana göndərildi. Təvvabinin çoxunun qırıldığını və qalanın da qaçdığını eşidən Mərvan minbərə çıxaraq Allaha həmd etdikdən sonra dedi:

"Bilin ki, Allah doğru yolu azmış və fitnə-fəsad törətmiş olan Süleyman ibn Sərdi həlak etdi. Bundan sonra üsyan çıxaracaq bir kimsə qalmamışdır".

---

[419] Mustafa Asim Köksal, e.a.ə, s. 283.
[420] Hayati Ülkü, e.a.ə, II, 144.

## 4. 9. MUXTAR SƏQƏFİNİN QİYAMI

Muxtar ibn Əbu Übeyd Səqəfi (622-Taif, 687-Kufə) Kərbəla döyüşündə Hüseyn ibn Əlinin *(ə)* şəhadətinin intiqamını almaq üçün İraqın Kufə şəhərində Əməvi xəlifəliyinə qarşı üsyana başçılıq edən böyük qəhrəmandır. O, Səqif qəbiləsindəndir, künyəsi Əbu İshaq, ləqəbi Keysandır (Keysan huşyar və ayıq şəxs mənasınadır).[421]

İmam Əlinin *(ə)* köməkçilərindən olan Əsbəğ ibn Nubatə deyir:

"Keys (Keysan) ləqəbini Əli *(ə)* Muxtara vermişdir".

Muxtar ədəb-ərkan və əxlaqi fəzilətləri Əhli-Beyt *(ə)* məktəbindən öyrənmiş, cavanlığının əvvəllərində atası və əmisi ilə birlikdə (Əlinin *(ə)* qoşununda) İran ordusu ilə müharibə aparmaq üçün İraqa, İmam Əlinin *(ə)* şəhadətindən azacıq əvvəl isə Bəsrəyə gəlmiş və orada məskunlaşmışdı.

"Muxtar Əhli-Beytin *(ə)* fəzilətlərini bəyan edir, İmam Əli *(ə)*, İmam Həsən *(ə)* və İmam Hüseynin *(ə)* əxlaqi səciyyə və fəzilətlərini camaat arasında yayır və inanırdı ki, Əhli-Beyt *(ə)* Peyğəmbərdən *(s)* sonra imamət və hakimiyyət üçün hamıdan irəli

---

[421] Muxtarın barəsində hədis kitablarında gələn rəvayətlər iki qisimdir: bəzi rəvayətlərdə o tariflənir, bəzilərində isə məzəmmət olunur. Hədis və rical alimləri Muxtarın barəsində olan hədislərlə qarşılaşarkən əksər hallarda onu tarifləyən rəvayətlərə üstünlük vermiş və bunun müqabilində olan rəvayətlərlə əlaqədar müxtəlif nəzəriyyələr irəli çəkmişlər.

Mərhum Əllamə Məclisi Muxtarın nicat tapması ilə əlaqədar deyilən rəvayəti onun mədhində və məzəmmətində olan rəvayətlərin arasında ittifaq yaratmaq üçün bir əsas hesab edir. Belə ki, Muxtar ilkin əqidəsinə görə Cəhənnəm əhli olmuş, lakin axırda İmam Hüseynin *(ə)* şəfaəti ilə ilahi əzabdan nicat tapmışdır. Amma Ayətullah Xoi (rəhmətullah əleyh) bu rəvayətin sənədini zəif bilir.

Muxtar Səqəfi İmam Hüseynin *(ə)* Kərbəladakı qiyamından və Aşura hərəkatından əvvəl o Həzrətin *(ə)* Kufədəki səfiri Müslim bin Əqili himayə etdiyinə görə İbn Ziyadın göstərişi ilə həbs edildi və Kərbəla qiyamının axırına qədər zindanda qaldı.

və ləyaqətlidir. Habelə, Peyğəmbər *(s)* Əhli-Beytinə *(ə)* qarşı baş verən çətinliklərdən narahatlıq hissi keçirirdi".

İmam Sadiq *(ə)* buyurur:

***"Muxtar Hüseynin qatillərinin kəsik başlarını bizim xanədanımıza göndərdikdən sonra Haşimi qadınları başlarını darayıb həna qoymağa başladılar";***[422]

***"Muxtara nalayiq sözlər deməyin, çünki o bizim qatillərimizi öldürüb intiqamımızı aldı, çətin şəraitlərdə müəyyən miqdarda mal-dövləti bizim aramızda bölüşdürdü, dul qadınlarımızın (iqtisadi) vəziyyətini sahmana saldı".***[423]

Übeydullah ibn Ziyad və Ömər ibn Sədin kəsik başını İmam Səccadın *(ə)* hüzuruna gətirdikləri zaman İmam *(ə)* səcdəyə düşdü və Allaha həmd-səna etdikdən sonra buyurdu:

***"Allah Muxtara xeyir əvəzi versin!"***[424]

Muxtar Səqəfi Aşura qiyamından əvvəl İmam Hüseynin *(ə)* Kufədəki səfiri Müslim ibn Əqili himayə etdiyinə görə (Müslimin şəhadətindən sonra) İbn Ziyadın göstərişi ilə həbs olundu və Kərbəla qiyamının axırına qədər Kufə zindanında qaldı.[425]

Beləliklə, Hicrətin altımış altıncı ili Muxtar ibn Əbu Übeyd Səqəfi İmam Hüseynin (ə) qatillərindən intiqam almaq üçün İraqda qiyam etdi.

Müslim ibn Əqil Kufəyə gəldikdən sonra Muxtar onunla yaxından həmkarlıq edirdi. Eyni zamanda, Müslim ibn Əqilin İbn Ziyad tərəfindən tutulub şəhid olması ilə bir vaxtda Muxtar da İbn Ziyadın əmri ilə tutulub həbs edilmişdi. O, Aşura hadisə-

---

[422] Əllamə Məclisi, "Biharul Ənvar", 45-ci cild, səh. 386, Kəşşi, "Rical", səh. 127.
[423] Xoi, "Möcəmur Rical", 18-ci cild, səh. 94.
[424] Kəşşi, "Rical", səh. 127.
[425] Əllamə Məclisi, "Biharul Ənvar", 45-ci cild, səh. 353, Əli Kərəmi, "Dər Sugi Əmiri Azadi – Guyatərin Tarixi Kərbəla", səh. 398, "Haziq" nəşriyyatı, Qum, birinci çap, Hicri-şəmsi təqvimi, 1380, Əhməd ibn Əli ibn Həcər Əsqəlani, "əl-isabə fi təmyizis-səhabə", Adil Əhməd Əbdül-Mövcud və Əli Muhəmməd Müəvvəzin tədqiqatı ilə, 6-cı cild, səh. 250, Beyrut, "Darul kutubil elmiyyə", 1-ci çap, Hicri-qəməri təqvimi, 1415, Əbu Cəfər Muhəmməd ibn Cərir Təbəri, "Tarixi Təbəri", Muhəmməd Əbul-Fəzl İbrahimin tədqiqi ilə, 5-ci cild, səh. 571, "Darut turas", Beyrut, 2-ci çap, Hicri-qəməri təqvimi, 1387.

sindən sonra (bacısının həyat yoldaşı) Abdullah ibn Ömərin Yezidin yanındakı vasitəçiliyi ilə həbsdən azad edildi.

Abdullah ibn Zübeyr Məkkədə qiyam edərək özünü müsəlmanların xəlifəsi elan etdiyi vaxt Muxtar da Məkkəyə tərəf yola düşüb onunla əlbir oldu.

Hicrətin altımış dördüncü ili, Yezidin ölümündən beş ay sonra Muxtar İraq camaatının Bəni-Üməyyə hökumətinə qarşı qiyama hazır olduğunu və onların Abdullah ibn Zübeyrin hakimiyyətinə meylsiz olduqlarını görüb Kufəyə gələrək öz fəaliyyətinə başladı.

İraq camaatının əvvəl Abdullah ibn Zübeyrin ətrafına toplaşmasının, sonra isə Muxtarın dəvətini qəbul edib Abdullah ibn Zübeyrə qarşı etiraz etməsinin səbəbini bilmək üçün nəzərə almalıyıq ki, İraq əhalisinin o dövrdə iki əsas tələbi var idi: Birincisi, ictimai islahat və mövliyaları (Bəni-Üməyyə hakimiyyəti altında zülm çəkən qeyri-ərəb müsəlmanlardan) himayə etmək, ikincisi isə Bəni-Haşimin qanının qisasını Əməvilərdən almaq. Bu iki tələbin yerinə yetiriləcəyinə ümid edərək İraq camaatı Abdullah ibn Zübeyrin başına toplaşdı. Çünki o həm Əməvilərin düşməni idi, həm də zahirdə özünü zahid şəxs kimi göstərib dünyaya etinasız yanaşırdı. Əmələ gəldikdə isə məlum oldu ki, Abdullah ibn Zübeyrin hakimiyyətinin Bəni-Üməyyə hakimiyyəti ilə heç bir fərqi yoxdur. Düzdür, Abdullah ibn Zübeyr İraqı Əməvilərin hakimiyyəti altından çıxara bildi, lakin Aşura faciəsində çox böyük cinayətlər törətmiş Şimr ibn Zilcövşən, Şəbəs ibn Rəbiə, Əmr ibn Həccac kimi canilər nəinki Kufədə yaşayırdılar, hətta hökumətin (Abdullah ibn Zübeyr hökumətinin) ən yaxın adamlarından olmuşdular. Abdullah ibn Zübeyr ədalətin icra olunması nöqteyi-nəzərindən də iraqlıların istəyini təmin etmədi. Çünki mövliyalar hələ də Bəni-Üməyyə hakimiyyəti dövründə olduğu kimi, məhrumiyyət içərisində güzəran keçirirdilər. Bütün qüdrət və imkanlar yenə də qəbilə başçılarının əlində idi. İraqlıların bu iki tələbinin təmin olunmaması camaatın Abdullah ibn Zübeyrin ətrafından dağılıb Muxtarı himayə etməsinə səbəb oldu.

Muxtar öz dəvətinin Həzrət Əlinin *(ə)* oğlu Məhəmməd ibn Hənəfiyyə ilə bağlılığını bildirdi. Elə bu da camaatın onun hökumətinə qarşı arxayınçılığına səbəb oldu. O, "Hüseynin *(ə)* qanının intiqamı naminə irəli!" şüarı altında hərəkata başladı ki, bu məsələ də iraqlıları öz tələblərinin təmin olunacağına ümidvar edirdi. Muxtar hakimiyyət başına gələndən sonra mövliyaları himayəyə götürərək onların ictimai hüquqlarının təmin olunması üçün mühüm addımlar atdı. Muxtarın bu hərəkəti ərəb qəbilə başçılarının onun əleyhinə çıxış etməsinə səbəb oldu. Onlar Abdullah ibn Zübeyrin ordusundan kömək alaraq Muxtarla döyüşə hazırlaşdılar. Müxalif dəstələrin başında İmam Hüseynin *(ə)* qatilləri dururdu. Bu məsələ qiyamçıların (Muxtarın dəstəsinin) təmkinli olmasına və sonadək müqavimət göstərib qələbə qazanmaq fikrində olmalarına səbəb oldu.

Muxtar İmam Hüseynin *(ə)* qatillərini izləyərək onları öz cəzalarına çatdırdı. Belə ki, bir gün ərzində onlardan iki yüz səksən nəfəri qətlə yetirdi və qaçıb aradan çıxmış bir neçə cinayət başçılarının evlərini viranəyə çevirdi. O cümlədən, Məhəmməd ibn Əşəsin evini sökdürüb əmr etdi ki, onun ev ləvazimatı ilə vaxtı ikən Həzrət Əlinin *(ə)* fədakar dostu olub şəhid olmuş Hücr ibn Ədiyin Ziyad ibn Mərcanə tərəfindən sökülmüş evini təmir etsinlər.[426]

Beləliklə, Muxtar qiyam edəndən dərhal sonra Kərbəla faciəsində əli olmuş bütün şəxsləri qətlə yetirdi. O, bu işə ilk olaraq Şimr ibn Zilcövşəndən başladı. Şimr düşdüyü vəziyyəti, Bəsrədəki Əhli-Beyt *(ə)* tərəfdarlarının təzyiqinin olacağını bildiyindən utanaraq Bəsrəyə getmədi. Muxtar Şimr ibn Zilcövşənin Əmir oğullarının yanında olduğunu öyrənərək Zərbini onu tutmaq üçün yüz atlı ilə göndərdi. Zərbi və adamları Şimr ibn Zilcövşənə çatdılar. Zərbini görən Şimr ibn Zilcövşən yanındakı adamlarına uzaqlaşmalarını söylədi. Zərbi Şimr ibn Zilcövşənə tərəf yönəldiyində Şimr hücum edərək Zərbini öldürdü. Zərbinin yanındakılar

---

[426] http://quranevi.az Mehdi Pişvayi, tərcümə: M. Ağaverdiyev, ("əl-Kamilu fit-tarix", c.4, səh.211-244).

geri dönərək digərlərini xəbərdar edincəyə qədər Şimr ibn Zilcövşən aradan çıxdı.

Şimr və adamları Bəsrə yaxınlığındakı Sadima adlanan yerə tərəf getdilər. Şimr, Musab ibn Zübeyrə məktub yazaraq onu bir adamla yolladı. Məktubu aparan adam yolda Muxtarın adamlarından olan Əbdürrəhman ibn Ubeydə rast gəldi. İbn Ubeyd və adamları məktubu görüb İbn Zilcövşənin yerini soruşdular, o da söylədi. Muxtarın adamları tez ora yönəldilər. Oraya çataraq Şimr ibn Zilcövşəni mühasirə etdilər. Şimrin adamları qaçdı, özü isə qılıncını götürərək bir müddət savaşdı. Lakin özünü axıra qədər müdafiə edə bilmədi. Öldürüldükdən sonra Şimrin cəsədi itlərə atıldı. Əhmər ibn Salit Şimrin başını Muxtara gətirdi.

Növbəti hədəf Ömər ibn Səd idi. Muxtar əvvəllər camaatı özünə isindirmək üçün hər kəslə gözəl rəftar edirdi. Ömər ibn Sədlə də münasibəti pis deyildi. Ömər ibn Səd həyatını əmniyyət altına almaq üçün Muxtarın çox sevdiyi adamların yanına gedərək özü üçün bir əmniyyət almalarını xahiş etdi. Bunlardan biri Abdullah ibn Cadədir. Cadə Muxtardan bir amannamə aldı.

Muxtar Məkkədə Abdullah ibn Zübeyrə bir məktub göndərdi. Məktubu aparan adama Muhəmməd ibn Hənəfiyyənin də yanına gedərək ona salamını çatdırmasını söylədi. Elçi gedib Muxtarın dediklərini söyləyincə Muhəmməd ibn Hənəfiyyə dedi:

“Əgər o məni və Əhli-Beyti *(ə)* sevirsə, Hüseyni *(ə)* şəhid edən Ömər ibn Sədlə birlikdə oturmasın”. Elçi Muxtarın yanına dönüb Muhəmməd ibn Hənəfiyyənin dediklərini ona bildirdi.

Muxtar bir gün dostlarıyla oturarkən dedi:

“Mən sabah böyük ayaqlı, dik qaşlı, öldürülməsinə möminlərin və mələklərin sevinəcəyi bir adamı öldürəcəm”.

Muxtarın yanında olan Heysəm ibn Əsvədun-Nəhai oğlunu göndərərək Ömər ibn Sədi vəziyyətdən xəbərdar etdi. Ömər ibn Səd bu sözün ona aid olduğunu dəqiq bilməsə də ehtiyat üçün gecə çıxaraq qohumlarının yanına getdi. Qohumu Ömər ibn Sədə geri dönməsini, bu hərəkətlə Muxtarı şübhələndirməməsini söylədi. Ömər ibn Səd də evinə döndü.[427]

---

[427] Muhəmmədsadiq Nəcmi, e.a.ə, s. 170-171.

Muxtar Ömər ibn Sədin qapısında İmam Hüseyn *(ə)* üçün ağlayan bir adam tutulmasını əmr etdi. Adam qapıda ağlamağa başlayınca Ömər ibn Səd oğlu Həfsi Muxtarın yanına göndərərək bunu nə üçün etdiyini soruşdu. Həfs Muxtardan bu adamın dəf edilməsini xahiş etdi. Muxtar dedi:

"Olar!".

Sonra Əbu Əmrəni Ömər ibn Sədin yanına göndərərək onu gətirməyi əmr etdi. Əbu Əmrə Ömər ibn Sədin evinə gələrək dedi:

"Qalx, əmirin dəvəti var".

Ömər ibn Səd qalxıb əbasını geymək istəyərkən Əbu Əmrə qılıncıyla vurub onu öldürdü və başını gətirərək Muxtarın önünə qoydu. Muxtar o əsnada yanında olan Ömərin oğlu Həfsə dedi:

"Bu başı tanıyırsanmı?"

Həfs dedi:

"Bəli tanıyıram. Allah ona rəhmət eləsin!"

Muxtar dedi:

"Sən də ona qovuşmağı arzu edərdinmi?"

Həfs dedi:

"Ondan sonra yaşamaqda xeyir yoxdur!"

Muxtarın əmri ilə Həfsin də boynu vuruldu. Bundan sonra Muxtar başları Muhəmməd ibn Hənəfiyyəyə göndərdi və bir məktub da yazdı. Məktubda deyilirdi:

"Həmd olsun Allaha, O sizi öldürənləri öldürdü! Sizin köməkçilərinizə də kömək etdi. Görüşünü və düşündüklərini mənə yaz, ona görə hərəkət edək. Vəssələmu aleykə!".[428]

Süleyman ibn Muslimul-İclinin atasından rəvayətinə görə, Ömər ibn Səd və oğlu Həfsin cəsədləri quru ağacdan asılaraq yandırılmışdır.[429]

Hakim ibn Tüfeyl, Abbas ibn Əli şəhid olunca onun paltarını soymuş və İmam Hüseynə *(ə)* ox atmışdı. Hakim ibn Tüfeyl deyirdi:

---

[428] Muhəmmədsadiq Nəcmi, e.a.ə, s. 170-171.

[429] Mahmud Şakir, e.a.ə, III, 374, Mustafa Asim Köksal, e.a.ə, s. 364-368.

"Oxum Hüseynin əbasından asılı qaldı. Ona bir zərər vermədi".

Abdullah ibn Kamil, Hakim ibn Tüfeyli tutdu. Onu Muxtarın yanına aparmadan oxlayaraq öldürdülər.

Sonra Muxtar Abdullah Şakiriyə Zeyd ibn Ruqədi tutmağı əmr etdi. Zeyd deyirdi:

"Mən onlardan bir gəncə ox atmışdım. Gənc əlini alnına tutub qorunmaq istəyincə onun əlini alnına mıxlamışdım. O da əlini alnından ayıra bilməmişdi. Ona ikinci ox atdım. Yanına gedəndə öldüyünü gördüm".

Zeydin vurduğu gənc Abdullah ibn Müslim ibn Əqil idi. Abdullah Şakiri dedi:

"Siz onu qılıncla və nizəylə vurmayın. Onu sadəcə oxla və daşla vurun".

Elə də etdilər. Zeyd yerə yıxıldı. Onu evdən çölə çıxardılar. Abdullah Şakiri atəş gətirtdi. Zeydin canı çıxmadan diri ikən onu atəşlə yandırdılar. Bir çox kimsə də ələ keçmədən öncə qaçaraq qurtardı. Lakin Muxtar onların evini yıxdırdı. Bunların arasında Sinan ibn Ənəs, Abdullah ibn Üqbə və Abdullah ibn Ürvə var idi.

İbrahim ibn Malik Əştər üsyanı yatırdıqdan sonra Hicri 66-cı ildə yenidən İbn Ziyadın üzərinə getdi. Muxtar savaşlarda olmuş təcrübəli adamlarını da İbrahim ibn Əştərlə göndərdi.[430] İbn Ziyad və yanındakı şamlılar İraq torpaqlarına girmədən onlara çatmaq məqsədi ilə İbrahim ibn Əştərlə adamları sürətlə yol aldılar. İbn Ziyad yaxınlaşdığı zaman İbrahim ibn Əştər Hümeyd ibn Hüreysi və Tüfeyli ön qüvvə kimi qabaqcadan yolladı. Səhər olunca ordunu savaş nizamına uyğun düzdü. Muxtar Süfyan ibn Yezidi sağ cinaha, Əli ibn Maliki isə sol cinaha rəhbər təyin etdi. Bayrağı Müzahim ibn Malikə verdi. Ordu düşmənə qarşı yavaş-yavaş irəliləməyə başladı. Düşmən ordusunun üst tərəfində olan böyük təpənin üstünə çıxdılar. İbrahim ibn Əştər, Abdullah ibn Züheyri çağıraraq dedi:

"Mənə bunlardan bir xəbər gətir".

---

[430] Hayati Ülkü, e.a.ə, II, 147.

Abdullah ibn Züheyr getdi. Digər tərəfdə İbn Ziyad sağ cinah rəhbərliyinə Husayn ibn Nümeyri, sol cinaha Ümeyr ibn Hubabus-Süləmini, süvari ordu rəhbərliyinə isə Şürahbil ibn Zilqəlanı təyin etdi. Özü isə piyadaların arasında durdu.

Səhər olunca iki tərəf bir-birinə yaxınlaşıb Hazicə deyilən yerdə durdu. Ordular bir-birinə yaxınlaşdığı zaman şamlıların sağ cinah rəhbəri Husayn ibn Nümeyr İbrahim ibn Əştərin sol cinah rəhbəri Əli ibn Malikin qüvvələrinə hücum etdi. Əli ibn Malik şəhid oldu. Ondan sonra bir çox kimsə bayrağı aldılar və onlar da şəhid oldular. Sol cinah qüvvələri pozulunca Abdullah ibn Vərqa rəhbərliyi ələ aldı və onları İbrahim ibn Əştərin yanında topladı. İbrahim ibn Əştər səsləndi:

"Ey Allahın əsgərləri, mənə tərəf gəlin! Hərb meydanında xəta işləyən qınanmayacaqdır. Vallahi, biz onlara hücum etsək onların quşlar kimi qorxub uçduqlarını, qaçdıqlarını görəcəyik".

Bundan sonra İbrahim ibn Əştər ordusuyla hücuma keçdi. O, irəliləyir, vurduğunu yerə sərirdi. Şamlılar qoyun sürüsü kimi qaçmağa başladı. İbn Ziyadın ordusu dağılıb qaçınca İbrahim ibn Əştərin ordusu onun arxasından düşdü. Çoxunu qılıncdan keçirdilər. Bir qismi də çaydan keçərkən boğuldu. Gecəyə qədər Şam ordusunu təqib etdilər. İmam Hüseynin *(ə)* qatillərindən İbn Ziyadla Husayn ibn Nümeyr öldürüldü.

İbrahim ibn Əştər dedi:

"Mən bu gün bir adam öldürdüm ki, savaşın əvvəlində şiddətlə çarpışaraq – "mən Qureyş oğluyam" deyirdi. Onun qolları şərqə, ayaqları isə qərbə tərəfdir. O, tək bayraq altında və çay kənarındadır. Onu axtarıb tapın!"

Getdilər və İbn Ziyadı tapdılar. İbrahim ibn Əştər İbn Ziyadın başının kəsilməsini əmr etdi. İbn Ziyad və Husayn ibn Nümeyr daxil olmaqla yeddi nəfərin başı kəsildi. İbn Ziyadın başı kəsildikdən sonra cəsədi yandırıldı.[431]

İbn Ziyadın Kufəyə göndərilən başını Muxtar bir küpün içinə qoyaraq İmam Zeynülabidinə *(ə)* və digər Haşim oğullarına göndərdi. Muxtar İbn Ziyadın başını aparan adama dedi:

---

[431] Mustafa Asim Köksal, e.a.ə, s. 392.

“Əli ibn Hüseynin *(ə)* qapısında dayan. Camaat yeməyə girdiyi zaman onun yanına get”.

Muxtarın elçisi Əli ibn Hüseynin *(ə)* qapısında dayandı. Qapılar açıldı. Camaat yemək üçün içəri girdi. Elçi yüksək səslə dedi:

“Ey Peyğəmbərin *(s)* Əhli-Beyti *(ə)*! Mən Muxtar ibn Əbu Ubeydin elçisiyəm! Yanımda da İbn Ziyadın başı var!”

Elçi İbn Ziyadın başını çıxararaq ortaya qoydu. Əli ibn Hüseyn *(ə)* buyurdu:

***“Allah onu Cəhənnəmə atsın!”***

Əli ibn Hüseynin *(ə)* atası şəhid olduqdan bəri heç üzü gülməmişdi. Həmin gün onun da üzü güldü. Əli ibn Hüseyn *(ə)* İbn Ziyadın başını gördüyü zaman atası Hüseynə *(ə)* rəhmət oxudu və buyurdu:

***“Atam Hüseynin başı gətirildiyi zaman İbn Ziyad yemək yeyirdi. İbn Ziyadın başı gətirildiyi zamanda isə biz yemək yeyirik!”***

Aşura qiyamının çox müsbət nəticələri olmuşdur. İmam Hüseyn *(ə)* zalım hökumətə qarşı məlum səbəblər üzündən qiyam edərək öz ailə və əshabı ilə birlikdə şəhadət məqamına nail oldu. Lakin bu məğlubiyyət demək deyildi. Çünki İmamın *(ə)* qiyamı müsəlmanların ayılması, İslamın yenidən dirçəlməsi və bu kimi böyük səmərələrlə nəticələndi. İndi isə o səmərələrin bir neçəsini nəzərinizə çatdırırıq:

### 1. Bəni-Üməyyə dövlətinin rüsvay olması

Bəni-Üməyyə hakimləri müxtəlif metodlarla öz hökumətlərini din pərdəsi altında göstərməyə çalışaraq bu hədəf yolunda öz şənlərinə hədislər uydurub şeirlər yazdırsalar da Aşura faciəsi onların iç üzünü açdı və xalq arasında rüsvay etdi. Yezidin qoşununun Aşura günü suyun yolunu kəsməsi, uşaqları öldürüb qadınları əsir götürməsi, İmamın *(ə)* başını kəsib mübarək cəsədinin üstündə at çapması və bu kimi namərd, insanlığa yad hərəkətləri mövcud hakimiyyətin dinsiz-imansız olduğunu sübut etdi. Mücahid, o günləri görən bir şəxs kimi deyir:

“Allaha and olsun ki, camaat Yezidə nifrət hissi ilə lənət göndərirdi”.

Yezid Aşura hadisəsindən sonra Ubeydullah ibn Ziyadı Dəməşqə dəvət  edib ona çoxlu mükafat bəxş etdi, öz yanında əyləşdirib dərəcəsini yuxarı qaldırdı, sonra isə öz hərəmsərasına aparıb birlikdə qadınlarla əyyaşlığa məşğul oldular...

Yezidin Aşura hadisəsindən sonra olan qüruru və sevinci çox çəkmədi. O, xalqın İmam Hüseyni *(ə)* öldürdüyü üçün ona qarşı olan nifrət və qəzəbini yaxından hiss etməyə başladı. Xalqın ona qarşı olan ikrahına dözə bilməyən Yezid, İmamın *(ə)* ölümünü Kufənin hakimi Ubeydullah ibn Ziyadın üzərinə atdı və bu məğlubiyyəti öz üzərindən götürmək üçün əlindən gələni etdi.

İbn Əsir yazır:

"İmam Hüseynin *(ə)* kəsilmiş başını Yezidin yanına gətirdilər. O, bu vəziyyəti gördükdə çox şad oldu və Ubeydullah ibn Ziyadı tərifləyərək onu mükafatlandırdı. Lakin çox keçmədi ki, camaatın qəzəblənməsi, ona söyüş və lənət yağdırması barədə Yezidə xəbər verdilər. Yezid isə vəziyyətin getdikcə ciddiləşdiyini gördükdə İmam Hüseyni *(ə)* öldürtməkdən peşman olub deyirdi:

"Allah Mərcanənin  oğluna (Ubeydullaha) lənət etsin!.. O, Hüseyni qətlə yetirməklə camaatın mənə qarşı çıxmasına səbəb oldu. İndi xalq məni lənətləyir və məni özlərinə düşmən bilir. Mərcanənin oğlu mənim başımı bəlaya saldı. Əgər bilsəydim Hüseyni öldürtdüyümə görə lənətlənəcəm heç vaxt onu öldürtməzdim".

Həmçinin, Yezid əvvəllər Aşurada əsir düşmüş uşaq və qadınlara qarşı təkəbbürlə rəftar etdi. Onların xarabalıqda məskunlaşdırılmasına əmr etdi. Lakin az bir müddətdə xalqın etiraz səsi qalxdı. Yezid məcbur qalıb əsirlərə qarşı öz rəftarını dəyişdi, onların istədikləri vaxt Mədinəyə qayıtmalarına icazə verdi.

İmadəddin Təbəri belə yazır:

"Xanım Zeynəb Yezidin yanına bir nəfər göndərdi ki, onların əzadarlıq keçirmələrinə icazə versin. Yezid göstəriş verdi ki, əsirlər "Darul-hicarə"yə aparılsın və orada istədikləri qədər ağlasınlar. Əsirlər yeddi gün əza məclisi təşkil etdilər. Əza məclisinin təsiri altına düşən camaat hətta Yezidin sarayına girib onu öldürmək fikrinə düşdülər".

Yezid Aşura faciəsindən sonra dörd ildən çox yaşamadı, lakin insanların nifrət və lənətini həmişəlik Bəni-Üməyyə üçün miras qoydu.

**2. Şəhadət ruhiyyəsinin dirçəlməsi**

Şəhadət hər bir xalqın ən üstün və mənəvi dəyərlərindən biri sayılır. Hər bir millətin qüruru o millətin cavanlarının ölümdən qorxmaması, həmişə din, namus və ölkəsi uğurunda şəhadətə hazır olmasıdır. Lakin İslam dinində şəhadət bütün məsləklərdən fərqli olaraq özünəməxsus bir məfhuma malikdir. İslamın şəhidə bəslədiyi xüsusi rəğbəti Quran ayələri və hədislərdən daha yaxşı başa düşmək olur. Qurani-Kərim şəhidlər haqqında buyurur:

***"Allah yolunda şəhid olanlara ölü deməyin. Onlar diridirlər, lakin siz bunu dərk edə bilmirsiniz"***.

Başqa bir ayədə buyurulur:

***"Allah yolunda şəhid olanlara ölü deməyin! Çünki onlar diri və Tanrı yanında ruzidən bəhrələnirlər. Siz isə bunu dərk edə bilmirsiniz"***.

Göründüyü kimi, Qurani-Kərim şəhidlərin diri olmasına israr edib və bu həqiqətin gerçəkliyini onların İlahi ruzisindən bəhrələnmələri ilə izah edir. Necə ki, şəhidin savabı haqqında belə buyurur:

***"Hər kim Allah yolunda cihad edib qalib gəlsə və ya şəhid olsa biz ona çox böyük mükafat əta edərik!"***.

Muhəmməd peyğəmbər *(s)* Quranın şəhidlər barəsində olan ayələrini belə şərh edir:

***"Hər bir yaxşı əməldən başqa bir üstün əməl vardır. Lakin şəhidlik məqamından daha üstün, yaxşı bir əməl yoxdur"***.

O Həzrət *(s)* başqa bir rəvayətdə buyurur:

***"Heç bir qətrə Tanrı yanında şəhidin qanından düşən qətrə qədər sevimli deyil"***.

İslamın ilk yaranma tarixinə də baxdıqda iman gətirmiş müsəlmanların Allah yolunda cihad etməyə və şəhid olmağa nə qədər həvəsli olmalarının şahidi oluruq. Həzrət Əli *(ə)* İslam uğrunda şəhid olmaq barəsində belə buyurur:

***"Allaha and olsun ki, mənim şəhadətə olan sevgim körpə uşağın anasının südünə olan sevgisindən daha güclüdür"***.

Həzrət Əli *(ə)* həmişə şəhadət arzusu ilə yaşayıb və bu məqsədə yetişmək üçün bütün cihadlarda ön cəbhədə qərar tutub. Hətta bir gün Ühüd döyüşündə qəhrəmancasına döyüşdükdən sonra Həzrət Həmzənin və bir neçə səhabənin qanlı cəsədlərini görüb qəm-qüssəyə batdı, Peyğəmbərin *(s)* yanına gəlib narahat halda buyurdu:

***"Mən nə vaxt şəhadət məqamına yetişəcəm?"***

Peyğəmbər *(s)* cavabında buyurdu:

***"Sənə müjdə verirəm ki, şəhid olacaqsan"***.

Həzrət Əli *(ə)* bu sözləri eşidib sakitləşdi.

Həmçinin, Xeysəmə və Səd ata-oğul idilər. Onlar Allah yolunda şəhadətə yetişmək üçün səy edirdilər. Elə bunun üçün də cihada getmək söhbəti ortaya gələndə onların hər biri özünün cəbhəyə getməsini, digərinin isə evdə ailənin başı üstə qalmasını lazım bilirdi.

Səd atasına deyir:

"Atacan! Əgər bilsəydim ki, Behişt və əbədiyyət qarşıda yoxdur, o zaman sənin döyüşə getməyini və özümün evdə qalmağımı tərcih verərdim. Lakin nə edim ki, Tanrı yolunda şəhid olub Behiştə daxil olmaq istəyirəm".

Xeysəmə oğluna belə cavab verir:

"Oğlum! İcazə ver, qoy mən cəbhəyə gedim, sən isə evdə ailəyə başçılıq et".

Səd atasının təklifini qəbul etmək istəmir. Xeysəmə deyir:

"Oğlum! Başqa çarə yoxdur. Gərək ikimizdən biri cihada gedib o birisi isə evdə qalıb şəhadət məqamına yetişməkdən məhrum qalsın".

Bu zaman Səd atasına püşk atmağı təklif edir. Atası bu təkliflə razılaşır. Püşk Sədin cəbhəyə getməsi ilə nəticələnir.

Nəhayət, Səd Peyğəmbərin *(s)* yanında düşmənlərə qarşı döyüşərkən şəhadətə yetişməklə öz arzusuna çatır.

Şəhadət eşqi ilə alışıb yanan ata, Muhəmməd peyğəmbərin *(s)* hüzuruna gəlib ərz edir: "Ya Rəsulullah *(s)*! Mən Bədr döyüşündə iştirak edib şəhid olmaq arzusunda idim. Amma nə edim ki, püşk oğlumun adına çıxdı. Tanrı onu bu məqama layiq gördü.

Buna baxmayaraq mən də şəhadətə yetişmək arzusundayam. Mən də bu ülvi məqama yetişmək istəyirəm. Dünən gecə oğlumu yuxuda Behişt bağlarının arasında gördüm. O, mənə deyirdi:

“Ata! Bizim yanımıza gəl, Behiştdə bizimlə ol! Tanrının Cənnətə aid verdiyi bütün vədələri haqdır”.

Allaha and olsun ki, Cənnətə oğlumun yanına getmək istəyirəm...

Ey Allahın Rəsulu *(s)*! Tanrıdan istə ki, mənə tezliklə şəhadət, Behişt və Sədin kənarında olmağı nəsib etsin”.

Peyğəmbər *(s)* onun arzusunu Tanrıdan istəyir və Xeysəmə Ühüd döyüşündə al-qana bulanıb şəhadət məqamına çatır.

Beləcə İslamın ilk dövrlərindən şəhadət hissi ilə yaşayan müsəlmanlar Bəni-Üməyyə tayfasının hakimiyyətə gəlməsi ilə bu müqəddəs hissləri günbəgün əldən verməyə başladılar. Hətta iş o yerə çatdı ki, insanlar sakit, aram yaşayışlarını itirməmək üçün hər bir zülmün və zalımın qarşısında sükut etməyə razı oldular. Bu vəziyyət Müaviyənin ömrünün axırlarında son həddinə yetişmişdi. Həmişə dindar kimi tanınan kişilər, habelə qəbilə şeyxləri dünyapərəst olmuş, öz vicdanlarını mal və sərvətə görə satmışdılar.

İmam Hüseynin *(ə)* zalım hökumətə qarşı qiyam etməsi bu acınacaqlı vəziyyətin dəyişməsinə səbəb oldu. İmam *(ə)* öz qiyamı ilə müsəlmanlara xatırlatdı ki, İslamda dünyanı qazanmaq müqabilində vicdanın satılmasına icazə verilmir. İslam dinində zülmə qarşı döyüşüb ölmək şəhadət və mənəvi zirvəyə yetişmək, zülmü qəbul edib yaşamaq isə alçalmaq və zəlillikdir.

İmam Hüseynin *(ə)* mübarək şəhadəti müsəlmanlar arasında şəhadət ruhiyyəsini yenidən dirçəltdi. Aşura hadisəsi bütün azadlıqsevər insanlara mükəmməl bir örnək dərsi oldu. Aşuradan qabaq iyirmi il istibdadın qarşısında sakit qalınması, sonra isə ardıcıl qiyamların başlanması söylədiklərimizə bir daha aydınlıq gətirir.

Doğrudan da Kərbəla faciəsindən sonra müsəlmanların vicdanlarının oyanması, Muhəmməd peyğəmbərin *(s)* gətirdiyi həqiqi İslamın və şəhadət kimi mənəvi dəyərlərin yenidən dirçəlməsi bu qiyamın zəruri olmasına ən böyük dəlil sayılır.

**3. Bəni-Üməyyənin əleyhinə qiyamlar**

Aşura vaqiəsindən sonra Bəni-Üməyyənin əleyhinə ardıcıl şəkildə baş verən qiyamlar bu vaqiənin əsas nəticələrindən biri kimi sayılır. Ona görə ki, bu qiyamların rəhbərləri Aşura hadisəsindən ilham alır, özlərini İmamın *(ə)* ardıcılları və fədailəri kimi tanıtdırırdılar. Bu qiyamların bir neçəsini bir daha çox ixtisarla bəyan etmək istəyirik:

**3.1. Abdullah ibn Əfifin qiyamı**

Abdullah ibn Əfif mömin və mücahid bir şəxs idi. O, Əhli-Beytə *(ə)* olan zülm və sitəmlərə dözə bilməyib İbn Ziyada qarşı qiyama qalxdı. İbn Əfif qorxmaz və cəsur olduğu üçün İbn Ziyadla sərt danışır və bu işi insanların gözü qarşısında edirdi. İbn Əfifin şücaəti böyük bir qrupun ürəyindən qorxu hissini götürüb onları İbn Ziyada qarşı üsyan etməyə həvəsləndirdi. Nəhayət, bu qəhrəman şəxsin rəhbərliyi altında xalqın bir qismi Yezid və İbn Ziyadın hakimiyyətinə qarşı ayağa qalxdılar.

**3.2. Mədinəlilərin qiyamı**

Kərbəla qəhrəmanı xanım Zeynəb qardaşı oğlu İmam Zeynülabidinlə *(ə)* birgə bu hadisənin təbliğatçısı sayıldı. Bütün müsəlmanların qeyrətini cuşa gətirən bu iki şəxs Mədinə camaatının da ayağa qalxmasına səbəb oldu. İş o yerə çatdı ki, Mədinə hakimi Ömər ibn Səd şəhər camaatının hakimiyyətə qarşı çıxmasını xəlifə Yezidə yazdı və Yezid xanım Zeynəbi xalqdan uzaq saxlamağı İbn Sədə əmr etdi.

**3.3. Təvvabin (tövbə edənlər) qiyamı**

Təvvabinlər İmam Hüseynin *(ə)* qiyamı zamanı ona kömək etməyən və sonradan peşman olaraq bir yerə cəmləşib Yezidin əleyhinə qiyam etmək istəyən tövbə edənlər idi. Peşmançılıq hissi və vicdan əzabına dözə bilməyən bu dəstə günahlarının bağışlanmasını İmamın *(ə)* qatillərini öldürməkdə və bu yolda cihad etməkdə gördülər. Dəstəyə rəhbərlik edən Süleyman ibn Sərd Xəzai Aşura hadisəsindən sonra xalqı Bəni-Üməyyənin əleyhinə təhrik etməyə başladı. Bu iş Yezidin ölümünə qədər davam etdi.

Qiyamçılar Hicrətin 65-ci ili Yezidin ölümündən sonra İmam Hüseynin *(ə)* qəbrini ziyarət etmək üçün yola düşdülər.

İmamın *(ə)* mübarək mərqədinə çatdıqdan sonra fəryad çəkərək zar-zar ağlamağa başladılar. Ah-nalə içində qərq olmuş təvvabinlər hönkür-hönkür ağlayaraq deyirdilər:

"İlahi! İmam Hüseyn *(ə)* şəhid və şəhidin oğlu, Haqqa yönəlmiş, haqq sahibinin oğlu, doğru danışan və vicdanlı kişinin oğlu idi. Ey Rəbbimiz, özün onu rəhmətinə qərq et! İlahi! Biz İmamımızın *(ə)* dinində və onun yolunda olmağımıza şəhadət veririk. Biz İmamın *(ə)* dostları ilə dost, düşmənləri ilə düşmənik. İlahi! Biz Peyğəmbərin *(s)* balasını tək qoyduğumuz üçün tövbə edirik və Sən Özün bizi bağışla...".

Təvvabinlər dualarını oxuduqdan sonra Şam şəhərinə tərəf hərəkət etdilər, çünki İmam Hüseynin *(ə)* qətlini yalnız Şamda yerləşən hökumət idarəçiliyində görürdülər. Yolun yarısında Əməvilərin qoşunu ilə üzbəüz gələn təvvabinlər gərgin vuruşmalardan sonra şəhadətə yetişsələr də Əməvilərin hakimiyyət sütunlarının zəifləməsində onların qiyamının çox böyük rolu oldu.

**3.4. Muxtarın qiyamı**

Təvvabinlərin İmamın *(ə)* uğrunda qiyam edib şəhadətə yetişməsindən sonra bu ağır vəzifənin davamını Muxtar Səqəfi öz öhdəsinə götürdü. Muxtar Həzrət Hüseynin *(ə)* qanının intiqamını almaq üçün başına 24 mindən çox qoşun toplaya bildi. O, Həzrət Əlinin *(ə)* övladlarından biri olan Muhəmməd ibn Hənəfiyyədən öz qiyamı üçün göstəriş almağını deməklə xalqın bu qiyama olan etimadını bir az da artırdı.

Muxtar qismən də olsa İmam Hüseynin *(ə)* intiqamını ala bildi. O, hətta bir gündə Kərbəla qatillərindən iki yüz səksən nəfəri həlak etdi və cinayət başçılarından bir çoxunun evlərini viran qoydu. Xarabazara dönmüş evlərin arasında Kərbəlada baş vermiş cinayətlərdə böyük rolu olan Muhəmməd ibn Əşəsin də evi var idi. Muxtar göstəriş verdi ki, İbn Əşəsin evinin ləvazimatı ilə Ziyad ibn Əbihin əmrinə əsasən sökülmüş Həzrət Əlinin *(ə)* yavərlərindən olan Hücr ibn Ədiyin evini bərpa etsinlər.

**3.5. Abbasilərin qiyamı**

Aşura hadisəsindən sonra Əməvi hakimiyyətinin süqutuna səbəb olan ən böyük qiyam Abbasilərin qiyamı idi. Abbasilər

Hicrətin 132-ci ilində dövlət çevrilişi etməklə hakimiyyətə gəldilər. Abbasilərin qələbəsində rol oynayan ən böyük amil Bəni-Üməyyə hakimiyyətinin Bəni-Haşimə, xüsusi ilə də İmam Hüseyn *(ə)* və onun ailəsinə olan zülmləri xalqa xatırlamaq oldu.

Belə ki, tarixçilər yazırlar:

"Əməvilərin axırıncı hakimi Mərvanın kəsilmiş başını Abbasilərin ilk xəlifəsi Əbul-Abbasın yanına gətirdilər. O, şükür səcdəsi etdi. Sonra səcdədən qalxıb Mərvanın kəsilmiş başına baxaraq dedi:

"Allaha şükürlər olsun ki, Rəbbim intiqamımı səndən və qəbiləndən aldı. Artıq mənim üçün nə vaxt öləcəyim mühüm deyil. Çünki Bəni-Üməyyədən iki min nəfər öldürməklə İmam Hüseynin *(ə)* intiqamını aldım".[432]

Bu fəsli müasir İslam alimi Ayətullah Səbri Həmədaninin yazdığı "İmam Hüseynin *(ə)* əxlaqi görüşləri" əsərindəki fikirlərlə tamama yetirmək istərdim. Böyük alim İmamın *(ə)* döyüş meydanındakı cəsarət və hünərinin İlahi eşqlə necə yoğrulduğunu belə yazır:

"Əgər kimsə azadlıqsevən insanların sərvəri Hüseyn ibn Əlini *(ə)* döyüş meydanında görsəydi, onun iti qılıncının biçib-kəsməsinə tamaşa etsəydi Aşura günü hər dəqiqədən bir şəhadətə yetənlərin yanında durmasına, şəhidlərin qanlı bədənlərini seyr etməsinə baxmayaraq elə o vəziyyətdə bütün gücü və qüdrəti ilə düşmənə həmlə edər, onun sədlərini yarıb dağıdardı. Əgər bir kəs belə bir səhnəni görsəydi, Hüseyni *(ə)* yalnız mübariz və döyüşkən bir insan kimi tanıyardı; bəlkə inanmazdı ki, bu polad əsəblər və dəmir iradə eşq və irfan məktəbində həqiqətin qüdrətinə, onun nəhayətsiz, məkansız və zamansız camalı və cəlalına elə vurulmuşdur ki, eşqin nurundan başqa və məşuqun simasından özgə heç nə görmür. Lakin əslində məsələ başqa cürdür.

Şəhid Hüseyn ibn Əli *(ə)* bir gün "Ərəfat" vadisində, dağın ətəyində əzəmətlə dayandı, gözünü məşuqu Kəbəyə tərəf aç-

---

[432] Bax: http://www.ihq.az

dı. Lakin ona başqa bir gözlə baxdı, elə gözlə ki, ondan sənin və mənim xəbərim yoxdur. Eşqlə dolu bir ürəklə öz məşuqunun çöhrəsinə – Mütləq Həqiqətə tamaşa etməyə başladı ki, başqalarının o ürəkdən bir bəhrəsi yoxdur. İmam Hüseyn *(ə)* pak və təmiz ruhunun maddi dünya ilə əlaqəsini kəsdi, "Ərəfat" vadisindən mənən pərvaz etdi, yüksəklərə qalxdı, ondan da ucalara uçdu, nəhayət, bütün varlığı, bütün sirləri və səmavi səltənəti Mütləq Camalın işıltısından gördü və ixtiyarsız olaraq fəryad çəkdi:

***"İlahi, yaradılışın müxtəlif nişanələrindən, hadisələrin və olayların dəyişkənliyindən bildim ki, məni yaratmaqda məqsədin və istəyin bu olmuş: Öz əzəmətini, böyüklüyünü və qüdrətini hər şeydə mənə göstərəsən ki, Sənin hər yaratdığını görüm, Səni tanıyım və Səndən başqa heç nəyin təsiri altına düşməyim"***.

Başqa bir bəyanında bu mərtəbədən də yüksəyə qalxmış və bütün varlığı Haqqın Zatının, intəhasız camal və cəlalının zühuru bilib belə buyurmuşdu:

***"İlahi, təfəkkür və məşğuliyyət Sənin əsərlərinin (yaratdıqlarının) əzəmətinə doğru gedən yolu və müşahidələrimi məndən uzaqlaşdırır. Ona görə mənə elə bir xidmət mərhəmət et ki, məni Sənin camalını görməyə çatdırsın. Sənin Mütləq Zatına möhtac olan və özü Sənin varlığının kölgəsi olan əsərlər (yaradılmışlar) mənim üçün necə dəlil ola bilər? Məgər Səndən başqa Sənə mütləq möhtac olanların simasının şahidi və zühuru olurmu ki, o Sənin zühur və şahidin olsun? Sən nə zaman Öz bəndələrindən uzaq olmusan ki, Sənə bir dəlil axtaraq? O göz kor olsun ki, Səni özünün mühafizi kimi görmür və o bəndə ziyankardır ki, Sənin məhəbbət və eşqini almasın və camalının aşiqləri zümrəsində qərar tutmasın!"***

Bir gecə Həzrət Hüseyn *(ə)* atasının dostlarından olan Ənəslə Məkkeyi-Müəzzəmədə nənəsi Xədiceyi-Kubranın qəbrini ziyarət edib göz yaşı axıtdı, sonra Ənəsə buyurdu:

***"Məndən və bu məkandan bir qədər aralan, məni tək burax"***.

Ənəs deyir:

“Mən bir kənara çəkilib gizləndim, Hüseyn *(ə)* namaza durdu, münacatı və namazı uzun çəkdi. Qulaq asıb eşitdim ki, o Həzrət *(ə)* buyururdu:

***“Ey Pərvərdigar! Sən mənim – Öz bəndənin Mövlasısan. Öz kiçik quluna rəhm elə ki, onun pənahı Sənsən!”***

***“Ey Böyük Sahib! Sənin üstünlüklərin mənim arxamdır. Xoş o adamın halına ki, Sən onun Mövlasısan!”***

***“Xoş o adamın halına ki, Səndən qorxur, gecələr oyaqdır və öz çətinliklərini Sənin dərgahına söyləyir”.***

***“Heç bir dərd və xəstəlik onun öz Mövlasına olan eşqindən artıq deyildir”.***

***“Kim hər zaman öz qəm-qüssəsini bəyan etsə, Allahı onun cavabını verər və “Ləbbeyk” deyər”.***

***“Kim ki, gecənin qaranlığında dua etməyə və ağlamağa başlayarsa, Allah onu əziz sayar və Öz yaxınına buraxar”.***

Bu şərəfli münacatın davamı vardır, oxumaq istəyənlər İbn Şəhraşubun “Mənaqib” kitabına müraciət edə bilərlər.[433]

Mətin iradə sahibi olan şəxslərə böyük hadisələr kiçik təsir belə, göstərə bilmir, onlar hadisələr qarşısında həmişə dağ kimi dayanmağı bacarırlar. Belə şəxslərdən yumşaqlıq, mülayimlik və həddindən artıq təvazökarlıq gözləmək olmaz.

Lakin çox az insan var ki, bu iki şeyə – qəhrəmanlıq və təvazökarlığa birgə malik olsun. Adi və sadə adamlar bu səhnənin qəhrəmanı deyillər ki, hər iki meydanda qələbə qazansınlar, xüsusilə qüdrət və qüvvət onların ictimai məqamları ilə birləşdikdə.

Lakin şəhidlərin sərvəri Hüseyn *(ə)* özünün bütün böyüklüyü, əzəmət və qüdrəti ilə bəzən təvazökarlıqda, yoxsullarla, çarəsizlərlə mehribanlıqda o yerə çatdı ki, peyğəmbərlər *(ə)* zümrəsində və əxlaq mürəbbiləri arasında ona bənzərini az tapmaq olar.

Bir gün İmam Hüseyn *(ə)* yoxsullardan olan bir dəstənin yanından keçərkən onların süfrə açdığını gördü. Süfrənin ətrafında bir neçə dərviş oturmuşdu və tapdıqları çörək qırıntılarını ye-

---

[433] “Biharul-ənvar”, 44-cü cild, səh.193 (yeni nəşr).

yirdilər. İmam *(ə)* onlara salam verdi. Onlar da cavab verdilər və o Həzrəti *(ə)* öz süfrələrinə dəvət etdilər. İmam Hüseyn *(ə)* dərvişlərin süfrəsi qırağında oturdu, onların yeməyindən bir az yedi və bu kəramətli ayəni tilavət edərək təkəbbür sahiblərini xar etdi:

***"Allah təkəbbürlüləri sevməz".***[434]

Həzrət Hüseyn *(ə)* dərvişləri evinə dəvət edərək onları ləziz yeməklərə qonaq etdi, hər birinə təzə libas bağışladı və yalnız bundan sonra getmələrinə icazə verdi.[435] Bu təvazökarlıq, kasıbları sevmək, zəiflərə nəvaziş, səmimiyyət və insansevərlik göstərmək heç də əvvəlcədən hazırlanmış bir plan deyildi, bu, çox şeydən məhrum bir təbəqəyə sevinc bəxş etmək məqsədi daşıyan nümunəvi bir hərəkət idi. İmam Hüseyn *(ə)* istəmirdi ki, insanlar onun belə təvazökarlığından danışaraq günün mühüm xəbərləri sırasına çıxarsınlar. Xanım Zəhranın *(ə)* oğlunun şəxsiyyəti bu cür rəftar və insansevərliyi böyük saymaqdan daha böyük idi, əyər-əskiyi də yox idi ki, bu yolla onu aradan qaldırsın. Riyakarlıq da onun müqəddəs təbiətində yox idi. Bu, bəlkə də əxlaq dərsi idi ki, o Həzrət *(ə)* cahan rəhbərlərinə öyrətdi, təlim idi ki, öz dostları və davamçılarına verdi və bununla da xudpəsəndlərin başına, sinfi zülmkarların və qəsbçilərin nizamına bir zərbə vurdu. "Mənaqib"in müəllifi bu əhvalatı kiçik bir fərqlə nəql etmişdir, lakin əsl mətləb bu bəyan olunan şəkildədir.

Ehtiyac içində olan bir nəfəri həyat izzət zirvəsindən endirib zillət içinə atmışdı. Abrından başqa heç nəyi yox idi və başqa yol da bilmirdi. Lakin bunu bilirdi ki, öz mənfəətini güdən, xudpəsənd və vəzifəpərəst həvəsi ilə yaşayan bir cəmiyyətdə çox az adam olar ki, imkan daxilində başqalarının abrının hifz olunmasına görə çalışsın, onlara nicat vermək üçün səy etsin, özünün əziyyət çəkməsi və dostlarının rahat yaşamasına razı olsun. Belə adamların başında böyük İslam Peyğəmbərinin *(s)* xanədanı və onun əzəmətli şəxsiyyəti Hüseyn ibn Əli *(ə)* dayanırdı, həmin şəxs çarəsiz qalıb o Həzrətin *(ə)* yanına gəldi və dərdini söylədi.

---

[434] "ən-Nəhl", 23.

[435] Əllamə Hüveyzi, "Nurus-səqəleyn" təfsiri, c. III, səh.47, "Mənaqib", c. IV, səh. 66.

İmam Hüseyn *(ə)* buyurdu:

***“Qardaş, sənin xahiş və sualın mənə böyük göründü. Bilirəm, sənin boynuma düşən qardaşlıq hüququn daha böyükdür, mənim qüdrət və sərvət əlim sənin məqam və böyüklük əlindən tutmaqda acizdir və bütün sərvətim sənin minnətdarlığını ödəyə bilməyəcəkdir”***.

Sonra İmam *(ə)* buyurdu:

***“Ey kişi, əgər indi hazır olan şeyləri məndən qəbul etmiş olsan bütün xahiş və istəklərini yerinə yetirmək üçün lazım olan səylərdən və zəhmətlərdən məni azad etmiş olarsan”***.

Kişi dedi:

“Ey Allah Rəsulunun *(s)* oğlu, səndən yalnız mümkün olan şeyləri qəbul edirəm. Bəxşişin və əta etdiyin şeylər üçün sənə minnətdarlığımı bildirirəm. Əgər bunlardan məni məhrum etsən də səni üzrlü sayaram”.

İmam Hüseyn *(ə)* göstəriş verdi ki, o şəxsin ehtiyacı olan şeyləri diqqətlə öyrənsinlər, mümkün qədər çox şey hazırlasınlar. Hesabdar əlli min dirhəm hazırladı. İmam Hüseyn *(ə)* daha da diqqətli oldu. O Həzrət *(ə)* buyurdu:

***“Dinarları dirhəmlərlə birlikdə bu kişiyə ver”***.

Hesabdar da İmamın *(ə)* göstərişinə əməl etdi.

Şəhidlərin Seyidi Həzrət Hüseyn *(ə)* həmin şəxsin alicənablıq və böyüklüyünü o qədər yüksəltdi ki, hətta o qədər dirhəm və dinarı onun özünün tək aparmasına razı olmadı, nökərlərdən birinə bir əba bağışladı ki, onları götürsün və kişi ilə birgə onun mənzilinə çatdırsın.

İmamın *(ə)* qulamlarından biri ərz etdi:

“Yəbnə Rəsulullah *(ə)*, and olsun Allaha, bizim özümüz üçün bir dirhəm də pul qalmadı”.

Həzrət Hüseyn *(ə)* buyurdu:

***“Ümid edirəm ki, bu işlə böyük bir əcr mənim nəsibim olacaqdır”***.[436]

Əziz oxucu, bu da İmam Hüseynin *(ə)* böyük məktəbindən bir proqram, böyüklüyündən bir dərs və o Həzrətin *(ə)* üstünlük-

---

[436] Məqtəli-Xarəzmi, səh.153.

lərindən bir fəsildir ki, xeyirxah insanlar gərək ondan ibrət götürsünlər. Bu qədər maddi yardım etmək eyni zamanda diqqəti cəlb etsə də hər şeydən mühümü azadələrin sərvərinin söhbət və rəftar tərzidir ki, öz müsəlman qardaşının abrını qoruyub saxlamaqda nümayiş etdirirdi, onun şəxsiyyətini və məqamını o qədər ucaltdı ki, sanki borclu idi.

Günlər, həftələr, aylar, illər sürətlə ötüb keçir, bir dəstə adam həyatın naz-neməti və rifahı içində üzür. Lakin binəvaların, səfillərin ürək parçalayan fəryadı asimanın geniş fəzasında ucalır və dalğalanır. Ancaq nə dalğa, nə hərəkat! Elə bir dalğa ki, minlərlə ah-naləni, əzab və dərdi özü ilə bu tərəfdən o tərəfə aparır ki, bəlkə onun üçün bir dərman axtarsın və ya bir ayıq adam tapsın ki, ona öz ürəyinin dərdini desin.

Əfsus ki, bir ayıq ürək yoxdur ki, biçarələri xatırlayaraq döyünsün, onların halına yansın. Yalnız cəmiyyət və adi insanlarla öz insani və imani əlaqələrini kəsməyən pak ürək sahibləri hər yerdə və hər halda zəiflərin və binəvaların naləsini eşidir və onların köməyinə çatmağa tələsirlər.

Bu ürəklərin kamil nümunəsi bir qəlb idi ki, özündə bütöv bir cahanı yerləşdirdi, aləmi öz sevdasının dalınca çəkib apardı və o, bir mərdin pak sinəsində döyünürdü ki, adı Hüseyn ibn Əli *(ə)* idi, babası Həzrət Muhəmməd *(s)* kimi düşünür, atası Həzrət Əli *(ə)* kimi yaşayırdı.

İmam Hüseyn *(ə)* yalnız azadlıq və şücaət nümayişi, inqilab və ədalət rəhbəri deyildi, o Həzrət *(ə)* həmçinin, mehribanlıq, şəfqət və qayğıkeşliyin isti ocağı hesab olunurdu. İmam *(ə)* gecələr yatmayaraq binəvalar üçün azuqə daşıyır, bununla da yaralı ürəklərə məlhəm qoymağa çalışır, həmçinin özünün inqilabi məktəbinin tərəfdarlarına insanpərvərlik və insansevərlik, mehribanlıq və qayğıkeşlik dərsi verirdi ki, insanlıq kəramətlərinin bütün sahələrində onu İmam *(ə)* bilsinlər və özlərinin böyük rəhbəri kimi tanısınlar.

Bu hərəkət, rəftar və əməllər bir dəfə, iki dəfə baş vermirdi, əksinə o qədər təkrar olunurdu ki, İmamın *(ə)* mübarək çiyinlərində o heybələrin izi görünürdü.

Şüeyb Xüzai adlı biri deyirdi:

"İmam Hüseynin *(ə)* şəhadətə yetişməsindən sonra onun dəfni zamanı mübarək çiyinlərində dərin iz göründü. Əli ibn Hüseyndən *(ə)* bunun səbəbini soruşdular və o Həzrət *(ə)* belə buyurdu:

***"Bu ona görədir ki, o (atam), yemək dolu heybələri binəvaların, yetimlərin və kasıbların evlərinə həmişə çiyinlərində daşıyardı"***.

Ayıq oxucu! Bu iş nə qədər təkrar olunmalı və nə qədər ağır olmalıdır ki, onun təsiri (izi) ömrünün axırına qədər qalsın!

İlahi, bizə o ləyaqəti və imkanları nəsib et ki, binəvaların qəlbinin dadına çataq, özümüzün bütün fikir, qüdrət, rəyasət və sərvətimizi yalnız özümüzün istəklərimizi və ehtiyaclarımızı təmin etmək üçün sərf etməyək, dünyanı özümüzünkü hesab etməyək! Əgər bu ləyaqətimiz yoxdursa, eyiblərimizi bizə anlat ki, öz nöqsanlarımıza diqqət yetirək! Əgər bir kəsin əlindən tutmuruqsa, kimsənin ayağını sındırmayaq, bir xeyrə çatmırıqsa, zərər də vurmayaq!

Yaxşı olardı ki, bu cəhəti də Hüseyndən *(ə)* öyrənək ki, o da aləmlərə rəhmət kimi göndərilən öz böyük babasından öyrənmiş və rəvayət etmişdir:

***"İnsanlar Allahın ruzi yeyənləridir. Allahın yanında ən sevimli bəndələr o şəxslərdir ki, Onun ruzi yeyənlərinə xeyir verir və ailəni şad-xürrəm edirlər"***.[437]

Yaxşılığı və yaxşı insanları təşviq, pisliyi və pisləri tənqid etmək, əgər yerindədirsə, şəxsi-qərəzdən uzaq baş verirsə, cəmiyyətin islah olunmasında və təkmilləşməsində iki güclü və təsirli amildir. Böyük şəxsiyyətlər, pislikdən və pis olan kəslərdən qaçmaqla yanaşı, hər yaxşını və yaxşılıqları təşviq etməkdə də səy göstərirlər.

Şəxslərə və əşyalara etinasız yanaşmaq, lazım olan yerdə tərif və tənqid dilindən məhrum olmaq ya mərifətsizlik, ya bədniyyətlilik, ya da qərəzçilik və fəziləti gizləmək nişanəsidir.

---

[437] "Cəfəriyyat", səh. 193.

Əbdürrəhman Sami adlı bir müəllim şəhidlərin sərvərinin övladlarından birinə “Fatihə” surəsini öyrədirdi. Uşaq İmamın *(ə)* hüzurunda surəni çox kamil şəkildə qiraət etdiyi zaman Həzrət Hüseynin *(ə)* çox xoşu gəldi. Müəllimi təşviq və Quranı öyrətmək məqamını təqdir etmək üçün göstəriş verdi ki, o Quran müəlliminə mükafat və böyük xələt versinlər, özü isə ona faxir və qiymətli libaslar bağışladı, bahalı dürr əta etdi.

Dardüşüncəli şəxslərdən biri buna etiraz etdi, Quranın bir surəsinin öyrədilməsi müqabilində bu bəxşiş və mükafatı böyük, habelə həddindən çox saydı. Deyəsən etiraz edən şəxs bu məsələni bazar, al-ver qiyməti ilə müqayisə etmişdi. Lakin elm və Quran evində böyümüş şəhidlərin sərvəri elmin, mərifətin və Quranın əzəmətini nəzərə aldı və belə buyurdu:

***“Axı bu miqdarda hədiyyə haradan onun təlim haqqını ödəyə bilər?”***

Sonra İmam *(ə)* səxavət və bəxşişi tərif və xəsisliyi məzəmmət edən bu şeirləri oxudu:

***“Dünya səxavət əlini sənə uzadanda sən də***
***dünyada səxavətli ol.***
***Sərvət əlindən çıxmamış sən də bütün insanlara***
***qarşı həssas ol.***
***Bil ki, dünya sənə xoş üz göstərəndə səxavət sərvəti***
***məhv etmir.***
***Əgər dünya sənə arxa çevirsə, xəsislik sərvəti***
***saxlaya bilməz”.***[438]

İlahi ədəblə tərbiyə olunmuş böyük və görkəmli şəxsiyyətlər böyük və ya kiçik olan hər bir işdə Allah kimi hərəkət edir, heç vaxt yaxşılıqları, nə qədər kiçik olsalar da belə, unutmur, pislikdən və cinayətkarlardan intiqam almaqda və onlarla mübarizədə də tələsmirlər. Əksinə kiçik bir üzr və xahişlə böyük xətaları bağışlayır, kiçik bir yaxşılığa, mehr və ədəbə böyük hədiyyələr verir, bəzən bir dağı bir saman çöpünə bağışlayırlar.

---

[438] “Mənaqib”, c. IV, səh. 66 (Qum Elmiyyə Hövzəsinin çapı).

Onlar əfv etməkdə elə bir ləzzət tapırlar ki, bu, intiqamda əsla mümkün deyildir, hədiyyə etməkdə də heç vaxt əməlin kiçikliyinə və tərəf-müqabilin əhəmiyyətsizliyinə diqqət yetirmirlər.

Onlar həmişə Pərvərdigarın razılığını, əzəmətini, böyüklüyünü və öz uca şəxsiyyətini, uzaq görməyənlərin xoşuna gəlməsə də əməlin ölçüsü hesab edirlər.

Bu məsələdə yenə də Həzrət Muhəmmədin *(s)* və Həzrət Əlinin *(ə)* evinə, ocağına baş vuraq, Şəhidlər Şərvəri İmam Hüseynin *(ə)* məktəbindən bir nümunə nəql edək. Həzrət Hüseynin *(ə)* qulamlarından biri bir cinayət törətmişdi ki, işgəncəyə və cəzaya layiq idi. İmam Hüseyn *(ə)* əmr verdi ki, onu cəzalandırsınlar. Muhəmməd *(s)* xanədanının əhval-ruhiyyəsindən və böyüklüyündən xəbərdar olan qulam dərhal bu ayəni oxudu:

***"Öz qəzəbini udan bəndələr..."***

İmam Hüseyn *(ə)* buyurdu:

***"Onu azad edin!"***

Qulam bu ayəni oxudu:

***"Onlar ki, insanları əfv edirlər..."***

İmam *(ə)* buyurdu:

***"Səni bağışladım"***.

Qulam bu ayəni oxudu:

***"Allah yaxşı əməl sahiblərini sevir"***.

Həzrət Hüseyn *(ə)* buyurdu:

***"Sən Allah xatirinə azadsan və sənə indiyə qədər verdiyimdən iki dəfə çox haqq verməyi qərara aldım"***.

Ənəs deyir:

"Hüseyn ibn Əli *(ə)* ilə oturmuşdum. İmamın *(ə)* kənizlərindən biri otağa daxil oldu və bir dəstə gülü İmama *(ə)* təqdim etdi. Həzrət *(ə)* o kənizə buyurdu:

***"İndi sən Allah xatirinə azadsan"***.

Mən irad tutdum və dedim:

"O sənə bir dəstə gül təqdim edir, sən onu azad edirsən?" Sonra anladım ki, yanılmışam, bu müamiləni bazar və ticarət hesabı ilə ölçmüşəm, əxlaq məktəbindən, insanlıq kəramətindən, təbin şərafətindən və ailə nəcabətindən qəflət olmuşam.

İmam Hüseyn *(ə)* buyurdu:

***"Bu elə bir ədəbdir ki, onu Allah bizə (Peyğəmbər xanədanına) öyrətmiş və belə buyurmuşdur: "Sizə salam verildiyi zaman onu daha gözəl alın və ya (eynilə sahibinə) qaytarın".***[439]

Gül hədiyyəsindən daha yaxşı hədiyyə məhz onu azad etmək idi.

Ümumiyyətlə, insanlar – qadın, kişi, böyük, kiçik, şəhərli, kəndli, alim və cahil hamısı təbiətən mal, sərvət, pul və vəzifəni sevirlər. Az adam tapılar ki, bu İlahi qanundan istisna olsun. Cahan mal və sərvətsiz, qadın və övladsız gözəl simaya malik olmaz.

Qurani-Kərim buyurmuşdur:

***"Mal-dövlət və övlad dünyanın zinətidir"*** ("əl-Kəhf", 46);

***"Qadınlar, uşaqlar, qızıl-gümüş xəzinələri, yaxşı cins atlar, mal-qara, əkin yerləri kimi nəfsin istədiyi və arzuladığı şeylər insanlara gözəl göstərilmişdir. Lakin bütün bunlar dünya həyatının keçici zövqüdür. Gözəl qayıdış yeri isə Allah yanındadır".***[440]

Qurani-Kərimin "Əraf" surəsində belə buyurulmuşdur:

***"Ya Peyğəmbər! De ki: Allahın Öz bəndələri üçün yaratdığı zinəti və pak ruziləri kim haram etmişdir? De ki: bunlar dünyada iman gətirənlər üçündür. Qiyamət günündə isə xalis şəkildə yalnız möminlərə məxsusdur".***[441]

Qurani-Kərim bu nemətlərin və dünyəvi həyat vasitələrinin iman sahibi olan şəxslərə məxsus olduğunu aydın surətdə göstərmiş, bu nemətlərin xalis və təmizinin Qiyamət günü onların ixtiyarına qoyulacağını müjdə vermişdir.

Pəhrizkarların rəhbəri İmam Əli ibn Əbi Talib *(ə)* buyurmuşdur:

***"Agah olun ki, sərvət nemətlərdən biridir".***[442]

---

[439] "ən-Nisa", 86.
[440] "Ali-İmran", 14.
[441] "əl-Əraf", 32.
[442] "İsna-əşəriyyə", səh. 7.

Doqquzuncu İmam Həzrət Cavad *(ə)* buyurmuşdur:

***"Dörd şey vardır ki, insana işdə və fəaliyyətində köməklik göstərir: sağlamlıq, ehtiyacsızlıq, bilik və ilahi tövfiq".***[443]

Lakin nəzərə almaq lazımdır ki, dünyəvi sərvətin, malın və zinətin tərifi, öyülməsi və cəmiyyətin təkamülündə zəruri sayılması heç də onlardan sui-istifadə edilməsi mənasında deyildir. Qürur və xudpəsəndlik doğuran, Allahı yad etməyi unutduran sərvət zahirən qəşəng və aldadıcı, batinən isə öldürücü olan ilan kimidir.

Ona görə də sərvətə, sərmayəyə qarşı mübarizə aparmaq üsulu İslamın danılmaz qanununa ziddir, əksinə başqa nemətlər kimi çox böyük nemət olan elmdən, qüdrətdən və sözün nüfuzundan sui-istifadə etməyə qarşı mübarizə aparmaq lazımdır.

Bilik və qüdrət kimi sərvət də ağılsızın, yaramaz birisinin əlinə düşərsə, cəmiyyətdə tüğyan edib itaətsizlik əmələ gətirər, Allahlıq iddiası edər və Firon kimi – "mən sizin ən uca Rəbbinizəm" deyib dad çəkər, öz iqtisadi və maddi qüdrətinin bu iddianı etməyə ona icazə verdiyini sanar.

Necə ki, Qurani-Kərim Fironun dilindən hekayət edir:

***"Məgər Misir səltənəti (saraylarının) altından axan bu nəhrlər mənim deyilmi? Məgər mənim qüdrətimi görmürsünüzmü?"*** [444]

Quran sərvətpərəstlik nəticəsində Allahı unudanlar, Onun böyük nemətlərindən insanların xeyri və səadəti yolunda sərf etməyənlər haqqında belə buyurmuşdur:

***"Qızıl və gümüş toplayan və onu Allah yolunda xərcləməyənləri dərdli bir əzabla müjdələ";***[445]

***"Vay olsun bütün məzəmmət edən və eyib axtaran adamların halına ki, var-dövlət toplayır və güman edirlər ki, sərvətləri və mal-mülkü onları ölümdən xilas edəcək, dünyada onları daimi yaşadacaqdır. Amma bu, belə deyildir. Əksinə, onlar Cəhənnəm odu içinə atılacaqdır".***

---

443 "İsna-əşəriyyə", səh. 171.

444 "əz-Zuxruf", 51.

445 "ət-Tövbə", 34.

Cəmiyyətlərin məhvi, məmləkətlərin viranəyə dönməsi o zaman başlayır ki, rifah axtaran və əyyaş adamların bir hissəsi Allahın nemət və sərvətlərdən sui-istifadə edir, özləri üçün əyləncə, müxtəlif gecə məclisləri düzəldir, xalqın işi və cəmiyyətin güzəranından xəbərsiz olur, təbəqələr arasında bir uçurum əmələ gətirir, beləliklə öz millətlərinin məhvinə bais olurlar.

Allah-taala bu cür insanlar haqqında belə buyurmuşdur:

***“Əgər Biz bir məmləkəti (və ya şəhəri) məhv etmək istəyiriksə, onun naz-nemət içində yaşayan başçılarına verdiyimiz əmrlərdən sonra yenə fisq və günah işlərə əl uzadarlarsa, o zaman onlar haqqındakı vədəmiz və sözümüz sübut olar. Sonra onları məhv edərik”.***[446]

Göründüyü kimi, sərvət haqqındakı bütün məzəmmət və tənqid ondan sui-istifadəyə, yanlış bəhrələnməyə aiddir, mal və sərvət sahibi olmağa yox!

Nə olaydı ki, insanlar sərvət toplamaq, mal-dövlət hərisi olmaq əvəzinə mənfəət axtaranların, zəiflərin hüququna təcavüz edənlərin qarşısını almağa, onları İslamın ali təlimləri yoluna yönəltməyə, asimani cəzalardan xəbərdar və Quran qanunlarından istifadə etməyə çalışaydılar.

Nə olaydı ki, insanlar İslamın, müsəlmanların, qardaşların, qonşuların və yoxsulların qanuni hüquqlarını müdafiə edib sərvətdən şəri üsullarla istifadə etməyə səy edəydilər, sərvəti, malı və vəzifəni məqsəd yox, vasitə sanaydılar. Çünki həqiqi ilahi rəhbərlər cəmiyyətin islah olunmasında, fəsad və puçluğun qarşısının alınmasında məhz bu üsuldan istifadə etmiş, hətta müəyyən qədər müvəffəqiyyət də əldə etmişlər.[447]

---

[446] “əl-İsra”, 16.

[447] Ayətullah Səbri Həmədani, “İmam Hüseynin *(ə)* əxlaqi görüşləri”.

V FƏSİL

# İSLAMDA CİHAD ANLAYIŞI VƏ ŞƏHİDLİYİN FƏZİLƏTLƏRİ

# 5. 1. İSLAMDA CİHAD ANLAYIŞI VƏ ONUN SƏBƏBLƏRİ

Cihad kəlməsi ərəb mənşəli "cəhd" kökündən törəmiş ifadə olub lüğəti mənası "güc və səy sərf etmək, əməldə mübaliğə etmək və zəhmət çəkmək" deməkdir.

İslami ədəbiyyatda – "Allahın dini üçün can, mal, dil və digər vasitələrlə əldən gələn güc və səyi sərf etməyə cihad deyilir" tərifi əsas götürülmüşdür. Buna görə də Rəsulullah *(s)* buyurmuşdur:

***"Müşriklərlə malınızla, canınızla və dilinizlə cihad edin".***

Cahiliyyə dövründə ərəb qəbilələri arasında illərlə sürən qanlı savaşlar cərəyan edirdi. Bu səbəbdən də onlara savaş məfhumu yad deyildi. Bəs görəsən, cihad ilə hərb məfhumu arasında hər hansı bir fərq varmı? Səhabə Cabirdən rəvayət edilən hədisi-şəriflərdən birində bu iki məfhum arasında bəzi fərqlərin olduğu izah olunmuşdur.

Cihad anlayışı hərb məfhumundan daha geniş məna tutumuna malikdir. Əbəs yerə deyildir ki, İslam Peyğəmbəri *(s)* buyurmuşdur:

***"Həqiqi mücahid nəfsinə qarşı döyüş açan kimsədir".***[448]

Buna görə də dünyəvi rahatlığını, həva və həvəsini bir kənara buraxan mükəlləfin Uca Allahın razılığını qazanmaq niyyəti ilə kafirlərlə döyüşməsi bir ibadət deməkdir.

İnsanın özünü Allaha qulluqdan saxlayan hər şeyi tərk etməsinə "zühd" deyilmişdir. Bu mənada Allahın razılığı üçün həva və həvəsini bir kənara buraxan mükəlləfə də zahid deyilir. Abdullah ibn Məsuddan rəvayət edilən bir hədisi-şərif dünyəvi həyatı Peyğəmbərin *(s)* necə qiymətləndirdiyini başa düşməyimizdə bizə yardımçı olar:

"Bir həsir üzərində yatan Rəsuli-Əkrəm *(s)* qalxdıqda həsir bədənində iz buraxmışdı. Səhabə dedi:

---

[448] "Sünəni-Tirmizi", Cihad-2.

“Ya Rəsulullah *(s)*! Sizə bir yataq tədarük görsək olmazmı?”

Peyğəmbər *(s)* buyurdu:

***“Mənim dünya ilə nə işim var. Mən dünyada bir ağac altında kölgələnib də (sonra onu) buraxıb gedən bir yolçu kimiyəm”***.

Rəsuli-Əkrəm *(s)* buyurmuşdur:

***“Hər hansı bir müsəlman qaza etmədən (döyüşmədən) və onu könlündən keçirmədən ölsə, nifaqın bir şöbəsi üzərinə (yəni münafiq olaraq) ölər”***.

Bu səbəbdən möminlərin istər fərzi-kifayə, istər fərzi-ayn olsun, cihada niyyət etmələri vacibdir. “Böyük cihad” etdiyini iddia edərək döyüşməyi könlündən keçirməyən kimsə Şeytanın vəsvəsəsinə qapılmış və nəfsinə tabe olmuşdur.

Adəmlə peyğəmbərlə *(ə)* başlayan tövhid mübarizəsində zalım güclərlə döyüşməyin fərz qılınmadığı heç bir dövr yoxdur. Mötəbər qaynaqlarda zikr edildiyinə görə, Rəsulullah *(s)* Hicrətdən sonrakı on illik dövr içərisində (yəni Mədinə dövründə) iyirmi dəfə zirehini geyib və qılıncını əlinə alıb cihada çıxmışdır!

Cihadın səbəbinə gəldikdə isə bu barədə Allah-taala Qurani-Kərimdə belə buyurmuşdur:

***“Müşriklər sizinlə necə bütünlüklə hərb edirsə, siz də onlarla bütünlüklə hərb edin”***.

Təfsir alimləri bu ayəni əsas götürərək müşrik və kafirlərə qarşı əmr edilən cihadı məhz onların İslama qarşı döyüş açmalarının səbəbi kimi dəyərləndirmişlər. İslam alimlərinə görə, cihaddan məqsəd müsəlmanların təhlükəsizlik içində olmaları, din və dünya işlərini icra etmə imkanına qovuşmalarıdır. Qurani-Kərimdə buyurulur:

***“Dində məcburiyyət yoxdur. Həqiqət, iman ilə küfr açıq-aşkar bir-birindən ayrılmışdır. Artıq kim tağutu tanımayıb Allaha iman etsə, o şübhəsiz qırılması mümkün olmayan ən möhkəm ipdən yapışmışdır...”***.

Bu ayədə həm ikrahın (təzyiq və məcbur etmənin) ola bilməyəcəyi, həm də iman” və “küfrün” açıqca meydana çıxdığı qeyd edilmişdir.

Bundan əlavə, Qurani-Kərimdə belə bir hökm də var:

***“Əgər Rəbbin diləsəydi Yer üzündəki kəslərin (insanların) hamısı iman edərdilər. Belə ikən sən hamısı mömin olsunlar deyə insanları məcbur edib dayanacaqsanmı?”***

İslamın nəzərdə tutduğu sülh bütün bəşər övladlarının fikri baxımdan azad və aram atmosferdə, Allaha pərəstişi təbliğ etmək, yaymaq, Uca Allah sözünü reallaşdırmaq və İlahi hakimiyyəti möhkəmləndirmək üçün heç bir narahatlıq duymadan dinc-yanaşı yaşamaqdır. Allahın onlar üçün nəzərdə tutduğu hərtərəfli ictimai ədalətdən azad və müstəqil yararlanmaqdır. Deməк, aydın olur ki, İslamda cihad və sülhün məqsədləri müştərəkdir.

“Silm” kökündən olan İslam sülh, əmin-amanlıq və saflıq dinidir. Sülh və əmin-amanlıq ifadələri isə Quranda dəfələrlə işlənmiş, dərin mənalar ifadə etmiş və bu baxımdan böyük önəm kəsb etmişdir. Silm kökü lüğətcə zahiri və batini xəstəliklərdən uzaq olmaq mənasını ifadə edir. Quranda deyilir:

**اذ جاء ربه بقلب سليم**

***“O zaman o, öz Rəbbinin hüzuruna tərtəmiz bir qəlblə gəlmişdi”.***

Quranda silm ifadəsi sülh və əmin-amanlığın sinonimidir. Belə ki, bir ayədə oxuyuruq:

**يا ايها الذين آمنوا ادخلوا في اللسلم كافه**

***“Ey iman gətirənlər! Hamınız bir yerdə sülhə gəlin! Şeytanın yolu ilə getməyin, çünki o sizin açıq düşməninizdir!”***.[449]

Burada sülh ədalətli saziş və dinc-yanaşı yaşamaqdır.

Həmçinin digər bir ayədə oxuyuruq:

**و ان جنحوا للسلم فاجنح لها**

***“Əgər sülhə meyl göstərsələr, sən də sülhə meyl göstər”.***

Başqa bir ayədə oxuyuruq:

**لكم عليهم سبيلاً فان اعتزلوكم فلم يقاتلوكم و القوا اليكم السلم فما جعل الله**

---

[449] “əl-Bəqərə”, 208.

***“Əgər onlar sizdən aralanıb bir tərəfə çəkilsələr və sizinlə vuruşmayıb sülh təklif etsələr, o zaman Allah sizin üçün onların əleyhinə çıxmağa heç bir yol qoymaz”.***[450]

Hər halda, İslam Allahın əmrinə təslim olmaq, yalnız Allah qarşısında baş əymək və Onun iradəsinə tabe olmaqdır. Bu isə hər bir müsəlmanın düşüncə və davranışının əsasıdır.

Sülh sözü isə lüğətdə barışıq, saziş və xalq arasında nifrəti aradan qaldırmaq mənalarını ifadə edir. Səlah və salih sözləri ədalət, insaf, ləyaqət və hər növ fəsaddan uzaq durmaq mənaları ilə üst-üstə düşür. İslam sözü də həmin kökdən törəmiş və ülfət, sülh mənalarını ifadə edir.

Allah-taala Quranda buyurur:

**فاتقوا الله واصلحوا ذات بينكم**

***“Allahdan qorxun, aranızdakı münasibətləri düzəldin”*** (əl-Ənfal”, 1).

Başqa bir ayədə oxuyuruq:

**لاتفسدوا في الارض بعد اصلاحها**

***“Yer üzərində iş yoluna qoyulduqdan sonra orada fəsad törətməyin”***;

**الذين يفسدون في الارض ولايصلحون**

***“O kəslər ki, Yer üzündə fitnə-fəsad törədər və (pis işlərdən, günah əməllərdən əl çəkib özlərini) islah etməzlər!”***[451]

Məsumlardan bizə gəlib çatan hədislərdə də silm və sülh sözləri müxtəlif mənalarda işlənmişdir. Buna görə də İslamda sülh birincilik təşkil edir və cihadın da mahiyyəti müdafiədir. Hər ikisinin məqsədi isə dünyada tövhid əqidəsini yaymaq və İlahi qanunları kürsüyə oturtmaqdır.[452]

Bununla da beynəlxalq platformalarda İslamın şəhidlik amalını ləkələmək məqsədini güdən qrupların “müqəddəs sa-

---

[450] “ən-Nisa”, 90.
[451] “əş-Şuəra”, 152.
[452] Şəhid Mürtəza Mütəhhəri, “Cihad”.

vaş” adı verərək bəhs etdikləri cihadı necə də səhv bir şəkildə dünyaya çatdırmaq istəmələri, həmçinin həmin qrupların təsiri altına düşənlərin İslamı səhv başa düşdükləri üçün cihad adı altında bəzi fəaliyyətləri ilə səhv bir düşüncəni tətbiq edərək səhv yolda olmaları aydın olur.

Cihad kəlməsinin kökü olan “cəhd” qərarlı və şüurlu bir şəkildə səy göstərmək deməkdir. İslam ədəbiyyatında bu səyin fiziki olanına cihad, mənəvi olanına mübarizə, elmi olanına isə ictihad deyilir. Bu üç ifadə də Allah yolunda səy göstərmək nöqtəsində birləşir. Beləliklə də cihad mal, can və fikir ünsürlərindən biri və ya hamısı ilə ifadə edilə bilər.

Cihad İslam ədəbiyyatında “dini əmrləri öyrənib ona görə yaşamaq və başqalarına öyrətmək, yaxşılığı əmr edib pislikdən çəkindirməyə çalışmaq, İslamı təbliğ, nəfsə və xarici düşmənlərə qarşı mübarizə etmək” şəklində ümumi və əhatəli mənası ilə yanaşı, fiqhi termin olaraq daha çox müsəlman olmayanlarla müharibə, təsəvvüfdə isə nəfslə mübarizə etmək mənasında işlədilmişdir.

Cihadla əlaqəli bir çox ayə və hədis var. Bu ayələrin bir qismində cihad kəlməsindən sözün həqiqi mənasında müharibə, digər bir qismində isə “Allahın razılığına uyğun bir həyat tərzi şəklində yaşamaq” nəzərdə tutulur.

“Mücahid nəfsi ilə cihad edəndir”,[453] “Mömin qılıncı və dili ilə cihad edər”,[454] “Müşriklərə qarşı mallarınız, nəfsləriniz və dillərinizlə cihad edin”,[455] ***“Cihadın ən fəzilətlisi zalım sultanın yanında haqqı söyləməkdir”[456] kimi hədislərlə ümmətin içində etməyəcəkləri şeyləri söyləyən və özlərinə əmr edilənləri etməyən nəsillər ortaya çıxacağını xəbər verən Peyğəmbərin (s) “Kim onlarla əli ilə cihad edərsə, mömindir, kim onlarla dili ilə cihad edərsə, mömindir, kim onlara qəlbi ilə cihad edərsə, mömindir”***[457] buyurması müharibəyə getməkdə olan İslam ordu-

[453] Tirmizi, “Fəzailul-Cihad”, 2.
[454] Əhməd ibn Hənbəl, “Musnəd”, III, 456.
[455] Əbu Davud, “Məlahim”, 17.
[456] Əbu Davud, “Məlahim”, 17; Tirmizi, “Fitən”, 13.
[457] Müslim, “İman”, 80.

suna qatılmaq üçün gələn birinə anası və atasının həyatda olub olmadığını soruşaraq həyatda olduqlarını bilməsi ilə, ***"O halda onlara xidmət yolunda nəfsinlə cihad et"***[458] buyurması və xanım Aişənin – "Ey Allahın Rəsulu *(s)*! Görürük ki cihad əməllərin ən fəzilətlisidir elə isə bizdə cihad etməli deyilikmi?" deyə soruşması üzərinə, ***"Sizin üçün cihadın ən fəzilətlisi məqbul Həcdir"***[459] şəklində cavab verməsi cihadın istər əhatə dairəsini, istərsə də üsullarını göstərməsi baxımından əhəmiyyətlidir. Buna görə də cihad həyatın məqsədi olaraq Allaha qulluq etməkdə, Allah və Rəsulunun *(s)* qoyduğu ölçülərin fərd, habelə cəmiyyət həyatına tətbiq olunmasına çalışmaqda, İslamı digər insanlara təbliğ, İslam ölkəsi, o cümlədən müsəlmanları hər cür təhlükə və hücumlara qarşı müdafiə və bu mövzuda lazım gələrsə müharibəyə qədər geniş bir məna daşımaqda – qəlb, dil, əl və s. kimi bəşəri iradənin ortaya qoyulduğu hər vasitə ilə edilə bilməkdədir.

Normal şərtlər şəraitində cihadın fərzi-kifayə, ümumi səfərbərliyi lazım edən bir təhlükə və hücum halında isə fərzi-ayin olduğu mövzusunda İslam hüquqşünasları görüş birliyi (ittifaq) içindədirlər. Digər tərəfdən, Peyğəmbərin *(s)* bir müharibədən dönərkən söylədiyi rəvayət edilən və daha çox təsəvvüf əhlinin əsas götürdüyü - ***"Kiçik cihaddan (müharibə) böyük cihada (nəfslə mücadilə) döndük"***[460] kəlamının zəif[461] olduğu irəli sürülməklə yanaşı, İbn Qayyum əl-Cevziyyənin "mücahid nəfsi ilə cihad edəndir"[462] hədisinə istinad edilərək qulun nəfsi ilə olan cihadının xarici düşmənlərə qarşı gerçəkləşdirilən cihadla müqayisədə daha mühüm olduğu, Allahın əmrlərinə tabe olma mövzusunda nəfsi ilə cihad edə bilməyən kimsənin düşmənlə də cihad edə bilməyəcəyi bildirilir.[463]

---

[458] Buxari, "Cihad", 138; Müslim, "Birr", 5.
[459] Buxari, "Cihad", 1.
[460] Acluni, "Kəşful-Xəfa", Dar əl-Kutub əl-İlmiyah, Beyrut 1997, I, 511; Gazzali, "İhyaul-Ulumiddin" (Tərc. Ahmed Serdaroğlu), Bedir Yayınları, İstanbul 1977, III, 10.
[461] Əli əl-Qari, "Məvzuat", Dar əl-Kutub əl-İlmiyyah, Beyrut 1985, s. 206-207.
[462] Tirmizi, "Fəzailul-Cihad", 2.
[463] İbn Qayyum əl Cevziyyə, "Zatul-Mead", Qahirə 1950, II, 38.

Bu əhatə genişliyinə baxmayaraq İslam hüquqşünaslarının "müsəlman olmayanlarla müharibə" mənasındakı cihada daha çox üstünlük vermələri, bu cür cihadın hüquqi bir mahiyyət daşıması və bir sıra hüquqi nəticələr meydana gətirməsi ilə əlaqədardır. Bununla yanaşı, nəfslə mücadilə etmək şəklindəki cihadla daha çox təsəvvüf əhli maraqlanmışdır. Bu səbəbdən cihadın müharibədən olduğunu düşünmək gerçəyi əks etdirmədiyi kimi, cihada təkcə müharibə mənasının verilməsi də Quran və sünnə ilə ifadə edilən mənası baxımından da əksik və səhv sayılır.

Yuxarıda işarə edilən hədislərlə yanaşı, kafirlərə boyun əyməyib özlərinə qarşı Quranla güclü bir cihadın edilməsini əmr edən ayə ilə,[464] Allahın razılığını əldə etmək üçün cihad edənlərə Ona çatdıracaq yolların göstəriləcəyini vəd edən ayədə[465] cihad kəlməsinin müharibə mənasına gəlmədiyi açıq görünür. Ayrıca münafiqlərlə müharibəni lazım edən hər hansı bir hökmün tapılmamasını və onlara qarşı hərb elan edilməməsini əsas götürən müfəssirlər – ***"Ya Peyğəmbər! Kafirlər və münafiqlərlə hərb et"***[466] ayəsində keçən cihadın həm kafirlərə qarşı lazım gələndə hərb etməni, həm də münafiqlərə qarşı özlərini İslama qazandırmaq üçün dəlil gətirməni, sərtlik göstərməni, silahlı mücadilə xaricində onları qınama kimi bəzi yollara müraciət etməni ifadə etdiyini bildirmişlər.[467] Əsasən Quranda iki qrup arasında meydana gələn silahlı toqquşma mənası ilə ifadə edilən hərb[468] və qital[469] kəlmələri ilə bunların törəmələri işlədilmişdir.

İslam hüquqşünasları ümumi olaraq cihadın mənası və hökmü ilə yanaşı, kafirlərə qarşı hüquqi məşru (icra edilmə) olmasının səbəbləri üzərində də ətraflı durmuşlar. Mövzunun ələ alındığı Qərb qaynaqlarının demək olar ki, hamısında cihadın bütün dünya

---

464 "əl-Furqan", 25/52.
465 "əl-Ənkəbut", 29/69.
466 "ət-Tövbə", 9/73.
467 Razi, "Məfatihul Ğayb", Akçağ Yayınları, Ankara 1989, XVI, 135.
468 "əl-Maidə", 5/64, "əl-Ənfal", 8/57, "Muhəmməd", 47/4.
469 "əl-Bəqərə", 2/190-191,193, "ən-Nisa", 4/74-76, "ət-Tövbə", 9/12-13.

müsəlman olana qədər və ya İslam hakimiyyətinə boyun əyənədək müsəlman olmayanlarla hərb etməyi ifadə etdiyi irəli sürülmüşdür. Bu iddianı irəli sürən Qərb tədqiqatçıları İslamda hərbin məşruluğu ilə əlaqəli İslam hüquq ədəbiyyatında ortaya qoyulan görüşlərə yer verməməklə və bunlara aid mübahisələrə etinasız yanaşmaqla özlərini diqqət mərkəzində saxlayırlar. İslam hüquqşünasları Quran və sünnədə bildirilən əsaslara görə, istər hərb öncəsi və hərb əsnasında, istərsə də hərbdən sonra tabe olunması lazım olan qaydaları öz dövrlərindəki şərtlər çərçivəsində ən incə detallarına qədər təsbit etdikləri kimi, hərbin məşruluğu məsələsini də müzakirə etmişlər. İslam hüquqşünaslarının əksəriyyəti hərbin məşruyət səbəbinin düşmən təcavüzü olduğunu, müsəlmanlara qarşı vuruşmayanlarla hərb etmənin və sadəcə İslamı mənimsəmədiyi üçün bir insanı öldürmənin caiz olmadığını bildirmişlər.

Son ayələrdə isə səbəbi bir daha təkrar etməyə ehtiyac görülməyib hərbdə tətbiq olunacaq tərəflərdən söz edilməkdədir. Bu ayələrin ilk nazil olan ayələri nəsx etməsi kimi iddianın elmi bir əsası yoxdur. Bu mövzu haqqında olan ayələrin tətbiq etmə sahəsi və şərtləri fərqli olub aralarında ziddiyyət olmadığı kimi, ilk ayələrdə təcavüzə qarşı hərb etmənin də vacib olduğu bildirildiyindən bu cür ayələrin nəsx edildiyini söyləmək də mümkün deyil.

Cihadın İslamdakı mahiyyətini daha da dərindən başa düşmək üçün müasir təfsirçilərdən olan Ayətullah Fəqih İmaninin “əl-Bəqərə” surəsinin 190-195-ci ayələrinə verdiyi təfsiri oxucuların diqqətinə çatdırırıq. Belə ki, adıçəkilən ayələrin təfsirində təfsirçi yazır:

وَقَاتِلُواْ فِي سَبِيلِ اللّهِ الَّذِينَ يُقَاتِلُونَكُمْ وَلاَ تَعْتَدُواْ إِنَّ اللّهَ لاَ يُحِبِّ الْمُعْتَدِينَ

***“Və Allah yolunda sizinlə vuruşanlara qarşı vuruşun, amma həddi aşmayın, çünki Allah həddini aşanları sevmir”.***[470]

Müsəlmanlar sonrakı il Məkkə səfərinə hazırlaşarkən müşriklərin öz əhdlərinə vəfa etməyib onlara mane olacaqlarını və nəticədə müharibə başlanacağını ehtimal edirdilər. Müharibə baş-

---

470 “əl-Bəqərə”, 190.

lanacağı surətdə Peyğəmbər *(s)* haram aylarda cihad etməyə məcbur olacağından bərk narahat idi. Buna görə də yuxarıdakı ayə nazil oldu və müharibə başlanacağı təqdirdə müşriklərlə mübarizə edilməsinə hökm edildi.

Qurani-Kərim bu ayədə müsəlmanlarla müharibəyə başlayaraq onların üzərinə qılınc çəkənlərə qarşı cihad hökmünü verir və onların düşmənləri susdurmaq üçün silaha sarılaraq hər növ müdafiə vasitələrindən istifadə etmələrinə icazə verir. Çünki artıq müsəlmanların səbir kasası dolmuşdu, indi onlar mərdmərdanəliklə, açıq-aşkar öz hüquqlarını müdafiə etməli idilər.

Bu ayədə İslamın müharibə barəsində məntiqini tamamilə aşkar edən üç əsas məsələyə toxunulmuşdur:

وَقَاتِلُواْ فِي سَبِيلِ اللّهِ

***"Allah yolunda müharibə edin"*** cümləsinə diqqət yetirməklə İslamda müharibənin (cihadın) əsl hədəfi aydınlaşır. Belə ki, İslam baxımından intiqam almaq, şan-şöhrət və rəyasət qazanmaq, torpaqların genişləndirilməsi, qənimət əldə edilməsi, başqa ölkələri işğal edərək kiməsə ağalıq etmək məqsədi ilə aparılan müharibələr mənfi qiymətləndirilir. Silahlı cihad o zaman düzgün ola bilər ki, Allahın razılığı yolunda və İlahi qanunların, haqq-ədalətin, tövhidin genişləndirilməsi, eləcə də zülm, fəsad və azğınlığın kökünün kəsilməsi məqsədilə olsun.

Kiminlə müharibə etmək məsələsinə gəldikdə isə الَّذِينَ يُقَاتِلُونَكُمْ ***("sizinlə müharibə edənlərlə müharibə edin")*** cümləsi aşkar şəkildə bəyan edir ki, düşmən ələ silah alıb müsəlmanlarla müharibəyə başlamayınca müsəlmanlar mübarizəyə qalxmamalıdır. Lakin cihad ayələrində qeyd olunan bəzi şəraitlər bu hökmdən istisna olunub.

Bu ayədən məlum olur ki, müharibə zamanı qeyri-hərbçilər, xüsusilə də qadın və uşaqlar, habelə yaşlı qocalar və əlillər hücuma məruz qalmamalıdır, onlar müharibədə iştirak etmədikləri üçün təhlükəsizlikləri təmin olunmalıdır.

Buna görə də Həzrət Əli ibn Əbu Talib *(ə)* öz əsgərlərinə göstəriş verib buyururdu:

***"Nə qədər ki, onlar hücum etməmişlər onlara hücum etməyin. Çünki siz Haqqa tabesiniz və onların əleyhinə (Allah dərgahında) dəlil-sübutunuz var. Müharibəyə ilk olaraq başlamamağınız isə sizin Haqqın tərəfində olmağınızı çatdırır"***.

Müharibəyə məxsus olan müxtəlif məsələlər ***"və la tətədu"*** (həddi-hüdudu aşmayın) cümləsindən aydın olur. Çünki İslamda müharibə yalnız Allahın razılığı ilə və Onun yolunda aparılmalıdır. Bu yolda heç bir təcavüzə yol vermək, Allahın təyin etdiyi həddi-hüdudu aşmaq olmaz. Buna görə də İslam dini müasir müharibələrin əksinə olaraq hərbdə əxlaq normalarına riayət olunması barədə çoxlu tövsiyələr etmişdir. Məsələn, silahı yerə qoyaraq təslim olanlar, döyüş qabiliyyətini əldən verənlər, ümumiyyətlə vuruşmağa qüdrəti olmayanlar, o cümlədən, qocalar, qadınlar və uşaqlar təcavüzə məruz qalmamalıdır. Əkin sahələri, bağlar və istehsal mərkəzləri məhv edilib aradan aparılmamalı, ətraf mühit və su zəhərlənərək korlanmamalıdır (kimyəvi, bioloji və atom bombalarından istifadə olunmamalıdır).

Həzrət Əli *(ə)* buyurur:

***"Allahın köməyi ilə düşmən qoşununa zəfər çaldığınız zaman qaçanları və yaralıları öldürməyin, onlara işgəncə verməyin, hətta sizin böyüklərinizi söyərək nalayiq sözlər desələr belə, onlara əzab-əziyyət verməyin"***.

Bu ayədə Quranın müharibə və cihadın müxtəlif məsələləri barəsindəki izahlarından müxaliflərin və İslamın qərəzli düşmənlərinin cihad barəsindəki yersiz ittihamları tamamilə aydın olur. Digər ayələrdə də cihadın müxtəlif məsələləri ilə əlaqədar olaraq əlavə izahlar verilmişdir ki, Allahın köməyi ilə oxuyacaqsınız.

**وَاقْتُلُوهُمْ حَيْثُ ثَقِفْتُمُوهُمْ وَأَخْرِجُوهُم مِّنْ حَيْثُ أَخْرَجُوكُمْ وَالْفِتْنَةُ أَشَدُّ مِنَ الْقَتْلِ وَلاَ تُقَاتِلُوهُمْ عِندَ الْمَسْجِدِ الْحَرَامِ حَتَّى يُقَاتِلُوكُمْ فِيهِ فَإِن قَاتَلُوكُمْ فَاقْتُلُوهُمْ كَذَلِكَ جَزَاء الْكَافِرِينَ**

***"Və onları (cinayət törətməkdə əllərindən gələni əsirgəməyən bütpərəstləri) hər yerdə tapsanız öldürün; onları, sizi***

***qovub çıxardıqları yerdən (Məkkədən) çıxardın. Fitnə (və bütpərəstlik) qətldən də pisdir. Onlarla, Məscidul-Həramın yanında (hərəm sayılan yerlərdə) müharibə etməyin. Lakin onlar sizinlə orada müharibə aparsalar (bu halda eybi yoxdur). Əgər onlar sizinlə (həmin yerdə) müharibə etsələr onları qətlə yetirin. Kafirlərin cəzası məhz budur!***”[471]

Bu ayə müsəlmanlara onları öz vətənlərindən çıxarıb didərgin salan Məkkə bütpərəstləri ilə müharibə etmək və törətdikləri cinayətlər müqabilində Məkkədən çıxarmaq göstərişi verir. Çünki həmin bütpərəstlər illər boyunca müsəlmanlara qətldən də ağır olan müxtəlif işgəncə və əzab-əziyyətləri rəva görmüşlər.

Fiziki cəhətdən öldürülmək dünyəvi həyatdan məhrum edilmək deməkdir, əvəzində bəşər övladı Axirət səadətinə nail olur. Lakin işgəncədə nə dünyəvi rifah, nə bir ləzzət, nə də başqa bir asayiş vardır.

Bütün bunlarla yanaşı, yenə də göstəriş verilir ki, Məscidul-Həramın əmin-amanlıq və müqəddəsliyi xatirinə onun ətrafında müharibə aparmayın. Lakin müşriklər oranın ehtiramını saxlamayaraq müharibəyə başlasalar müsəlmanlar da mübarizəyə qalxıb onları cəzalandıra bilərlər. Burada bir neçə incə məqama diqqət yetirmək lazım gəlir. Bu məqamlar aşağıdakılardan ibarətdir:

1. Müəyyən hallarda düşmənin törətdiyi cinayət əməllərinə cavab olaraq onlara da elə həmin cəza verilməlidir.

2. Hərəm və Məscidul-Həram müqəddəsdir, lakin müsəlmanların qanının hörməti ondan da müqəddəsdir. Burada “nisbətən mühüm olan işlə daha yüksək əhəmiyyət kəsb edən iş” məsələsi irəli gəlir.

3. Müharibəni ilk olaraq başlamamaq əmr olunduğu kimi, müqəddəslərin hörmətinin məcburi olaraq pozulmasında da qabağa düşmək olmaz.

4. Hər hansı bir göstəriş və ya hökmün səbəbinin bəyan olunması insana sevinc gətirir və onun əmrlərə daha yaxşı şə-

---

[471] “əl-Bəqərə”, 191.

kildə itaət etməsinə şərait yaradır. Quran müşriklərin qətlə yetirilməsi hökmünün dəlilini bəyan edərək buyurur ki, onlar uzun illər sizə əzab-əziyyət, işgəncə vermişlər, bu isə qətldən daha pis və daha şiddətlidir. Belə olduğu təqdirdə müqəddəs Kitab müsəlmanlara əmr edib buyurur ki, onlarla müharibə və mübarizədə süstlük və zəiflik göstərməyin. Qurani-Kərimin müşrikləri Məkkədən çıxarmağa dair hökm verməsinin dəlili onların uzun illər müsəlmanları öz vətənlərindən, ev-eşiklərindən çıxarıb didərgin etmələridir.

فَإِنِ انتَهَوْاْ فَإِنَّ اللّهَ غَفُورٌ رَّحِيمٌ

***“Əgər onlar əl çəksələr Allah da bağışlayan və mehribandır”.***[472]

Bu ayədə buyurulur ki, düşmən fitnədən əl çəkərək bütpərəstliyi və şirki tərk edərsə, Allah da onların tövbələrini qəbul edər. Onlar İslamı qəbul etsələr müsəlmanların qardaşı sayılacaq, hətta cinayətkarlar üçün nəzərdə tutulan cəzalarda belə, güzəştə gediləcək və vurduqları xəsarətlərin ödənməsi tələb olunmayacaqdır.

وَقَاتِلُوهُمْ حَتَّى لاَ تَكُونَ فِتْنَةٌ وَيَكُونَ الدِّينُ لِلّهِ فَإِنِ انتَهَواْ فَلاَ عُدْوَانَ إِلاَّ عَلَى الظَّالِمِينَ

***“Onlarla müharibə edin ki, fitnə qalmasın (bütpərəstlik və insanların asayişinin pozulmasına son qoyulsun) və din yalnız Allaha məxsus olsun. Deməli, əgər onlar (öz yanlış əməl və yollarından) əl çəksələr (onlara mane olmayın, çünki) zalımlardan başqasına təcavüz rəva deyildir”.***[473]

Bu ayədə islami cihadın əsl hədəfi bəyan olunaraq buyurulur ki, İslamda cihadın əsas məqsədi adi müharibələrdə olduğu kimi, Yer üzərində hökmranlıq etmək, torpaqları genişləndirmək, çoxlu qənimətlər əldə etmək, malların satışı üçün bazar tapmaq, xammal əldə etmək, yaxud kimisə istila altına almaq deyildir. Cihadın əsas hədəf və məqsədi Pərvərdigarın razılığını

472 “əl-Bəqərə”, 192.
473 “əl-Bəqərə”, 193.

cəlb etmək, ictimai ədaləti bərqərar etmək, azğınlıqda olanları hidayət etmək, bütün İslam və insan cəmiyyətlərində şirkin, bütpərəstliyin kökünü kəsmək və Allahın hökmlərini icra etməkdir. Buna əsasən, İslamda cihadın əsas məqsədi cəmiyyətlərdə fitnə-fəsadın aradan qalxması, tövhid ayininin cəmiyyətdə rəvac tapıb rövnəqlənməsidir.

Ayənin axırında buyurulur ki, küfr, fəsad və bütpərəstlikdən əl çəkib haqqa qayıtsalar, müsəlmanlar onlara toxunmamalı, onlardan intiqam almaq məqsədi güdməməli, olub-keçənlərdə güzəştə getməlidirlər. Çünki yalnız zalımlarla müharibə aparmağa icazə verilir.

Nəticə olaraq islami cihadı xülasə şəkildə üç yerə bölmək olar:

**I. Azadlıq bəxş edən ibtidai cihad**

Allah-taala insanların səadəti, azadlığı, təkamülü, xoşbəxtliyi və asayişi üçün müxtəlif əmr və göstərişlər bəyan etmiş, Öz peyğəmbərlərinə *(ə)* bu göstərişləri insanlara çatdırmağı əmr etmişdir. Ayrı-ayrı fərdlər və ya müəyyən dəstələr bu təbliğləri öz şəxsi mənafelərinə zidd görərək ona qarşı çıxdıqda və ya maneçilik törətmək istədikdə ilk növbədə tövsiyə və danışıq yolu ilə bu işdən yayındırılmalı, mümkün olmadıqda isə zor tətbiq etməklə susdurulmalı və nəticədə azad təbliğat üçün şərait yaradılmalıdır.

Başqa sözlə desək, bütün cəmiyyətlərdə hər bir insan, İlahi elçilərin dəvətini eşitmək və onların dəvətini qəbul edib-etməməkdə azaddır. Əgər müəyyən şəxslər onları öz qanuni haqqından məhrum etməyə çalışaraq Allah yolu çağırışçılarının səsini eşitməyin qarşısını alaraq onları ictimai və fikri əsarətdən qurtarmağa qoymasalar onda bu çağırışın tərəfdarları öz azadlığını əldə etmək üçün mümkün olan qanuni vasitələrdən istifadə edə bilərlər. Buradan ibtidai cihadın İslam və sair səmavi dinlərdəki zərurəti aydınlaşır.

Həmçinin, əgər müəyyən şəxslər möminləri təzyiqə məruz qoyaraq onları icbari şəkildə öz ata-babalarının dininə qaytarmaq istəsələr o zaman müsəlmanlar bu təzyiqləri aradan qaldırmaq üçün hər bir vasitədən istifadə edə bilərlər.

**II. Müdafiə cihadı**

Bəzən müəyyən bir şəxsə və ya dəstəyə müharibə zorla qəbul etdirilir, onlar düşmən təcavüzünə və qəfil hücumlara məruz qalırlar. Belə olan halda bütün səmavi və bəşəri qanunlar hücuma məruz qalanların öz varlıqlarını müdafiə etmək üçün ayağa qalxıb mümkün olan hər bir şeydən istifadə etməsinə, bu məqsədlə hər bir tədbirə əl atmasına icazə verir. Bu növ cihada müdafiə cihadı deyilir. İslamın əvvəllərində baş verən "Əhzab", "Ühüd", "Mutə", "Təbuk", "Hüneyn" və s. müharibələr məhz bu qəbildən olan cihad idi.

**III. Şirk və bütpərəstliyin kökünü kəsmək üçün aparılan cihad**

Müqəddəs dinimiz bütün dünya xalqlarını səmavi dinlərin sonuncusu və ən yüksəyi olan İslam dinini seçməyə dəvət etməklə yanaşı, əqidə azadlığına da ehtiram qoyur. Buna görə də bu din səmavi kitaba malik olan qövm və millətlərə İslam ayini barəsində axtarış aparmaq, dərindən fikirləşmək üçün kifayət qədər fürsət verir. Əgər lazımi axtarışlardan sonra da qəbul etməsələr kiçik qruplar olan dini azlıqlar kimi, çox da çətin olmayan şərtlər daxilində onlara dinc, yanaşı yaşamaq haqqı verilir. Lakin şirk və bütpərəstlik səmavi din olmadığından heç bir ehtirama layiq görülmür, əksinə həqiqətdə xurafat, azğınlıq, düşüncəsizlik, əxlaqi və əqidə xəstəliyi olduğundan mümkün olan hər biri vasitə ilə onlara qarşı mübarizə aparılıb kökü kəsilməlidir.

Hər hansı bir əqidə və ya fikir düzgün köklərə malik olan zaman "azadlıq" və "başqalarının əqidəsinə ehtiram qoymaq" sözlərinə layiq görülür. Lakin xurafat və azğınlıq kimi bəlalar ehtirama layiq olmadığından İslam dini nəyin bahasına olursa-olsun, hətta müharibə ilə olsa belə, cəmiyyətin həyatından bütpərəstliyin kökünün kəsilməsinə göstəriş verir. Bütxanalar və bütpərəstliyin rüsvayçı ayinlərinin aradan qaldırılması dinc yolla mümkün olmazsa, zor gücünə məhv edilməlidir.

Nə üçün cihad hökmü Mədinədə verildi? Bu sualı cavablandırmaq üçün əlavə şərhə ehtiyac vardır.

Bildiyimiz kimi, cihad hökmü müsəlmanlara Hicrətin ikinci ilində vacib edildi. Səbəbi də tamamilə aydındır. Çünki əvvəla, Məkkədə müsəlmanların sayı az olduğundan silahlı qiyam onların tamamilə məhvinə səbəb ola bilərdi. Digər tərəfdən isə Məkkədəki İslam düşmənləri çox güclü idi və ora İslamla düşmən olanların əsas mərkəzi hesab olunurdu. Onlarla Məkkədə mübarizə aparmaq əsla mümkün deyildi. Lakin Peyğəmbər *(s)* Mədinəyə gəldikdən sonra İslama iman gətirənlərin sayı artdı. Həzrət Muhəmməd *(s)* öz dinini həm Mədinənin daxilində, həm də ətraf məntəqələrdə aşkar surətdə təbliğ edib genişləndirməyə başladı. Kiçik bir hökumət yarandıqdan sonra düşmənlə mübarizə aparmaq üçün lazımi vasitələr və döyüş sursatı hazırlandı. Mədinə Məkkədən nisbətən uzaqda yerləşdiyinə görə bu iş tam sakitliklə baş verirdi, inqilabçı və azadlıqsevər qüvvələr düşmənlə mübarizəyə ciddi şəkildə hazırlaşırdılar.

**الشَّهْرُ الْحَرَامُ بِالشَّهْرِ الْحَرَامِ وَالْحُرُمَاتُ قِصَاصٌ فَمَنِ اعْتَدَى عَلَيْكُمْ فَاعْتَدُواْ عَلَيْهِ بِمِثْلِ مَا اعْتَدَى عَلَيْكُمْ وَاتَّقُواْ اللّهَ وَاعْلَمُواْ أَنَّ اللّهَ مَعَ الْمُتَّقِينَ**

***"Haram ay, haram ay müqabilindədir. (Əgər düşmənlər onun ehtiramını pozaraq o ayda sizinlə müharibə etsələr siz də onlarla mübarizəyə qalxa bilərsiniz.) Və bütün haramlar qisas alınmağa (layiqdir). Və (ümumiyyətlə) hər kəs sizə təcavüz etsə, onun etdiyi təcavüz kimi siz də ona təcavüz edin və Allah qarşısında təqvalı olun (ifrata varmayın) və bilin ki, Allah təqvalılarladır".*** [474]

İlin dörd ayı xüsusi ehtirama malikdir və həmin aylarda müharibə aparmaq qadağandır. Onların üçü – Zilqəədə, Zilhəccə və Məhərrəm bir-birinin ardınca gəlir, Rəcəb ayı isə onlardan ayrıdır. Ərəbcə mənasından məlum olduğu kimi, Zilqəədə ayında da müharibəni saxlayaraq atəşkəs bərqərar etmək lazım və vacibdir (qəədə – müharibədən yayınmaq).

İslam dini bu dörd haram ayda atəşkəs elan edir. Lakin düşmən həmişə pusquda durub fürsətdən istifadə etmək istəyir

[474] "əl-Bəqərə", 194.

və müsəlmanların bu aylarda atəşkəsə riayət etməyə vəzifəli olmalarından sui-istifadə edərək onlara həmlə etmək fikrinə düşür. Ayədə buyurulur ki, əgər sizin düşmənləriniz bu dörd ayda sizə hücum etsələr siz də onlarla mübarizəyə qalxıb həmin aylarda onlarla vuruşun (haram ayı haram ayın müqabilində qərar verin). Çünki müsəlmanların təhlükəsizliyi, eləcə də İslam dövlətinin əhəmiyyəti bu ayların hörmətindən daha artıqdır:

**وَالْحُرُمَاتُ قِصَاصٌ**

***“Hər kəs hörməti saxlamazsa, ondan qisas alınmalıdır”.***

Sonra ümumi bir qanun şəklində buyurulur ki, hər kəs sizə təcavüz etsə, siz də həmin miqdarda ona təcavüz edin. İslam dini təcavüzkarlıq dini deyildir, lakin başqalarının da təcavüzkarlıq və inadkarlığını qəbul etmir. İslam öz ardıcıllarına tövsiyə edir ki, təqvalı olub lazım olan miqdardan artıq qisas almasınlar və bilsinlər ki, Allah-taala təqvalılarladır. Burada da diqqət çəkən bir neçə məqam vardır:

1. İslamın heç bir hökmündə imkansızlıq və çıxılmaz vəziyyətdə qalmağa yol verilmir, o cümlədən müsəlmanların toxunulmazlığı məkan və zaman ehtiramının qorunmasından daha irəlidir.

2. Hətta düşmənlərlə qarşılaşdıqda belə, ədalətə riayət etmək lazımdır:

**فَمَنِ اعْتَدَى عَلَيْكُمْ فَاعْتَدُواْ عَلَيْهِ بِمِثْلِ مَا اعْتَدَى عَلَيْكُمْ**

3. Təqvaya bütün şəraitlərdə, hətta müharibə zamanı belə, əməl olunması İslamda insani tərbiyə üsullarından biri və başlıcasıdır.

4. Qanun elə olmalıdır ki, müsəlmanların məyus, düşmən və kafirlərin isə cürətlənməsinə səbəb olmasın. Qisasda “rəva görülən miqdarda qisas almaq” prinsipi də məhz həmin səbəbə görə müəyyən edilmişdir.

5. Ayə müsəlmanlara təskinlik verərək buyurur ki, əgər siz düşməndən qisas almaqda ədalətdən kənara çıxmasanız və təqva prinsiplərinə riayət etsəniz mütləq qeybi yardımlardan faydalanacaqsınız.

وَأَنفِقُواْ فِي سَبِيلِ اللّهِ وَلاَ تُلْقُواْ بِأَيْدِيكُمْ إِلَى التَّهْلُكَةِ وَأَحْسِنُوَاْ إِنَّ اللّهَ يُحِبُّ الْمُحْسِنِينَ

***"Və Allah yolunda infaq edin və (infaqı tərk etməklə) özünüzü öz əllərinizlə həlakətə salmayın. Yaxşılıq edin, çünki Allah yaxşılıq edənləri sevir".***[475]

Cihadda sədaqətli, qüvvəli və sınaqdan çıxmış insanlara ehtiyac olduğu qədər mal-dövlətə, maddi imkanlara da ehtiyac vardır. Çünki cihadda həm ruhi və fiziki hazırlıq, həm də fərdlərin zəmanəyə uyğun münasib silah və hərbi sursatla təchiz olunması zəruridir. Müharibənin müqəddəratında həlledici amilin ilk növbədə döyüşçülər olmasına baxmayaraq əsgərlərin də müxtəlif döyüş texnikasına ehtiyacı vardır. Bu ayə təkid edir ki, bu yolda infaq etməmək özünü və müsəlmanları həlakətə salmaq deməkdir. Xüsusilə də İslamın əvvəllərində müsəlmanların əksəriyyəti Allah yolunda cihada çox maraq göstərib onu rəğbətlə qarşılayırdılar. Lakin bəziləri fəqir və ehtiyaclı olduğuna görə müharibə üçün lazım olan vasitələri təmin edə bilmirdilər. Quranın buyurduğuna görə, onlar Peyğəmbərin *(s)* yanına gəlib döyüş təchizatı alaraq müharibəyə getmək istəyirdilər. Ancaq silah çatışmadığına görə qəmgin olur və göz yaşı axıdırdılar.

وَلاَ عَلَى الَّذِينَ إِذَا مَا أَتَوْكَ لِتَحْمِلَهُمْ قُلْتَ لاَ أَجِدُ مَا أَحْمِلُكُمْ عَلَيْهِ تَوَلَّواْ وَّأَعْيُنُهُمْ تَفِيضُ مِنَ الدَّمْعِ حَزَنًا أَلاَّ يَجِدُواْ مَا يُنفِقُونَ

***"Onlar müharibədə iştirak etmək üçün mal-dövlətləri olmadığına görə çox qəmgin olur və ağlar gözlərlə qayıdırdılar"***.

Bundan əlavə, infaq ictimai bəlaların qarşısının alınmasında lazımlı və zəruri bir yoldur. Deməli, cihad ayələri sırasında gəlməsinə baxmayaraq bu ayə ümumi və ictimai bir həqiqəti – infaq etməyi ümumiyyətlə cəmiyyətin həlakətdən qurtarması kimi bəyan edir. Lakin infaq məsələsi unudularaq mal-dövlət cəmiyyətin yalnız müəyyən bir sinfinin əlində toplanarsa, əksəriyyət səfalət və yoxsulluq içərisində dolanarsa, o zaman cəmiyyətdə qarşısıalınmaz böhran yaranar, sərmayədar və sahibkarlar

---

[475] "əl-Bəqərə", 195.

mal-dövlətləri ilə birlikdə inqilab odunda yanarlar. Buradan da infaqla cəmiyyətdə baş verəcək fəlakətin qarşısının necə alınması məlum olur.

İnfaq məhrum və fəqir insanlardan daha çox sərmayədarların xeyrinədir. Çünki sərvətin normal səviyyədə olması onun qorunmasına təminat verir. Əmirəl-möminin Əli *(ə)* bu həqiqətə işarə edərək buyurur:

***"Zəkat verməklə öz mal-dövlətinizi qoruyun"***.

Ayənin sonunda ehsan edilməsinə göstəriş verilib cihad və infaqdan sonra ehsan və yaxşılıq məsələsi irəli çəkilir:

وَأَحْسِنُوَاْ إِنَّ اللّهَ يُحِبُّ الْمُحْسِنِينَ

Çünki ehsan insan təkamülünün ən yüksək mərhələsidir, İslam da bu məsələyə tam diqqət yetirmişdir.

Bu cümlənin infaq ayəsinin axırında qeyd olunması göstərir ki, infaq və xeyriyyəçilik zamanı tam yaxşılıq və mehribanlıq olmalı, hər növ minnətdən, şəxsə ruhi və vicdan əzabı verən şeylərdən uzaq durulmalıdır.[476]

Göründüyü kimi, İslam dini təzyiqi, təcavüzü qətiyyətlə yasaq etmiş, məcburiyyət altında meydana gələn imanın da qeyri-məqbul olduğu hökmü ilə ifadə edilmişdir. Kin və nifrətə yol açan savaşı bir təbliğ vasitəsi olaraq düşünmək mümkün deyildir. Elə isə müsəlmanlara qarşı hərb etməyənin qeyri-müsəlmanlara qarşı əvvəlcə edilməsi lazım olan iş onlarla hərb etmək deyil, onları sülh yolu ilə İslama dəvət etməkdir.

Peyğəmbər *(s)* əksər döyüşlərdə orduya şəxsən rəhbərlik etmişdir.

فَقَاتِلْ فِي سَبِيلِ اللّهِ لاَ تُكَلَّفُ إِلاَّ نَفْسَكَ وَحَرِّضِ الْمُؤْمِنِينَ عَسَى اللّهُ أَن يَكُفَّ بَأْسَ الَّذِينَ كَفَرُواْ وَاللّهُ أَشَدُّ بَأْسًا وَأَشَدُّ تَنكِيلاً

***"Allah yolunda döyüş ki, səndən başqası (bu işə) vəzifəli deyil. Möminləri (cihada) rəğbətləndir. Bəlkə Allah kafirlərin***

[476] Ayətullah Fəqih İmanı, "Nurul-Quran", "əl-Bəqərə" surəsinin adı keçən ayələrinin təfsiri.

***zərərinin qarşısını alsın. Allah çox qüdrətlidir və cəzası çox dərdlidir”***.

Bu ayənin təfsiri haqqında məşhur təfsirçi Ayətullah Fəqih İmani yazır:

“Kafirlər Ühüd döyüşündə qalib gəldikdən sonra Əbu Süfyan qürurla belə dedi:

“Müsəlmanlarla kiçik Bədr mövsümündə (Bədrdə Zilqədə ayında keçirilən bazar) növbəti dəfə üz-üzə gələcəyik”.

Vəd olunmuş vaxt çatdıqda Peyğəmbər *(s)* xalqı cihada dəvət etdi. Lakin bir dəstə Ühüddə məğlubiyyət səbəbindən cihada getmək istəmədi. Bu zaman yuxarıdakı ayə nazil oldu. Peyğəmbər *(s)* xalqı növbəti dəfə cihada çağırdı. Bu zaman Yetmiş nəfər hazırlığını bildirsə də döyüş baş vermədi və müsəlmanlar sağ-salamat Mədinəyə qayıtdılar”.

***“Nükul”*** qorxu səbəbindən imtina mənasını bildirir. ***“Tənkil”*** isə qarşı tərəfi fikrindən döndərmək mənasını ifadə edir. Cəza, hədd ***“tənkil”***ə misal ola bilər.

İmam Sadiq *(ə)* buyurmuşdur ki, tənha qaldığı halda heç bir peyğəmbərə *(ə)* cihad əmri verilməmişdir.

İmam Baqir *(ə)* buyurmuşdur:

***“Bu ayə nazil olduqdan sonra Peyğəmbər bütün döyüşlərə şəxsən özü rəhbərlik edirdi”***.[477]

Buradan belə nəticə meydana gəlir:

1. Rəhbər başqalarının önündə getməlidir.
2. Əgər müsəlmanlar müstəzəflərin (əzilənlər) nalələrinə biganə qalsalar rəhbər təkbaşına hərəkət etməlidir.
3. Rəhbər o qədər qəti olmalıdır ki, cihad zamanı yanında kimsənin olub-olmaması təsirsiz olsun.
4. Hər kəs öz işinə məsuldur.
5. Xalqa yox, Allaha bağlanmaq lazımdır.
6. Peyğəmbərlərin *(ə)* vəzifəsi məcbur etmək yox, təşviq və dəvətdir.
7. Cəbhə və cihadın güclü təbliğata ehtiyacı var.

---

[477] “Təfsiri-Burhan”, c. I, səh. 398, “Təfsiri-Əyyaşi”, c. I, səh. 261.

8. Bizim vəzifəmiz qiyam və cihaddır. Düşmənin məğlubiyyəti Allahın işidir.

9. İlahi qüdrət bütün güclərin fövqündədir, bu qüdrət möminlər üçün ümid, müxaliflər üçün hədə-qorxudur.[478]

Hərb səbəbinin "küfr" olduğunu irəli sürən hüquqşünaslar bu hökmə müraciət edərkən öz zamanlarındakı millətlərarası şərtlərdən müsəlmanların daim kafirlərin təcavüzlərinə məruz qalmış olması səbəbindən təsirlənmiş olmalarını göstərə bilər. Qeyri-müsəlmanların müsəlmanlara qarşı hərb etmələrini cihadın əsas səbəbi sayan Hənəfi hüquqşünasları eyni vaxtda cihadın fərzi-kifayə olduğunu, qeyri-müsəlmanlar müsəlmanlarla hərb etməsələr belə, onlarla hərb etmənin müsəlmanlar üçün əhəmiyyət təşkil etdiyini ifadə etmələri[479] bir ziddiyyət olmayıb öz dövrlərində tərəflər arasında uzunmüddətli hərb halının mövcud olduğunu, düşmənin güclənməsinin və hücumlarının qarşısını almaq üçün əks hücumun lazım olduğunu göstərir. Eyni ifadələri əsərində qeyd edən Sərahsinin buna uyğun olaraq "Küfrün fitnəsini və kafirlərin şərini müsəlmanlardan dəf etmək üçün hərb edilir", "Cihaddan məqsəd müsəlmanların əmin-amanlıq içində olmaları, din və dünya işlərini icra etməyə imkan tapmalarıdır"[480] deməsi bunun açıq dəlilləridir. Belə ki, Dəbusi əhlikitabla hərbi əmr edən ayəni[481] açıqlayarkən bu hərbin qayəsinin onların müsəlmanlarla sülh şəraitində yaşamalarının təmin edilməsi kimi izah etmiş,[482] digər bəzi müsəlman alimləri qeyri-müsəlmanlarla cizyə qarşılığında edilən razılaşmadan (zimmət əqdi) əsas məqsədin isə müsəlmanlara qarşı edilən döyüşün şərini dəf etmək, düşmənin savaşı tərk edərək müsəlmanlarla sülh şəraitində yaşamasını təmin etmək olduğunu söyləmişlər.[483]

---

[478] Ayətullah Fəqih İmani, "Nurul-Quran" təfsiri, c. II, adı keçən ayənin təfsiri.
[479] İbn Abidin, "Reddul-Muxtar", Şamil Yayınevi, İstanbul 1982, IV, 123.
[480] Şemsuddin Səraxsi, "əl-Məbsut", İstanbul 1983, c. X, səh. 3.
[481] "ət-Tövbə", 9/29.
[482] Dəbusi, "əl-Esrar", Süleymaniye Yayınları, İstanbul t.y, 203.
[483] Bin Nuceym, "əl-Bəhr ər-Raiq", y.y t.y, V, 125.

Bütün bunlarla yanaşı, müsəlman hüquqşünasların öz dövrlərindəki millətlərarası şərtlər çərçivəsində müsəlman olmayan tərəflərə qarşı tam bir etibarsızlıq hiss etdikləri anlaşılmaqdadır. Bir çox ayələrdə işarə edildiyi kimi, istər Peyğəmbərin *(s)* sağlığında, istərsə də sonrakı dövrlərdə müsəlmanların məruz qaldıqları düşmənçilik və hücumlar bu etibarsızlığın əsasını təşkil etmiş, İslam ilə müsəlman olmayan dünya arasındakı əlaqələrin qaydaya salınmasında bu tarixi təcrübə əsas rol oynamışdır.

İslam hüquqşünasları qeyri-müsəlmanlarla əlaqələr mövzusunda hökm verərkən o zamanın tarixi və siyasi şərtləri Qərb tədqiqatçıları tərəfindən tam mənası ilə qiymətləndirilmədiyi kimi, bu tədqiqatçılar demək olar ki, bütün güclü ölkələrin bir-biriləri ilə qarşıdurma halında olduğu orta əsr boyunca dövlətlər arasında hökm sürən əlaqə formasını da təkcə müsəlmanların işi kimi göstərməyə çalışmışlar. Həqiqətdə isə xüsusi ilə Hənəfilərin cihada dair görüşləri millətlərarası əlaqələrdə sülhü və dövlətlərin bərabərliyini əsas almasına baxmayaraq mövcud şərtlər bu anlayışın inkişaf edib tətbiq edilməsinə imkan verməmişdir.

Cihadın məşruiyyəti ilə əlaqədar olaraq bu sahədə bir-birindən fərqli görüşlər irəli sürülməsinə baxmayaraq Hənəfi və Şafei qaynaqlarında bənzər ifadələrin yer alması bütünlüklə məlum şərtlərin eyni əlaqə formasını tələb etmiş olması ilə izah edilə bilər. Tarix boyunca müsəlman dövlətlərin qeyri-müsəlman ölkələrlə etdikləri müharibələrdə hər biri ayrıca araşdırılmalı olan tarixi, siyasi və dini səbəblər olmaqla birlikdə İslamı təbliğ üçün aparılan fəthlər də mövzu bəhsi olan ölkələrdəki insanları zorla İslamlaşdırmaq məqsədi deyil, fərdi planda təbliğ imkanının olmadığı bu ölkələrdə hər kəsin istədiyi inancı sərbəst bir şəkildə seçə bilmək imkanının gerçəkləşdirilməsidir. Belə ki, İslamda məşru qəbul edilən savaş üçün cihad kəlməsi işlədildiyi kimi, bu hərəkətləri işğal və istismarçı müharibələrdən ayırmaq üçün də xüsusi olaraq fəth ifadəsi işlədilmişdir.

Qərbli tədqiqatçıların cihadın məşruluğunu küfr səbəbinə bağlayan bəzi alimlərə aid görüş və sözləri nəzərdən keçirildikdə ümumiləşdirmədə olmaları və bu ifadələri məqsədlərini aşa-

caq şəkildə şərh edərkən qeyri-müsəlman ölkələrin tarix boyunca müsəlmanlara qarşı sərt münasibətlərinə baxmayaraq susmağa üstünlük verməsləri xüsusilə ibrətverici haldır. Halbuki Quranın müsəlmanlara düşmənçilik münasibəti bəsləməyən qeyri-müsəlmanlara qarşı yaxşı əlaqələr qurma nöqteyi-nəzərindən açıq tövsiyələrinə əsrlər boyu əməl edilərək İslam tarixi boyunca qeyri-müsəlmanların İslam ölkələrində əmin-amanlıq içində yaşamış olmaları cihadın hansı məqsədlərlə edilməsinin bariz göstəricisidir.

Cihad müsəlmanın Allaha qulluq və Onun razılığını təmin üçün İslam əsaslarını öyrənmə, öyrətmə, fərdi və ictimai planda yaşama, yaşamasına çalışma, İslamı təbliğ və bu xüsuslarda daxildə və xaricdə qarşılaşacağı maneələri aşma mövzusunda olması lazım olan şüurlu fəaliyyət halını ifadə edər. Müsəlmanın bütün həyat və fəaliyyətinin Allahın razılığını qazanmağa istiqamətlənməsinin əsas olması səbəbi ilə və bu mənadakı bütün səylər cihad ifadəsi içində mütaliə edildiyindən Allahın razılığına çatmaq üçün müraciət edilən hər bir hərb cihad sayılır. Əsasən işğal, istismar və təcavüz üçün edilən müharibələri tanımayan İslam müharibəyə ancaq müsəlmanların can və mal təhlükəsizliyini təmin etmək, haqq və azadlıqlarını qorumaq, İslama və İslam ölkələrinə istiqamətli hücumların qarşısını almaq məqsədi ilə müraciət ediləcəyini İlahi hökmə bağlamış və məşru gördüyü bu hərbi digərlərindən ayırmaq üçün ona cihad adı vermişdir. Bununla yanaşı, Qurani-Kərimin müsəlmanların ən gözəl şəkildə təbliğ etməklə mükəlləf olduqlarını, hər hansı bir nəfərə bu dini qəbul etdirmək üçün təzyiq edilməyəcəyini, təzyiq altında reallaşacaq imanın həqiqi imandan fərqli olduğunu açıqca ifadə edən hökmlərini gözardı edərək cihadı qeyri-müsəlmanları müsəlman etmənin bir vasitəsi olaraq təqdim etmək və ***"Ey müsəlmanlar! Düşmənlə qarşılaşmağı təmənna etməyin, Allahdan sağlıq diləyin. Lakin düşmənlə qarşılaşanda da səbir edin. Bilin ki Cənnət qılıncların kölgəsi altındadır"***[484] buyuran Pey-

[484] Buxari, "Cihad", 112, 156.

ğəmbərini *(s)* sanki dünyaya müharibə elan etmiş kimi göstərmək elmi həqiqətlər yanında əxlaqi ölçülərlə də uyğun gəlməyən bir davranışdır.

Qərbli tədqiqatçıların cihadın məna və mahiyyəti ilə əlaqəli olaraq həqiqəti əks etdirməyən fikirlərini müqəddəs savaş şəklində tərcümə etmələri də doğru deyildir. Cihad kəlməsi həmişə müharibə mənasını ifadə etmədiyi kimi, dini nöqteyi-nəzərdən hərbin müqəddəs sayılması həyat anlayışından qaynaqlanmaqdadır. Qərb həyat anlayışına görə, müsəlman müqəddəs sayıla biləcək tək şey olan ibadəti göstəriş və ya maddi mənfəət məqsədi ilə edər, Allahın razılığını əsas götürməzsə, dinə görə məqbul sayılan bir iş etmiş olmaz, hətta bu hal onu şirkə belə, götürə bilər. Buna qarşılıq müqəddəs sayılmayan yemək, içmək, təbii şeylər ilahi bir əmanət olan həyatın davam etdirilməsi, sağlığın qorunması və bu səbəbdən yaradanın razılığına səbəb olacaq davranışları savab məqsədi ilə edərsə, bu da bir ibadət olar. Hərb də belədir və təkcə Allah razılığı üçün edilər.[485] İslamın bu həyat anlayışı Qurani-Kərimdə – ***"De ki şübhəsiz mənim namazım da, ibadətlərim də, həyatım da, ölümüm də aləmlərin Rəbbi olan Allah üçündür"***[486] şəklində dilə gətirildiyi kimi, bir başqa ayədə də belə buyurulmuşdur:

***"İman gətirənlər istisna Allah yolunda, kafir olanlar isə Şeytan yolunda vuruşurlar. O halda Şeytanın dostları ilə (kafirlərlə) vuruşun! Şübhəsiz ki, Şeytanın hiyləsi zəifdir!"***[487]

---

[485] Muhammed Hamidullah, "İslamın Hukuk İlmine Yardımları", Istanbul 1962, s. 93-94.
[486] "əl-Ənam", 6/12.
[487] "ən-Nisa", 4/76.

## 5. 2. ŞƏHİDLİK VƏ FƏZİLƏTİ

Ərəb kəlməsi olan şəhid "şəhidə" feilindən törəmiş bir isimdir və məsdəri şahidlikdir. Şəhidin çoxluğu "şuhəda" və "əşhəd" olaraq istifadə olunur.[488]

Allah, Vətən və müsəlmanların azadlığı yolunda öldürülən adama şəhid deyilir. Çünki o, Allah üçün istəyərək ölümü seçir. Doğru olduğuna inandığı məqsəd üçün həyatını fəda etməsi imanındakı ixlasın bir göstəricisidir.

Quranda otuz beş yerdə "şəhid" kəlməsi və iyirmi yerdə cəmi olan "şuhəda" kəlməsi keçməkdədir. Eyni kökdən gələn kəlmələrlə Quranda keçən "şəhid" kəlməsi daha çox şəhid mənasındadır. Şəhid eyni zamanda, Uca Allahın adlarından biridir. Bir neçə ayə də bu mənanı ifadə etməkdədir.[489]

***"Quranın haqq olduğu müşriklərə bəlli olsun deyə Biz öz qüdrət nişanələrimizi onlara həm xarici aləmdə, həm də onların öz daxilində mütləq göstərəcəyik. Məgər Rəbbinin hər şeyə şahid olması sənə kifayət deyilmi?***";[490]

***"Allah yolunda öldürülənlərə "ölü deməyin". Əksinə onlar diridirlər, lakin siz bunu dərk etmirsiniz".***[491]

Burada mövzumuz olan şəhid isə Quranda daha çox ***"Qatələ"*** feilinin məchulu ilə Allah yolunda öldürülmə mənasında işlədilməkdədir.

Şəhidlik böyük bir dərəcədir. Şəhidlər həm Allahın rızasını, həm də Həzrət Muhəmmədin *(s)* sevgisini qazanan xoşbəxt insanlardır.[492]

"əl-Bəqərə" surəsinin 154-cü ayəsinin təfsiri haqqında Ayətullah Fəqih İmani yazır:

**"وَلاَ تَقُولُواْ لِمَنْ يُقْتَلُ فِي سَبيلِ اللّهِ أَمْوَاتٌ بَلْ أَحْيَاء وَلَكِن لاَّ تَشْعُرُونَ**

---

[488] əl-İsfahani, "əl-Mufredat", Darul Qaləm, Dəməşq 1997, səh. 267.
[489] Heyet, Şamil İslam Ansiklopedisi, Şamil yayınevi, İstanbul 1994, VI, 22.
[490] "Fussilət", 41/53.
[491] "əl-Bəqərə", 2/154.
[492] Heyət, Ş.İ.A, VI, 22.

***“Allah yolunda öldürülənlərə ölü deməyin; onlar diri-dirlər, lakin siz onu dərk etmirsiniz”***.

لِمَنْ يُقْتَلُ فِي سَبِيلِ اللّٰهِ

***“Limən yuqtəlu fi səbiylillah” (“Allah yolunda öldürülmək”)*** o kəslərə aid edilir ki, müharibə meydanında, Peyğəmbərin *(s)*, İmamın *(ə)* və yaxud onun xüsusi naibinin önündə şəhid olsun.

Bu hökm İslamın təbliğ edilməsi, dinin inkişaf etdirilməsi yolunda şəhid olanlara da aid olunur. Bu ayə Bədr müharibəsinin şəhidləri barəsində nazil olmasına baxmayaraq təkcə onlara məxsus deyil, Allah yolunda öldürülən bütün insanlara, o cümlədən məsum imamlara *(ə)*, onların səhabələri və naiblərinə, habelə alimlərə və s. möminlərə də şamil olur. Çünki ölümdən sonrakı həyat (Bərzəx həyatı) təkcə şəhidlərə aid deyildir. Burada ayə onların halını bəyan edir, lakin bir şeyin isbat edilməsi yerdə qalanların inkar edilməsi demək deyildir. Məsələn, əgər “Əhməd adildir” deyilirsə, bu halda ədalətin yalnız ona məxsus olması və başqalarının adil olmaması başa düşülmür, burada minlərlə ədalətli şəxsin olması da mümkündür.

Buna əsasən, ayə ölümdən sonrakı həyatı (Bərzəx həyatını) şəhidlər üçün isbat edir. Digər ayə və rəvayətlər isə bu həyatın Bərzəx aləmində bütün möminlərə aid olduğunu çatdırır. Möminlərin ruhu bədənlərindən ayrıldıqdan sonra elə bu dünyadakı bədənə oxşar bir şəklə düşür və Qiyamət gününə qədər ilahi nemətlərdən bəhrələnirlər. Kafirlərin ruhu da bədənlərindən ayrıldıqdan sonra həmin şəklə düşərək Bərzəx aləmində əzaba düçar olacaq.

Allah-taala buyurur:

حَتَّى إِذَا جَاءَ أَحَدَهُمُ الْمَوْتُ قَالَ رَبِّ ارْجِعُونِ لَعَلِّي أَعْمَلُ صَالِحًا فِيمَا تَرَكْتُ كَلَّا إِنَّهَا كَلِمَةٌ هُوَ قَائِلُهَا وَمِن وَرَائِهِم بَرْزَخٌ إِلَى يَوْمِ يُبْعَثُونَ

***“(Onlar öz yanlış yollarını) o zamana qədər (davam etdirərlər ki,) onlardan birinin əcəli gəlib çatar, o vaxt deyər: “Ey Rəbbim, məni qaytar! Bəlkə tərk etdiklərim və səhlənkarlığa yol verdiyim işlərdə saleh əməllər görəm”. (Amma ona deyər-***

***lər:) Belə deyil! Həqiqətən bu onun dildə dediyi bir sözdür! (Əgər dünyaya qaytarılsa, elə keçmişdəki əməllərini bir daha təkrar edəcəkdir.) Onların arxasınca dirildikləri günə qədər Bərzəx vardır”***.

“Məcməul-bəyan” təfsirində (“Təhzib” kitabından) nəql olunur ki, Yunis ibn Zəbyan deyir:

“İmam Sadiqin *(ə)* hüzurunda oturmuşdum. Möminlərin ruhu haqda söhbət düşəndə o Həzrət *(ə)* buyurdu:

***“Camaat möminlərin ruhları barəsində nə deyir?”***

Ərz etdim:

“Deyirlər ki, yaşıl quşların çinədanında ərş qəndillərindədir”.

Həzrət *(ə)* təəccüblə buyurdu:

***“Sübhanəllah! Allah-taala mömini qəbzi-ruh edəndə onu dünyada olduğu misali-qalibə salır. O, yeyir, içir, bir kəs ona tərəf getdikdə onu dünyada olduğu surətdə tanıyır”***.

Həmçinin, Əbu Bəsir belə rəvayət edir:

“İmam Sadiqdən *(ə)* möminlərin ruhu barəsində soruşdum, İmam *(ə)* belə buyurdu:

***“Cənnətdə elə bu bədən surətindədirlər, əgər onları görsən deyərsən ki, bu filankəsdir”***.

**Həyatın növləri barədə**

Həyat bir neçə növdən ibarətdir: bitkilərin həyatı, heyvanların həyatı, insanların həyatı və iman həyatı.

Bitkilərin həyatı yalnız təbii inkişafdan ibarətdir. Bu həyat həm bitkilər, həm heyvanlar və həm də insanlar arasında müştərəkdir. Ölümləri də bu qüvvənin məhv olub aradan getməsindən ibarətdir.

Heyvani həyat da elə bir qüvvədir ki, onun vasitəsi ilə hiss etmə və iradi hərəkətlər baş verir. Bu da heyvanla insan arasında müştərəkdir. Onun ölümü isə bu qüvvənin aradan getməsilədir.

İnsani həyat isə idrak və külli şeylərin dərk edilmə qüvvəsidir ki, insanlar onun vasitəsi ilə heyvanlardan seçilir. Bu qüvvə insandakı mücərrəd ruhun, natiqə nəfsin vasitəsi ilə yaranır və bədəni idarə edir.

Onun da ölümü nəfsin (ruhun) bədənlə olan əlaqəsinin kəsilməsi və onu idarəetmə dövrünün sona çatmasından ibarətdir. Lakin onun üçün məhv olub aradan getməyin mənası yoxdur. Ruh bədənlə olan əlaqə kəsildikdən sonra da diri qalır və insanlar Qiyamətdə dirilərkən yenidən onunla rabitə yaradır.

Ancaq Allaha iman və mərifət sayəsində möminlərdə hasil olan imanı həyat qəlbin aramlığı və nuraniliyi, nəfsin xatircəmliyidir. Onun sayəsində insan rahat, asudə və ləzzətlə yaşayır, dünyanın kədəri, xoşagəlməz hadisə və müsibətlər onun üçün qəm-qüssə, qorxu, narahatlıq və iztirab yaratmır. Çünki o, elə bir Allaha etimad edir ki, Ondan xeyir və gözəllikdən başqa bir şey baş vermir. Bu da digər ayələrdə qeyd olunan ***"təyyibə"*** adlı həyatdır. Belə ki, Allah-taala buyurur:

**مَنْ عَمِلَ صَالِحًا مِّن ذَكَرٍ أَوْ أُنثَى وَهُوَ مُؤْمِنٌ فَلَنُحْيِيَنَّهُ حَيَاةً طَيِّبَةً**

***"Kişi və qadınlardan hər kəs imanlı olan halda saleh əməl görərsə, mütləq və mütləq Biz onu təyyibə həyat ilə dirildərik"***.

Həmçinin Qadir Allah buyurur:

**يَا أَيُّهَا الَّذِينَ آمَنُواْ اسْتَجِيبُواْ لِلّهِ وَلِلرَّسُولِ إِذَا دَعَاكُم لِمَا يُحْيِيكُمْ وَاعْلَمُواْ أَنَّ اللّهَ يَحُولُ بَيْنَ الْمَرْءِ وَقَلْبِهِ وَأَنَّهُ إِلَيْهِ تُحْشَرُونَ**

***"Ey iman gətirənlər! Allaha və Onun Rəsuluna sizi həyatverici bir şeyə dəvət etdikləri zaman cavab verin"***.

Hikmət alimlərinin nəzərinə görə, sözlər ümumi və külli mənalar üçün düzəldilmişdir. Sözün mənaya hansı dərəcədə tətbiq olunması onun son nəticəsi və təsirindən asılıdır. Məsələn, çıraq qaranlıqda işıqlana bilən hər şey üçün nəzərdə tutulmuşdur. Deməli, hər şey bu təsirə malik olsa, hətta forma, quruluş və maddə baxımından fərqli olsalar belə, bu sözün ona tətbiq edilməsi düzgündür. Həyatın da ümumi bir mənası da vardır ki, ona bağlı olan təsirin zahir olması anlamına gəlir. Bu mənada onun Allah-taalanın pak və müqəddəs Zatına aid edilməsi düzgündür.

**اللّهُ لاَ إِلَـهَ إِلاَّ هُوَ الْحَيُّ الْقَيُّومُ**

Allahın Zatında elm və qüdrət əlamətləri zahir olduğuna görə demişlər ki, Allahın həyatı eynilə Onun elmi, elmi də eynilə Onun qüdrətidir. Qadir və alim olan Zat həmişə diridir. Buna görə də hər yerdə bu mənanın əsər-əlaməti olarsa, bu sözün ona aid edilməsi düzgündür. Lakin onun növ, xüsusiyyət və keyfiyyətlərinin hər yerdə və bütün aləmlərdə eyni cür olması zəruri deyildir, hər aləmdə olsa, mövcud olduğu aləmlə mütənasib olmalıdır. Buna görə də şəhidlər və sair şəxslər üçün nəzərdə tutulan Bərzəx həyatı elə həmin aləmin öz növündən olacaqdır. Bu cəhətdən də dünya aləmindəki şəxslər bu aləmə məxsus olan hiss üzvləri ilə Bərzəx həyatını dərk edə bilməzlər.

Şüur cəhalət və məlumatsızlıqdan sonra gələn ilkin idrakdır. Buna görə də belə bir məfhum Allah-taalaya aid edilə bilməz. Bəzilərinin nəzərinə görə, şüur işlərin dəqiqlik, incəlik və lətafətinə diqqət yetirməkdir. Buna görə də "şair" sözünün mənası mənaların lətafət və dəqiqliklərinə diqqət yetirən şəxs deməkdir.

Qeyd etmək lazımdır ki, adi insanlar, hətta iman əhlinin çoxu belə, şəhidlərin malik olduğu həyatdan məhrumdurlar və Bərzəx həyatını dərk etmirlər.[493]

Şəhid qeyd edildiyi kimi, şahid olan, şahidlik edən, qəti bir xəbəri verən, hazır olan kimi mənalara da gəlir. Şəhid dini mənada Allah rizası üçün, Onun yolunda canını fəda edən müsəlmana verilən addır. Ona bu adın verilməsinin səbəbi, cənnətlik olduğuna şahidlik edilmiş olması və ya onun Uca Allahın hüzurunda yaşayan olması, yaxud ölümü əsnasında mələklərin hazır olması, yaxud da ruhunun birbaşa Cənnətdə olması və ya Allah tərəfindən müxtəlif mükafatlarla mükafatlandırılmış olmasıdır.[494]

Qurana baxdığımızda "şəhid" anlayışının yalnız ***"Allah yolunda öldürülən"*** mənasında istifadə edilmədiyini, çox geniş mənasının olduğunu, əvvəlcə də şahid (şahidlik edən), bilən, hazır olan, görən, müşahidə edən, şüurlu, hiss edilib-görülən, bütün

---

[493] Ayətullah Fəqih İmani, "Nurul-Quran fi Təfsiril-Quran", adı keçən ayənin təfsiri.
[494] Ali Ünal, "Kuranda Temel Kavramlar", Nil yayınları, İstanbul 2003, s. 390.

gözlərin özünə çevrildiyi kimsə, nümunə götürülən, haqdan başqa bir şey istəməyən, Haqq sahibinin əmrlərindən başqa bir şey etməyən, Haqdan başqa bir şeyə şahidlik etməyən, əşyanın həqiqətlərini müşahidə edən kimi mənaları da əhatə etdiyini görərik.

Qurani-Kərimdə şəhid döyüşdə öldürülən yox, həqiqəti bilən və buna şahidlik edən rəbbani alimlər mənasındadır ki, onların başında peyğəmbərlər *(ə)* durur. Lakin Haqq şahidləri yalnız peyğəmbərlərdən *(ə)* ibarət deyil. Çünki "ən-Nisa" surəsinin 69-cu ayəsində ifadə edilən "şəhid"in cəmi olan "şuhəda" peyğəmbərlərdən *(ə)* ayrı bir zümrə olaraq xatırlanmaqdadır. Şəhid cəmi şuhəda olmaqla Quranda döyüşdə öldürülən mənasında deyil, həqiqətin şahidi, digər bir mənada isə hədislərdə Allah yolunda öldürülən mənasını qazanmış və bu məna İslam ədəbiyyatında sözün təməl mənasını kölgədə buraxmışdır. Artıq şəhid deyilincə dərhal ağıla Allah yolunda döyüşdə öldürülən insan gəlir.

Peyğəmbər *(s)* belə buyurur:

***"Kim Allahın adını, hökmünü ucaltmaq, hər şeyin üstünə çıxarmaq üçün vuruşsa, o Allah yolundadır"***;[495]

***"Allah yolunda öldürülənlərə "ölü deməyin". Əksinə onlar diridirlər, lakin siz bunu dərk etmirsiniz".***[496]

Allah yolunda ölmək, yəni şəhid olmaq sadə ölüm deyildir. Bu səbəbdən şəhidlərə "ölülər" demək, yəni onların ölüb yox olduqlarını düşünmək də düzgün deyil, əksinə onlar diridirlər, lakin insanlar bunu dərk etməz, onların canlı olduğunu hiss etməzlər. Təbəri bu ayəni belə izah edir:

"Çünki ölü insan həyatı sona çatmış, hissiyyatsız insandır. Bu səbəblə də onlar heç cür ləzzət almaz, heç bir neməti dərk etməzlər. Halbuki sizdən və ya digər bəndələrindən biri Mənim yolumda öldürülmüşsə, belələri Mənim yanımda diridirlər, onlar, bol nemətlər, ətrafı nemətlərlə əhatə olmuş sevincli bir ömür sürürlər".[497]

---

[495] Buxari, "Elm" 45, 1/42.
[496] "əl-Bəqərə", 2/154.
[497] İmam Təbəri, "Təbəri Təfsiri", Milli Gazete, İstanbul 1995, I, 118.

Fəxrəddin ər-Razinin təfsiri belədir:

“Səbir edib namaz qılaraq dinimi yaşatmaq mövzusunda Məndən kömək istəyin. Bunun üçün düşmənlərimə qarşı mallarınızla, bədənlərinizlə vuruşmağınız lazımdır. Ancaq bunu edərkən canlarınız tələf olsa, özünüzü zay etdiyinizi zənn etməyin! Əksinə yaxşı dərk edin ki, ölənləriniz Mənim qatımda diridirlər”.[498]

Ey iman edənlər! Qarşılaşdığınız bütün çətinliklərə qarşı səbirlə kömək istəyin. Səbrin sonunda xeyir olacağına tərəddüdsüz inanın. Çünki səbrin yüksək nöqtəsi, Allah yolunda şəhid olmaqdır. Elə buna görə də şəhidlər digər ölülərdən fərqlənirlər. Əksinə, onlar qəbirlərində diridirlər. Keyfiyyətini ancaq Allahın biləcəyi bir tərzdə nemətləndirilərlər. Lakin biz onların bu həyatlarını dərk etmirik. Çünki onların həyatları duyğu orqanları ilə hiss edilə bilməz. Yalnız şəhidlərin həyat tərzinin bir həyat olduğunu Allah bizə xəbər verir. Artıq bizim də buna inanmağımız lazımdır.[499]

Başqa bir təfsirdə belə deyilir:

“Bu ayədə vurğulanır ki, Haqq yolunda mübarizə apararaq şəhid olmaq nəfsə ağır gəlsə belə, bu həqiqi halda əbədi həyata nailiyyətdən başqa bir şey deyildir.[500]

***“Əgər siz (Ühüd müharibəsində) yara aldınızsa, o biri dəstə də (Bədr müharibəsində) o cür yara aldı. Biz bu günləri insanlar arasında növbə ilə dəyişdiririk ki, Allah iman gətirən şəxsləri ayırd etsin və içərinizdən şəhidlər seçsin. Allah zülmkarları sevməz! (Bu həm də) Allahın iman gətirənləri təmizləməsi və kafirləri məhv etməsi üçündür. Yoxsa Allah içərinizdən cihad edənləri və səbir edənləri bilib ayırd etməmişdən qabaq Cənnətə girəcəyinizimi güman edirsiniz?!”***;[501]

***“Bu qəm-qüssədən sonra Allah sizə rahatlıq üçün xəfif bir yuxu göndərdi. O sizin bir qisminizi bürüdü. Bir qisminiz isə***

---

[498] Razi, “Təfsiri-Kəbir”, c. IV, səh. 75.

[499] Muhammed Mahmud Hicazi, “Furqan Təfsiri”, İlim Yayınları, İstanbul t. y, I, 112, Seyyid Kutub, “Fizilail Kuran”, Dünya yayınları, İstanbul 1991, I, 219.

[500] Ömər Nasuhi Bilmen, “Kurani-Kerimin Türkçe Meali Alisi ve Tefsiri”, Bilmen Yayınevi, İstanbul t.y, c. I, səh. 147.

[501] “Ali-İmran”, 3/140-142.

***ancaq öz canlarının qeydinə qalaraq: Bu işdə bizim üçün bir şey (xeyir) varmı? – deyə Allaha qarşı haqsız yerə, cahiliyyətə xas olan düşüncələrə qapıldılar. Onlara de: Əlbəttə, bütün işlər Allaha məxsusdur. Onlar sənə açıb bildirmədikləri şeyi öz ürəklərində gizlədərək: Əgər bu işdə bizim üçün bir şey olsaydı, elə buradaca öldürülməzdik – deyirlər. De: Əgər siz evlərinizdə olsaydınız belə, alınlarına ölüm yazılmış kəslər yenə çıxıb əbədi yatacaqları yerlərə gedərdilər ki, Allah sizin ürəklərinizdə olanları təmizləsin. Allah ürəklərdə olanları biləndir!";***[502]

***"Ey iman gətirənlər! Səfərə və ya müharibəyə getmiş qardaşlar barəsində: Əgər onlar bizim yanımızda olsaydılar, nə ölər, nə də öldürülərdilər – deyən kafirlər kimi olmayın! Allah bunu onların ürəklərində bir həsrət olsun deyə yaratdı. Halbuki dirildən də, öldürən də Allahdır. Allah etdiyiniz əməlləri görəndir!";***[503]

***"Əgər Allah yolunda öldürülər və ya ölərsinizsə, Allahın sizi bağışlaması və rəhm etməsi şübhəsiz ki, topladıqları şeylərdən daha xeyirlidir. Ölsəniz də, öldürülsəniz də mütləq Allahın hüzuruna toplanacaqsınız!"***[504]

Allah yolunda vuruşarkən öldürülən, yəni şəhid edilən və ya öz başına ölən kimsələr üçün Allahın bəxş edəcəyi bağışlama və rəhmət şübhə yox ki, həyatda qalanların nəfslərini təmin etmək üçün yığdıqları mal, pul və əldə edəcəkləri məqamlardan daha xeyirlidir. Uca Allah bunu and içərək xəbər verməkdədir. Çünki belə bir ölüm möminin günahlarının silinməsinə və Allah qatında dərəcəsinin yüksəlməsinə vəsilə olar.

İnsanlar istər rahat yataqlarında ölsünlər, istərsə Allah yolunda vuruşarkən şəhid olsunlar və ya başqa hər hansı bir şəkildə ölsünlər toplanacaqları yer Allahın hüzurudur. Ondan başqa dönəcəkləri yer yoxdur. Hamı dünyada etdiyinin qarşılığını orada alacaqdır.

***"(Mədinədə evlərində) oturub (müharibəyə getmiş) qardaşları haqqında: Əgər sözümüzə qulaq assaydılar, öldürül-***

---

[502] "Ali-İmran", 3/154.
[503] "Ali-İmran", 3/156.
[504] "Ali-İmran", 3/157-158.

***məzdilər – deyənlərə söylə: Əgər doğru deyirsinizsə, onda ölümü özünüzdən uzaqlaşdırın!”***[505]

Allah yolunda öldürülmək mənasında şəhidliyin dərəcəsi çox yüksəkdir. Onlar insan üçün çox sevimli olan canlarını Allah uğrunda, Onun adının uca olması (İlahi kəlimətullah) üçün, İslamın ucalması və qorunması üçün fəda edərlər. Rəbbimiz, şəhidlərin Öz qatında ölməyib diri olduqlarını və Allahın verdiyi nemətlərlə mükafatlandırıldıqlarını açıqlayır.

Bu ayələrdə şəhidlərin həqiqətdə ölmədikləri, Allah yolunda öldürülmüş olan möminlərin, dünyanın mənası olan sonsuzluq yurdunda diri olduqları, həm özlərinin nemət içində olduqlarına, həm də hələ şəhid olub özlərinə çatmayan mücahid qardaşlarının İslam uğrunda cihadları boşa getməyəcəyini dəqiq bildikləri üçün sevinərlər.[506]

Allah yolunda öldürülməklə həyatdan ayrılıb gözlərdən uzaqlaşanların “ölü” sayılması qadağan edilən bir hökmdür. Bundan əlavə, ayədə “Rəbləri qatında diri olduqlarını” da isbat edən bir xəbər vardır. Bu qadağan və isbat canlılara xas bir sifət izləməkdədir. Onlar “ruziləndirilirlər”.[507]

Allah şəhidlərin hər nə qədər bu dünyada öldürülmüş hesab edilsələr də ruhlarının Axirətdə diri və Rəbləri tərəfindən mükafatlandırılmaqda olduğunu xəbər verir.

Muhəmməd ibn İshaq (**يَسْتَبْشِرُونَ**) ifadəsini belə izah edir:

“Onlar özlərindən sonra özləri kimi vuruşan qardaşlarının onlara qatılmalarından ötrü sevinc hiss edərlər”.

Səid ibn Cübeyr deyir:

“Şəhidlər Cənnətə girib onlara Cənnətdə hazırlanan dəyər və şərəfi görüncə deyərlər:

“Kaş ki, dünyadakı qardaşlarımız bildiyimiz kəramət və şərəfi bilib hərbə hazır olanda şəhid olmağa çalışaydılar, şəhid olub bizim qovuşduğumuz xeyrə onlar da qovuşaydılar”.

---

[505] “Ali-İmran”, 3/168.

[506] Süleyman Ateş, “Yüce Quranın Çağdaş Tefsiri”, Yeni ufuklar Neşriyyatı, İstanbul 1997, II, 139.

[507] Seyyid Kutub, “Fi zilalil-Quran”, II, 252.

Rəsulullah *(s)* onların bu halını və içində olduqları şərəfi xəbər verdi. Rəbləri də onlara buyurdu:

***“Peyğəmbərimizə vəhy göndərərək sizin vəziyyətinizi, içində olduğunuz nemət və şərəfi ona xəbər verdim, buna sevinin”.***

Beləliklə, ***“Arxalarından gəlib hələ özlərinə çatmayanları müjdələmək istərlər”*** ayəsinin mənası budur.[508]

Şəhidlərin günahlarının əfv olunacağı da Quranda müjdələnilmişdir:

***“Rəbbi də onların dualarını qəbul edərək cavab verdi: “İstər kişi, istərsə də qadın olsun Mən heç birinizin əməlini puça çıxarmaram. Siz (hamınız) bir-birinizdənsiniz (dində kişi, qadın eynidir). Hicrət edənlərin (Məkkədən Mədinəyə öz dinini qorumaq məqsədi ilə köçənlərin), öz yurdlarından çıxarılanların, Mənim yolumda əziyyətə düçar olanların, vuruşanların və öldürülənlərin günahlarının üstünü Allahdan bir mükafat olaraq əlbəttə, örtəcək və onları (ağacları) altından çaylar axan cənnətlərə daxil edəcəyəm. Ən yaxşı mükafat Allah yanındadır!”;*** [509]

***“Allah və Peyğəmbərə itaət edənlər Allahın nemətlər verdiyi nəbilər, siddiqlər, şəhidlər və salehlərlə bir yerdə olacaqlar. Onlar necədə gözəl yoldaşlardır!”***[510]

Uca Allah yolunda öz ruhunu təslim edən şəhidlərin əməllərinin boşa getməyəcəyi, böyük əcr və savab qazanacaqları Qurani-Kərimdə belə xəbər verilmişdir:

***“Elə isə qoy dünyanı verib əvəzində Axirəti satın alanlar Allah yolunda vuruşsunlar. Hər kim Allah yolunda vuruşaraq ölərsə və ya qalib gələrsə, ona böyük mükafat verəcəyik”.*** [511]

Allah yolunda vuruşan kimsələr öldürülsələr və ya qalib gəlib qənimət alsalar da onlar üçün Allah qatında böyük savab və bol əcr vardır. Belə ki, məşhur bir hədisə görə, Allah Onun

---

[508] İbn Kəsir, “Təfsir”, c. IV, səh. 1440.
[509] “Ali-İmran”, 3/195.
[510] “ən-Nisa”, 4/69.
[511] “ən-Nisa”, 4/74.

yolunda vuruşan mücahidə əgər ölərsə, onu Cənnətə qoymağa, yox əgər sağ qalarsa, çıxmış olduğu evinə qənimət və əcrlə döndərməyə söz vermişdir.

***"Sizə nə olub ki, Allah yolunda (hicrət etməyib, yaxud əsir kimi Məkkədə qalıb): Ey Rəbbimiz, bizi əhalisi zalım olan bu şəhərdən (Məkkədən) kənara çıxart, bizə Öz tərəfindən mühafizəçi göndər, yardımçı yolla! – deyə dua edən aciz kişilər, qadınlar və uşaqlar uğrunda vuruşmursunuz?"***[512]

***"İman gətirənlər Allah yolunda, kafir olanlar isə Şeytan yolunda vuruşarlar. O halda Şeytanın dostlarıyla vuruşun! Şübhəsiz ki, Şeytanın hiyləsi zəifdir!"***[513]

Şeytanın tələsi zəifdir. Çünki insanlara dünya sevgisini təlqin edir. Onun yolunda vuruşanlar dünya mənfəəti və ya onun üçün vuruşar, Axirət həyatını düşünməz və inanmazlar. Müharibə ciddiləşəndə və sonda ölüm görünəndə dünyada yaşamaq ehtirası güclü olan insan ölmək istəməz, yaşamaq üçün hərb meydanından qaçar, gizlənər. Beləəri ölümü görəndə qürurunu və ya mənliyini unudar, çünki dayağı zəifdir. Allaha və Axirət gününə inanan mömin isə ölümdən heç zaman qorxmaz. Həqiqi həyatın Axirətdə olduğunu, ən böyük mükafatın Cənnətdə şəhidlərə veriləcəyini qəti şəkildə bilən və qəbul edən mömin lazım gələrsə ölümdən də çəkinməz, hətta şəhid olmağı könüldən istəyər. O, bunun üçün qəhrəmancasına vuruşar. Belə iman sahibi olan birinin qarşısında imansız əsla tab gətirə bilməz. Beləcə imansız ölmək istəmədiyi üçün sonda ölər, iman sahibi isə şəhid olmağı təmənna etdiyi üçün çox zaman yaşayar. Möminin könlündəki şəhadət arzusu, Axirəti və Allahın razılığını qazanmaq məqsədi ona güc verər, dünya və Axirətdə müvəffəqiyyət qazandırar.

لاَّ يَسْتَوِي الْقَاعِدُونَ مِنَ الْمُؤْمِنِينَ غَيْرُ أُوْلِي الضَّرَرِ وَالْمُجَاهِدُونَ فِي سَبِيلِ اللّهِ
بِأَمْوَالِهِمْ وَأَنفُسِهِمْ فَضَّلَ اللّهُ الْمُجَاهِدِينَ بِأَمْوَالِهِمْ وَأَنفُسِهِمْ عَلَى الْقَاعِدِينَ دَرَجَةً
وَكُـلاًّ وَعَدَ اللّهُ الْحُسْنَى وَفَضَّلَ اللّهُ الْمُجَاهِدِينَ عَلَى الْقَاعِدِينَ أَجْرًا عَظِيمًا.

---
[512] "ən-Nisa", 4/75.
[513] "ən-Nisa", 4/76.

***“Zərər çəkmədən (üzrsüz səbəbə görə) evlərində oturub cihada getməyən möminlərlə Allah yolunda öz malları və canları ilə cihad edən kimsələr bir olmazlar. Allah malları və canları ilə vuruşanları (evlərində) qalıb cihada getməyənlərdən dərəcə etibarilə üstün tutdu. Allah bunların hamısına savab vəd etmişdir. (Lakin) Allah mücahidlərə (evlərində) oturanlardan daha böyük mükafatlarla imtiyaz vermişdir. (Onları) Allah tərəfindən yüksək dərəcələr, bağışlanma və mərhəmət gözləyir. Allah bağışlayandır, rəhm edəndir”.***[514]

Bu ayədə mücahidlərlə cihad meydanlarına getməyənlər müqayisə edilir və buyurulur:

***“Cihadda iştirak etməyə mane ola biləcək xüsusi bir xəstəlik, yaxud narahatçılıq olmadan cihaddan imtina edənlər heç vaxt haqq kəlməsinin yüksəldilməsi üçün malları və canları ilə Allah yolunda cihad edənlərlə – mücahidlərlə bir ola bilməzlər”.***

Sonra mücahidlərin başqalarından olan üstünlüyü aşkar şəkildə belə bəyan edilir:

***“Allah-taala öz malları və canları ilə Onun yolunda mübarizə aparanlara, cihad meydanında iştirak etməkdən imtina edənlərə nisbətən böyük üstünlük əta etmişdir”.***

Lakin bu kimi mücahidlərin qarşısında eləri vardır ki, cihad onlara eyni dərəcədə vacib deyildir, xəstəlik, bacarıqsızlıq və digər müəyyən səbəblər üzündən cihadda iştirak edə bilmədiklərinə görə onların saleh əməl, gözəl niyyət, iman və s. yaxşı əməllərinin mükafatı aradan getməsin deyə, onlara da gözəl vədə verilir və buyurulur ki, Allah hər iki dəstəyə – həm mücahidlərə, həm də evlərində oturanlara gözəl mükafatlar vədəsi vermişdir.

İslam məntiqində isə cihadın əhəmiyyəti bundan daha artıq olduğu üçün bir daha mücahidlərdən söhbət açılır və təkid olunur ki, Allah mücahidləri cihada getməyənlərdən böyük bir mükafatla seçib üstün etmişdir:

***“De: Biz Allahın Özü tərəfindən və ya bizim əlimizlə sizi əzaba düçar etməsini gözlədiyimiz halda siz bizlərə ancaq iki***

[514] “ən-Nisa”, 4/95-96.

***yaxşı işdən (zəfər çalmaqdan və şəhid olmaqdan) birinin gəlməsinimi gözləyirsiniz? Doğrusu, biz də sizinlə birlikdə gözləməkdəyik!”***;[515]

***“Allah, şübhəsiz ki, Allah yolunda vuruşub öldürən və öldürülən möminlərin canlarını və mallarını Tövratda, İncildə və Quranda haqq olaraq vəd etdiyi Cənnət müqabilində satın almışdır. Allahdan daha çox əhdinə vəfa edən kimdir? Etdiyiniz sövdəyə görə sevinin. Bu, böyük bir qurtuluşdur (uğurdur)!”***[516]

Elə buna görədir ki, bir hədisdə buyurulur:

“Allah Öz yolunda vuruşana kəfil olmuşdur: ***“O, yalnız Mənim yolumda vuruşmağa və peyğəmbərlərimi təsdiq üçün yola çıxmışdır”***. Beləliklə əgər ölərsə, Allah onu Cənnətə qoymağa, sağ qalarsa, əcr və ya qənimətlə evinə döndərəcəyinə dair vəd vermişdir”.[517]

***“Allah yolunda hicrət edənlərə, sonra (bu yolda) öldürülənlərə, yaxud ölənlərə Allah, həqiqətən, gözəl ruzi (Cənnət ruzisi) verəcəkdir. Şübhəsiz ki, Allah ruzi verənlərin ən yaxşısıdır!”***;[518]

***“Möminlər içərisində elələri də vardır ki, Allaha verdikləri əhdə sadiq olarlar. Onlardan kimisi şəhid olmuş, kimisi də şəhid olmağı gözləyir. Onlar (verdikləri sözü) əsla dəyişməzlər”***;[519]

***“Kafirlərlə qarşılaşdığınız zaman boyunlarını vurun. Nəhayət, onları məğlub etdikdə kəndirlə möhkəm bağlayın. Sonra da müharibə bitdikdə onları ya qarşılıqsız, ya da fidyə müqabilində azad edin! (Əmr) budur! Əgər Allah istəsəydi onlardan intiqam ala bilərdi. Lakin O, sizi bir-birinizlə imtahana çəkmək üçün (vuruşmağınızı əmr etdi). Allah Öz yolunda öldürənlərin əməllərini əsla puç etməz”***.[520]

---

[515] “ət-Tövbə”, 9/52.
[516] “ət-Tövbə”, 9/111.
[517] İbn Kəsir, “əl-Bidayə vən-Nihayə”, c. VII, səh. 3660.
[518] “əl-Həcc”, 22/58.
[519] “əl-Əhzab”, 33/23.
[520] “Muhəmməd”, 47/4.

Allah möminlərin bir çoxunun da öldürüləcəyi həqiqətini belə buyurur:

***"Allah yolunda öldürülənlərə gəlincə Allah onların əməllərini əsla boşa çıxarmaz, onları çoxaldıb qat-qat artırar"***.

Onlardan kiminə əməlinin savabı Bərzəxdə olduğu müddətcə verilər. Rəvayət edilmiş bir hədisdə də belə xəbər verilir:

"Allah Rəsulu *(s)* belə buyurmuşdur:

***"Şəhidə altı xüsusiyyət verilir: Tökülən qanının ilk damlasıyla bərabər, hər xətası bağışlanar. Cənnətdə oturacağı yeri göstərilər. Hurilərlə evləndirilər. O, ən böyük qorxudan və qəbir əzabından əmin qılınar. Ona iman libası geydirilər"***.

Beləliklə, müqəddəs Qurani-Kərimin şəhidlik və cihaddan bəhs edən mübarək ayələrində böyük ibrətlərin və ədalətin olduğunu görürük. Müasir dövrümüzün böyük İslam filosofu Misbah Yəzdi "İnsan həyatında təqlidin rolu" əsərində mövzumuza uyğun fikirlərini belə bəyan edir:

"İslam Peyğəmbəri *(s)* və digər peyğəmbərlərə *(ə)* itaəti zəruri sanan ayələrlə yanaşı, onları nümunə kimi tanıtdıran ayələr də mövcuddur. Həmin ayələrdən birində buyurulur:

***"Şübhəsiz, sizin üçün Allahın Rəsulunda nümunə, yaxşı öyüd var"***.[521]

Təfsirçi və tarixçilər bildirirlər ki, "Əhzab" surəsi Ühüd savaşından sonrakı Əhzab savaşı ilə bağlı nazil olmuşdur. Ühüd savaşı müsəlmanların zahiri məğlubiyyəti ilə qurtardı və nəticədə müsəlmanlara ağır zərbə dəydi. Peyğəmbərin *(s)* yaxınlarından bir hissəsi şəhid oldu, bir hissəsi yaralandı. Həzrət Peyğəmbərin *(s)* özünün dişi sındı, Əmirəl-möminin Əli *(ə)* yaralandı. Bu məğlubiyyət münafiqləri daha da həvəsləndirdi. Onlara elə gəlirdi ki, artıq İslamın süqut anı çatıb. Digər bir tərəfdən, özünü qalib görən müşriklər müsəlmanlara son zərbəni vurmağa çalışırdılar. Onlar Peyğəmbərlə *(s)* bağladıqları müqaviləni nəzərə almadan savaşa qalxdılar. Həmin vaxt müşriklər, yəhudilər və münafiqlərdən ibarət düşmən üçlüyü yarandı. Onlar eyni bir məqsəd ətrafında birləşdilər.

---

[521] "əl-Əhzab", 21.

Ühüd savaşından sonra müsəlmanların ruhdan düşdüyünü görən müşriklər Peyğəmbərə *(s)* sülh təklif etdilər, öz başçılarından Əbu Süfyan, Əkrəmə ibn Əbu Cəhl, Əbul Əvər Səlmini Mədinəyə göndərdilər. Onlar Mədinədə münafiqlərin rəisi Abdullah ibn Ubəyin evinə gəldilər. Sonra ev sahibi və başqa iki münafiqlə birlikdə Peyğəmbərin *(s)* görüşünə getdilər və o Həzrətə *(s)* dedilər:

"Bizim aramızdakı düşmənçiliyin sonu hər iki tərəf üçün ziyandır. Gəlmişik ki, düşmənçiliyə son qoyaq, sülh müqaviləsi bağlayaq. Qərarımız dinc – yanaşı yaşamaqdır. Sizin bizimlə, bütlərimiz Lat, Üzza, Mənatla işiniz olmasın, biz də sizin əqidələrinizə toxunmayaq. Biz dost olmaq, get-gəl etmək, ticarət qurmaq istəyirik. Gəlin bir-birimizin əqidəsinə toxunmayaq, hərə öz dininə itaət etsin".

Həzrət Peyğəmbər *(s)* bu təklifi qətiyyətlə rədd etdi.

Bir qədər diqqətlə nəzər salsaq görərik ki, müşriklərin həmin vaxtkı təklifləri bugünkü plüralizm, tolerantlıq şüarlarına çox bənzəyir. Bu gün də hərənin dini özü üçün şüar verilir. Müşriklər yaxşı bilirdilər ki, Peyğəmbər *(s)* təklifləri ilə razılaşsa və sülh müqaviləsi imzalansa, onlar tədricən sadəlövh müsəlmanları yoldan çıxara biləcəklər. Onlar bu yolla İslamı süquta uğratmaq istəyirdilər. Allah-taala buyurdu:

***"Yalançılara tabe olma. Onlar səndən mülayimlik istəyirlər ki, mülayimlik göstərsinlər".***[522]

Zahirən müsəlmanlığı qəbul etmiş münafiqlər də müşriklərlə gizli rabitədə idilər. Onlar da müşriklərlə sazişə tərəfdarlıqlarını bildirir və deyirdilər:

"Ətrafımızı düşmən tutub, müşriklər və yəhudilər əl-ələ veriblər. Əgər düşmənlərlə sülhə getməsək və inadkarlıq göstərsək onlar bizi məhv edəcəklər".

Lakin Allah-taala Öz Peyğəmbərinə *(s)* göstəriş verdi ki, onların təkliflərini rədd etsin:

***"Ya Peyğəmbər, Allahdan qorx, kafirlərə və münafiqlərə tabe olma. Həqiqətən, Allah bilən və hikmət sahibidir".***[523]

---

[522] "əl-Qələm", 8, 9.

**Xəndək savaşında münafiqlərin fitnəkarlığı**

Peyğəmbər *(s)* müşriklərin sülh təklifini qətiyyətlə rədd etdi. Onu bu işdən Allah çəkindirdi. Müşriklər qərara gəldilər ki, müsəlmanlara son zərbəni vursunlar. İslamla tarixi düşmənçiliyi olanlar özlərinə həmfikirlər toplamağa başladılar. Onlar ərəb tayfalarına, yəhudilərə üz tutdular. Bütün bu güclər bir yerə toplandı və İslamı aradan qaldırmaq qərara alındı. Müxtəlif firqələrdən təşkil olunmuş bu qüvvə Əhzab adlanırdı ("Əhzab" firqələr mənasını bildirir).

Müşriklərdən və yəhudilərdən təşkil olunmuş Əhzab müsəlmanlarla savaş üçün hərbi hazırlığa başladı. Onlar çox böyük bir qoşun səfərbər edib Mədinəyə göndərdilər. Həzrət Peyğəmbər *(s)* də səfərbərlik apardı, müdafiə hazırlığı gördü. Salman Farsinin təklifi ilə şəhər ətrafında xəndəklər qazıldı. Bu xəndəklər düşmənin nüfuzuna mane olmalı idi. Müsəlmanlar xəndəkləri qazmaq üçün çox əziyyət çəkdilər. Aclıqdan əziyyət çəkən müsəlmanlar qarınlarına daş bağlayıb işi dayandırmırdılar. Peyğəmbər *(s)* onları fədakarlığa səsləyir, qələbə vəd edirdi. Rəsulullah *(s)* vəd edirdi ki, bütün Ərəbistan fəth olunası, İran və Rum diz çökəsidir. Münafiqlər Peyğəmbərin *(s)* sözlərini məsxərəyə qoyur, Həzrət Muhəmmədə *(s)* lağ edir və düşünürdülər ki, qarınlarını doyura bilməyənlər İran və Rumu məğlub etmək fikrindədirlər!

Münafiqlər hiylə və fitnədən əl çəkmir, müsəlmanları qorxudur, Əhzab ordusunun gücündən danışırdılar. İmanı zəif olanlar təsir altına düşüb işdən soyuyurdular. Lakin həqiqi möminlər düşmənə müqavimət göstərməkdə əzmli idilər. Onlar Əhzab qoşununu gördükdə söylədilər:

"Peyğəmbərin *(s)* vədi gerçəkləşdi".

Tezliklə qələbə qazanacaqlarına ümidvar olan və qəlbən inanan həqiqi müsəlmanlar nəinki qorxmadılar, hətta imanları daha da artdı. Onlar ölüb-öldürməyə hazır olduqlarını Allah Rəsuluna *(s)* əzmlə bildirdilər. Allah-taala onların iman və möhkəmliyi haqqında buyurur:

---

[523] "əl-Əhzab", 1.

***“Möminlər həmin qoşunları görüb dedilər: “Budur Allahın və Onun Peyğəmbərinin vəd etdiyi. Allah və Onun Peyğəmbəri düz dedi”. Onların yalnız iman və itaəti artdı!”***[524]

Nəhayət, müşrik və müttəfiqlərin qoşunu Mədinəyə yaxınlaşdı, ancaq xəndək onların nüfuzuna mane oldu. Onlar iyirmi gündən çox Mədinə ətrafında qaldılar. Qureyş başçıları düşündülər ki, burada qalmaq ziyanadır və hücum etmək lazımdır. Nəhayət, Əmr ibn Əbduvəd adlı döyüşçü xəndəyi keçib meydana mübariz çağırdı. Çox keçmədi ki, o məlun Əli ibn Əbu Talibin *(ə)* zərbəsi ilə Cəhənnəmə vasil oldu. Beləcə müsəlmanlar qalib gəldilər.

**Peyğəmbərin *(s)* Allah tərəfindən nümunə kimi tanıtdırılması**

Peyğəmbər *(s)* müşriklərin sülh təklifini qəbul etmədi. O Həzrət *(s)* bütün varlığı ilə şirk qarşısında dayanıb müqavimət göstərdi, nəticədə müsəlmanlar qəti qələbə qazandılar. Buna görə də Allah-taala “əl-Əhzab” surəsinin 21-ci ayəsində Peyğəmbəri *(s)* insanlığa nümunə kimi tanıtdırmaqla o Həzrəti *(s)* mükafatlandırdı. Mübarək ayədə Həzrət Peyğəmbərin *(s)* nümunə olaraq üç xüsusiyyəti qeyd olunurdu:

1. Allaha ümidvarlıq. Çünki insan Allaha ümidvarlıq, sonsuz qüdrətə sığınma sayəsində vəzifələrini mətanətlə icra edir, heç bir amil onu öz yolundan döndərə bilmir.

2. Axirətə ümidvarlıq. Axirətə inanan insan nəfsani və şeytani istəklərlə mübarizə aparır, işin sonunu düşünərək günahlardan çəkinir, əbədi səadətə çatmaq məqsədilə Allahın onun öhdəsinə qoyduğu vəzifələri yerinə yetirir. Digər bir tərəfdən, Allah yolunda mübarizəni səadət sanan insan heç bir təhlükədən qorxmur. O, əbədi səadət və Allahın görüşünə çatmaq üçün canından keçməyə hazırdır. O, başa düşür ki, bu yolu gedən insan zahirdə məğlub olsa da əslində qalibdir. Çünki o, Allahın razılığını qazanmış, əbədi səadətə çatmışdır.

3. Allahı çox yada salmaqlıq. Allahı həmişə zikr edən insan qəlbini çirkab və zülmətlərdən təmizləyir, Allahla rabitə sa-

---

[524] “əl-Əhzab”, 22.

yəsində aramlıq tapır. Allahı zikr etmək insanın qəlbini, rəftarını və düşüncəsini ali məqsədlərə yönəldir.

**Küfr və Şirkin müqabilində Həzrət İbrahimin *(ə)* nümunə göstərilməsi**

"Üsvə" (nümunə) sözünün işləndiyi surələrdən biri də "Mumtəhinə" surəsidir. Surədə Həzrət İbrahim *(ə)* möminlərə nümunə kimi tanıtdırılır. Bu surə də "Əhzab" surəsi kimi ibrətamiz dərslərlə zəngindir. Surədə küfr və nifaqla mübarizə üçün bir sıra göstərişlər verilir. Həqiqət axtaranlar bu iki surəni, onların təfsirini və surələrlə bağlı rəvayətləri oxusalar yaxşı olar. "Mumtəhinə" surəsinin başlanğıcında möminlər Allah düşmənləri ilə rabitə qurmaqdan çəkindirilir. Bildirilir ki, onlar sizin məhəbbətinizdən sui-istifadə edib İslam cəmiyyəti üçün təhlükə yaradarlar. Möminlərə tövsiyə olunur ki, bütün varlıqları ilə Allah düşmənlərinə müqavimət göstərsinlər. Surənin ilk ayəsində buyurulur ki, Allahınızın və özünüzün düşmənlərinizi dost tutmayın. Surənin üçüncü ayəsində buyurulur ki, İbrahim *(ə)* və onunla olanlar yaxşı bir nümunədir. Həzrət İbrahim *(ə)* öz qövmünə dedi:

***"Mən sizdən və Allahın əvəzinə pərəstiş etdiklərinizdən zara gəlmişəm..."***

Həzrət İbrahim *(ə)* və onun azsaylı ardıcılları Nəmrud və onun bütpərəst qövmü qarşısında dayandılar. Onlar az olsalar da qorxmadılar. Bu səbəbdən də möminlərə nümunə kimi tanıtdırılırlar. Nəmrudun böyük imkanları vardı. Lakin Həzrət İbrahim *(ə)* qorxudulası bir şəxs deyildi. Nəmrudun var-dövləti, gücü, çoxsaylı ətrafı İbrahimi *(ə)* sazişə sövq edə bilmədi. Biz də bu işdə İbrahim peyğəmbərə *(ə)* iqtida etməli, bizi düşmənlərlə sülhə çağıranlara rədd cavabı verməli və heç nədən qorxmamalıyıq. Çünki bizim Allahımız var. Əgər sabitqədəmliyimiz olsa, qələbəyə çatasıyıq.

Həzrət İbrahim *(ə)* əmisinin bütpərəstlikdən əl çəkmədiyini görüb ondan ümidini üzdü. Allah buyurur ki, İbrahimin *(ə)* atası (əmisi Azər) üçün istədiyi bağışlanma ona verdiyi vəddən başqa bir şey deyildi.[525]

---

525 "ət-Tövbə", 114.

**Küfr cəbhəsinə müqavimətin zəruriliyi**

Həzrət Peyğəmbərə *(ə)* Haqqa itaət, düşmənə müqavimət və fitnəkarlara qarşı mübarizədə ardıcıllıq lazımdır. Əgər görürük ki, düşmən bizi mühasirəyə alıb, süstləşməməli, Allahın yardımına ümid bağlamalı və şəhadət şərbətini içməyə hazır olmalıyıq. Peyğəmbərlərin *(ə)* həqiqi ardıcılları belə olmuşlar. Bu barədə Qurani-Kərimdə buyurulur:

***"Onlardan bəziləri şəhadətə çatdılar, bəziləri intizardadırlar..."***.[526]

Əgər düşmənin güclü olduğunu, texnoloji tərəqqiyə çatdığını görürüksə, qorxmadan Allaha sığınmalıyıq. Nə qədər zəif olsaq da Allaha sığınmaq sayəsində düşmənə qalib gələ bilərik. Allah mömin bəndələrini böhranlı vəziyyətdə tənha buraxmır. Allah Bədr döyüşündə kafirlərin və müşriklərin ordusunu dağıtdığı kimi, bu gün də öz qüdrətini nümayiş etdirə bilər.[527]

Bu yolda qalib gəlməyimizin şəhid olmağımızdan fərqi yoxdur. Əsas məsələ əbədi səadətə, qurtuluşa nail olmaqdır. Quranda buyurulur:

***"De ki, biz yalnız Allahın yazdığına çatasıyıq, Odur bizim hamimiz! Möminlər yalnız Allaha təvəkkül etməlidir. De ki, bizim üçün iki yaxşılıqdan başqa bir şeymi gözləyirsiniz?!"***[528]

Biz Allaha təvəkkül, Peyğəmbər *(s)* və onun Əhli-Beytinə *(ə)* təvəssüllə ruhiyyə və imanımızı gücləndirməliyik. Əmin olmalıyıq ki, Allahın istək və iradəsi dəyişməzdir. Əsas məsələ dərin inanmağımızdır! Peyğəmbər *(s)* və övliyaların yolunu izləyərək düşmənlərə müqavimət göstərməliyik. Son damla qanımızadək onlarla vuruşmalıyıq. Düşüncəmizdə qəddar düşmənlə sülh təkliflərinə yer verməməliyik. Bütün bunlar boş şüardan başqa bir şey deyil. Bilməliyik ki, düşmən heç vaxt haqla vuruşdan əl çəkəsi deyil. Buna görə də sonuncu İmamımız Həzrət Mehdi *(ə)* silahlı qiyam qaldırasıdır!"[529]

---

[526] "əl-Əhzab", 23.
[527] "Ali-İmran", 123.
[528] "ət-Tövbə", 51, 52.
[529] Bax: Misbah Yəzdi, "İnsan həyatında təqlidin rolu", (doqquzuncu məclis).

Beləliklə aydın olur ki, Allah yolunda öldürülmək mənasında "şəhidliyin" dərəcəsi çox yüksəkdir. Onlar insan üçün çox sevimli olan canlarını Allah uğrunda, Onun adının uca olması (İlahi kəlimətullah) üçün, İslamın ucalması və qorunması üçün fəda edərlər.

Şəhid olmada əsas şərt Allahın razılığıdır. Allah rizası üçün mübarizə edən, Onun adını ucaltmaq üçün səy göstərən, cihad içində mövcudluq və bu yolda canını verən şəhid olmuş olar.

Bir bədəvi Peyğəmbərin *(s)* hüzuruna gələrək dedi:

"Ya Rəsulullah *(s)*! Bir adam qənimət üçün, digəri şöhrət üçün, o birisi riya və nümayiş üçün döyüşər. Hansı Allah yolundadır?"

Peyğəmbər *(s)* buyurdu:

***"Kim Allahın adını, hökmünü ucaltmaq, hər şeyin üstünə çıxarmaq üçün vuruşarsa, o Allah yolundadır"***.[530]

"Allah-taala Öz yolunda cihada çıxan kimsəyə buyuraraq zamin olar:

***"O, Mənim yolumda cihad, Mənə iman, Mənim peyğəmbərlərimi təsdiq üçün yola çıxarmışdır"***.

Allah o kimsəni şəhid olsa, Cənnətə qoymağa, qazi olsa, mənəvi əcr və dünyalıq qənimətə qovuşmuş olaraq evinə döndərməyə zamin olmuşdur. Həzrət Muhəmmədin *(s)* canını qüdrət əlində tutan Allaha and içərəm ki, Allah yolunda açılan bir yara Qiyamət günü olduğu şəkli ilə gəlir: rəngi qan rəngi, qoxusu misk qoxusudur. Həzrət Muhəmmədin *(s)* canını qüdrət əlində tutan Allaha and içərəm ki, əgər müsəlmanlara çətin gəlməsəydi Allah yolunda cihada çıxan heç bir səriyyənin arxasında əsla oturub qalmazdım. Məndən ayrılıb geridə qalmaq onlara çətin gələr. Həzrət Muhəmmədin *(s)* canını əlində tutan Allaha and içərəm ki, Allah yolunda cihad edib öldürülməyi, sonra cihad edib yenə öldürülməyi, sonra təkrar cihad edib təkrar öldürülməyi çox arzu edərdim".[531]

---

[530] Buxari, "Elm", 45.
[531] Buxari, "Cihad", 7.

“Allah yolunda yaralanan bir kimsə Qiyamət günündə yarasından qan axaraq Allahın hüzuruna gələr. Rəng, qan rəngi, qoxu isə misk qoxusudur”.[532]

“Müsəlmanlardan bir şəxs dəvə sağılacaq qədər bir müddət Allah yolunda vuruşarsa, Cənnət onun haqqı olar. Allah yolunda yaralanan və ya bir çətinliyə düşən kimsə Qiyamət günündə yaralandığı gün kimi qanlar içində Allahın hüzuruna gələr. Qanının rəngi zəfəran kimi qıpqırmızı, qoxusu da misk qoxusu kimidir”.[533]

“Rəsulullahın *(s)* – ***“Cənnətin qapıları qılıncların kölgələri altındadır”*** mübarək buyruğunu eşidən bir mücahid qılıncının qınını qırıb atdı. Sonra da əlindəki qılıncla düşmənin üzərinə getdi və ölənə qədər düşmənlə vuruşdu”.[534]

“Kim Allahın adını, hökmünü ucaltmaq, hər şeyin üstünə çıxarmaq üçün döyüşsə, o Allah yolundadır”.[535]

Başdan ayağa silahlı bir adam Peyğəmbərin *(s)* yanına gəldi və dedi:

“Ya Rəsulullah *(s)*! Sizinlə birlikdə əvvəl döyüşə qatılım, yoxsa müsəlman olum?”.

Peyğəmbər *(s)* buyurdu:

***“Əvvəl müsəlman ol, sonra döyüş”***.

Bunun üzərinə həmin adam müsəlman oldu, sonra vuruşdu və nəticədə şəhid oldu. Rəsulullah *(s)* buyurdu:

***“Az çalışdı, çox qazandı”***.[536]

“Cənnətə girən bir kimsə Yer üzündəki hər şey onun olsa belə, dünyaya geri dönməyi arzu etməz, yalnız şəhid xaric. Şəhid gördüyü həddindən artıq etibar və ikram səbəbi ilə təkrar dünyaya dönməyi və on dəfə şəhid olmağı istəyər”.[537]

“Cihada çıxan bir birlik və ya səriyyə döyüşər, qənimət alar və ölümdən xilas olarsa, əcrlərinin üçdə ikisini əvvəldən almış olar.

---

[532] Buxari, “Cihad”, 10.
[533] Əbu Davud, “Cihad” 40.
[534] Müslim, “İmarə”, 146; Tirmizi, “Fəzailul-Cihad”, 23.
[535] Buxari, “Elm”, 45, “Cihad”, 15, Müslim, “İmarə”, 149,150, İbn Macə, “Cihad”, 13, Əhməd ibn Hənbəl, 4/392, 397, 402, 405, 417.
[536] Buxari, “Cihad”, 13, Müslim, “İmarə”, 144.
[537] Buxari, “Cihad”, 21, Müslim, “İmarə”, 109, Tirmizi, “Fəzailul-Cihad”, 13, 25.

Bir birlik və ya səriyyə cihada çıxar, qənimət əldə edə bilməz, şəhid olar və ya yaralı dönərsə, əcri Axirətdə tam olaraq verilər”.[538]

“Şəhidin qul haqqı xaricindəki bütün günahlarını Allah bağışlayar”.[539]

“Bu gecə yuxumda iki adam gördüm. Yanıma gəlib əvvəlcə məni bir ağaca çıxardılar, sonra isə bir evə apardılar. O ev indiyə qədər bənzərini görmədiyim gözəllik və yüksək dəyərdə idi. Sonra o iki adam mənə dedi:

“Bu ev şəhidlər sarayıdır”.[540]

“Sizdən biriniz qarışqanın dişləməsindən nə qədər ağrı hiss edərsə, şəhid olan kimsə də ölümdən ancaq o qədər ağrı hiss edər”.[541]

“Allah-taaladan saf bir niyyətlə şəhidlik diləyən bir kimsə yatağında ölsə belə, Allah onu şəhidlik mərtəbəsinə çatdırar”.[542]

“Şəhidliyi könüldən arzu edən bir kimsə şəhid olmasa belə, savabına nail olar”.[543]

İslamın ilk dövrlərində Əmmarın atasını, yəni Süməyyənin əri Yasəri İslamı qəbul etdiyinə görə şəhid edirlər. Onu şəhid edənlərin ürəkləri bununla soyumur. Onlar Süməyyəni də hədələyirlər: “Əgər Muhəmmədi inkar etməsən ayaqlarını iki dəvəyə bağlayıb iki tərəfə çəkərək səni şaqqalayacağıq”. Lakin bütün vücudu Allaha bağlı olan Süməyyəyə onların bu hədə-qorxusu təsir edərdimi?! Qulağında daim Peyğəmbərin *(s)* bu kəlməsi səslənirdi:

***“Yasərin ailəsi! Səbir edin, sizin yeriniz Cənnətdir”.***

Nəhayət, qana susamış düşmənlər Süməyyəyə ağır işgəncə verməklə öz qəzəblərini yatırtmaq qərarına gəlirlər və onu şəhid edirlər. Beləliklə, onun adı İslam uğrunda canını qurban verən ilk şəhid xanım kimi tarixin səhifələrinə yazılmış olur.

---

538 Müslim, “İmarə”, 154, Əbu Davud, “Cihad”, 12, Nəsai, “Cihad”, 15, İbn Macə, “Cihad”, 13.
539 Müslim, “İmarə”, 119.
540 Buxari, “Cihad”, 4, Cənaiz, 93.
541 Tirmizî, “Fəzailul-Cihad”, 26, Nəsai, “Cihad”, 35, İbn Macə, “Cihad”, 16.
542 Müslim, “İmarə”, 157, Nəsai, “Cihad”, 36, İbn Macə, “Cihad”, 15.
543 Müslim, “İmarə”, 156.

İslamda bir neçə qəhrəman qadın da olmuşdur ki, onlardan aşağıdakıları qeyd etmək olar:

1. Lubəynə Bəni-Muməl tayfasının kənizi idi. Ömər ibn Xəttab İslamı qəbul etməmişdən öncə ona çox işgəncə verərdi. Lakin bu qadın heç vaxt təslim olmayıb və İslam dinindən dönməyib.

2. Zinnirə Bəni-Məxzum tayfasından idi. Əbu Cəhl müsəlman olduğuna görə ona olmazın əziyyətlər versə də onu əqidəsindən döndərə bilməyib.

3. Nəhdiyyə Bəni-Nəhd tayfasının kənizi idi. Nəhdiyyə İslamı qəbul etdiyinə görə (Bəni-Əbdiddar qəbiləsindən olan) xanımının ağır işgəncələrinə məruz qalsa da əqidəsindən dönməyib.

4. Belə xanımlardan biri də Cabir ibn Həkimin qızı, Qəziyyə kimi tanınan Ümmü Şərik Əsədi idi. O, Qüreyş tayfasının Bəni-Amir qəbiləsindən idi. İslamın ilk dövrlərində müsəlman olan bu xanım bütün bacarığı ilə dinin təbliği üçün çalışmışdı. O, gizlin və aşkarda insanları (əsasən də qadınları) İslama dəvət etdiyi üçün ağır işgəncələrə məruz qalıb, hətta bir dəfə onu palansız dəvəyə mindirib üç gün ac-susuz vəziyyətdə saxladıqdan sonra əl-ayağını bağlayaraq qızmar günəşin altında yolun üstünə atıblar. Əgər Allahın lütf və mərhəməti olmasaydı şübhəsiz ki, o, tələf olardı.

5. Xənsa Bəni-Səlim tayfasından idi. Onun təbliği nəticəsində bütün qəbiləsi müsəlmanlığı qəbul etmişdi. Bəzən Xənsa özünün şeir və şüarları ilə müsəlmanları kafirlərin əleyhinə qaldırardı. Bütün etdikləri ilə kifayətlənməyən Xənsa Qadisiyyə döyüşündə oğlanlarının dördünü də döyüş meydanına göndərmiş və onlar bu döyüşdə şəhid olmuşlar.

6. Ümmü Ziyad Əşcəiyyə Xeybər döyüşündə iştirak etmiş beş qadından biridir. Peyğəmbər *(s)* onların gəlişinin səbəbini soruşduqda onlar dedilər:

“Yaralılara tibbi yardım göstərməklə sizə kömək etmək istəyirik”.

Rəsulullah *(s)* onların qalıb yardım etmələrinə icazə verdi. Xeybər qalası fəth ediləndə Rəsulullah *(s)* döyüşdə əldə edilmiş qənimətlərdən onların da payını ayırdı.

7. Şücaətli xanımlardan, şəhid vermiş analardan biri də Peyğəmbərin *(s)* kənizi Ümmü Əymən olub (onun adı Bərkə idi). Həzrət Peyğəmbər *(s)* onu kənizlikdən azad edərək Übeydə Xəzrəci ilə evləndirmiş və onların bu izdivacdan Əymən adlı oğlu dünyaya gəlmişdi. Ümmü Əymənin əri vəfat edəndən bir müddət sonra Peyğəmbər *(s)* onu Zeyd ibn Haris ilə evləndirmiş, bu izdivacdan da Üsamə adlı oğlu dünyaya gəlmişdi.

Ümmü Əymən çox qoçaq və şücaətli bir xanım idi. O, yaralılara tibbi yardım göstərmək üçün Ühüd döyüşündə iştirak etmiş və döyüşün qızğın anında bir dəstə müsəlmanın fərariliyini görəndə ovcunu torpaqla doldurub onların üzlərinə ataraq demişdi:

"Kişi döyüşdən qaçmaz. Siz arvad kimi hərəkət edirsinizsə, gedin arvad cəhrəsi arxasında da oturun. Vay olsun sizə!"

Ümmü Əymən bununla da kifayətlənməyib əlinə qılınc alaraq İslam və Peyğəmbərin *(s)* müdafiəsinə qalxmışdı. Onun fəziləti, cəsurluğu barəsində çox yazmaq olar.

Ümmü Əymən Rəsulullahdan *(s)* sonra da əqidəsində möhkəm qalmış, həmişə Həzrət Fatimeyi-Zəhra *(ə)* və Əhli-Beytlə *(ə)* birgə olmuşdu. Bu fəzilətli qadın haqqında bunu demək kifayətdir ki, onun oğlu Əymən Hüneyn döyüşündə misli görünməmiş qəhrəmanlıq göstərərək şəhid olmuş, digər oğlu Usamə isə hələ 17-20 yaşında ikən sərkərdə məqamına kimi yüksəlmişdi.

8. İslam tarixində ağır döyüşlərdən biri sayılan Ühüd döyüşündə Mədinə müsəlmanlarının bir çoxu şəhid vermişdi. Maraqlıdır ki, xanımlar öz övladları, ərləri və qardaşlarının halını xəbər almazdan öncə Peyğəmbərin *(s)* halını soruşardılar. Qeysin qızı Suda (və ya Sevda) da belə xanımlardan biri idi. Ühüd döyüşündə o, övladlarının şəhid olduqlarını bilsə də onlar haqqında xəbər almazdan öncə – "Peyğəmbərdən *(s)* nə xəbər var?" deyə soruşmuşdur.

Ona – "Peyğəmbər *(s)* sağdır" deyiləndə dərhal özünü Rəsulullaha *(s)* çatdırmış və onun sağ-salamat olduğunu gördükdə demişdir:

"Başıma gələn müsibətlər mənə asanlaşdı. Təki siz salamat olasınız, daha heç bir qəmim yoxdur".

Bu möhkəm iradəli xanım döyüş meydanından oğlanlarının cənazəsini tapıb dəvənin belinə yükləyərək Mədinəyə tərəf yollanarkən yolda rastlaşdığı insanlar Peyğəmbəri *(s)* soruşduqda deyib:

"Peyğəmbər *(s)* sağ-salamatdır".

Rastlaşdığı insanlardan biri də Aişə idi. Aişə ondan – "Dəvənin belindəki yük nədir?" deyə xəbər alanda Suda belə cavab verib:

"Ürəyimin parası iki oğlanlarımdır. Onlar Allah yolunda qəhrəmanlıq göstərərək şəhid olublar. Onları torpağa tapşırmağa aparıram".

9. Səfiyyə Rəsulullahın *(s)* altı bibisindən biridir və Peyğəmbərin *(s)* əmisi Həzrət Həmzə ilə eyni ata-anadan doğulmuşdur. Atası Əbdülmütəllib, anası Halə bint Vəhəbdir. Səfiyyə cahiliyyə dövründə Haris ibn Hərbə ilə ailə qurur və bir oğlu olur. Harisin ölümündən sonra xanım Xədicənin qardaşı Əvvam ibn Xuveylidlə ailə quran Səfiyyənin bu evlilikdən üç oğlu – Zubeyr, Saib, Əbdülqəbə doğulur. Bu uşaqların ən məşhuru Zubeyr ibn Əvvamdır.

Səfiyyə qardaşı oğlu Muhəmmədi *(s)* çox istəyərdi. Hələ uşaqlıqdan ona qayğı bəsləyirdi. Atasının yoxluğunu hiss etdirməməkdən ötəri Muhəmməd *(s)* üçün əlindən gələn fədakarlığı edərdi. Aradan illər keçir, böyük sevgi göstərdiyi Muhəmməd *(s)* Allahın seçdiyi sonuncu nəbi olur və İslamı əvvəl gündən gizli təbliğ etməyə başlayır.

Nəhayət, Qurani-Kərimin "Şura" surəsinin 114-115-ci ayələrinin hökmünə əsasən Peyğəmbər *(s)* qohumlarını bir ünvana toplayır. Ayədə buyurulur:

***"Əvvəl ən yaxın qohumlarına tövsiyə et, Sənə inanan möminlərə mərhəmət qanadını endir (onlarla yaxşı davran)"***.

İslamı qohumlarına təbliğ etdikdən sonra Səfiyyə və oğlu Əmmarın oğlu Zubeyr İslamı qəbul etdilər və Peyğəmbərə *(s)* qoşuldular. Səfiyyə qardaşı Əbu Ləhəbin müsəlman olması üçün çox çalışdı. Lakin əmisinin Muhəmmədə *(s)* qarşı kin-küdurəti həddini aşmışdı. O, müsəlmanlara əzab verir, onların keç-

dikləri yollara tikan səpir, hətta təhqirini belə, açıq şəkildə etməkdən çəkinmir, yeri gələndə zor da işlədirdi. Səfiyyə həmişə Allah Rəsulunu *(s)* qorumağa çalışırdı. Bir gün eşitdi ki, Əbu Ləhəb onu narahat edir. Oraya gəldi və dedi:

"Əbu Ləhəb! Qardaşım oğlunu və onun dinini köməksiz qoymaq sənə yaraşarmı? Kitab əhlinin alimləri Əbdülmütəllibin soyundan bir Peyğəmbər *(s)* dünyaya gələcəyini bilmirdilərmi? O, sənin qardaşın oğludur".

Səfiyyənin dediyi sözlər Əbu Ləhəbə təsir etsə də o, qürur və təəssübkeşliyindən dönmədi və bacısına belə dedi:

"Qadınların sözləri həmişə kişilərə ayaq bağıdır".

Bu sözlərdən sonra məhzun halda Səfiyyə oradan ayrıldı.

Bu xanım Allah Rəsulunun *(s)* və Əhli-Beytinin *(ə)* yolundan azmadı. Müşriklərin zülmündən sonra oğlu Zubeyr ilə Məkkədən Mədinəyə köçdü. İslam uğrunda malı və canı ilə həmişə mübarizə apardı. O, İslamda hərbdə iştirakı olan ilk qadın idi. Həzrət Muhəmməd *(s)* Ühüd müharibəsində olduğu zaman qadın və uşaqları Mədinədə təhlükəsiz bir ev sayılan Həssan ibn Sabitin evinə topladı. Bu kişi yaşlı və şikəst olduğu üçün müharibədə iştirak etmirdi. Səfiyyə nəql edir:

"Mən qadın və uşaqlardan bir dəstə ilə xeymədə oturmuşdum. Həssan da bizimlə idi. O gün döyüş uzun çəkdi. Bizimlə Rəsulullah *(s)* arasında o qədər məsafə var idi ki, əgər düşmən bizə gecə hücum etsəydi və ya hücuma keçsəydi müsəlmanlar bizi düşməndən müdafiə etməyə gələ bilməzdilər.

Biz xeymədə ikən bir yəhudi kişi xeyməyə yaxınlaşdı. Həssana dedim:

"Bu kişinin bizi qətlə yetirəcəyini hiss edirəm, qalx və bu kişini buradan uzaqlaşdır".

Həssan ibn Sabit dedi:

"Əbdülmütəllibin qızı, Allah bilir ki, mənim onun yanına gedənə qədər qüvvətim olsaydı Rəsulullaha *(s)* Ühüddə kömək edərdim".

Həssanın bu sözlərindən sonra Səfiyyənin qanı cuşa gəldi, ayağa qalxdı və qərara gəldi ki, düşmənin həmləsini özü dəf et-

sin. Silahsız olmasına baxmayaraq bu barədə qərarı tez verib xeymənin stununu silah kimi əlinə aldı və düşmənə hücum etdi. Səfiyyə yəhudini öldürənə kimi onunla döyüşdü. O, İslamda düşməni qətlə yetirən ilk qadın oldu.[544] Səfiyyə yəhudini öldürdükdən sonra döyüş meydanına göz gəzdirdi, müsəlmanlar təlaşlı idilər, hətta müharibədən məğlubiyyət xəbərləri gəlməyə başlayırdı. Nəhayət, Səfiyyə qardaşı oğlunun başına gələ biləcək ağır hadisə təhlükəsindən qorxuya düşərək bir neçə qadınla Ühüd meydanına gəldi. Rəsulullahın *(s)* sağ, qardaşı Həmzənin isə şəhid olmasını eşitdi. Qardaşını görməyə tələsdi. Bundan xəbər tutan Peyğəmbər *(s)* Zubeyrə buyurdu:

***"Ananın qarşısını kəs!"***

Zubeyr Peyğəmbərin *(s)* əmrinə itaət edərək anasını döyüş meydanına girməkdən çəkindirdi. Qəlbi parçalanan Səfiyyə dedi:

"Məni qardaşımla onun bədəninin tikə-tikə doğrandığı üçün görüşməyə qoymursunuzsa, bu, İslam yolunda kiçik bir şeydir. Mən bu hadisə ilə razılaşmışam. Mən buna səbir edərəm və bunu Allah dərgahında hesaba gətirəcəyəm".

Bundan sonra Səfiyyə Həzrət Muhəmmədi *(s)* gördü və soruşdu:

"Ya Rəsulullah *(s)*! Atamın oğlu Həmzə haradadır?"

Peyğəmbər *(s)* buyurdu:

***"O, şəhidlər arasındadır"***.

Səfiyyə irəli gəldi. Qardaşı Həmzənin parçalanmış bədənini gördü və ağladı. Peyğəmbər *(s)* də ona qoşulub ağladı. Sonra Peyğəmbər *(s)* iki əlini Həmzənin sinəsinə qoyub onun üçün dua etdi.[545]

Səfiyyə mətanət və qəhrəmanlığı ilə yanaşı, şairliyi ilə də tanınmışdır. Rəsulullah *(s)* dünyadan köçdükdən sonra onun üçün söylədiyi mərsiyələr məşhurdur:

"Ey Allahın Rəsulu *(s)*, sən bizim ümid dayağımızdın. Bizə qarşı daim yaxşılıq edərdin. Allahın Rəsuluna *(s)* atam, anam, öz nəfsim fədadır. Rəbbimiz səni bizə buraxsaydı xoşbəxt

---

[544] "İslam aynasında qadınların siması", səh. 140, "Usdul-ğabə", c. V, səh. 492.

[545] Möhsün əl-Əmin, "Əyanuş-şiə", 2-ci cildi, səh 123, "Təbaqatu Səd", 3-cü cild, səh 7.

olardıq. Lakin Allaha can fədadır. Allahın salamı olsun sənə ya Rəsulullah *(s)*!”

Bu xanım Rəsulullahdan *(s)* sonra on il yaşadı. Hicrətin iyirminci ilində (Miladi-640) 73 yaşında vəfat edən Səfiyyənin məzarı Mədinədə yerləşən Bəqi məzarlığındadır. Allah ruhunu şad etsin.[546]

Abdullah ibn Əmr ibn Haram əl-Ənsari Ühüd şəhidlərindəndir. Oğlu Cabir belə deyir:

“Atam öldürüldüyü zaman üzündəki örtüyü açıb ağlamağa başladım. Rəsulullahın *(s)* səhabələri məni buraxmaq istəmirdilər. Lakin Rəsulullah *(s)* mənə mane olmadı və sonralar buyurdu:

***“Ağlasan da, ağlamasan da fərq eləməzdi. O, (atan) qaldırılıb dəfn olunana qədər mələklər qanadları ilə ona kölgə edirdilər”.***[547]

Cabir ibn Abdullah belə deyir:

“Atamın müslə edilmiş cəsədi gətirilib Peyğəmbərin *(s)* qabağına qoyuldu. Üzünü açmaq üçün getdim, lakin oradakı camaat mənə mane oldu. Bunun üzərinə Həzrət *(s)* belə buyurdu:

***“Mələklər ara vermədən onu qanadları ilə kölgələyirlər”.***[548]

***“Qardaşlarınız Ühüddə vurulunca Allah onların ruhlarını yaşıl quşların içinə (şəklinə) qoydu. Cənnətin çaylarına gəlir, meyvələrindən yeyərlər, Ərşin kölgəsindəki qızıl qəndillərə gəlib qonarlar. Yediklərinin və içdiklərinin gözəlliyini görüncə; Kaş ki qardaşlarımız da Allahın bizə nə etdiyini (nə mükafatlar verdiyini) biləydilər və heç bir döyüşdən geri qalmayaydılar!”*** dedilər.

Uca Allah buyurdu:

***“Mən sizin bu arzunuzu onlara çatdıraram”***.

Sonra da bu ayələri (“Ali-İmran”, 3/169-171) endirdi”.[549]

---

[546] Mənbə: Rəqsanə Yusifzadə, Xeber Lent.az

[547] Buxari, “Cənaiz”, 34.

[548] Buxari, “Cənaiz”, 3, 35.

[549] Əbu Davud, “Cihad”, 25.

Rəsulullah *(s)* düşmənlə qarşılaşdığı günlərdən birində günəş qərbə meyl edənə qədər gözlədi. Sonra səhabələrin arasında ayağa qalxdı və belə buyurdu:

***"Ey müsəlmanlar! Düşmənlə qarşılaşmağı təmənna etməyin, Allahdan sağlıq diləyin. Lakin düşmənlə qarşılaşınca da səbir edin. Bilin ki Cənnət qılıncların kölgəsi altındadır"***.

Sonra Allaha belə dua etdi:

***"Ey Quranı endirən, buludları səmada gəzdirən və düşmən cərgələrini darmadağın edən Allahım! Düşmənlərimizi pərişan və bizi onlara qarşı müzəffər et"***.[550]

"İki dua rədd olunmaz və ya çox nadir rədd olunar: azan oxunarkən və döyüş anında düşmənlə üz-üzə gələrkən edilən dua".[551]

Əbu Qətadə rəvayət edir:

"Rəsulullah *(s)* səhabələr arasında ayağa qalxdı və buyurdu:

***"Allah yolunda cihad və Allaha iman etmək əməllərin ən fəzilətlisidir"***.

Bunun üzərinə bir adam ayağa qalxıb dedi:

"Ya Rəsulullah *(s)*! Əgər mən Allah yolunda öldürülsəm bu, günahlarıma kəffarə olarmı?"

Rəsulullah *(s)* buyurdu:

***"Bəli, əgər sən səbir etməklə əcrini yalnız Allahdan gözləyib cəbhədən qaçmadan düşmənlə vuruşaraq Allah yolunda öldürülsən günahlarına kəffarə olar"***.

Sonra Rəsulullah *(s)* buyurdu:

***"Necə demişdin?"***

Adam təkrar dedi:

"Əgər mən Allah yolunda öldürülsəm bu, günahlarıma kəffarə olarmı?"

Rəsulullah *(s)* buyurdu:

***"Bəli, əgər sən səbir etməklə əcrini yalnız Allahdan gözləyib cəbhədən qaçmadan düşmənlə vuruşaraq Allah yolunda***

---

[550] Buxari, "Cihad", 112.

[551] Əbu Davud, "Cihad", 39.

***öldürülsən günahlarına kəffarə olar. Lakin borcların bunun xaricindədir. Bunu mənə Cəbrail söylədi”.***[552]

Cabir ibn Abdullah nəql edir:

“Bir adam Peyğəmbərdən *(s)* soruşdu:

“Ya Rəsulullah *(s)*! Əgər Allah yolunda öldürülsəm harada olacağam?”

Rəsulullah *(s)* buyurdu:

***“Cənnətdə!”***

Bu vaxt adam əlində olan xurmaları atdı, sonra düşmənlə vuruşdu və nəticədə şəhid oldu”.[553]

Ənəs deyir:

“Rəsulullah *(s)* ilə səhabələri yola çıxdı və müşriklərdən əvvəl Bədrə çatdılar. Müşriklər də gəldilər. Rəsulullah *(s)* belə buyurdu:

***“Sizdən heç biriniz mən başında olmadıqca hər hansı bir şey etməsin!”***

Sonra müşriklər yaxınlaşdı. Bunun üzərinə Rəsulullah *(s)* buyurdu:

***“Genişliyi göylərlə Yer arası qədər olan Cənnətə girmək üzrə ayağa qalxın!”***

Ənsardan Umeyr ibn Humam soruşdu:

“Ya Rəsulullah *(s)*! Genişliyi göylərlə Yer arası qədər olan Cənnət dediniz?”.

Peyğəmbər *(s)* buyurdu:

***“Bəli”***

İbn Humam dedi:

“Nə yaxşı, nə əla!”

Rəsulullah *(s)* buyurdu:

***“Niyə elə dedin?”***

İbn Humam dedi:

“Ya Rəsulullah *(s)*, Allaha and içərəm ki, cənnət əhlindən olmağı istədiyim üçün elə dedim, başqa məqsədim yox idi”.

---

[552] Müslim, “İmarə”, 117.
[553] Buxari, “Məğazi”, 17.

Rəsulullah *(s)* buyurdu:

***"Şübhəsiz, sən cənnətliksən!"***

İbn Humam bu söz üzərinə torbasından bir neçə xurma çıxardıb onları yeməyə başladı və dedi:

"Əgər xurmalarımı yeyənə qədər yaşasam bu, həqiqətən uzun bir həyatdır"

İbn Humam əlindəki xurmaları yerə atdı və şəhid olana qədər müşriklərlə vuruşdu".[554]

Yenə də Ənəs deyir:

"Bəzi kəslər gələrək Peyğəmbərə *(s)* dedilər:

"Bizə Quranı və sünnəni öyrədəcək insanlar göndərsəniz".

Rəsulullah *(s)* içərilərində dayım Haramın da olduğu ənsardan "qurra" deyilən yetmiş adamı onlara göndərdi. Qurralar Quran oxuyur, gecələr aralarında müzakirə edərək Quranı öyrənir, gündüzlər isə su gətirib məscidə qoyur, odun yığıb satır, qazancları ilə Suffə əhlinə və kasıblara yemək satın alırdılar. Peyğəmbər *(s)* onlara bu kəsləri müəllim olaraq göndərmişdi. Lakin gedəcəkləri yerə çatmadan öldürüldülər. Onlar (öldürülməzdən əvvəl) dedilər:

"Allahım! Bizim xəbərimizi Peyğəmbərimizə *(s)* çatdır. Bizlər Sənə qovuşduq və Səndən razı olduq. Sən də bizdən razı oldun".

Bir adam Ənəsin dayısı Harama yaxınlaşıb nizəsi ilə onu vurdu, hətta nizə onun bədəninin bir tərəfindən o biri tərəfinə keçdi. Bunun üzərinə Haram dedi:

"Kəbənin Rəbbinə and içirəm ki mən artıq Cənnəti qazandım".

Bu hadisə üzərinə Rəsulullah *(s)* buyurdu:

***"Şübhəsiz ki, din qardaşlarınız öldürüldülər. Onlar həm də belə dedilər: "Allahım! Bizim xəbərimizi Peyğəmbərimizə çatdır. Bizlər Sənə qovuşduq və Səndən razı olduq. Sən də bizdən razı oldun!"***[555]

---

[554] Əhməd ibn Hənbəl, "Musnəd", c. III, səh. 137.

[555] Buxari, "Cihad", 9.

Yenə Ənəs belə nəql edir:

"Əmim Ənəs ibn Nadr *(r)* Bədr döyüşünə qatılmamışdı. Bu ona çox ağır gəldi. Bu səbəblə dedi:

"Ya Rəsulullah *(s)*! Müşriklərlə etdiyin ilk müharibədə ola bilmədim. Əgər Allah-taala müşriklərlə ediləcək bir müharibədə olmağı mənə qismət eləsə, nələr edəcəyimi şübhəsiz görəcəkdir".

Ühüd döyüşündə müsəlman cərgələri dağılmasını görən Ənəs ibn Nadr (r) yoldaşlarını nəzərdə tutaraq dedi:

"Ya Rəbbim, bunların etdikləri üçün Səndən üzr diləyirəm".

Sonra müşrikləri nəzərdə tutaraq belə dedi:

"Bunların etdiklərindən də Sənə sığınıram".

Daha sonra meydana irəlilədi, Sad ibn Muaz ilə qarşılaşdı və ona dedi:

"Ey İbn Muaz! Bu da Cənnət. Nadrın Rəbbinə and içərəm ki, Ühüdün yaxınlarında onun qoxusunu hiss edirəm".

İbn Muaz (bu hadisəni danışarkən) dedi:

"Mən onun etdiyini etməyə güc çatdıra bilmədim, ya Rəsulullah *(s)*!"

Hədisin ravisi Ənəs əmisi ilə əlaqədar hadisəni belə danışır:

"Əmimi şəhid edilmiş olaraq tapdıq. Bədənində səksəndən çox qılınc zərbəsi, nizə yarası və ox izi vardı. Müşriklər əmimi öldürdükdən sonra ona müslə* (öldürülən kimsənin burnunu, qulağını və s. bədən üzvlərini kəsib gözlərini oymaq. Rəsulullah *(s)* hətta heyvanlara belə, müslə edilməsinə icazə verməmişdir) etmişdilər. Bu səbəblə onu heç kim tanıya bilmədi. Yalnız bacısı barmaq uclarından tanıya bildi. Biz bu ayənin əmim və onun kimilər haqqında enmiş olduğu fikrindəyik:

***"Möminlər içərisində elələri də vardır ki, Allaha etdikləri əhdə sadiq olarlar. Onlardan kimisi şəhid olmuş, kimisi də gözləyir. Onlar (verdikləri sözü) əsla dəyişməzlər".***[556]

---

* Bax: Əbu Davud, "Cihad", 110.

[556] "əl-Əhzab", 33/23.

Şəhidliyin Allah qatındakı fəziləti və mənəvi dəyərinin yeganə qaynağı Quran və hədisdir. Bunlar olmadan nəyin yaxşı və pis, nəyin isə fəzilət və alçaqlıq olduğunu bilməyimiz ya çox çətin olar, ya da ki, mümkün deyildir. Ümumiyyətlə, şəhidlik mərtəbəsi insanın göstərmiş olduğu səy nəticəsində çatdığı mənəvi səviyyə, Allah qatındakı dərəcə, mənəvi üstünlükdür və bunun üçün səy göstərilməsi qeyd olunmaqdadır. Şəhidlərin isə dünyadakı həyatları və əməlləri ilə o məqama çıxmadıqlarından ötrü bəzi gözəl sifətlərə qibtə etmələri normaldır. Çünki onlar həyatlarının son anlarında şəhidlik məqamına nail olarlar. Şəhidin bu məqama çıxması son nəfəsini verərkən içində olduğu vəziyyətlərlə açıqlana bilər. İnsanın ölüm anında adətən pis bir düşüncəsinin qələbə çalmasına və qəlbinin hüzura qovuşmasına rast gəlmək mümkündür. Şəhidlik anına gəldikdə isə o, Allah sevgisindən başqasının qalmadığı, dünya, ailə, mal, övlad, bütün arzu və şəhvətlərin sevgisinin qəlbdən çıxdığı bir anda ruhu Allaha təslim etməkdən ibarətdir.

Vəfat edənlərin arxada qalan dostları kədərlənərlər. Yaxın qohumları bu kədəri daha ağır bir şəkildə yaşayarlar. Arvad və uşaqlar isə dözülməsi çətin qəm çəkərlər. Axirət inancına sahib olan şəxslərin kədərləri ölən şəxsin digər tərəfdə qarşılaşdığı vəziyyətin bilinməzliyindən daha da artar. Şəhid isə qarşılaşdığı gözəllik və hədiyyələrdən ötrü geridə qalan bu qohumlarına müjdə verdiyi kimi, eyni cərgədə birlikdə döyüşdüyü lakin şəhid olmamış dostlarına da qorxulacaq bir şeyin olmadığı, çox böyük nemət və gözəlliklərlə qarşılaşdığı müjdəsini verər. Quran mövzunu belə dilə gətirməkdədir:

***“Allah yolunda öldürülənləri (şəhid olanları) heç də ölü zənn etmə! Əsl həqiqətdə onlar diridirlər. Onlara Rəbbi yanında ruzi (Cənnət ruzisi) əta olunar. Onlar Allahın Öz mərhəmətindən onlara bəxş etdiyi nemətə (şəhidlik rütbəsinə) sevinər, arxalarınca gəlib hələ özlərinə çatmamış (şəhidlik səadətinə hələ nail olmamış) kəslərin (Axirətdə) heç bir qorxusu olmayacağına və onların qəm-qüssə görməyəcəklərinə görə şadlıq edərlər. Onlar Allahdan gələn nemət və mərhəmətə görə, həm***

***də Allahın möminlərin mükafatını puça çıxarmayacağı üçün sevinərlər”.***[557]

Bir gün Peyğəmbər *(s)* atası Ühüddə şəhid olan Cabirə buyurdu:

***“Allah atana nə buyurdu xəbər verimmi? Buyurdu ki, Ey Abdullah! Dilə Məndən istəyini sənə verim. Atan bunu söylədi: “Allahım mənə yenidən həyat ver, Sənin yolunda ikinci dəfə ölüm”. Allah buyurdu: “Mən qəti qərar vermişəm, ölənlər artıq dünyaya dönməyəcəklər”.***[558]

İnsanlar ölərək bu dünyadan ayrıldıqdan sonra Qiyamətə qədər Bərzəx aləmi deyilən bir həyata qədəm qoyarlar. Orada insanların qarşılaşdıqları davranış Qiyamət günündə və Axirət həyatında qarşılaşacaqları davranışın xəbərçisidir. İlk sorğunu qəbirdə münkər və nəkir adlı iki mələk edər:

“Rəbbin kimdir? Dinin nədir? Peyğəmbərin kimdir? Həyatını necə keçirdin? Muhəmməd *(s)* haqqında nə düşünürsən? Namazını düzgün əda etdinmi?” və s.

Qəbirdəki insanla verdiyi cavaba görə rəftar edilər. Bu suallara verilən cavabların yanlışlığı və ya əskikliyi ilə yanaşı, dünyada ikən işlənən bəzi günahların cəzası da qəbirdə çəkilməkdədir. Şəhid həm hesab mələklərinin sorğusundan, həm də buna bağlı olaraq qəbir əzabından azaddır. Hədislərdə bu hal belə ifadə edilir:

“Bir adam Peyğəmbərdən *(s)* soruşdu:

“Niyə möminlər qəbir sorğusuna tabedir, lakin şəhidlər azaddır?”

Peyğəmbər *(s)* buyurdu:

***“Şəhid edildiyində başı üstündə əmələ gələn qılınc şaqqıltıları imtahan olaraq yetər!”***[559]

Dünyada ən böyük imtahan canını ortaya qoymağı bacarmaq və bu canı Allah yolunda fəda etməkdir. İnsanın hər hansı

---

[557] “Ali İmran”, 3/ 169-171.
[558] İbn Macə, “Cihad”, 16.
[559] Tirmizi, “Fəzailul-Cihad”, 2.

bir sorğuda hiss edəcəyi bütün narahatlıqları şəhid ən yüksək səviyyədə qılınc şaqqıltıları arasında yaşamışdır. Bunu etməklə o, münafiq olmadığını, Allaha sadiq bir imana bağlı olduğunu isbat etmişdir. Şəhidlərin, peyğəmbərlərdən *(ə)* sonra gələn siddiqlərin də belə bir hesaba çəkiləcəkləri ifadə edilməkdədir.

Ölüm insanın qarşılaşacağı ağrıların ən böyüyüdür. Bədən ruhla bu qədər ağrı hiss edirsə, ruhun hər damar, hər tük dibi və dəri parçasından, üst və altdan, qısaca bədənin hər zərrəsindən çəkilib çıxarılması əsnasında nə ağrılar, nə sıxıntılar çəkilir. Ölümün qılınc zərbəsindən, mişar və qayçı kəsməsindən daha çox ağrı verdiyi izah edilir. Çünki qılınc zərbəsi, mişar və qayçı kəsməsi ruhla birlikdə bədənə də ağrı verir. Lakin ruh bir başa hədəfə alındığında ağrı daha çox olur. Çünki qılınc və buna oxşar bir şeylə vurulan insan hiss orqanları və dili sağlam olduğuna görə bağırıb çığıra bilər.

Ölən şəxsin isə səsi, nəfəsi kəsilər. Çünki ağrı şiddətlənərək yüksək dərəcəyə çatar, bədəninin hər zərrəsini əhatə edər, bütün güc mərkəzlərini iflic vəziyyətə salar, orqanlarını sıradan çıxarar, beynini uyuşdurar və nəhayət, dilinin funksiyasını yox edər. Qalan bir səs olsa da ruh alındığına görə o da ancaq xırıltı şəklində olar. İniltilər və boğazdan boğuq səslər eşidilə bilər. Buna görə rəngi solar və bədən yaradıldığı əsl rənginə qayıdar, sanki üz torpaq kimi olar. Sifətinin rəngi dəyişər, bütün damarları çəkilər, gözləri yuxarı zillənər, dili əslinə dönərək yığılar, damar və sinirləri quruyar.

Bir yerə yığılıb qalan, damarları, orqanları və dərisi yox olan, hər orqanı hissə-hissə ölən bədənin halına bir bax! Sonra barmaqları da öz müvazinətini itirər, ayaqları buz kimi olar, onu mənəvi sıxıntı və ölüm sərxoşluğu, bir-birini izləyən ağrılar, ruhun tədricən çəkilməsindən hasil olan özündən keçmələr əhatə edər. Can boğaza gəldikdə ölən şəxs dünya və ətrafdakıları tanımaz olar, peşmanlıq və həsrətlə yansa belə, artıq tövbəsi qəbul olmaz.

Həzrət Peyğəmbər *(s)* şəhidlərin bu ağrıları hiss etmədiklərini belə müjdələməkdədir:

***“Şəhid şəhadətə yetişdiyi əsnada sizdən birinizin milçək sancmasından (və ya bir çimdikdən) hiss etdiyi qədər bir ağrı duyar”.***[560]

Allahın icazəsi ilə, peyğəmbərlər *(ə)* başda olmaqla dərəcəsinə görə Allaha yaxınlaşmış bəzi şəxslər Qiyamət günü şəfaət edəcəklər. Mələklər, siddiqlər, şəhidlər, vəlilər, həddi-buluğa çatmadan ölən uşaqlar şəfaət edəcəkləri kimi, Qurani-Kərim və digər bəzi ibadətlər də şəfaətçi olacaqlar.[561] Şəfaətdə vurğulanması lazım olan əsas prinsipin başqasının haqqını ziyan etməyə səbəb olmayacağı mütləq bir həqiqətdir. Peyğəmbər *(s)* şəhidlərin də şəfaət edəcəklərini müjdələməkdədir:

***“Qiyamət günü üç qrup şəfaət edəcəkdir: peyğəmbərlər, alimlər və şəhidlər”.***[562]

Rəvayətə görə bir gün Peyğəmbər *(s)* səhər namazından əsr namazına qədər məsciddə oturmuş, bəzən gülümsəmiş, bəzən üz ifadələri dəyişmiş, lakin bir kəlmə də danışmamışdır. Ondan bu hal haqqında soruşulan zaman o Həzrət *(s)* Qiyamətə qədər olacaq hadisələr və Qiyamətin bəzi hallarının özünə göstərildiyini bildirmiş və bu əsnada buyurmuşdur:

***“Qiyamət günü peyğəmbərlər və siddiqlər şəfaət etdikdən sonra şəhidlər çağırılar, onlar da istədikləri qədər şəfaət edərlər!”***[563]

Şəhidə verilən altı mükafatın bildirildiyi hədisin axırıncı maddəsi də mövzumuzla əlaqəlidir.

“Qohumlarından yetmiş nəfərə də şəfaət edər”.[564]

---

[560] Tirmizi, “Fəzailul-Cihad”, 26.
[561] Əbu Davud, “Ramazan”, 9.
[562] İbn Macə, “Zühd”, 37.
[563] Əhməd ibn Hənbəl, “Musnəd”, c. I, səh. 5.
[564] Tirmizi, “Fəzailul-Cihad”, 25.

# NƏTİCƏ

Hamıya məlum olduğu kimi, İmam Hüseyn *(ə)* Hicri-qəməri tarixi ilə 61-ci ildə (Miladi-680), Məhərrəm ayının onunda (yəni Aşura günü) haqqı yer üzündə bərpa etmək üçün öz səhabələri ilə birlikdə qiyam edərək düşmən tərəfindən amansızcasına qətlə yetirildi. O Həzrət *(ə)* öz qiyam və şəhadəti ilə İslamı yenidən dirçəldib özündən sonrakı nəsillərə – ***“Zülm və zalımlar qarşısında heç vaxt təslim olmayın!”*** ideyasını töhfə verərək bəşəriyyət tarixinin ən qaranlıq dövrlərini əbədi olaraq işıqlandırdı.

İmam Hüseyn *(ə)* Aşura günü təpədən dırnağadək silahlanmış otuz beş minlik düşmən qarşısında –

**هَيْهَاتَ مِنَّا الدَّنِيَّة، هَيْهَات مِنَّا الذِّلَّة**

***“Alçaqlıq və zillət bizdən çox-çox uzaqdır”*** sədasını bütün azad insanlara çatdırdı.

Peyğəmbər *(s)* də bir hədisində belə buyurur:

**قَالَ رَسُولُ الله: مَنْ اَقَرَّ بِالذِّلِّ طَائِعًا فَلَيْسَ مِنَّا اَهْلَ البَيْتِ.**

***“Hər kəs öz istəyi ilə zilləti qəbul etsə, biz Əhli-Beytdən deyil”***.

İslam tarixi səhnəsində Kərbəla hadisəsi dəhşətli olduğu kimi, ibrətlərlə dolu bir hadisədir. Bəlkə də bu əsəri oxuyanlar hirslərini cilovlamaqda çətinlik çəkəcəklər. Lakin əsəri oxuyarkən ogünkü şərtlər göz önündə tutulmalı və məsələyə obyektiv yanaşılmalıdır. Unudulmamalıdır ki, Kərbəla faciəsinin meydana gəlməsində bir və ya bir neçə adam günahkar deyil. Məlum olduğu kimi, bu faciənin əsas günahkarları Yezid ibn Müaviyə başda olmaqla Həzrət Hüseyni *(ə)* İmam kimi tanıdıqlarını, yoluna baş qoyduqlarını, hər xüsusda o Həzrətə *(ə)* köməkçi və dayaq olacaqlarını yazdıqları məktublarla bildirərək İmam Hüseyni *(ə)* Kufəyə dəvət etdikdən sonra dünya malı qarşılığında o Həzrətdən *(ə)* üz çevirib onu Kərbəlada şəhid edən və etdirən cahil kufəlilər və Kufənin öndə gələnləridir.

Onlardan başqa bu hadisənin günahkarları kimi yadda qalanlardan biri də idarəçilik ehtirası gözlərini bağlamış Ömər ibn Səddir. O, İmam Hüseynlə *(ə)* olan qohumluq əlaqələrini unudaraq və edilən bütün nəsihətləri qulaq ardı edərək Kərbəla cinayətinin rəhbərliyini öz öhdəsinə götürmüşdür.

Bundan əlavə, Yezid və onun sirdaşı olan Ubeydullah ibn Ziyad kimi hakimiyyəti əllərində saxlamaqdan başqa düşüncə və məqsədləri olmayan, bunun üçün də İmam Hüseyni *(ə)* öldürmək üçün müxtəlif hiylələrə əl atanlardan bundan daha insaflı bir davranış gözləmək ağılsızlıq olardı.

Şimr ibn Zilcövşən və digərləri də bu cinayətin əsas günahkarları kimi sıralana bilər.

On üç əsr bundan öncə cərəyan edən müdhiş Kərbəla faciəsinin səbəbkarları, o qanlı faciəni törədən azğın və qaniçən cinayətkarlar Allahın hüzuruna çıxarılıb İlahi ədalətə uyğun mühakimə olunmaq üzrə qəbirlərində saxlanmaqdadır. Buna görə də bu gün insanlar arasında hər hansı bir anlaşılmazlığa heç bir səbəb yoxdur. Çünki İmam Hüseyn *(ə)* – ***"Ey Allahım, bunlarla və qövmümüzdən olanlarla aramızda Sən hökm ver!"*** deyə buyuraraq bu məsələni Allaha həvalə etmişdir.

Kərbəla faciəsindən qəlbi sızlamayan, qanlı göz yaşı tökməyən kim var? Bu mövzuda ən doğru söz Muhəmməd ibn Hənəfiyyənin sözləridir:

"Kərbəla vaqiəsi böyük və çətin bir vaqiə idi, Hüseynin *(ə)* alın yazısı idi. Allah onu bununla şərəfləndirmək, o qövm qarşısında dərəcəsini yüksəltmək, başqalarını da alçaltmaq üçün ona bunu nəsib etmişdir".

Qarşınızda olan bu kitab Həzrət İmam Hüseyn *(ə)* qiyamının fəlsəfə və fəziləti, cihadın İslamdakı əhəmiyyəti və şərtləri, həmçinin şəhadətin fəzilət və üstünlükləri haqqındadır. Bu kitabın Allahın razılığına və oxucular tərəfindən rəğbətlə qarşılanmasına səbəb olacağına böyük ümid bəsləyirəm.

İnşaallah!

# İSTİFADƏ OLUNMUŞ ƏDƏBİYYAT

1. Qurani-Kərim.

2. Acluni, "Kəşful-Xəfa və Muzilul İlbas", Dar əl-Kitab əl-İlmiyah, Beyrut Livan 1997.

3. Ateş Süleyman, "Yüce Kuranın Çağdaş Tefsiri", İstanbul 1997, I-II.

4. Apak Adem, "Anahatlarıyla İslam Tarihi", Ensar neşriyat, İstanbul 2007.

5. Bilmen Ömer Nasuhi, "Kurani-Kerimin Türkçe Meali Alisi ve Tefsiri", Bilmen Yayın evi, İstanbul t.y, I-VIII.

6. Buxari Muhəmməd ibn İsmayıl, "Səhihi-Buxari", Darus-Salam Səudiyyə Ərəbistanı Krallığı, 1999.

7. Ziya Bünyadov, Məmmədəliyev Vasim, "Qurani-Kərimin Azərbaycan Dilinə Tərcüməsi", Azərbaycan Nəşriyyat, Bakı 1991.

8. Bursalı Mustafa Necati, "Peyqamber çiçekleri Hz. Hasan ve Hz. Hüseyn", Çile Yayınevi, 1983.

9. Boyunağa Ahmed Yılmaz, "Tebliğden Günümüze İslam Tarihi", Akabe Biatı Yayın evi, İstanbul t.y.

10. Bursalı Mustafa Necati, "Hasan ve Hüseyn", Çile Yayınları, İstanbul 1983.

11. Buxari Əbu Abdullah Muhəmməd ibn İsmail, "Səhihi-Buxari", D-arus-Səlam, Riyad 1999.

12. Bünyadov Ziya, Məmmədəliyev Vasim, məsləhətçi redaktor A.H.Paşazadə, Qurani-Kərim, Çıraq, Bakı 2005.

13. Cəziri Abdurrahman, "Dört Mezhebe Göre İslam Fıkhı", (tərc: Mehmet Keskin), Çağrı Yayınları, İstanbul 1993, I-VIII.

14. Ece Hüseyn K, "İslamın Temel Kavramları", Beyan Yayınları, İstanbul 2000.

15. Elmalili Muhammed Hamdi Yazır, "Hak Dini Kuran Dili", Eser Kitabevi, İstanbul t.y, I-IX.

16. Ekinci Muhammed Salih, "Tarihi Metod və Tarihi Tetkikler Işığında Sahabe Dönemi", tərc. Mehmet Ecir Eşiyok, Ribat Basımevi, Konya, t. y.

17. Əbu Davud, Süleyman ibn Əşəz ibn əl-Əzdi, "Sunənu Əbu Davud", Darus-Səlam, Riyad 1999.

18. Əfifi Taha Abdullah, “Min Nasayar-Rasul”, Dərul-etisam Qahirə, t. y.

19. əl-Bəlağ müəssisəsi, “On Dörd Məsumun Həyatı”, Tehran 1977.

20. Əllamə Muhəmməd Bağır Məclisi, “Biharul-Ənvar”, Bayrut, 1413h/q.

21. Əllamə Möhsün əl-Əmin, “Əyanuş-Şiə”, Beyrut, 1983

22. Seyyid Əbülqasim əl-Xoyi, “Möcəmu Ricalil-Hədis”.

23. Fığlalı Ethem Ruhi, “İslam Tarihinde Hasan ve Hüseyn Dönemleri”, Ankara Üniversitesi İlahiyat Fakültesi Dergisi, sayı no: XXVI.

24. Fığlalı Ethem Ruhi, “Hasan”, DİA, XVI, İstanbul 1997.

25. Hacı Fuad Nurullah, “Azərbaycanda İslam və Onun Etiqad əsasları”, Bakı, Nurlar, 2013

26. Heyət, “Hasan ibn Ali”, İslam Alimleri Ansiklopedisi, Türkiye Gazetesi, İstanbul tarixsiz.

27. Heyət, İslam Tarihi Ansiklopedisi, “Hüseyn ibn Ali”, I-X, İhlas matbaacılık.

28. Heytemi Şihabuddin Ahmed ibn Hacer, “Yakıcı Yıldırımlar”, tərc. Hasib Seven, Bedir yayınevi, İstanbul 1990.

29. Əbu Davud Süleyman ibn əl-Əşəs ibn İshaq əl-Əzdi əs-Sicistani, “Sunən”, Darus Salam Səudiyyə Ərəbistanı Krallığı 1999.

30. Güvenç Halil, “Büyük Şafi İlmihali”, Anadolu Yayınları, İstanbul 1998.

31. Heyət, “Kuran Yolu Türkçe Meali ve Tefsiri”, Diyanet İşleri Başkanlığı Yayınları, Ankara 2006, I-IV.

32. Heyət, Ansiklopedik İslam Fıkhı (Fetavayi Hindiyye), (tərc: Mustafa Efe), Huzur Yayınevi, İstanbul t.y, I-XVI.

33. Heyət, Şamil İslam Ansiklopedisi, Şamil Yayınevi, İstanbul 1994, I-VI.

34. Heysəmi Nureddin Ali ibn Ebubekir, “Məcməuz-Zəvaid”, Beyrut 1967.

35. Hicazi Mahmud Muhammed, “Furkan Tefsiri”, İlim Yayınları t.y, I.

36. İbn Yəhya Əbu Mexnəf Lut, “Kərbəla Macərası”, Gənclik Nəşriyyatı 2001.

37. İbn Həcər əl Asqalani Şihabuddin Əhməd ibn Əli, “Fəthul Bari Şərhu Sahihil-Buxari”, Darul Fikr, Beyrut 1996.

38. İbn Mənzur Muhəmməd ibn Mukrim, “Lisan əl-Ərəb”, Darus-Sədr, Beyrut, I-IV.

39. İbn Macə Əbu Abdulla Muhəmməd ibn Yəzid ər-Rabiyy, “Sunən”, Darus-Salam, Səudiyyə Ərəbistanı Krallığı 1999.

40. İbn Abidin, “Reddul-Muhtar”, (tərc. Ahmed Davudoğlu), Şamil Yayınevi, İstanbul 1982, I-XVII

41. İbn Kəsir Əbul-Fida İsmail ibn Ömər, “Hadislerle Kurani Kerim Tefsiri, Çağrı Yayınları, İstanbul 1993, I-XVI.

42. İbn Qəyyum əl Cevziyyə, Əbu Abdillah Şemsuddin Muhammed ibn Əbu Bəkr, “Zadul-Mead”, Qahirə 1950.

43. İbn Əsir Əbul-Həsən Əli ibn Əbil-Kərim, “əl-Kamil fit-Tarix”, Darul-Kutubil-Elmiyyə, Beyrut 1997.

44. İbn Kesir Ebul-Fida İsmayıl ibn Ömər, “Hadislerle Kuranı-Kerim Tefsiri”, tərc. Bekir Karlığa, Bedrettin Çetiner, Çağrı yayınları, İstanbul 1996.

45. İbn Kesir Ebul-Fida İsmayıl ibn Ömər, “el-Bidaye ven-Nihaye”, tərc. Mehmet Keskin Çağrı yayınları, İstanbul 1994.

46. İbn Macə Hafiz Əbi Abdullah Muhəmməd Yezid əl-Ərəbi, “Sunənu İbn Macə”, Darus-Səlam, Riyad 1999.

47. İbn Hənbəl Əhməd ibn Muhəmməd, “Musnədu Əhməd ibn Hənbəl”, Çağrı yayınları, İstanbul 1992.

48. Kadınhani Ahmed ibn Mustafa, “Peyqamberimiz ve Ashabı”, tərc. Mustafa Ayyıldız, Erkam Yayınları, İstanbul, 1985.

49. Kandehlevi M. Yusuf, “Hadislerle Peyqamber və Ashabının Yaşadığı Müslümanlık”, Cümle yayıncılık, İstanbul t.y.

50. Karaca Mevlüt, “Cennet Gençlerinin Efendileri Hasan ve Hüseyn”, Hisar yayın evi, İstanbul 2005.

51. Köksal Mustafa Asım, “İslam Tarihi Hz. Muhammed ve İslamiyet”, Köksal Yayıncılık, İstanbul 1999.

52. Kutluay Abdulaziz, “Siyeru Sahabe”, Kilim Matbaası, İstanbul 2005.

53. Kutub Muhammed Ali, “İslam Kahramanları”, tərc. Ramazan Işık, Hisar yayın evi, İstanbul t. y.

54. Quliyev İbrahim, “Hədisi-Şəriflərdə Müqəddəs Şəhərlərin Tarxi”, Bakı, Nurlar, 2012.

55. Quliyev İbrahim, “Hədisşünaslığın Əsasları”, Bakı, Elm, 2013.

56. Qurbanov Abbas, "İslam Taixi", I-II, İpək yolu nəşriyyatı, Bakı 2009.

57. Qureyşi Seyyid Əli Əkbər, "Kərbəla meydanı", 2000.

58. Ramazanoğlu Mahmud Sami, "Ashabı Kiram", Akyol neşriyat, İzmir t. y.

59. Ramazanoğlu Mahmud Sami, "Həzrət Əliyyul-Mürtəza", İpək yolu nəşriyyat, Bakı 2009.

60. Sakallı Talat, "Hasan ibn Ali ibn Ebu Talib", Şamil İslam Ansiklopedisi, Şamil yayın evi, İstanbul 1990.

61. Saraç Adəm, "Nazənin Güllər Həsən və Hüseyn", İpək yolu nəşriyyatı, Bakı 2009.

62. Təbərani Süleyman ibn Ahmet ibn Eyyub eş-Şami el-Lahmi, "Mucemus-Sağir", tərc. İsmail Mutlu, Mutlu yayıncılık, İstanbul 1996.

63. Təbəri Əbi Cəfər Muhəmməd, "Tarixut-Təbəri Tarixul-Uməm vəl-Muluk", Darul-Kutubil-Elmiyyə, Beyrut, 1997.

64. Tirmizi Əbu İsa Muhəmməd ibn İsa, "Camiut-Tirmizi", Darus-Səlam, Riyad 1999.

65. Yasin Şeyx Razi Ali, "İmam Həsənin Sülhü", tərc. Mirqasım Əliyev, Ülvi Həyat, Bakı 2008.

66. Yüksel Ahmet Turan, "İhtirastan İktidara Kerbela", Yediveren yayınları, Konya 2001.

67. Varol Mehmet Bahaüddin, "Ehli-Beyt Gerçeği", Şamil yayıncılık, İstanbul t.y.

68. Əhməd Muhəmməd ibn Hənbəl, "Musnəd", Çağrı Yayınları, İstanbul 1992.

69. Gazzali Əbu Hamid Muhəmməd ibn Muhəmməd ibn Əhməd, "İhyau Ulumud-din", Tərc: Ahmed Serdaroğlu, Bedir yayın evi, İstanbul 1975, C IV

70. Malik ibn Enes, "Muvatta", Çağrı yayınları, İstanbul 1981.

71. Kutub Seyyid, "Fi-zilalil-Kuran", (tərc. Heyət), Dünya Yayıncılık, İstanbul 1991, I-X.

72. Mevdudi Əbul Ala, "Tefhimul Kuran", (tərc. Heyət), İnsan Yayınları, İstanbul 1996, I-VII.

73. Müslim ibn Həccac əl Quşeyri ən-Neysapuri əbu Hüseyn, "Səhihul-Muslim", Darus Salam Səudiyyə Ərəbistanı Krallığı 1999.

74. Nəim Ahmed, "Sahihi-Buhari muhtasarı və Tecridi Sarih tercümesi", Diyanet İşleri Başkanlığı Yayınları, Ankara 1987.

75. Nəsai Əbi Abdurrahman Əhməd ibn Şüeyb ibn Əli ibn Sinan, "Sunən", Darus Salam Səudiyyə Ərəbistanı Krallığı 1999.

76. Razi Fahruddin, "Tefsiri-Kebir Məfatihul-Ğayb", (tərc. Heyət), Akçağ Yayınları, Ankara 1989, I-XXIII.

77. Sabik Seyyid, "Fıkhus-Sunnə Ayet ve Hadislerle İslam İlmihali ve İslam Hukuku", (tərc. Mehmet Yılmaz), Pınar Yayınları t.y, I-IV.

78. "Tefsiri-Celaleyn", (tərc. Ali Rıza Kaşeli), Fatih Enes Kitabevi Yayınları, İstanbul 1997, I-III.

79. Təbəri Əbu Cəfər ibn Cərir, "Taberi Tefsiri", (tərc. Mehmet Keskin), Ümit Yayıncılık, İstanbul1995, I-XIV.

80. Tirmizi Əbi İsa Muhəmməd ibn İsa ibn Surə ibn Musa, "Sunən", Darus Salam Səudiyyə Ərəbistanı Krallığı 1999.

81. Ünal Ali, "Kuranda Temel Kavramlar", Nil Yayınları, İstanbul 2003.

82. Ülkü Hayati, "Başlangıçtan günümüze İSLAM TARİHİ", I-III, t.s.

83. Ünlü Nuri, "İslam Tarihi (Başlangıştan Osmanlılara kadar)", Marmara Universitesi İlahiyat Fakultesi Vakfı Yayınları, Nu. 51, İstanbul-1997.

84. Vehbi Mehmet, "Büyük Kuran Tefsiri" (Hulasatul Beyan Fi Tefsiril Kuran), Üçdal Neşriyyat t.y, I-XVI.

85. Yüce Hakim, Abdullah, "Şehitlik ve Şehitlerin Hayatı", Nil Yayınları, İstanbul 2001.

86. Şakir Mahmud, "Ademden bu güne İSLAM TARİHİ", Kahraman yayınları, İstanbul-1995.

87. Şərifov Şahlar, "İslam Tarixi", Bakı, Nurlar, 2012.

88. Zəməxşəri İmam Əbu Qasim Muhammed ibn Umeyr ibn Muhammed, "Təfsirul Kəşşaf", Darul Kitabil İlmiyyi, Beyrut 1995, I-IV.

89. Zuhaylı Vehbe, "İslam Fıkhı Ansiklopedisi", (tərc. Heyət), Feza Yayınçılık, İstanbul 1994, I-X.

90. www.ziyababa.org.tr

91.www.odtumezunlari.gen.tr

92. www.alevikonseyi.com

93. www.feyzdergisi.com

94. www.alevibektasi.com

95. www.caferilik.de

**HACI FUAD NURULLAH**

# İMAM HÜSEYN *(ə)*: ŞƏHİDLİK MƏKTƏBİNİN USTADI


Nəşriyyat redaktoru: Suğra OSMANOVA
Texniki redaktor: Rauf KƏRİMLİ
Bədii redaktor: Fəxri VƏLİYEV
Səhifələyici: Hüseyn KƏRİMOV

Yığılmağa verilmişdir: 12.04.2014.
Çapa imzalanmışdır: 24.06.2014
Nəşrin ölçüsü: 60x90 1/16.
Fiziki çap vərəqi: 26,5.
Sifariş: 104/14. Sayı: 1000

NURLAR
NƏŞRİYYAT-POLİQRAFİYA MƏRKƏZİ

Bakı, Az1122, Zərdabi pr. 78 / Tel: 4977021
Faks: 4971295 / E-poçtu: office@nurprint.com